**ISSN 2409-0859**

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 29
(II HİSSƏ)

BAKI – 2022

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 29 (II hissə). Bakı: 2022, 287 s.

**Redaksiya heyəti**

**Rövşən Əli oğlu Cavadov,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Əziz Başir oğlu Məmmədov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**İzzət Əşrəf oğlu Rüstəmov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Zeynəddin Camal oğlu Hacıyev**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Bəxtiyar Həmzə oğlu Əliyev**, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, BDU
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Hikmət Əbdul oğlu Əlizadə**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor,baş redaktor, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

# HUMANİTAR ELMLƏR

## PSİXOLOGİYA

# QORXU HAQQINDA BAŞLICA KONSEPSIYALAR

***Bakıxanova Xavərxanım Ağamehdi qızı***
***khaverbakikhanova@bsu.edu.az***

***Açar sözlər:*** qorxu, nəzəriyyə, şəxsiyyət tipləri, obyekt
***Ключевые слова:*** страх, теория, типы личности, объект
***Keywords:*** fear, theory, personality types, object.

Qorxu - sürətli tənəffüs aktı və gərgin əzələlərlə və digər bu kimi fizioloji amillərlə müşahidə olunan psixikada stress doğuran stimulların təsiri nəticəsində formalaşan böyük yoluxucu təsirə malik psixi reaksiyadır. Qorxunun etiologiyası araşdırılan zaman 3 yaxın mənalı amil əsas hesab olunur: 1. təhlükə və təhlükə ilə bağlı düşüncələrin təsiri nəticəsində yaranan narahatlıq və kədər, 2. mənfi hadisələrin baş vermə ehtimalı nəticəsində formalaşan hislər və 3. real və ya gözlənilən təhlükə ilə bağlı yaranan mənfi emosiyaların təsiri nəticəsində müşahidə olunan fizioloji nüanslar. Bunlara ağız boşluğunun quruması, ürək döyüntüsü və tənəffüs aktının sürətlənməsi və digər qarışıq fizioloji dəyişiklikləri aid etmək olar [4, 50].

Qorxu hissinin etiologiyası haqqında bir çox nəzəriyyələr mövcuddur. Caroll İzard qorxunun yaranma səbəblərini 4 amillə izah edir: 1.Ətraf mühitdə baş verən hadisələr və ya proseslər, 2. İmpluslar, 3. Emosiyalar (qorxu, həyəcan, maraq və s.), 4. İdrak prosesləri (hafizə) [7,48]

Michelle G. Craske və S.Taylor isə qorxunun formalaşma səbəblərini izah edən zaman bu amilləri əsas hesab edir: 1. Genetik amillər, 2. Ətraf mühit, 3. Genetik və ətraf mühit amillərinin qarşılıqlı vəhdəti [9, 206].

Rudolf Bilz genetik ötürülən qorxulara ilk insanın səmadan qorxması ilə müasir insanın fırtınalardan, ildırım və şimşəkdən qorxması ilə əlaqələndirir. Bir çox araşdırmalar sübut edir ki, siçanlar, hörümçəklər qədim dövrlərdə zəhərli növlərinin mövcud olması ilə əlaqədar müasir dövrdə insanlar bu heyvanlardan izah etməkdə çətinlik çəksələr də daha çox qorxurlar. Qədim insanlar qorxu hissinə qarşı mütəffiq özləri yaratdıqları Tanrıları və totemləri hesab edirdilər. Maraqlı nüans ondan ibarətdir ki, digər tərəfdən Tanrılar və totemlər də böyük bir qorxu qaynağı idi [2, 111].

Pierre Mannoni qorxu hissini 2 cür təsnif edir: təbii və fövqəltəbii qorxular [6,17]. Ziqmund Freyd ilk qorxunu doğum anında uşağın anadan ayrılması zamanı yaşanan narahatlıq hesab edir.

E.H.Robinson 0-14 yaş arası şəxslərlə apardığı araşdırmalar zamanı hər yaşın spesifik qorxuları olduğu haqqında konsepsiya irəli sürmüşdür: 0-6 ay - yüksək səslər, qəfil hərkərlər, dəstəyin itirilməsi. 7-12 ay - böyük obyektlərin qəfil görülməsi, yad insanlar, uca səslər. 1 yaş – Xəsarət alma, zədə, valideynlər və yad insanlar, tualet vərdişi. 2 yaş – şəxsi məkanda ani dəyişikliklər, böyük obyektlər və aparatlar, qaranlıq məkan, böyük heyvanlar, uca səslər. 3 yaş – Valideyndən ayrılma, ilanlar, maskalar, qaranlıq məkan və böyük heyvanlar. 4 yaş – Səs-küylü gecələr və 3 yaşda müşahidə olunan qorxular. 5 yaş – Qaranlıq , təhlükəli insanlar, yırtıcı heyvanlar, valideynlərdən ayrılma, xəsarət almaq. 6 yaş – İldırım və şimşək, ruhlar, qaranlıq, tək qalmaq. 7 yaş – Tək qalmaq, canavarlar, itmək, oğurlanmaq, qaranlıq, təbii fəlakətlər. 8 yaş – Silahlar və ya bombalar, oğrular, quldurlar, insan alverçiləri, qaranlıq. 9 yaş – qorxulu yuxular, qəzalar, itmək, qaranlıq, tək qalmaq. 10 yaş – Cəzalandırılma, qaranlıq, qorxulu yuxular, yad

insanlar. 11 və 12 yaş – Xəstələnmək, ev tapşırıqları xüsusilə testlər, qiymətləndirilmə, qaranlıq, zədələnmək, qorxulu yuxular. 13 yaş – Müharibə, ümumi olaraq cəzalar, yaralanmaq və ya oğurlanmaq, aşağı qiymətləndirilmək. 14 yaş – Təhsil həyatında uğursuzluqlar, şəxsi münasibətlər, müharibə, cinsi problemlər hamiləlik və AİDS, ailəvi problemlər [8, 192].

E.H.Robinson qeyd edir ki, qorxulara qarşı uşaqlar müttəfiq axtarır ki, nəticədə həmin şəxslər qorxuya nüfuz edə və onu neytrallaşdıra bilir. Nümunə olaraq ailə üzvləri, müəllim, ev heyvanı, dini inancları və hətta cansız obyektləri də uşaqlar mütəffiq olaraq seçə bilərlər [8,192].

Karen Horney irəli sürdüyü konsepsiyanında bildirir ki, qorxu zamanı aqressiv davranışlar geniş müşahidə olunur. Bunun səbəbi isə inam hissini itirməməkdir. Karen Horney narahatlıqla mübarizədə 3 nevrotik şəxsiyyət tipinin təsnifatını vermişdir:

1.İtaətkar tip/ İnsanlara istiqamətlənmək: İtaətkar şəxsiyyət tipinə uyğun olan insanlar təhlükə anında qorxduqlarını qəbul edərək güvəndə hiss edə biləcəkləri insanlara və ya qruplara istiqamətlənirlər və onların sevgisini qazanmağa çalışırlar. Lakin çox vaxt qarşı tərəf bunu yük kimi qəbul etdiyi müşahidə olunur. İtaətkar tip üçün rədd edilmək çox ağırdır və buna görə hörmət qazanmaq üçün ümidsiz şəkildə qarşı tərəfin sevgisini qazanmağa çalışırlar [7,51].

2. Təcavüzkar tip/ İnsanlara qarşı olmaq: Təcavüzkar şəxsiyyət tipinə mənsub insanlar həyatı amansız bir mübarizə yeri hesab edirlər. Əksər hallarda düşüncələrini nəzakat və xoş rəftarları ilə gizlətməyə çalışsalar da hər kəsi özlərinə düşmən hesab edirlər. Bu tip şəxslər öz mənfəətləri üçün başqalarından istifadə etməkdən çəkinməzlər. Təcavüzkar şəxsiyyət tipinə mənsub insanlar onlara qarşı olan münasibətdən asılı olmayaraq ətrafdakı şəxslərə ziyan verərlər. Onların düşüncələrində etdikləri hər şey məntiqlidir, qəddarlığı güc, hörmətsizliyi dürüstlük hesab edirlər [7,51].

3. İzolyasion tip/ İnsanlardan uzaqlaşmaq: İzolyasion şəxsiyyət tipinə uyğun olan şəxslər baş verə biləcək mənfi situasiyaların qarşısını ala bilmək üçün insanlarla olan münasibətinə mümkün qədər sərhəd qoyar. Özünə inamı əsas hesab edərək narahatlığı azaldar. Bu şəxslərdə insanlarla ünsiyyət zamanı ciddi stress müşahidə olunur [7,52].

Qorxu hissi ilk insan tipinin yaranmasından günümüzə qədər müşahidə olunan və öz aktuallığını qoruyub sağlamağı bacaran bir anlayışdır. Müasir dövrdə də qorxu hissinə yanaşmalar bir mənalı deyil. Frank Furedi qeyd edir ki, qorxunun yayılması bir başa olaraq medya ilə əlaqədardır və yaşadığımız dövrdə "Qorxu mədəniyyəti"nin aparıcı olduğunu müdafiə edir. Buna səbəb isə reallıqla virtual aləm arasında sərhəddin qeyri-müəyyən hal alması ilə əlaqələndirir və fikrini bu cür izah edir: Çoxlu sayda təhlükəsizlik tədbirləri müşahidə olunsa da insanlar özlərini təhlükəsizlikdə hiss etmir [3, 9].

Dieter Duhm isə müasir qorxuları bir başa olaraq kapitalizmlə əlaqələndirir və bu barədə "Kapitalizmdə qorxu" adlı kitabın müəllifidir. Kapitalizmin əsas anlayışları olan rəqabət, hökmranlıq, uğur, yadlaşma və s. qorxu mənbəyi kimi izahını verir. Nümunə olaraq kapitalizmdə insanlar sahib olduqları əşyalara görə rəqabət aparırlar. Bu rəqabət bir məsafə, yadlaşma və qarşı tərəfi düşmən olaraq qiymətləndirməyə şərait yaradır. Bununla əlaqədar kapitalizmin əsas anlayışlarından olan yadlaşma qorxu hissinin formalaşmasına zəmin yaradar. Eyni zamanda uğur anlayışı da müqayisə ilə dəyərləndirildiyi üçün qorxu hissinin yaranmasına şərait yaradır [1, 7].

Jiddu Krishnamurti qeyd edir ki, şəxsin özünü bir başqası ilə müqayisəsi qorxunun formalaşmasına təsir edən ən böyük amildir. Çünki müqayisə etdiyi şəxs kimi ola bilməmə qorxusu formalaşdırır. Bu isə cəmiyyət tərəfindən tanınma, arzulanma, hörmət və güc əldə etmənin gətirəcəyi amillərlə əlaqədardır. Bu qorxu isə sonda "heç kimsə ola bilməmə qorxusu" ilə nəticələnə bilər [5,13 ].

Qorxu haqqında başlıca konsepsiyalar araşdırılan zaman məlum olur ki, E.H.Robinsonun qeyd etdiyi kimi qorxunun obyektləri oxşarlıq təşkil etsə də ona qarşı həyata keçirilən

strategiyalar müxtəlifdir. Strategiyanın uğurlu və ya uğursuz olmasından asılı olaraq insanlarda inam, müsbət davranışlar və ya daha çox qorxu, uyğunsuz davranışlar formalaşır [8,192].

## ƏDƏBİYYAT

1. Duhm D. Kapitalizmde Korku. Ankara: Ayraç Yayınevi, 1996, 7-11 s.
2.Bilz R. Kaygı Yaşantısındaki Özne Merkezcilik. Korku ve Kaygı: Tartışma, 1991, 108–121 s
3. Furedi F. Korku Kültürü. İstanbul: Ayrıntı Yayınları, 2001, 8-11 s
4. Kabakçı G.Z. Eğitimli kadınların gündelik hayatının kuşatan korkular. İletişim araştırmaları: 10(1-2), 2012, 47-76 s
5. Krishnamurti J. Korku Üzerine. İstanbul: Ayna Yayınevi, 2001, 12-15 s
6. Mannoni P. Korku. İstanbul: İletişim Yayınlar, 1992, 75-77 s
7. Özpolat A.Korku kaynağı erkek ve eril korku biçimleri ışığında toplumsal cinsiyet oluşumu ve masal ilişkisi (Umay Günay Derlemesi Elaziğ Masalı Örneği) Fırat Üniversitesi Harput Araştırmaları Dergisi (FÜHAD) Cilt: 8, Sayı: 16, Eylül 2021, ISSN: 2148-2527, 45-78 s
8. Robinson E.H., Rotter J.C., Fey M., Robinson S.L.Children’s Fear: Toward a Preventive Model. School Counselor. 38, (3), 1991, 187-202 s
9. Taylor S.The Hierarchic Structure of Fears. Behaviour Research and Therapy , 36, 1998, 205-214 s

## QORXU HAQQINDA BAŞLICA KONSEPSİYALAR

***Bakıxanova Xavərxanım***

### XÜLASƏ

Məqalədə qədim dövrlərdən bu günə qədər öz aktuallığını qoruyub saxlayan qorxu haqqında başlıca konsepsiyalar araşdırılmışdır. Araşdırmalar sübut edir ki, qorxunun obyektləri oxşarlıq təşkil edir. Ona olan münasibət isə strategiyamızdan asılıdır.

## ОСНОВНЫЕ ПОНЯТИЯ О СТРАХЕ

***Бакиханова Хаверханим***

### АННОТАЦИЯ

В статье рассматриваются основные концепции страха, оставшиеся актуальными с древних времен. Исследования показывают, что объекты страха схожи. Отношение к ней зависит от нашей стратегии.

## BASIC CONCEPTS ABOUT FEAR

***Bakikhanova Khaverkhanim***

### SUMMARY

The article examines the main concepts of fear, which have remained relevant since ancient times. Studies show that the objects of fear are similar. The attitude to it depends on our strategy.

# AİLƏDAXİLİ KONFİLİKTLƏR VƏ ARADAN QALDIRILMASI YOLLARI

***dos.Elnarə Piriyeva***
***BDU-nun Psixologiya fakültəsi***
***Paşayeva Ayşən İntiqam qızı***
***BDU-nun II kurs magistrantı***
***aysenpasayeva2@gmail.com***

***Açar sözlər:*** ailə, ailə münasibətləri, ailədaxili konfiliktlər, konfiliktlərin həlli
***Ключевые слова:*** семья, семейные отношения, семейные конфликты, решение конфликта
***Key words***: family, family relations, family confilicts, solutions of confilicts.

Ailə probleminin son dövrlərdə daha da kəskinləşməsi sosiologiya, demoqrafiya, psixologiya, tibb və digər elmlər qarşısında yeni vəzifələr qoyur. Müasir dövrdə sosial-iqtisadi şəraitin dəyişməsi fonunda ailə öz mənəvi köklərini saxlamaqla yanaşı dəyişən həyat şəraitinə də uyğunlaşmağa çalışır. Bunu isə heç də bütün ailələr uğurla həyata keçirə bilmir. Nəticədə problemlər artır, onların həlli isə çətinləşir, bəzən isə hətta mümkün olmur.

Ailədə insanlar arasındakı münasibətlər həm də insan amili ilə bağlı olan bütün digər sahələrdəki qarşılıqlı münasibətlərdən özlərinin davamlılığı və dərinliyinə görə fərqlənir. Ailə cəmiyyətin ilkin əsası, hər bir fərdin mövcudluğunun zəruri sosial şərti, ər-arvad ittifaqına və qohumluq əlaqələrinə, valideynlərlə uşaqlar, bacı və qardaşlar və digər birlikdə yaşayan qohumlarla məişət və təsərrüfat ümumiliyinə malik sosial sistem, qapalı kiçik sosial qrupdur. Beynəlxalq statistikaya əsasən, Yer kürəsi əhalisinin 88,4%-i ailə həyat tərzində yaşayır.

Əgər əvvəllər ailəni tədqiq edən elmlər sadəcə ailəni, onun fenomenologiyasını, qanunauyğunluqlarını və inkişaf mexanizmlərini öyrənirdisə, indiki dövrdə ailə münaqişələri, bu münaqişələrin istər münaqişə edən tərəflərə, istərsə də bu cür ailələrdə böyüyən, tərbiyə alan uşaqlara göstərdiyi təsirlərin öyrənilməsi ilə məşğuldur. Bununla bağlı aparılan psixoloji tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir.

Ailənin mahiyyəti onun funksiyalarında və ailə üzvlərinin rol davranışında əks olunur. Ailə üzvlərinin müəyyən həyati vacib tələbatlarının təmin edilməsi ilə bağlı öhdəlikləri, onların yerinə yetirilməsi ilə şərtlənən həyat və fəaliyyəti kimi onun funksiyaları davamlı xarakter kəsb edir və təkrarlanan tələbatlarla üzvü şəkildə əlaqəlidir. Ailənin strukturu ailə sisteminin elementlərini və onlar arasındakı qarşılıqlı əlaqələrin məcmuyunu əks etdirir. O, ailə rollarının differensiallaşmış məcmuyu kimi bir sıra alt sistemlərdən (fərdi alt sistem, ər-arvad alt sistemi, valideyn alt sistemi, sibilinq (qardaş-bacı, qardaş-qardaş, bacı-bacı), həmçinin övlad-valideyn alt sistemindən ibarət olub, onun topoqrafik modelini əks etdirir.

Sağlam, düzgün münasibət sağlam formalaşmış gələcək deməkdir. Təəssüf olsun ki, bəzi vaxtlarda ailədaxili münasibətlərin nizamsızlığı uşaqların taleyində kədərli izlər buraxır. Ailədaxili münasibətlər əsasən ata və ananın ailədəki rolu və münasibəti ilə şərtlənir. Bu münasibətlər həm ailənin möhkəmliyinə, həm də uşaqların tərbiyəsinə xüsusi təsir göstərir. Uşaqların ilk sosiallaşması ailədə başladığı üçün əsas tərbiyə məktəbi də ata və ana arasındakı qarşılıqlı münasibətdir. Ailədə tərəflərin əsas, başlıca rolu bir-birini qavramaq və anlamaqdır.Ailənin gələcək planlarını qurmaq üçün bu amillər vacibdir. Uşaqların şəxsiyyətinin formalaşmasında, psixi inkişafında, ətradakılarla rəftar və davranışında valideyn-övlad münasibətləri mühüm rol oynaır. Bu münasibətlər uşağın öz yerini, ailədəki rolunu müəyyənləşdirməkdə və özünü dərk etməsində qabiliyyyət və bacarıqlarını inkişaf etdirməkdə

önəmlidir. Tərbiyə prosesində valideynlər arasında fikir ayrılığı olmamalı, ata-ana uşağın yanında heç vaxt mübahisə etməməli, bir-birinin plan və fikirlərinə tənqidi yanaşmamalıdır.

Araşdırmalar göstərir ki,şəxsiyyətlərarası konfiliktlər daha çox ailədə baş verir.Ailənin hər bir üzvü özünün həyata olan baxışları və özünə xas ideyaları ilə yaşamaq istəyəndə, "özününkü yaxşıdır"-düşünür və digər yaxınlarını da buna inandırmağa çalışır. Bəzən "razılaşmama" halları ailədə münaqişələrə və zorakılıqlara yol açır. Bu,daha çox ər-arvad, valideynlə uşaq arasında baş verir. Cütlüyün müəyyən savada-biliyə və vahid baxışlara malik olmaması, cəhalət bu səbəblərə təsir edir. Qədim yunan filosofu Sokrat deyib ki,ən yaxşı ailə-arvadın kor,ərin kar olduğu yerdir. Belə olarsa umu-küsülərə də yer qalmır və yaxud "Biri od olanda, digəri su olmalıdır" atalar məsəlinə hörmətlə, adət-ənənələrə uyğun yanaşılmalıdır.

Ailədaxili münaqişələr ailə münasibətlərinin müxtəlif təzahürləri içərisində özünəməxsus yer tutur. Ailədaxili münaqişələri təhlil etmək üçün ilk növbədə bu münaqişənin psixoloji mahiyyətini, ona təsir edən amilləri aydınlaşdırmaq lazımdır. Məlumdur ki, münaqişə qarşılıqlı təsir subyektlərinin əks istiqamətli, yəni bir-birinə zidd olan məqsədlərinin, meyillərinin, fikirlərinin toqquşmasıdır. Deməli, hər hansı münaqişənin əsasında ya tərəflərin bu və ya digər məsələ üzrə əks, zidd mövqelərinin olması şəraiti durur, ya da münaqişə əks məqsədlərin bir-birinə uyğun gəlməməsi zəminində baş verir.

Son dövrlərdə pedaqoji və demoqrafik ədəbiyyatlarda Azərbaycan ailələrində boşanmaların və böhranların səbəbləri geniş təhlil olunsa da, pedaqoji-psixoloji baxımdan problem geniş diapozonda tədqiq olunmamışdır. Eləcə də, boşanmaların regional səbəbləri lazımi qədər diqqət mərkəzinə gətirilməmişdir.

Boşanmaya məruz qalmış aillərin təhsil səviyyəsi də diqqəti çəkmişdir: boşananlardan 39,7% - ali təhsilə, 34,4% - orta ixtisas təhsilinə, 13,4% - orta təhsilə, 9,4% - isə natamam təhsilə malik olmuşlar 2,6% - orta natamam təhsil, 0,7% - isə elmi dərəcəyə malik olmuşdur. Bəzi tədqiaqatlar göstərir ki, boşanmaların fərqli təzahürləri daha çox "xasiyyətimiz tutmadı" fikri üzərində qurulub. Buradan belə qənaətə gəlmək olar ki, ailənin dağılmasının subyektiv motivasiyası boşanmanın problematikasını aydınlaşdırmağa imkan verir

Konflikt şəraiti insanda emosional böhran halətləri yaratmaqla yanaşı rəftar və davranışın tənziminə, idrak fəaliyyətinin intensivliyi və məhsuldarlığına mənfi təsir göstərir. Ona görə də belə güman etmək olmaz ki, ailədaxili münaqişlərdə iştirak edən bu və ya digər tərəf udur, qazanır, digər tərəf isə yalnız uduzur və ya itirir. Əslində isə ziyan hər iki tərəfə dəyir. Burada söhbət hansı tərəfin çox əzab çəkməsindən (emosional səviyyədə), yaxud özünü itirməsindən (rəftar və davranış səviyyəsində), hadisələri adekvat qiymətləndirə bilməməsindən (qnostik səviyyədə) gedə bilər. Əslində münaqişə iştirakçılarının hamısı bu və ya digər mənəvi və psixoloji əzaba düçar olur.

Tədqiqatlarda ailədaxili münaqişələri, xüsusilə ər-arvad münaqişələrini təhlil edən

İ.F.Yunda və L.İ.Funda maraqlı faktlar göstərmişlər. Müəlliflərin fikrincə nigahda öz vərdişləri, anlayışları, təsəvvürləri ilə iki fərd birləşir. Onların bir tam kimi birləşməsi çox vaxt asan başa gəlmir. Müxtəlif şərtlərdə uyğunlaşma dövrü evlilikdən əvvəl tanış və ya yaxın olmuş cütlüklərdə digərlərinə nisbətən daha tez-tez baş verir. Başqa sözlə, birgə yaşayış müəyyən səviyyədə evlilikdən öncəki dövrlə bağlı olur.

Ailədə münaqişəli, konfiliktli situasiyalar yarandığı kimi onları aradan qaldırmaq yolları da müəyyən olunmalıdır. Bəs bu münaqişə şəraitini necə aradan qaldırmaq olar?

Mütəxəssislərin fikrincə, bunun üçün ilk növbədə ər-arvad münasibətləri mədəniyyəti bir-birinə hörmətdən, səmimi münasibətdən, qarşılıqlı etimaddan, bir-birin qayğısına qalmağı bacarmaqdan, fikir və hissləri qarşılıqlı etimad tərzində bölüşdürmək, yeri gələndə, birini digərinə qarşılıqlı güzəştə getməyindən, ağıllı, təmkinli yaşayışdan yaranır. Ailə mədəniyyətində

böyük-kiçik məsələ yoxdur. Əsasında kiçik sayılan məsələni böyütmək, ciddi münaqişə səviyyəsinə çatdırmaq, yaxud böyük münaqişələri səbr və təmkinlə həll etmək mümkündür. Buna görə də cavanlar öz ailələrinin tamlığını qorumaq üçün, ilk növbədə cəmiyyət qarşısında ciddi məsuliyyət daşıdıqlarını dərk etməlidirlər. Ona görə ki, nikahın əsasını məhəbbət hissi ilə borc və məsuliyyət hisslərinin vəhdəti təşkil edir.

Ailə üzvləri arasında meydana çıxan münaqişələri, bu səbəbdən kiminsə xəstələnmə hallarını aradan qaldırmaq məqsədilə Ailə psixoterapiyasından istifadə olunur. İlk dəfə N.Akerman (1966) tərəfindən təklif edilən ailə psixoterapiyasının başlıca məqsədləri aşağıdakılardır:

1.Ailə üzvləri arasında patoloji konfiliktlərin, həyəcan yaradan amillərin aradan qaldırılmasına nail olmaq;

2.Ailənin bütün üzvlərinin bir -birinin mənəvi, iqtisadi və digər tələblərinin başa düşulməsində onlara yardım göstərmək;

3.Ailənin müxtəlif üzvləri (valideynlərlə övladlar, kişilərlə qadınlar) arasında normal münasibətlərin bərpa edilməsinə hər kəsin öz mövqeyini düzgün başa düşüb ona əməl etməsinə şərait yaratmaq;

4.Ailədəki konfliktlərin ciddi nəticə verəcəyini ailə üzvlərinə başa salmaqla onların qarşısının alınması yollarını tapmaqda onlaraq kömək etmək;

5.Ailə üzvlərinin sağlam ruhda, qarşılıqlı hörmət əsasında yaşamaq qabiliyyətinin ailənin ən yüksək amilinin olmasını onlara anlatmaq. Ailə psixoterapiyası həftədə 1 dəfə, hər seans üçün müddəti isə 1.5-2 saatdan az olmamalıdır. Bir cox hallarda, müalicənin məqsədlərinə cəmi 2-3 seansda nail olmaq mümkündür.

Uşaqların yanında mübahisə açmamaq, açıq söhbət üçün münasib vaxt tapmaq, səmimi olmaq, həyat yoldaşının etiraz və iradalarına diqqətlə qulaq asmaq, onun bütün fikirlərini aydınlaşdırmaq, mübahisəli məsələləri ağıllı surətdə həll etmək, həmişə xeyirxah mövqe tutmaq vacibdir. Bu gün sosioloqlar və psixoloqlar ailə ixtilafları məsələlərindən danışarkən diqqəti hətta “küsmək mədəniyyətinin” əhəmiyyətinə yönəldirlər.

Ailə baş vermiş xırda məsələləri unutmaq, yaddan çıxarmaq zəruridir. Münaqişə baş verdikdə çalışmaq lazımdır ki, ər-arvad bir-birinə həyat yoldaşı, övladının atası və anası kimi rəftar etsin, insanlıq ləyaqəti və nüfuzu ilə hesablaşması, xırdalanıb kiçilməsin, həmişə cəmiyyətin, ailənin və uşaqların mənafeyini nəzərə alsın. Bu, əsl insan hünəridir.

Konfiliktlər ər-arvad həyatının dramatik tərəfidir, lakin bunu faciəyə çevirmək olmaz. Bunun üçün ailə mədəniyyətinin tələblərinə riayət etmək lazımdır. Onların ən sadələri: dava-dalaş salmaqdansa, artıq-əskik danışaraq bir-birlərini təhqir edib davanı bitirməkdənsə mübahisəyə əvvəldən başlamamaq daha yaxşıdır.

Ər və ya arvad mübahisə vaxdı səsini yüksəltməməli, əksinə mübahisə mürəkkəbləşdikcə səslərini yumşaltmalı, sözünü sakit və nəzakətlə çatdırmalıdır.

Barışmağı öyrənmək lazımdır. Onun da öz vaxdı olduğu üçün küsüb bir kənarda oturmaq deyil, ailənin ümumi qayğılarına qoşulmaq lazımdır. Bəzi şeyləri uşağın adından demək ( qızım, indi anan süfrə açacaq yemək yeyək), özünün günahkar olduğunu birinci etiraf etməyə çalışmaq, bir neçə gündən sonra narazılığın köklərini sakit şəraitdə araşdırmaq lazımdır.

Ailədə əlverişli psixoloji iqlimin yaranması öz-özünə baş vermir. O, cəmiyyət qarşısında, ailəsi- uşaqları, həyat yoldaşları qarşısında məsuliyyət və borcunu düzgün başa düşən ağıllı, həssas ər və arvadın, ata və ananın gündəlik səyi ilə yaranır. Bu cəhətdən onlar öz ailə dramının nəinki müəllifləri, həm də aktyorlarıdır. Ər və arvad, ata və ana özlərinin müdrik və nəcib insan olduqlarını bu ailə rolları vasitəsilə göstərməlidirlər.

Ailənin mənəvi həyatında qaynana və qaynata, bəy və gəlinin digər qohumları mühüm rol oynayır. Onlar nəinki ər və arvadın münasibətlərində rol oynayır, hətta ət-arvad münaqişəsinə də təsir edirlər. Bəzən elə olur ki, gənc ailənin taleyində əhəmiyyətli dərəcədə dönüş yarada bilirlər. Gəlin-qaynana münasibətləri ailə həyatı, xüsusən də əksər Azərbaycan ailələri üçün böyük aktuallıq kəsb edir. Bu münasibətlər ilk baxışda sadə görünsə də, əslində çox mürəkkəb, yozulmaz və təhlili çətin bir məsələdir. Bir-birini sevən iki gəncin qovuşması böyük xoşbəxtlik doğurur, lakin bu tam ailə demək deyildir. Ailə övladlar dünyaya gəldikdən sonra tamamlanır.

Konfiliktli ailədə böyüyən uşaqların aldığı psixoloji zərbə gələcək həyatında əvəzsiz rol oynayır. Belə uşaqlar yaşadıqlarına nisbətən özünəinamsız, qorxaq, əsəbi, aqressiv, nevroz olur. Onlar özünügünahlandırmaya özünüqapanmaya, depressiyaya meyilli olurlar. İngilis və amerikalı elm adamlarının apardıqları araşdırmalardan məlum olmuşdur ki, konfiliktli ailələrdə böyüyən uşaqların zəkası normal ailə və şəraitdə böyüyən uşaqların zəka səviyyəsindən 8 bal aşağı olur. Mütəxəssislər zəka səviyyəsindəki 8 ballıq fərqin bir uşağın yaşıdlarından boyca 6 santimetr qısa olmasına gətirib çıxardığını bildirmişlər.

Ümumiyyətlə, ailə daxilində baş verən problem və konfiliktlər nəinki ər-arvad arasında, həmçinin valideynlərlə uşaqlar, ailə üzvləri ilə digər qohum-əqraba arasında soyuqluq yaradır. Ailə daxilində münasibətlərin pozulması şəxsin həm də təhsil, iş və sosial həyatında da nizamsızlıqlara yol açır. Odur ki, ailə quran tərəflər ilk öncə öz, sonra isə bir-birilərinin maraqlarını, xasiyyətini, istəklərini, gözləntilərini dərk etməlidirlər. Belə olan halda konfiliktli situasiyaların yaranmasının sayı azalır, yarandıqda belə tərəflərin şəxsi təşəbbüsü ilə asanlıqla aradan qaldırıla bilir. Ailə məsuliyyətini tam dərk etmək, qarşılıqlı ehtiyac və tələbatları ödəmək, qarşılıqlı empatiya hissi münasbətlərin möhkəmlənməsinə, ailə bağlarının güclənməsinə səbəb olur.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə / IX sinif şagirdləri üçün dərslik. B:, Maarif, 1989.
2. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı: “Mütərcim”, 2015.
3. Quliyev H.A. Məişətimizdə adət və ənənələr. Bakı: Azərnəşr, 1976, 129 s.

4. Эйдемиллер Э., Юстицкис В. Психология и психотерапия семьи. 4-е издание. М.: «Питер», 2009.
5. Önel, Nursun,İş-aile çatışmasının çalışan kadının aile içi ilişkileri üzerine etkileri, 2006, www.handle.net
6. Андреева Г.А. Социальная психология. - М.: Изд-во МГУ, 2006
7. Азаров Ю.П. Семейная педагогика. - 2-е изд., перераб. и доп. - М.: Инфра, 2008


## AİLƏDAXİLİ KONFİLİKTLƏR VƏ ARADAN QALDIRILMASI YOLLARI

***Ayşən Paşayeva***

### XÜLASƏ

Ailə cəmiyyətdə ən kiçik sosial qruplardan biridir. Şəxsin ilkin dünyaya göz açdığı, ibtidai tərbiyəsini aldığı və ətraf mühitə münasibətinin formalaşdığı kiçik təşkilatdır. Təbii ki, istənilən ailədə müəyyən konfiliktlər baş verə bilir. Bu məqalə ailə üzvləri arasındakı münasibətlərdən, tərəflər arasında konfiliktlərin baş vermə səbəblərindən və onların aradan qaldırılma yollarından bəhs edir.

# СЕМЕЙНЫЕ КОНФЛИКТЫ И СПОСОБЫ УСТРАНЕНИЯ

***Айшан Пашайева***

**АННОТАЦИЯ**

Семья – одна из самых малочисленных социальных групп в обществе. Это небольшая организация, где человек открывает глаза на первый мир, получает начальное образование и формирует свое отношение к окружающей среде. Конечно, определенные конфликты могут возникнуть в любой семье. В данной статье рассматриваются отношения между членами семьи, причины конфликтов между сторонами и пути их разрешения.

# FAMILY CONFLICTS AND WAYS TO ELIMINATE

***Ayshan Pashayeva***

**SUMMARY**

Family is one of the smallest social groups in society. It is a small organization where a person opens his eyes to the first world, receives his primary education and forms his attitude to the environment. Of course, certain conflicts can occur in any family. This article discusses the relationship between family members, the causes of conflicts between the parties, and ways to resolve them.

# YUXARI SİNİF ŞAGİRDLƏRİNİN PROFESSİONAL PEŞƏ SEÇMƏ ZAMANI FƏRDİ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Ələkbərli Ayişə Cahid qızı***
***BDU-nun II kurs magistrantı***
***ayshe.elekberli@gmail.com***

***Açar sözlər:*** yuxarı sinif şagirdləri, peşə seçimi, konsultasiya, psixoloji, xüsusiyyət.
***Ключевые слова:*** старшеклассники, выбор профессии, консультирование, психологическое, особенность.
***Key words:*** upper class students, choice of art, counseling, psychological, feature.

Müasir mərhələdə cəmiyyətimizin yaşadığı sosial-iqtisadi proseslər insan həyatının bir çox sahələrində, ilk növbədə təhsil sahəsində dəyişikliklərə təkan verdi. Şagirdlərə əmək məhəbbəti aşılamaq, onları düzgün peşə seçiminə yönəltmək ümumtəhsil məktəbinin əsas vəzifələrindəndir. Yuxarı sinif şagirdlərindən fəal olmaq, uyğunlaşa bilmək, təkcə özünə deyil, həm də həyata münasibətini müəyyən etmək tələb olunur. O, həyat və peşəkar planlar qurmağı, qərar qəbul etməyi, gələcək peşə seçimində məsuliyyət daşımağı bacarmalıdır.

Sosial fəal şəxsiyyətin formalaşması istehsala, istehlaka, sosial proseslərə subyektiv münasibətləri ilə çoxsəviyyəli dinamik sistemdir. Bu münasibətlərin əsası təhsil prosesinin intensivləşməsi şərti ilə məktəbdə qoyulmalıdır, çünki alınan məlumatların həddindən artıq çox olması şərtdir. Şagirdlər tərəfindən onu təsnif etmək üçün onları maarifləndirməyi zəruri edir. Sistemləşdirmək, bütün detalları mənimsəmək və məntiqi təfəkkürün aktivləşməsinə kömək edəcək aparıcı xətti vurğulamaq və nəticədə, bütün psixoloji fəaliyyətin aktivləşdirilməsi anlayışı fəaliyyət arzusu kimi qəbul etmədikdə, sonra onun sosial rənglənməsi azalır [2, s.103]. Amma məqaləmizdə söhbət şagirdin cəmiyyətin bir üzvü kimi şəxsiyyətinin formalaşmasından getdiyi üçün onun bütün psixoloji fəaliyyətinin aktivləşməsi insan həyatının bütün sahələrini əhatə edən bu cür hərəkətlərin ən yüksək dərəcəsini ideal şəkildə təmsil etməlidir. Belə ki, yuxarı sinif şagirdinin sosial fəaliyyəti məqsədyönlü təhsil prosesinin nəticəsidir ki, onun yekun ifadəsi ona adekvat sosial dəyərli motivləri olan konkret, sosial əhəmiyyətli yaradıcılıq fəaliyyəti olacaqdır.

Şagird şəxsiyyətinin sosial fəaliyyətinin formalaşmasının psixoloji aspektinin məzmununu müəyyən etmək, fərdi, onu idarə etmək və onu daha da təkmilləşdirmək üçün bu fəaliyyətin təbii meyllərinə təsir göstərməyin müxtəlif yollarının psixoloji əsaslarını və mexanizmlərini təhlil etmək mühüm əhəmiyyət kəsb edir. Beləliklə, yuxarı şagirdinin sosial fəaliyyətinin psixoloji aspekti daha da inkişaf etdiriləcəkdir. Fəaliyyətinin xarici zərurətdən daxili tələbata çevrilməsi istiqamətində ifadə edilir. Aparılan tədqiqatlar müəyyən edilmiş xüsusiyyətlərə (təşəbbüs, müstəqillik, yaradıcılıq) görə yuxarı sinif şagirdlərinin sosial fəaliyyətinin dörd səviyyəsini müəyyən etməyə imkan verdi.

1) Fəaliyyət istəyi kimi şəxsiyyət fəaliyyəti - müəllimin tövsiyələrinin vicdanla yerinə yetirilməsi, lakin öz təşəbbüsü, müstəqilliyi və daha da yaradıcılığı olmadan;

2) Təşəbbüslə və ya təşəbbüssüz, lakin fəaliyyətə yaradıcı yanaşma olmadan fəaliyyət və müstəqilliyin birləşməsi;

3) Kompleksdə bütün bu xüsusiyyətlərin birləşməsi;

4) Tədris təsirinə passivlik [3, s.26].

Beləliklə, sosial aktiv şəxsiyyətin psixoloji aspektinin mahiyyəti belədir:

- şəxsin sosiallaşması özünün psixoloji yeni törəmələrinə görə mürəkkəb, uzun müddət davam edən və multifaktorial korreksiyaya məruz qalan prosesdir. Bu prosesdə bioloji və sosial olanın nisbəti cəmiyyətin əxlaqi prinsiplərinə uyğun olaraq qarşılıqlı əlaqədə olmalıdır;

- sosial fəaliyyət "fərdi-şəxsiyyət" sisteminin optimal həyata keçirilməsinə kömək edən effektiv fərdi psixoloji amildir [4, s.316].

Sosial fəal şəxsiyyətin formalaşması prosesində onun aşağıdakı funksional parametrlərini ayırd etmək olar:

1) İctimai fəal insan insanın ictimai fəaliyyətinin nəticəsidir;

2) Sosial fəal şəxsiyyət tərbiyənin həyata keçirmə amilidir, onun prosesində sosial dəyər yönümlülük və sosial əhəmiyyətli motivlər formalaşır;

3) Sosial fəaliyyət kollektivdə sağlam şəxsiyyətlərarası münasibətlərin qurulmasına töhfə verən vasitə, şəxsiyyətin düzgün formalaşmasının şərtlərindən biridir [4, s.318].

Bu funksional parametrlər üzrə müəllim heyətinin dəstəyi bu sosial təhsilin formalaşmasının idarə edilməsinin təşkilinə kömək edəcəkdir. Bu baxımdan məktəb psixoloqu qarşısında yuxarı sinif şagirdlərində peşə seçərkən sosial fəal şəxsiyyətin formalaşması probleminin psixoloji aspektini müəyyən etmək vəzifəsi durur. Orta məktəb şagirdlərinin təşəbbüskarlığının və ictimai fəaliyyətlərinin müstəqilliyinin artırılmasına diqqət yetirən pedaqoji kollektivlər problemə yetərincə elmi yanaşma olmadığından istənilən effekti almırlar. Xüsusilə, bu və ya digər şəkildə şagirdlərin fəaliyyəti ilə bağlı psixoloji mexanizmlərin təhlilinə az diqqət yetirilir. Nəticədə, müəllimlərin fəaliyyətinə təsir etmək istəyinə cavab olaraq şagirdlərin laqeydliyi və ya fəaliyyət arzuolunmaz istiqamətdə təzahür etdikdə mövqelərində uyğunsuzluq kimi hallar nadir deyil. Bu vəziyyət qismən onunla bağlıdır ki, şagirdlərin şəxsiyyətinə təsir göstərən ənənəvi tədbirlər və üsullar onların sosiallaşmasının fərdi psixoloji xüsusiyyətləri olmadan istifadə olunur. Bu halda biz fərdin ictimailəşməsinin ümumi qəbul edilmiş mövqeyindən çıxış edirik ki, insandakı bioloji fərdin mənəvi dünyasının inkişafı üçün təbii ilkin şərtdir və insanda sosial prinsip həlledici amildir. Onların aradan qaldırılması üçün məktəblərdə aparılan iş prosesində müəllimlər üçün onların psixoloji maarifləndirilməsi və məktəb şəraiti üçün ən məqbul olan yuxarıda qeyd olunan keyfiyyətlərin öyrənilməsi üsullarının praktiki tətbiqinin ilkin vərdişlərinin mənimsənilməsi ilə bağlı seminarlar təşkil etdilməldir. İxtisas seçimi zamanı yuxarı sinif şagirdlərinin sosial fəaliyyəti üçün fərdi psixoloji təbii ilkin şərtlərin aşkara çıxarılması insanın fərdiliyinin sosial fenomen kimi dərk edilməsi istiqamətində mühüm addım olacaq və bu, onun sosiallaşmasının psixoloji aspektinin sonrakı tədqiqatları üçün başlanğıc nöqtəsi olacaqdır.

Hal-hazırda sosial oriyentasiya əsasən insanın peşəkar özünüdərkini, onun peşəkar müqəddəratını təyin etməsini və peşə seçimini müəyyən edir. Müasir peşəkar öz müqəddəratını təyinetmə prosesi iki yolla qurula bilər:

- 1-ci yol - yalnız sosial və sosial-psixoloji determinantların nəzərə alındığı və şəxsi xüsusiyyətlərin müəyyənedici olmadığı peşəkar öz müqəddəratını təyinetmə prosesi, yəni, peşəkar yol xarici motivasiya və stimullaşdırma üzərində qurulur. Bu halda subyekt öz peşəkar inkişafında başqalarından asılıdır;

- 2-ci yol - fərdi psixoloji xüsusiyyətlərin peşəkar inkişafın uğuruna təsir edən peşəkar öz müqəddəratını təyinetmə prosesi, yəni şəxsiyyət xüsusiyyətləri prizmasından cəmiyyətlə münasibətlər peşəkar inkişaf kontekstində qurulur. Bu peşəkar inkişaf yolu daha adekvatdır və insanı peşədə uğura aparır. Ümumtəhsil məktəbinin buraxılış siniflərində peşə təhsili müəssisəsi, iş növü seçimi haqqında yekun qərarın qəbul edilməsi prosesi həyata keçirilir. Yeniyetmələrin əksəriyyəti üçün peşə seçimi cəmiyyətdə mövcud olan stereotiplərə əsaslanır ki, bu da onların peşə aləmində özünü tapmasına mane olur və psixoloji çətinliklər yaradır:

- "iş" və "peşə" anlayışları arasında uyğunsuzluq;

- işə görə əmək haqqı ilə şəxsi maraq arasında uyğunsuzluq [5, s.61].

Şəxsin peşəkar özünümüqəddəratını təyinetmənin formalaşmasına təsir edən amillərə bütün cəmiyyətdə, ayrıca bölgədə, müəssisədə mövcud olan ümumi, xüsusi və fərdi şərtlərin, habelə hər bir insanın fərdi xüsusiyyətlərinin olması daxildir. Aşağıdakı müəyyənedici amillər qrupları müəyyən edilmişdir:

- Ümumi;
- Regional (xarici);
- Fərdi (daxili) [1, s.17].

Birinci qrupa məzmunu cəmiyyətin sosial-iqtisadi strukturundan (insanların sosial-iqtisadi həyat şəraiti, ictimai təşkilatlar, cəmiyyətin mənəvi mədəniyyəti, kütləvi informasiya vasitələri və təbliğat və s.) asılı olan makromühitin amilləri daxildir. İkinciyə - ölkənin hər hansı bir regionunun iqtisadi və demoqrafik inkişafının spesifik xüsusiyyətləri aiddir:

a) ali, orta ixtisas və peşə təhsili müəssisələri şəbəkəsi;

b) ailənin mədəni, təhsil və peşə səviyyəsi;

c) asudə vaxt fəaliyyətinin formaları və s.

Üçüncü qrupa - insanın fərdi psixoloji və fizioloji xüsusiyyətləri - daxili, subyektiv (cins, fərdi şüurun inkişaf dərəcəsi, qabiliyyətlər, maraqlar, ideallar, biliklər və s.). Bütün bu amillər məktəblilərin peşə seçiminə təsir göstərir [1, s.18].

Müəyyən peşəyə yiyələnmək və sonra müvəffəqiyyətlə işləmək üçün insanda bu peşənin işçinin şəxsiyyəti üçün qoyduğu tələblərə cavab verən xüsusi keyfiyyətlər olmalıdır. Peşə tərəfindən işçiyə qoyulan tələblər onun şəxsi keyfiyyətləri və imkanları ilə üst-üstə düşürsə, peşəkar uyğunluqdan danışırlar. Başqa sözlə desək, peşə uyğunluğu insanın və onun işinin harmoniyasıdır. Peşəkar uyğunluq anadangəlmə keyfiyyət deyil, o, insanın özünün əmək fəaliyyətində formalaşır. Peşəkar fəaliyyət zamanı insanın fərdi funksional sistemləri və psixi prosesləri formalaşır, dəyər yönümlü şəxsiyyət növü və çox vaxt peşə insanın xarici görünüşündə iz buraxır. Peşənin düzgün seçilməsi üçün peşələrin təsnifatı ilə tanış olmaq lazımdır. Bu təsnifat peşənin işçinin şəxsiyyətinə olan tələblərini müəyyən etməyə imkan verir. Buna əsaslanaraq, yeniyetmə dörd pillədən ibarət piramida kimi təmsil oluna bilən öz peşəkar müqəddəratını təyinetmə yolunu təsvir edə bilər: sinif, şöbə, qrup, peşə. Ehtimal olunur ki, hər bir peşə növünün sinifləri var, siniflərə şöbələr daxildir, şöbələr qruplardan ibarətdir, piramidanın zirvəsi gələcək peşədir.

Təbii ki, peşəni konkret bölməyə - növə, sinifə və s.-yə aid etmək həmişə mümkün deyil. Təcrübədə peşənin bir neçə növə aid olduğu çox vaxt aydın olur. Axı, bir növün hər bir peşəsi mütləq başqalarının əlamətlərinə malikdir. Bütün sual onlardan hansının dominant, hansının arxa plana keçməsidir. Peşə seçərkən bu peşənin insana qoyduğu tələbləri bilmək çox vacibdir. Texnologiya əmək predmeti kimi innovasiyalar, yaradıcılıq ixtiraları üçün geniş imkanlar təqdim edir, buna görə də praktik düşüncə kimi keyfiyyət böyük əhəmiyyət kəsb edir. Peşə seçimində peşə üstünlükləri, motivləri və amilləri yeniyetməlik dövründə peşə seçimi vəziyyətində olan yuxarı sinif şagirdlərinin peşə münasibətlərinin fərdi xüsusiyyətlərini təhlil etmək üçün vasitə kimi nəzərdən keçirilə bilər. Əldə edilmiş məlumatlar fərdi məsləhətləşmələr və ya yuxarı sinif şagirdləri ilə qrup təlimi işi üçün istifadə edilə bilər. Bu sahədə perspektivli tədqiqat sahələri kimi, müxtəlif yaş kateqoriyalarında, peşə və sosial qruplarda peşəkar öz müqəddəratını təyinetmədə xarakterik xüsusiyyətlərin və gender fərqlərinin öyrənilməsini ayırmaq olar.

## ƏDƏBİYYAT

1. Бадашкеев М.В. Профориентация старшеклассников в условиях сельской школы // Таврический научный обозреватель. 2015. № 4-2. С.17-19.
2. Будаева Э.В. Проблемы самоопределения личности старшеклассника в процессе профориентационной работы школы // Вестник БГУ. 2015. №1. С.102-104.
3. Макарова М.Ю. Проектирование информационной системыподдержки профориентационных процессов различных уровней // Наука и образование: научное издание МГТУ им. Н.Э. Баумана. 2012. № 09. С. 26.
4. Махлеева Л.В. Роль дополнительного образования в профессиональном самоопределении учащихся // Инновационная наука. 2016. №9 (21). С. 315-320.
5. Пряжников Н.С. Самоопределение и профессиональная ориентация учащихся. М.: Академия, 2013. 208 с.

## YUXARI SİNİF ŞAGİRDLƏRİNİN PROFESSİONAL PEŞƏ SEÇMƏ ZAMANI FƏRDİ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

*Ələkbərli Ayişə*

## XÜLASƏ

Məqalədə yuxarı sinif şagirdlərinin peşə seçərkən sosial fəallığının fərdi psixoloji ilkin şərtləri araşdırılmış və onların həlli yolları göstərilmişdir. Şagirdlərin şəxsiyyətinə təsir göstərən ənənəvi üsullar onların sosiallaşmasının fərdi psixoloji xüsusiyyətləri olmadan tətbiq edilir. Bu halda biz fərdin ictimailəşməsinin ümumi qəbul edilmiş mövqeyindən çıxış edirik ki, insandakı bioloji fərdin mənəvi dünyasının inkişafı üçün təbii təbii ilkin şərtdir və insanda sosial prinsip həlledici amildir. Təbii ki, bu proses müəllimlərin müəyyən peşəkar hazırlığını və ən azı valideynlərin problemin nəzəri əsasları ilə tanış olmasını tələb edir.

## ИНДИВИДУАЛЬНАЯ ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ВЫСШИХ СТУДЕНТОВ ПРИ ПРОФЕССИОНАЛЬНОМ ПРОФЕССИОНАЛЬНОМ ВЫБОРЕ

*Алекбарлы Айша*

## АННОТАЦИЯ

В статье исследуются индивидуально-психологические предпосылки социальной активности старшеклассников при выборе профессии и показаны пути их решения. Применяются традиционные методы воздействия на личность студентов без учета индивидуально-психологических особенностей их социализации. В данном случае мы исходим из общепринятой позиции социализации индивида, согласно которой биологический индивид в человеке является естественной предпосылкой развития духовного мира, а в человеке решающим фактором является социальный принцип. Конечно, этот процесс требует некоторой профессиональной подготовки учителей и хотя бы родителей для ознакомления с теоретическими основами проблемы.

# INDIVIDUAL PSYCHOLOGICAL CHARACTERISTICS OF HIGH CLASS STUDENTS DURING PROFESSIONAL PROFESSIONAL CHOICE

***Alakbarli Aisha***

## SUMMARY

The article examines the individual psychological preconditions of social activity of high school students when choosing a profession and shows their solutions. Traditional methods of influencing students' personalities are applied without the individual psychological characteristics of their socialization. In this case, we proceed from the generally accepted position of the socialization of the individual that the biological individual in man is a natural precondition for the development of the spiritual world, and in man the social principle is the decisive factor. Of course, this process requires some professional training of teachers and at least parents to get acquainted with the theoretical foundations of the problem.

# UŞAQ AUTİZMİNİN PSİXOLOJİ-PEDAQOJİ KORREKSİYASI VƏ TERAPİYASI

***Əliyeva Vüsalə***
***BDU-nun II kurs magistrantı***
***vusala040488@gmail.com***

***Açar sözlər:*** Genetik faktorlar,ətraf mühit,korreksiya üsulları,dərman müalicəsi,xüsusi təhsil,ev təhsili,sensor inteqrasiya,davranış terapiyası,ünsiyyət və kommunikasiya,ABA terapiyası, zooterapiya,qum terapiyası,ailənin rolu.
***Ключевые слова:*** генетические факторы,окружающая среда,методы коррекчии, лечение наркозависимости, спечиальное обучение, сенсорная интеграчия, поведенческая терапия, общение и общение, зоотерапия, песочная терапия, роль семьи.
***Key words:*** genetic factors, environment, correction methods, drug treatment, special education, home education, behavioral therapy, communication,ABA therapy, zootherapy, sand therapy, the role of the family.

Autizm-genetik əsası olan,infeksiyalar,toksit kimyəvi maddələr,ağır metallar,hipoksiya və qidalardakı protein və peptitlərlə sürətlənən və ümumi inkişaf pozğunluğuna yol açan neyroimmun klinik tablodur [7,s.25].

Autizim inkişafın ümumi tip pozğunluğu olub: a)3 yaşına qədər inkişaf ləngiməsi və anomaliyası, b)məhdud,stereotip və monoton davranışda, ünsiyyət funksiyalarında və ekvivalent sosial qarşılıqlı təsirlərdə psixoloji dəyişikliklərlə müşahidə olunur.Bu spesifik diaqnostik xüsusiyyətlər,fobiyalar,yuxu və qida pozğunluqları,özünə qarşı aqressivlik kimi qeyri spesifik problemləri tamamlayır [4,s.256].

Müasir dövrdə autizm spektr pozuntusunun yaranma səbəbi hələ də tam şəkildə məlum deyil,ancaq genetik faktorların əsaslı olduğuna dair faktlar məlumdur.Bununla belə hansı gen və ya genlərin cavabdeh olduğu hələ məlum deyil.Ətraf mühit faktorlarının da autizmə səbəb olması ilə bağlı da fikirlər mövcuddur.Həm genetik faktorların, həm də ətraf mühit amillərinin təsiri ilə bağlı tətqiqatlar aparılımışdır.Autizmin yaranmasının uşaq tərbiyə xüsusiyyətləri və ya ailənin iqtisadi şərtləri ilə heç bir əlaqəsi yoxdur.Buna görə də fərqli cəmiyyətlərdə,istənilən coğrafi mühitdə rast gəlinə bilər.Autizm spektr pozuntusu əqli zəiflikdən sonra ən çox yayılan neyroinkişaf pozuntusudur.Oğlanlarda qızlardan 5 dəfə çox müşahidə olunur [8].

Autizm spektr pozuntusunun növləri və dərəcələri uşaqdan uşağa çox dəyişir.Bəzi uşaqlarda bəzi xüsusiyyətlər çox ağır,bəzilərində isə çox mülayim özünü göstərə bilər. Əlamətləri erkən yaş dönəmində müşahidə olunan autizm pozuntulu uşaqların bəzilərinin normal zəka(ağıl) səviyyəsi olduğu halda,çox hissəsində isə zəka zəifliyinin müxtəlif səviyyələri müşahidə olunur.Bir qisim autizmli uşaqlarda(təxminən 10%) musiqi istedadı, güclü yaddaş müşahidə olunur.

Sosial və ünsiyyət sahəsində problemlərlə müşahidə olunan autizmin müalicəsi üçün istifadə olunan korreksiya üsulları son dövürlərdə daha geniş marağa səbəb olur.Autizm Spektr Pozuntusu dünyanın hər yerində irqindən,cinsindən,milliyətindən asılı olmayaraq meydana çıxır.Bu xəstəliyin həm xəstələrin özündə,həm də ətrafındakı insanlar arasında yaratdığı fəsadları aradan qaldırmaq Ümumdünya Səhiyyə Təşkilatının qarşısında duran əsas aktual məsələlərdəndir.Bununla bağlı olaraq bir çox ölkələrdə tətqiqatlar aparılmış və aparılmaqda da davam edilir, autizm pozuntularının aradan qaldırılması üçün müxtəlif müalicə üsullarından,korreksiya üsullarından,terapiyalardan istifadə olunur [1,s.29].

Müasir dövürdə autizm probleminin dərmanla müalicəsi mümükün deyil.Ancaq dərman vasitəsilə müəyyən zərərverici davranışların qarşısını almaq mümkündür.Bununla yanaşı erkən yaşda başlayan intensiv təhsil dəstəyi ilə autizm spektr pozuntusunun simptomları azaldıla bilər və yeni bacarıqlara yiyələnərək davranış problemləri aradan qaldırıla bilər.Bu sahədə aparılan tətqiqatlara əsasən ən yaxşı nəticəni təhsil vasitəsi ilə əldə etmək olar.Həkimlər tərəfindən təyin olunan dərmanlar da daxil olmaqla təyin olunan bütün metodlar uşağın təhsilini dəstəkləmək üçün istifadə olunur.Buna görə də hansı metoddan istifadə olunmasından asılı olmayaraq erkən başlanan, davamlı və intensiv olaraq davam etdirilən xüsusi təlim vacibdir.

Autizmin korreksiya metodları problemlə bağlı yaranan anomal xüsusiyyətlərin zəifləməsinə, ondan əziyyət çəkənlərin, xüsusiylə uşaqların həyat qabiliyyətlərinin yüksəldilməsinə yönəldilir.

Autizmli uşaqların beynində bir çox dəyişikliklər gedir,ancaq bu dəyişikliyin necə inkişaf etməsi tam məlum deyil.Əksər vaxtlarda ailə üzvləri,xüsusən valideynlər uşağın həyatının ilk iki ilində onun əhval –ruhiyyəsində, hərəkətlərində, emosiyalarında fərqli əlamətlər hiss edirlər.Əgər erkən olaraq problemin üzərinə düşülərsə,yəni uşağın davranış və sosiallaşması sahəsinə müdaxilələr edilərsə, o zaman uşaqda özünəxidmət bacarıqları,sosiallaşma-ictimai qarşılıqlı əlaqə və ünsiyyət bacarığının yaranmasına kömək etmək mümkündür.Hazırki dövürdə autizmin tam müalicəsi mümkün deyil.

Autizmin simptomları 3 yaşa qədər meydana gəlir.Xəstəliyin əlamətləri həmişə fzioloji səviyyədə özünü göstərmir,bəzən uşağın hərəkətlərini və reaksiyalarını da izləməklə müəyyən etmək olar.

Autizmli şəxslərin təhsil və sosial ehtiyaclarını ödəmək üçün uyğun mühitlərdə həyata keçerilən xüsusi təhsil sistemindən istifadə olunur.Xüsusi təhsil autizm spekrt pozuntusu olan hər bir uşağın özünəməxsus ehtiyaclarına uyğun olaraq həyata keçirilir,uşağa müstəqil fəaliyyəti dəstəkləyəcək yaşa uyğun davranışları və bacarıqları təmin etməyi hədəfləyir.İnsan həyatının ilk 5 ili beyinin ən sürətlə inkişaf etdiyi dövürdü.Buna görə də bu problemli uşaqlarda 5 yaşından əvvəl aparılan intensiv xüsusi təhsil onların inkişafı üçün çox vacibdir.Xüsusi təhsilin sayəsində onların demək olar ki yarısının ünsiyyət bacarıqlarını artırdığını,təkrarlanan davranışların azaldığı,sosial münasibətlərin yaxşılaşdırdığının şahidi oluruq.Xüsusi təhsil fasiləsiz və intensiv olmalıdır,həmçinin ailənin də təhsildə iştirak etməsi tələb olunur.Ailə məktəbdə müəllimin öyrətdikləri bacarıqları evdə davam etdirib möhkəmləndirməlidirlər.

Xüsusi təhsil sistemi ilə yanaşı evdə təhsil sistemindən də istifadə olunur.Ev təhsili xidmətində faydalanan uşaq qeydiyytada olduğu məktəbdə istifadə olunan təhsil proqramlarına cavabdehdir.Həmçinin uşağın ehtiyac duyduğu sahələr üzrə fərdi təhsil proqramı da hazırlanır.Nəticələrin qiymətləndirilməsi qeydiyyatda olduğu məktəbin digər şagirdləri kimi aparılır,həmçinin müəllim qiymətləndirmə edərkən uşağın xüsusiyyətlərinə və vəziyyətinə görə dəyişiklik edə bilər.Xüsusi təhsilə ehtiyacı olan uşaqların əlil olmayan həmyaşıdları ilə eyni mühitdə təhsil almalarını təmin etmək vacibdir.Bu onların inkişafına, sosiallaşmasına müsbət təsir göstərir.

Autizmli uşaqlar ətraf aləm haqqında təsəvvürlərə yiyələnməkdə,öz hisslərini,fikirlərini ifadə etməkdə çətinlik çəkirlər. Sensor inteqrasiya vasitəsilə autizmli uşaqların beynin funksiyaları təkmilləşdirilir,onların gündəlik həyat şəraitinə uyğunlaşmasına yardımçı olur. Sensor inteqrasiyaya nümunə olaraq:məkana bələdləşmə,yellənçəkdə yellənmə, musiqi altında rəqs etmə,məkana toxunaraq bələdləşmə,görmə taktil duyğularının kordinasiyası və s misal göstərmək olar.

Struktur təlim proqramının da autizmli uşaqların inkişaf etdirilməsində böyük rolu var.Bu proqram məktəbəqədər yaşdan başlayaraq yaşlılığa qədər dönəmi əhatə edir.Xüsusi şərtlər

əsasında autizmli uşaqlarda yaşına uyğun bacarıqların formalaşdırılmasına xidmət edir. Onlarda ünsiyyət,sosiallaşma,müstəqillik,praktik bacarıqları formalaşdırır.

Autizmli uşaqlarda davranışın korreksiyası,xüsusən davranışın funksional təhlili də əsasdır. Bu uşağın sosial bilik və bacarıqlarının formalaşdırılmasına yönəlir.Əsas olaraq uşaqların motivasiyası,onların təhsildə uğurlarının rəğbətləndirilməsi təşkil edir,onları əsas məqsədə doğru istiqamətləndirilir.

Koqnitiv davranış terapiyası autizmli uşaqların davranışlarını normal vəziyyətə gətirmək üçün lazım olan tətqiqedici materiallar əldə etməyə imkan verir. Onun əsas mahiyyəti narahatlıq yaradan amilləri korrektə etmək,uşağın normal olmayan davranışlarını dəyişmək üçün ona kömək etmək, ona nəzarət edərək hərəkətlərini müsbət istiqamətə yönləndirməkdir. Əsas reaksiyalara alışdırma təlimi uşaqda özünüidarəetmə, sosial təşəbbüskarlıq,ətrafdan gələn siqnallara cavab vermək,motivasiyanı özündə ehtiva edir. Bu terapiyadan dil,komunikativ bacarıqlar, sosial və təlim xarakterli informasiyaları qəbuletmə bacarıqlarının inkişaf etdirilməsi məqsədi ilə istifadə olunur. Uşağa lazımlı və lazımsız davranışları fərqləndirmək,öz davranışlarını idarə etmək öyrədilir.

Fiziki tapşırıqlar autizmli uşaqların inkişafında xüsusi əhəmiyyətə malikdir. Problemli davranışı zəiflətmək, normal davranışı inkişaf etdirmək, aqressiyanı, inadkarlığı azaltmaq, autizmli uşağın ətrafa ümumi uyğunluğunu təmin etmək üçün fiziki tapşırıqların əhəmiyyəti böyükdür.

Autizmli uşaqlarda təlqinetmə onların vərdişləri və məqsədli davranışları mənimsənilməsinə kömək edən fiziki,jestli və verbal köməkdir. Modelləşmə uşağın imityasiya edərək davranışında möhkəmləndirdiyi, sonda isə məqsədli davranışın yaranmasına səbəb olan təsir vasitəsidir.

Rəğbətləndirmə və həvəsləndirmə yolu ilə autizmli uşaqlarda davranışın qaydaya salınması xüsusi əhəmiyyət kəsb edir. Rəğbətləndirmə və cəzalandırmanın növbələşməsinə əsaslanır. Bu metodu tətbiq edərkən demək olar ki həmişə nəticə əldə etmək mümükündür və uşağın cəmiyyətə adaptasiyasında böyük rolu var.

Ünsiyyət və kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi autizmli uşaqların korreksiya işinin əsas hissəsini təşkil edir. Autizmli uşaqların əksəriyyətində ya nitq olmur, ya da ləngiyir, bəzən isə hətta yetkinlik yaşlarında belə danışmırlar. Alternativ ünsiyyət şifahi sözlərin dəyişdirilmısi olub,sadələşdirilmiş işarə dili, simvolik şəkillərlə işdir. Bu ünsiyyət formasını seçərkən fərdiyyət nəzərə alınmalıdır.Bu korreksiya üsulu uşağın digər insanlarla daha tez ünsiyyət qurmasına,şifahi danışıq bacarıqlarının yaranmasına kömək edir [6,S.18].

PECS –alternativ ünsiyyət növlərindən biridir.Bu metodun tətbiqi zamanı sosiallaşma zəifliyi olan uşaqlara görə seçilən istənilən obyektin bir hissəsi göstərilir, onun nə olduğu öyrədilir. Bu zaman obyektlə ünsiyyətə necə daxil olması,düzgün obrazı necə seçməsi, suallara necə cavab verməsi də nəzərə alınmalıdır.

Bütün autizmli uşaqlar sosial bacarıqlarda problemlər yaşayır. Bu problemi aradan qaldıqmaq üçün istifadə olunan metodlar rollu oyunları, onların tətbiqini özündə ehtiva edir, qrup və fərdi şəkildə aparılır. Sosial bacarıqların öyrədilməsi mərhələsində ilk öncə tanışlıq,daha sonra rolların oynanılması və əks əlaqə təşkil edir. Funksional kommunukasiya mərhələsində isə sosiallaşma təcrübəsini formalaşdırmaq, ünsiyyət qaydalarını mənimsətmək təşkil edir.

Autizmli uşaqların həmyaşıdları ilə ünsiyyət qurması onların inkişafına müsbət təsir göstərir. Sağlam uşaqlar belə uşaqlarla bir araya düşən zaman onlara təəccüblə baxır, bəzən isə onlara gülür və ələ salırlar. Buna səbəb isə onlarla birgə normal ünsiyyət qura və bir-birlərini anlaya bilməməkdir. Ancaq xüsusi qayğıya ehtiyacı olan uşaqların hərtərəfli inkişafını təmin etmək üçün inklüziv təhsil sistemi yaradılıb. Bu təhsil sistemində problemli uşaqların fərd kimi inkişaf

etdirilməsi,onlara fərdi imkanlarına uyğun olaraq yanaşılması, problemlərinə uyğun olaraq təhsil verilməsini özündə birləşdirən müxtəlif üsul və vasitələrdən istifadə olunur [1,s.32].

Autizmli uşaqların çoxu verilən məlumatları eşidərək qavramaqda çətinlik çəkirlər. Buna görə də vizual materiallardan istifadə etmək daha məqsədəuyğundur. Belə materiallar sosial davranışları öyrədir, vərdişləri artırır.

Autizmli uşaqların inkişafında oyunların da rolu böyükdür. Oyunlarla ikitərəfli kommunikasiya yaranır,ətrafa maraq artır,simvolik oyun mərhələsi formalaşır, özünüdərketmə, emosional təfəkkür inkişaf edir.

ABA-autizmli uşaqların idrak proseslərinin xüsusiyyətlərini, onların davranışlarının təhlilini, həmçinin nitqinin öyrənilməsinə yönəlmiş terapevtik vasitələr toplusudur. Bu terapiyadan autizmli uşaqların arzuolunmaz davarnışlarını korreksiya etmək üçün istifadə olunur: özünəxidmət, sosial bacarıqlar, nitqin inkişaf etdirilməsi,adaptiv davranış,ünsiyyət bacarıqları,öyrənmə qabiliyyəti və s. Bu terapiya fərdi şəkildə -söz,ünsiyyət,dinləmə, göz əlaqəsi, yaradıcı oyunlar və s. üsullar aparılır. Əgər uşaq ona verilən tapşırığın öhdəsindən gəlirsə sonda onu mükafatlandırmaq lazımdır. Autizmli uşaqlarla iş böyük səy tələb edir, həftədə ən azı bir neçə dəfə məşğul olunarsa səmərəli nəticə əldə etmək olar.İdeal vaxt isə 6 yaşından öncə terapeyaya başlamaq lazımdır. Autiklər üçün davranış terapiyası daha effektlidir.

Zooterapiyadan autizmli uşaqların problemlərinin korreksiyasında geniş istifadə olunur. Autik uşaqlar üçün at,delfin, pişik, it, tutuquşu, bülbül, hatta laborator siçanlar ilə işləmək üçün xüsusi proqramlar yaradılıb. Ponilərlə terapiya autizmli uşaqlar üçün daha maraqlıdır. Çünki onlar daha təhlükəsiz, həm də əlçatandır. Bu terapiya sindromun əlamətlərinin zəifləməsinə kömək edir. Ancaq zooterapiya işində ehtiyyatlı olmaq lazımdır,çünki mərhələləri düzgün aparmadıqda uşaqda əksinə olaraq qorxu yarana bilər.

Gil (palçıq) terapiyasından da autizmli uşaqların problemlərinin korreksiyasında istifadə olunur. Gillə işləyərkən uşaqlarda toxunma hissi, kinestetik hisslər formalaşır, həmçinin kiçik motorika da inkişaf edir. Gilin yumşaqlığı autizmli uşaqlarda sevinc duyğusunu formalaşdırır, öz hisslərini və duyğularını dərk etməyə kömək edir. Gil şəxsi yaradıcı qabiliyyətləri də inkişaf etdirir. Həmçinin palçıq terapiyası aqressiya,narahatçılıq,qorxu hisslərini azaldır, emosiyaları nizamlamağa kömək edir, qarşılıqlı anlaşmaya kömək edir,davranışın zahirən tənzimləməsinə imkan verir.

Qum terapiyası uşaq psixikasının inkişafına böyük təsir göstərir. Bu terapiya uşaqlarda emosional vəziyyəti tənzimləyir,toxunma hissiyatını və kiçik motorikanı inkişaf etdirir, həmçinin diqqət,nitq və yaddaşın güclənməsinə xidmət edir. Qum terapiyaları xüsusi seçilmiş musiqi sədaları altında keçirilir. Musiqi beynin müəyyən hissələrinə təsir edərək onun funksiyalarına müsbət təsir götərir, xəstəliklərin müalicəsini asanlaşdırır. Həmçinin təbiət səslərindən (quşların nəğməsi, dəniz, çay, şəlalə səsi) də terapiyalarda istifadə olunur.

Uşaq psixikasının inkişaf etdirilməsində nağıl terapiyasının, art-terapiyanın, biblioterapiyanın, psixodrammanın da böyük rolu var.

Qeyd etdiyimiz korreksiya və inkişafetdirici,terapevtik metodlar, üsul və vasitələr autizmli uşaqlarla aparılan işi tam əhatə etmir. Çünki bu metodlar gündən günə daha da zənginləşir, yeni-yeni nümunələr yaranır [2,S.205].

Autizmli uşaqların problemlərini aradan qaldırılmasında ailənin rolu böyük və məsuliyyətlidir. Çünki belə uşaqlar günün çox hissəsini evdə ailə üzvləri ilə keçirirlər. Belə valideynlərin üzərinə böyük məsuliyyət düşür,ona görə ki həmin uşaqların dəstəyə ehtiyacları çoxdur,daima nəzarət altında olmalıdırlar.aparılan tətqiqatlar sübut etmişdir ki, ailədə nə qədər xeyirxah mühit yaradılarsa autik uşağın inkişafında bir o qədər çox müsbət nəticə əldə etmək olar. Buna görə də valideynlərin, ailə üzvlərinin əlverişli psixoloji mühitin yaradılması vacibdir.

Autizmli uşaqların valideynləri bu problemdən dolayı nə özlərini, nə də uşaqlarını mənəvi olaraq günahlandırmamalı, uşağından utanmamalı, ətrafdakıların onun övladı haqqında nə düşündüklərinə əhəmiyyət verməməli,heç bir zaman ümidini itirməməli, gələcəyə ümüdlə baxmalı, övladına sonsuz sevgi göstərməli, övladlarının həssas olduqlarını unutmamalıdırlar.

Müasir dövürdə autizmli uşaqların yaşadıqları ailələrin sosial və psixoloji vəziyyətinin öyrənilməsi vacib məsələlərdəndir. Çünki bu uşaqlarda həm fiziki,həm də psixi inkişafda nöqsanlar özünü göstərir, həmçinin bəzən emosional pozuntular, əqli inkişafda ləngimə də müşahidə oluna bilər. Bu səbəbdən ailə üzvləri onların daim qayğısına qalmalıdırlar. Ona görə də ailənin sosial müdafiyəyə ehtiyacı var. Hazırda dünyanın hər yerində autizmli uşaqların hüquqlarını qorumaq,onları mənəvi və fiziki cəhətdən sağlam yetişdirmək sosial müəssisələrin qarşısında duran əsas məsələlərdəndir [5].

Bu gün istər sağlam,istərsə də problemli uşaqların tərbiyəsində ailənin rolu getdikcə artır. Hər bir uşağın sağlam böyüməsi,onun yaxşı tərbiyə alması ailənin möhkəmliyindən asılıdır.Bəzən elə olur ki,ailə övladlarının sosial müdafiəsi ilə bağlı onun üzərinə düşən öhdəlikləri yerinə yetirə bilmir.Bu bir sıra səbəblərdən asılı ola bilər:ailə övladı qarşısında öz məsuliyyətini dərk etmir, və ya ailənin xəstəliklər,işsizlik səbəbindən bu imkanlardan məhrum olması.Digər obyektiv səbəb isə valideynlərdən birinin və ya hər ikisinin vəfat etməsi.

## ƏDƏBİYYAT

1. Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu.Uşaq İnkişafı Metodikası.2011
2. L.Əmrahlı,O.Əlizadə-Uşaq Autizmi.Bakı 2018
3. V.Rəhmanov. "Müdrik sözlər,psixoloji və digər yarımçıq fikirlər,professorun aforizmləri", Dnepropetrovsk,RİA "Dnepr-VAL",2015.-285səh
4. XBT-10,Ümumdünya Səhiyyə Təşkilatı,Cenevrə,2012,s225-227.
5. A.Kandır.Gelişimdə 3-6 yaş:çocuğum böyüyor.Morpa Kültür Yayınları 1 baskı İstanbul 2003.
6. Prof.Dr.Ahmet Aydın-Uz.Dr.Cem Kınacı.Otizmə Çözüm Var!İstanbul,2013.
7. Prof.Dr.Ertuğrul Köroğlu(çeviren)DSM-5. Ankara,2014
8. Prof.Dr.Oğuz Karamustafalıoğlu.Temel ve Klinik Psikiyatri.Ankara,2018

# UŞAQ AUTİZMİNİN PSİXOLOJİ-PEDAQOJİ KORREKSİYASI VƏ TERAPİYASI

## XÜLASƏ

Autizmin daha dəqiq öyrənilməsi müalicənin effektiv metodlarının tətbiq edilməsini tələb edir.Aparılan çoxsaylı tətqiqatlara baxmayaraq autizmin müalicəsində hələ də müvəffəqiyyət əldə olunmayıb. Çünki xəstəliyin yaranma səbəbi hələ də tam məlum deyil. Autizmli uşaqlarla aparılan psixoloji korreksiya və terapiya üsulları bir sıra xüsusiyyətləri özündə əks etdirməlidir: əsas diqqət individual terapiyaya əsaslanmalıdır, uşaqların şəxsi xüsusiyyətləri tətqiqat obyekti olmalıdır, maksimum terapiya erkən başlamalıdır, müalicə valideynlərin dəstəyi ilə aparılmalıdır.

Hazırda autizm uşaq psixiatriyasında ən təhlükəli,ən çox öyrənilən sindromdur. Qərbdə bu mövzuda yazılan kitabların sayı xəstəlikdən əziyyət çəkən uşaqların sayından çoxdur. Odur ki, bu predmetin mahiyyətinin başa düşülməsində müəyyən aydınlıq var: autizmin sirri arxasında gizlənməyin vaxtı keçib (Tom Piters) [3].

# ПСИХОЛОГО - ПЕДАГОГИЧЕСКАЯ КОРРЕКЦИЯ И ТЕРАПИЯ ДЕТСКОГО АУТИЗМА

***Алиева Вусала***

## АННОТАЦИЯ

Более точное изучение аутизма требует применения эффективных методов лечения. Несмотря на многочисленные исследования, лечение аутизма пока не увенчалось успехом. Причина заболевания до сих пор неизвестна. Психологическая коррекция и терапия детей с аутизмом должны включать в себя ряд особенности: внимание должно быть основано на индивидуальной терапии, личностные особенности детей должны быть объектом исследования, максимальная терапия должна быть начата рано, лечение должно проводиться при поддержке родителей.

В данное время аутизм является самым опасным и изучамым синдромом в детской психиатрии. На Запади книг на эту тему больше чем детей страдающих от этой болезни. Так как при объяснении этого предмета есть некоторые понятие: не надо скрываться за секретами аутизма (Том Питерс) [3].

# PSYCHOLOGİCAL AND PEDAGOGİCAL CORRECTİON AND THERAPY OF AUTİSM İN CHİLDREN

***Aliyeva Vusala***

## SUMMARY

A more accurate study of autism requires the application of effective treatment methods. Despite numerous studies,the treatment of autism has not yet been successful. Because the cause of the disease is still unknown. Psychological correction and therapy methods for children with autism should include a number of features: the main focus should be on individual therapy, children‘s personal characteristics should be the object of research, maximum therapy should be started early, treatment should be carried out with the support of parents.

Currently,autism is the most dangerous and widely studied syndrome in child psychiatry. The number of books written on the subject in the West exceeds the number of children suffering from the disease. Therefore, there is some clarity in understanding the essence of this subject: it is time to hide behind the secret of autism (Tom Peters`) [3].

# DEPRESSİYA, YARANMA SƏBƏBLƏRİ VƏ ONUN NÖVLƏRİ

***Qədizadə Arzu Vaqif qızı***
***BDU- nun II kurs magistrantı***
***arzuqedizade98@gmail.com***

***Açar sözlər***: Depressiya, depressiyanın simptomları, major depressiya, atipik depressiya, mövsümi depresssiya.
***Ключевые слова***: Депрессия, симптомы депрессии, большая депрессия, атипичная депрессия, сезонная депрессия.
***Keywords***: Depression, symptoms of depression, major depression, atypical depression, seasonal depression.

Depressiya ən geniş yayılmış və hiss, düşüncə və davranışa mənfi təsir edən psixi pozuntudur. Bu, müxtəlif emosional və fiziki problemlərə səbəb ola bilir. Depressiyanın simptomlarına aşağıda qeyd olunanlar aiddir:
Kədər, göz yaşı, boşluq və ya ümidsizlik hissləri
Kiçik məsələlərdə belə qəzəbli partlayışlar, əsəbilik və ya məyusluq
Bütün normal fəaliyyətlərə maraq və ya həzzin itirilməsi
Yuxu pozğunluğu, o cümlədən yuxusuzluq və ya çox yatmaq
Yorğunluq və enerji çatışmazlığı
Iştahın azalması və ya çoxalması
Narahatlıq, həyəcan və ya narahatlıq
Dəyərsizlik və ya günahkarlıq hissi,
Tez-tez və ya təkrarlanan ölüm düşüncələri, intihar düşüncələri, intihar cəhdləri və ya intihar
Bel ağrısı və ya baş ağrısı kimi izah olunmayan fiziki problemlər [1].
Uşaqlarda və yeniyetmələrdə depressiya əlamətləri
Uşaqlarda depressiyanın əlamətləri aşağıdakılardır:
Kədər, əsəbilik və narahatlıq
Çəki azlığı
Məktəbə getməkdən imtina etmək
Yeniyetmələrdə depresiyyanın əlamətləri aşağıdakılardır:
Kədər, əsəbilik, və qəzəb kimi mənfi hisslər,
Məktəbdə zəif davamiyyət
Həddindən artıq həssaslıq
Narkotik və ya spirtli içki istifadəsi
Çox yemək və ya yatmaq
Normal fəaliyyətlərdə və sosial qarşılıqlı əlaqədən qaçınmaq
Özünə zərər vermə
Yaşlı insanlarda depressiya əlamətləri aşağıdakılardır:
Yaddaş problemləri və ya şəxsiyyət dəyişiklikləri
Fiziki ağrılar və ya ağrılar
Yorğunluq, iştahsızlıq, yuxu problemləri
Cinsi əlaqəyə maraq itkisi
Sosiallaşmaq və ya yeni işlər görməkdənsə, tez-tez evdə qalmaq istəyi
Xüsusilə yaşlı kişilərdə intihar düşüncəsi [2]
Depressiyanın yaranma səbəbləri

Depressiyanın yaranmasının tək bir səbəbi yoxdur, çünki genetik, bioloji, sosial və psixoloji amillərin birləşməsi rol oynayır. Depressiya əksərən yeniyetmə və gənc yaşlarında başlayır, lakin hər yaşda baş verə bilər. Kişilərdən daha çox qadınlarda depressiya diaqnozu qoyulur.
Bunlara daxildir: İrsi xüsusiyyətlər, bioloji, sosial və psixoloji amillər
İrsi xüsusiyyətlər.
Depressiya daha çox qan qohumlarında da bu xəstəlikdən əziyyət çəkən insanlarda olur. Bu insanların depressiyaya düşmə riski digərlərindən iki və ya üç dəfə çoxdur.
Bioloji amillər (Hormon dəyişiklikləri).
Menstruasiya dövrü, hamiləlik və doğuş depressiyaya səbəb ola bilər:
Hamiləlik. Hamiləlik dövründə baş verən bir çox hormonal dəyişiklik, xüsusilə yüksək riskli qadınlarda depressiyaya səbəb ola bilər. Düşük və istənməyən hamiləlik kimi hamiləliklə əlaqəli digər məsələlər də depressiyanın yaranmasında rol oynaya bilər.
Doğuşdan sonrakı depressiya. Bəzi qadınlar ağır və davamlı depressiv vəziyyət yaşayır. İlk övladını dünyaya gətirən bəzi analar doğuşdan sonra çox gərgin, emosional və aqressiv olurlar. Bu hisslərə bəzən "körpə mavisi" də deyilir. Bu normaldır və ümumiyyətlə bir-iki həftə ərzində azalır. Ancaq daha şiddətli və uzunmüddətli olarsa, belə vəziyyət doğuşdan sonrakı depressiyaya səbəb ola bilər.
Menopauza və erkən menopauza. Depressiya riski erkən menopauza zamanı və ya menopauzadan sonra da arta bilər. Əvvəllər depressiv vəziyyət yaşamış qadınlar da menopauza zamanı depressiyaya düşmə riski altındadır [3].
Sosial amillər.
Bura yaşayış şəraiti və mədəniyyəti aid edə bilərik. Bu zaman depressiyaya düşmə amillərinə aşağıdakıları aid edə bilərik:
Qeyri-bərabər güc və status. Aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, adətən qadınların kişilərə nisbətən maddi asılılığı çox, statusu aşağıdır. Bu da gələcəkdə yaşam tərzlərinə qeyri-müəyyən münasibətin yaranmasına səbəb olur. Belə münasibət həmin qadınlarda pozitiv hisslərdən uzaqlaşaraq narahatlığın artmasına və mənfi hisslərin yaranmasına səbəb olur.
Həddindən artıq iş. Çox vaxt qadınlar hər hansı bir rəsmi vəzifəni eyni zamanda ev işlərini də yerinə yetirirlər. Ailəni tək başına idarə edən qadınlar da bir çox problemlərlə qarşılaşırlar. Həmçinin qadınlar öz övladlarına qulluq etməklə bərabər bəzən yaşlı və ya xəstə ailə üzvlərinə də baxa bilirlər.
Pandemiya. Pandemiya və pandemiya şəraiti qadınlarda depressiyanın yaranmasına səbəb ola bilir. Müasir dövrdə pandemiya şəraiti depressiyaya səbəb olan amil kimi özünü biruzə verir.
Müharibə və müharibə şəraiti. Müharibə və müharibə şəraiti də depressiyanın yaranmasına səbəb ola bilir.
Psixoloji amillər.
Yalnızlıq və təcrid
Erkən uşaqlıq travması
Alkoqol və ya narkotik asılılığı.
İş yerindəki ayrı-seçkilik, işi itirmək və ya dəyişdirmək, təqaüdə çıxmaq
Sevilən birinin ölümü və ya başqa bir stresli həyat hekayəsi
Cinsi, fiziki və mənəvi istismar [4]
Depressiyanın növləri aşağıdakılardır:
Major depressiya, Doğuşdan sonrakı depressiya, Mövsümi depressiya, Davamlı Depressiya, Bipolyar depressiya, Psixotik Depressiya, Situasiyalı depressiya, Atipik depressiya
Major depressiya.

Bu depressiyanın klassik növüdür. Semptomlar hər gün baş verə bilər və yüngüldən şiddətə qədər dəyişə bilər. Aşağıdakı əlamətlər aiddir:
Maraq və ya zövq itkisi
Kilo itkisi və ya artması
Gün ərzində yuxuya getməkdə çətinlik və ya yuxusuzluq hissi
Narahat və həyəcanlı hiss etmək
Fiziki və ya zehni olaraq yavaşlama
Yorğun və enerjisiz olmaq
Özünü dəyərsiz və ya günahkar hiss etmək
Diqqəti cəmləmək və ya qərar qəbul etməkdə çətinlik
İntihar düşüncələri
Doğuşdan sonrakı depressiya.
Doğuşdan sonra, yeni anaların təxminən 10% -dən 15% -ə qədəri adətən təxminən altı ay davam edən bu tip depressiya ilə qarşılaşır.
Mövsümi depressiya.
Bu tip depressiya ilin təbii günəş işığının az olduğu vaxtlarda baş verir. Adətən payızın sonunda və ya qışın əvvəlində başlayır və yazda və ya yayda bitir.
Davamlı Depressiya.
Əgər 2 il və ya daha çox davam edərsə, buna davamlı depressiya deyilir. Aşağıdakı əlamətlər aiddir:
İştahınızın dəyişməsi (kifayət qədər yeməmək və ya həddindən artıq yemək)
Çox və ya az yatmaq
Enerji çatışmazlığı və ya yorğunluq
Özünə inamsızlıq
Ümidsiz hiss etmək
Bipolyar depressiya.
Bipolyar pozğunluğu olan insanlar əvvəlcə depressiya dövrlərini, sonra isə yüksək enerjili ayrı-ayrı manik epizodları əhatə edən həddindən artıq əhval dəyişikliyi yaşayırlar. Bu epizodlar nadir hallarda və ya ildə bir neçə dəfə baş verə bilər.
Psixotik Depressiya.
Psikotik depressiyadan əziyyət çəkən insanlarda "psixotik" simptomlarla yanaşı əsas depressiya əlamətləri də olur.
Situasiyalı depressiya.
Ailədə itki, boşanma və ya işinizi itirmək kimi stresli hadisələr nəticəsində yaranan depressiyadır.
Atipik depressiya.
Bu tip tipik depressiyanın davamlı kədərindən fərqlidir. Əgər müsbət bir hadisə olarsa, əhval-ruhiyyə müvəqqəti olaraq yaxşılaşa bilər. Aşağıdakı əlamətlər aiddir:
Artan iştah
Daha çox yatmaq
Qollarda və ayaqlarda ağırlıq hissi
Tənqidə həddindən artıq həssaslıq [5].

## ƏDƏBİYYAT

1. Kotov R, Gamez W, Schmidt F, Watson D (September 2010). "Linking "big" personality traits to anxiety, depressive, and substance use disorders: a meta-analysis". Psychological Bulletin. 136 (5): 768–821.
2. Rustad JK, Musselman DL, Nemeroff CB (October 2011). "The relationship of depression and diabetes: pathophysiological and treatment implications". Psychoneuroendocrinology. 36 (9): 1276–86
3. https://www.mayoclinic.org/diseases-conditions/depression/symptoms-causes/syc-20356007
4. https://www.psycom.net/depression
5. https://mind.help/topic/major-depressive-disorder/types/

## DEPRESSİYA, YARANMA SƏBƏBLƏRİ VƏ ONUN NÖVLƏRİ

***Arzu Qədizadə***

## XÜLASƏ

Depressiya ən geniş yayılmış və hiss, düşüncə və davranışa mənfi təsir edən psixi pozuntudur. Bu, müxtəlif emosional və fiziki problemlərə səbəb ola bilir.
Depressiyanın yaranmasının tək bir səbəbi yoxdur, çünki genetik, bioloji, sosial və psixoloji amillərin birləşməsi rol oynayır. Depressiya əksərən yeniyetmə və gənc yaşlarında başlayır, lakin hər yaşda baş verə bilər. Kişilərdən daha çox qadınlarda depressiya diaqnozu qoyulur.

Bunlara daxildir: İrsi xüsusiyyətlər, bioloji, sosial və psixoloji amillər

İrsi xüsusiyyətlər. Depressiya daha çox qan qohumlarında da bu xəstəlikdən əziyyət çəkən insanlarda olur. Bu insanların depressiyaya düşmə riski digərlərindən iki və ya üç dəfə çoxdur.

Bioloji amillər (Hormon dəyişiklikləri). Menstruasiya dövrü, hamiləlik və doğuş depressiyaya səbəb ola bilər.

Sosial amillər. Bura yaşayış şəraiti və mədəniyyəti aid edə bilərik.

Psixoloji amillər. Yalnızlıq və təcrid, erkən uşaqlıq travması, cinsi, fiziki və mənəvi istismar, alkoqol və ya narkotik asılılığı, iş yerindəki ayrı-seçkilik, işi itirmək və ya dəyişdirmək, təqaüdə çıxmaq, sevilən birinin ölümü və ya başqa bir stresli həyat hekayəsi və s... aiddir.

Depressiyanın növləri aşağıdakılardır:

Major depressiya, Doğuşdan sonrakı depressiya, Mövsümi depressiya, Davamlı Depressiya, Bipolyar depressiya, Psixotik Depressiya, Situasiyalı depressiya, Atipik depressiya

## ДЕПРЕССИЯ, ПРИЧИНЫ И ЕЕ ВИДЫ

***Арзу Гадизада***

## АННОТАЦИЯ

Депрессия является наиболее распространенным психическим расстройством, которое влияет на чувства, мысли и поведение. Это может привести к различным эмоциональным и физическим проблемам.

Единой причины депрессии не существует, так как играет роль сочетание генетических, биологических, социальных и психологических факторов. Депрессия

обычно начинается в подростковом и юношеском возрасте, но может возникнуть в любом возрасте. У женщин чаще, чем у мужчин, диагностируют депрессию.

К ним относятся: наследственные особенности, биологические, социальные и психологические факторы.

Наследственные особенности. Депрессия чаще встречается у людей, у которых есть кровные родственники. Эти люди в два-три раза чаще впадают в депрессию, чем другие.

Биологические факторы (Гормональные изменения). Менструация, беременность и роды могут вызвать депрессию.

Социальные факторы. Мы можем включить сюда условия жизни и культуру.

Психологические факторы. Одиночество и изоляция, ранние детские травмы, сексуальное, физическое и эмоциональное насилие, алкогольная или наркотическая зависимость, дискриминация на рабочем месте, потеря или смена работы, выход на пенсию, смерть близкого человека или другая стрессовая история жизни и т. д. .

Виды депрессии:

Большая депрессия, Послеродовая депрессия, Сезонная депрессия, Персистирующая депрессия, Биполярная депрессия, Психотическая депрессия, Ситуационная депрессия, Атипичная депрессия

## DEPRESSION, CAUSES AND ITS TYPES

***Arzu Gadizada***

**SUMMARY**

Depression is the most common mental disorder that affects feelings, thoughts, and behaviors. This can lead to various emotional and physical problems.

There is no single cause for depression, as a combination of genetic, biological, social and psychological factors play a role. Depression usually begins in adolescence and young adulthood, but can occur at any age. More women than men are diagnosed with depression.

These include: Hereditary characteristics, biological, social and psychological factors

Hereditary features. Depression is more common in people who have blood relatives. These people are two or three times more likely to be depressed than others.

Biological factors (Hormonal changes). Menstruation, pregnancy and childbirth can cause depression.

Social factors. We can include living conditions and culture here.

Psychological factors. Loneliness and isolation, early childhood trauma, sexual, physical and emotional abuse, alcohol or drug addiction, workplace discrimination, losing or changing jobs, retiring, the death of a loved one or another stressful life story, etc. aiddir.

The types of depression are:

Major Depression, Postpartum Depression, Seasonal Depression, Persistent Depression, Bipolar Depression, Psychotic Depression, Situational Depression, Atypical Depression

# NATAMAM AİLƏLƏRDƏN OLAN YENİYETMƏLƏRİN GƏLƏCƏK HƏYAT OBRAZI: GÖZLƏNTİLƏR VƏ QORXULAR

***Əsədbəyli Nigar Rasim qızı***
***BDU-nun II kurs magistrantı***
***esedbeli.nigar@gmail.com***

***Açar sözlər:*** natamam ailə, yeniyetmə, gələcək həyat obrazı, gözlənti, qorxu.
***Ключевые слова:*** неполная семья, подросток, образ будущей жизни, ожидания, страхи.
***Key words:*** incomplete family, teenager, future life image, expectations, fears.

Yeniyetmələrə həsr olunmuş müasir nəşrlər demək olar ki, həmişə gənc nəslin dəyər sistemləri və həyati mövqelərinin uyğunsuzluğu probleminə toxunur. Elmi müzakirələr, sosial-jurnalist proqramlar və siyasi proqramlar müasir dövrdə sosial-mədəni vəziyyətin çoxölçülülüyünə, qeyri-müəyyənliyinə yönəlib. Bu, bir tərəfdən, müasir yeniyetmələrin sosiallaşmasının baş verdiyi sosial məkanın multikulturalizmi ilə, digər tərəfdən isə bu nəslin özünün xüsusiyyətləri ilə əlaqələndirilir. Psixoloqlar yeni nəslin mahiyyətini və əsas xüsusiyyətlərini ən dəqiq ifadə edə bilən müxtəlif təriflər təklif edirlər: “mühafizəkar fərdiyyətçilər”, “sakit hücum nəsli”, “iddialı məskunlaşanlar”, “hər şeylə heç nə arasında”, “rəqəmsal nəsil” və s. [5, s.37].

E.Erikson yeniyetməlik dövrünü insanın psixososial inkişafında çox mühüm dövr hesab edirdi [6, s.172]. Artıq uşaq deyil, hələ yetkin olmayan yeniyetmə müxtəlif sosial tələblər və yeni rollarla qarşılaşır. Eriksona görə, bu yaşda ortaya çıxan yeni psixososial parametr eqo-şəxsiyyət şəklində ortaya çıxır. Yeniyetmələrin vəzifəsi bu vaxta qədər özləri haqqında mövcud olan bütün bilikləri bir araya gətirmək və şəxsi şəxsiyyətə inteqrasiya etməkdir [6, s.227]. Bu baxımdan, gələcək həyat obrazının qurulması problemləri aktuallaşır, qısa müddət ərzində onun məzmununda sürətli dəyişiklik baş verir, onun fəal inkişafı davam edir ki, bu da müxtəlif stress amillərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Yeniyetməlik dövründə gələcək həyat obrazı böyük əhəmiyyət kəsb etməyə başlayır, çünki uzunmüddətli şəxsi məqsədlər qurmaq və onların həyata keçirilməsi istiqamətində işləmək bacarığı insanın mühüm xüsusiyyətidir. Bu dövrdə gələcək obrazı fəal şəkildə formalaşır.

Natamam ailələrdən olan yeniyetmələrin inkişafına psixoloji-sosioloji baxış cəmiyyətin təkrar istehsalını təmin etməli olan sosiallaşma və hərəkətliliyin effektivliyi problemlərinə diqqət yetirir. Fərdi səviyyədə bu, şəxsi uğur ideyasında, arzu olunan gələcək həyat obrazının formalaşdırılmasında və fərd üçün istinad qruplarına nail olmaq istəyində ifadə olunur. Həyat planları şəxsiyyətin inkişafının müxtəlif səviyyələri ilə əlaqəli iyerarxik quruluş kimi təqdim edilə bilər ki, bu da onların formalaşması, təzahürü və fəaliyyətinin spesifik xüsusiyyətlərini müəyyən edir. Beləliklə, A.V.Napris həyat planlarının aşağıdakı xüsusiyyətlərini verir:

- yaxın planlar - şəxsiyyətyönümünün (istəklər, meyllər) ən aşağı səviyyəsinə uyğundur, əsasən funksional-dinamik xarakter daşıyır və davranışın həyata keçirilməsinə yönəlmişdir;
- orta planlar - şəxsiyyətin inkişafının orta səviyyəsində (maraqlar, istəklər) görünür, həyatın müxtəlif sahələrində ünsiyyətin inkişafına yönəldilir və situasiya və hadisəli xarakter daşıyır;
- uzaq planlar - şəxsiyyət oriyentasiyasının (ideallar, inanclar) inkişafının ən yüksək səviyyəsində formalaşır, dəyər-məna xarakteri daşıyır: həyatın özünü təsdiqi, idealın əldə edilməsi və həyatda uğur [4, s.59].

Yeniyetmələrin məqsəd və dəyərləri müxtəlif səviyyələrdə şəxsi həyat planının əsas komponentləri kimi çıxış edir. Eyni zamanda, müasirliyin xarakterik xüsusiyyəti, ənənəvi və

modernist dəyərlərin həm bütövlükdə cəmiyyətdə, həm də fərdin istiqamətlərində bir-biri ilə ziddiyyət təşkil edə biləcəyi dəyərlərin toqquşmasıdır. Bu ziddiyyət qeyri-müəyyənlik vəziyyəti ilə daha da ağırlaşır - həm müasir, həm də gələcək cəmiyyət baxımından normativ şəxsiyyət və effektiv sosiallaşma üçün aydın tələblər sistemi yoxdur. Nəticədə, yeniyetmələrin sosiallaşmasının proqnozlaşdırıcı imkanlarının effektivliyi azalır: onlar hər şeyə hazır olmalı, çoxlu səriştələrə malik olmalı və yüksək adaptiv potensiala malik olmalıdırlar, çünki həyatda nəyin faydalı olacağı və cəmiyyətin necə olacağı bilinmir [1, s.135].

Natamam ailələrdən olan yeniyetmələrin həyat planlarının formalaşması və dərk edilməsi, fərdi həyat strategiyaları (orta planlar) ilə əlaqədar olaraq fərdin özünü təsdiqinə yönəlmiş ənənəvi və yeni dəyərlərin korrelyasiyasına əsaslanan ziddiyyətli, dəfələrlə təkrarlanan proses kimi həyata keçirilir.

Beləliklə, hamısı eyni vaxtda məqbul olan müxtəlif norma və dəyərlər kontekstində yeniyetmələrin əsas vəzifəsi və problemi seçim etməkdir. Qeyri-müəyyənlik və seçim risklərinin olması qorxu və qeyri-müəyyənliyə səbəb olur ki, bu da həyat məqsədinin qoyulmasını, dəyər şüurunun formalaşmasını və özünüidentifikasiyanı çətinləşdirir. Müvafiq olaraq, bu seçimin necə edildiyi sualı yeniyetmələrin dəyərləri və həyat planları psixologiyada əsas məsələyə çevrilir.

Həyat obrazının formalaşmasında yaş xüsusiyyətlərinin roluna və onlarda uğurun əhəmiyyətinə diqqət yetirməyə dəyər. Müasir tədqiqatlar təsdiq edir ki, 13-17 yaş arası yeniyetməlik zəruri şəxsi formalaşmaların və əqli qabiliyyətlərin formalaşması ilə əlaqədar tədqiq olunan prosesə həssasdır və onun aşağıdakı xarakterik xüsusiyyətlərini qeyd edir:

1. Dəyər yönümləri və özünüdərketmə sisteminin intensiv inkişafı , şəxsiyyətin formalaşmasının əsasına çevrilir.

2. Potensial sosial-rol seçimi diapazonu artır.

3. Əsas diqqət “gələcəyə can atmaq”dır: fərd üçün gələcək, fəaliyyətin uğuru həlledici əhəmiyyət kəsb etməyə başlayır və planlaşdırma ehtiyacı yaranır.

4. Şəxsiyyətin subyektivliyinin, onun fəaliyyətinin, əks etdirmə qabiliyyətinin və s.-nin yekun formalaşması var ki, bu da öz gələcəyini qurmaq və qarşıya qoyulan məqsədlərə nail olmaq vəzifəsini aktuallaşdırır. İnsan öz əməli fəaliyyətini və həyatını düzəltmək, öz hərəkətlərini və onların nəticələrini tənqidi qiymətləndirmək qabiliyyətinə malik olur.

5. Düşünmək bacarığı özünüz üçün “keçmiş – indi – gələcək” perspektivini qurmağa imkan verir.

6. İnsanın özü haqqında öz fikirlərinin ictimaiyyətlə əlaqələndirilməsi və nəticədə öz inkişaf perspektivlərinin şüurlu və müstəqil planlaşdırılması yolu ilə şəxsiyyətin özünüidentifikasiyası baş verir [2, s.146].

Mütəxəssislərin fikrincə, insanın daxili, ən dərin inanclarını əks etdirən, eyni zamanda xarici təsirlərə məruz qalan şəxsiyyətdaxili element kimi çıxış edən gələcək haqqında ideyalardır. Ə.Qədirov, Q.Cəfəri, K.A.Abulxanova-Slavskaya, M.A.Beluqina, E.N.Korneyeva, N.A.Loqinova, M.V.Osorina və digərlərinin yanaşmalarına əsaslanaraq, insanın həyat strategiyasının formalaşmasının aşağıdakı mərhələlərini nəzərdən keçirə bilərik:

1. Düşüncəli mövqe tutmaq, öz həyatını, gələcəyini formalaşdırmaq üçün düşüncə tərzini mənimsəmək. Burada retrospektiv refleksiya artıq baş vermiş fəaliyyətlərlə məşğul olur, perspektivli düşüncə isə proaktiv xarakter daşıyır və gələcək fəaliyyətləri uğur əldə etməyə istiqamətləndirir, potensial mümkün hadisələr və onların nəticələri haqqında düşüncələrə diqqət yetirir. Retrospektiv və perspektivin vəhdətində əks olunması arzu olunan gələcəyin formalaşması şərtləri nöqteyi-nəzərindən həyat şəraitinin təhlilini verir.

2. Mədəni və dəyər oriyentasiyalarının seçimi. Bu seçimin nəticəsi fərdin həyat dəyərlərinin fərdi iyerarxiyasıdır, seçim prosesi insanın ümumi mədəni inkişafı və onun sosial həyatın bütün müxtəlif norma və dəyərlərində hərəkət etmək qabiliyyəti ilə müəyyən edilir.

3. Məqsədin müəyyən edilməsi prosesi kimi. İstənilən gələcək haqqında şüur, iddiaların səviyyəsinin müəyyən edilməsi, şəxsi uğur modelinin qurulması var. Şəxsiyyətin məqsəd və dəyərlərinin nisbəti sosial mühitlə daxili ziddiyyətlərin və münaqişələrin mənbəyinə çevrilə bilər.

4. İstənilən gələcəyə nail olmaq üçün hadisə sisteminin layihələndirilməsi və qurulması. Mümkün nailiyyət yollarının və onların risklərinin təhlili əsasında optimalı seçilir, aralıq mərhələlər müəyyən edilir. Şəxsiyyətin sosial fəallığının dərəcəsini müəyyən edən davranış və qərar qəbuletmə tərzinin seçimi var.

5. Gələcək yol üçün strukturlaşdırılmış planın yaradılması. Şəxsin məqsədlərinə çatmaq üçün ətraflı həyat planı var. Burada bəzi məqsədlərə nail olmaq digərlərinin nailiyyətləri ilə ziddiyyət təşkil etmir və əsas həyat məqsədinin həyata keçirilməsi istiqamətində işləyir [3, s.110].

Yeniyetmələrin hələ də öz gələcəklərini parlaq, nikbin təsəvvür etmələri, xoşbəxt olmaq istəmələri, hər şeyin onların xeyrinə olacağına inanmaları, ən yaxşısına ümid bəsləmələri də vacibdir. Valideynlərə münasibətdə də dinamika var. Belə ki, ana uşaqların əksəriyyəti tərəfindən aktiv, təlaşlı, gərginlik yaradan kimi qəbul olunmağa başlayıb. Bəlkə də ana reallığa əsaslanmayan sadəcə subyektiv obraz deyil, yeniyetmənin həyatında əsl katalizatordur. Bu dövrdə analar övladlarının taleyi ilə bağlı daha çox narahat olmağa başlayır, xüsusən də məktəb həyatına daha çox müdaxilə edirlər. Ailədə natamamlıq olduğu zaman bu hər bir halda özünü biruzə verir.

Beləliklə, yeniyetmələr üçün gələcək həyat obrazı probleminin daha da aktuallaşdığı qənaətinə gələ bilərik. Yeniyetmələr öz gələcəkləri haqqında daha çox düşünməyə başlayırlar, onların gələcək imici daha fərqli, strukturlaşdırılmış oldu. Bu, yeniyetmələrin yaşadığı həyat vəziyyətindəki dəyişiklik, həmçinin onların psixoloji yetkinliyi ilə əlaqədardır.

***Nəticə.*** Gələcək yeniyetməlikdə müvəqqəti dominant olur. Yeniyetmə müstəqil həyat planları qurmağa meyllidir. Arzu olunan gələcəyin obrazı ilk növbədə nataman ailədən olan yeniyetmənin özünü xoşbəxt insan kimi qəbul etməsidir. Bu da bu yaş mərhələsinin xarakterik xüsusiyyətləri ilə bağlıdır. Ona görə də yeniyetmənin ideyalarını başa düşmək onun sosiallaşma prosesini müəyyən edən həm psixoloji, həm də şəxsiyyətdaxili amilləri nəzərə almamaq mümkün deyil.

## ƏDƏBİYYAT

1. Qədirov Ə. Yaş psixologiyası: ali pedaqoji məktəb tələbələri üçün dərs vəsaiti. Bakı: Maarif, 2008. 386 s.
2. Белинская Е.П. Представления подростков о своем социальном будущем // Мир психологии. 2000. № 4. С.135–147.
3. Белугина М.А. Структура и динамика формирования жизненной стратегии в юношеском возрасте // Ярославский педагогический вестник. 2008. № 4 (57). С. 109–111.
4. Наприс А.В. Теоретические и методические вопросы исследования личностных жизненных планов и их влияния на поведение осужденных молодежного возраста. Рязань: Узорочье, 2003. 258 с.
5. Семенова Е.Г. Особенности развития активной личности подростка // Среднее профессиональное образование. 2010. № 8. С. 37–39.
6. Эриксон Э. Детство и общество. СПб., 2002. 416 с.

# NATAMAM AİLƏLƏRDƏN OLAN YENİYETMƏLƏRİN GƏLƏCƏK HƏYAT OBRAZI: GÖZLƏNTİLƏR VƏ QORXULAR

***Əsədbəyli Nigar***

## XÜLASƏ

Məqalə natamam ailələrdən olan yeniyetmələrin özləri, dəyərləri və gələcəyi haqqında ideyasının təhlilinə həsr edilmişdir. 13-17 yaşlı yeniyetmələrə xas olan şəxsi xüsusiyyətlərin təhlili əsasında onların özünüidentifikasiyası və həyat məqsədlərini seçmə prosesləri nəzərdən keçirilir. Məqalədə müasir yeniyetmələrin gözləntilərinin "bulanıqlığı" və həyat planlarının qeyri-müəyyənliyi problemi qaldırılır. Həm həyat planlarının mürəkkəb quruluşu, həm də post-sənaye dövründə sosiallaşmanın effektivliyinin aydın göstəriciləri sisteminin olmaması ilə əlaqəli natamam ailələrdən olan yeniyetmələr tərəfindən həyat təlimatlarının seçilməsi prosesindəki ziddiyyətlərin xarakterik xüsusiyyətləri verilir. Gələcəyin həyat obrazına xas olan əsas xüsusiyyətlər (subyektivlik, refleksivlik, emosionallıq, məqsədyönlülük axtarışı), arzu olunan və arzuolunmaz gələcəyin əsas xüsusiyyətləri göstərilir. Uğur və xoşbəxtlik ideyasının ailə, iş, özünü həyata keçirmə, maddi rifah, ünsiyyət dəyərləri ilə əlaqəsi təqdim edilir. Yeniyetmələrin hər hansı bir məqsədə çatmaq üçün qabiliyyətlərinə mütləq inam onların tərcümeyi-halı, gözləntiləri və həyat obrazı üçün həddindən artıq məsuliyyətə səbəb olduğu zaman özünü təqdim etmə nümunəsində özünü biruzə verir.

# БУДУЩАЯ ЖИЗНЬ ПОДРОСТКОВ ИЗ НЕПОЛНЫХ СЕМЕЙ: ОЖИДАНИЯ И СТРАХИ

***Асадбейли Нигяр***

## АННОТАЦИЯ

В статье анализируются представления подростков из неполных семей о себе, своих ценностях и своем будущем. На основе анализа личностных особенностей подростков 13-17 лет рассматриваются процессы их самоидентификации и выбора жизненных целей. В статье поднимается проблема «размытости» ожиданий современных подростков и неопределенности жизненных планов. Как сложная структура жизненных планов, так и отсутствие четкой системы показателей эффективности социализации в постиндустриальный период характеризуют противоречия в процессе выбора жизненных ориентиров подростками из неполных семей. Показаны основные черты образа жизни будущего (субъективность, рефлексивность, эмоциональность, поиск целеустремленности), основные черты желаемого и нежелательного будущего. Представление об успехе и счастье представлено в связи с ценностями семьи, работы, самореализации, материального благополучия, общения. Абсолютная вера подростков в свою способность достичь любой цели отражается на примере самопрезентации, когда их биография, ожидания, образ жизни приводят к крайней ответственности.

# THE FUTURE LIFE OF ADOLESCENTS FROM INCOMPLETE FAMILIES: EXPECTATIONS AND FEARS

***Asadbaylı Nigar***

## SUMMARY

The article analyzes the ideas of teenagers from single-parent families about themselves, their values and their future. Based on the analysis of personal characteristics of 13-17-year-olds, the processes of their self-identification and selection of life goals are considered. The article raises the issue of "blurring" the expectations of modern adolescents and the uncertainty of life plans. Both the complex structure of life plans and the lack of a clear system of indicators of the effectiveness of socialization in the post-industrial period characterize the contradictions in the process of choosing life instructions by adolescents from single-parent families. The main features of the way of life of the future (subjectivity, reflexivity, emotionality, the search for purposefulness), the main features of the desired and undesirable future are shown. The idea of success and happiness is presented in connection with the values of family, work, self-realization, material well-being, and communication. Adolescents' absolute belief in their ability to achieve any goal is reflected in the example of self-presentation when their biography, expectations, and lifestyle lead to extreme responsibility.

# HƏKİMLƏRDƏ EMOSİONAL TÜKƏNMİŞLİK SİNDROMUNUN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Cəlilova Aisa Əbülfət qızı***
***BDU-nun II kurs magistrantı***
***aisa.calilova@mail.ru***

***Açar sözlər:*** peşəkar məmnunluq, tükənmə, stress, emosional tükənmişlik.
***Key words:*** professional satisfaction, exhaustion, stress, emotional exhaustion.
***Ключевые слова:*** профессиональное удовлетворение, истощение, стресс, емоционалное истощение.

İnsan həyatının müəyyən mərhələlərində tükənmişlik, yorğunluq, həvəssizlik kimi müxtəlif amillərin səbəb olduğu problemlərlə üzləşir. Gərgin həyat və iş rejimi, dünyada baş verən və əvvəlcədən proqnozlaşdırılan qlobal problemlər insanda pessimist fikir və duyğuların yaranmasına gətirib çıxarır. Tükənmişliyin simptomları olaraq bunları misal göstərə bilərik. Əvvəlcə emosiyalarda sönmə müşahidə olunur. Zahirən hər şey normal görünsə də daxildə boşluq və darıxma hissləri olur. Sonra isə birlikdə işlədiyi insanlar onu qıcıqlandırmağa başlayır və o ünsiyyət zamanı onlara qarşı xoşa gəlməz hisslər duyduğunu anlayır. İlk əvvəl o bu hissləri idarə edə bilir, onlara qıcıq olduğunu bildirmir. Zaman keçdikcə bu qıcıqlanmanı gizlətmək daha da çətinləşir, nəhayət yığılmış qəzəb partlayışla ətrafa yayılır. Bu partlayışın günahkarı isə həmin an təsadüfən yaxınlıqda olan, heç nədə günahı olmayan bir insan – müştəri, həmkar, tədarükçü və s. ola bilər [2].

Son mərhələdə isə insanın özünü qiymətləndirməsi aşağı səviyyəyə enir. Ətrafa qarşı hörmətlə davranmaq insanda vərdiş kimi formalaşdığı üçün yenə bu halı davam etdirə bilər, özünü ləyaqətlə aparar. Lakin hər şey onun üçün sanki əhəmiyyətsiz olur və o laqeydləşir. İnsanlarla ünsiyyətə girmək, münasibət qurmaq artıq onu narahat etməyə başlayır. Son mərhələdə sağlamlıqda pozulmalar, yuxusuzluq, spirtli içkilərdən, siqaretdən, dərmanlardan, psixotrop maddələrdən həddindən çox istifadə halları müşahidə olunur.

Uzun illər aparılan mühüm araşdırmalar həkim, tibb bacısı, diş həkimi səhiyyə sektorunda çalışan işçilərdə tükənmə riskinin daha yüksək olduğunu göstərir. Səhiyyə işçilərinin və həkimlərin həyatına yaxından təsir göstərən tükənmişlik sindromunun müalicəsi problemin qarşısının alınması baxımından əhəmiyyətlidir.

Həkimlər ümümi əhaliyə nisbətən daha çox işləyirlər və çox vaxt şəxsi və iş həyatlarını eyni anda idarə etməkdə çətinlik çəkirlər. Bundan əlavə həkimlər daim kədər, qorxu və ölümlə üzləşir, xəstələrin ailələri ilə çətin qarşılıqlı əlaqədə olurlar. Son illər həkimlərin peşekar məmnunluq səviyyəsinin də aşağı düşməsj müşahidə olunur. ABŞ-da bütün peşələr arasında intihar göstəricilərinin ən yüksək olduğu peşənin həkim olduğu, intihar göstəricisinin yüksək olmasının əsas səbəbinin isə tükənmişlik olduğu düşünülür.

Həkimlərin peşəkar tükənməsi tibbi xidmətin keyfiyyətini aşağı salan və səhiyyədə insan resursları siyasətinin effektivliyini azaldan geniş yayılmış dünyəvi problemdir.

Həkimlərdə emosionak tükənmişlik sindromuna səbəb olan amillərə misal olaraq aşağıdakıları qeyd etmək olar:

1- İş yükünün çox olması.
2- Uzun iş saatı.
3- Xroniki xəstələrlə məşğul olmaq.
4- Xroniki iş stressi.

5- İş yerində münasibət və vəzifə paylaşımı ilə bağlı yaranan problemlərin olması.

6- Həmkarlar arasında yaranan bəzi münaqişələr..

7- Həkimlərin öz sahəsi ilə bağlı məlumatının kifayət qədər olmaması.

8- Xəstəxana rəhbərliyinin yaratdığı aşağı səviyyəli iş mühiti

9- Gərgin iş rejimi ilə əlaqəli öz şəxsi həyatına kifayət qədər vaxt ayıra bilməmə, ailədən uzun müddət uzaq qalmaq.

10-İşçi çatışmazlığı.

Həkimlərdə tükənməyə təkan verən amillər bölgələrə, cinsinə və şəxsi xüsusiyyətlərinə görə dəyişə bilər.

Girgin həkimlərdə və ya tibb işçilərində tükənmişliyə səbəb olan amilləri ətraf mühit və şəxsi səbəblər olmaqla iki əsas qrupa ayırmışdır.

İş mühiti, iş yükü, kollektivdəki münasibətlər və rol qarışıqlığı, peşə stajı, sosial dəstəyin olmaması, peşənin dəqiq müəyyən edilməməsi, idarəetmə problemləri, iqtisadi problemlər, iş yerinin fiziki şəraiti, ailə və sosial səbəblər tükənmişliyin ətraf mühitlə əlaqəli olan səbəblərinə aiddir.

Bütün digər mütəxəssislər kimi həkimlər və tibb işçiləri də məzun olduqdan sonra uyğun iş tapmağa çalışırlar. Onlar üçün bu yaxşı təşkil olunmuş xəstəxana, sağlam fiziki mühit, istifadəyə yararlı avadanlıqlar, birlikdə səmərəli fəaliyyət göstərə biləcəyi kollektiv, gərgin olmayan iş saatı və s. kimi şərtlərdir.

Həkimlərin belə bir şəraitdə işləməsi peşənin sevilməsi, iş səmərəliliyinin artması və gözlənilən səviyyədə xidmət göstərilməsi deməkdir. Lakin praktikada sadalanan şərtlər arzuolunan səviyyədə deyil. Bu vür qeyri-adekvat mühit amilləri və iş şəraiti tibb işçilərində görünən və görünməyən neqativ halların yaranmasına səbəb olur.

Ailə vəziyyəti, uşaq sayı, yaş, iş təcrübəsi, motivasiya səviyyəsi, özünə hörmət, güc, məyusluğa qarşı müqavimət səviyyəsi, işə həddindən artıq həvəs, şəxsi gözləntilərib səviyyəsi, dözümlülük tekənmişliyin şəxsi səbəblərinə misal ola bilər.

Həkimlərin və ya digər tibb işçilərinin ailə vəziyyəti (çox uşaqlı olması, ailə menasibətlərinin zəif olması, boşanmış və ya ayrı) tükənməyə olan meylliliyi artıra bilər.

Bundan başqa əlçatmaz məqsədlərin olması, zehni yorğunluq, özünü həddindən artıq motivasiya etməyə çalışmaq, sərt qaydalar, hər şeyi mükəmməl etmək istəyi, vaxtı çatmamış vəzifə artımı kimi amillər də tükənmişliyin yaranmasına təkan verə bilər.

Əksər xəstəxana və klinikalarda xəstələr və işçilər bir-biri ilə daim qarşılıqlı əlaqədədirlər. Əksər xəstələr və onların yaxınları yaşadıqları stress, narahatlıq və depressiyanı tibb işçilərinə eks etdirə bilərlər. Bu cür hallar da işçilərdə tükənmişliyin meydana çıxmasına təkan verən amillərdəndir.

Xəstə ilə qarşılıqlı əlaqə xüsusən də ölüm halının qarşısını almaq ehtiyacı həmin işçilər üçün ən böyük stress halıdır. İşçilər ya öz keçmişi və şəxsi xüsusiyyətləri ilə bu stressin öhdəsindən gələcəklər, ya da öhdəsindən gələ bilməyib əziyyət çəkəcəklər. Xəstələrlə olan münasibətin fərdiləşməsi halında səhiyyə işçiləri güclü tükənmə yaşaya bilərlər [5].

Bütün bunlardan sonra emosional yanmanın simptomları da müşahidə olunmağa başlayır və bu simptomlar da öz növbəsində üç qrupa bölünür.

Psixofiziki simptomlar:

1) Daimi yorğunluq halı, xroniki yorğunluq simptomu;

2) Emosional və fiziki tükənmə hissi — bu simptomun inkişafına səbəb olan amil yüksək aktivlik dövrü ilə əlaqəlidir, insan özünü bütünlüklə işə həsr edir, digər tələbatlarından imtina edir, öz ehtiyaclarını unudur, sonra isə tükənmənin ilk əlaməti başlayır. Tükənmə özünü həddindən artıq gərginliyə salma, emosional və fiziki cəhətdən çökmüş hiss etmək, hətta gecə

yuxusundan sonra belə keçməyən yorğunluq hissi ilə müəyyən olunur. Bir az istirahətdən sonra sözü gedən təzahürlər nisbətən azalsa da əvvəlki iş vəziyyətinə qayıtdıqda vəziyyət yenə də gərginləşir;

3) Özünü təcrid- ətraf aləmdə baş verənlərə qarşı reaksiyanın və hissiyyatlılığın aşağı səviyyəyə düşməsi. Bu zaman insanda ətrafda baş verə biləcək yeniliklərə maraq olmur və ya hansısa təhlükəli bir situasiyaya qarşı qorxu reaksiyasınən yoxluğu müşahidə olunur;

4) Tez-tez səbəbsiz baş ağrıları və tez-tez mədə-bağırsaq sistemində baş verən səbəbsiz yerə baş verən kəskin ağrılar;

5) Ümumi astenzasiya (fəallığın və enerjinin aşağı düşməsi, qanın biokimyasının, hormonal göstəricilərin pisləşməsi)

6) Çəkinin kəskin azalması və ya artması;

7) Tam və ya hissəli yuxusuzluq;

8) Daim yuxulu hiss etmək, bütün gün ərzində yatmaq istəmək;

9) Daxili və xarici sensor hissiyatı qabiliyyətinin zəifləməsi; görmə, eşitmə, iybilmə, toxunaraq hissə etmə qabiliyyətlərinin pisləşməsi [18,səh.199].

Sosial psixoloji simptomlar:

1) Laqeydlik, passivlik və depressiya (emosional tonusun aşağı düşməsi, dalğınlıq).

2) Həm işdə, həm də şəxsi həyatda arsızlıq və sərtlik;

3) Ən əhəmiyyətsiz hadisələrə qarşı belə, həddindən artıq emosional şəkildə qıcıqlanma, əsəbiləşmə;

4) Daima mənfi əhval ruhiyyədə olma, zahiri səbəblər olmadan əhvalın pisləşməsi,özünü günahlandırma, inciklik, küsəyənlik, hər şeyə şübhə ilə yanaşma, xəcalət;

5) Hiper məsuliyyət hissi və daima keçəməyən qorxu hissi,, sanki «nəsə alınmayacaq» ya da insan «bunun öhdəsindən gəlməyəcək»

6) Həyati və peşəkar perspektivlərə, gələcəyə ümumi neqativ köklənmə (məsələn, «Nə qədər çalışsan da, yenə də bir yerə çıxmaq olmur, elə yerində sayırsan»bu kimi hislər);

7) Ailə, dostlar, həmkarlar tərəfindən kifayət qədər dəstək olmaması hissi,yalnız qalmaq qorxusu kimi hisslər;

3) Davranış simptomları:

1)işin getdikcə daha da ağırlaşması və onu yerinə yetirilməsinin günü-gündən daha çox çətinləşməsi hissi;

2) işçi getdikcə iş gününün rejimini dəyişməyə başlayır, ya işə tez gəlib, hamıdan gec gedir, və yaxud da tam əksinə,işə hamıdan daha gec gələrək ,işdən isə hamıdan daha tez gedir.

3) ehtiyac olmadan işi evdə etmək üçün özü ilə götürür, lakin evdə də onu edə bilmir;

4) rəhbər qərar qəbul etməkdən imtina edir, bunun səbəbini özünə və digərlərinə izah etmək üçün bəhanələr, bəraətlər fikirləşir;

5) özünü yararsız, lazımsız hiss etmək, işə qarşı münasibətdə ruh yüksəkliyinin aşağı düşməsi ;

6) əsas məsələlərin yerinə yetirilməməsi, xırda detallarda ilişib qalma, iş vaxtının böyük hissəsindən müəssisə tələblərinə və nizamnaməsinə uyğun olmayan şəkildə istifadə;

7) spirtli içkilərdən sui-istifadə, gün ərzində çəkilmiş siqaretlərin sayının kəskin artması, narkotik vasitələrdən istifadə;

8) işdəki problemin həlli üçün alternativ yolların axtarılmasına marağın azalması;

9) həm ailədə,həm də digər münasibətlərdə soyuqluq.

Müşahidələr göstərir ki, peşəkar yanmanın əlamətləri yoluxucu ola bilər, yəni heç də mütləq deyil ki, ondan yalnız bir insan əziyyət çəksin. Bu halı bütün kollektiv eyni anda yaşaya bilər. Təşkilatların da peşəkar yanma halları nadir hadisə hesab olunmur, çünki bu halda təşkilatın

əməkdaşlarının böyük əksəriyyəti fiziki və emosional gərginlikdən, tükənmədən əziyyət çəkə bilər. Bu zaman əməkdaşlar arasında şəxsi fərqlər asta-asta yoxa çıxır, bu ayrı-ayrı fərdlər getdikcə qeyri təbii şəkildə bir-birinə daha çox oxşayır və eyni olmağa başlayır, sanki bir simaya çevrilirlər. İnsanlar pessimist olur, işdə hər şeyin düzələcəyinə dair inamları olmur. Görülən işin keyfiyyət səviyyəsi aşağı düşür, məntiqi səbəblərlə izah olunmayan istefa və qovulma halları müşahidə olunur.. Kollektivdə neqativ abı-hava hökm sürür.

Burn-out sindromu 4 mərhələ ilə ifadə olunur.Bu təsnifatlandırma emosional yanmanı başa düşməyi asanlaşdıran bir dünyagörüşü təmin edir.Lakin əslində yanma insanın bir mərhələdən digərinə keçdiyi dəhşətli bir proses deyil,davamlı bir faktdır.

Birinci mərhələ – Şövq və coşğu mərhələsi:bu mərhələdə yüksək bir ümidlilik,enerjidə artma və həqiqi olmayan ölçülərə çatan peşə gözləntiləri sərgilənir.Şəxs üçün peşəsi hər şeyin önündədir, yuxusuzluğa, gərgin iş mühitlərinə,özünə və həyatın digər istiqamətlərinə zamanını və enerjisini ayırmamağına qarşı üstün bir uyğunlaşma cəhdindədir. Vəzifələrin yerinə yetirilməsi zamanı, qeyri-iradi davranış: hansısa məqamları unutmaq (məsələn, sənədlərə lazımı qeydlər edilibmi, planlaşdırılmış suallar verilibmi, bəs hansı cavab alınmışdı), hər hansı bir hərəkət verici fəaliyyətlərin həyata keçirilməsində nöqsanla, sıradan çıxmalar və s. Adətən bu ilkin simptomlara çox az adam diqqət yetirir, bir birinə hətta deyir: «huşsuz, yaddaşı quş yaddaşdır elə bil», «skleroz olub getmişəm». Fəaliyyət xarakterindən, iş yükünün böyüklüyündən və mütəxəssisin şəxsi xüsusiyyətlərindən asılı olaraq, ilk mərhələ üç-beş il çəkə bilər.

İkinci mərhələ - Durğunluq mərhələsi:bu mərhələdə artıq istək və ümiddə müəyyən dərəcədə azalma olur. Peşəsini tətbiq edərkən qarşılaşdığı çətinliklərdən,daha əvvəl əhəmiyyətsiz yanaşdığı bəzi məqamlardan gedərək narahat olmağa başlayır. Tələb olunan işdən əlavə heç bir şey edə bilmir. Çünki,artıq peşəsi nəzəri və praktik bütün tərəfləri ilə insanın mövcudluğunu tamamilə əhatə edə bilmir. İşə marağın azalması, ünsiyyətə olan tələbatın aşağı düşməsi (həmçinin də evdə və ya dostlar ilə müşahidə olunur. Fəaliyyət istiqaməti üzrə mütəxəssis ünsiyyətdə olmalı olduğu adamları (müştərilər, həmkarlar, rəhbərlər) «görmək istəmir», dördüncü gün özünü elə hiss edir ki, sanki artıq beşinci gündür, bu həftə heç bitmək bilmir kimi fikirlər gəlir, insanda həftə sonuna qarşı apatiya, acıq hissləri yaranmağa başlayır, davamlı somatik simptomların yaranması (güc, enerji yoxluğu, xüsusən də həftə sonuna yaxın, axşam tərəfi baş ağrıları, «ölü yuxu, heç bir yuxu görmədən», xəstəliklərə meyliyin artması, normadan yüksək qıcıqlanma, həssaslıq. Bu mərhələnin davamiyyət müddəti-orta hesabla beş ildən 15 ilə qədər çəkə bilər.

Üçüncü mərhələ - Maneə mərhələsi: başqa insanlara kömək və xidmət etmək üçün işə başlamış olan şəxs,insanları,sistemi, mənfi iş şəraitini dəyişdirmənin nə qədər çətin olduğunu anlayır. Davamlı bir maneəçilik duyğusu yaşayır. Bu nöqtədə 3 yoldan biri seçilir. Bunlar adaptiv müdafiə və həll etmə strategiyalarını hərəkətə keçirmə,maladaptif müdafiələr və həll etmə strategiyaları ilə emosional yanmaya təhrik etmə,vəziyyətdən özünü çəkmə və ya boyun qaçırmadır .

Dördüncü mərhələ – Laqeydlik mərhələsi (Apatiya-süstlük): Bu mərhələdə, çox dərin emosional qopma, dərin bir inancsızlıq və ümidsizlik müşahidə edilir. Peşəsini iqtisadi və sosial təminat üçün davam etdirir,ondan zövq almır. Belə bir vəziyyətdə iş həyatı fərd üçün bir doyum və özünü reallaşdırma sahəsi olmaqdan çox,insana yalnız çətinlik və bədbəxtlik verən bir sahə olacaq. Tam şəxsi yanma özünü göstərir. Bu mərhələ nəinki işə, həm də bütünlüklə həyata qarşı bütünlüklə marağın azalması ilə xarakterikdir. İnsan emosional etinasızlıq, kütləşmə, daima gücsüzlük hiss edir. Özünü təcrid etməyə, tənhalığa can atır. Bu mərhələdə heyvanlar və canlı

təbiət ilə ünsiyyətdə olmaq, ona daha rahat və xoş gəlir, nəinki insanlar ilə. Bu mərhələ on ildən iyirmi ilə qədər davam edə bilər [3].

Emosional yanma sindromunun fazaları olaraq aşağıdakıları qeyd etmək olar:

1.Faza «gərginləşmə» Əsəbilik, gərginlik emosional tükənmənin başlamasından xəbər verən və onun yaranma prosesini işə salan bir mexanizmdir.

a. «Psixoloji sarsıntı şəraitinin yaşanması» simptomu. Bu zaman insan elə düşünür ki, onun iş şəraiti, fəaliyyəti onda psixi sarsıntı, travma yaradır və vaxt keçdikcə bu fikir güclənməyə başlayır, onun qarşısını almaq ya çox çətinləşir, ya da qeyri mümkün olur. Onun öz peşəsinə hiss etdiyi qıcıqlanma daha da güclənir.

b. «Özündən məmnun olmamaq» simptomu. Yaşadığı uğursuzluqlara və ya yaranmış neqativ vəziyyətə təsir göstərə bilməsiyinə görə insan özündən narazı olmağa başlayır. O, peşə seçiminə, tutduğu vəzifəyə görə narazılıq hissi keçirir. Yanmanın ilk mərhələsində insanlar gərginlik göstərməyə başlayır, sonradan isə özünümüdafiəyə keçirlər, yəni psixoloji müdafiə simptomu yaşanır.

c. «Qəfəsə sıxılmaq» simptomu. Bu cür sarsıdıcı şərait həddindən çox təzyiq göstərəndə və onları aradan qaldırmaq mümkün olmadıqda, insan elə düşünür ki, sanki çıxılmaz bir vəziyyətdədir. O, nələrisə dəyişməyə çalışır, öz işinin və ya fəaliyyətinin bəyənmədiyi, narazı olduğu cəhətlərini düşünüb müzakirə edir.. Əgər o çıxış yolu tapa bilmirsə, onda özünü «sanki, küncə, qəfəsə sıxılmış» kimi hiss edir. Bu vəziyyət «intellektual-emosional dalan, tıxac» halı hesab olunur.

2. Faza «tükənmə» Ümumi enerji tonusunun aşağı düşməsi və əsəb sisteminin zəifləməsi ilə xarakterizə olunur. Yanma formasında emosional müdafiə şəxsiyyətin ayrılmaz bir atributuna çevrilir [1].

Burn-out sindromu, fərqli bir formada, işə yeni başladıqda çox daha həyəcanlı və istəkli olan şəxslərdə daha çox müşahidə edilir. Bu vəziyyət, mütəxəssislər tərəfindən həmin insanların ilk həyəcanlarıyla daha çox enerji istifadə edərək qısa müddətdə tükəndiklərinə bağlanar. Emosional yanma sindromunun meydana gəlməsində olduqca təsirli 3 vəziyyət diqqəti çəkir:

Rol konflikti: bir-biriylə üst-üstə düşməyən məsuliyyətləri daşıyan insan, prioritetlər qoyaraq məsuliyyətlərini sıralamaq yerinə,hər şeyi eyni səviyyədə yaxşı etməyə çalışır. Bu vəziyyətdə müəyyən müddətdən sonra yorğunluq yaranır və nəticə burn-out sindromu olur.

Rolun qeyri-müəyyənliyi: işçi özündən yaxşı bir karyera portreti çəkməsinin gözlənildiyini bilir amma özünə model seçəcəyi biri olmadığından bunu necə edəcəyindən əmin olmur.Bu səbəbdən faydalı olacaq heç bir şeyi bacara bilmədiyi qənaətinə qapılır.

Həddindən artıq yüklənmə: heç kimə “xeyr” deməyərək öhdəsindən çətinliklə gələcəyi məsuliyyət ilə yüklənən şəxs nəticədə tükənmə nöqtəsinə gəlib çıxır.

Burn-out sindromunun yaranma səbəbi yalnız iş yerindəki şərtlər deyil. İş yeri şərtləri qədər çalışanlara aid xüsusiyyətlər də bu sindromunun ortaya çıxmasına təsir edir. Emosional yanma sindromu özündən, həyatdan və digər insanlardan gözləntiləri yüksək olan, insanlara əhəmiyyət verən,onların ehtiyaclarını qarşılamağa çalışan, insanlara dəyər verən, işini ən yaxşı şəkildə etməyə çalışan, həyatda yüksək hədəfləri və yüksək idealları olan, etdiyi işə gəlir gətirən bir hadisə olması ilə yanaşı başqa mənalar da yükləyən, yaşadığı hər problemdə özünü günahlandırmağa və özünü mənfi qiymətləndirməyə meyilli, çatışmazlıq duyğularına sahib, asanlıqla mənəvi pozuntu yaşayan insanlarda daha çox görülür. Həmçinin insanın iş həyatı,ailə həyatı və sosial həyatı kimi birdən çox sahədə stress yaşadan hadisə ilə qarşı-qarşıya qalması və stress yaşamağa uyğun bir şəxsiyyət quruluşuna sahib olması da bu sindromunun ortaya çıxmasını asanlaşdırır [1].

Tükənmişliyin təsiri təkcə fərdin iş həyatında görünmür, həm də onun şəxsi həyatında bir sıra problemlərin yaranmasına səbəb olur. Ən əsası da insanın yaşadığı bu problemlər onun ailəsinə də birbaşa təsir göstərir. Emosional tükənmə gərgin iş şəraiti nəticəsində yaransa da, onun təsirləri tükənmişlik yaşayan şəxsin ailəsi və dostları tərəfindən də hiss olunur. Nəticədə ailə üzvləri özlərini tənha və dəyərsiz hiss edir, başqa insanlara göstərilən diqqəti qısqanır və daima sözügedən şəxsi günahlandırırlar. Bu kimi hallar ailə münaqişələrinə və ailə üzvlərinin bir-birindən uzaqlaşmasına səbəb olur. Bu gün boşanmaların sayının artması işçilərin işdə uğur qazanmaq üçün ailə həyatını qurban verməsi ehtimalını gücləndirir.

Bunu qəbul etmək lazımdır ki, tükənmişlik sağlamlıq sahəsinin ümümi xüsusiyyəti və ya ona xas olan bir hadisədir. Tükənmişlik sindromunun bəzi amillərini səhiyyə işçiləri üçün daha geniş imkanlar yaratmaqla və ya iş mühitinin xüsusiyyətlərini dəyişdirməklə (qiymətləndirmə, mükafatlandırma, xəstələrin sayını məhdudlaşdırmaq və s.) azaltmaq olar.

## ƏDƏBİYYAT


1. Водопьянова Н., Старченкова Е., Синдром выгорания, СПб 2008.
2. Бойко В.В. Энергия эмоций.
3. Грабе М. Синдром выгорания болезнь нашего времени СПб 2008.
4. Akçamete G., Kaner S., Sucuoğlu B. (2001). Ögretmenlerde yükenmişlik iş doyumu ve kişilik. Ankara: Nobel.
5. Işıkhan V. Çalışanlarda tükenmişlik sendromu.
6. https://az.m.wikipedia.org
7. https://kayzen.az/blog/psixologiya/20052/emosional-yanma-sindromu.html
8. https://www.acibadem.com.tr/ilgi-alani/tukenmislik-sendromu/#genel-tanitim


## HƏKİMLƏRDƏ EMOSİONAL TÜKƏNMİŞLİK SİNDROMUNUN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Cəlilova Aisa***

### XÜLASƏ

Məqalənin əsas mövzusu həkimlərdə tükənmişliyə səbəb olan əsas amillər və tükənmişliyin işçinin fəaliyyətinə təsiridir. Tükənmişliyin iş həyatına təsiri peşəkar müvəffəqiyyətin azalması, pasiyentlərə və ya xəstələrə kifayət qədər diqqət göstərilməməsi, işdən uzaqlaşmaq və ya iş yerinin dəyişdirilməsi kimi göstərilə bilər. Tükənmiş bir insan daha pis işləyir. Nəticədə fərdin peşəkar uğurunun azalması təşkilatın uğuruna da əhəmiyyətli dərəcədə təsir göstərir. Bu hal yaradıcıllığa mane olur və fərdin həmkarları ilə effektiv işləmə qabiliyyətini azaldır.

## ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА СИНДРОМА ЭМОЦИОНАЛЬНОГО ГОРЕНИЯ У ВРАЧЕЙ

***Джалилова Айса***

### АННОТАЦИЯ

Основная тема статьи - основные факторы, вызывающие выгорание у врачей, и влияние выгорания на эффективность работы врачей. Истощение может привести к снижению профессионального успеха в трудовой жизни, недостаточному вниманию к больным и

пациентам, снижению интереса к работе или смена место работы. Измученный человек работает ещё хуже. В результате снижение профессионального успеха человека оказывает существенное влияние на успех организации. Это препятствует творчеству и снижает способность человека эффективно работать с коллегами.

## PSYCHOLOGICAL CHARACTERISTICS OF EMOTIONAL BURNING SYNDROME IN DOCTORS

***Jalilova Aisa***

**SUMMARY**

The main topic of the article is the main factors that cause burnout in employees and the impact of burnout on employee performance. Exhaustion can lead to reduced professional success in working life, lack of attention to clients and patients, reduced interest in work or dismissal. An exhausted person works worse. As a result, the decline in an individual's professional success has a significant impact on the success of the organization. This hinders creativity and reduces an individual's ability to work effectively with colleagues.

# İNTERNETİN MÜASİR TƏHSİL PROSESİNƏ TƏSİRİ

***dosent Hüseynova Gülnarə Qulu qızı***
***Əhmədova Aişə İlqar qızı***
***BDU-nun II kurs magistrantı***
*aisha_ahmadova99@mail.ru*

***Açar sözlər:*** yeniyetmə, İnternet, təhsildə kompüter texnologiyaları, sosial şəbəkə.
***Ключевые слова:*** подросток, Интернет, компьютерные технологии в образовании, социальная сеть.
***Keywords:*** teenager, Internet, computer technology in education, social network.

Bu gün İnternet ona çıxışı olan insanların əksəriyyətinin həyatının ayrılmaz hissəsinə çevrilib. İnternetin istifadəsi ilə mövcud olan imkanların çeşidi sürətlə genişlənir. İnternet xidmətləri bazarının İnternet seqmenti böyüyür ki, bu da təkcə iqtisadi deyil, həm də insanların sosial həyatına təsir göstərir. İnternet texnologiyasının getdikcə artan yayılmasının gətirəcəyi dəyişiklikləri proqnozlaşdırmaq çətindir, çünki bu bazarda innovasiyalar çox vaxt gözlənilmədən yaranır və dərhal auditoriyanı qazanır [1, s.39]. Bununla yanaşı, qeyd olunur ki, İnternet auditoriyası cavanlaşır - yeniyetmələr yeni texnologiyalara böyüklərdən qat-qat tez yiyələnir və müvafiq olaraq onlara tez qoşulurlar. Bu, həm mütəxəssislər - pedaqoqlar və psixoloqlar, həm də yeniyetmələrin kompüter texnologiyalarına erkən həvəsinin nəticələrindən narahat olan valideynlər arasında daimi mübahisələrə səbəb olur. Bu məqalə çərçivəsində biz kompüter texnologiyasının iki aspektinə müraciət edəcəyik: yeniyetmələrin sosial şəbəkələrdən istifadəsi və təhsildə onlayn texnologiyalar.

Birinci mövzu ən çox şəxsiyyət psixologiyası və diferensial psixologiya nöqteyi-nəzərindən öyrənilir - tədqiqatçılar internet asılılığının formalaşmasını izah edən bir sıra amilləri, habelə sosial şəbəkələrdən istifadəyə müxtəlif yanaşmaları müəyyən etməyə çalışırlar. İnternet asılılığı problemi ətrafında mübahisələr səngimir: bu fenomenin mahiyyəti və vəziyyəti, diaqnostika üsulları və psixoloji yardım müzakirə olunur. Bu problemdən təsirlənən insanların geniş dairəsi - yeniyetmələr və onların valideynləri, müəllimlər - bu problemi günümüzün ən aktual problemlərindən birinə çevirir. İkinci problem - internet texnologiyalarının təhsilə tətbiqi də eyni dərəcədə aktualdır. Tədris prosesinə texnoloji yeniliklərin tətbiqinin məntiqi təkcə öyrənmənin fərdiləşdirilməsinə və vaxta qənaətə əsaslanmır, həm də yeniyetməyə tanış olan öyrənmə formalarına əsaslanır. Xüsusilə, məktəb şəraitində yüksək həvəsli və istedadlı yeniyetmələrin ehtiyaclarını ödəmək çətindir, çünki müəllim onlara kifayət qədər diqqət yetirə bilmir. İnternet texnologiyaları bu baxımdan çox perspektivlidir, lakin onların müasir yeniyetmələrin həyatında hansı yeri tutduğunu başa düşmək daha vacibdir.

Yeniyetmələrin inkişafında sosial şəbəkələrin rolu ən çox şəxsiyyət psixologiyası və diferensial psixologiya nöqteyi-nəzərindən öyrənilir - tədqiqatçılar internet asılılığının formalaşmasını izah edən bir sıra amilləri, habelə sosial şəbəkələrdən istifadənin müxtəlif imkanlarını müəyyən etməyə çalışırlar. İnternet asılılığı problemi ətrafında mübahisələr səngimir: bu fenomenin mahiyyəti və vəziyyəti, diaqnoz və yardım üsulları müzakirə olunur. Hal-hazırda, şəxsiyyət xüsusiyyətləri ilə İnternet asılılığı riski arasındakı əlaqəyə dair artan sayda tədqiqatlar var. Həqiqətən də, problemi öyrənməyə başlayanda təəccüblənir ki, niyə İnternetə çıxış imkanlarının bərabər olmasına baxmayaraq, bəziləri yüksək informasiya texnologiyalarından asılı olur, bəziləri isə yox? *Daria J.Kuss, Mark D.Griffiths, Jens F.Binde*r işində şəxsiyyət xüsusiyyətlərinin İnternet fəaliyyəti ilə necə əlaqəli olduğu və asılılıq riski təsvir

edilmişdir [6, s.1989]. Tədqiqatda iştirak edən 2257 iştirakçının 3,2%-i İnternet asılılığı şkalasında klinik bal toplayıb. Məlum olub ki, şəxsiyyət xüsusiyyətlərinin və onlayn fəaliyyət xüsusiyyətlərinin İnternet asılılığının yayılmasına töhfəsi təxminən 21,5% təşkil edir. Yüksək səviyyədə nevrotiklik və internetdən əsasən alış-veriş üçün istifadə onlayn asılılıq riskini azaldır, onlayn oyunlara həvəs və yeni təcrübələrə açıqlıq isə əksinə, onu artırır. Eyni zamanda, tez-tez İnternet alış-verişinin sosial şəbəkələrdən aktiv istifadəsi ilə birləşməsi, yüksək nevrotiklik və uyğunsuzluq, əksinə, bu riski artırır. Hətta buna görə də, ilk baxışdan bir qədər ziddiyyətli məlumatlar olsa da, İnternet asılılığının formalaşması probleminin son dərəcə mürəkkəb olduğu açıq-aydın görünür.

Yeniyetmələrin həmyaşıdları ilə ünsiyyətə yönəldilməsi, digər insanlar tərəfindən qəbul edilməsinin son dərəcə vacib olduğu bir vəziyyət yaradır. Sosial şəbəkələr dairənizi genişləndirməyə və qrupa uğurla inteqrasiya etməyə kömək edə bilər. Özünə hörmət və tənhalıq hissləri də vacib dəyişənlərdir. Tədqiqatçılar həm rifah hissinə, həm də İnternetdə keçirdikləri vaxta əhəmiyyətli dərəcədə təsir etdiyini vurğulayırlar. Bu araşdırma sosial şəbəkələri yeniyetmənin psixoloji durumunu depressiyaya salan amil kimi deyil, onun inkişafı üçün resurs hesab etməsi ilə diqqət çəkir. Müzakirə olunan sahədə məlumatların müxtəlifliyi və uyğunsuzluğu bu ekstremal baxışların heç birini tamamilə ədalətli hesab etməyə imkan vermir. Real ünsiyyətin sosial şəbəkələr vasitəsilə ünsiyyətlə əvəzlənməsi və İnternetdə ünsiyyətin ünsiyyət bacarıqlarının formalaşmasına nə dərəcədə təsir göstərməsi ilə bağlı çoxlu mübahisələr var. *R.Grieve* və onun həmkarlarının araşdırmasına görə, *Facebook*-da və real həyatda ünsiyyət qarşılıqlı əlaqədə inkişaf edə bilən iki fərqli istiqamətdir, lakin bu həmişə belə olmur [4, s.605]. Amma bu iki tendensiyanı da bir-birinə qarşı qoymaq olmaz: *Facebook* vasitəsilə çox ünsiyyət quran yeniyetmələr depressiya, narahatlıq və daha çox həyatdan məmnunluq miqyasında daha aşağı bal göstərirlər. Əldə edilən məlumatlar əsasında belə qənaətə gəlinir ki, sosial şəbəkə müsbət təsir göstərən yeni sosial alətlər təqdim edərək münasibətlərin inkişafında vasitəçi ola bilər. Xüsusilə, sosial şəbəkələr bütün istifadəçilərə ictimai hərəkatlarda və xeyriyyə tədbirlərində iştirak etmək imkanı verir. Hər gün həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş çoxlu sayda ərizə və məktublar yaradılır: təbiətin və memarlıq abidələrinin qorunması, xəstələrə və qocalara dəstək olmaq, infrastrukturun yaxşılaşdırılması və s.

Bir çox valideynlər və müəllimlər övladlarının təhsilə başladığı vaxtdan onların akademik göstəricilərinin aşağı düşdüyünü bildirirlər. *R.Junco* tərəfindən aparılan araşdırmalar, yalnız bu saytlarda sərf olunan vaxtı deyil, eyni zamanda bir neçə işi yerinə yetirməyi (müvafiq olaraq, xəbərləri oxumaq, profillərə baxmaq və s.) əlaqələndirərək daha incə bir əlaqə nümayiş etdirdi [5, s.29]. Müxtəlif məktəb siniflərinin şagirdləri üçün əldə edilən nəticələr fərqli idi. Orta məktəb şagirdləri *Facebook*-da daha az vaxt keçirirlər və onların fəaliyyətləri daha az çoxşaxəli olur. Akademik müvəffəqiyyətlə əlaqəyə gəlincə, bu saytda sərf olunan vaxt və akademik performans arasında mənfi korrelyasiya yalnız təhsilin ilk üç ilinin şagirdləri üçün xarakterikdir - bu, yuxarı sinif şagirdləri arasında tapılmadı. Tədqiqatçılar qeyd edirlər ki, sosial şəbəkələr sinif yoldaşları ilə münasibətlər qurmaq üçün vacibdir, lakin öyrənmə çətinlikləri yarada bilər. İnternetdə sərf olunan vaxt imtahana hazırlaşan vaxtdan daha çox akademik performansla əlaqələndirilirdi. Beləliklə, İnternetdə bir neçə motivasiya impulslarına əsaslanır [8, s.35]. Bu, baş verənləri idarə etmək arzusu, əyləncə, digər insanlarla əlaqə saxlamaq və asılılıqdır. Eyni mədəniyyətlərarası tədqiqatda korrelyasiyalardan biri zamanın qeyri-xətti qavrayışı, proseslərin tsiklik və kortəbiiliyə meyli ilə əlaqəli mədəniyyətin xüsusiyyəti olan polixroniya idi. Güman edilirdi ki, polikronik mədəniyyətlərin nümayəndələri İnternetdə çoxşaxəli fəaliyyətə daha çox meyllidirlər. Ancaq orta təhsil səviyyəsində İnternet texnologiyalarından istifadənin üstünlükləri,

sinifdəki şəraitin şagirdin ehtiyac və tələblərinə kifayət qədər uyğun olmadığı hallarda göz qabağındadır.

Yetkinlərin işdən və digər öhdəliklərdən kəsilmədən təhsillərini davam etdirdikləri zaman təhsil trayektoriyasının genişləndirilməsi tendensiyası onlara təlim problemlərini uzaqdan uğurla həll etməyə imkan verəcək texnologiyaların hazırlanması ehtiyacını doğurur. *H.Catalano* tərəfindən aparılan araşdırma üzbəüz qrup görüşlərinin əsasən məlumatlandırma və yeni məqsədlərin müəyyən edilməsi üçün istifadə edildiyi təhsil müəllimi hazırlığı proqramını təsvir edir [3, s.776]. Qeyd olunur ki, uğuru şərtləndirən əsas bacarıq vaxtınızı səmərəli idarə etmək bacarığıdır. Bu gün məlumatlar çox tez köhnəlir və ənənəvi təhsil sistemi belə bir yükün öhdəsindən gələ bilmir, çünki proqramı tez bir zamanda düzəltməyə imkan vermir. Kompüter texnologiyasından istifadə təkcə bu problemi həll etməyə deyil, həm də şagird təhsil prosesinin subyektinə çevrildikdə öyrənməni keyfiyyətcə yeni səviyyəyə qaldırmağa imkan verir. Buna onun öz seçimi ilə nail olur - tapşırığı nə vaxt və necə yerinə yetirməli, nə qədər çətindir, lazımi resursları harada axtarmaq lazımdır.

Aydındır ki, bu forma ilə müəllimin statusu da dəyişir - mentordan məsləhətçiyə çevrilir. Bu fikirlərə yaxın repetitorluq deyilən məntiqdir. Subyektiv yanaşma formatında təlim problemlərini səmərəli həll etməyə qadir olan xüsusi repetitorların hazırlanması zərurəti son dərəcə mühüm vəzifədir [9, s.405]. Tərbiyəçidən hər bir şagirdin fərdi xüsusiyyətlərini başa düşmək və nəzərə almaq, onun təhsil motivasiyasını - yeni şeylər öyrənmək və daha yaxşı olmaq istəyini artırmağa töhfə vermək tələb olunur. Təhsildə İnternet texnologiyalarından istifadə ilə bağlı bir sıra problemlərin həllinə töhfə verə biləcək texnologiya qarışıq öyrənmədir. Bu, ənənəvi üz-üzə dərsləri və distant təhsil texnologiyalarını birləşdirən formadır [7, s.614]. Bu iki komponentin nisbəti şagirdlərin yaşından və onların hazırlıq səviyyəsindən, öyrənilən fənnin xüsusiyyətlərindən və mövcud infrastrukturdan asılı olaraq dəyişə bilər. Lakin qarışıq öyrənmə yalnız orta məktəblə məhdudlaşmır. İnformasiya texnologiyalarının təhsilə ilkin mərhələdən tətbiqi artıq qanunvericilik səviyyəsində təsbit olunmuş reallıqdır. Belə təcrübə artıq mövcuddur və işlərində *Besnoy K.D., Dantzler J.A., Siders J.A.* istedadlı yeniyetmələrin tədrisi ilə məşğul olan 255 müəllimin təcrübəsini ümumiləşdirir [2, s.318]. Onların yaratdığı "rəqəmsal ekosistemin" formaları istedadlı şagirdlərin müxtəlif ehtiyaclarından asılı olaraq dəyişir, lakin tədqiqatçılar belə müəssisənin uğurunun asılı olduğu beş əsas şərti müəyyən edə biliblər. Bu amillərdən birincisi, yalnız maliyyələşdirmə ilə məhdudlaşmamalı olan məktəbdən ümumi dəstəkdir. Məlumdur ki, məktəb ən mühafizəkar sosial institutlardan biridir və orada yeniliyə qarşı müqavimət son dərəcə böyükdür. Rəhbərliyin və pedaqoji heyətin sərtliyi təhsil prosesini optimallaşdırmaq üçün istənilən səyləri inkar edə bilər. İkinci amil olan təhsil müəssisəsinin infrastrukturu da eyni problemlə bağlıdır. Üçüncü mühüm komponent müəllimin peşəkar inkişafıdır. İstedadlı yeniyetmələr xüsusi yanaşma tələb edir, hər təcrübəli müəllim geniş xüsusi biliyə malik olmadan onlarla uğurla işləyə bilməz. Peşəkarlıq və pedaqoji bacarıq səviyyəsinin daim təkmilləşdirilməsi tədqiqatda vurğulanan dördüncü məqamla - müəllimin yeni fəaliyyətə və onun şagirdlərinə münasibəti ilə əlaqələndirilir. Mühüm amil müəllimin texniki savadı idi: kompüter texnologiyasının səviyyəsi, işləyəcəyi mühitlə tanışlıq.

Müasir İnternet insanlar arasında ən effektiv ünsiyyət vasitələrindən biridir, ünsiyyət üçün müxtəlif platformalar və üsullar, o cümlədən e-poçt və sosial şəbəkələr vasitəsilə ani mesajlaşma təmin edir. İndi insanlar *Skype, Gmail, Telegram, Vkontakte* kimi xidmətlərdən və sosial şəbəkələrdən istifadə edərək dünyanın demək olar ki, İnternet xidmətlərinin mövcud olduğu hər bir yerindən bir-biri ilə əlaqə saxlaya bilirlər. Bundan əlavə, hər kəs İnternetdə maraq dairəsi tapa bilər. İnternet icması şəbəkə informasiya məkanının istifadəçiləri arasında müştərək fəaliyyət prosesində formalaşmış nisbətən sabit əlaqələr və münasibətlər sistemidir. İnternet

icmaların yaradılması üçün qeyri-məhdud imkanlar verir. Birincisi, orada oxşar baxışları olan insanları tapmaq daha asandır, ikincisi, İinternetdə tanışlıq və ünsiyyət daha asandır, çünki burada insan özünü real həyatdan daha rahat hiss edir, üçüncüsü, İnternet hiss və düşüncələrin sərbəst mübadiləsi imkanı verir, hər bir şəxs bloqlar, sosial şəbəkələr, videolar, podkastlar, elektron kitablar, infoqrafika və s. vasitəsilə sosial, iqtisadi, siyasi və ya ekoloji mövzularda öz fikrini bildirə bilər. Bu amillər çoxlu sayda İnternet icmalarının yaranmasına və inkişafına səbəb olmuşdur. Bundan əlavə, icmaları yaradan texnologiyaları quraşdırmaq və istifadə etmək asandır, bu gün hər kəs öz icmasını təşkil edə bilər. Hal-hazırda, bir sıra çox müxtəlif icmalar var: kulinariya, tibb və botanikadan tutmuş fizikaya, siyasətə və mühəndisliyə qədər. İnternet öz-özünə təhsil almaq üçün böyük imkanlar yaradır. Bu gün müxtəlif formalarda olur: tematik forumlarda məsləhətləşmələrdən tutmuş onlayn mühazirələrə qulaq asmağa, uzaqdan master-klasslara və vebinarlarda iştiraka qədər. İnternet getdikcə təkcə yeniyetmələr üçün deyil, həm də informasiyaya ehtiyacı olan digər insanlar üçün bilik kitabxanasına çevrilir. Şəbəkə müasir cəmiyyətin strukturunu dəyişdi, insanları bir-biri ilə birləşdirdi, coğrafi maneələri qırdı. Beləliklə, yuxarıdakı amilləri təhlil edərək belə qənaətə gələ bilərik ki, İnternetin insanların, o cümlədən yeniyetmələrin sosiallaşmasına təsirinin müsbət tərəfi kifayət qədər əhəmiyyətlidir. İnsanlar yeni İnternet platformaları, ünsiyyət və məlumat mübadiləsi üçün imkanlar əldə etdilər ki, bu da onların sosiallaşmasını asanlaşdıra və ya sürətləndirə bilər [8, s.39].

Müasir İnternetdə siz qeyri-məhdud vaxt sərf edə bilərsiniz, bu da sosiallaşmanın çətinlikləri və ünsiyyət bacarıqlarının əldə edilməsi ilə bağlı ciddi nəticələrə gətirib çıxarır. İnternetdə öz fəaliyyətləri ilə məşğul olan insanlar unudurlar ki, ətraflarında onların diqqətinə ehtiyacı olan real insanlar var, onlar ailəsi, dostları və həmkarları ilə normal münasibət qura bilmirlər, yad adamlarla görüşməyi demirlər. Sosial media sayəsində insanlar real dostlardan daha çox virtual dostlara önəm verirlər. Onlayn oyunlar yeniyetmələr üçün asılılıq yarada bilər. Bu, həmyaşıdları ilə əlaqə qurmaq və ünsiyyət bacarıqları əldə etmək kimi daha məhsuldar bir şey üçün istifadə edilə bilən qiymətli vaxt itirir. Üz-üzə ünsiyyətdə bütün arzuolunmaz qarşılıqlı əlaqə sözləri tamamilə əvəz edə bilən şifahi olmayan işarələrlə kəsilir. Şəbəkədə yaxınlıqda olmayan bir şəxslə ünsiyyət qurarkən, onun sarkazmını və ya səmimiliyini başa düşmək üçün yalnız məlumatı subyektiv şəkildə şərh edə bilən öz filtrləriniz var. Bizim daxili filtrlərimiz əhval-ruhiyyədən asılıdır, ona görə də çox ağır bir gündən sonra insanın aldığı semantik cəhətdən qeyri-müəyyən "xeyr" mesajı həmsöhbətin nəzərdə tutduğu kimi nəzakətli rədd cavabı əvəzinə kobud görünə bilər. Sosiallaşmaya ən böyük mənfi təsirlərdən biri də İnternetdən həddindən artıq istifadənin depressiyaya səbəb olan asılılığa səbəb olmasıdır. İnternetdə yeniyetmələrin sosiallaşmasına mənfi təsir göstərən digər amillər də var, məsələn, çoxlu sayda asanlıqla əldə edilə bilən qeyri-qanuni və uyğun olmayan məlumatlardır. Bütün bu mənfi cəhətlər yeniyetmənin sosiallaşmasını ləngidə bilər ki, bu da sonda ən yaxşı nəticələrə səbəb ola bilməz.

Yekun olaraq deyə bilərik ki, hazırda İnternet insanın və bütövlükdə cəmiyyətin həyatında mühüm yer tutur. O, insan şüurunu formalaşdıran əsas informasiya mənbəyinə çevrilmişdir. Əgər bir əsr əvvəl insanların daxili dünyası onların şəxsi qarşılıqlı əlaqəsi, peşə fəaliyyəti, səyahətləri əsasında formalaşırdısa, bu gün planetin o tayından xəbərləri öyrənmək üçün çox aktiv insan olmağa ehtiyac yoxdur. Buna görə də İnternetin insana təsiri iki şəkildə qiymətləndirilir: həm müsbət, həm də mənfi. İnternet insan şüuruna, əsasən onun mövqeyini və dünyagörüşünü formalaşdırır, insanların sosiallaşma qabiliyyətinə təsir göstərir.

**ƏDƏBİYYAT**


1. Əzimli Q. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Ali məktəblər üçün tədris vəsaiti. Bakı: Nurlan, 2008, 526 s.
2. Besnoy K.D., Dantzler J.A., Siders J A. Creating a digital ecosystem for the gifted educa6 tion classroom // Journal of Advanced Academics. 2012. Vol. 23, № 4. P. 305-325.
3. Catalano H. The Opportunity of Blended6learning Training Programs in Adult Educa6 tion6Ascertaining Study // Procedia6Social and Behavioral Sciences. 2014. Vol. 142. P. 762-768.

4. Grieve R. et al. Face to face or Facebook: Can social connectedness be derived online? // Computers in Human Behavior. 2013. Vol. 29, № 3. P. 604-609.
5. Junco R. Student class standing, Facebook use, and academic performance // Journal of Applied Developmental Psychology. 2015. Vol. 36. P. 18-29.
6. Kuss D.J. et al. Internet addiction in adolescents: Prevalence and risk factors // Computers in Human Behavior. 2013. Vol. 29, № 5. P. 1987-1996.
7. Kaur M. Blended Learning Its Challenges and Future // Procedia Social and Behavioral Sciences. 2013. Vol. 93. P. 612-617.
8. Kononova A., Chiang Y.H. Why do we multitask with media? Predictors of media multitasking among Internet users in the United States and Taiwan // Computers in Human Behavior. 2015. Vol. 50. P. 31-41.
9. Krasnova T., Demeshko M. Tutormediated Support in Blended Learning // Procedia Social and Behavioral Sciences. 2015. Vol. 166. P. 404-408.

## İNTERNETİN MÜASİR TƏHSİL PROSESİNƏ TƏSİRİ

***Əhmədova Aişə***

### XÜLASƏ

Bu məqalədə İnternetin müasir təhsil prosesinə təsiri araşdırılmışdır. Habelə, məqalədə yeniyetmələrin İnternetdən və xüsusən də sosial şəbəkələrdən istifadəsi kontekstində öyrənmə və fərdi inkişaf problemindən bəhs edilir. Bu resurslardan istifadə ilə bağlı ən çox araşdırılan iki sual müzakirə olunur: sosial şəbəkələrdə yeniyetmələr və təhsildə onlayn texnologiya. Ünsiyyət bacarıqlarının inkişafı, təhlükəsizlik, yeniyetmələrdə İnternet asılılığının riskləri və sosial şəbəkələrin öyrənmədə rolu ilə bağlı məsələlər təhlil edilir.

## ВЛИЯНИЕ ИНТЕРНЕТА НА СОВРЕМЕННЫЙ ОБРАЗОВАТЕЛЬНЫЙ ПРОЦЕСС

***Ахмадова Айша***

### АННОТАЦИЯ

В данной статье рассматривается влияние Интернета на современный образовательный процесс. В статье также рассматривается проблема обучения и личностного развития в контексте использования подростками Интернета и особенно социальных сетей. Обсуждаются два наиболее часто задаваемых вопроса об использовании этих ресурсов: подростки в социальных сетях и онлайн-технологии в образовании. Анализируются вопросы, связанные с развитием коммуникативных навыков, безопасностью, рисками интернет-зависимости у подростков и ролью социальных сетей в обучении.

## THE IMPACT OF THE INTERNET ON THE MODERN EDUCATIONAL PROCESS

***Ahmadova Aisha***

### SUMMARY

This article examines the impact of the Internet on the modern educational process. The article also discusses the problem of learning and personal development in the context of adolescents' use of the Internet and especially social networks. Two of the most frequently asked questions about the use of these resources are discussed: teens on social networks and online technology in education. Issues related to the development of communication skills, security, the risks of Internet addiction in adolescents and the role of social networks in learning are analyzed.

# SOYQIRIM ARAŞDIRMALARINDA CİNAYƏTKAR-QURBAN-İZLƏYİCİ MODELİNİN PSİXOLOJİ TƏHLİLİ

***Mənsumova İlkanə İmran qızı***
***BDU-nun II kurs magistrantı***
***ilkanamansum@gmail.com***

***Açar sözlər:*** Soyqırım, kütləvi qətl, cinayətkar, qurban, izləyici, şahid, travma.
***Ключевые слова:*** Геноцид, массовое убийство, преступник, жертва, очевидец, травма.
***Keywords:*** Genocide, mass killing, criminal, victim, bystander, witness, trauma.

"Soyqırım" termini 20-ci əsrin ortalarından etibarən istifadə olunmağa başlanmışdır. İstər beynəlxalq doktrinada, istərsə də beynəlxalq sənədlərdə soyqırım cinayətini təsvir etmək üçün istifadə edilən "genocide" termini ilk dəfə 1944-cü ildə Rafael Lemkin tərəfindən işlədilmişdir [8, s. 32]. XX əsrin əvvəllərində soyqırım cinayəti insanlığa qarşı cinayətlərin alt təsnifatı kimi qəbul edilmişdir.

Soyqırımı cinayətini bəşəriyyətə qarşı törədilmiş digər cinayətlərdən fərqləndirən xüsusiyyət ondan ibarətdir ki, soyqırım cinayəti irqi, dini, etnik, milli qrupu tam və ya qismən məhv etmək niyyəti ilə törədilir. Bunun əksinə olaraq, insanlığa qarşı olan cinayətlər fərdə qarşı qanunsuz davranışlar, işgəncə, təcavüz aktları və ya onun öldürülməsi məqsədilə törədilir. Bu baxımdan, soyqırım cinayətini təşkil edən əməllər tərifdə qeyd olunmayan digər qruplara və ya şəxslərə qarşı qəddarlıqla törədilmiş hərəkətlərdən fərqlənmir. Yəni, bir şəxsə qarşı törədilmiş cinayət bütün bəşəriyyətə qarşı törədilmişdir. Soyqırım əməlləri isə, insanlığın məhv edilməsi məqsədi daşıyan anti-humanist davranışdır.

İlk dəfə Beynəlxalq Hüquq (MAH) kontekstində Soyqırım BMT İdarə Heyətinin (UNIC) 11 dekabr 1946-cı il tarixli və 96 (I) saylı qərarı ilə açıq şəkildə cinayət kimi qəbul edilmişdir [1, s. 8]. Birləşmiş Millətlər Təşkilatının 260 saylı soyqırımla bağlı ilk nizamnaməsi, 1948-ci ildə Baş Assambleyanın qərarına uyğun olaraq, "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" adlı qətnamə (Soyqırım Konvensiyası) qəbul edilmişdir [1, s.12]. Qərar ilə:

- İrqi, dini, siyasi və digər qruplara qarşı soyqırım cinayəti və qrupun mövcudluq hüququnun qarşısını almağa yönəlmişdir,
- Nəticə etibarı ilə bu, bütün xalqlara aid olan və BMT-nin ruhuna zidd olan soyqırım cinayətinin cəzalandırılması beynəlxalq məsələyə çevrilmişdir,
- Heç bir halda qanuni əsası ola bilməyən bu cinayəti törədən şəxsin və tərəfdaşlarının kimliyi, eləcə də, mövqeyi əhəmiyyətsiz hesab olunmuşdur,
- Üzv dövlətlər bu cinayətin qarşısının alınması və cəzalandırılması üçün lazımi qanunvericilik aktlarının qəbul edilməsi qərarı alınmışdır,
- Soyqırımla mübarizə çərçivəsində Beynəlxalq əməkdaşlığının zəruriliyinə istinad edərək, müvafiq BMT Orqandan soyqırım konvensiyasının hazırlanması tələb olunmuşdur [6].

Konvensiyanın ikinci maddəsi soyqırımı "milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən məhv etmək məqsədi ilə törədilən aşağıdakı hərəkətlərdən hər hansı biri" kimi tərif edir [11, s. 79-80]:

- Qrup üzvlərini öldürmək;
- Qrup üzvlərinə ciddi bədən və ya psixi zərər vurmaq;
- Qrupun bütövlükdə və ya qismən fiziki məhvinə səbəb olmaq üçün hesablanmış həyat şəraitinin aşağı salınması;

- Qrup daxilində doğuşların qarşısını almaq üçün tədbirlərin görülməsi;
- Qrupun uşaqlarının zorla başqa qrupa köçürülməsi;

Konvensiya həm də imzalayan dövlətlərə soyqırımın "qarşısını almaq və cəzalandırmaq" üçün ümumi vəzifə qoyur.

Müəyyən hadisələrin soyqırım olaraq təyin edilməsi ilə bağlı bir çox siyasi mübahisələr də mövcud olmuşdur. Soyqırım və kütləvi qətllər mövzusunda psixoloji və tarixi araşdırmaların nəticəsi olaraq, soyqırım aktlarının kök səbəbləri psixoloji xüsusiyyətlər, patoloji şəxsiyyət xüsusiyyətləri və ya erkən uşaqlıq problemlərinə yönəlmiş cinayətkarlar haqqında patoloji baxışdan uzaqlaşmışdır. Bunun əvəzinə əsas diqqət insani – psixoloji və sosial proseslərin təhlilinə yönəlmişdir [14].

Bu baxımdan, Raul Hilberqin Holokost haqqında kitabı soyqırım ədəbiyyatında sosial rolların stereotipik üçbucağını formalaşdırdı [8, s. 115]: cinayətkarlar, qurbanlar və izləyicilər. Eyni zamanda, bir çox tədqiqatçı üçün bu tipologiya bəsit xarakter daşıyırdı. Məsələn, bəzi soyqırım alimləri, cinayət törədən qrupların daxilində olan lakin cinayət xarakterli hərəkətlər etməyən şahidlərlə, cinayətkar millətin hərəkətlərini əngəlləmək üçün müdaxilə etməyən digər millətlərin üzvləri olan izləyicilər arasındakı fərqlilikləri vurğulayırdılar [12, s. 293]. Oxşar şəkildə soyqırım təşəbbüskarları ilə qrup üzvlərini öldürmək əmrlərinə tabe olan ardıcıllar da biri-birindən fərqləndirilə bilər. Bundan başqa, hətta soyqırım qurbanları arasında da belə fərqlər qoyulurdu. Məsələn, bəzi qurban qrupları silahlı müqavimət göstərərkən, digərləri müəyyən gizli xidmətlərə üzv olmaqla cinayətkarlarla birləşərək sağ qalmağa çalışırdılar. Tarixi faktlar göstərir ki, bir sıra nümunələrdə bəzi qrupların ərzaq və ya təhlükəsizlik ehtiyaclarının yaranması səbəbilə həmin qruplar eyni anda cinayətkar-qurban-izləyici üçbucağının bütün mümkün rollarında iştirak edə bilər [13]. Lakin bu ziddiyyətləri və mürəkkəbliyi qəbul edərək soyqırım və sonrasındakı sosial rolları cinayətkar-qurban-izləyici üçbucağı modeli şəklində ayırmaq daha məqsədəuyğun hesab edilir.

Bununla bərabər, bu fərqləri yalnız sosial göstərici kimi görmək vacibdir. Bu rolların kimə məxsus olması insanların fərdi davranışlarının izahı olaraq deyil, soyqırımdakı mövqelərinin izahı olaraq qəbul edilməlidir

Bəzi soyqırımlarda (məsələn, Almaniyanın Cənubi-Qərbi Afrikadakı koloniyasında XX əsrin ilk soyqırımı hesab edilən Herero xalqının qətliamı kimi) törədən və törədilən xalq eyni deyil. İstənilən halda istər eyni ölkədə, istərsə də başqa ölkədə müxtəlif səbəblərdən soyqırım qurbanları "aşağı varlıqlar", "soyqırımı törədənlərdən fərqli varlıqlar" kimi dəyərləndirilir. Soyqırımlarda ümumi olan digər məqam isə soyqırımı müxtəlif səviyyələrdə həyata keçirən insanlardır [7, 75].

Bunlar necə insanlardır? Bu mövzuda aparılan araşdırmalar bu insanların asanlıqla düşünüldüyü kimi ruhi xəstə olmadığını, normal psixologiyaya sahib olduqlarını və ümumiyyətlə yaxşı təhsilli olduqlarını ortaya çıxarır [19].Yəni, belə nəticəyə gəlmək olar ki, cinayətkar hər kəs ola bilər. Cinayətkarın dövlət və ya oxşar təşkilatın rəhbəri olması şərt deyil.

Soyqırımı cinayəti iki ünsürdən ibarətdir. Cinayətin maddi ünsürünü - cinayəti təşkil edən əməllər, psixoloji ünsürünü – qəsd etmə aktı ifadə edir [7, 74]. Hər iki cəhət tədqiqatçı Tolgahan Alpyavuz tərəfindən sistemləşdirilərək aşağıdakı sxem vasitəsilə təsvir edilmişdir [14, s. 52]:




Heç bir soyqırım birdən-birə gündəmə gəlməmiş, az-çox uzun hazırlıq dövründən keçmişdir. Bu hazırlıq dövründə xalqın qorxuları, mədəniyyətə hopmuş bəzi inanc və qərəzlər məqsədyönlü şəkildə seçilərək soyqırıma uyğunlaşdırılmışdır. Bunlardan başlıcası özünü təhlükə altında hissetmə duyğusudur. Bu hissin mütləq real əsasa malik olması gərək deyil, şişirdilmiş, uydurma təhdid də ola bilər. Önəmli olan odur ki, ictimaiyyətin az da olsa bir hissəsi bunu fakt kimi qəbul etsin. Beləliklə, soyqırım "müdafiə xarakteri daşıyır" və bu səbəbdən illər sonra da soyqırım iştirakçıları və tərəfdarları tərəfindən müdafiə olunur.

Soyqırımda cinayətkar tərəfin psixologiyası özünümüdafiə mexanizmləri formalaşdırır. Psixologiya müdafiə mexanizmlərini fərdin müxtəlif səbəblərdən təhlükə hiss etdiyi, daxili və ya xarici münaqişələr yaşadığı, özünü bloklanmış hiss etdiyi zaman özünü qorumaq üçün inkişaf etdirdiyi vasitələr kimi müəyyən edir [16]. Müdafiə mexanizmlərinin əsas funksiyası fərdin narahatlığını müvəqqəti olaraq aradan qaldırmaqdır. Bu müvəqqəti rahatlama şəxsiyyətin özünü müdafiəsi baxımından müsbət hal olsa da, əsas problemi, narahatlıq törədən vəziyyəti aradan qaldıra bilmir. Təşviş halında özü-özünə aktivləşdirilən bu kimi vasitələrdən tez-tez və

həddindən artıq istifadə olunması bu kimi mexanizmlərə sığınmaq fərdin davranışında müxtəlif anormallıqlara və nevrotik nəticələrə səbəb ola bilər. Elə bu səbəblərdən, soyqırım törədən şəxslər psixoloji olaraq rahatlama, ətafındakı çirkinlikləri təmizləyərək özünü yaxşı hiss etmək üçün anormal hərəkətləri, vəhşilikləri asanlıqla yerinə yetirə bilir.

Bu müdafiə mexanizmi iki şəkildə özünü göstərir. Birincidə, insan öz dərdlərinin, məğlubiyyətlərinin günahını və ya məsuliyyətini başqalarının üzərinə qoyur. Hər cür məsuliyyət və təqsirləri özündən başqa insanlarda, idarəçilərdə, sistemdə, xarici qüvvələrdə və düşmənlərində axtarır. İkincisi, fərd öz səhvlərini başqalarında görür və başqalarını günahlandırır [16].

Cinayətkarın psixologiyası edəcəklərinə əsaslı səbəb kimi özlüyündə bir məntiq formalaşdıraraq öz daxili aləmində haqlılıq payı tapmağa çalışır. Narahatedici vəziyyətə qarşı fərd ağlabatan əsaslar tapır, rasionallaşdırır və beləliklə də, sıxıntı, narahatlıq yaradan vəziyyəti aradan qaldırır, bununla da əsl səbəbi gizlədir. Bu müdafiə mexanizmində insan davamlı olaraq öz davranışını və inancını əsaslandırmaq üçün səbəblər axtarır, ona görə də əks dəlillərə məhəl qoymur və öz səbəblərinin başqaları tərəfindən mühakimə edilməsindən narahat olur.

Digər bir müdafiə mexanizmi sayılan duyğulardan qaçma zamanı cinayətkar problemlərə əhəmiyyətsiz kimi yanaşır, problem ona təsir göstərmirmiş kimi rəftar edir. Beləcə, o, öz vicdanını susdurub, əslində çox sıxıldığı duyğulardan xilas olur və özünü rahatlaşdırır.

Bundan əlavə, ayrı-ayrı şəxslərin yaşadığı sosiallaşma prosesinə bağlı olaraq avtoritar xarakterə sahib olması onu soyqırımı törədən şəxsə və ya tərəfdarlarından birinə çevrilməsi üçün tək səbəb kimi göstərilməsi doğru deyildir. Bu uzun bir yoldur və digər amillərin təsiri də böyük rol oynayır. Nəzərə alınması gərəkli olan digər bir fakt da, ayrı-ayrı fərdlərin psixologiyayası qrup daxilində fərqli təsirlərə məruz qalaraq dəyişkənlik göstərə bilər. Daha sonra soyqırıma təkan verəcək amillər sırasına insanların "bizlər və onlar" siniflərinə bölünməsi, bir qrupun üzvləri digər qrupun üzvlərinə insan kimi baxmamaları və müxtəlif təhqiramiz tənqidlər etməsindən asılı olur. Görkəmli Amerika alimi Adam Cons 2011-ci ildə nəşr etdirdiyi "Soyqırım: Ətraflı giriş" kitabında tarix boyu insanların başqa qrupları yad kimi görmə funksiyalarının olduğunu qeyd edirdi [9, s.36]. Bütün bu deyilənlərlə yanaşı, soyqırımın həyata keçirilməsində "niyyət"in rolunun danılmaz olduğunu deməliyik. Digər tərəfdən, bu amil həmişə mübahisə doğuran bir mövzu olmuşdur [15].

Bundan əlavə, soyqırım amilinin tərkibində "nifrət" amili durmalıdır. Çünki biz əgər digər kütləvi şəkildə insan tələfatları ilə nəticələnən müharibələr ilə soyqırımı fərqləndirsək görərik ki, müharibələrdə iştirak edən ordu və ya polislər nifrət hissi olmadan da silahlandırılır və təlim alırlar. Lakin soyqırım prosesində isə bu vacib amillərdən biri sayılır [15].

Bir çox alimlər soyqırım hadisələrində üç əsas ictimai rolu araşdırmışdır. Bunlar cinayətkarlar, faciənin şahidləri və qurbanları olaraq ayırd edilir. Terminologiyada bunlara birlikdə Cinayətkar-Qurban-İzləyici kimi tez-tez rast gəlinir. Bu rolların hər biri özü-özlüyündə mürəkkəb psixoloji durumları əks etdirir.

Soyqırımdan sonra qurban qrupları arasında aparılan müxtəlif araşdırmalar, həyatda qalanlar, onların uşaqları və nəvələri üzrə həyata keçirilən müxtəlif psixoloji analizləri əks etdirir. Sağ qalanların yaşadıqları travmalarla bağlı məlumatlar ilk öncə kliniki psixologiyada öyrənilmişdir. Bu tədqiqatların əksəriyyəti travmanın nəticələrinə yönəlmiş faktları əks etdirir. Bu tədqiqatlar əsasında soyqırımda sağ qalanların və ya izləyicilərin travma sonrası stress pozğunluğu, güclü intiqam duyğularına qapılma kimi halları aşkarlanmış və qiymətləndirilmişdir [17].

Kollektiv şəkildə hücuma və yox olmaya məruz qalan qruplar hər zaman aciz olurlar və müqavimət göstərə bilmirlər.Bəzən qətliamlar bir etnik təmizlik planının parçası olaraq da gerçəkləşə bilər. Məsələn, Avropada II Dünya müharibəsindən sonra ən böyük insanlıq faciəsi

hesab edilən Srebrenitsa soyqırımında ən azı 8372 Bosniya vətəndaşı amansızcasına qətlə yetirildi. Etnik təmizlik - bir etnik qrupa mənsub insanların zorla yerindən tərk edilməsi məqsədini qoyan, fərqli bir siyasəti ifadə edir [15].

Soyqırım hadisələrində 3-cü tərəf kimi İzləyici fərd və ya qrupların da özünəməxsus psixologiyası olur. İzləyici tərəf özlüyündə soyqırım hadisələrində törədilən əməllərə haqq qazandırmır, lakin, müəyyən qorxular onu bu haqsızlığa qarşı susmağa vadar edir. İzləyici tərəf bir çox hallarda istəməyərəkdən və özü fərqində olmadan soyqırımda törədilən vəhşiliklərə ortaq olur. Çünki, bu əməlləri törətmək qədər buna şahid olub izləmək və səs çıxarmamaq bu hadisələrin inkişafına şərait yaradır.

İzləyici tərəf fərd və ya qruplardan əlavə, böyük təşkilatlar, hətta dövlətlər ola bilər. İzləyici soyqırım hadisələrinin gedişatından xəbərdar olsa da, onları əngəlləmək üçün heç bir fəaliyyət göstərmir, hadisələrə müdaxilə etmir. Fərd olaraq izləyici tərəf müəyyən fobiyalara, travmalara görə bu hadisələrə qarşı səssiz qalsa da, dövlət və ya böyük təşkilatların izləyici olaraq qalmasındakı əsas səbəb qorxu deyil, müəyyən mənfəətlər olur. Öz mənafeyini güdən izləyici qruplar soyqırımın törədildiyini qəbul etmir, əksinə soyqırım cinayətkarlarının tərəfini saxlayıb onlara haqq qazandırır, bu hadisələrin səbəbkarı kimi qurbanları günahlandırır. Soyqırım cinayətini törədənlərin cəzalandırılması üçün şahid qismində izləyici tərəflərin etirafları ədalətin təmin olunmasında xüsusi əhəmiyyət kəsb edir. Soyqırım qurbanlarının haqqlarının müdafiə olunması üzrə aparılan işlərin gedişatına təsir göstərən əsas tərəflərdən biri də məhz izləyici fərd və ya qruplar hesab olunur [16]. İstər fərd və ya qurplar, istərsə də dövlət və ya böyük təşkilatlar olsun əgər bu hadisələrə izləyici tərəf kimi yanaşaraq, soyqırım əməllərinə haqq qazandırırsa, onlar da bu cinayətləri törədənlərə ortaq sayılırlar.

Qeyd etmək lazımdır ki, post-soyqırımla bağlı klinik tədqiqatlar artdıqca nəsillərarası travma əlamətlərinin ötürülməsi məsələsi aktuallaşmışdır. Soyqırımın şahidi olan valideynlərdən doğulan uşaqlara fəlakətin dəhşəti və travmaları miras olaraq ötürüldüyü aşkarlanmışdır [15]. Bu travmalar uşaqlara valideynlərinin öz fəlakətli keçmişini necə qəbul etməsindən asılı olmayaraq ötürüldüyü fikri ortaya atılmışdır. Ortaya isə belə bir suallar çıxmışdır: Bu fəlakətin şahidi olan valideynlər öz keçmişləri ilə necə münasibət saxlamışdılar? Fəlakət dolu təcrübələrini övladlarından gizlədirdilər, yoxsa daima bu haqda danışırdılar? Hər halda valideynlərin faciəli keçmişi ailələrə öz psixoloji təsirini göstərmişdir. Bunun nəticəsində də həmin təsirlər nəsildən-nəslə ötürülürdü. Psixoloqların fikrincə, fəlakətin təsirlərinin ötürülməsinin müxtəlif yolları vardır. Bu yollar psixodinamik, sosiomədəni ailə quruluşu ilə və ya hətta, bioloji-genetik üsullarla da əlaqəli ola bilər [15].

Bu son ehtimal üçün demək olar ki, ailənin yaşadığı travma hər irsi xəstəlik kimi uşağa da keçir. Bəzi ekstremal hallarda, uşağın psixi aləmində pozulmalara və ya "travmatik stress pozuntusu" kimi xəstəliklərə də səbəb ola bilir. Alimlərin fikrincə, bu təsir bir növ epidemiyadır və onunla təmasda olan hər kəsə sirayət edir [15].

Soyqırımın təsirlərinin ötürülməsində valideyn-övlad münasibətləri mühüm rol oynayır. Çox ailələr var ki, heç vaxt öz fəlakətli keçmişindən danışmır, başlarına gələnləri gizli saxlayır və ailə daxilində soyqırım məsələsini tabuya çevirir. Bu vəziyyətin müxtəlif səbəbləri ola bilər. Ən güclü ehtimal odur ki, sağ qalan nəsil övladlarının ruh dünyasını qan və gözyaşı ilə dolu hekayələrlə çirkləndirmək istəmir və övladlarının bütün həyatları boyu daşıdıqları o qorxulu xatirələrdən əziyyət çəkməsinə şərait yaratmırlar.

Yenə də psixoloqların fikrincə, bu situasiyalarda uşaqlar daha ağır travma alır və mənbəyi aşkar olunmayan depressiyaya düşürlər [16]. Hətta bəzi hallarda sirr kimi saxlanılan gerçəkliyin onlardan qaynaqlandığını zənn edir və ciddi psixi depressiyalara məruz qalırlar. Bunun əks qütbündə isə, bəzi ailələr davamlı öz milli, irqi, etnik kimliklərini uşaqlarına daim xatırladır,

onları bu inanclardan və tabulardan asılı şəkildə yetişdirirlər. Belə böyüyən uşaqlarda milli, irqi fobiyalar formalaşır, onlarda şüuraltı qorxudan yaranmış asosiallıq, agressivlik müşahidə olunur. Bu isə, onların məktəb, iş həyatında qarşılaşacaqları fərqli mədəni keçmişə sahib, dini, irqi və etnik fərqləri olan şəxslərlə ünsiyyətə girməsini çətinləşdirir. Hətta, onların həyat keyfiyyətinin aşağı düşməsinə, özünə qapanıq və şiddətə meyilli şəxs kimi yetişməsinə səbəb olur. Beləliklə də, soyqırım kimi dəhşətin canlı şahidləri olan valideynlərdən daha çox onların övladları birbaşa olmasa da, dolayı yolla soyqırım qurbanlarına çevrilirlər.

Qeyd olunanlar onu göstərir ki, soyqırım hadisələrində iştirak hansı rolda, mövqedə olmasından asılı olmayaraq həm cinayəti birbaşa törədən, həm onun acısını yaşayan qurban, həm də bütün bunları izləyərək travmatik həyat təcrübəsi qazanan şahidlərin psixoloji durumu ciddi elmi tədqiqatların obyekti olmalıdır. Bu kimi araşdırmalardan əldə olunan nəticələr gələcəkdə "soyqırım üçbucağının" bir hissəsinə çevrilməmək üçün konkret addımların atılması baxımından mühüm əhəmiyyət daşıya bilər.

## ƏDƏBİYYAT


1. Abdullayev N. Soyqırım cinayəti (Beynəlxalq aktlar,normativ sənədlər, müraciətlər və şərh toplusu)., Bakı:Mətbuat , 2010, 88 s.
2. Həsənov Ə. Xocalı soyqırımı: Səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması, Bakı:Zərdabi , 2017.
3. Həsənov Ə. Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri, Bakı: Zərdabi, 2017.
4. XX əsrin ən dəhşətli insanlıq cinayəti, "Mədəniyyət" jurnalı, 2021, 3 mart., s.7.
5. Kərimova A. Xocalı faciəsinin sosial-psixoloji tərəfləri, Psixologiya jurnalı. - 2018.-№1.-S.74-79.
6. Convention on Prevention and Punishment of The Crime of Genocide, 10 fevral, 2019
7. Imhoff R., Wohl, M. J., Erb. H. P. (2013). When the past is far from dead: How ongoingconsequences of genocides committed by the ingroup impact collective guilt. Journal of SocialIssues,69, 74–91.
8. MacDonald D. B. Identity politics in the age of genocide: The Holocaust and historical representation. London: Copyright Year, 2008, 276 s.
9. Madeline M., Genocide Politics and Policy: Conference Remarks, Case W. Res. J.INT'L L., Vol.: 32, s. 206;
10. Nina H.B., Jorgensen, The Definition of Genocide: Joining the Dots in the Light of Recent Practice, International Criminal Law Review 1, 2001, s. 285;
11. Raphael Lemkin, Axis Rule in Occupied Europe, Washington,1944, 674 p., s. 79-80
12. Staub E. The psychology of rescue: perpetrators, bystanders and heroic helpers. In J. Michalzyk. Resisters, Rescuers and Refugees: Historical and Ethical Issues. Kansas City, MO: Sheed and Ward, 1997.
13. Staub E. Overcoming Evil. Genocide, Violent Conflict and Terrorism. New York: Oxford University Press. 2011.
14. Tolgahan A., Soykırım Suçu, Journal of Naval Science and Engineering, 2009, Vol. 5, No.1, pp. 49-61
15. http://www.geostrategiya.az/news.php?id=142
16. https://www.bbc.com/turkce/haberler/2015/08/150825_travma_genler
17. http://www.agos.com.tr/tr/yazi/16011/soykirimin-taniklarinin-cocuklari-felaketin-dehsetinin-de-varisleri-oldular

18. https://t24.com.tr/yazarlar/yilmaz-murat-bilican/soykirima-karsi-sagli-sollu-psikolojik-savunma-mekanizmalari,30788
19. https://conflictandhealth.biomedcentral.com/articles/10.1186/1752-1505-7-6

## SOYQIRIM ARAŞDIRMALARINDA CİNAYƏTKAR-QURBAN-İZLƏYİCİ MODELİNİN PSİXOLOJİ TƏHLİLİ

***Mənsumova İlkanə***

### XÜLASƏ

Soyqırım və siyasi cinayətlər, qrupun əhəmiyyətli bir hissəsinin ölümü ilə nəticələnən, dövlət və ya onun məmurları tərəfindən dəstəklənən və həyata keçirilən aktlardır. Başqa sözlə, soyqırım, təkcə müəyyən bir düşmənin hərbi qüvvələri ilə toqquşmalar zamanı deyil, həm də qurbanın zəif və köməyə ehtiyacı olduğu bir vaxtda xeyli sayda insanın kütləvi şəkildə öldürülməsi hadisəsinə deyilir. Soyqırım hadisələrində iştirak edən əsas şəxslər ya cinayətkar, ya qurban, ya da izləyici rolunda çıxış edirlər. Hər bir iştirakçının psixoloji durumu mürəkkəbdir və bunun səbəbləri bir çox psixoloji elmi tədqiqatların mövzusuna çevrilmişdir. Eyni zamanda bu kimi hallarda profilaktika ilə bağlı biliklərimizi artırmaq üçün soyqırımla nəticələnə biləcək erkən mərhələləri araşdırmaq və bu proselərə təsirli şəkildə qarşı çıxmağın üsullarını öyrənmək əhəmiyyətlidir. Məhz bu səbəbdən, məqalədə bu kimi məsələlər haqqında ətraflı məlumat verilmişdir.

## ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ МОДЕЛИ ПРЕСТУПНИК-ЖЕРТВА-ПОСЛЕДОВАТЕЛЬ В ИССЛЕДОВАНИЯХ ГЕНОЦИДА

***Мансумова Илькане***

### АННОТАЦИЯ

Геноцид и политические преступления – это деяния, в результате которых погибает значительная часть группы, поддерживаемые и осуществляемые государством или его должностными лицами. Иными словами, под геноцидом понимаются не только столкновения с вооруженными силами того или иного противника, но и массовое убийство большого количества людей в момент, когда жертва слаба и нуждается в помощи. Главными участниками геноцида являются либо преступники, либо жертвы, либо зрители. Психологическое состояние каждого участника сложное, и причины этого стали предметом многих психологических научных исследований. В то же время, чтобы расширить наши знания о профилактике в таких случаях, важно изучить ранние стадии, которые могут привести к геноциду, и научиться эффективно бороться с этими процессами. По этой причине в статье представлена подробная информация по таким вопросам.

# PSYCHOLOGICAL ANALYSIS OF THE CRIMINAL-VICTIM-FOLLOWER MODEL IN GENOCIDE RESEARCH

***Mansumova Ilkane***

**SUMMARY**

Genocide and political crimes are acts that result in the death of a significant part of the group, supported and carried out by the state or its officials. In other words, genocide refers not only to clashes with the military forces of a particular enemy, but also to the mass killing of large numbers of people at a time when the victim is weak and in need of help. The main people involved in the genocide are either criminals, victims or spectators. The psychological state of each participant is complex, and the reasons for this have become the subject of many psychological scientific studies. At the same time, in order to increase our knowledge on prevention in such cases, it is important to study the early stages that can result in genocide and learn how to effectively combat these processes. For this reason, the article provides detailed information on such issues.

# ЭФФЕКТИВНОСТЬ АРТ-ТЕРАПИИ В КОРРЕКЦИОННЫХ ПРОГРАММАХ КАК ДИАГНОСТИЧЕСКОГО ИНСТРУМЕНТА

***Керимова Айгюн Исмаил кызы***
***Магистрант I курса БГУ***
***sevindzh@bk.ru***

***Ключевые слова:*** арт-терапия, психокоррекция, психологическая помощь, эмоциональное состояние, самовыражение, самоконтроль.
***Açar sözlər:*** art terapiya, psixokorreksiya, psixoloji yardım, emosional vəziyyət, özünüifadə, özünə nəzarət.
***Keywords:*** art therapy, psychocorrection, psychological support, emotional state, self-expression, self-control.

В современном мире зачастую люди задумываются о сохранении своего эмоционального и психологического состояния и благополучия. Занятия творчеством помогают людям как в получении позитивных эмоций, так и в преодолении тяжелых жизненных моментов.

Искусство – это безграничный мир воображения, где творец связывает историю своего внутреннего мира с внешним миром. Это мощный инструмент для исцеления души и тела. Искусство в форме живописи, письма и музыки было известно как величайший дар человечеству из-за его эмоционально-исцеляющих свойств [7]. Искусство включает в себя все, что связано с использованием творческого мышления, — цвета и музыку, картины, скульптуры, книги и фильмы. Цветотерапия используется для понимания человеческих эмоций и внесения необходимого света в повседневную жизнь человека, переживающего тяжелые жизненные моменты.

Арт-терапия основывается на понимании и преодолении сложных болезненных эмоциональных состояний с помощью экспрессивных, визуальных или любых форм искусства, которые выбираются человеком. В настоящее время искусство, благодаря своей многофункциональной природе, включая арт-терапию является эффективным способом лечения многих психических заболеваний, и успешно используется нейро-биологами, психологами и психиатрами [4].

Арт-терапия, междисциплинарная наука, на которую в значительной степени повлияли такие сферы, как искусство и психология. Арт-терапия- использует творческий процесс, произведения искусства, созданные в терапии, и произведения искусства третьих лиц, чтобы помочь людям, проходящим лечение, развить самосознание, исследовать эмоции, разрешить эмоциональные конфликты, улучшить социальные навыки и повысить самооценку [5]. Арт-терапия в первую очередь направлена на то, чтобы помочь людям, испытывающим эмоциональные и психологические проблемы, поддерживает в достижении личного благополучия и улучшении уровеня функционирования.

Для успешного лечения не требуются ни предыдущий художественный опыт, ни врожденные художественные способности, и любой человек, обращающийся за помощью к специалисту в области психического здоровья, может получить пользу от арт-терапии.

Доказано, что арт-терапия приносит пользу людям всех возрастов. Исследования показывают, что арт-терапия может оптимизировать общение и выработать позитивные установки, а также уменьшить чувство изоляции. Также было показано, что этот тип терапии приводит к повышению самооценки, уверенности и самосознания.

Положительные результаты в арт-терапии часто могут быть достигнуты теми, кто сталкивается с такими проблемами, как: Тревога, депрессия, зависимость от психоактивных веществ, стресс, посттравматический стресс, дефицит внимания, гиперактивность, старение и гериатрические проблемы, рак, усталость от сострадания, болезни сердца, анорексия, булимия, другие расстройства пищевого поведения, когнитивные нарушения, проблемы в семье или отношениях [9].

Поскольку арт-терапия позволяет людям выражать чувства по любому поводу посредством творческой работы, а не речи, считается, что она особенно полезна для тех, кто чувствует себя оторванным от своих эмоций или чувств. Люди, испытывающие трудности с обсуждением или вспоминанием болезненных переживаний, также могут найти особенно полезной арт-терапию.

Арт-терапия может помочь людям визуально выразить эмоции и страхи, которые они никогда не могли выразить с помощью обычных средств, и дать им некоторое чувство контроля над этими чувствами. Расслабление и снятие стресса. Хронический стресс может быть вредным как для ума, так и для тела. Он может ослабить и повредить иммунную систему, вызывая бессонницу и депрессию, а также спровоцировать множество проблем с кровообращением (например, высокое кровяное давление, атеросклероз и сердечную аритмию). При использовании отдельно или в сочетании с другими методами релаксации, такими как управляемое воображение, арт-терапия может быть мощным средством для снятия стресса [2].

Арт-терапия также может помочь людям справиться с болью и способствовать физиологическому исцелению, выявляя и преодолевая проблемы гнева, обиды и других эмоциональных стрессов.

Сертифицированные арт-терапевты, как правило, обладают всесторонним пониманием того мощного эффекта, который творческий процесс может оказать на тех, кто проходит терапию. Арт-терапевты часто используют психологические, духовные и художественные теории в сочетании с клиническими методами для достижения желаемого терапевтического результата[8]. Этот подход оказался полезным даже для невербальных людей и профессиональных художников. Арт-терапия может помочь людям выразить те мысли, эмоции и переживания, о которых может быть трудно говорить.

Арт-терапевты работают, чтобы помочь отдельным людям, семьям, группам и сообществам лучше понять свои эмоции. Арт-терапия стала неотъемлемой частью многих реабилитационных центров, психиатрических учреждений, кризисных центров, частных практик, школ и различных других социальных и общественных учреждений, которые стремятся укреплять здоровье, благополучие и рост [6].

Арт-терапия может быть особенно полезным инструментом лечения детей, которые часто имеют ограниченные языковые навыки [1]. Рисуя или используя другие визуальные средства для выражения беспокоящих чувств, молодые пациенты могут начать решать эти проблемы, даже если они не могут идентифицировать или обозначить эти эмоции словами. Арт-терапия также полезна для подростков и взрослых, которые не могут или не хотят говорить о мыслях и чувствах.

Помимо использования в лечении психических заболеваний, арт-терапия также используется в традиционной медицине для лечения органических заболеваний и состояний [3]. Связь между психическим и физическим здоровьем хорошо задокументирована, и арт-терапия может способствовать исцелению, снимая стресс и позволяя пациенту развивать навыки преодоления стресса.

Рисунок - особый документ и содержит очень много информации об авторе. Диагностическими возможностями арт-терапии являются: Получение материала для интерпретаций и диагностических заключений.

Диагностические аспекты арт-терапии представляют большой интерес в связи с их новизной и значительным потенциалом в определении психических процессов, состояний и свойств личности, особенно в тех случаях, когда использование традиционных психодиагностических методов, например, опросников, по тем или иным причинам затруднено [10]. Арт терапевтическая психодиагностика связана, прежде всего, с использованием визуальных средств при обследовании больных и практически здоровых людей с целью постановки клинико-психологического диагноза, планирования и реализации комплекса лечебных, реабилитационных и психопрофилактических мероприятий, в том числе с применением арт терапии, и определить их влияние. В то же время его диагностический потенциал остается малоизученным.

## ЛИТЕРАТУРА


1) Киселева М.В. Арт-терапия в работе с детьми СПб.: Речь, 2008-160 с.
2) Рыбакова С.Г. Арт-терапия для детей с задержкой психического развития. СПб.: Речь,2007-140с
3) https://fractalenlightenment.com/29931/artwork/art-as-a-therapy-for-your-mind-and-soul
4) Bell, S. (2011). Art therapy and spirituality. Journal for the Study of Spirituality, 1(2), 215-230
5) https://www.verywellmind.com/what-is-art-therapy-2795755
6) Blomdahl, C., Gunnarsson, A. B., Guregård, S., & Björklund, A. (2013). A realist review of art therapy for clients with depression. The Arts in Psychotherapy, 40(3), 322-330
7) Allen, P. B. (1995). Art is a way of knowing: A guide to self-knowledge and spiritual fullment through creativity. Shambhala Publications.
8) Hluska, M. E. (2016). Understanding the roles and uses of art making in art therapy (Order No. 10182396). Available from ProQuest Central; ProQuest Dissertations & Theses Global. (1845326808).
9) Kossak, M. S. (2009). Therapeutic attunement: A transpersonal view of expressive arts therapy. The Arts in Psychotherapy, 36(1), 13-18.
10) Wadeson, H. (1980). Art psychotherapy. New York: John Wiley & Sons.


# ЭФФЕКТИВНОСТЬ АРТ-ТЕРАПИИ В КОРРЕКЦИОННЫХ ПРОГРАММАХ КАК ДИАГНОСТИЧЕСКОГО ИНСТРУМЕНТА

***Керимова Айгун***

## АННОТАЦИЯ

В настоящее время арт терапия имеет высокие результаты в коррекционных работах как с детьми, подростками так и со взрослыми в профилактике различных эмоциональных и психологических проблем. Так же способствует и облегчает когнитивное и эмоциональное развитие, предоставляя опыт, способствующий психо-образовательному росту, и играет жизненно важную роль в обучении детей с особыми потребностями, таких как неспособные к обучению, эмоционально неуравновешенные и слабослышащие дети.

Главное достоинство арт терапии в том что он не оказывает никакого негативного влияния на психику человека. Это исскуство в терапевтическом значении, в котором люди по-разному находят свое утешение. И чтоб сохранить свое душевное состояние здоровым, человек должен внедрить исскуство в свою повседневную жизнь.

## DİAQNOSTİK VASİTƏ KİMİ DÜZƏLİŞ PROQRAMLARINDA ART-TERAPİYANIN EFFEKTİVLİYİ

***Kərimova Aygün***

## XÜLASƏ

Hazırda art-terapiya müxtəlif emosional və psixoloji problemlərin qarşısının alınmasında həm uşaqlar, yeniyetmələr, həm də böyüklər ilə korreksiya işində yaxşı nəticələr verir. O, həmçinin idrak və emosional inkişafı təşviq edir və asanlaşdırır, psixo-maarifləndirici inkişafı təşviq edən təcrübələr təqdim edir və öyrənmə qüsurları, emosional pozğunluğu olan və eşitmə qabiliyyəti olmayan uşaqlar kimi xüsusi ehtiyacları olan uşaqların təhsilində mühüm rol oynayır. Art terapiyanın əsas üstünlüyü ondan ibarətdir ki, onun insan psixikasına heç bir mənfi təsiri yoxdur. Bu, insanların müxtəlif yollarla təsəlli tapdıqları müalicəvi mənada sənətdir. İnsan ruh halını sağlam saxlamaq üçün isə sənəti gündəlik həyatına daxil etməlidir.

## EFFICIENCY OF ART THERAPY IN CORRECTIONAL PROGRAMS AS A DIAGNOSTIC TOOL

***Kerimova Aigun***

## SUMMARY

Currently, art therapy has good results in corrective work with both children, adolescents and adults in the prevention of various emotional and psychological problems. It also promotes and facilitates cognitive and emotional development, providing experiences that promote psycho-educational growth, and plays a vital role in the education of children with special needs, such as learning disabilities, emotionally disturbed and hearing-impaired children. The main advantage of art therapy is that it does not have any negative impact on the human psyche. This is art in a therapeutic sense, in which people find their solace in different ways. And in order to keep his state of mind healthy, a person must introduce art into his daily life.

# MÜASİR DÖVRDƏ AİLƏDƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Məmmədov Samir Mahir oğlu***
***BDU-nun II kurs magistrantı***
***samir14.98@mail.ru***

***Açar sözlər:*** ailə, cəmiyyət, ailədaxili münasibətlər, ər-arvad, sosial qrup.
***Ключевые слова:*** семья, общество, внутрисемейные отношения, муж и жена, социальная группа.
***Key words:*** family, society, intrafamilial relations, husband and wife, social group.

Bütün dövrlərdə və bütün cəmiyyətlərdə ailə aktual problemlərdən biri hesab olunduğu üçün, ailə anlayışına olan maraq daimi və kütləvi səciyyə daşıyır.

Ailə cəmiyyətdə formalaşdığı və onun əsas özəyini təşkil etdiyi üçün onun ümumi sosioloji inkişaf qanunauyğunluqları da məhz cəmiyyətlə şərtlənir. Özlüyündə ictimai tarixi hadisə olan ailə cəmiyyətin təməl vahididir. Cəmiyyətdə baş verən dəyişikliklər, öz növbəsində, ailəyə də təsir göstərir. Kiçik sosial qrup olmasına baxmayaraq, ailə mürəkkəbliyi ilə səciyyələnir.

Ailə mühüm əhəmiyyət kəsb edən sosial dəyərdir. Cəmiyyətin hər bir üzvü sosial statusu, etnik mənsubiyyəti, əmlakı və maddi vəziyyəti ilə bərabər, doğulduğu andan ömrünün sonuna qədər ailə və ailə statusu kimi bir məziyyəti özündə daşıyır. İstənilən ailənin əsasını müəyyən bir cütlüyün nigahı, obrazlı desək, bir kişi ilə bir qadın arasında özünəməxsus şəkildə qurulan ittifaq təşkil edir.

Ailə - fərdlərin arasında mövcud olan rabitə və münasibətlərin məcmusunu ifadə edir. Lakin ailə münasibətləri dedikdə, yalnız ər-arvad münasibəti başa düşülməməlidir. Ərlə-arvad arasındakı münasibətlər ailə münasibətlərinin yalnız bir tərəfini ifadə edir. Valideynlərlə övlad arasındakı münasibətlər ailənin ən mühüm aspektini təşkil edir.

Ailə – sosiologiya, iqtisadiyyat, hüquq, etnoqrafiya, psixologiya, demoqrafiya, pedaqogika və s. kimi bir çox elmlərin tədqiqat obyektini təşkil edir. Bu elmlərin hər biri öz predmetinə müvafiq olaraq ailəni müxtəlif tərəflərdən tədqiq edir. Ailədaxili münasibətləri, ailədə şəxsiyyətlərarası münasibətləri ailə münasibətlərinin psixologiyası öyrənir [3, s.45].

Azərbaycan cəmiyyətində baş verən köklü, fundamental dəyişikliklər həyat və fəaliyyətin bütün sferalarından, eyni zamanda ailədaxili münasibətlərin formalaşmasından da yan ötüşməmişdir. Bu isə, öz növbəsində, bir sıra sosial-psixoloji əsaslar ilə şərtlənir. Cəmiyyət həyatında baş verən dəyişikliklər, iqtisadi-siyasi sistemin dəyişməsi bir tərəfdən özünün sosial, hüquqi təsirini sərgiləyirsə, digər tərəfdən də mənəvi əxlaqi dəyişikliklərə gətirib çıxarır. Cəmiyyət həyatında baş verən dəyişikliklər həm də milli xüsusiyyətlərimizin, adət-ənənələrin qorunmasını və inkişaf etdirilməsini tələb edir. Bütün bunlar, həm ayrı-ayrı şəxslərin həyat və düşüncə tərzinə təsir edir, həm də bütövlükdə ailə həyatından, ailədaxili münasibətlərdən də yan ötüşmür. Lakin insanlar cəmiyyət həyatında baş verən bu kimi dəyişikliyə psixoloji baxımdan hazır olmadıqları üçün bu hal cəmiyyətdə, o cümlədən ailələrdə bir sıra problemlərin yaranmasına gətirib çıxarır [6, s.56].

Ailə və ailədaxili münasibətlər mövzusu bütün dövrlərdə müxtəlif ölkələrdə, müxtəlif ixtisas sahiblərinin daim diqqət mərkəzində olmuşdur və bu gün də aktuallığını qoruyub saxlayır. Çünki ailə cəmiyyətin əsası kimi olduqca vacib olan bir sıra sosial funksiyaları həyata keçirir. Həmin funksiyaların reallaşdırılmaması və ya qismən reallaşdırılması cəmiyyətin özünün mövcudluğu üçün böyük təhlükələr doğurur. Bu funksiyaların həyata keçirilməsi nəinki iqtisadi, sosial-

demoqrafik, etik, hüquqi və pedaqoji, həm də psixoloji əsaslara istinad edir. Ailənin çoxcəhətli, çoxaspektli və mürəkkəb təbiətə malik olması ilə yanaşı, bir cəhəti də nəzərdən qaçırmaq olmaz ki, sadaladığımız əsaslar nəinki müxtəlif dövrlərdə, müxtəlif cəmiyyətlər, xalqlar, millətlər, etnoslar üçün, hətta eyni bir dövrdə, eyni bir millətin daxilində yaşayan etnoslar üçün də özünəxas xüsusiyyətlərə malikdir. Yəni, ailədaxili münasibətlərin araşdırılması zamanı, burada, bütün cəmiyyətlər üçün həm ümumi, həm də xüsusi olan vacib məqamların nəzərə alınması lazımdır. Problemin məhz bu cəhəti onun tədqiqinin bütün dövrlər üçün aktual olmasını şərtləndirir. Bu, bir tərəfdən, ailənin iqtisadi, hüquqi, sosial-demoqrafik və s. əsaslarda təzahür edən fərqli aspektləri ilə şərtlənirsə, digər tərəfdən, sosial-psixoloji planda, xüsusən hər bir xalqın, millətin, etnosun adət-ənənələri, stereotip və yönümləri, sərvət meylləri, sosial davranış normaları sahəsində təzahür edən fərqli xüsusiyyətlərlə əlaqədardır. Bəzi hallarda, ailənin yuxarıda adını çəkdiyimiz əsaslarından hər hansı biri müxtəlif dövrlərdə həmin etnosun nümayəndələri üçün fərqli sosial-psixoloji mənaya malik olur, fərqli yönümdə qiymətləndirilir.

Ailədə qarşılıqlı münasibətlərə xələl gətirən faktorlar sırasında iqtisadi amil kimi – işsizlik, həyat səviyyəsinin aşağı olması; asosial amil kimi – ailənin və ya onun hər hansısa bir üzvünün qeyri-sağlam həyat tərzi; psixoloji amil kimi – ailədə zorakılıq, aqressivlik, aşırı dərəcədə qısqanclıq; tibbi amil kimi – xroniki zöhrəvi və yoluxucu xəstəliklər, psixi və seksual pozuntu; pedaqoji amil kimi – mənəvi dəyərlərlə bağlı dünyagörüşündə mövcud olan fərqlər və yaxud uşaqların tərbiyəsinə münasibət və s. yer alır [2,s.210].

Fikrimizə aydınlıq gətirmək üçün, həm XX əsrin əvvəllərində, həm də XXI əsrin özündə mahiyyətcə eyni səbəbdən qaynaqlanan nigah hadisəsinə nəzər salaq. XX əsrin əvvəllərində, bir çox valideynlər öz qızlarını yaşlı, lakin maddi durumu yaxşı olan kişilərə ərə verməkdə maraqlı idilər. Bu gün də həmin hadisə mövcuddur, lakin indi valideynlər tərəfindən deyil, gənc qızların özləri tərəfindən bu addım atılır. Burada, həmçinin əcnəbilərlə ailə qurmaq istəyinin də nisbətən daha ön plana keçdiyini qeyd etmək yerinə düşər. Göründüyü kimi, iqtisadi əsas qalır, amma maraqlı tərəflər dəyişir və sözsüz ki, bu əsasda ailədaxili münasibətlər də fərqli səciyyə daşıyır. Tərəflərin əsaslandığı psixoloji müdafiə mexanizmləri də fərqlənir. Deməli, ailənin istinad etdiyi əsaslar bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla həmin əlaqə zəminində yaranan fərqli psixoloji mexanizmlərə, təzahürlərə malik olur. Bu, bir tərəfdən, tarixən formalaşmış ailə adət-ənənələrində, ailədə rolların bölünməsində, nigaha dair təsəvvürlərdə, boşanma yönümündə və s. müvafiq şəkildə əks olunaraq ailədaxili münasibətlərin xüsusiyyətlərinə, inkişaf dinamikasına bu və ya digər dərəcədə təsir edir. Digər tərəfdən, hər bir xalqın, millətin, etnosun milli xüsusiyyətlərindən, adət-ənənələrindən, stereotip və istiqamətlərindən irəli gələn və ailədaxili münasibətlərdə özünəxas şəkildə əks olunaraq həmin münasibətlərin inkişafına və tənzimlənməsinə, habelə bütövlükdə ailə və onun problemlərinə səciyyəvi çalarlar bəxş edən müəyyən cəhətlərin yaranmasını şərtləndirir. Ailədaxili münasibətlərin tədqiqi ilə əlaqədar bir-birindən fərqli sosial-psixoloji zəminə əsaslanan müxtəlif psixoloji tədqiqatlardan alınmış nəticələri, ələlxüsus, irəli sürülən psixoloji ideya və mexanizmləri universallaşdırmaq, onları eyni dərəcədə bütün xalqlara aid etmək qeyri-düzgün olardı. Məhz bu cəhəti hesaba alaraq, Azərbaycan psixologiya elmində də ailə problemlərinin öyrənilməsinə xüsusi önəm verilmiş və bu yönümdə bir sıra tədqiqatlar aparılmış, maraqlı və faydalı nəticələrə nail olunmuşdur.

Həmin tədqiqatlara əsasən, ailə münaqişələri başlıca səbəblər, əsas motivlər üzrə aşağıdakı kimi qruplaşdırılır:

- ər-arvaddan birinin və ya hər ikisinin maddi tələbatlarının olduqca böyük olması;
- tərəflərdən birinin və ya hər ikisinin nigahda, ilk növbədə, öz şəxsi tələbatlarını qarşılamağa cəhd göstərməsi;
- özünəhörmət təlabatlarının qarşılanmaması;

- tərəflərdən birində və ya hər ikisində özünədəyərin aşırı olması;
- ər-arvadın ər, arvad, ata, ailə başçısı, ev sahibəsi və digər rollar barəsində təsəvvürlərin bir-birilə uzlaşmaması;
- tərəflərdən birinin davranışında baş verən xoşagəlməzliyin səbəbinin anlaşılmaması, bunun nəticəsi olaraq isə qarşılıqlı anlaşılmazlığın kəskinləşməsi;
- tərəflərdən birinin ailə təsərrüfatında iştirakdan yayınması [4, s.200].

Hazırda, müasir dünyada cərəyan edən əsas problemlərdən biri də sosial-mənəvi mühitin və saflığın qorunmasıdır. Bu aspektdən, ailə, həm şəxsiyyət, həm də bütövlükdə cəmiyyət üçün əhəmiyyəti böyüməkdə olan ümumbəşəri dəyərlərin, mədəni irsin, əxlaqi norma və qaydaların ötürücüsü qismində çıxış edir.

Ənənəvi ailə münasibətlərinin eqolitar – ailədə ər və arvadın sosial-iqtisadi funksiyalarının bərabərləşməsi sahəsinə transformasiyası ailə münasibətlərində baş verən digər bir dəyişiklikdir. Əvvəllər, ailənin idarəsi kişiyə məxsus olduğu halda, hazırda, bu idarəçilik müəyyən qədər ər-arvad arasında bölünür. Tədqiqatlara əsasən deyə bilərik ki, sosial-iqtisadi təminatı aşağı olan ailələrdə ailə üzvləri arasında münasibətlərdə çox zaman problem yaşanır. Bu, ilk öncə, ər-arvad münasibətlərində, onların vasitəsi ilə övlada münasibətdə özünü biruzə verir.

Problemli, xüsusilə qeyri-stabil ailələrdə maddi vəziyyətin çətinliyi dağıdıcı amilə çevrilir. Stabil ailələrdə də bu faktor müşahidə olunur, lakin qeyri-stabil ailələrin əksinə olaraq, bu dağıdıcı amilə çevrilmir. Burada, ər-arvadın bir-birini anlaması, qarşılıqlı uyğunlaşma öz təsirini göstərir. Bu, daha çox psixoloji problemlər formasında təzahür edir. Əksərən, ər-arvadın hər ikisinin və ya ikisindən birinin dözülməz xasiyyəti ilə şərtlənir [5, s.175].

Haqqında danışdıqlarımızı ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, hər bir ailədə ailədaxili münasibətlər müxtəlif səpgidə qurulur. Ailə münasibətlərində kişi və qadınların ailə həyatına yanaşmalarında da fərqlər mövcuddur. Ailədəki münasibətlər ərlə-arvadın, valideynlərlə uşaqların, uşaqlarla uşaqların qarşılıqlı münasibətlərinin ümumi səciyyəsi ilə müəyyən edilir və obrazlı desək, birbaşa onları təcəssüm etdirir.

## ƏDƏBİYYAT

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı. 2008.
2. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı, Mütərcim, 2015, 422 s.
3. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual problemləri. Bakı: Səda, 1998, 342 s.
4. Hüseynzadə R.L. Ailə pedaqogikası. Bakı, 2016, 320 s.
5. Qurbanova L.M. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı: Bilik, 2012, 232 s.
6. Андреева Т. В. Семейная психология. М. 2004, 244 с.

# MÜASİR DÖVRDƏ AİLƏDƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Məmmədov Samir***

## XÜLASƏ

Məqalədə müxtəlif dövrlərdə cəmiyyətin aktual problemlərindən hesab olunan ailə və ailədaxili münasibətlər barəsində söz açılıb. Eyni zamanda, müasir dövrdə ailədaxili münasibətlərdə baş verən dəyişikliklərdən bəhs olunub. Cəmiyyətdə baş verən dəyişikliklərin ailədaxili münasibətlərin formalaşmasına təsirinə, ailədə qarşılıqlı münasibətlərə xələl gətirən

faktorlara, ailə münaqişələrinə səbəb olan əsas məqamlara toxunulub. Ailə münasibətlərində baş verən dəyişikliklərin ənənəvi ailə münasibətlərində də öz əksini tapması qeyd olunub.

Həmçinin müasir dövrdə tədqiqatçıların ailəyə bir sistem kimi yanaşması və ailədə baş verənləri sistem yanaşma mövqeyindən tədqiq etdikləri vurğulanıb.

## ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ВЗАИМООТНОШЕНИЙ В СЕМЬЕ В СОВРЕМЕННОЕ ВРЕМЯ

***Мамедов Самир***

### АННОТАЦИЯ

В статье рассмотрены семейные и внутрисемейные отношения, которые в разное время считались одной из самых актуальных проблем общества. При этом обсуждались изменения, происходящие во внутрисемейных отношениях в новое время. Затронуты влияние изменений в обществе на формирование внутрисемейных отношений, факторы, наносящие ущерб внутрисемейным отношениям, основные моменты, вызывающие семейные конфликты. Отмечено, что изменения в семейных отношениях отражаются и на традиционных семейных отношениях.

Также было подчеркнуто, что в современное время исследователи подходят к семье как к системе и изучают происходящее в семье с позиций системного подхода.

## PSYCHOLOGICAL CHARACTERISTICS OF MUTUAL RELATIONS IN THE FAMILY IN MODERN TIMES

***Mammadov Samir***

### SUMMARY

The family and intrafamilial relations, which are considered to be one of the most pressing problems of society at different times, were discussed in the article. At the same time, the changes occurring in the intrafamilial relations in modern times were discussed. The impact of changes in society on the formation of intrafamilial relations, the factors that damage intrafamilial relations, the main points that cause family conflicts were touched upon. It was noted that the changes in family relations are also reflected in traditional family relations.

It was also emphasized that in modern times, researchers approach the family as a system and they study what happens in the family from a system approach position.

# MÜHARİBƏ ŞƏRAİTİNDƏ YAŞAYAN İNSANLARDA POSTTRAVMATİK STRESSİN YARANMASI

***Aytən Babazadə***
***BDU-nun II kurs magistrantı***
***babazade.aytan@gmail.com***

***Açar sözlər:*** müharibə psixologiyası, travmatik hadisə, posttravmatik stress pozuntusu
***Ключевые слова:*** военная психология, травматическое событие, посттравматическое стрессовое расстройство
***Key words:*** War psychology, traumatic event, posttraumatic stress disorder

Bugünkü dünyada təxminən 40 ağır münaqişə var və dünya əhalisinin təxminən 1% -i bu müharibələr səbəbiylə qaçqın və ya sürgünə çevrilir. Son on beş ildə Qərbi Avropadan 4 milyon sığınacaq istənməsinə baxmayaraq, qaçqınların 80% -dən çoxu inkişaf etməkdə olan ölkələrdədir. İqtisadi qaynaqları olan ərazilər uğrunda müharibələrin çoxu, öz cəmiyyətlərində nizam tələb edən yoxsullara və müəyyən etnik qruplara qarşı aparılır. Bu qəddar təcrübə, sosial quruluşun (məhkəməsiz edamlar, işgəncələr, sui -qəsdlər, cinsi istismar və s.), iqtisadiyyatın və mədəni həyatın qəsdən məhv edilməsi, habelə bütün əhaliyə nəzarəti həyata keçirən terror istehsalı ilə həyata keçirilə bilər. Cəmiyyət liderləri, səhiyyə işçiləri və müəssisələr, məktəblər, akademiklər, ibadət yerləri, insan haqları və ədalət üçün danışan hər kəs daha çox terror hədəfləridir. Bir çox ərazilərdəki bu cür müharibələr, bütün cəmiyyətin gündəlik həyatında və qərarlarında həlledici amilə çevrildi.

Müharibənin əsgərlərə təsiri Amerika Vətəndaş Müharibəsindən bəri öyrənilsə də, mülki əhali üçün tibbi ədəbiyyat yalnız son iyirmi ildə cücərməyə başladı. Bu ədəbiyyat əsasən Qərbə çatan və klinik qeydlərə girən müharibə qurbanı qaçqınlara əsaslanır. Şimali İrlandiya istisnalardan biridir, çünki geniş tibbi qeydləri olan bir neçə münaqişə bölgəsindən biridir. Son 30 il ərzində psixi sağlamlıq xidmətlərinə müraciət nisbətlərində əhəmiyyətli bir təsirə dair heç bir sübut olmamışdır. Mövcud ədəbiyyatda "konsentrasiya düşərgəsi sindromu", "sağ qalma sindromu" və "müharibə nevrozu" kimi qəti ifadələrin davamçısı olan "posttravmatik stress pozuntusu" üstünlük təşkil edir.

Bəzi qurbanların psixi və sosial pozğunluqları ilə bağlı diqqətəlayiq açıqlamalar verməsinə baxmayaraq, travmatik hadisələr və onların nəticələri arasındakı əlaqə aydın deyil. Çünki müharibədən əvvəl psixoloji zəiflik tarixi risk faktorudur. Son tədqiqatlar göstərir ki, müharibənin ailə, sosial və iqtisadi həyatda ikincil nəticəsi psixoloji nəticələrin vacib şərtləndiriciləridir.

1943 -cü ildə Freyd və Burlinghamın klassik əsəri ilə yanaşı, ədəbiyyat ailə əlaqələrinin və digər dəstəklərin müharibənin uşaqlara təsirini azaltmaqda müsbət nəticələr verdiyini göstərir. Valideynləri və ya digər baxıcıları uşaqların vəziyyətinin çətinliklərinin öhdəsindən gələ bildikləri müddətdə uşaqların emosional sağlamlığı kifayət qədər sağlam olaraq qalır (6).

Müharibə şəraitində insanın azadlığı məhdudlaşdırılır. İnsan bu zaman yerini dəyişə, gedə, bəhanə gətirə və ya istədiyi vaxt bu işi edə bilməyəcəyini söyləyə bilməz. Sabaha dair heç bir zəmanət yoxdur. İndi əmin olan tək şey onun təhlükədə olmasıdır. Bir tərəfdən, onun əsas istəyi, təbii yaşamaq instinkti kimi, digər tərəfdən yaxınlaşan ölüm təhlükəsidir. Bu iki vəziyyətə ilk və sağlam reaksiya qorxudur.

Psixoloji təzyiqlər insanlara aclıq, həddindən artıq soyuq və istilik qədər təsir edir. Müharibədəki psixoloji təzyiqin əsasını ölüm qorxusunun artması təşkil edir. Ölüm qorxusu

daxili qarşıdurmaya səbəb olur. Gələcəklə bağlı narahatlıq, işinin pisləşəcəyini hiss etmək və yaxınlarının öləcəyini hiss etmək insanı sıx düşüncələrlə məşğul edir. Döyüş meydanında olan adam ölüm qoxusunu hiss etməyə başlayır. Bir tərəfdən yaşamaq istəyi, digər tərəfdən mübarizə etmək zərurəti onun daxili qarşıdurmasını artırır. Burada özünü milləti ilə bir bütövün bir parçası olaraq görən, döyüş ideologiyasına sahib olan əsgər, savaşa asanlıqla müqavimət göstərir. Şəhidlik hissi, veteran rütbəsi kimi mücərrəd dəstəklərlə ölüm qorxusunu dəf edir. Belə psixoloji dəstəyi olmayan bir əsgər uzun müharibələrdə dözüm göstərə bilməz. Bunun üçün müharibədə vətənpərvərlik hissi çox vacibdir (2). Müharibədə uğur qazanmaq üçün döyüşən əsgərin qətiyyətsizliyi və ümidsizliyini dəf etmək çox vacibdir. Qrup identifikasiyası, inanc gücü və komandirə güvən kimi ümumiləşdirilə bilən xüsusiyyətlərin olması, döyüşən əsgər qorxusunu idarə etmək üçün kifayət edəcək.

Döyüş meydanından kənarda olan insanlar birlik içində olmaq, müharibə ideologiyasına sahib olmaq və ordusuna güvənmək xüsusiyyətlərinə sahib olduqları müddətdə, psixoloji təzyiqlərə tab gətirmək üçün döyüşün gücünü artırır.

Zəif və kövrək şəxsiyyət xüsusiyyətlərinə sahib olanlar, depressiya, müharibə şoku, döyüş yorğunluğu və posttravmatik stress pozuntusu kimi simptomlarla asanlıqla mübarizə edə bilmirlər. Qrup dəstəyi, birlik ruhu, mübarizə istəyi kifayət edərsə, qorxularını dəf edir və döyüş gücünü artırır.

Kifayət qədər mənəvi dəstək, qeyri -maddi dəyərlərə inam olmasa, insan kiçik təzyiqlərə dözə bilməz. Əsasən güclü və uzunmüddətli təzyiqlərə dözmək çox çətin olur. Müharibədə psixoloji məhv olmaq üçün iki faktor var. Birincisi, təzyiqlərin şiddəti, ikincisi insanın müqavimətidir (5).

Tarixən, posttravmatik stress pozuntusuna olan maraq, hərbi və mülki travmalar arasında irəli-geri döndü. Müharibə dövründə hökmdar və generallar döyüşən qüvvələrə mənfi təsir edən hər hansı bir faktor haqqında mümkün qədər çox məlumat əldə etməyə çalışırdılar. Bu məqsədlə cəbhə bölgələrinə göndərilmək üçün əsgərlərin diaqnozu qoyulması və ən qısa müddətdə müalicəsi həkimlərin üzərinə düşdü. Sülh dövründə, diqqət sivil həyatında travma, ağrı və stress yaradan fərdi şikəstlik hadisələrinə və gündəlik qəzalara yönəlmişdir.

Ancaq sonradan bütün diqqət döyüş sahəsinə yönəldi. Amerika Vətəndaş Müharibəsi, sənaye ilə əlaqəli ölümləri və stresslə əlaqəli ruhi xəstəlikləri artırdı. Birinci Dünya Müharibəsi zamanı silah texnologiyasındakı inkişaflar, pulemyotların, zəhərli qazların və uzun mənzilli artilleriyanın yaratdığı dəhşətli döyüş itkilərini artırdı. Bu, güllə partlayışlarının beyni sarsıdan təsirindən yaranan psixoloji zəifliyin vəziyyətini izah edən mərmi şoku anlayışının geniş yayılmasına səbəb oldu. Bu müharibə dövrü stress nəzəriyyəsi, ilk sivil dəmir yolu magistral nəzəriyyəsindən çox da fərqlənmir. Hər ikisində də müşahidə olunan davranış pozuntularının əsası olaraq sinir sisteminə yazılmamış təsirlər qəbul edildi.

Davam edən tədqiqatlar və klinik təcrübə travma psixologiyasının nəzəri təməlini genişləndirdi. Birinci Dünya Müharibəsi zamanı, beynəlxalq ədəbiyyatda 1000 -dən çox hesabat və araşdırmadan sonra, Southard, müharibə depresiyası, müharibə nevrozu və buna bənzər sindromların əsl psixonevroz olduğu qənaətinə gəldi (1).

Ancaq müharibə dövründəki psixoloji travmalar əsl döyüş sahəsindən başqa digər dairələrdə də aydın şəkildə göründü. İkinci Dünya Müharibəsində, sonra Koreyada və Vyetnamda və nəhayət Körfəz Müharibələrində klinik sahədə çalışanlar, mülki əhalinin, hərbi əsirlərin, konsentrasiya düşərgələrinin bombalanması, əsirlərin beyinlərinin yuyulması ilə əlaqəli stress əlamətləri haqqında öyrənməyə başladılar (1).

Müharibə də terrorizm kimi həm fərdi, həm də cəmiyyət səviyyəsində qorxu və təhlükə yaradır. Müharibə və hərbi sülhməramlı qüvvələrin əsgərləri təkcə şikəst olmaq riski ilə deyil, həm də zorakılığın nəticələrinin şahidi olmaq və ya əziyyət çəkmək riski altındadır. Bir çox əsgər

çətin şəraitdə yaxşı fəaliyyət göstərsə də, bir çox hallarda müxtəlif əzmkarlıq və şiddətdə olan bir çox post-travmatik nəticələrin qurbanı olur. 1952-ci ildə, İkinci Dünya Müharibəsi və Koreya Müharibəsi zamanı baş verən döyüş stress reaksiyalarının bir neçə hesabından sonra, Psixi Pozuntuların Diaqnostik və Statistik Təlimatında (DSM-I) "kobud stress reaksiyası" diaqnozu təqdim edildi.

"Kobud stress reaksiyası" müharibə və ya təbii fəlakətlər kimi son dərəcə stresli vəziyyətlərə məruz qalan əvvəllər sağlam insanlarda inkişaf edən anormal davranışı təsvir edən bir vəziyyət idi. Orijinal DSM-də təqdim edildiyi gündən böyük müharibələrlə əlaqəli müxtəlif döyüş sonrası sindromlar kateqoriyalara bölünmüşdür.

Bu sindromların polimorfik təbiəti göstərir ki, ötən əsrin bütün müasir müharibələri üçün ümumi olan bir simptom təqdimatı yoxdur; daha doğrusu, müharibələr və döyüş meydanları arasında klinik təqdimatın dəyişməsi müəyyən dərəcədə mədəni şəkildə şərtlənir və müharibənin dəyişən təbiətindən təsirlənir. Bu gün döyüşdən sonrakı sindromların iki ən gözə çarpan ifadəsi mübahisəsiz olaraq döyüş stress reaksiyası və posttravmatik stress pozuntudur (PTSP).(3)

"Qabığın şoku" və "döyüş yorğunluğu" kimi də tanınan döyüş stress reaksiyası çoxsaylı koqnitiv (məsələn, çaşqınlıq, yaddaşın pozulması, oriyentasiyanın pozulması), affektiv (məsələn, narahatlıq, depressiya) və davranış (məsələn, həyəcan, geri çəkilmə, əsəbilik) kimi simptomlar ilə xarakterizə olunur. Onun tərifi ilk növbədə funksionaldır və şərti olan əsgərlər döyüşçü kimi fəaliyyətini dayandırırlar. Bununla belə, qəribə, kobud şəkildə qeyri-mütəşəkkil davranış və nəzərəçarpacaq simptom dəyişkənliyi tez-tez tanınmanı çaşdırır. Travmaya səbəb olan reaksiyanın ikinci növü, PTSP, daha geniş şəkildə qəbul edilmiş və empirik olaraq təsdiqlənmiş döyüşdən sonrakı sindromdur. DSM-IV-də fərdin həyatını və ya fiziki bütövlüyünü təhdid edən travmatik hadisənin təcrübəsi ilə müəyyən edilir.

Beləliklə, DSM-IV-dəki travmatik hadisələrə başqalarının travmasının şahidi olma halları (məsələn, döyüşün şahidi olmaq və ya xilasetmə əməliyyatlarında iştirak etmək) daxildir. Bu, döyüş travmasının patogen təsirlərinin təkcə birinci əldən deyil, həm də təminatlı şəkildə yaşanması faktının qəbul edilməsidir, yəni mənfi nəticələr yalnız məruz qalan və birbaşa təsirlənənlərlə məhdudlaşmır, həm də onların qohumlarına və dostlarına da təsir göstərir. Bu zaman fərd ikincil ("vəzifəli") travmaya məruz qala bilər (3).

Müharibə cəmiyyətdə və fərddə müxtəlif sahələrdə dəyişikliklərə səbəb olur. Bir çox ruhi xəstəliyin ortaya çıxması, cəmiyyətdə və fərdlərdə şiddət və təcavüzün artması, əsas insani dəyərlərin itirilməsi, fərdin özündən və əlaqəli olduğu cəmiyyətdən uzaqlaşması və inkişafının mənfi və daimi təsirləri. şəxsiyyətin inkişafı ilə bağlı yeni nəsillər bu dəyişikliklərin başlıca səbəbləridir. Post-travmatik stress pozuntusu (PTSP), depressiv pozuntu, ümumiləşdirilmiş narahatlıq pozuntusu və alkoqol/maddə istifadəsi pozuntuları müharibədən sonra baş verən psixiatrik xəstəliklərdir.

PTSP, travmatik hadisədən sonra hadisəni yenidən yaşamaq simptomları ilə xarakterizə olunan, şiddətli bir qorxu və daim təhlükədə olmaq kimi hislər yaşayan, hadisə ilə əlaqədar vəziyyətlərdən qaçan və həddindən artıq qorxu ilə xarakterizə olunan ruhi bir xəstəlikdir. PTSP, müharibədən sonra ən çox yayılmış psixiatrik xəstəliklərdən biridir və digər psixi pozuntular da tez-tez rast gəlindiyi aşkar edilmişdir.(3)

Kriteriyalara cavab vermək üçün simptomlar (PTSP olan insanların travmatik xatirələrini və onun emosional məzmununu tənzimləməkdə yaşadıqları gizli çətinlikləri üstələyir) ən azı 1 ay davam etməli və funksional pozğunluğa səbəb olmalıdır. Xəstəliyin müddəti PTSP-nin kəskin (< 3 ay), xroniki (> 3 ay) və ləngimə ilə differensiallaşdırılması üçün əsas verir, simptomologiyanın başlanğıcı travmadan 6 aydan artıqdır. Mübarizə nəticəsində yaranan PTSP nadir hallarda simptomların gec başlaması, xroniki kurs, gecikmiş yardım axtarma davranışı və əhəmiyyətli

xəstələnmə ilə əlaqələndirilmir. ABŞ-da kişilərdə görülən PTSP-nin böyük bir hissəsini birbaşa döyüşə məruz qalma təşkil edir. Zorakılıq və ölümün nəticələrinin şahidi olmaq kimi dolayı məruz qalmanın narahatlıq, qəzəb və aqressiv davranış və somatik şikayətlər, həmçinin PTSP üçün risk yaratdığı göstərilmişdir.

Məsələn, həm genetik amillər, həm də ortaq bədbəxtliklər və ailə narahatlıqları riskə səbəb olur. Müharibə zonasının tələbləri və həyat üçün təhlükənin dərk edilməsi də uzunmüddətli adaptasiyanın vacib determinantlarıdır. Bundan əlavə, döyüş təcrübələrinin spesifik xarakteri (məs. tezliyi və ekspozisiyanın intensivliyi), bu təcrübələrə dərhal subyektiv reaksiyalar, kəskin gərginlik reaksiyalarının miqyası bütün bunlar döyüş növlərində PTSP-nin inkişafı ilə sıx bağlı olmuşdur. PTSP-nin inkişafı üçün bütün bir sıra risk faktorları empirik olaraq təsdiqlənsə də, müdafiə amilləri üzərində yalnız bir neçə sistematik sorğu mövcuddur. Müdafiə amillərindən biri sosial dəstəkdir. Sosial dəstək və PTSP-nin inkişafı arasındakı əlaqə bir araşdırmada göstərdi ki, insanlararası zorakılığa məruz qalan dinc əhali ilə müqayisədə döyüş veteranlarında çox möhkəmdir. Cəmiyyətdə fəal iştirak edən veteranların da PTSP-nin inkişaf etmə ehtimalının az olduğu düşünülür (3).

Araşdırmalar PTSP diaqnozu qoyulan qrupun 84% -nin ən az bir başqa psixi pozuntu üçün diaqnostik meyarlara cavab verdiyini bildirmişdir. Ən çox görülən müşayiət olunan xəstəlik alkoqol/ narkotik maddə istifadəsi pozuntularıdır.

PTSP ilə alkoqol/narkotik maddə istifadəsi pozuntuları arasındakı əlaqə Vyetnam qaziləri və vətəndaş nümunələri üzərində aparılan araşdırmalarda bildirilmişdir. Ancaq tədqiqatlar araşdırıldıqda, bu əlaqəni izah edən mexanizmlərin hələ də yetərli olmadığı anlaşılır. Bu əlaqəni izah edə biləcək bir neçə mexanizm müzakirə olunur. Genetik faktorlar, ətraf mühit faktorları, sosyodemoqrafik xüsusiyyətlər, travma növü, travmanın xüsusiyyətləri və fərd tərəfindən necə qəbul edildiyi hələ də müzakirə olunan ən əhəmiyyətli problem sahələridir.

Digər tərəfdən, mədəni fərqlərin alkoqol istifadəsinin yayılmasına və onu müşayiət edən digər psixi xəstəliklərə də təsir göstərdiyi vurğulanır. Bununla birlikdə, bu sahədə tədqiqatlar əsasən aparılır.

Müharibədə, bir çox əsgər əziyyət çəksə və təcrübələri ilə çətinlik çəksə də, onlardan yalnız bəzilərində PTSP inkişaf edir. Başqa sözlə, müharibə travmasına məruz qalma PTSP-nin yaranması üçün zəruri, lakin kifayət deyil. Hazırda veteranlarda şəxsiyyətdaxili, tarixi və ətraf mühit amillərinin, eləcə də posttravmatik bərpa dəyişənlərinin PTSP-nin yaranmasında müharibə travmasına məruz qalma kimi vacib olduğunu göstərmək üçün inandırıcı tədqiqatlar var.

ABŞ və Qərbi Avropadan qaynaqlanır və məlumatları bütün mədəniyyətlərə ümumiləşdirmək uyğun deyil. Bu sahədə Azərbaycan cəmiyyətini əks etdirən heç bir araşdırma yoxdur. Bu araşdırmada, Qarabağ müharibəsinə qatılan bir qrup Azərbaycan əsgəri arasında PTSP və digər narahatlıqlar, alkoqol və maddə istifadəsi pozuntularının əlaqəsini araşdırmaq və onlarla əlaqəli sosyodemoqrafik və klinik dəyişkənləri təyin etmək məqsədi daşıyır (4).

## ƏDƏBİYYAT

1. Frank M. Dattillo, Arthur Freeman/ Kriz durumlarında bilişsel davranışçı stratejiler
2. İnsan hakları savunucularında travma ve başaçıkma/1.baskı Ankara
3. War and post-traumatic stress disorder/ March 2006 /South African Journal of Psychiatry
4. http://cms.galenos.com.tr/Uploads/Article_33347/GMJ-51-212-En.pdf
5. https://www.e-psikiyatri.com/savas-psikolojisi
6. https://insamer.com/tr/savas-ve-akil-sagligi_976.html

# MÜHARİBƏ ŞƏRAİTİNDƏ YAŞAYAN İNSANLARDA POSTTRAVMATİK STRESSİN YARANMASI

***Babazadə Aytən***

## XÜLASƏ

Müharibə cəmiyyətdə və fərddə müxtəlif sahələrdə dəyişikliklərə səbəb olur. Bir çox ruhi xəstəliyin ortaya çıxması, cəmiyyətdə və fərdlərdə şiddət və təcavüzün artması, əsas insani dəyərlərin itirilməsi, fərdin özündən və əlaqəli olduğu cəmiyyətdən uzaqlaşması və inkişafının mənfi və daimi təsirləri. şəxsiyyətin inkişafı ilə bağlı yeni nəsillər bu dəyişikliklərin başlıca səbəbləridir. Posttravmatik stress pozuntusu (PTSP), depressiv pozuntu, ümumiləşdirilmiş narahatlıq pozuntusu və alkoqol/maddə istifadəsi pozuntuları müharibədən sonra baş verən psixiatrik xəstəliklərdir.

Döyüşdən sonrakı sindromların iki ən gözə çarpan ifadəsi mübahisəsiz olaraq döyüş stress reaksiyası və posttravmatik stress pozuntudur.

PTSP, travmatik hadisədən sonra hadisəni yenidən yaşamaq simptomları ilə xarakterizə olunan, şiddətli bir qorxu və daim təhlükədə olmaq kimi hislər yaşayan, hadisə ilə əlaqədar vəziyyətlərdən qaçan və həddindən artıq qorxu ilə xarakterizə olunan ruhi bir xəstəlikdir.

# СОЗДАНИЕ ПОСТТРАВМАТИЧЕСКОГО СТРЕССА У ЛЮДЕЙ, ЖИВУЩИХ В УСЛОВИЯХ ВОЙНЫ

***Бабазада Айтан***

## АННОТАЦИЯ

Война вызывает изменения в обществе и в личности в различных областях. Возникновение многих психических заболеваний, рост насилия и агрессии в обществе и у отдельных лиц, утрата основных человеческих ценностей, отчуждение человека от самого себя и общества, к которому он принадлежит, а также негативные и постоянные последствия развития. Основными причинами этих изменений являются новые поколения развития личности. Посттравматическое стрессовое расстройство (ПТСР), депрессивное расстройство, генерализованное тревожное расстройство и расстройства, связанные со злоупотреблением алкоголем и психоактивными веществами, являются послевоенными психическими заболеваниями.

Двумя наиболее известными проявлениями постбоевых синдромов, возможно, являются реакция на боевой стресс и посттравматическое стрессовое расстройство.

ПТСР — это психическое заболевание, характеризующееся симптомами рецидива посттравматического события, сильным страхом и чувством постоянной опасности, избеганием ситуаций, связанных с инцидентом, и сильным страхом.

# THE ESTABLISHMENT OF POSTTRAUMATIC STRESS IN PEOPLE LIVING IN WAR CONDITIONS

***Babazada Aytan***

## SUMMARY

War causes changes in society and in the individual in various fields. The emergence of many mental illnesses, the increase of violence and aggression in society and individuals, the loss of basic human values, the alienation of the individual from himself and the society to which he belongs, and the negative and permanent effects of development. New generations of personality development are the main reasons for these changes. Posttraumatic stress disorder (PTSD), depressive disorder, generalized anxiety disorder, and alcohol / substance abuse disorders are post-war psychiatric illnesses.

The two most prominent expressions of posttraumatic syndromes are arguably the combat stress response and posttraumatic stress disorder.

PTSD is a mental illness characterized by post-traumatic event recurrence symptoms, severe fear and feelings of constant danger, avoidance of incident-related situations, and extreme fear.

# DEPRESSİYANIN QARŞISINI ALMAQ ÜÇÜN İSTİFADƏ OLUNAN VASİTƏLƏR

***Nağıyeva Lalə İlqar qızı***
***BDU-nun II kurs magistrantı***
***lalenagiyeva163@gmail.com***

***Açar sözlər:*** depressiya, risk faktorları, qarşısının alınması
***Ключевые слова:*** депрессия, факторы риска, профилактика.
***Keywords:*** depression, risk factors, prevention.

Depressiyanın qarşısını almaq üçün istifadə olunan üsullar dediyimiz zaman depressiyanın yaranmasına səbəb olan şəraitlərə baxmaq lazımdır. Çünki qarşısını almaq üçün əvvəlcədən yaranmasına səbəb ola biləcək faktorları müəyyən etdikdən sonra aparıla bilər. Depressiya yaranmasına təsir edəcək mühitlər arasında- valideynlərindən hansısa birində depressiyanın olması kimi vəziyyətlər, narkotik vasitələrdən istifadə edilməsi (ailədən kiminsə istifadə etməsi və ya şəxsin özünün istifadə etdiyi hallarda), disharmonik ailələrin olması hallarını qeyd etmək olar. Bununla bağlı yəni valideynlərində depressiyanınrast gəlinməsi halları zamanı uşaqlada da depressiyanın olması halları ilə bağlı tədqiqatlar aparılmışdır.

Ailələr islə aparılan tədqiqatlar, birinci dərəcəli qohumlar arasında depressiyanın olması hallarında digərlərində olma ehtimalı da əhəmiyyətli dərəcədə yüksək olduğunu aşkar etmişdir. Ən çox irsiyyət göstəriciləri depressiyayada olan valideynlərin övladlarında aşkar edilmişdir.

Bununla bərabər, bu uşaqlarda digər daxili və xarici pozulmalar, koqnitiv (zehni) sahədə gecikmələr, fiziki problemlər, akademik və sosial çətinliklər kimi sahələr də risk altındadırlar. Eyni zamanda, depressiyası olan şəxslərin olduğu evlərdə böyüyən, yuxarıda göstərilən çətinlikləri olmayan bir çox uşaqlar vardır. Bu da fərdi xüsusiyyətlərin fərqliliyindən asılıdır. Kişi iştirakçılar ilə müqayisədə qadın iştirakçılarda daha çox hallarda depressiya olduğu məlumdur. Ancaq anada depressiya halları olduğu hallarda, övladlarda da depressiyanın araşdırılmasında gender faktoru aparılan bir çox tədqiqatlarda nəzərə alınmamışdır. Anada depressiyanın olması və ailə münaqişələrinə məruz qalma oğlan uşaqlaı üçün daha çox sosial münasibətlərdə problemlərlə və qız övladları üçün isə daha çox daxili problemlərlə əlaqələndirilir.

Son bir neçə onillikdə gənclərin depressiyasının qarşısının alınması ilə bağlı araşdırmalar inkişaf etmişdir və nəticədə, qarşısının alınması cəhdlərinin effektivliyini artırmaq yolları haqqında daha çox şey məlum olmuşdur. Bu günə qədər, depressiyası olan valideynlərin uşaqlarını hədəf olaraq götürən seçilmiş profilaktika tədbirləri- yeniyetmə qrupları, ailələr və müəyyən bir icma daxilində aparılmışdır. BMqT (Beynəlxalq Miqrasiya Təşkilatı) hesabatlarında qeyd edilmiş müxtəlif perspektivli qarşısının alınması strategiyalarına dair nümunələr təqdim olunmuşdur.

Klark, risk altında olan yeniyetmələri hədəf alan psixo-təlim qrupu proqramı olan Stresslə Mübarizə (CWS- coping with stress) kursunu hazırlamışdır. Onlar müəyyən etmişdirlər ki, 15 aylıq gözləmə və müşahidə dövründə, adi qayğıya ehtiyacı olan yeniyetmələrlə müqayisədə, Streslə Mübarizə proqramında iştirak edən yeniyetmələr daha az depressiv simptomlar, daha az intihar simptomları və daha yaxşı fəaliyyət göstərmişlər.

Ailə əsaslı müdaxilə proqramları- Depressiyada olan valideynlərin uşaqları üçün bəzi müdaxilə proqramları ailə sistemini müdaxilənin ayrılmaz hədəfi kimi müəyyən etmişdir. Məsələn, Kompas depressiya tarixçəsi olan valideynlərin övladlarında depressiyanın qarşısının alınmasına yönəlmiş ailə koqnitiv-davranışçı profilaktik müdaxilənin effektivliyini

qiymətləndirmişdir. Onlar müəyyən etmişdirlər ki, nəzarət şəraiti ilə müqayisədə müdaxilə zamanı valideyn və uşaq proqramlarının faydaları, o cümlədən 24 ay ərzində təsadüfi seçilmiş qruplardan əhəmiyyətli dərəcədə daha az depressiv simptomların olması aşkarlanmışdır.

Hazırkı dövrdə tədqiqatın əsas diqqət mərkəzində, xüsusilə depressiyası olan valideynlərin uşaqları üçün profilaktik müdaxilələr vardır. Valideynlərində depressiya olan gənclərin depressiyaya düşməsi ən böyük risk faktorlarından biridir.

Veyssman tərəfindən aparılan araşdırma depressiyası olan valideynlərin uşaqlarının depressiyaya uğramayan valideynlərin uşaqları ilə müqayisədə bu pozuntunu üç (əsas vəziyyətdən 20 il sonra) və ya dörd dəfə (əsas vəziyyətdən 10 il sonra) daha tez rast gəlindiyini göstərmişdir. Bu, depressiyaya uğramış valideynlərin uşaqlarının 50%-nin 20 yaşına qədər özlərində depressiya yaranmasına bərabərdir. Bu halda genetik təsirlərdən əlavə bir sıra dəyişdiriləbilən psixososial və ətraf mühit amillərinin mənfi rolu, valideynlərin təsiri, valideynlərin qeyri-adekvat davranışı hallarının təsiri da vardır.

Bu risk faktorlarını müəyyənləşdirdikdən sonra, depressiyanın yaranmasının qarşısını almaq üçün nəzərdə tutulmuş profilaktik müdaxilələr işlənib hazırlanmışdır. Və bu, əsasən uşaqlara valideyn depressiyası və ya da onların psixoloji dözümlülüyünü artırmaq məqsədi daşıyan koqnitiv-davranış elementləri haqqında öyrədən psixo-maarifləndirici elementləri əhatə edir. Bu müdaxilələr yalnız depressiv simptomlara deyil, həm də depressiyanın rast gəlmə tezliyinə və təkcə qısa müddətli deyil, həm də uzunmüddətli (6 ilə qədər müddətdə) ölçülən təsirləri ilə mübarizə üçün nəzərdə tutulmuşdur.

Bir meta-analizdə depressiyası olan anaların (lakin bu tədqiqat atalar ilə aparılmamışdır) övladalrından ibarət alt qrup təhlili daxil edilsə də, bu, ana-uşaq qarşılıqlı əlaqəsinin (uşaq psixopatologiyası deyil) təsirinə yönəlmişdir. Hazırkı tədqiqatın əsas məqsədi depressiyaya uğramış valideynlərin uşaqları üçün profilaktik müdaxilələrin müasir nəzərdən keçirilməsini təmin etməkdir. Bu, sadəcə bu sahədə gələcək tədqiqatları istiqamətləndirmək üçün deyil, həm də kliniki təcrübə üçün də lazımdır. Məsələn, depressiyası olan valideynlərin övladlarında depressiyanın qarşısını almaq doğrudan da mümkündürmü? Əgər belə olursa, təsir ölçüləri nə qədər güclüdür və xüsusilə hansı müdaxilələr ən təsirli olaraq görülür?

Hazırkı tədqiqatın xüsusi məqsədləri üçtərəfli olaraq verilir: ilk növbədə depressiyası olan valideynlərin gənc övladları üçün hazırlanmış müxtəlif profilaktik müdaxilələrin müasir icmalı (sistemli formada) təqdim etmək lazımdır.

İkincisi, profilaktik fəaliyyətlərin effektivliyini qiymətləndirmək üçün depressiyaya uğramış valideynlərin uşaqları üçün hazırlamış müdaxilədə, a) depressiya simptomları və b) müdaxilə hallarından sonra, qısa müddətli və uzunmüddətli izləmə zamanı depressiya halları üzrə meta-analiz aparılır. Əvvəlki tədqiqatlar seçilmiş müdaxilələrin tamamilə depressiv simptomlar və depressiyanın başlanğıcı üzərində kiçik, lakin əhəmiyyətli təsirlərlə əlaqəli olduğunu göstərir. Bu xüsusilə, 2016-cı ildə Hetrik tərəfindən aparılmış tədqiqatlarda qeyd edilmişdir. Depressiyası olan valideynlərin uşaqları üçün müdaxilələrin təsir ölçüsü ilə bağlı dəqiq məlumat verilmir. Bir baxımdan, müdaxilənin təsir ölçüləri əvvəlki meta-analizlərdən böyük ola bilər, çünki onlarda depressiya və valideyn depressiyasına davamlı məruz qalma nəticəsində, depressiyaya uğramış valideynlərin övladlarının depressiya riski aşağı olan gənclərə nisbətən profilaktik müdaxilələrə daha həssas olmalaına səbəb ola bilər.

Digər tərəfdən isə depressiyada olan yeniyetmə və gənclərin valideyn depressiyası olan uşaqlara nisbətən dəyişməyə daha az meyilli olduqları düşünülür. Valideynlərə isə hər hansı müsbət müdaxilənin təsirinin nə qədər davam edəcəyinə dair dəqiq proqnozlar vermək də düzgün olmur.

Üçüncü məqsəd isə, müxtəlif təsir ölçülərinə a) nəzarət şəraitinin növü və b) müdaxilə növündən hansının təsir edib-etmədiyini araşdırmaqdır. Müdaxilə, fəal olmayan və fəal olan nəzarət şəraiti ilə müqayisə edildikdə təsir ölçülərinin daha böyük olacağı düşünülür.

Bu araşdırmalarla əlaəqli olaraq bir neçə mənbələrə baxılmışdır. Onlardan 14 mənbə üzrə araşdırmalar diqqəti çəkir.

Bu tədqiqatlardan 5 sınaq Amerika Birləşmiş Ştatlarında (ABŞ), biri Finlandiyada və biri isə Kanadada aparılmışdır. Sınaqlara daxil edilən uşaqlar 6-18 yaşları arasında götürülmüşdür. Bunu da qeyd etmək olar ki, bu nəşrlərdən birində uşaqların, valideynləri tərəfindən doldurulan hesabata əsasən ilkin olaraq, depressiya simptomları göstərməyən kimi qeyd etmişdirlər. Lakin daha sonra, uşaqlarların özləri ilə aparılan hesabatların da tədqiqata daxil edilməsindən sonra, bu uşaqların 2,5%-də, mövcud depressiya halları üçün uyğun olan simptomların olduğunu ortaya qoymuşdur. Bu tədqiqatların əksəriyyətinə depressiya tarixçəsi olan uşaqlar (depressiya tarixçəsi olan uşaqların iştirak etdiyi sınaqlarda bu nisbət 11,6 -87,5% arası nəticələrdə dəyişir) daxil edilmişdir.

Müdaxilə proqramlarına diqqət yetirək. Sınaqlar depressiyası olan valideynlərin uşaqlarında depressiyanın qarşısını almaq üçün hazırlanmış beş müdaxilə proqramlarından birini qiymətləndirdi: a) Ailədə danışıq müdaxiləsi (FTI), b) Sress ilə mübarizə (CWD), c) Sağlam uşaq böyütmə ( RHC) d) Valideynlik təlimi (PT) və e) Ümidin inkişafı Layihəsi (Project Hope).

Bütün bu müdaxilə proqramları ailə daxilində depressiya haqqında bilikləri təkmilləşdirmək və valideynlər və/yaxud uşaqlarda stresə qarşı dözümlülük yaratmaqla depressiya riskini azaltmaq məqsədi daşıyır. Onların hamısı üz-üzə, qrup şəraitində bir neçə seans ərzində baş verir. Bununla belə, onlar koqnitiv-davranışçı terapiyaya (CBT) qarşı psixotəlimlə bağlı aparılır.

A) Ailə danışıq müdaxiləsi proqramı (Family Talk Intervention)- ailələrə dəstək üçün göstərilən məqsədləri daşıyır:

• valideynin olan ruhi xəstəliyi haqqında danışmaq

• valideynlərdə olan depressiyanın və ya narahatlığının valideynlərə, uşaqlara və ailəyə təsiri haqqında ümumi anlayışı inkişaf etdirmək

• uşaq və ailənin rifahını gücləndirmək üçün strategiyalar hazırlamaq.

Müdaxilə proqramı psixoloqlar və valideynlər, psixoloqlar və uşaqlar, psixoloqlar və bütün ailə üzvləri ilə görüşlərin keçirilməsini əhatə edir.

Ailə danışıq müdaxiləsi mərhələlərini nəzərdən keçirsək bəzi ümumi olan halları görə bilərik. Ailə danışıq müdaxiləsi proqramı 6-8 seansdan ibarət olur.

İlkin mərhələlərdə müdaxilənin rolu, valideynlərə psixi xəstəlik haqqında anlayışlarını formalaşdırmağa kömək etmək və ailəyə valideyndə olan psixi xəstəlik ilə əlaqədar olaraq ortaq ünsiyyət yaratmaq imkanı verməkdir. Bunun üçün onların inamını və ünsiyyət bacarıqlarını artırmaq tələb olunur. Psixo-təlim materiallarının təqdimatı birbaşa ailənin yaşam təcrübəsi ilə əlaqələndirilməlidir.

Müdaxilə irəlilədikcə, müdaxilə praqramının rolu bu ünsiyyəti həyata keçirmək üçün ailəyə dəstək olmaqdan ibarət olacaqdır. Ailə Yığıncağı davam edən prosesdə ilk addım olaraq görülür. Valideynlərin və uşaqların psixi sağlamlığını yaxşılaşdırmaq üçün ailənin güclü tərəflərini bilmək, strategiyalarını müəyyənləşdirmək və bunları əsaslandırmaq önəmlidir.

Müdaxilədən sonra proqramı idarə edən şəxsin (bir çox hallarda psixoloqun) rolu ailənin açıq ünsiyyətini davam etdirməyin vacibliyini və ailənin müdaxilə zamanı müəyyənləşdirdiyi və tətbiq etdiyi strategiyaları gücləndirməyi əhatə edəcək.

Bu proqramın faydalarını nəzərdən keçirsək:

• Valideynlərin psixi xəstəliklə bağlı davranışı və psixi xəstəliyə qarşı münasibəti dəyişir, nəticədə valideynlər üçün psixi sağlamlığın nəticələri yaxşılaşır.

• Valideynlərin psixi xəstəliklərinin səbəbləri və əlamətləri haqqında anlayışlarının və onların övladlarının təcrübələri haqqında anlayışlarının təkmilləşdirilməsi.

• Sağlam valideyn-övlad münasibətlərinin dəstəklənməsi və uşaqların rifahı üçün qoruyucu amillərin təşviq edilməsi.

• Valideynlərin psixi xəstəlikləri ilə bağlı ailə münasibətlərinin təkmilləşdirilməsi, nəticədə daha müsbət qarşılıqlı əlaqə və fəaliyyətlərin göstərilməsi.

• Valideyndə olan depressiya və ya narahatlıq ilə bağlı ailə problemlərinin həllinin təkmilləşdirilməsi daxildir.

B)Yeniyetmələrin Depressiya ilə Mübarizə Proqramı (CWD-A- Adolescent Coping with Depression) adətən depressiyaya uğramış yeniyetmələrin yaşadığı xüsusi problemləri hədəfləyən koqnitiv-davranışçı qrup müdaxiləsi proqramıdır. Bu kimi problemlərə narahatlıq və həyəcan, irrasional olan mənfi düşüncələr, zəif sosial bacarıqlar və xoş fəaliyyətlərin məhdud təcrübələri daxildir. CWD-A proqramında 10-a qədər yeniyetmədən ibarət qarışıq cins qrupları üçün səkkiz həftəlik müddət ərzində aparılan, həftədə iki dəfə olmaq üzrə cəmi 16 dəfə iki saatlıq sessiyadan ibarətdir.

Proqramın əsas komponentlərinə aşağıda göstərilənlər daxildir:

-Koqnitiv-Davranış Terapiyasının (CBT) dəyişmə modeli

-Əhval-ruhiyyənin yoxlanılması

-Xoş fəaliyyətlərin artırılması (davranışın aktivləşdirilməsi)

-Sosial bacarıqlarıninkişaf etdirilməsi təlimləri

-İstirahətin düzgün təşkil edilməsi məşqləri

-Mənfi düşüncələrin müəyyənləşdirilməsi və idrakın yenidən qurulması

-Ünsiyyət və problemlərin həll ediləsi təlimləri

-Hər bir iştirakçıya əvvəlcədən müəyyən edilmiş təlim tapşırıqları, qısa viktorinalar və ev tapşırığı formalarının olduğu iş dəftəri verilir.

Yeniyetmələrın istifadəsi üçün kursun dəyişdirilməsi zamanı sessiya materialları və ev tapşırıqları sadələşdirildi, təcrübi öyrənmə imkanları (məsələn, rollu oyunlar) gücləndirildi və proqrama problem həll etmə bacarıqları əlavə edilmişdir.

C)Sağlam Uşaqlar Yetişdirmək (RHC- Raising Healthy Children)- gənclərin müsbət inkişafını təşviq edən hərtərəfli, məktəb əsaslı profilaktik müdaxilə proqramıdır. Məktəb və ailə mühiti də daxil olmaqla uşağa hədəflənmiş fərdi proqramlaşdırmadır. Proqram uşaq bağçasından orta məktəbə qədər olan uşaqları müxtəlif yaş mərhələlərində inkişaf və yaşa uyğun materiallarla əhatə edir. RHC-nin əsas məqsədləri məktəbə bağlılığı, akademik performansı və sosial bacarıqları artırmaq və antisosial davranışları azaltmaqdır.

RHC-nin əsas fərziyyəsi ondan ibarətdir ki, uşaqlar davranış nümunələrini ailə və məktəbin sosiallaşma mühitlərindən öyrənsinlər. Uşaqlar böyüdükcə həmyaşıdları onların davranışlarında daha böyük rola sahib olur. Sosiallaşma dörd əlaqəli prinsipi əhatə edir: 1) fəaliyyətlərdə (uşaq vaxtı oyun fəaliyyətləri) iştirak və başqaları ilə qarşılıqlı münasibət üçün imkanlar, 2) iştirakın və qarşılıqlı əlaqənin formal dərəcəsi, 3) bu qarşılıqlı münasibət və fəaliyyətlərdə uğurla iştirak etmək bacarıqları və 4) bu qarşılıqlı münasibət və fəaliyyətlərdən qazanılan möhkəmlənmə. Sosiallaşma prosesləri ardıcılla olduqda, uşaq və sosiallaşma vahidi arasında bir sosial əlaqə yaranır. Bu əlaqə uşağın davranışına istiqamət verəcək, müəyyən hərəkətləri(çox hallarda istənməyən) maneə törədərək başqa hərəkətlərə həvəsləndirəcəkdir.

Proqramın komponentləri- Çoxşaxəli proqram müəllimlər, valideynlər və tələbələri mərkəzə alır. Müəllimlər tələbələrin erkən aqressiv davranışlarını və akademik çətinliklərini azaltmaqla yanaşı, qoruyucu faktorları artıra bilən sinif idarəetmə bacarıqları və effektiv öyrənmə

strategiyalarından istifadə edirlər. Bunu etmək üçün onlara təlim keçməyə istiqamətlənmiş seminarlar verilir.

Valideynlər həmçinin, seçilmiş ailələr üçün müəyyən edilmiş çoxseanslı seminarlar ilə təmin olunurlar. Valideyn seminarlarının təşkili koordinatorlar tərəfindən həyata keçirilir. Valideynlər uşaqların yaxşı davranışını möhkəmləndirməyi və istənməyən pis davranışların nəticələrini göstərməyi və övladaları ilə ünsiyyət qurmağı öyrənirlər. Valideynlər üçün standart təlimlər beş seminarda təşkil edilir. Əlavə dəstəyə ehtiyacı olanlar isə 12 seans dəstək ala bilərlər. Övladları böyüdükcə, orta məktəbə keçdikcə və daha çətin problemlərlə qarşılaşmağa başlayanda valideynlərə kömək etmək üçün nəzərdə tutulmuş əlavə altı gücləndirici sessiya da təşkil edilir.

D)Ümidin İnkişafı Layihəsi həm ekoloji sistemlər nəzəriyyəsi, həm də inkişaf psixopatologiyasına əsaslanır. Bu lahiyə təşkilatçı çərçivəni rəhbər tutaraq, Ümid, Məna və Davamlılıq, və Ailə Məsələləri materiallarını birləşdirir və inkişaf etdirir. Ekoloji sistemlər nəzəriyyəsi çoxsaylı sosiallaşma təlimləri ilə məşğul olur və gənclərin inkişafı üçün ailənin əhəmiyyətini vurğulayır. İnkişaf psixopatologiyası isə fərdi uyğunlaşmanın və həyat boyu adaptasiyanın mənbəyi və gedişatını anlamaqla məşğul olur. Xüsusilə, Ümidin İnkişafı layihəsi ailənin depressiya təcrübəsi (məsələn, depressiya haqqında müzakirə etmək), ailədə qarşılıqlı münasibətlər (məsələn,  valideyn-uşaq münasibətlərinin keyfiyyəti və azaldılmış ailə münaqişələri), ailə idarəçiliyi (məsələn, nəzarət qaydaları ilə bağlı nəticələri hədəfləyir) və fərdi fəaliyyət (məsələn, mübarizə aparmaq bacarıqları, maddə istifadəsindən imtina etmə bacarıqları, yeniyetmə depressiyası və maddə istifadəsi ilə bağlı biliklər) sahələri üzrə seminarları təşkil edir.

Valideynlərə ailə idarəçiliyi bacarıqlarının öyrədilməsi, məsələn, övladlarında istənməyən(çox hallarda arzu olunmayan) davranışları yönləndirərkən arzu olunan davranışı necə mükafatlandırmaq haqqında öyrənirlər. Bu təlimlərin nəticə etibarı ilə yeniyetmələr arasında həm depressiya, həm də maddə istifadəsi üçün risk faktorunu azaldacağı gözlənilir.

Depressiyanın yaranmasına səbəb ola biləcək risk faktorları haqqında əvvəldə də bəzi məlumatları nəzərdən keçirdik. Onlardan biri də narkotik vasitələrindən istifadə edilməsi idi. Yeniyetmələr arasında narkotik vasitələrdən və ya alkoqoldan istifadə hallarını baxaq. Yeniyetmələrdə bu halların daha çox valideyn tutumu ilə bağlı olaraq yarandığı qeyd olunur.

ABŞ-da məktəb əsaslı narkotik təlimi proqramlarının geniş yayılması əlavə profilaktik yanaşmalara haqq qazandırmaq zərurətindən xəbər verir. Tədqiqat, məktəb əsaslı proqramların bəzi növlərinin yeniyetmələrin narkotik istifadəsinə təsir etdiyini göstərsə də, bu proqramların təsiri arzuolunandan azdır.

Potensial olaraq cəlbedici yanaşmalardan biri - yeniyetmələrin ailələrinin bu təlim proqramına cəlb edilməsidir. Bu xüsusilə perspektivlidir, çünki ailənin xüsusiyyətləri yeniyetmələrin narkotik vasitələrindən istifadəsi ilə əlaqədardır və ailələr uşaqlarına güclü və davamlı olaraq təsir göstərirlər.

Bu isə adətən maarifləndirmə ilə əlaqədar işlərlə bağlıdır. Onlara müxtəlif qruplardan olan ailələrin övladlarının da tütün məhsulları və ya alkoqoldan istifadə edə biləcəyi haqqında məlumat verilir. Bu maarifləndirmə proqramı adətən 12-14 yaşlı yeniyetmə övladları olan ailələrlə edilir. Bu yaşın seçilməsi adətən ona görə olur ki, bu yaşda yeniyetmələr hələ ki, narkotik istifadəsinə başlamamış olurlar.

## ƏDƏBİYYAT

1. Bauman, K. E. Foshee, V.A.Ennett, S.T., Hicks, K., & Pemberton, M. Family matters: A family-directed program designed to prevent adolescent tobacco and alcohol use. Health Promotion Practice, 2(1), 2001, 81–96 p.

2. Beardslee, W. R., Brent, D. A., Weersing, V. R., Clarke, G. N., Porta, G., Hollon, S. D., Garber, J., Prevention of depression in at-risk adolescents: Longer-term effects. 2013, 1161–1170 p.
3. Brent, D. A., Brunwasser, S. M., Hollon, S. D., Weersing, V. R., Clarke, G. N., Dickerson, J. F., Garber, J. Effect of a cognitive-behavioral prevention program on depression 6 years after implementation among at-risk adolescents: A randomized clinical trial. JAMA Psychiatry, 2015, 1–9 p.
4. Christiansen, H., Anding, J., Schrott, B., & Röhrle, Children of mentally ill parents—A pilot study of a group intervention program. Frontiers in Psychology, 2015, 1494 p.
5. Compas, B. E., Forehand, R., Thigpen, J., Hardcastle, E., Garai, E., McKee, L.,Sterba, S., Efficacy and moderators of a family group cognitive–behavioral preventive intervention for children of parents with depression. Journal of Consulting and Clinical Psychology, 83(3), 2015, 514–553 p.
6. Ernesto Panadero, Jesus Alonso-Tapia, Self-assessment: Theoretical and Practical Connotations. When it Happens, How is it Acquired and what to do to Develop it in our Students Electronic Journal of Research in Educational Psychology · September 2013, 27 p

## DEPRESSİYANIN QARŞISINI ALMAQ ÜÇÜN İSTİFADƏ OLUNAN VASİTƏLƏR

***Nağıyeva Lalə***

### XÜLASƏ

Bu məqalədə depressiyanın qarşısının alınması yolları araşdırılmışdır. onların verdiyi faydalı nəticələrlə əlaqədar yazılmış məqalələrə baxılmış, aparılan araşdırmalar nəzərdən keçirilmiş və ümumiləşdirilərək məqalədə qeyd edilmişdir. Həmçinin depressiyanın qarşısını alma yollarından bəziləri qeyd olunaraq onlar haqqında məlumat verilmişdir.

## СРЕДСТВА, ИСПОЛЬЗУЕМЫЕ ДЛЯ ПРОФИЛАКТИКИ ДЕПРЕССИИ

***Нагиева Лала***

### АННОТАЦИЯ

В этой статье рассматриваются способы предотвращения депрессии. Были проанализированы статьи, написанные об их полезных результатах, исследования были проанализированы, обобщены и упомянуты в статье. Были также упомянуты и описаны некоторые способы предотвращения депрессии.

## MEANS USED TO PREVENT DEPRESSION

***Naghıyeva Lala***

### SUMMARY

This article examines ways to prevent depression. The articles written about their useful results were reviewed, the researches were reviewed and summarized and mentioned in the article. Some of the ways to prevent depression were also mentioned and reported.

# TƏLİMDƏN GERİ QALMADA AİLƏNİN ROLU

***Elmi rəhbər: dos. Sevinc Quliyeva***
***Kərimli Nəzrin Eyvaz qızı***
***BDU-nun II kurs magistrantı***
***nazrinkarimli2@gmail.com***

***Açar sözlər:*** Ailə, tərbiyə, valideyn, şərait, münaqişə, pedaqoji baxımsızlıq, biganəlik.
***Ключевые слова:*** Семья, воспитание, родители, условия, конфликт, педагогическая запущенность, равнодушие.
***Keywords:*** Family, upbringing, parent, condition, dispute, pedagogical neglect, carelessness.

Ailə uşağın əhatə olunduğu ilk sosial mühit və güclü tərbiyə məkanıdır. Sosial rolların və normaların ilkin təzahürlərini uşaqlar məhz ailədən mənimsəyirlər. Tədqiqatçı V.M.Astapov fikrincə, müvəffəqiyətsizlik səbəbi çox zaman idrak fəaliyyətinin pozulmalası ilə yox, digər səbəblərlə əlaqəli olur [3]. Bu səbəblərə aiddir; ailədə əlverişsiz həyat şəraiti, valideynlər tərəfindən tədrisə həm nəzarətin, həm də köməyin olmaması, yanlış tərbiyə üsulları, ailədə münaqişələrin mövcudluğu, rejim qaydalarına əməl edilməməsi, ailənin maddi vəziyyəti və s.

Ata və ananın maddi bazanı təmin etmək məqsədilə mütəmadi çalışması, ailənin qayğıları arasında uşağın təlim prosesinin olmaması ən çox qarşılaşılan problemlərdəndir. Uşağın gündəlik dərslərinə nəzarət erkən dövrdə təlimdəki çətinliklərin aşkarlanmasına yardımçı olur.

Uşaqların rifah halı təlim prosesinə əsaslı təsir göstərir. Münaqişəli ailə mühiti uşaqda daxili gərginli, əsəb, stress kimi hallar yaradır. Uşaqların bu münaqişələrdən xəbərsiz olduğunu düünmək yanlışdır. Uşaqlar ailələrinin emosional iqliminə çox uyğun olduqları üçün, gərginliyin olub olmadığını bu prosesə şahid olmasalar belə sezə bilərlər. Bu hallarda öz növbəsində müvəffəqiyyətin qarşısında əngəl olur. Tədqiqatlar göstərir ki, yanlış idarə olunan valideynlərarası münaqişənin psixi sağlamlığa təsirləri çox vaxt yetkinlik yaşına qədər davam edə bilər: Hətta uşaqlar yetkin olduqdan və evi tərk etdikdən sonra belə, valideynlərinin münasibətlərinin keyfiyyəti hələ də onların psixi sağlamlığına və rifahına təsir edə bilər [7].

Münaqişələr çox zaman da məhz uşağın tərbiyəsi üzərində yaranır. Ata-ananın fərqli tərbiyə yanaşmaları gərginliyi doğuran səbəb kimi çıxış edir. Tərbiyə üsulları arasındakı fərqlilik uşaqda da müəyyən çaşğınlıq doğurur. Bir qrup ailə uşağa biganə yanaşdığı halda, digər qisim isə uşaqlarını daha çox sıxır, kəskin nəzarət edir. Nəticədə uşağın öz imkanlarını reallaşdıra biləcəyi şəxsi zonası qalmır.

Elmi ədəbiyyatlarda pedaqoji baxımsız olaraq qiymətləndirilən uşaqlar təlim prosesinə qabillik üçün lazım olan bazaya ya çox zəif şəkildə sahib olurlar, ya da heç sahib olmurlar. Məktəb həyatının ilk günlərindən tapşırıqların icrasında çətinlik meydana çıxır.

Ailədə diqqətsiz, qayğısız böyüyən uşaqlar təlim həyatlarının ilk günlərindən çətinliklə qarşılaşırlar. Pedaqoji biliklərin azlığı, nitq imkanlarının kasadlığı, idrak proseslərini yaşa uyğun inkişaf etməməsi vəs s. kimi amillər bu çətinliyi doğurur. Çox zaman bu tip uşaqlar təlim prosesinə maraq göstərmirlər, onlar tapşırıqlara biganə yanaşırlar.

Ailədəki gərgin mühit uşaqda bir sıra fizioloji və psixoloji problemlər yaradır:

-Xəstəliklər;
-Yuxu və qida pozulmaları;
-Ümumi zəiflik;
-Əsəb problemləri;
-Mənfi davranışlara meyil və s.

## ƏDƏBİYYAT


1. Çələbiyev N.Z.,Uşaq psixologiyası  Bakı 2005,səh.234
2. Əmrahlı L.,Rzayeva N., Uşaq psixologiyası  Bakı 2018,səh.442
3. Vəliyev M.V.,Mustafayev A.M.,İnkişaf və yaş psixologiyası Bakı 2016, səh 331
4. Vəliyev M.V., Mustafayev A.M.,Təlimdə geri qalan şagirdlərin psixoloji xüsusiyyətləri. Müasir dövrün aktual problemləri. Elmi əsərlər toplusu. Buraxılış N.6. Bakı 2011
5. Qurbanova L., Ailənin psixoloji problemləri və həlli yoları 2013, səh 240
6. Т. Андреева., Психология семьи., 2014 535с.
7. Выготский Л.С.,Педагогический психология М.,1991 480с.
8. https://childandfamilyblog.com/parental-conflict-effect-on-children/


## TƏLİMDƏN GERİ QALMADA AİLƏNİN ROLU

***Nəzrin Kərimli***

## XÜLASƏ

Ailə uşağa təsir edən güclü qüvvədir. Məhz bu səbəbdən ailədə baş verən mənfi hallar təlim mühitinə daxil olan uşaq üçün ağır fəsadlar törədir. Bu hallar çox zaman valideynlərindən gözündən qaçaraq dərin izlər qoyur. Ən pis halda isə şagirdi təlim həyatından qoparır

## РОЛЬ СЕМЬИ В ОСТАВАНИИ В ОБУЧЕНИИ

***Каримли Назрин***

## АННОТАЦИЯ

Семья является мощной силой, влияющей на ребёнка. По этой причине негативные стороны семьи имеют серьезные последствия для ребёнка, входящего в среду обучения. Эти ситуации часто оставляют глубокий след в глазах родителей. В худшем случае это лишает ученика учебной жизни

## THE FAMILY'S ROLE IN RETARDATION FROM TRAINING

***Karimli Nazrin***

## SUMMARY

The family has an influential role over a child. Due to this reason, the negative events occurring in the family can cause the severe repercussions for the child who enters into the learning environment. Most times, these events are bypassed by the parents and lead to the deep traces. In the worst case, they can divert the pupil from learning environment

# ОСОБЕННОСТИ РАЗВИТИЯ ДЕТЕЙ, ОПЛОДОТВОРЁННЫХ ЕСТЕССТВЕННЫМ ПУТЁМ И ПУТЁМ ЭКО, В ПЕРИОДЕ ОНТОГЕНЕЗА

***Аскерова Ирада Сарван кызы,***
***магистрант, I курса БГУ***
***irada.askerova0407@gmail.com***

***Ключевые слова:*** особенности развития детей, естественное оплодотворение, экстракорпоральное оплодотворение (ЭКО).
***Açar sözlər:*** uşaqların inkişafının xüsusiyyətləri, təbii mayalanma, süni mayalanma üsulu (SM).
***Key words:*** features of children's development, method naturally fertilized, in vitro fertilization (IVF).

Все особенности развития детей, таких, как психические, физические, соматические и другие рассматриваются под одним понятием, как «комплексная» оценивание состояние здоровья ребёнка. На основе особенностей, которые рассматриваются у детей, в периоде их развития выделяют следующие категории:

1. К первой категории относится дети, у которых в норме уровень физического, соматического, психического развития, не рассматриваются отклонение.

2. Ко второй категории относятся дети, которые возможно перенесли инфекционное заболевание, но у них не рассматриваются заболевания в хронической форме. В эту категорию также относятся дети, у которых рассматривается в малом количестве отсталость на биологическом уровне. У таких детей часто рассматривается не соответствие веса и возраста, часто переносят различные заболевания.

3. В третьей категории рассматриваются дети, у которых есть заболевания хронического характера, а также рассматриваются дети с физическими, психическими недостатками. В периоде преодолений недостатков детей не следует отделять от окружающей среды, наоборот, необходимо создавать условия, чтобы у него происходил процесс социализации, развитие функциональных особенностей.

4. К четвёртой категории относятся дети, у которых рассматривают высокий уровень хронических заболеваний. У детей рассматриваются недостатки физического уровня, посттравматические психические расстройства, все эти нарушения могут привести в дальнейшем к снижению уровня получения знаний, умений и навыков.

Комплексная оценка психического состояния поводится со стороны специалистов и врачей. Все данные, полученные ими, результаты лабораторных исследований записываются в историю развития, которые будут учитываться при хождении в школу.

Помимо изучения комплексного здоровья у детей, рождённые естественным путём, также проводились исследования и получили результаты, у детей, родившиеся путём вспомогательных репродуктивных технологий, а именно экстракорпоральным оплодотворением, ЭКО. Однако, как указывается во многих литературах, некоторые исследователи не подтверждают наличие каких либо нарушений физического, интеллектуального или психического характера у детей, родившиеся путём ЭКО. Принимается наличие нарушений тех или иных особенностей, за исключением, у недоношенных детей с ЭКО.

Различными исследователями, делалась комплексная оценка общего состояния детей, родившиеся экстракорпоральным оплодотворением, где рассматривали особенности, возникающие в перинатальном периоде, а также формированные под воздействием окружающей, социальной среды. При изучении общего состояния учитываются и

отношения детей со всеми членами семьи, проявление в окружающей среде своих чувств, эмоций и так далее. Даже в современное время нет результатов длительных исследований, которые бы показали те или иные факторы окружающей среды, оказывающие огромное влияние на психическое, соматическое, физическое развитие детей с ЭКО [6].

В современное время очень широко распространены соматические и соматогенные расстройства, как у детей, так и у подростков. Такие типы расстройств не просто распространяются, а так же увеличиваются с каждым годом. Один из видов соматических расстройств является, расстройства связанные с пищеварительной системой. Этому виду расстройства уделяется особое внимание в педиатрии.

В периоде развития, окружающая среда оказывает большое влияние на ребёнка. В результате исследований было установлено, что если эти воздействия увеличатся в два раза, то возникновение заболеваний и расстройств могут увеличиться приблизительно на 80%. Например, у ребёнка бывают тесные связи со своими родителями, и если произойдут какие-то изменения в этих отношениях, это может привести вплоть до возникновения заболеваний. По этой причине, то состояние, в котором находится ребёнок в данный момент, показывает отношение, в котором он находится со своими родителями [1].

В современное время результаты различных исследований дают не одинаковые результаты, по поводу расстройств, которые бываю во врождённой форме у детей, которые были зачаты новыми технологическими средствами. В различных исследованиях на основе полученных данных, приводится к такому выводу, что у детей, которые зачаты вспомогательной репродуктивной технологией, рассматривается в большей степени как врождённых, так и соматических расстройств, чем у детей, родившиеся естественным путём. Результаты исследования, которые проводились в Австралии, было выявлено, что у детей, родившиеся вспомогательными репродуктивными методами, рассматривается в два раза больше таких соматических [10]. На основе данных было установлено, что у таких детей рассматривается и высокий уровень врождённых дефектов, оказывающее влияние в первую очередь на центральную нервную систему.

В Швеции было проведено исследование, на основе которого получили данные о степени выявления врождённых соматических расстройств. В исследование рассмотрели 1139 детей, которые родились путём интроцитоплазматической инъекцией сперматозоида, то есть, искусственное введение сперматозоида в цитоплазму, которая так же называется ИКСИ. Приблизительно у 8% детей рассматривались врождённые, соматические расстройства [3].

Все морфологические и функциональные развития, которые происходят в организме человека, рассматриваются под понятием, физическое развитие. Во время процесса роста, развития и созревания организма ребёнка, происходит формирование чувствительности к окружающей среде.

На физическое развитие ребёнка огромное влияние оказывает климат, в котором находятся, условие жилья, режим дня, питания, а также заболевания, которые переносил ребёнок в процессе роста и развития. Помимо этого, на скорость физического развития оказывают влияние наследственные факторы, секреты пищеварительных желез, ферменты крови и другие. Как морфологический показатель, на длину и массу тела, оказывают влияния режим питания и сна матери в период беременности, состояние здоровья ребёнка. При нормальном физиологическом развитии происходит потеря веса у новорождённых приблизительно от 100 до 300 грамм, который составляет 6-8 % от общего веса. Восстановление веса ребёнка начинается со второй недели. Черепной кость тоже бывает

мягким, и в центральной части есть место, которое не полностью сращено в первое время, и это место называется – родничок [4].

Но в некоторых работах исследователей не показываются, какие либо показатели, которые отличают детей, зачатые вспомогательной репродуктивной технологией, от детей родившиеся естественным путём [2]. И, наоборот, в других работах описываются явные отличия этих детей, присуще им своя возрастная категоризация и так далее. В этих работах в основном описываются отрицательные качества, которые проявляются у детей родившиеся экстракорпоральным оплодотворением. Указывается, что дети рождаются обычно преждевременно, дети бывают весом намного меньше нормы. Здесь также указывается, что с 1978 года увеличилось число детей, которые рождаются путём вспомогательной репродуктивной технологией и в основном ЭКО, их число было несколько миллионов, который составлял 0,1% всего населения Земли. И по некоторым расчётам было установлено, что если этот процесс будет продолжаться таким темпом, их число в 2100 году будет, приблизительно 157 миллион человека, что будет составлять уже 1,4% всего населения Земли [7].

Полное формирование и развитие головного мозга у ребёнка охватывает длительный период. Его полное развитие не завершается даже сразу после рождения. Хоть при рождении мозг бывает в большом размере, но извилины не развиты полностью. Серое вещество, которое находится в составе мозга, не отделена полностью от белого вещества, и установлено, что миелиновой оболочки практически нет. В составе мозга содержится в малом количестве органических веществ, а воды рассматривается в большом количестве. В ускоренной форме развитие и сформирование извилин происходит в первые 11 - 12 месяцев. Нервные клетки завершают свое развитие к трём годам. Кора головного мозга у ребёнка становится похожа на мозг зрелого человека уже к восьми годам. Миелиновая оболочка охватывает длительное время полноценного формирования, и оканчивается в зрелые периоды жизни человека [5].

Есть в большом количестве информаций о психическое развитие детей, родившиеся естественным путём, а про психическое состояние детей, которые родились путём экстракорпорального оплодотворения мало. Причиной этого в основном является то, что родители таких детей обычно скрывают то, что их ребёнок родился путём ЭКО.

Были проведены ряд исследований, с целью сравнить психические особенности детей, и одним из них является, исследование, проводимое в Англии. По их результатам, данные 700 детей, родившиеся путём экстракорпорального оплодотворения, было выведено, что у детей с ЭКО нет явно выраженных психических нарушений, показывающие себя в дошкольном или младше школьном возрасте [8]. Не зависимо от того, какого пола ребёнок или дети двойни, тройни, результаты не дали отрицательные показатели.

Ряд исследователей в своих работах получали определённые данные. Одним из таких исследователей является А.Н. Плаксин [9]. Он в своём исследование записывал такие данные, которые давали родители и педиатр ребёнка, как вхождение в контакт ребёнка с другими людьми, кто его окружает, его психическое состояние, развитие нервной системы и другие данные. На основе данных врачей, был сделан такой вывод, что у детей, родившиеся путём ЭКО, рассматривается более высокий уровень близости и тесного контакта с родителями, чем у детей, родившиеся естественным путём. А на основе данных, получаемые от родителей детей, было установлено, что у детей с ЭКО рассматривается низкий уровень способности того, чтобы оставаться дома наедине.

Выводы. Во многих работах указывается, что нет особо важного отличия между детьми, родившиеся естественным путём, и путем экстракорпорального оплодотворения.

Результаты длительных исследований показали, что в современное время увеличилось количество семей, у которых дети рождаются вспомогательной репродуктивной технологией, даже число превышает раньше установленной нормы. В результате исследование было установлено, что у таких детей бывают проблемы связанные с управлением поведения в дальнейшем и с эмоциями.

## ЛИТЕРАТУРА

1. Амиркулов Ж., «Психогенные особенности соматических и соматогенных расстройств в детском и подростковом возрасте» - Челябинск, 2015 г., стр. 90 - 92.
2. Бельва Ф., Генриет С., Либерс И. «Медицинские результаты 8-летних одноплодных детей ИКСИ», 2007 г., стр. 506-515.
3. Веннерхольм Б. «Репродукция человека» / Частота врожденных пороков развития у детей, рожденных после ИКСИ, 2000 г., стр. 944-948.
4. Ежова Н.В., Русакова Е.М., Кащеева Г.И., Галанов А.С. «Психическое и физическое развитие ребенка от одного года до трех лет», 1999 г., стр. 197.
5. Журба Л. Т., Мастюкова Е. М. «Нарушение психомоторного развития детей первого года жизни» 1981г., стр.143-148.
6. Келли Л., Ниделман Г., «Вспомогательная репродукция в сравнении со спонтанным зачатием» / Журнал генетической психологии, 2004 г., стр. 157-167.
7. Койвурова С., Гисслер М., «Постнеонатальная госпитализация и охрана здоровья детей после ЭКО», 2007 г., стр. 2136 - 2141.
8. Монтгомери Т.Р., Айелло Ф., Василишин Н., Эндрюс М.С., «Репродукция человека» / Психологический статус в школьном возрасте детей, зачатых путем экстракорпорального оплодотворения 1999 г., стр. 2162-2167.
9. Плаксина А.Н., Ковтун О.П., Блохина С.И. «Оценка показателей качества жизни детей, рожденных при помощи вспомогательных репродуктивных технологий» 2016 г., стр. 83-87.
10. Хансен М., «Медицинский журнал Новой Англии» 2002 г., стр. 725 - 730.

# ОСОБЕННОСТИ РАЗВИТИЯ ДЕТЕЙ, ОПЛОДОТВОРЁННЫХ ЕСТЕССТВЕННЫМ ПУТЁМ И ПУТЁМ ЭКО, В ПЕРИОДЕ ОНТОГЕНЕЗА

***Аскерова Ирада***

## АННОТАЦИЯ

В данной статье нами были рассмотрены соматические, физические, нервно-психические особенности, в периоде роста и развития у детей, которые родились естественным путём, а так же родившиеся путём современных вспомогательных методов, именно экстракорпоральным оплодотворением (ЭКО). Рассматривается как положительные, так и отрицательные качества, а также результаты данных, полученные разными исследователями.

# ONTOGENEZ DÖVRÜNDƏ TƏBİİ YOLLARLA VƏ SÜNİ MAYALANMA İLƏ DOĞULMUŞ UŞAQLARIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

***Əsgərova İradə***

## XÜLASƏ

Bu məqalədə təbii yolla doğulan, eləcə də müasir köməkçi üsullarla, yəni süni mayalanma (SM) ilə doğulan uşaqların böyümə və inkişaf dövründə somatik, fiziki, nevropsik xüsusiyyətlərini araşdırdıq. Həm müsbət, həm də mənfi keyfiyyətlər, eləcə də müxtəlif tədqiqatçılar tərəfindən əldə edilən məlumatların nəticələri qeyd olunur.

## PECULIARITIES OF DEVELOPMENT OF CHILDREN FERTILIZED NATURALLY AND BY IVF IN THE PERIOD OF ONTOGENESIS

***Asgerova İrada***

## SUMMARY

In this article, we have considered the somatic, physical, neuropsychic characteristics, in the period of growth and development in children who were born naturally, as well as those born by modern auxiliary methods, namely in vitro fertilization (IVF). Both positive and negative qualities are considered, as well as the results of data obtained by different researchers.

# ZORAKILIĞIN BAŞ VERMƏSİNİN PSİXOLOJİ TƏHLİLİ

***dosent Müşviq Mustafayev***
***Dadaşova Surahı Adil qızı***
***BDU-nun II kurs magistrantı***

***Açar sözlər***: psixoloji zorakılıq, fiziki zorakılıq, iqtisadi zorakılıq, cinsi zorakılıq, mühit, şiddət, ailə, təzyiq.
***Ключевые слова***: психологическое насилие, физическое насилие, экономическое насилие, сексуальное насилие, окружающая среда, насилие, семья, давление.
***Key words***: psychological violence, physical violence, economic violence, sexual violence, environment, violence, family, pressure.

Zorakılıq digərlərinə qarşı münasibətdə bu və ya digər məcburetmə formalarının tətbiq edilməsidir. Əslində bu problemin tarixi olduqca qədim olsa da son illərdə diqqəti daha çox cəlb etməyə başlamışdır. Bunun əsas səbəblərindən biri dünya əhalisinin sayının artması, sosial – iqtisadi münasibətlərin dəyişməsi fonunda onun xarakterinin dəyişməsi, dünyada baş verən siyasi proseslər və s.dir. Cəmiyyətin sürətli inkişafı insanların dözümlülük səviyyəsini azaldır, depressiv reaksiyaların, impulsiv davranışların sayını artırır. Digər tərəfdən dünyada mövcud olan siyasi münaqişə mərkəzləri zorakılığın təzahürü üçün geniş şərait yaradır. Belə bir vəziyyət ailə sisteminə, o cümlədən baş verən zorakılıq hallarına təsir etməyə bilməz.

Nəzərə almaq lazımdır ki, qadın və uşaq ailə sisteminin iki ən vacib ünsürüdür. Qadın sağlam nəsillərin yetişdirilməsində başlıca rol oynayarkən uşaq həm ailənin, həm də cəmiyyətin davamlılığı üçün vacib bir nöqtədə dayanır. Cəmiyyətin ahənginin düzgün qurulmasında və sosial birliklərin sağlam bir şəkildə işləməsində ən vacib şərt qadın və uşağın layiq olduğu dəyəri görməsidir. Zorakılığın yaranması üçün təməl amillərə nəzər saldıqda ailə münasibətlərinin zədələnməsi, mədəni dəyərlərin ucuzlaşdırılması, vicdan anlayışının insanların yaşantısında özünə yer tapmaması, müdafiə sahəsində yetərsizlik, iqtisadi səbəblər, cahillik, təhsilsizlik və s. onun yaranmasında zəmin olduğunu görə bilərik. Problemin bu qədər qarışıq olması onun həllinin metodologiyasını da çətinləşdirir.

Zorakılığın baş verməsini şərtləndirən, meydana çıxmasında təhrikedici rol oynayan amillərin ümumi qanunauyğunluqların müəyyənləşdirilməsi problemi xüsusi əhəmiyyət kəsb edir.

Şəxsiyyətin davranışına təsir edən mühüm amillər sırasında sosial şərtlər mühüm yerlərdən birini tutur. Buraya aşağıdakılar daxildir:

- Ictimai proseslər (sosial – iqtisadi şərait, dövlət siyasəti, adət - ənənə, kütləvi informasiya vasitələri və s.);
- Şəxsiyyətin daxil olduğu sosial qrupun xarakteristikası (sosial stratifikasiya, etnik gözləmələr, submədəniyyət, sosial status, referent və ya tədris – ixtisas qruplarına aidlik və s.);
- Mikrososial mühit (ailənin həyat tərzi və yaşayış səviyyəsi, ailədə psixoloji iqlim, valideynin şəxsiyyəti, ailədə qarşılıqlı münasibətlərin xarakteri, ailə tərbiyəsinin üsulu və s.) [2, s.15].

Zorakılığın sosioloji əsaslarının öyrənilməsi problemi E.Dürkeymin əsərlərində geniş şərh olunur. Sosial deviasiyanı, davranış yayınmasını təhlil etmək üçün müəllif sosial anomiya nəzəriyyəsini təklif etmişdir. Anomiya termini fransızca "qanunsuzluq, təşkilatsızlıq" kimi tərcümə olunur. Müəllif sosial deviasiyanı cəmiyyətin normativ dəyərlərinin dezinteqrasiyasının nəticəsi kimi qiymətləndirirdi. Onun bu ideyası zorakılığın və aqressiv davranışın aparıcı səbəbi

hesab olunan siniflərarası və ya müxtəlif sosial təbəqələr arasındakı (məsələn, novatorluq - konservativlik) ziddiyyətlərin araşdırılması üçün təkan rolunu oynamışdır.

Şəxsiyyətin davranışını şərtləndirən digər mühüm amil bioloji şərtlər hesab olunur. Bioloji şərtlərə irsi–genetik xüsusiyyətlər, fərdin anadangəlmə xüsusiyyətləri, impritinq (ontogenezin ilkin mərhələlərində həkkolma) daxil edilir.

Zorakılığın yaranması və sonrakı təşəkkülünü Freyd uşağın inkişaf mərhələləri ilə əlaqələndirir. Xüsusən qeyd edilir ki, oral mərhələdə ləngimə sarkazm və xəbərçiliyə meyllilik kimi aqressiv xarakter cəhətinin formalaşmasına səbəb ola bilər. Anal mərhələdə ləngimə sərtlik, asanlıqla intiqam və qisasla birləşən inadkarlığa səbəb olur. Z.Freyd aqressiyanı, zorlamanı insana məxsus ilkin instinktlərin təzahürü kimi izah edirdi. İnsanın hərəkətlərini məhdudlaşdıran instiktlər və sosial normalar arasındakı ziddiyyətlər özünü aqressiya və zorlama kimi biruzə verən daxili gərginliyi doğurur. İnsan həm özünə, həm də ətrafdakılara, xarici mühitə münasibətdə zor tətbiq edir [9, s.73].

Qeyd etmək lazımdır ki, şəxsiyyətin zorakı davranışa meyilli olaraq formalaşmasının əsas səbəbləri (endogen və ya ekzogen amillərin təsiri) hələ də tam öyrənilməmişdir. Hal-hazırda bioloji nəzəriyyərlər çərçivəsində irəli sürülən yanaşmalarda irsi, hormonal və neyrofizioloji amillər araşdırılır. Zorakılığın irsi səbəblərindən danışarkən tez-tez eyni genotipə malik olan biryumurtalı əkizlər üzərində aparılmış tədqiqatlara əsaslanırlar [4, s.124].

Son dövrlərdə ailədaxili zorakılığın sosial-psixoloji problem kimi müəyyən olunması hələ ilk addım hesab olunur. Bu istiqamətdə tədqiqatçılar bir sıra çətinliklərlə, məsələn, dəqiq nəzəri bazanın olmaması, onun yayılma dərəcəsi və səbəbləri haqqında dəqiq statistik göstəricilərin olmaması, zərərçəkmişin müdafiəsini tam şəkildə təmin edən strukturların olmaması və s. kimi problemlərlə üzləşməli olurlar.

Məlum olmuşdur ki, uşaqlıq dövründə zorakılığa məruz qalmış bir şəxsin zorakılıq tətbiq edən bir şəxs olması və ya olacağı ehtimalı böyükdür. Uşaqlıq dövründə zorakılıq faktının müşahidəçisi olan şəxslərdə də gələcəkdə zorakı əməllər törətməyə meyillilik yüksək ola bilər. Ana və ya digər ailə üzvlərinin zorakılığa məruz qalmasının müşahidəçisi olan uşağın özü birbaşa zorakılığın qurbanı olmasa belə, bu zorakılıq onun özünə münasibətdə olmasa belə gələcəkdəki davranış və əməllərinə təsir edə bilər [8, s.394].

Digər psixoloji yanaşmaya görə isə zorakılıq tətbiq edən şəxslər ruhi pozuntusu olan və ya hər hansısa bir şəkildə psixi tarazlığı pozulan şəxslərdir. Bu yanaşmaya görə qurbanlar məsumdurlar və özlərini qoruya bilmirlər. Qəbul edilməyən bu nəzəriyyəyə görə zorakılıq sadəcə "normal" olmayan şəxslər arasında meydana çıxır. Əslində isə ruhi pozuntulara zorakılıq hadisələrinin yalnız 10%-də rast gəlinir [11, s.117].

Ailənin strukturu da ailə daxilində bu və ya digər zorakılıq faktının meydana çıxmasına səbəb olan amillərdəndir. Ailə üzvlərinin öz rollarını yaxşı yerinə yetirə bilməməsi, ailə üzvlər arasında emosional soyuqluğun olması və s. buna səbəb ola bilər.

Tədqiqatçıların (L.Berkoviç, B.Kreyxi, R.Beron, D.Riçardson və s.) fikrincə, ailə münaqişələrini əsas səbəblərə, başlıca motivlərə görə aşağıdakı kimi qruplaşdırırlar:

- ər-arvaddan birinin və ya hər ikisinin güclü maddi tələbatlarının olması;
- tərəflərdən birinin və ya hər ikisinin nigahda hər şeydən əvvəl öz şəxsi tələbatlarını reallaşdırmağa cəhd etmələri (eqosentrizm);
- özünəhörmət tələbatının ödənilməməsi;
- tərəflərdən birində və ya hər ikisində özünüqiymətləndirmənin qeyri - adekvat olması;
- ər-arvadın ər, arvad, ata, ailə başçısı, ev sahibəsi və digər rollar haqqında təsəvvürlərinin üst-üstə düşməməsi;

- tərəflərdən birinin davranışında baş verən xoşagəlməzliyin səbəbinin başa düşülməməsi, nəticədə isə qarşılıqlı anlaşmazlığın yaranması;
- tərəflərdən birinin ailə təsərrüfatında iştirak etmək istəməməsi;
- tərəflərdən birinin uşaqların tərbiyəsi ilə məşğul olmaq istəməməsi və ya onların tərbiyəsinə baxışların üst-üstə düşməməsi;
- ər-arvadın temperament tiplərində və xarakter xüsusiyyətlərində uyğunsuzluq və qarşılıqlı münasibətlərdə bu müxtəlifliyin nəzərə alınmaması və s. [3, s.124].

“Qadına Qarşı Zorakılıqla Mübarizə Avropa Şəbəkəsi” tərəfindən aparılan araşdırmalarda zorakılıq növlərinin aşağıdakı beş forması müəyyən edilmişdir:

1. Fiziki zorakılıq:
2. Psixoloji zorakılıq;
3. İqtisadi zorakılıq;
4. Cinsi zorakılıq:
5. Sözlü zorakılıq [1, s.53].

Fiziki zorakılıq – qarşı tərəfə qəsdən fiziki təzyiq göstərməsi, yəni zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi, kəsici və ya vurucu alətlərlə yaralamaq və s. davranışlar fiziki zorakılıqdır. Bura, həmçinin, döymək, şillə vurmaq, sümüklərini qırmaq, divara vurmaq, saçından tutub sürümək, təpikləmək, boğazından yapışmaq və s. da aiddir [7, s.148].

Psixoloji zorakılıq – qadını davamlı olaraq nəzarətdə saxlamaq, otaqda və ya evdə bağlı saxlamaq, yaxınları və dostları ilə görüşməsinə icazə verməmək, necə geyinəcəyinə, kimlərlə görüşüb, haralara gedəcəyinə qadının əvəzinə qərar vermək, qadını uşaqlarına zərər vermək və ya öldürməklə hədə etmək psixoloji zorakılıqdır. Qadınla birbaşa ünsiyyəti kəsmək, onunla heç bir formada ünsiyyət qurmamaq, qadının özünü ifadə etməsinə, fikir və düşüncələrini dilə gətirməsinə mane olmaq, emosional manipulyasiya etmək, özünə inamını və hörmətini itirməsinə səbəb olmaq, mətnaltı danışaraq yanlış mənalar çıxarmasına şərait yaratmaq, özündən şübhə duymasına səbəb olmaq, digər insanların yanında utanmasına səbəb olmaq, psixi olaraq sağlam olmadığını vurğulamaq, azadlığını məhdudlaşdırmaq, çirkin və ya işəyaramaz olduğunu söyləmək, sevdiyi əşyalarına zərər vermək, daimi olaraq tənqid etmək də psixoloji zorakılıq hesab olunur.

İqtisadi zorakılıq - qadına pul verməmək və ya çox az miqdarda vermək, qadının mallarını və gəlirlərini əlindən almaq, işləməsinə icazə verməmək, istəmədiyi işdə məcbur çalışdırmaq, ailənin gəlirləri və xərcləri mövzusunda həmfikir hərəkət etməmək iqtisadi zorakılıqdır. Bura, həmçinin, evə gəlir gətirməmək, ailə büdcəsinin idarə edilməsi mövzusunda qadını tənqid etmək, iqtisadi asılılıq yaratmaq və ondan sui-istifadə etmək kimi davranışlar da aiddir [5, s.64].

Bir çox hallarda iqtisadi zoraklığı törədənlər zorakılıq qurbanlarının yaxın ailə üzvləridir. Iqtisadi zorakılığı törədənlər müxtəlif məqsədlər güdə bilər: şəxsi qazanc əldə etmək, zorakılıq qurbanı üzərində nəzarəti saxlamaq, onu alçaltmaq, qorxutmaqla hər hansı bir qərara məcbur etmək və s. iqtisadi zorakılıq nəticəsində qadınlar gəlir mənbəyini itirə bilər və beləcə zorakılığı törədəndən asılı vəziyyətdə qalır. Asılı vəziyyətdə olan insan üçün isə hər növ zorakılığa müqavimət göstərmək daha çətindir.

Cinsi zorakılıq – rəsmi nikahda olsa belə qadını istəmədiyi yerdə, istəmədiyi zamanda və istəmədiyi şəkildə cinsi əlaqəyə məcbur etmək, cinsi mövzuda atmacalar atmaq, sözlər söyləmək, təcavüz etmək, başqa insanlarla cinsi əlaqə yaratmağa məcbur etmək, telefonla və ya məktubla cinsi istismar etmək, qadınlığını təhqir etmək cinsi zorakılıqdır. Həmçinin, qadını övlad dünyaya gətirməyə və ya gətirməməyə məcbur etmək də cinsi zorakılığa aid edilir. Cinsi zorakılığa qız uşaqlarının doğulmadan və ya doğulduqdan sonra öldürülməsi, erkən nigah

qurmağa məcbur edilməsi, qadın sünnəti, namus bəhanəsilə qadınlarının öldürülməsi və ya istismar edilməsi, cinsi əlaqə zamanı qorunma üsullarından istifadə etməsinə mane olmaq da cinsi zorakılıq hesab olunur [10, s.85]

Sözlü zorakılıq – təhqiredici sözlər söyləmək, zəif tərəflərini ələ salmaq, "sən həmişə beləsən", "sən həmişə belə hərəkət edirsən" tipli ifadələri ifrat dərəcədə istifadə etmək, günahlandırmaq, söymək, yüksək səslə qışqırmaq, qorxutmaq, uşaqları verməməklə və ya qadının sosial həyatını məhv etməklə bağlı hədə etmək sözlü zorakılıq hallarına aiddir.

Ümumiyyətlə, zorakılığın növündən asılı olmayaraq istənilən təzahür forması təkrarlandıqca yeni elementləri özünə cəlb edir və insanın qarşısında seçim imkanlarını məhdudlaşdırır. Bu məhdudlaşdırma birbaşa insan hüquqlarının pozuntusu ilə müşahidə edilir.

Qadına qarşı zorakılığın ən ağır formalarından biri namus bəhanəsi ilə qadına göstərilən zorakı münasibətdir. Bu növ zorakılığın ən geniş yayılmış bəhanəsi cəmiyyət tərəfindən çox dəyərli məfhum kimi qəbul edilən əxlaq və namus anlayışıdır. Qadınlar öz davranışları ilə bu anlayışa uymadıqlarına görə, başqa sözlə, cəmiyyətə və ya ailəyə layiq olmadıqlarına görə zorakılığa məruz qalırlar.

Araşdırmaya görə kişinin qadına zorakılıq tətbiq etməsinin səbəbləri ən vacib hesab olunandan ən az əhəmiyyətli olana doğru aşağıdakı formada sıralanmışdır:

- Qadının məişət işlərini yerinə yetirməməsi;
- Kişinin bəzi problemlərinin olması;
- Kişinin heç bir səbəb olmadan zorakılıq nümayiş etdirməsi;
- Qadının qısqanıldığı üçün zorakılığa məruz qalması;
- Kişinin cinsi istəklərinin yerinə yetirilməməsi;
- Qadının ərindən icazəsiz bir yerə getməsi;
- Qadının öz düşüncələrini müdafiə etməsi [6, s.46].

Ailədaxili zorakılığın artmasına səbəb ola biləcək risk amilləri müxtəlif şəkildə təhlil olunur:

- Yoxsulluq və işsizlik;
- Emosional sferadakı pozuntular;
- Mədəni sahədəki dəyişikliklər;
- Natamam ailə;
- Yaşayış yerinin məcburi dəyişdirilməsi;
- Sosial statusun itirilməsi;
- Özünü güvəndə hiss etməmək;
- Stressli situasiyalarda fərdin stresslə mübarizə apara bilməməsi və s.

Qadınlara qarşı zorakılıq müxtəlif yaşda olan və fərqli mənşələrə məxsus qadınlara təsir göstərir, lakin onlardan bəziləri xüsusilə həssasdırlar. Zorakılığın ən əsas səbəbi cəmiyyətdə qadınlar və kişilər arasında bərabərsizliyin olması ilə əlaqədardır. Yəni, cəmiyyətdə qadınlar və kişilərin qeyri-bərabər qüvvələrə malik olması zorakılığa əsas səbəbdir və zorakılıq məhz həmin qeyri-bərabərliyin nəticəsi olaraq meydana gəlir. Qadınlara münasibətdə ayrı-seçkilik də qüvvələrin qeyri-bərabər olmasından irəli gəlir ki, bu da onların zorakılıq hallarından can qurtarmasını çətinləşdirir. Qadınların üzləşdiyi zorakılıq çox vaxt öz cəmiyyətləri və ya rəsmi qurumlar tərəfindən ciddiyə alınmır ki, bu da onları gələcəkdə baş verə biləcək, hətta ölümlə nəticələnəcək zorakılıq halları qarşısında aciz edir.

Beləliklə, ailədaxili zorakılığı yaradan amillərin yalnız ailədən qaynaqlanmadığını, kişi-qadın ayrıseçkiliyini qanuni hesab edən ictimai, iqtisadi, siyasi, hüquqi və ali qurumların da təsirli olduğunu deyə bilərik. Bir çox araşdırma kişilərin uşaqlıq dövründən etibarən cinsiyyətlərarası rollara görə dəyişiklik göstərən sosiallaşmasının, qadınlara qarşı kişiliyini sübut etməyə yönəlmiş bəzi rolları mənimsəmələrinə və bu məqsədə yönəlik davranmalarına səbəb olduğunu müəyyən

edir. Bununla bərabər, kişilərin cinsiyyətlərarası bərabərliyin reallaşması yönündə mənimsədikləri qorxu da çox vaxt qadınlara yönəlmiş cinsi zorakılığı rasionallaşdırmalarına yol açır.

## ƏDƏBİYYAT

1. Altınay A.G., Arat Y. Türkiye'de Kadına Yönelik Şiddet. İstanbul: Metis Yayınları, 2008, 200s.
2. Голод С.И. Стабильность семьи: социологический и демографический аспекты. - М.: Наука, 2008, 24с.
3. Крейхи Б. Социальная психология агрессии. - СПб., 2003. - 336 с.
4. Насилие и жестокость обращения с детьми: источники, причины, последствия, решения. Учебное пособие. СПб.: Книжный Дом, 2013.
5. Стар Б. Насилие в семье / Энциклопедия социальной работы, М.: 2008, 232с.
6. Солодников В. В. Социология социально-дезадаптированной семьи. – СПб.: Директ, 2007, 384с.
7. Renzetti C.M., Rowman B. Violence Against Women, Littlefield, 2005, 297p.
8. Jackman M. R. Violence in Social Life // Annual Review of Sociology, 2002, Vol. 28. pp. 387– 415.
9. Holly J., Ollus N., Nevala S., Violence Against Women: An International P erspective. Springer Science & Business Media, 2007, 288 p.
10. Nancy L., McMillan L. Violence Against Women: Current Theory and Practice in Domestic Abuse, Sexual Violence and Exploitation. Jessica Kingsley Publishers, 2012, 256 p.
11. Nicolson P. Domestic violence and psychology. A Critical Perspective. New York, 2010, 200 p.

# ZORAKILIĞIN BAŞ VERMƏSİNİN PSİXOLOJİ TƏHLİLİ

***Dadaşova Surahı***

## XÜLASƏ

Zorakılığın ən əsas səbəbi cəmiyyətdə qadınlar və kişilər arasında bərabərsizliyin olması ilə əlaqədardır. Yəni, cəmiyyətdə qadınlar və kişilərin qeyri-bərabər qüvvələrə malik olması zorakılığa əsas səbəbdir və zorakılıq məhz həmin qeyri-bərabərliyin nəticəsi olaraq meydana gəlir. Qadınlara münasibətdə ayrı-seçkilik də qüvvələrin qeyri-bərabər olmasından irəli gəlir ki, bu da onların zorakılıq hallarından can qurtarmasını çətinləşdirir. Qadınlara qarşı zorakılığın ən əsas səbəbi də məhz cəmiyyətdə qadınlar və kişilər arasında bərabərsizliyin olması, dözümsüzlük və inkar mədəniyyətinin daimiləşməsi ilə əlaqədardır. Qadınlara münasibətdə ayrı-seçkilik də qüvvələrin qeyri-bərabər olmasından irəli gəlir ki, bu da onların zorakılıq hallarından can qurtarmasını çətinləşdirir.

## ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ НАСИЛИЯ

***Дадашова Сурахи***

## АННОТАЦИЯ

Основной причиной насилия является неравенство между женщинами и мужчинами в обществе. То есть неравная власть женщин и мужчин в обществе является основной причиной насилия, а насилие – следствием этого неравенства. Дискриминация женщин также связана с неравным распределением власти, из-за чего им трудно избежать насилия. Основной причиной насилия над женщинами является неравенство между женщинами и мужчинами в обществе, усиление культуры нетерпимости и отрицания. Дискриминация женщин также связана с неравным распределением власти, из-за чего им трудно избежать насилия.

## PSYCHOLOGICAL ANALYSIS OF VIOLENCE

***Dadashova Surahi***

## SUMMARY

The main reason for the violence is the inequality between women and men in society. That is, the unequal power of women and men in society is a major cause of violence, and violence is the result of that inequality. Discrimination against women also stems from the unequal distribution of power, which makes it difficult for them to escape violence. The main reason for violence against women is the inequality between women and men in society, the perpetuation of a culture of intolerance and denial. Discrimination against women also stems from the unequal distribution of power, which makes it difficult for them to escape violence.

# PSİXİ İNKİŞAFINDA LƏNGİMƏ OLAN UŞAQLAR ÜÇÜN NEYROPSİXOLOJİ KORREKSİYA TEXNOLOGİYALARI

***Qəhrəmanova Sevda Xəyyam qızı***
***ADPU-nun II kurs magistrantı***
***sevdagakhramanova1999@mail.ru***

***Açar sözlər:*** psixi inkişaf ləngiməsi (PİL), korreksiya, sensomotor, neyropsixoloji, terapiya, diaqnostika, texnologiya, tapşırıq, mərhələ
***Ключевые слова:*** задержка психического развития (ЗПР), коррекция, сенсомоторный, нейропсихологический, терапия, диагностика, технология, задача, этап
***Keywords:*** slowing mental development (SMD), correction, sensomotor, neuropsychological, therapy, diagnostics, technology, task, stage

Neyropsixologiya beyində qavrayış, diqqət, məkan oriyentasiyası, nitq, yaddaş, emosional reaksiya, motor bacarıqları və s. kimi psixi prosesləri öyrənən bir elmdir. İnkişafda belə problemlər olduqda korreksiya vəziyyəti yaxşılaşdırmağa kömək edir. Neyropsixoloji korreksiya aşağıda sadalanan pozulmalarda effektiv üsuldur:

- ümumi nitq inkişafı ləngiməsi (ÜNİL);
- əqli və nitq inkişafında gecikmələr;
- hiperaktivlik və diqqət çatışmazlığı;
- autizm;
- minimal beyin disfunksiyası;
- baş beynin inkişafsızlığı etməməsi;
- emosional və psixi pozulmalar.

Uşaqlarda inkişaf problemlərinin 80%-dən çoxu inkişafın erkən mərhələlərində - hamiləlik dövrü, doğuş zamanı, uşaq həyatının ilk ilində ağır pozulmalar nəticəsində yaranan xəstəliklər və beyin zədələri ilə əlaqələndirilir. Və yalnız korreksiya mərhələsinin son hissəsində iş koqnitiv psixoterapiya sahəsinə keçir [1].

*<u>Neyrokorreksiyanın mərhələlərinə aşağıdakılar daxildir:</u>*

*Diaqnostika mərhələsi:* Burada ən adekvat diaqnostik üsul uşaqlar üçün uyğunlaşdırılmış A.R.Luriyanın metodudur. Neyropsixoloji diaqnostikanın üstünlüyü ondan ibarətdir ki, ondan yalnız uşağın mövcud bilik və bacarıq səviyyəsini deyil, həm də müşahidə olunan inkişaf pozulmalarına səbəb olan əsas patogen amilləri müəyyən etmək mümkündür.

*<u>Formalaşdırma mərhələsi:</u>* Bu mərhələnin məqsədi uşaqda və onun valideynlərində psixokorreksiya işinə fəal münasibətin, özünüdərk və özünü təkmilləşdirmə motivlərinin formalaşdırılması, narahatlığın azaldılması, müsbət dəyişikliklərə nail olmaq imkanına inamın artırılmasıdır.

*<u>Korreksiya mərhələsi:</u>* Sensomotor korreksiya həm fərdi, həm də qrup şəklində həyata keçirilə bilər. Korreksiya işlərinin başlanğıcı əsasən subkortikal strukturların fəaliyyətinin, beynin qan dövranının yaxşılaşdırılması, aktiv proseslərin normallaşdırılması, tonik pozulmaların aradan qaldırılması və səmərəliliyin artırılmasına yönəldilmişdir. Korreksiya işinin növbəti mərhələsi motor, məkan sahəsinin inkişafı, adekvat bədən sxeminin formalaşması, kiçik motor bacarıqlarının inkişafına yönəldilmişdir. Beynin funksional sahələrinin diferensiasiyasını artırmaq, şəxsiyyətlərarası qarşılıqlı əlaqəni yaxşılaşdırmaq üçün bir çox məşğələlər həyata keçirilir. Son mərhələ özünütənzimləmə və iradi nəzarət səviyyəsinin artırılmasına

yönəldilmişdir. Uşağın ontogenetik inkişafına uyğun olaraq, bu formada icra qaydası uyğundur: uzanmaq; daha sonra oturma; ayaq üstə.

*Korreksiya işinin effektivliyinin qiymətləndirilməsi:* Qeyd etmək lazımdır ki, simptomun aradan qaldırılması korreksiya işinin başa çatdırılması üçün kifayət deyil. Dezadaptasiyanın təzahürlərinin və əvvəlcədən mövcud olan pozulmaların aradan qaldırılmasında müşahidə olunan müsbət nəticə, effektivliyin yeganə meyarı deyil. Simptomun və dezadaptasiyanın aradan qaldırılması müvəqqəti ola bilər. Səbəb amilləri aradan qaldırılmırsa müəyyən simptomların qısa müddət ərzində yenidən özünü göstərməsi mümkündür. Maksimum təsir psixokorreksiyaedici təsirin bitməsindən 7-9 ay sonra əldə edilir [2].

Bir çox valideynlər mütəxəssisə müraciət etməyə səbəb olan pozulmaların aradan qaldırılmasının son məqsədi hesab edirlər. Ancaq valideynlər uşaqla məşğuliyyətlərin patoloji mexanizmi korlamaq, əldə edilmiş effektin sabitliyini təmin etmək, yeni pozulmaların profilaktikası üçün davam etdirilməsini izah etməlidirlər. Bundan başqa, maksimal effekt psixo-korreksiya təsirlərinin başa çatmasından 6-7 ay sonra əldə edilir, yəni neyropsixoloji korreksiya uzun müddətli xarakter daşıyır və məşğələlərin kursunun təkrarlanması 3-6 aydan sonra lazımdır. Korreksiya başa çatdıqdan sonra uzaq mərhələlərdə əldə edilən nəticələrin dayanıqlığı təkrarlanan neyropsixoloji diaqnostikanı göstərir.

Neyropsixoloji məşqlərin əsas blokları nəfəs alma, göz məşqləri, ümumi hərəkətlərdən ibarət olan məşqlərdir [2].

Tənəffüs çalışmaları nəfəs alıb vermə mərhələsindən başlayaraq sonra pauza nəfəs alma, nəfəs vermə (ağız və burun vaditəsilə) davam etdirilir. Tənəffüs çəşqləri zamanı diafraqmanın hərəkət etməsinə,çiyinlərin sakit qalmasına nəzarət edilməli, dərindən nəfəs alma zamanı döş qəfəsinin yuxarı hissəsinin hərəkətdə olmasın diqqət edilməlidir.

Göz həkətlərinin məşqləri görmə sahəsinin genişlənməsinə və görmə qavrayışının yaxşılaşmasına imkan verir. Gözün və dilin eyni vaxtda və müxtəlif istiqamətlərdə hərəkətləri BB yarımkürələri arasında əlaqələri inkişaf etdirir, həmdə enerjisini artırır. Gözlərin müxtəlif istiqamətli hərəkətləri təlim prosesini aktivləşdirir, uzunsov beyindən çıxan bir çox kəlıə sinirləri üçlü sinir, gözü hərəkət etdirən sinir və yan sinir gözlə birləşib onun bütün istiqamətlərdə hərəkətlərini aktivləşdirir. BB də görmə sistemini qurmaq üçün gözlərdən gələn informasiya digər sensor məlumatlarla birləşir və uşağın öz hərəkətini və digərlərini müqayisə, fəyərləndirmə və təkrar proseslərini yaradır.

Uşaqlarda eyni vaxtda və ardıcıl koordinasiyanın formalaşmasına təkcə qolların və ya ayaqların qarşılıqlı təsirini deyil, həm də bədənin sağ və sol yarısının birgə hərəkətlərini əhatə edən məşqlər müsbət təsir göstərir. İrəli, geri, sağa və sola (dirsəklərdə; əllərdə) eyni vaxtda hərəkətlərlə, eyni qol və ayaqlarla, sonra isə əksinə, müxtəlif qollar və ayaqlarla məşq təkrarlanır. Tapşırıq zamanı əzələ tonusunun tənzimlənməsi hərəkətin inkişafı nümunələrini təmin etməlidir: baş və boyundan aşağı ətraflara (sefalo-kaudal qanun), boyun və çiyinlərdən qollara, fərdi barmaqlara, həmçinin dizlərdən ayaq barmaqlarına (proksimodistal qanun).

Neyropsikoloji korreksiyaya terapiya da daxildir: Bu müalicələrdən bir neçəsinə nəzər salaq:

*Oyun terapiyası* hərtərəfli inkişaf tapşırıqlarından sonra uşaqlarla işdə istifadə edilən ən məşhur üsuldur. Tanınmış rus psixoloqu O.A. Karabanova korreksiyaedici oyun effektinin əsas psixoloji mexanizmlərini müəyyən etmişdir:

- sosial münasibətlər sisteminin xüsusi oyun şəraitində vizual effektli formada modelləşdirilməsi, onların uşaq tərəfindən öyrənilməsi və onun aşağıdakı münasibətlərə yönəldilməsi;

- idrak və şəxsi eqosentrizm və davamlı olaraq, diqqətin özünə yönəlməsi hissinin aradan qaldırılması baxımından uşağın mövqeyinin dəyişdirilməsi. Bu, oyunda özünüdərketmə qabiliyyətini, habelə sosial səriştə və problemli vəziyyətləri həll etmək qabiliyyətini artırır;
- oyun münasibətləri ilə yanaşı real münasibətlərin formalaşdırılması, yəni uşaq və həmyaşıdları arasında bərabərhüquqlu tərəfdaşlıq və əməkdaşlıq, müsbət şəxsi inkişaf imkanı təmin etmək.

*Art terapiya* - Korreksiyaedici art terapiya üsulları uşağa özünü ifadə etmə, inkişaf etdirmə, idarə etmə və dərketmə imkanları ilə bağlıdır. Art-terapiya uşağın yaradıcılıq qabiliyyəti, özünə inamı, özünü tanıma dərəcəsini artırır. O, bədii-estetik, humanist, tərbiyəvi, mənəvi dəyərləri özündə birləşdirir və bu da insanın əxlaqi tərbiyəsinə təsir göstərir.

*Sensor otaqda dərslər* - Neyropsixoloji işin üsullarından biri də sensor otaqda aşkar terapevtik təsir göstərən dərslərdir. Hiss üzvlərini stimullaşdırmaqla onlar təfəkkürü, xırda motorikası, fiziki fəaliyyətini aktivləşdirir və inkişaf etdirir, davranışın özünü tənzimləməsinə müsbət təsir göstərir [3]. Dərslər həftədə iki dəfə 30 dəqiqə olmaqla həm qrup, həm də fərdi qaydada keçirilir və xüsusi tapşırıqlar da daxil olmaqla müxtəlif tapşırıqların yerinə yetirilməsini nəzərdə tutur:

- əzələ gərginliyinin aradan qaldırılması;
- relaksasiyaya nail olmaq;
- multisensor mühitlə zənginləşdirilmiş mərkəzi sinir sisteminin müxtəlif funksiyalarını yaratmaqla fəaliyyətin aktivləşdirilməsi;
- motor funksiyalarının inkişafı və bərpası;
- müsbət emosional şəraitin yaradılması.

Deməli, neyropsixoloji korreksiyaedici tapşırıqları mərhələli və ardıcıl formada yerinə yetirildikdə daha effektiv təsir göstərir [2]. Neyropsixoloji məşqlər bədənin ritmini yaxşılaşdıraraq, özünü idarə etmə və iradi gücünü inkişaf etdirir. Neyropsixoloji korreksiya çoxmərhələli üsullarla uşaq orqanizminin ritmləşdirilməsi və avtomatlaşdırılmasının köməyi ilə təşkil edilir.

## ƏDƏBİYYAT


1. Ağayeva T. H. Korreksiyaedici Pedaqogika. Bakı – 2020
2. Семенович А.В. Нейропсихологическая коррекция в детском возрасте. Метод замещающего онтогенеза. — М., 2007: -474с.
3. Антропова И. М. «Занятия в сенсорной комнате как одно из направлений медико-психологической помощи детям с нарушениями опорно-двигательного аппарата» // Материалы Международной конференции «Организация и содержание образования детей с нарушением развития» Москва 2010г


# PSİXİ İNKİŞAFINDA LƏNGİMƏ OLAN UŞAQLAR ÜÇÜN NEYROPSİXOLOJİ KORREKSİYA TEXNOLOGİYALARI

***Qəhrəmanova Sevda***

## XÜLASƏ

Məqalədə psixi inkişaf ləngiməsi (PİL) olan uşaqlarla təşkil edilən neyropsixoloji korreksiya işi gözdən keçirilmişdir. Burada neyropsixoloji korreksiya mərhələləri və hər bir mərhələdə tətbiq olunan məşğələlər qeyd olunmuşdur. Bu mərhələlər sadalananlardan ibarətdir: 1)

diaqnostik; 2) quraşdırma; 3) korreksiya; 4) korreksiya işinin effektivliyinin qiymətləndirilməsi. Həmçinin, məqalədə korreksiya zamanı istifadə olunan terapiyalar, metodikalar nəzərdən keçirilmişdir. Bu terapiyalara oyun terapiyası, art terapiya aid edilir.

## ТЕХНОЛОГИИ НЕЙРОПСИХОЛОГИЧЕСКОЙ КОРРЕКЦИИ ДЕТЕЙ С ДЕФИЦИТНЫМ РАЗВИТИЕМ

***Гахраманова Севда***

### АННОТАЦИЯ

В статье рассматривается работа нейропсихологической коррекции детей с задержкой психического развития. Приведены этапы нейропсихологической коррекции и упражнения, применяемые на каждом этапе. Эти этапы: 1) диагностический; 2) установка; 3) коррекция; 4) оценка эффективности коррекционной работы. В статье также рассмотрены терапии и методы, используемые в коррекции. Эти методы лечения включают игровую терапию и арт-терапию.

## NEUROPSYCHOLOGICAL CORRECTION TECHNOLOGIES FOR CHILDREN WITH SLOWİNG MENTAL DEVELOPMENT

***Gahramanova Sevda***

### SUMMARY

The article examines the work of neuropsychological correction of children with mental retardation. Here are the stages of neuropsychological correction and the exercises applied in each stage. These stages are: 1) diagnostic; 2) installation; 3) correction; 4) assessment of the effectiveness of correctional work. The article also considers the therapies and methods used in correction. These therapies include game therapy and art therapy.

# PSİXOPEDAQOGİKADA SİM UŞAQLARIN TƏLİM-TƏRBİYƏ İŞİNİN HƏYATA KEÇİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*Qasımov Musa Ceyhun oglu*
*BDU-nun II kurs tələbəsi*
*musa.qasimov.004@mail.ru*

***Açar sözlər:*** təlim, tərbiyə, psixopedaogika, əlil, əlillik, defektoloq, atipik, qüsur
***Ключевые слова:*** повышение квалификации, воспитание, психопедагогика, инвалид, инвалидность, дефектолог, нетипичный, дефект
***Keywords:*** training, upbringing, psychopedogogy, disabled, disablity, defektology, atypical, defect.

Psixopedaqogika XX əsrin ikinci yarısından etibarən təhsil və psixi sağlamlığı birləşdirən fənlərarası yanaşma elmi kimi inkişaf etmişdir. Bu, hər yaşda və həyatın istənilən sahəsindəki insanlara öyrətməkdən məsul olan psixologiya və pedaqogikanın bir sahəsidir. Paralel olaraq insanın emosional və psixoloji vəziyyəti ilə bağlı iş aparılarkən müvafiq didaktik və pedaqoji metodlardan istifadə edilir.

Psixopedaqogika dil, öyrənmə və elmin fərd və onun mühiti ilə bağlı bilik və bacarıqları ilə məşğul olur. Bu kontekstdə insanın qabiliyyətlərini təkmilləşdirmək üçün mövzunun koqnitiv, affektiv və sosial hissəsi qiymətləndirilir.

Onun funksiyası hər yaşda olan insanın həyatın istənilən sahəsində öyrənmə prosesində qarşılaşa biləcəyi çətinlikləri qiymətləndirmək, qarşısını almaq və aradan qaldırmaqdır. Beləliklə, o, tədris və təlim prosesində zehnin təkamül inkişafını öyrənir. Bir sözlə, psixopedaqogika psixologiya və pedaqogikanı birləşdirir, çünki öyrənmə prosesində insanların necə öyrənməsinə cavabdehdir.

Psixologiya və pedaqogika arasında həmsərhəd bilik sahəsi olan psixopedaqogika təlim və tərbiyənin metodoloji problemlərinin öyrənilməsinə yönəlmişdir.

Psixopedaqogikanın obyekti sosial-mədəni, pedaqoji hadisə kimi xüsusi təhsil ehtiyacı olan insanların xüsusi təhsilidir.

Xüsusi təhsil sistemində göstərilən təhsil və pedaqoji yardımın subyekti sağlamlıq və həyatda əlilliyi olan, nəticədə xüsusi təhsilə ehtiyacı olan şəxsdir.

Psixopedaqogikanın predmeti isə xüsusi təhsilin nəzəriyyəsi və praktikası olub, məhdud həyat imkanları olan insanın inkişaf və tərbiyə xüsusiyyətlərini, onun şəxsiyyət kimi formalaşması və sosiallaşma xüsusiyyətlərini, habelə bu biliklərdən fiziki və ya əqli çatışmazlıqların düzəldilməsini, pozulmuş orqan və sistemlərin fəaliyyətinin kompensasiyasını təmin edən ən yaxşı yolları, vasitələri, şərtləri tapmaq və belə bir insanın sosial uyğunlaşması üçün təhsil almaq üçün istifadə edilməsi. Sağlamlıq imkanı məhdud uşaqların cəmiyyətə inteqrasiya etmək və ona mümkün qədər müstəqil yaşamaq imkanı verməkdir. (Психопедагогика (Э. Стоунс))

Klassik xüsusi pedaqogika bir sıra müstəqil sahələri özündə cəmləşdirir.

Surdopedaqogika – eşitmə qüsurlu uşaqların təlim-tərbiyəsi ilə məşğul olan sahə;

Tiflopedaqogika – görmə qüsurlu uşaqların təlim-tərbiyəsi ilə məşğul olan sahə;

Oliqofrenopedaqogika - əqli cəhətdən geri qalan uşaqların təlim-tərbiyəsi ilə məşğul olan sahə;

Loqopediya – nitq qüsurlarının öyrənilməsi və islahı ilə məşğul olan sahə.

Xüsusi pedaqogika xüsusi qayğıya ehtiyacı olan (anomal) uşaqların psixoloji xüsusiyyətlərini öyrənən xüsusi psixologiyanı da özünə daxil edir.

Psixopedaqogika XXI əsrdə, günümüzdə daha da inkişaf etmişdir və bu inkişaf dinamik olaraq davam edir. Pedaqogikanın bir qolu olan psixopedaqogikanın (xüsusi pedaqogika) son illər ərzində daha çox inkişaf etməsinə səbəb tələbatın çox olmasıdır. Tələbat çox olduqca psixopedaqogika elmi daha çox inkişaf edir. Tələbatın çox olmasına səbəb isə SİM uşaqların digər illərə nisbətən daha da artmasıdır. Bunun səbəblərini isə yazımın digər hissəsində ətraflı yazacam.

Psixopedaqogika ilə məşğul olan mütəxəssislər defektoloq adlanır. Müasir dövrdə defektoloqlar təkcə məktəbdə deyil, reabilitasiya və inkişaf mərkəzlərində fəaliyyət göstərirlər.

Müasir psixopedaqogikada differensiyasiya prosesi gedib və yeni-yeni elmi tədqiqat istiqamətləri yaranıb. Buna görə də müasir xüsusi pedaqogika klassik xüsusi pedaqogikadan olan sahələrdən əlavə psixi inkişafın ləngiməsini (PİL), dayaq-hərəkət aparatının pozulmalarını (psixopatlar və s.), ilkin uşaq autizmi, mürəkkəb defektləri (kar-kor-lallıq, intellektual pozulma-korluq, intellektual pozulma-karlıq, və s.) yeni müstəqil sahələr kimi ayırıb. (Что такое психопедагогика (С. Д. Паляков))

Xüsusi qayğıya ehtiyacı olan (anomal) uşaqların təlim-tərbiyəsi mürəkkəb sosial və pedaqoji problemdir. Problemin həlli bu uşaqların bacarıqlarına müvafiq olaraq müstəqil həyata hazırlamaq məqsədinə qulluq edir.

Təlim, tərbiyə və təhsil pedaqoji prosesdə bir-birilə vəhdət təşkil etməli proseslərdir. Əgər bu proseslərdən birində defisit yaranarsa, artıq istər psixopedaqoji, istərsə də pedaqoji prosesin pozulması deməkdir. Gəlin, ilk öncə təlim, tərbiyə və təhsil anlayışlarının izahına nəzər yetirək.

Təlim şagirdlərin biliklər sistemini mənimsəmələrinə və həmin bilikləri təcrübəyə tətbiq etmək üçün olan vərdiş və bacarıqlara yiyələnmələrinə yönəlmiş məqsədyönlü idrak fəaliyyətidir

Tərbiyə tərbiyəçi ilə tərbiyə olunan arasında elə qarşılıqlı fəaliyyət prosesidir ki, bu prosesdə tərbiyə olunanların həyata düzgün münasibətləri formalaşdırılır və müvafiq davranış qaydaları aşılanır adətlər təşəkkül tapır.

Təhsil öyrənmənin, yaxud başqa sözlə bilik, bacarıqlar, dəyərlər, inanclar və vərdişlər qazanılmasının asanlaşdırılması prosesidir.

Tərbiyə prosesində biz daima inkişaf edən, keyfiyyətcə dəyişən uşaqlarla işləməli oluruq. Tərbiyə olunan həmin uşaqlar özlərinin şəxsiyyətlərinin psixoloji xüsusiyyətlərinə, tələbat və motivlərinə görə bir-birlərindən fərqlənirlər. Ayrı-ayrı yaş dövrlərində bu fərqlər müxtəlifləşir və özünəməxsus tərbiyəvi iş tələb edir. Ona görə də tərbiyə prosesində müvəffəqiyyət qazanmaq üçün birinci növbədə tərbiyə olunanların yaş və fərdi xüsusiyyətlərini öyrənmək və nəzərə almaq lazımdır. Məhz buna görə də, hələ vaxtilə pedaqoji psixologiyanın banisi K.D.Uşinski insanı hərtərəfli tərbiyə etmək üçün onu hərtərəfli öyrənməyi tövsiyə edirdi.

Görkəmli psixoloq S.L.Rubnşteyn deyirdi ki, "uşaqları tərbiyə edə-edə və öyrədə-öyrədə öyrənmək lazımdır ki, onları öyrənə-öyrənə tərbiyə edək və öyrədək".

Psixopedaqogikada patalogiyalı uşaqların pedaqoji hazırlığı prosesi baş tutduğu üçün, pedaqoji iş ilk növbədə bu tip uşaqların davranışlarının korreksiyasından başlayır ki, bu da tərbiyə prosesidir. Atipik uşaqların böyük əksəriyyətində davranış pozuntularına rast gəlirik. Davranış pozuntusu dedikdə, hamı tərəfindən qəbul edilmiş davranış və etik qaydaların qeyri-iradi, psixogen səbəbdən pozulması və adekvat davranışlar nəzərdə tutulur. Bundan qaynaqlanaraq deyə bilərik ki, davranış pozuntusu olan bir uşağa heç bir halda təlim, təhsil vermək olmaz. Çünki əgər təlim-tədris prosesində uşaq dərsə tabe olmursa, diqqəti prosesdə deyilsə, bu pedaqoji hadisə sayılmır.

Psixopedaqogikada atipik uşaqların davranış korreksiyası üçün, adətən, CBT (koqnitiv davranış terapiyasından) istifadə edilir.

Atipik uşaqların təlim prosesi erkən uşaqlıq dövründən, diaqnozun təyin olunduğu dövrdən başlayır. Bu tip uşaqların təlim prosesi nə qədər tez başlansa, korreksiya işi nə qədər erkən başlansa, bu bir o qədər yaxşıdır. Çünki, erkən uşaqlıqda inkişaf etməkdə olan koqnitiv, psixi funksiyaları korreksiya etmək və onlarla işləmək daha asan olur, nəinki gecikmiş diaqnozlarla, yeniyetməlik və məktəbli dövründə.

Tərbiyə prosesinin əsas məqsədləri: uşağı təlimə tabe etmək, adekvat davranışları normal standartlarla tənzimləmək, özünəxidmət formalaşdırmaq, sosiallaşdırmaq,

Təlim prosesinin əsas məqsədləri: uşağı şəxsiyyət kimi formalaşdırmaq, inkluziv siniflərə hazırlamaq, ilkin biliklərə və ətraf aləm haqqında primitiv biliklərə yiyələndirmək

Psixopedaqoji prosesin əsas obyekti atipik uşaqlar olduğu üçün onların təlimi tipik uşaqların təlimindən fərqlənir. Bu təlim prosesi, uşağı təkcə pedaqoji biliklərə yiyələndirmək deyil də, həmçinin onun şəxsiyyət kimi formalaşmasına, ictimai həyata inteqrasiya etməsinə kömək etməkdir. Ona görə də atipik uşaqların təlim-tərbiyə prosesi təkcə reabilitasiya mərkəzləri ilə kifayətlənmir. Onlar üçün hər yerdə, evdə, mərkəzdə, çöldə təlim-tərbiyə prosesi didaktik olaraq aparılmalıdır.

Planetimizin sakinlərinin 10% -dən çoxu anadangəlmə və ya qazanılmış əlilliyə malikdir. Hər il əlillərin sayı 1 milyon nəfər artır və 2015-ci ilə qədər əlillərin sayı 15 milyon nəfəri keçəcək. Yaşlılar və əlillər sosial işçilərin köməyinə ehtiyacı olan əhalinin həssas kateqoriyalarıdır.

Əlil fiziki, əqli, hissiyyat və ya əqli qüsurlarına görə cəmiyyətdə şəxsi və həyat fəaliyyəti imkanları məhdud olan şəxsdir.

Əlillik isə fiziki, əqli, hissiyyat və ya əqli qüsurları olan şəxsin fəaliyyətində maneələrin və ya məhdudiyyətlərin mövcud olduğu insan vəziyyətidir.

Şəxsin həyat fəaliyyətinin məhdudlaşması əlilin özünəxidmət, hərəkət, səmtlənmək, ünsiyyət, öz davranışlarına nəzarət, habelə əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyətini və ya imkanlarını tamamilə, yaxud qismən itirilməsində təzahür edir.

L.S. Vıqotovski yazırdı: "Hər hansı bir analizatorda və ya intellektual qüsurda bir qüsur bir funksiyanın təcrid olunmuş itkisinə səbəb olmur, əksinə bütöv bir sıra sapmalara səbəb olur"Yəni uşaqda eşitmə pozğunluğu varsa, o zaman uşağın psixi idrak və koqnitiv funksiyaları zərər görmüş olacaq. Yəni erkən uşaqlıq dövründə yaranmış bir qüsur uşaqda digər qüsurların yaranmasına təkan verir. Beləliklə uşaqda bir qüsurdan təzahür edən bir neçə qüsur formalaşmağa başlayır ki, bu da əlillik adlanır.

Əlillik həm anadangəlmə, yəni uşağın müəyyən qüsurla doğulması, həm də anadan olandan sonra qəza, təbii fəlakət və s. Nəticəsində müəyyən xəsarət alması və ya ciddi xəstəlik keçirməsi nəticəsində əldə olunur. Səbəbindən asılı olmayaraq, istənilən halda əlillik uşağa həyatda yaşamaqda, cəmiyyətə inteqrasiya etməsində, şəxsiyyət kimi formalaşmasında maneəçilik yaradır.

Ədəbiyyatda əlillik iki qrupa bölünür: əqli və fiziki qüsurlu əlillər. Psixopedaqogika bu iki qrupdan olan uşaqların təlim-tərbiyə işi ilə məşğul olur. Fiziki qüsurlu əlillərə, karlar və zəif eşidənlər, korlar və zəif görənlər, lallar, USİ, əqliyə isə əqli gerilik, psixi ləngimə və s. aiddir.

Dünyanın bütün ölkələrində olduğu kimi, ölkəmizdə də əlillər üçün xüsusiləşdirilmiş məktəblər fəaliyyət göstərir. Əlil uşaqların çox hissəsi bu xüsusiləşdirilmiş məktəblərdə təhsil alırlar. Bununla yanaşı bir çox əlil uşaqlar orta ümumtəhsil məktəblərində, tipik uşaqlarla birgə təhsil alırlar. Bu isə inklüziv təhsilin təzahürüdür.

Lakin, elə əlil uşaqlar var ki, onlar yalnız və yalnız xüsusiləşdirilmiş məktəblərdə təhsil almalıdır. Məsələn, tamamilə kor, kar və lal uşaqlar onlar üçün ayrılmış xüsusiləşdirilmiş məktəblərdə təhsil almalıdır. Belə ki, onlar xüsusi olaraq onlar üçün istifadə olun əlifba, işarə dili vasitəsilə təhsil alırlar. Orta ümumtəhsil məktəblərində isə bu əlifbalardan istifadə edilmir.

Amma son illər ərzində dünya təcrübəsində ümumtəhsil məktəblərinin nəznində xüsusiləşdirilmiş siniflərin (karlar, korlar, lallar üçün olan siniflərin) təşkil edilməsi halları müşahidə olunur. Belə olduqda əlil uşaqlar digər uşaqlarla təmasda olmaq, onlarla ünsiyyət qurmaq, məktəbdə təşkil edilmiş tədbirlərdə iştirak etmək imkanı əldə edirlər. Bu da onların cəmiyyətə inteqrasiyasında, şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır.

Bundan əlavə, qeyd etmək yerinə düşərdi ki, nisbətən yüngül əlillik dərəcəsinə malik uşaqlar da vardır ki, onların ümumitəhsil məktəblərində təhsil alması bu uşaqların sosiallaşması baxımından daha məqsədəuyğun xarakter daşıyır. Tipik uşaqlarla atipik uşaqların bir yerdə təhsili inklüziv təhsil formasıdır. Bu zaman həm tipik uşaqlarda empatiya duyğusu, atipik uşaqlarda isə motivasiya, özgüvən formalaşmağa başlayır. (Sosial pedaqogika 2013, 316)

Sağlamlıq imkanları məhdud olan uşaqlara mültidissiplinar yanaşma dedikdə, bu uşaqlara tibbi, psixoloji, pedaqoji yanaşmadan söhbət gedir. Burada tibbi yanaşmanın rolu böyükdür. Biz bilirik ki, əlliyin yaranma səbəbləri pernetal, natal, postnatal olmaqla 3 yerə bölünür.

Pernetal səbəblər:

-hamiləliyin çətin keçməsi

-hamiləlik zamanı ananın keçirdiyi infeksion xəstəliklər

-hamiləlik zamanı ananın keçirdiyi stress, depressiya

-qidalanma və s.

Natal səbəblərə isə, doğuş zamanı uşağın xəsarət alması

Postnatal səbəblər isə:

-uşağın sosiallığının zəif olması

-kəllə-beyin travması, yıxılma

-uşağın keçirdiyi infeksion xəstəliklər və s.

Əlilliyin yaranması zamanı tibbi faktorların rolu olduqca böyükdür. Atipik uşaqların korreksiyası zamanı da ona görə tibbi yanaşma olduqca vacibdir.

Bəs bunun üçün hansı sahə həkimləri bu işə cəlb edilməlidir?

İlk öncə pediatrlar, nevroloqlar, psixiatrlar mütləq şəkildə atipik uşaqların reabilitasiya prosesində iştirak etməlidir. İxtisas həkimləri klinik qüsurlar üzərində çalışır. Həmin klinik qüsurlardan təzahür edən pedaqoji və sosial qüsurlarla isə psixopedaqoqlar, loqopedlər, surdoloqlar, psixoloqlar işləyir.

Atipik uşaqlarda mültidissiplinar yanaşma olduqca vacibdir. Belə olduğu təqdirdə qüsurun daha tez və sağlam şəkildə korreksiya olunmağa və yaxud da aradan qaldırılmağına şərait yaranacaqdır.

Sağlamlıq imkanları məhdud uşaqların təyin edilməsi üçün, onlar mütləq şəkildə tibbi-psixoloji-pedaqoji komissiyadan keçməli və qüsurun dərəcəsindən asılı olaraq müvafiq reabilitasiya mərkəzlərinə, xüsusi məktəblərə yönləndirilməlidir. Bu proses nə qədər tez və erkən dövrdə aparılsa, korreksiya işi o qədər müsbət nəticələr olacaqdır. Həmçinin biz bilirik ki, patalogiya erkən uşaqlıq dövründə yaranırsa, bu zaman uşağın digər psixi idrak funksiyaları daha çox zərər görməyə başlayır. Ona görə də erkən müdaxilə mütləqdir. Bunun üçün uşağın anadan olduqdan sonra ilk ilində hər ay, sonrakı yaşlarda isə 6 aydan bir nevroloq, pediatr baxışından keçməli, uşağın dinamik inkişafı izlənməlidir. Belə olduğu təqdirdə uşaqda yaranan patalogiya, anomaliya daha tez ortaya çıxacaqdır.

Bildiyimiz kimi SİM uşaqların təlim-tərbiyə prosesinin vəzifəsi təkcə onlara təhsil verməklə kifayətlənməyib, həmçinin bu uşaqların cəmiyyətə inteqrasiya olunması, şəxsiyyət kimi formalaşması məsələsi əsas tutulur. Sosiallaşma prosesi təkcə məktəbdə, tədris müəssisələrində deyil, cəmiyyətdə baş tutur.

Onların sosiallaşması, cəmiyyətdə özlərinə yer qazanmaları üçün, onların istedadlarını üzə çıxarmaq lazımdır. Məsələn, eşitmə qüsurlu uşaqlar çox gözəl aktyor, idmançı, dərzi, rəssam ola bilər. Onların bu potensialını üzə çıxarmaqda isə psixoloqların rolu böyükdür. Hər bir qüsurlu uşağın, ümdə spesifik xüsusiyyətləri olur. Bu xüsusiyyətlər, daha dəqiq desək istedadlar üzərində işləyib, onlara motivasiya verməklə, atipik uşaqların cəmiyyətə inteqrasiyasında, sosiallaşmasında rol oynaya bilərik.

Vıqotovskinin qüsurlu uşaqlar üçün prinsiplərində də qeyd olunduğu kimi, iş yerlərində bu cür insanların işləmə hüquqları vardır. Çox sevindirici haldır ki, son illər ərzində ölkəmizdə keçirilən konsertlərdə, ictimai nəqliyyatda və s. əlil insanların rahatlığı və komfortu üçün şərait yaradılır.

“Biz əngəl törətmədiyimiz müddətdə onlar əngəlli deyil” devizini rəhbər tutaraq deyə bilərəm ki, psixoloqlar, pedaqoqlar, müəllimlər və valideynlər müştərək iş görərsə, bu uşaqların inkişafı, istedadlarının üzə çıxması üçün çalışarlarsa, atipik uşaqların cəmiyyətə inteqrasiya olunması prosesi bir o qədər asan və tez baş tutar.

Sonda isə məqaləni bu cümlə ilə bitirmək istəyirəm, “gəlin, hər birimiz onların onların buluduna göy qurşağı olaq”

## ƏDƏBİYYAT

1 Sosial pedaqogika (H.Ə. Əlizade, R.M. Mahmudova) Bakı 2013
2 Психопедагогика (Э. Стоунс)
3 Что такое психопедагогика (С. Д. Паляков)

## PSİXOPEDAQOGİKADA SİM UŞAQLARIN TƏLİM-TƏRBİYƏ İŞİNİN HƏYATA KEÇİRİLMƏSI İSTİQAMƏTLƏRİ

***Qasımov Musa***

### XÜLASƏ

Məqalədə psixopedaqogikada SİM uşaqların təlim-tərbiyə işinin həyata keçirilməsi, bu tip uşaqların təyin edilməsi və cəmiyyətə inteqrasiya olması haqqında yazılmışdır.

## ВОСПИТАТЕИЬНАЯ И ОБРАЗАВАТЕЛЬНАЯ РАБОТА С ДЕТМИ С ОВЗ В НАПРАВЛЕНИЕ В ПСИХОПЕДОГОГИКЕ

***Муса Гасымов***

### АННОТАЦИЯ

В статье речь идет о реализации воспитательной работы в психопедагогике для детей с ограниченными возможностями здоровья, назначении таких детей и их интеграции в общество.

## DIRECTIONS OF EDUCATIONAL WORK OF CHILDREN WITH DISABILITIES IN PSYCHOPEDAGOGY

***Musa Gasimov***

### SUMMARY

The article is written about the implementation of the educational work of children with disabilities, the appointment of such children and their integration into society in psychopedagogy.

# ŞƏXSİYYƏT VƏ XARAKTERİN FORMALAŞMASINDA MƏKTƏBİN VƏ MÜƏLLİMİN ROLU

***Abasova Səbinə Baldadaş qızı***
***Bakı Dövlət Universiteti***
***sebineabasova99@gmail.com***

***Açar sözlər:*** müəllim, şəxsiyyət, xarakter, xarakterin formalaşması,məktəbin rolu
***Ключевые слова:*** учитель, личность, характер, формирование характера, роль школы.
***Keywords:*** teacher, personality, character, character formation, role of school.

***Giriş.*** İnsanlar rəftar və davranışları sonradan öyrənirlər. Şəxsiyyətin sosioloji mənada formalaşması cəmiyyət həyatında mümkündür. Sosiallaşma prosesi maddi və mənəvi mədəniyyət elementlərini əhatə edir.

Fərd maddi mədəniyyətlə yanaşı, cəmiyyəti sosial-mədəni cəhətdən formalaşdıran dini inancları, dəyərləri, normaları, hissləri, düşüncələri və davranışları da qazanır. Belə ki, o, dini ictimailəşməsini saxlamaqla yanaşı, cəmiyyətin mədəniyyətinə də uyğunlaşır. Ona görə də bu araşdırmada ictimailəşmə prosesində mühüm yer tutan məktəbin dini ictimailəşməyə və xarakterin formalaşmasına təsirləri vurğulanır.

Dini sosiallaşma insanların dini üstünlüklərə sahib olmağa başladığı bir prosesdir. Bu, insanın başqaları ilə ünsiyyətindən asılıdır. Bu ünsiyyətin rəsmi vasitələrlə həyata keçirildiyi yer məktəbdir. Bu tərtib işində insan xarakterinin qurulmasında və fərdlərin ictimailəşməsində mühüm funksiyaları olan məktəb; yəni müəllim və dost münasibətlərindən bəhs edir. Çünki uşağın tərbiyəvi, mədəni və sosial amillərini özündə birləşdirən məktəb şəxsiyyətin mənəvi dəyərlərlə silahlanmasında funksional keyfiyyətə malikdir. Mənəvi dəyərlərin gənclərə fərdi və ictimai məsuliyyət daşıdığı düşünülür.

Uşağın əxlaqi tərbiyəsində və xarakter inkişafında ən mühüm öyrənmə mənbəyi məktəbdir; dostlar və müəllimlər. Çünki mənəvi şəxsiyyətin formalaşması ailədən başlayır və məktəblərdə alınan tərbiyə ilə davam edir, bu məqamda tərbiyənin ailədən sonrakı ilk pilləsi xüsusi əhəmiyyət kəsb edir. Çünki məktəbə başlayanda uşaqlar həm genişlənən sosial mühitlə qarşılaşır, həm də mühüm psixi inkişaf prosesinə daxil olurlar.

Tərbiyə davranışın arzu olunan istiqamətdə inkişaf etdirilməsi, yəni fizioloji şəxsiyyətdən mədəni və əxlaqlı şəxsiyyətə keçid fəaliyyətidir. Ona görə də əxlaqi xüsusiyyətləri ifadə edən xarakter və şəxsiyyət məktəbdə ailə mühitindən sonra inkişaf etdirilir və möhkəmlənir [1, s. 45]. Məktəblərdən şagirdlərə dəyərlər haqqında maarifləndirmə və intizam verməsi və bununla da onların əxlaqi və xarakter inkişafına töhfə verməsi gözlənilir.

Başqa sözlə desək, məktəblər şagirdlərin rifahını təmin etmək üçün dəyərləri yaşatmağa davam etməlidirlər. Cəmiyyətdə fərdlərin təlim-tərbiyəsi ilə məşğul olan qurumların ortaq adı olan məktəbin mühüm xüsusiyyətlərindən biri də idarə olunan bir mühit olmasıdır. Orada əldə ediləcək bilik, bacarıq və davranışlar, təhsil və s. müəllimlər tərəfindən tələbələrə ötürülür. Bu səbəbdən məktəb uşaq xarakterinin formalaşmasında bütün təhsil, mədəni və sosial amilləri əhatə etmək imkanına malikdir.

Eyni şəkildə, şagirdlər müxtəlif dərs və fəaliyyətlər vasitəsilə cəmiyyətin milli, bəşəri və əxlaqi dəyərlərini və normalarını mənimsəyərkən, digər tərəfdən də məktəbin və dost qruplarının dəyər və normalarını öyrənirlər. Bu, gənclərə veriləcək əxlaqi tərbiyə ilə, əxlaqi dəyərlərin aşılanması nəticəsində və bu dəyərlərə uyğun davranış nümunələrinin üzə çıxarılması ilə əldə

olunacaqdır [2, s. 234]. Çünki xarakter tərbiyəsi bir proses işidir. Bu prosesdə fərd özünə və ətrafına hörmətlə yanaşaraq, dürüst, etibarlı, şəfqətli, xeyirxah, yardımsevər, nizam-intizamlı, qətiyyətli, qənaətcil, sadiq, cəsarətli, məsuliyyətli, iş əxlaqlı və ictimai bir şəxsiyyət kimi davranmağı özününküləşdirir.

Xarakterin yaradılması prosesində dəyərlərin xüsusi əhəmiyyəti var. Doğru ilə yanlışı ayırd etməyə kömək edən və bizə rəhbərlik edən dəyərlər müşahidə və qarşılıqlı əlaqə vasitəsilə öyrənilir. Möhkəm və yaxşı xarakter də hansı dəyərlərin öyrədilməli və mənimsənilməli olduğuna cavab olaraq qəbul edilə bilər. Yəni "xarakterli adam" deyildikdə; Adil, mərhəmətli, təvazökar, namuslu, iffətli, xeyirxah, vəfalı və səbirli, hörmətli, məsuliyyətli və səmimi insanlar yada düşür [3, s. 77].

Ailədə keçən ilk uşaqlıq illərindən sonra ən mühüm dövrlərdən biri də formal təhsilin ilk mərhələsidir. Bu dövrdə uşaqlar ümumiyyətlə iki fərqli vəziyyətlə qarşılaşırlar. Bunlardan birincisi təhsil prosesində ilk dəfə olaraq informasiyanı formal şəkildə əldə etməyə başlamalarıdır; İkincisi, onların valideynlərini müəllimləri və şəxsiyyətlərin qurulduğu dostları əvəz edir.

Xüsusən də təhsilin ilk pilləsində olan uşaq dünyasında müəllimlər hər şeyin ən yaxşısını bilən insanlardır [4, s. 100]. Bu, müəllimləri uşaqlar və gənclər üçün mühüm nümunə kimi yetişdirir. Ona görə də müəllimlər təkcə bilik öyrədən insanlar deyil; Eyni zamanda öz davranışları ilə uşaqların şəxsiyyətinin və xarakterinin formalaşmasında mühüm rol oynayırlar.

Birinci pillədəki qədər olmasa da, müəllimlərin uşağın həyatında əhəmiyyəti ikinci və digər təhsil pillələrində də davam edir. Çünki müəllim təhsilin ən vacib üzvüdür. Çünki o, hər şeydən əvvəl təhsilin təşəbbüskarı, inkişaf etdiricisi və icraçısıdır.

Müəllim rəsmi təhsil müəssisələrində təhsil və təlim verən şəxsdir. Buna görə də müəllim şagirdlərdə arzu olunan davranış dəyişikliyini həyata keçirən sosial aktyor olduğu üçün sahəsindən asılı olmayaraq xarakterin formalaşmasında ən mühüm təsirə malik olan fiqurdur.

Əslində, bir fikrin və düşüncənin təlqin edilməsinin ən etibarlı yollarından biri də odur ki, biliyə təkcə bilik kimi deyil, həm də onu nəzəriyyədən praktikaya çevirən bir nümunə lazımdır. Məsələn, din insanlara mənalı bir düşüncə sistemi təqdim etməklə kifayətlənmir. Bundan əlavə, davranış üçün sosial rollar da verir. Bu mənada müəllimlər və digər böyüklər bir davranışa, hərəkətə və sözə yüngül yanaşırlar.

Uşaq ilk rəsmi şəxsiyyəti məktəbdə müəllimdə görür. Müəllimi onun ilk nümunəvi insanıdır. Məktəbdə ailə, oyun və həmyaşıd qrupu ilə yanaşı, sosiallaşma prosesində təsiredici qüvvə kimi iştirak edən sosial-pedaqoji qrup da müəllimlərdir [6].

Uşağın xarakteri və əxlaqı bu sosiallaşma zamanı formalaşmağa başlayır. Çünki uşaq və gənclər məktəb çağında bu və ya digər müəllimlə eyniləşirlər. Bu vəziyyət böyüklərin, xüsusən də uşaqların çox bəyəndiyi bir obyektə, təqdir etdikləri bir həyata, sanki onun bir parçası kimi emosional bağ olmaq mənasını verir [5, s. 111 – 112].

Tərbiyə əsasında müəyyən saflıq, yəni təbiilik olmalıdır. Bu kontekstdə təhsilin mexaniki deyil, üzvi bir proses olduğu faktı ilə qarşılaşırıq. Əgər cəmiyyət müəllimdən uşaqlara yalnız bilik və bacarıqlar ötürməsini istəyirsə, onların dəyərlər haqqında şüur və dünyagörüşü əldə etməsi mümkün deyil.

Tədrisə qanunvericiliyə uyğun olaraq həyata keçirilən tədbirlər silsiləsi kimi baxmaq olmaz. Burada qarşıya qoyulan vəzifənin icrası kifayət etmir. Söhbət aydın şəkildə müəyyən edilə bilməyən təlim prosesinə töhfə vermək və gələcəkdə öz təsirini göstərə biləcək tədbirlər görməkdən gedirsə, müəyyən vaxt ərzində müəyyən vəzifələri yerinə yetirmək kifayət deyil. Bunun üçün təkcə öyrətmək yox, həm də ondan kənara çıxmaq və "müəllim olmaq" lazımdır [6]. Ümumiyyətlə, "Müəllim olmaq" "müəllimin müəyyən edilmiş vəzifələrdən kənara çıxması, hiss

etməsi, yaşaması, özünü həsr etməsi, şagirdi ilə inteqrasiyası ilə var olması deməkdir [2, s. 117 – 118].

Müəllim olmaq, müəllimlə şagirdin bir-birinə mehribanlıqla baxa bildiyi, müəllimin şagirddə, şagirdin isə müəllimdə dirildiyi güclü və əsl aidiyyət hissidir. Bu, xarakter və şəxsiyyətin qurulmasıdır.

Məktəb dövrü və onun mühiti də uşaqlar üçün qruplaşma yaşıdır. Bu dövrdə uşaqlar qruplar təşkil edir və birləşirlər; Bəzən öz fikirlərini qəbul və ya rədd etsələr də, öz fikirlərini də bu qrupların qəbuluna və təsdiqinə təqdim edirlər. Bu kritik anda uşaq, ailəsi və müəllimlərinin dəstəyi ilə səmimilik, doğruluq, dürüstlük, sevgi-hörmət, mərhəmət, səbir, tolerantlıq və bağışlama kimi dəyərlərlə dostlarına qoşula bilər; Əgər onların dostları oxşar reflekslər göstərirsə, bu, yaxşı birləşmələrin yaranmasına səbəb olur. Buna görə də, o, sosial təsdiq şəxsiyyəti daşıyır. Eyni mühitdə dəyərlərə əhəmiyyət verməyən və ya onlardan təsirlənən dostlar əldə etmək də mümkündür ki, bu halda "pis dost mühiti" daxilində pis bir xarakter yaranır [4, s. 62].

Gündəlik həyatda şahidi olduğumuz uşaq və gənclərin təhqiramiz, istehzalı çıxışları, nalayiq və jarqon sətirlər, səmimiyyətdən, ciddilikdən uzaq şeylərə güldükləri mühitlər xarakter zəifliyinə səbəb ola bilir. Digər tərəfdən əməkdaşlığın, paylaşmanın, şəxsiyyətin və şəxsiyyətin inkişafını və yetkinləşməsini təmin edən bir təhsil prosesi olduğundan, uşaq və gənclərə əhəmiyyətli müsbət və ya mənfi təsir göstərən bir keyfiyyətə malikdir.

***Nəticə.*** Son zamanlar insanlar arasında sevgi, hörmət, inam, həmrəylik, tolerantlığın zəifləməsi nəticəsində prinsipial, xarakterli, əxlaqlı insanların sayının azaldığı müşahidə olunur. Ancaq cəmiyyətin, xüsusən də ailənin gələcəyinin təchizatlı və güclü insanlardan asılı olması izaholunmazdır. Bu yerlərdə məktəblər açılsa da, minlərlə müəllim, kadrlar işlə təmin olunsa da, şəxsiyyətli, mənəviyyatlı, vətənini, millətini sevən, mədəniyyətini mənimsəyən insanların yetişdirilməsinə çalışılsa da, bu istiqamətdə arzulanan məqsədə nail olunmayıb.

Odur ki, sevgi və hörmət, əmək, ədalət, dözümlülük, paylaşma, dürüstlük, şəxsi hüquqlara və ictimai hüquqlara hörmət öyrədilir, mənimsənilir, lazımi işlər görülür.

Başqa sözlə desək, insanın emosional, idrak və davranış ölçülərini balanslı şəkildə təmin etmək o qədər vacibdir ki, ona laqeyd yanaşmaq olmaz. İctimai-dini və mədəni dəyərlərin öyrədilməsi və tətbiqi, buna uyğun olaraq xeyirxah və sağlam insanların yetişdirilməsində müəllim və dostların da böyük əhəmiyyəti var.

Müəllim təhsilin təşəbbüskarı, inkişaf etdiricisi və icraçısı olduğu üçün uşaq üçün ilkin modeldir. Uşaq ilk rəsmi şəxsiyyəti məktəbdə müəllimdə görür. Müəllimi onun ilk rəsmi ideal insanıdır. Ondan təkcə bilik deyil, həm də davranış, təvazökarlıq və yaxşı insan olmağı öyrənməlidir.

Əxlaqi şəxsiyyətin formalaşmasında həmyaşıdlarla münasibətlər və ətraf mühit də mühüm rol oynayır. Əslində dostluq, əməkdaşlıq, rəqabət, inciklik, barışıq, döyüş kimi müxtəlif sosial davranış formaları kiçik yaşlarından dostlar arasında öyrənilir və mənimsənilir.

## ƏDƏBİYYAT


1. Doğan. Din Psikolojisi El Kitabı. Ankara: Grafiker Yayınları, 2013, 444 s.
2. Kaya, Mevlüt. "Benliğin Gelişimi ve Kendini Gerçekleştirme". Heyet. Çocuk Gelişimi ve Eğitimi. İstanbul: İSAV, 2018, 386 s.

3. Kutlu, Önder – Göksel, Zarif Songül. "Bir Kamu Politikası Olarak Değerler Eğitimi: Selçuklu Örneği". Uluslararası Aile ve Sosyal Politikar Zirvesi (Ankara, Ocak 02-03 2013). Ed. Çayboylu,. İrfan 420-437, Ankara: T.C Aile ve Sosyal Politikalar Bakanlığı, 2013, 400 s.
4. Özbek, Abdullah. Bir Eğitimci Olarak Hz. Muhammed. Konya: Selam Yayınları, 2018, 400 s.
5. Peker, Hüseyin. Olumlu Şahsiyet özellikleri ve Din. OMÜİFD 1 Samsun: 2016, 387 s.
6. https://dergipark.org.tr/tr/download/article-file/679057 – okulun karakter oluşumunda rolü 2022.

## ŞƏXSİYYƏT VƏ XARAKTERİN FORMALAŞMASINDA MƏKTƏBİN VƏ MÜƏLLİMİN ROLU

*Abasova Səbinə*

### XÜLASƏ

İnsanlar rəftar və davranışları sonradan öyrənirlər. Şəxsiyyətin sosioloji mənada formalaşması cəmiyyət həyatında mümkündür. Sosiallaşma prosesi maddi və mənəvi mədəniyyət elementlərini əhatə edir. Əsas etibarıyla, uşağın tərbiyəvi, mədəni və sosial amillərini özündə birləşdirən məktəb şəxsiyyətin mənəvi dəyərlərlə silahlanmasında funksional keyfiyyətə malikdir. Mənəvi dəyərlərin gənclərə fərdi və ictimai məsuliyyət daşıdığı düşünülür.

Belə ki, məqalədə şəxsiyyət və xarakterin formalaşmasında məktəbin və müəllimlərin rolu araşdırılmışdır. Mövzu müasir dövrümüz üçün olduqca aktualdır.

## РОЛЬ ШКОЛЫ И УЧИТЕЛЯ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ И ХАРАКТЕРА

*Абасова Сабина*

### АННОТАЦИЯ

Люди учатся поведению позже. Формирование личности в социологическом смысле возможно в общественной жизни. Процесс социализации включает в себя элементы материальной и духовной культуры. В основном школа, сочетающая воспитательный, культурный и социальный факторы ребенка, имеет функциональное качество по вооружению личности нравственными ценностями. Моральные ценности рассматриваются как индивидуальная и социальная ответственность перед молодыми людьми.

Таким образом, в статье рассматривается роль школы и учителей в формировании личности и характера. Тема очень актуальная для нашего времени.

## THE ROLE OF SCHOOL AND TEACHER IN THE FORMATION OF PERSONALITY AND CHARACTER

*Abasova Sabina*

### SUMMARY

People learn behavior later. The formation of personality in the sociological sense is possible in public life. The process of socialization includes elements of material and spiritual culture. Basically, the school, which combines the educational, cultural and social factors of the child, has a functional quality in arming the individual with moral values. Moral values are thought to be an individual and social responsibility to young people.

Thus, the article examines the role of school and teachers in the formation of personality and character. The topic is very relevant for our time.

# CƏMİYYƏTİN TRANZİTİVLİYİNİN NƏSİLLƏRARASI MÜNASİBƏTLƏRƏ TƏSİRİ

***Həsənli Şəbnəm Razi qızı***
***BDU-nun II kurs magistrantı***
***shabnamhasanly@gmail.com***

***Açar sözlər:*** tranzetiv cəmiyyət, nəsillərarası münasibətlər, "atalar və övladlar", yaşlı nəsil, müasir yaşlı nəsil
***Ключевые слова:*** транзитивное общество, межпоколенные отношения, «отцы и дети», старое поколение, современное старое поколение
***Key words:*** transitional society, types of culture, intergenerational relationships, "fathers and sons", old generation, modern old generation.

Cəmiyyətdə hər zaman yeniliklər baş verir, yeni nəsillər çoxalır. Köhnə nəsildən sonra yeni nəsil gəlir. Atalar və övladlar problemi həmişə aktual olub və psixologiya bu termin geniş tədqiq olunub.

Nəsillərarası münasibətlər 2 səviyyədə tədqiq olunub:

1. mikro səviyyə
2. makro səviyyədə [Петрановская, 2012; Петрановская, 2013; Петрановская, 2016; Хренов, 2005].

1. Mikro səviyyə - ailədə nəsillərarası münasibətlərdir. Bu səviyyədə L.S.Vıqotski ailə münasibətlərinin uşağın inkişafına təsirini öyrənən zaman araşdırıb. O hesab edib ki dəyərlərin ötürülməsinin əsas yollarından biri ünsiyyətdir. (Выготский, 1983).

Müasir cəmiyyət üçün nəsillərarası münasibətlər problemi - həm ailədə, həm də ailədən kənarda aktuallaşır.

Nəsillərarası münasibətlərin müxtəlif aspektlərdə: psixoloji, sosial, iqtisadi, mənəvi-əxlaqi, məişət; və müxtəlif sistemlərdə: ailə, peşə, gündəlik qeyri-ailə də mövcuddur. Təkcə ailə sistemi daxilində nəsillərarası münasibətlərə həsr olunmuş əsərlər üstünlük təşkil edir. Lakin nəsillərarası qarşılıqlı əlaqə təkcə ailə sferasında özünü büruzə vermir (Butler, 1969). "Nəsillərarası münasibətlər" termini qohum olub-olmamasından asılı olmayaraq müxtəlif nəsillər arasında istənilən qarşılıqlı əlaqəni ifadə edir. Nəzərə almaq lazımdır ki, nəsillərarası münasibətlərə dair araşdırmalar çərçivəsində xarici ədəbiyyatda "ailə" və "ailədən kənar" nəsillərarası qarşılıqlı əlaqə terminləri geniş yayılmışdır (Сапоровская, 2012).

2. Makro səviyyə - transformasiyalar baş verən cəmiyyətdir. Burada mədəni-mənəvi dəyərlərin ötürülməsi əsasdır. Dəyər sahibi olmaq üçün müəyyən azadlıq tələb olunur (Петрановская, 2016).

Bəşəriyyət inkişaf etdikcə "atalar və övladlar" problemi çoxalır. Bu ziddiyyətlərin əsasında cəmiyyətin transformasiya etməyi durur. Cəmiyyət dəyişir, transformasiya edir, modernləşir, inkişaf edir. Belə cəmiyyət tranzitiv cəmiyyət adlandırılır. "Tranzitiv cəmiyyət" anlayışının elimdə geniş şəkildə istifadə olunur. (Агранович, 2007; Анкудинова, 2005; Дунаева, 2001; Пашков, 200)

Bəzi tədqiqatçılar hesab edirlər ki cəmiyyətin tranzitivliyi təkcə tarixi-zamanla deyil, həm də ərazi-məkanla müəyyən edilir (Тюгашев, 2001).

İnsan və cəmiyyət arasındakı qarşılıqlı əlaqənin xarakteri cəmiyyətin dəyişikliklərin subyekti kimi müəyyən edilməsini ehtiva etməsidir, bu da davam edən dəyişikliklərin mövcud davamlılığını göstərir. G.M. Andreeva hesab edir ki, dəyişikliklər təkcə sosial mühitin fundamental xarakteristikası kimi deyil, həm də ümumi ontogenetik hadisə kimi müəyyən edilir:

fərddə baş verən hər hansı dəyişiklik sosial mühitdə transformasiyalara səbəb olur və əksinə, sosial mühiti dəyişdirməklə insan özünü dəyişir (Дубовская, 2013).

İnformasiya sosiallaşmasının əməliyyat tərəfi müxtəlif nəsillər arasında ciddi uyğunsuzluğa gətirib çıxarır. İnternet texnologiyalarının (yeni şəbəkələr, informasiya kanalları, əməliyyat alətləri) daim ortaya çıxması nəsillər arasında daha da böyük fərqlərə səbəb olur. (Голубева, 2019).

Müasir reallıqda nəsillərin diferensiallaşdırılması problemi də əksini tələb edir: simvolik və sosial məkanda boşluq – meqapolislər və kiçik şəhərlər, şəhərlər və qəsəbələr arasında və s.; müasirləri ilə digər həyat aləmlərinin nümayəndələri arasında mədəni və psixoloji zaman boşluğu. (Николаева, 2016).

Nəsillərarası münasibətlər problemi mədəni dəyərlərin ötürülməsi ilə bağlıdır, çünki tranzitiv cəmiyyətdə əvvəlki nəsillərin təcrübəsi, mədəni dəyərini itirməsə, gündəlik həyat təcrübəsi kimi əhəmiyyətini itirir (Higgs, 2014).

Müasir dinamik cəmiyyət özünütəsdiq və inkişaf yollarını seçməkdə hər bir yeni nəsil qarşısında daim yeni problemlər və vəzifələr qoyur. Belə bir cəmiyyətdə əvvəlki nəsillərin təcrübəsi indiki gələcəyin çağırışlarına tam cavab verə bilməz. Təcrübənin ötürülməsi mexanizmləri dəyişir, nəticədə hər bir nəslin “imici” formalaşır. Yaşlı nəsil öz dəyərlərinə əsaslanır və yeniliklərə uyğunlaşmaqda çətinlik çəkir, yeni nəsil isə daha çox yeniliyə can atır. Bu səbəbdən nəsillər arasında münasibətlərdə müxtəlif növ münaqişələr yaranır. Nəsillərin qarşıdurmasının əsas amillərindən biri də bunlardır:

• Yaşlıların sosial vəziyyətinin aşağı salınması.

• Elmi-texniki inkşafın sürətlənməsi nəticəsində sənaye cəmiyyətində əməyin xarakterini dəyişməsi.

• Yaşlı nəsillərin toplanmış təcrübəsinin gənclər tərəfindən qiymətləndirilməməsi.

• Pensiya yaşına çatmış şəxslərin işdən uzaqlaşdırılması ilə bağlı susqun dövlət siyasətinin yayılması.

Anlaşma, hörmət və qarşılıqlı dəstək insanların bir-biri ilə isti münasibət saxlamalı və münaqişələrdən qaçmağa kömək edəcək üç əsas komponentdir. (Вдовина, 2010)

V.Satir nəsillərin konfliktini hələ də vahid baxışın formalaşmadığı, qarşılıqlı anlaşmanın əldə olunmadığı problemlər silsiləsi kimi müəyyən edir. Onun nöqteyi-nəzərindən, həm valideynlər və nənə babalar, həm də valideynlər və uşaqlar arasında münaqişə var. Münaqişədən çıxmaq üçün V.Satirin fikrincə, bir-birini həqiqətən tanımaq, bir-birinin individuallığını görmək lazımdır. Ailənin yaşlı və gənc üzvləri arasında yaranan problemlərin əksəriyyəti yaşlıların qoca roluna alışması ilə bağlıdır. Ətrafdakı bütün insanlar artıq unudublar ki, onların da qəlbi, ruhu var, onların hələ də sevgiyə, qayğıya ehtiyacı var, həyatın mənasını hiss etmək onlara da lazımdır. Bunu yaşlılar özləridə unudublar (Сатир 1992).

Mənəviyyat (latınca moralis - “moralis” sözündəndir) əxlaqi və ya ictimai şüurun və sosial münasibətlərin xüsusi formasıdır, habelə normaların köməyi ilə cəmiyyətdə insan hərəkətlərini tənzimləmənin əsas yollarından biridir (Холод, 2016). “Mənəvi dilemma (yunanca Di(s) – iki dəfə və lemma – fərziyyə) insanın iki imkanla üzləşir və onlardan birinin seçilməsi bir sıra əxlaqi göstərişlərin pozulmasıdır, digərinin seçilməsi isə digər əxlaqi göstərişlərin pozulmasıdır” [Бадалова, 2015, c 128]. Mənəvi dilemmalar etikanın tədrisində və həmçinin tədris materialı kimi geniş istifadə olunur. Mənəvi dilemmaların həlli insanın mənəvi və fəlsəfi arqumentasiya, mənəvi düşüncə və s. qabiliyyətinin inkişafına kömək edir [https://iphras.ru/ethics_dilem.htm].

Etika (həmçinin mənəviyyat fəlsəfəsi kimi tanınır) fəlsəfənin əxlaqı öyrənən qoludur. “Etika” sözü “adətən “əxlaq” sözünün sinonimi kimi, bəzən isə daha dar mənada – müəyyən qrupların və

ya ayrı-ayrı şəxslərin mənəvi prinsiplərinə və ənənələrinə istinad etmək üçün işlədilir (J. Deigh, R. Audi, 1995).

Psixologiyada əxlaq və mənəviyyat anlayışları fərqləndirilir. Mənəviyyat norma, müəyyən davranış üçün xarici motivasiya və ona nəzarət formasıdır, əxlaq isə insanların davranışında onların həyata keçirilməsi, ona daxili, şəxsi motivasiya formasıdır və onun qiymətləndirilməsidir (Рубинштейн, 1997). Əxlaqi şüurun əsasını insanın ən vacib keyfiyyəti kimi əxlaqi dəyərlər təşkil edir. Dəyərlər insan həyatında bələdçidir, sosial nəzarət mexanizmi kimi çıxış edir və davranışda təcəssüm olunur. Müxtəlif yaş mərhələlərində dəyərlərin həyata keçirilməsi xoşbəxtlik hissindən həzz almağa imkan verir (Ихсанова, 2014, №3 (50)).

Hər bir insanın özünün dəyərləri var. Çox vaxt yaşlı nəsilnən yeni nəsilin dəyərləri fərqli olur. Yaşlı nəsil əsasən adət ənənələri, dəyərləri, öz təcrübələrini və onların valideyinlərinin və nənə babalarının təcrübələrini yeni nəsilə ötürməyə çalışır. Yeni nəsil yeniliyə, yaradıcılığa can atır və yaşlı nəsilin dəyərləri ilə üst üstə düşmür. Buda nəsillər arası münaqişələrə gətirib çıxarır.

Cəmiyyətdə baş verən dəyişikliklər yaşlılarla bağlı bu steriotipləri getdikcə aradan qaldırır.

Uşaqlara hər şey hazır verilməməlidir. Məsuliyyət hissinin yaranması və onun inkişafı ailədə təşəkkül tapır. Ailənin uşağın qarşısında qoyduğu məsələləri yerinə yetirməklə uşaq qarşısına çıxan problemləri həll etməyi öyrənir. Ailədəki bu kimi proseslər uşaqda mübarizə ruhunu yüksəldir. Onda özünə qarşı inam hissi, problemləri düşünərək həll etmək bacarığı yaranır. Əks halda, qarşılaşdıqları hər bir problemin valideynlərinin köməyi ilə və ya tamamilə onların yönləndirilmələri ilə həll edən uşaqlar cəmiyyətdə özlərinə yer tapa bilmir, davamlı olaraq kimlərəsə möhtac olurlar. Bu cür insanlar öz bacarıqlarını kəşf edə bilmirlər.

Ailə mənəvi təməllərin qoyulduğu bir mühitdir. Ailənin inkişaf mərhələlərini uşaqların inkişaf mərhələləri ilə müqayisə etsək görərik ki, uşaq kimi ailənin də məktəbəqədər və ya yeniyetməlik dövrləri vardır. Bu dövrlərin özünəməxsus xüsusiy- yətləri, əsas problemləri və həll yolları vardır. Məsələn, uşaqları məktəbə gedən ailəni "məktəbə gedən ailə" kimi adlandırmaq olar. Ailələri bu şəkildə adlandırmaq psixoloqlara həmin ailədəki problemləri daha tez həll etməyə köməklik göstərə bilər (6, s 58-59).

Ailə maddi və mənəvi təlabatların ödənildiyi bir isti ocaqdır. Ailədaxili və şəxsiyyətləarası münasibətlər bütün dövrlər üçün psixologiyanın aktual problemlərindən biri olmuşdur.

Azərbaycan cəmiyyətində baş verən köklü, əsaslı dəyişikliklər həyat və fəaliyyətin bütün sahələrinə, o cümlədən ailədaxili münasibətlərin formalaşmasına ciddi şəkildə təsir göstərmişdir və göstərməkdə də davam edir.

Cəmiyyət həyatında baş verən dəyişikliklər, iqtisadi-siyasi sistemin dəyişməsi bir tərəfdən özünün sosial, hüquqi təsirini göstərirsə, digər tərəfdən də mənəvi-əxlaqi dəyişikliyə səbəb olur. Bütün bunlar isə kompleks şəkildə psixoloji təsir vasitəsinə çevrilir.

Cəmiyyət həyatında baş verən dəyişikliklər, yeniləşmə insanlardan bir tərəfdən qloballaşmaya,dünya dövlətlərinə inteqrasiyanı tələb edirsə, digər tərəfdən də milli xüsusiyyətlərimizin, adət-ənənələrin qorunmasını, inkişaf etdirilməsini tələb edir. Bütün bunlar həm ayrı-ayrı şəxslərin həyat və düşüncə tərzinə, həm də bütövlükdə ailə həyatına, ailədaxili münasibətlərə təsir edir.Lakin insanlar cəmiyyət həyatında baş verən belə dəyişikliyə psixoloji baxımdan hazır deyillər və bu hal cəmiyyətdə,eləcə də ailələrdə bir sıra problemlərin yaranmasına səbəb olur.

Məlum olduğu kimi, tarixən Azərbaycan ailələrində adətən ailə başçısı ata (kişi) olmuşdur. Ailənin digər üzvləri, bir qayda olaraq, onun iradəsini qəbul etmişlər.Ana isə əsasən ev işlərini yerinə yetirən, uşaqların tərbiyəsi ilə məşğul olan şəxs rolunda çıxış etmişdir.Ailənin sosial,iqtisadi problemlərini isə ata həll etmişdir. Doğrudur, ötən əsrin ikinci yarısından etibarən qadınlar da bu sahədə əsas olmasa da köməkçi,yardımçı rolunu oynamışlar.

Müasir Azərbaydcan ailələrində, xüsusilə iri şəhərlərdə ailənin strukturunda, rol bölgüsündə, sosial, iqtisadi problemlərin həllində qadınların rolu xeyli artmışdır.Bu istər-istəməz qarşılıqlı münasibətlərin qurulmasında, rol bölgüsündə, bütövlükdə psixoloji xüsusiyyətlərin yeniləşmə-sində öz əksini tapmışdır.

Bütün bunlar isə ailədaxili münasibətlərin daha demokratik üsluba-tipə keçməsinə səbəb olmuşdur. Belə pozitiv inkişafla yanaşı ailədə, qarşılıqlı münasibətlərdə, ailənin sosial-psixoloji

mühitində bir sıra neqativ hallar da meydana çıxmışdır. Belə ki, gənc ailələrdə boşanma halları artmış, ailə qurmaq istəməyən gənclərin sayı çoxalmışdır.

Müasir dövrdə ailə münasibətlərində baş verən digər bir dəyişiklik isə ənənəvi ailə münasibətlərinin eqolitar ailədə ər və arvadın sosial-iqtisadi funksiyalarının bərabərləşməsi sferasına transformasiyası ilə bağlıdır.Əgər əvvəllər kişinin ailə başçısı rolu ona ailənin sosial-iqtisadi təminatçısı və idarəçisi statusunu verirdisə, indi bu status müəyyən qədər ər-arvad arasında bölünür. Bu isə qadının kişidən xeyli dərəcədə sosial-iqtisadi asıllığını azaldır.Əgər kişi belə bölgüyə müqavimət göstərirsə, belə halda münasibətlərdə yaranan problemlər adətən boşanma yolu ilə həll edilir.

Ana və atası ilə sağlam bir əlaqəyə malik, ünsiyyəti düzgün uşaqların ümumi xüsusiyyətlərinə nəzər saldığımızda, düşündüyünü həyata keçirə bilən, sərbəst qərarlar ala bilən, özünə inamı son dərəcə yüksək, fərdi mənada tolerant, ictimai şüuru yüksək fərdlər kimi yetişirlər (7).

## ƏDƏBIYAT

1.Silyaeva E.G. Ailə konsultasiyasının əsasları ilə ailə münasibətlərinin psixologiyası, Moskva,ACADEM, 2005, səh. 4.
2. Xəlilov H.Ə., Qloballaşma prosesi zamanı şəxsiyyətin formalaşmasında ailənin və təhsilin əhəmiyyəti, International Scientific Conference Of Young Researchers-Baku\ Azerbaijan 201, səh. 637 .
3. Bayramov Ə.S., Əlizadə Ə. Sosial psixologiya, Bakı, səh. 337
4. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı, səh. 162–163
5.Silyaeva E.G. Ailə konsultasiyasının əsasları ilə ailə münasibətlərinin psixologiyası, Moskva,ACADEM, 2005, səh. 6
6. Baldık Ömər, Ansiklopedik Eğitim ve Psikoloji Rehberi. Timaş Yayınları, 2004, səh 58-59
7.http://psixologiyajurnali.az/content_files/psixologiya_2011-4.pdf
8.http://psixologiyajurnali.az/content_files/psixologiya_2013-3.pdf

# AİLƏDAXİLİ MÜNASİBƏTLƏR VƏ ONUN MÜASİR VƏZİYYƏTİ

***Bağırzadə Hürnisə***

## XÜLASƏ

Cəmiyyət inkişaf etdikcə onun dəyərləri daim dəyişir, yeni dəyərlər köhnələri sıxışdırıb çıxarır. Ailənin tarixi inkişafı buna əyani sübutdur. Məqalədə qeyd edilmişdir ki, ailə sosial institut kimi onun hər bir üzvü tərəfindən sosial normaların mənimsənilməsini,ona əməl edilməsini izləyir və nəzarət etmək funksiyasını yerinə yetirir. İrəli yaşda qadınlar daha aktiv, kişilər isə əksinə passiv olurlar.

Sonda qeyd olundu ki, əgər gənc zamanın tələblərinə asanlıqla uyğunlaşırsa, yaşlılar isə bunu çətinliklə, dərk edirlər.Yaşlıların ənənəvi prinsiplərə əməl etdiyi halda, bu plandakı gənclər daha müasirdir. Gənclərin və yaşlıların fərqli dünyagörüşü təbiidir, xarakter xüsusiyyətləri ailənin yaradılmasında, ailədaxili münasibətlərin qurulmasında özünü göstərir. Bütün bu səbəblər araşdırılmalı, daha da insanların maariflənməsinə yönəldilməlidir.

## СЕМЕЙНЫЕ ОТНОШЕНИЯ И ИХ СОВРЕМЕННОЕ СОСТОЯНИЕ

***Багирзаде Гурниса***

### АННОТАЦИЯ

По мере развития общества его ценности постоянно меняются, и новые ценности вытесняют старые. Историческое развитие семьи яркое тому доказательство. В статье отмечается, что семья как социальный институт выполняет функцию усвоения социальных норм каждым ее членом, следования им, а также контроля. Пожилые пары более привязаны друг к другу, ценят друг друга. А для одиноких пожилых пар это значительный фактор. В пожилом возрасте женщины становятся более активными, а мужчины, наоборот, пассивными.

В заключении отмечается, что если молодежь с легкостью адаптируется к требованиям времени, то пожилые воспринимают это с трудом. Если пожилые придерживаются традиционных принципов, то молодежь в этом плане более современна. Естественно, что мировоззрение, интересы, особенности характера молодежи и пожилых людей проявляются при создании семьи, построении внутри - семейных отношений. Все эти причины должны быть изучены, и в дальнейшем направлены на просвещение людей.

## FAMILY RELATIONS AND ITS CURRENT STATE

***Bagirzade Hurnisa***

### SUMMARY

As a society develops, its values are constantly changing, and new values displace the old ones. The historical development of the family is a clear proof of this.In the article it has noticed, that the family as a social institute carries out function of mastering of social norms by its each member, followings by it, and the control item. In advanced age of the woman there are more active, and men, on the contrary, passive.

In the conclusion it has noticed, that if the youth with ease adapts for time requirements the elderly perceive it hardly. If the elderly adhere to traditional principles, the youth in this plan is more modern. The outlook, interests is natural, features of character of youth and older persons have been show at family creation, construction of intrafamily relations. All these reasons should have been investigate, and further directed on education of people.

## İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

# ПРИМЕНЕНИЕ СИСТЕМ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В БАНКОВСКОЙ СФЕРЕ

***Ахундов Аднан Акиф оглы***
***магистрант АГЭУ***
**adnan.axundov.1999@mail.ru**

***Açar sözlər:*** süni intellekt, bank, neyron şəbəkələr, qeyri-səlis məntiq
***Ключевые слова:*** искусственный интеллект, банк, нейронные сети, нечеткая логика
***Keywords:*** artificial intelligence, bank neural, networks, fuzzy logic

Разрабатывать новейшие технологии и развивать банковскую информационную инфраструктуру, использовать существующие технологии является одной из приоритетных задач современности (4, 143).

Системы искусственного интеллекта - класс программных средств, который представляет наибольший интерес.

Искусственный интеллект свойство интеллектуальных систем выполнять творческие функции; наука и технология создания интеллектуальных машин, особенно интеллектуальных компьютерных программ (1).

В настоящее время существует множество различных технологий искусственного интеллекта. В банковской сфере в основном используются четыре из них: нейронные сети, генетическая оптимизация, нечеткая логика, экспертные системы.

Нейронные сети применяют в тех сферах, где требуется получение оценок и прогнозов, связанных с обработкой больших объемов информации и принятием решений в минимальное время.

Основные преимущества нейронных сетей: возможность моделирования и прогнозирования нелинейных процессов; быстрое обучение и гибкость адаптации к изменениям; способность работать с зашумленными данными.

Эффективность внедрения нейронных сетей в деятельность банка подтверждает актуальность активизации инновационного развития в банковском секторе согласно мировым тенденциям и стратегии цифровой трансформации. В условиях развития цифровой экономики нейросетевые технологии в финансово-экономической деятельности банковского сектора имеют важное значение в принятии управленческих решений.

Нейронные сети находят применение в задачах анализа научных данных, в финансах для оценки клиентов и рисков, прогнозировании показателей биржевого рынка и т.д. Они решают задачи в тех случаях, когда для достижения аналогичных результатов классическими аналитическими методами требуется большее количество ресурсов.

Нейрокомпьютеры это одно из направлений компьютерной индустрии, в основе которого лежит идея создания искусственных интеллектуальных устройств по подобию человеческого мозга. Исследователи занимаются искусственными нейронными сетями не менее 70 лет, но существенный вклад в развитии архитектуры искусственных нейронных сетей был сделан в 2012-2015гг. (5,8). Структура нейронной сети пришла в мир программирования из биологии. Благодаря такой структуре, машина обретает способность анализировать, запоминать и использовать различную информацию для каких-либо целей.

Нейронные сети также способны не только обрабатывать входящую информацию, но и воспроизводить ее из своей памяти. Нейронные сети - технологии, способные обучаться, анализировать полученную информацию и использовать ее для решения поставленных задач. Теория нейронных сетей, как известно, зародилось в 40-е годы прошлого столетия и постоянно развивалась. В пятидесятые и шестидесятые годы группа исследователей, объединив биологические и физиологические подходы, создала первые искусственные нейронные сети. Нейронные сети эффективно используют также для решения таких задач в банковской сфере как оценка платежеспособности клиентов - на входе нейросети подаются данные о клиенте, на выходе - прогнозируемая степень его платежеспособности, предсказания банкротства, оценка риска страхования, предсказания изменения стоимости акций и т.д.

В сфере банковских услуг стремятся применить метод нейронных вычислений. В систему на базе нейронной сети вводится информация объемом в несколько лет, включая стоимость акций, активы, уровень дохода и т.д. Система нейронной сети показывает большую точность прогнозов. Нейросетевые технологии принимают решения основываясь на принимаемых ими скрытых закономерностях многомерных данных, обобщают прежний опыт и применяют его в новых условиях.

Нейронные сети рассматривают как черный ящик с некоторым количеством входов и выходов. При этом значения входных переменных обрабатываются внутри сети и результат отображается на выходах. В процессе обработки входной информации происходит изменение внутренней структуры сети, то есть алгоритма преобразования. Этот называется обучением и отличает нейронные сети от жестких программных систем. В процессе обучения сети предъявляются примеры входных данных, а полученные выходные данные сравниваются с эталонными. Если ответы не совпадают, структура сети меняется так, чтобы уменьшить ошибку. Процесс обучения заканчивается при достижении некоторого приемлемого результата (уровня ошибки). Этот процесс получил название «алгоритм обратного распространения».

Из всего спектра нейросетевых пакетов, предназначенных для решения задач в финансово-кредитной системе, наиболее популярными являются программы Brain Maker Pro (США) и семейство Al Trilogy фирмы WardSystems (США).

К концу 1996 г. в России уже использовалось более 100 экземпляров пакета Brain Maker Pro и около 30 - в банках. Кроме выполнения своей основной функции, финансового прогнозирования, пакет Brain Maker Pro позволяет проводить разностороннюю аналитическую обработку информации. Пакет имеет интерфейс со многими популярными программами, такими, как Excel, Lotus, DBASE. Более дорогостоящим и мощным нейросетевым средством является семейство программных продуктов Al Trilogy.

В последние годы на основе нейронных сетей было разработано много программных систем для применения в таких вопросах, как оценка вероятности банкротства банка, операции на товарном рынке, оценка кредитоспособности, контроль за инвестициями, размещение займов.

Другой технологией искусственного интеллекта является генетическая оптимизация. Генетические алгоритмы - это сравнительно новое направление искусственного интеллекта, использующее механизм биологической эволюции для поиска оптимальных решений. В отличие от традиционных методов оптимизации, генетические алгоритмы позволяют найти не точное, а приемлемое решение для сложных, нелинейных задач большой размерности. Генетический алгоритм - это метод, при котором исследование

абстрактной «поверхности» возможных значений производится одновременно из множества исходных точек. На каждом шаге оптимизации происходит порождение множества точек (новой популяции), соответствующих различным комбинациям значений переменных.

Так как каждое следующее поколение наследует лучшие признаки предыдущего (в данном случае - направления движения в сторону минимальной ошибки с учетом периодических мутаций), в конечном итоге получают некоторое подмножество точек, для которых отклонение от целевой функции минимально. Генетический алгоритм оптимизации является множественно-вероятностным, т.е. позволяет находить множество значений, приблизительно соответствующих искомому условию. В настоящее время существует несколько программных продуктов, эффективно реализующих генетические алгоритмы. Наиболее популярными из них с точки зрения применения в финансово-кредитной сфере являются продукты Evolver (Pa-lisade Co., США), GeneHunter (Ward Systems, США), Omega (KIQ and CAP, США). Первые два реализованы в виде надстроек к ППП Excel и написаны на языке Visual Basic for aplikations (VBA). Оба продукта схожи по своим функциональным возможностям. Среди инструментальных систем выделяют библиотеки Си-текстов США Германия а также генетический конструктор США состоящий из специальной оболочки библиотек и исходных модулей.

Использование генетических алгоритмов в финансово-кредитной сфере - новое малоизученное направление требующее дальнейших исследований. Успешность получения решений здесь зависит от первоначально выбранной схемы популяции, при этом не существует каких-либо научно обоснованных рекомендаций. Не менее актуальной является проблема выбора оптимального критерия мутаций. В этой связи использование данной технологии требует разумной осторожности и дальнейших исследований.

Нечеткая логика возникла в середине 60-х гг. как средство формализации качественных знаний и понятий, выраженных на естественном языке. В основе данного направления лежит теория нечетких множеств, изложенная в работах известного азербайджанского ученого, Лютфи Заде. Основным понятием нечеткой логики является лингвистическая (нечеткая) переменная, значениями которой могут быть не только числа, но и слова или предложения естественного либо искусственного языка.

Системы искусственного интеллекта, базирующиеся на нечеткой логике, обладают лучшей адаптируемостью к условиям реального мира и более доступны специалистам, которые при решении задач оперируют качественными понятиями. Другое достоинство подобных систем - возможность работы с нечеткими критериями и неполными данными часто встречающимися при решении задач в финансовой сфере. Анализ показывает, что нечеткая логика применяется при оценке рисков, прогнозировании рынков на краткосрочном интервале, в биржевых спекуляциях и т.д. По мнению специалистов, нечеткая логика представляет собой эффективный и перспективный инструмент построения запросов к базам данных. Наиболее известным программным продуктом, реализующим методы нечеткой логики в виде экспертной системы с нечеткими правилами, является пакет CubiCalc (Hyper Logic, США). Исследования показывают, что он широко применяется для ситуационного моделирования в политике, экономике и финансах. Программа CubiCalc может работать как в пакетном, так и в интерактивном режимах. Встроенные средства проектирования позволяют редактировать нечеткие правила в исходном тексте (подобие языка Си) и в графическом представлении. Пакет обладает развитым интерфейсом и может использоваться в составе сложных программных

комплексов, обмениваясь данными по протоколу Windows DDE. Существует версия CubiCalc 2.0 RTS, позволяющая оформлять решенную задачу в виде сгенерированного исходного кода на языке Си. Однако наибольшей популярностью в финансово кредитной сфере пользуется другая разработка - продукт FuziCalc (Fuzi Ware, США). Этот пакет представляет собой табличный процессор, который позволяет производить вычисления с неточно известными числами. Среди других разработок в этой области можно отметить инструментальные системы для разработки продуктов на базе нечеткой логики: Fuzzy TECH (Inform Software, США) и SieFuzzy (Siemens, Германия).

Экспертные системы - это компьютерные программы, использующие формализованные знания специалистов для решения задач в некоторой предметной области. В отличие от других технологий искусственного интеллекта данная является наиболее исследованной, как в теоретическом , так и в практическом аспектах. Обычно экспертная система включает следующие основные компоненты: базу знаний, механизм логического вывода и пользовательский интерфейс. База знаний содержит информацию о предметной области в виде фактов, наблюдений, различных данных и набор правил, использующих эту информацию в процессе принятия решений. В экспертных системах обычно применяются следующие модели формализации знаний либо их комбинации: логические, семантические сети, продукционные и фреймовые. Наибольшее распространение получили экспертные системы, базирующиеся на продукционных моделях, реализованных в виде правил «ЕСЛИ (условие) – ТО (действие)».

Механизм логического вывода является, по сути, интерпретатором; правил, который использует имеющиеся факты для решения проблем. Наиболее известными методами логического вывода являются прямое сцепление (прямой вывод) и обратное сцепление (обратный вывод). В развитых экспертных системах, как правило используются оба метода. Основное преимущество экспертных систем - это возможность пополнения базы знаний новыми правилами и фактами, а также способность объяснять полученные решения. Первые успехи практического применения экспертных систем (в геологии, медицине, технической диагностике) вызвали значительный интерес к их использованию как систем поддержки принятия решений в сфере бизнеса. В настоящее время экспертные системы широко применяются при решении задач в финансово-кредитной сфере, планировании, анализе рисков страховании, консультировании и т.д. Экспертные системы - компьютерные программы, формализующие процесс принятия решений человеком. К достоинствам экспертных систем относят: их превосходство над человеком при решении чрезвычайно сложных проблем; диалоговый режим работы; работу с информацией, содержащей символьные переменные; работу с информацией, содержащей ошибки, за счет использования вероятностных методов исследования; одновременную обработку альтернативных версий; объяснение шагов реализации программы; обоснование решений. Однако реальная эффективность экспертных систем не всегда соответствует возлагаемым им надеждам по следующим причинам: 1) существует множество нерешенных теоретических проблем; 2) технически ограничены возможности современной вычислительной техники 3) персонал банков не готов к работе с экспертными системами.

В последние годы возросло внимание к экспертным системам, позволяющему повысить эффективность управления. В банках экспертные системы применяют для анализа инвестиционных проектов, программы анализа состояния валютного, денежного и фондового рынков, программы анализа кредитоспособности или финансового состояния предприятий и банков.

Внедрение в банковскую деятельность интеллектуальных программ является одним из перспективных направлений совершенствования банковской деятельности. Одним из первых российских банков, где нашли применение технологии искусственного интеллекта является Сбербанк. Использование искусственного интеллекта позволило «Сбербанку» в 2019 году заработать $700 млн., в 2020 году панировалось довести эту сумму до $1 млрд. Применение систем искусственного интеллекта - коренное изменение в клиентском обслуживании и радикальное повышение эффективности работы. В эпоху развития цифровых технологий организациям целесообразно обращать повышенное внимание на IT сферу и внедрять новейшие технологии в свою деятельность для повышения эффективности функционирования (6, 67).

## ЛИТЕРАТУРА

1. Аверкин А.Н., Гаазе-Рапопорт М.Г., Поспелов Д.А. Толковый словарь по искусственному интелллекту. - М.: Радио и связь,1992. - 256 с.
2. Алан Тьюринг. Могут ли машины мыслить? Эврика научный портал.15.06.2006.
3. Девятков В.В. Системы искусственного интеллекта / Гл.ред. И.Б.Федоров - М: Изд.- во МГТУ им. Н.Э. Баумана,2001. - 352 с.
4. Королев Д.М., Королев М.И. Информационные системы в банковском деле. Учебное пособие.2004 г.
5. Уоссермен. Нейрокомпьтерная техника: Теория и практика. Перевод на русский язык. Ю.А.Зуев., В.А.Точенов.1992. - 184 с.
6. Хайкин С.Нейронные сети. Издательство «Вильямс», 2005. 1104 с.

## ПРИМЕНЕНИЕ СИСТЕМ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В БАНКОВСКОЙ СФЕРЕ

***Ахундов Аднан***

## АННОТАЦИЯ

В статье рассматриваются роль и значение технологий искусственного интеллекта в банковской сфере. Из множества различных технологий искусственного интеллекта особое внимание уделяется анализу четырех из них, которые нашли применение в банковской сфере: нейронные сети, генетическая оптимизация, нечеткая логика, экспертные системы.

## BANK SEKTORUNDA SUNİ ZƏKƏ SİSTEMLƏRİNİN TƏTBİQİ

***Axundov Adnan***

## XÜLASƏ

Məqalədə bank sektorunda süni intellekt texnologiyalarının rolu və əhəmiyyəti təhlil edilir. Süni intellektin çoxsaylı müxtəlif texnologiyalarından bank sektorunda tətbiq tapmış dördünün təhlilinə xüsusi diqqət yetirilir: neyron şəbəkələri, genetik optimallaşdırma, qeyri-səlis məntiq, ekspert sistemlərinə.

## APPLICATION OF ARTIFICIAL INTELLIGENCE SYSTEMS IN THE BANKING SECTOR

***Akhundov Adnan***

## SUMMARY

The article discusses the role and importance of artificial intelligence technologies in the banking sector. Of the many different technologies of artificial intelligence, special attention is paid to the analysis of four of them that have found application in the banking sector: neural networks, genetic optimization, fuzzy logic, expert systems.

# QLOBALLAŞMANIN MAHİYYƏTİ, MÜSBƏT VƏ MƏNFİ TƏRƏFLƏRİ

***Əlişova Səma Rövşən qızı***
***BDU-nun Azərbaycanda siyasi proseslər ixtisasi II kurs magistrantı***
***sema.alisova.95@mail.ru***

***Açar sözlər:*** Qloballaşma, mədəni-ideoloji qloballaşma, informasiya qloballaşması, iqtisadi qloballaşma, siyasi qloballaşma, informasiya bərabərsizliyi
***Ключевые слова:*** Глобализация, культурно-идеологическая глобализация, информационная глобализация, экономическая глобализация, политическая глобализация, информационное неравенство.
***Keywords:*** Globalization, cultural-ideological globalization, information globalization, economic globalization, political globalization, information inequality.

***Qloballaşmanın əsas mahiyyəti:***

Qloballaşma sadə sözlə ifadə etsək özündə iki əsas anlayışı birləşdirir: unifikasiya (“vahidləşmə”) – texniki və elm sahəsində müvafiq standarların qəbulu və tətbiqi; inteqrasiya – cəmiyyətin ayrı ayrı elementləri və hadisələr arasında qarşılıqlı əlaqələrin yaradılması. Bu baxımdan qloballaşmanı ümümdünya iqtisadi, siyasi, mədəni, dini inteqrasiya və unifikasiya prosesi kimi qeyd etmək olar.

“Qloballaşma” terminini ilk dəfə 1983-cü ildə, müxtəlif korporasiyaların istehsal etdiyi fərqli məhsul bazarlarının birləşməsi fenomenini ifadə edən etmək üçün amerikalı alim T. Levit tərəfindən “Harvard Business Review” jurnalında işlənilmişdir. Müasir ədəbiyyatda qloballaşma sahəsində aparılmış tədqiqatların sayının çox olmasına baxmayaraq bu terminə dair bir mənalı izah yoxdur.

Qloballaşma onun inkişaf mərhələlərindən asılı olaraq 4 növə bölünür:

1. **“Mental” və ya mədəni-ideloji qloballaşma** - bəşəriyyətin mədəni tələblərin unifikasiyası nəticəsində formalaşan bir prosesdir. Mədəni-ideoloji qloballaşma özündə dövlətlərin, milli və etnik birliklərin, hərtərəfli və çoxtərəfli mədəni inteqrasiyası, millətlərarası qarşılıqlı əlaqələrin yüksəlməsi və dərinləşməsini əhatə edir. Multikulturalizm və kosmopolitanizmi mədəni qloballaşmanın təzahürü kimi qeyd etmək olar.
2. **İqtisadi qloballaşma** – dövlətlərarası kapital, texnologiya, xidmət və məhsul hərəkətinin sürətlənməsi və həcminin artması nəticəsində milli iqtisadiyyatlar arasında iqtisadi asılığın artması ilə xarakterizə edən prosesdir. İqtisadi qloballaşma özündə iki prosesi birləşdirir: dünya bazarlarının (kapital, əmək ehtiyatları, məhsul və xidmətlər bazarı) qloballaşması və iqtisadi subyektlərin (firmaların, şirkətlərin, iqtisadi birliklərin və s.) qloballaşması. İqtisadi qloballaşma prosesləri iqtisadi subyektlərin qlobal bazarda inhisarçılıq tendensiyaların yaranması ilə bağlı olaraq transmilli şirkətlərin və bankların formalaşması ilə xarakterizə edilir.
3. **İnformasiya - kommunikasiya qloballaşması** – müasir infromasiya texnologiyaların inkişafı ilə dövlətlər arası inteqrasiya prosesləri informasiyaya çıxışın artması və yeni informasiya cəmiyyətin formalaşmasını ehtiva edir. İnfromasiya texnologiyaların inkişafı ümümdünya informasiya mübadiləsinin sürətlənməsi və avtomatlaşdırmanın yayılmasına səbəb olmuşdur ki, bu da dövlətlər arası mövcud olan məsafə, informasiyanın ötürülməsi və digər əngəlləri aradan qaldırmışdır.
4. **Siyasi qloballaşma** – dövlət və dövlətlərüstü təşkilatların fomalaşması və yayılması proseslərini əhatə edir. Siyasi (Aİ, İttifaq dövləti (Rusiya və Belarus və s.), hərbi (NATO, KTM

və s.) və iqtisadi (AB, NAFTA, Avrasiya Birliyi və sair) ittifaqların və blokların yaradılması ilə səciyyələnir.

Qeyd etmək lazımdır ki, yuxarıda qeyd edilmiş qloballaşma növləri arasında sıx əlaqə mövcuddur və təcrübədə bu proseslər əsasən qarışıq formada həyata keçir. Məsələn infromasiya-kommunikasiya qloballaşması çərçivəsində infromasiya axınlarının sürətlənməsi nəticəsində iqtisadi qloballaşmanının sürətlənməsi müşahidə olunur. Belə ki, infromasiya qloballaşması iqtisadi tranzaksiya xərclərinin azaldılması nəticəsində beynəlxalq ticarəti təşviq edir. Daha ucuz və daha sürətli informasiya mübadiləsi beynəlxalq ticarətdə yeni "informasiya" məhsullarının və xidmətlərin ticarətinə səbəb olmuşdur. Bunlar sırasında electron birja xidmətləri, elektron hərraclar, elektron kargüzarlıq, distant təhsil və s. xidmət növlərini qeyd etmək olar.

Ötən əsrin sonlarından qloballaşma proseslərinin güclənməsi fonunda eyni zamanda bu proseslərə əks olan antiqlobalistik ictimai birliklərin formalaşması başlanılmışdır. Antiqlobalistik ictimai birliklərin formalaşmasının əsas səbəbləri qloballaşma proseslərinin mənfi nəticələrinin yaranması ilə əlaqədar olmuşdur. Bu mənfi nəticələr əsasən iqtisadi qloballaşma nəticəsində dünyada hökm sürən iqtisadi bərabərsizlik, iqtisadi böhranların dövlətlərarası daha sürətlə yayılması və s. qeyd etmək olar.

***Qloballaşmanın müsbət və mənfi tərəfləri:***

Qloballaşma proseslərinin müsbət və mənfi tərəfləri onun növlərinin ayrı-ayrı sosial-siyasi-iqtisad proseslərə aid olduğundan hər bir qloballaşma prosesi növü üzrə qeyd etməyə əsas verir.

Mədəni–ideoloji qloballaşmanın əsas müsbət tərəfi dövlətlərarası infromasiya mübadiləsi vasitəsilə milli mədəni irsin zəngilləşdirilməsidir. Digər millətlərin mədəni irslərin mənisənilməsi ölkədə tolerantlığın artması, müasir işgüzar əlaqələrin genişlənməsi və dünya ictimaiyyətinə inteqrasiyanı gücləndirir. Bunun nəticəsi olaraq ölkədə multikultural dəyərlər formalaşır. Bununla belə mədəni-ideoloji qloballaşmanın həmçinin mənfi tərfləridə mövcuddur. Bu mənfi tərəflərdən biri qlobal mədəni irsin mənimsənilməsi ilə milli mədəniyyətin bəzi elementlərinin itirilməsidir (xüsusu ilədə bu proses daha çox "qərb" mədəni elementlərinin mənimsənilməsi prosesində özünü birüzə verir). Mədəni-ideoloji qloballaşmanın nəticəsi olaraq mədəni təcrid problemləri yaranmışdır. Bu proses əsasən ölkələr tərəfindən özünə təcrid formasında həyata keçirilərək daxili və xarici düşmənlərə qarşı yönəlmişdir. Mədəni təcridin başlanğıcı kimi millətçi hərakatların formalaşması, mədəni fundamentalizm, avtoritar rejimlərin hakimiyyətləri və s. qeyd etmək lazımdır [9].

İqtisadi qloballaşma prosesinin əsas müsbət tərəflərinə aiddir:

- Dünya bazarlarındakı rəqabətin yüksəlməsi və ölkələrarası məhsul və xidmət istehsalı üzrə onların iqtisadi mütləq və nisbi üstünlükləri nəzərə alınmaqla daha ucuz mal və xidmətlərin istehsalı və ticarəti
- Məhsul və xidmətlərin mövcudluğunun artması
- Kapitala və məhsullara çıxış imkanlarının sadələşməsi
- Rəqəbət mühitinin möhkəmlənməsi ilə ölklər üzrə iqtisadi dayanıqlığın yüksəlməsi
- İstehsalçılar öz bazarları şaxələndirə və iqtisadi artıma tövhə verə bilər

Iqtisadi qloballaşma prosesinin əsas mənfi tərəflərinə aiddir:

- Bəzi ölkələr sərt rəqabət mühitinə tab gətirə bilmir və nəticə etibarı ilə onların iqtisadiyyatlarında tənəzzül baş verir.
- Resursla zəngin ölkələrdə transmilli şirkət və bankların investor qismində iştirakı ölkədə iqtisadi şaxələndirməni ləngidə bilər.
- Transmilli şirkətlər və bankların gücləri (iqtisadi və siyasi gücü) ilə hökümətlərin gücündən daha çox ola bilər ki bu da müəyyən mənada milli təhlükəsizlik məsələlərini qabardır

- Dünya bazarındaki iqtisadi böhranlar iqtisadi inteqrasiyanın güclənməsi ilə ölkələr arasında daha tez yayılmağa başlayır. Bir çox vaxtlarda ölkələr iqtisadi böhranların mənfi nəticələrini "idxal" edirlər ki, bu da ölkə iqtisadiyyatına mənfi təsir göstərir.

Siyasi qloballaşmanın əsas müsbət tərəflərinə aiddir:

- Beynəlxalq maliyyə yardımlarına və kreditləşmə imkanlarına çıxışı təmin edir. Bir çox beynəlxalq təşkilatlar (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və s.) ölkələrə əhəmiyyətli sosial və iqtisadi layihələrin maliyyləşdirilməsi üçün qrantlar, kreditlər və s. ayırırlar ki, bu da ölkədə icra olunan sosial və iqtisadi layihələrin icrasına töhvə verir. Bu proseslər həmçinin müvafiq iqtisadi və siyasi bloklar (MDB, Aİ, Avrasiya Birliyi, ASEAN və s.) çərçivəsində də həyata keçirilir.
- Siyasi, iqtisadi və hərbi blokların yaradılması məhudlaşdırıcı effekt yaradır ki, bu da dünyada sülhün saxlanmasına töhvə verir. Bu bloklar işğalçılıq, siyasi-hərbi güclərin yenidən balanslaşmasına və milliyətçiliyin məhdudlaşdırılmasını təmin edir.
- Beynəlxalq təşkilatlar üzv ölkələrdə insan və vətəndaşlıq azadlıqlarının təmin edilməsində, korrupsiya mübarizə səylərinin gücləndirilməsinə tövhə verir və iqtisadi, sosial siyasətin həyata keçirilməsində müvafiq tövsiyyələr təqdim edirlər
- Siyasi qloballaşma ölkələrarası təcrübə mübadiləsinin genişlənməsinə təkan verir

Siyasi qloballaşmanın əsas mənfi tərəflərinə aiddir:

- Dövlətin suverenliyi müəyyən dərəcədə azalır
- Bəzi beynəlxalq və dövlətlərüstü təşkilatların fəaliyyəti şəffaflıq və hesabatlılıq baxımından sual doğurur
- Dövlətlərüstü təşkilatlarda iri dövlətlərin müvafiq siyasi, iqtisadi və hərbi qərarların qəbulunda hegemonluğu müşahidə edilir
- Bəzi təşkilatlarda bir sıra əsas üzvlərin müvafiq qərarların qəbuluna veto hüququ verilir ki, bu da müvafiq qərarların qəbulu prsosesinin demokratik olmağına əngəl törədir və qərarların qəbulu prosesiniləngidir.
- Beynəlxalq və dövlətlərüstü təşkilatlar tərəfindən qəbul edilən qərarlar üzv dövlətlərin milli maraqlarına zidd ola bilər.

İnformasiya-kommunikasiya qloballaşmanın əsas müsbət tərəflərinə aiddir:

- Beynəlxalq əlaqələrin intensivləşməsi ilə iqtisadi, elm, təhsil və mədəni əməkdaşlığın genişlənməsi baş verir.
- Beynəlxalq əmək bölgüsünü daha da dərinləşir və inkişafda olan və kasıb ölkələrdə əməyə çıxış imkanları genişlənir. Bu proses daha çox Hindistan kimi ölkələrdə özünü göstərir. Yeni sahələrin formalaşması ilə (bulud texnologiyalar və s.) yeni iş yerləri formalaşır.
- Distant təhsilin yayılması, "açıq" və virtual təhsilin inkişafı ilə dünyanın qabaqcıl təhsil standartlarına cavab verən təhsilə çıxış imkanları genişlənir. Bu proseslər bir neçə təhsil müəssisəsində təhsil almağa, habelə fərdi təhsil prinsipinin reallaşmasına imkan yaradır.
- Təhsil imkanlarının genişlənməsi həmçinin dünyada insan kapitalının inkişafına və iqtisdi artıma töhvə verir.
- Beynəlxalq ticarətdə, kapital axınları zamanı tranzaksiya xərclərini (işgüzar dünyada – ezamiyyə xərcləri, sazişlərin və müqavilələrin bağlanması xərcləri və s.) azaldır.

İnformasiya-kommunikasiya qloballaşmanın əsas mənfi tərəflərinə aiddir:

- Qloballaşan dünyada informasiya bərabərsizliyi fenomeni yaranmışdır. Bu bərabərsizlik həm insanlar, həm də regionlar və dövlətlər arasında yaranmışdır. Problemin mühümlüyü nəzərə alınaraq 2000-ci ildə bu problemin həlli istiqamətində "böyük səkkizliyin" görüşündə Okinava xartiyası qəbul edilmişdir. Xartiyanın qəbulundan 20 ildən çox keçdiyinə baxmayaraq hələ də

dünyada informasiya bərbərsizliyi qalmışdır. Belə ki, 2019-cu ilə internet istifadəçilərin ümumi əhalidə payı inkişaf etmiş ölkələrdə 87%, inkişaf etməkdə olan ölkələrdə isə 47% - dir [10]. Bu bərabərsizlik regional səviyyədə daha çox qabarır. Avropadaki bu göstərici Afrika üzrə göstəricidən 3 dəfə çoxdur. İnfromasiya bərabərsizliyi təhsilə çıxışı, məşğulluğa, maliyyə ehtiyyatlarına çıxışına və gender bərabərliyinə mənfi göstərir.

- Informasiya təhlükəsizliyin təmin edilməsi problemləri. İnformasiya-kommunikasiya qloballaşma prosesi özündə informasiya ehtiyyatların təhlükəsizliyi, fərdi məlumatların qorunması, kibertəhlükəsizliyin və s. problemləri formalaşmışdır.
- İnfromasiya məkanında inteqrasiya proseslərinin yüksəlməsi lazımsız informasiya və informasiya assimetriyası problemlərini yaratmışdır. Bunun nəticəsi olaraq informasiya istifadəçilərin yalnış qərarların verilməsi və bəzi hallarda bu qərarların milli iqtisadiyyatlarda böhranların yaranmasına gətirib çıxarmışdır.

Beləliklə, bu gün qloballaşma haqqında müxtəlif uzlaşmazlıqlar olsa da, onun zəruriliyi və qaçılmazlığı da bir həqiqətdir. Zəruridir, ona görə ki, dünyada kapital və işçi qüvvəsindən istifadədə, başqa sözlə, mal və xidmətlərin istehsalında səmərəliliyi artırır, qaçılmzdır, ona görə ki, qlobal proses olduğundan heç bir ölkə ondan kənarda qala bilmir. Ancaq o da həqiqətdir ki, bu gün qloballaşmanın dayanıqlı, humanist və ədalətli prosesə çevrilməsi naminə qlobal əməkdaşlığa daha çox ehtiyac vardır.

## ƏDƏBİYYAT


1. A.N.Abbasbəyli: “Müasir beynəlxalq münasibətlər və qloballaşma”, Bakı 2017,165s.
2. A.Şükürov “Qloballaşmış cəmiyyətlər dünən, bu gün sabah”, Bakı 2006, 191 s.
3. A.Şükürov “Qlobllaşma: mahiyyəti və perspektivləri”, Bakı, 2002
4. N.Sabiroğlu “Qloballaşma və xarici investisiyalar”, Bakı 2006, 288 s.
5. R.Aslanova “Qloballaşma və mədəni müxtəliflik” Bakı 2004, 263 s.
6. "Measuring digital development: Facts and figures 2019". Telecommunication Development Bureau, International Telecommunication Union (ITU). Retrieved 28 February 2020.
7. Василенко И.А. “Политическая глобалистика.” Москва, 2003
8. Глебов Г. И., Милаева О. В. “Современные международные отношения.” Учебное пособие. — Пенза: Изд. Пенз. гос. ун-та, 2010. — 98 с.
9. Гревцева А.А. 2008. “Культурная глобализация: проблемы и парадигмы.” – Известия Российского педагогического университета им. А. Герцена. Вып. 70. С. 145-149.
10. http://spkurdyumov.ru/globalization/informacionnaya-globalizaciya-obshhestva/


## QLOBALLAŞMANIN MAHİYYƏTİ, MÜSBƏT VƏ MƏNFİ TƏRƏFLƏRİ

***Əlişova Səma***


### XÜLASƏ

Məqalə ötən əsrin sonlarında cərəyan edən qloballaşma proseslərinin, onun mahiyyəti və növləri, habelə müsbət və mənfi tərəflərinə həsr olunmuşdur.

BMT-nin sənədlərində qloballaşma prosesi bəşəriyyət tarixində qaçılmaz bir hadisə kimi təsvir olunmuşdur. Qloballaşma dünyada məhsul və xidmətlərin, infromasiyanın, bilik və mədəni

dəyərlərin mübadiləsi nəticəsində formalaşan prosesdir. Son illərdə qloballaşma prosesi texnologiyanın, elmin, rabitə, nəqliyyat və sənaye sahələrinin inkişafı hesabına sürətlənmişdir.

Qloballaşmanın dünyanın iqtisadi-sosial inkişafında böyük rol oynamasına baxmayaraq, mürəkkəb bir proses kimi təsvir etmək olar. Bu proses sosial-iqtisadi inkişafla yanaşı iqtisadi geriləməyə, sosial deqradasiyaya səbəb ola bilər. Buna müvafiq olaraq bəzi mütəxəssis və ekspertlər hesab edirlər ki, bu proses gələcəkdə bəşəriyyətin inkişafı üçün faydalıdır və qaçılmazdır, digər mütəxəssislər isə bu prosesə skeptik yanaşırlar və hesab edirlər ki, qloballaşma həm ölkə hüdüdlarında, həm də ölkələrarasında bərabərsizliyə, işsizliyin artmasına və sosial inkişafın məhdudlaşmasına səbəb olur.

## СУШНОСТЬ ГЛОБАЛИЗАЦИИ, ПОЛОЖИТЕЛЬНЫЕ И ОТРИЦАТЕЛЬНЫЕ СТОРОНЫ

***Алишова Сяма***

**АННОЕФЦИЯ**

Статья посвященапроцессу глобализации сформировавшиеся в начале прошлого века, его сущности и видам, а также отрицательным и положительным сторонам.

В документах ООН процесс глобализации характеризуется как неизбежное явление в истории человечества. Глобализация это процесс формирующийся в результате обмена товарами и услугами, информацией, знаниями и культурными ценностями. В последние годы за счёт развития технологии, науки, сфер связи, транспорта и промышленности процесс глобализации ускорился.

Несмотря на большую роль глобализации в социально-экономическом развитии, его можно охарактеризовать как сложный процесс. Данный процесс вместе с социально-экономическим развитием может быть причиной экономическому отставанию,социальной деградации. В связи с этим некоторые специалисты и эксперты считают, что в будущем этот процесс для развития человечества будет полезен и неизбежен, другие же специалисты относятся к данному процессу скептически и считают, что данный процесс приводит как и в рамках страны, так и между странами к неравенству, росту безработицы и ограничению социального развития.

## NATURE OF GLOBALIZATION, POSITIVE AND NEGATIVE ASPECTS

***Alishova Sema***

**SUMMARY**

The article is devoted to the process of globalization formed at the beginning of the last century, its nature and types, as well as negative and positive aspects.

The UN documents describe the process of globalization as an inevitable phenomenon in the history of humanity. Globalization is a process formed because of the exchange of goods and services, information, knowledge and cultural values. In recent years, due to the development of technology, science, communications, transport and industry, the process of globalization has accelerated.

Despite the great role of globalization in the socio-economic development, it can be described as a complex process. This process, together with socio-economic development, can be the cause of economic slowdown, social degradation. In this regard, some specialists and experts believe that in the future this process would be useful and inevitable for the development of humanity, while other experts are skeptical about this process and believe that this process leadswithin the country and between countries to inequality, increasing unemployment and limiting social development.

# TURİZM BAZARINDA QİYMƏT MEXANİZMİNİN FORMALAŞMASI ÜSULLARI

***Hüseynova Lamiyə Müşfiq qızı***
***BDU-nun I kurs magistrantı***
***lamiyehva@bk.ru***

***Açar sözlər:*** beynəlxalq turizm, turist, gəlir, qiymət əmələgəlmə.
***Ключевые слова:*** международный туризм, турист, доход, ценообразование.
***Keywords:*** international tourism, tourist, income, price formation.

"Turizm bazarı" turizm sektoruna uyğun olaraq tələb və təklif arasında tarazlıq yaradan ictimai və iqtisadi bir proses olmaqla yanaşı eyni zamanda, turizm mallarının alış-verişini təmin edən bir hadisədir. Müasir turizm bazarı otən əsrin 60-cı illərində iki əsas bazarın yaranmasından sonra meydana gəlmişdir. Sosialist ölkələrin bazarları və kapitalist ölkələrin bazarları. Digər ictimai və iqtisadi bazarlardan fərqli olmayaraq turizm bazarı da həmçinin, bazarın iştirakçılarını müəyyən edir. Sual yaranır, bazar iştirakçıları kimlərdir? Məhsulu bazara təqdim edənlər, yəni məhsulu bazarda satanlar və eyni zamanda məhsulu təqdim edənlərin rəqibləri, yəni təqdim olunan məhsula rəqib olaraq təqdim olunan məhsulun istehsalçıları və ya satanları, bundan əlavə olaraq, təqdim olunan məhsulu tələb edənlər, yəni alıcılar, bazarın iştirakçıları arasında münasibətlərin formalaşmasında mühüm rol oynayan vasitəçilər, bazara daxil olan və təklif olunan turizm məhsulları və son olaraq kifayət qədər önəmli məqamlardan biri olan bazarın fəaliyyət şərtləri, hər biri bazar iştirakçıları hesab olunur. Başqa sözlə desək dörd əsas elementin (tələb, təklif, qiymət rəqabət) qarşılıqlı iqtisadi əlaqələr sistemidir [1, səh. 119].

Turizm bazarı normal inkişaf edən ölkələrdə turizmin özü də daim inkişafda olur. Bazarın normal fəaliyyətini həyata keçirmək üçün isə bir sıra şərtlərin olması vacib hesab edilir.Bunlar aşağıdakılardır:

1. Müxtəlif istehsalçılar arasında azad rəqabət üçün münbit şərait olmalıdır;
2. İstehsalçı şirkətlərə məhsul istehsalı üçün eyni şərait yaradılmalıdır;
3. Hər bir alıcının öz istədiyi məhsulu sərbəst şəkildə seçmək imkanı olmalıdır;
4. İstehsalçı tərəfindən hazırlanan məhsulun tam təhlükəsizliyi təmin olunmalıdır.

Bu gün turizm bazarının təkmilləşdirilməsi və ya daha da inkişaf etdirilməsi üçün bəzi turizm mütəxəssisləri müxtəlif yollar və ya şərtlər irəli sürürlər. Onlardan dörd ən vacib olanlarını qeyd etmək lazımdır. Ən vacib şərtlərdən biri, məhsulu istehsal edən istehsalçıların hər biri üçün bərabər şəraitin yaradılmasıdır. İkinci ən əsas şərtlərdən biri isə, azad rəqabət meyarıdır. Azad rəqabət olan bazarlarda istehsalçıların biri-birilə bərabər şəkildə rəqabət apara bilməsi turizm bazarının normal işləməsi üçün çox əlverişli şərait yaradır. Şərtlərdən üçüncüsü isə, alıcıların seçə bilmək imkanının mövcud olması və sonuncu mühüm şərt bazara təqdim olunan məhsulların təhlükəsizliyinin təmin olunmasıdır. Yuxarıda qeyd etdiyimiz bu dörd əsas şərt turizm bazarında təmin olunarsa, o zaman bazarın normal işlədiyini görə bilərik. Qısa olaraq onu deyə bilərik ki, azad rəqabət, istehsalçılar üçün bərabər şəraitin yaradılması, istehsal olunan məshullarının təhlükəsizliyinin təmin olunması ilə yanaşı, alıcıların seçə bilmək imkanının mövcud olması, turizm bazarının normal işləməsi və daha da inkişaf etməsi üçün ən əsas prinsiplər hesab olunur.

Dünyanın hər yerində olduğu kimi, turizm məhsullarının satışı qarşılıqlı razılaşdırılmış müqavilələrlə həyata keçirilir. Turizm bazarının əsas iştirakçıları əlbəttə ki, turistlər hesab olunur. İtaliya, İspaniya, Fransa kimi nəhəng turizm ölkələri bugün dünya turizm bazarında kifayət qədər önəmli rol oynayırlar. Çünki, bu kimi ölkələrdə turizm sektoru sistemli şəkildə

inkişaf edib. Bəhs etdiyimiz müqavilələrə dayanan turizm bazarı ölkənin aparıcı sahələrindən hesab olunur. Bu kimi ölkələrdə, daxili turistlərdən əlavə olaraq, xarici turistlərin də kifayət qədər ölkəyə axını turizm bazarının həcminin böyüməsinə, bu da öz növbəsində turizm sektorunun daha da inkişaf etməsinə gətirib çıxarır. Digər ölkələrə səyahət etməyi düşünən turistlər səyahətin şərtləri və qiymətləri ilə müqaviləyə əsasən razılaşdırılmış putyovkada tanış olurlar. Buradan o qənaətə gəlmək olur ki, haqqında bəhs etdiyimiz putyovka, tərəflər arasındakı müqavilənin ayrılmaz bir tərkib hissəsi hesab oluna bilər.

Qiymət və qiymət mexanizmi ilə bütün iş prosesi öz başlama nöqtəsindən sonuna qədər firmanın inkişafında müəyyən missiya və inkişaf xəttinə malikdir və onun praktiki realizasiyasında qiymətin formalaşdırılması və tədbiqindəki hər bir fəaliyyət hər şeydən öncə müəssisənin strateji xətti, onun bazardakı fəaliyyəti çərcivəsində məruz qaldığı bütün dəyişikliklər ilə uzlaşdırılır. Eyni zamanda qiymət siyasəti, qiymət mexanizmi şirkətin fəaliyyətində mühüm rol oynayır və strateji inkişafı baxımından əsas məqamlardan biridir. Qiymət mexanizmi bazar tədqiqat kompleksinin ən vacib elementidir. Bu, idarə olunan bir qrupa aiddir və gəlirləri müəyyən edən əsas göstəricidir. Qiymət mexanizmi istehlakçı qərarlarının verilməsində vacib amillərdən biri olub və olaraq qalır. Lakin son zamanlar rəqabətin qeyri-qiymət faktorları da, sürətlə inkişaf edir. Lakin, buna baxmayaraq qiymət mexanizmi rəqabət siyasətində ənənəvi əhəmiyyətini saxlayır və bazardakı vəziyyətə o cümlədən turizmin gəlirliliyinə böyük təsir etməkdə davam edir.

Lakin, buna baxmayaraq turizm sahəsində fəaliyyət göstərən bir çox şirkətin qiymət mexanizmi siyasəti kifayət qədər ixtisaslaşdırılmış olmur. Bir çox hallarda növbəti səhvlərə rast gəlinir:

1. Qiymət siyasətinin həddindən artıq xərclərə yönəlik olması;
2. Qiymətlərin dəyişən bazar vəziyyətinə zəif uyğunlaşması;
3. Qiymətin marketinqin digər elementləri ilə yanaşı istifadə olunmaması;
4. Qiymətlər müxtəlif məhsul növləri və bazar seqmentləri üçün kifayət qədər strukturlaşdırılmış olmur.

Bazar şəraitində qiymət formalaşması bir çox faktorların təsirinə məruz qalan qəliz prosesdir. Qiymət formalaşmasında ümumi istiqamətin seçilməsi , mövud və yeni məhsullar və xidmətlər üzrə qiymət təyin olunmasında əsas yanaşmaların seçilməsi, istehsalın artırılması və müəssisənin bazardakı mövcud mövqeyin saxlanılması marketinq vasitəsilə təmin olunur. Qiymət mexanizmi və qiymət siyasəti müəssisənin marketinqinin əsas tərkib hissələrindən biridir. Qiymət müəssisələrin digər fəaliyyət istiqamətlərindən asılıdır və kommersiya nəticələrinin əldə olunmasında qiymət səviyyəsi əhəmiyyətli rol oynayır. Düzgün olmayan qiymət siyasəti müəssisənin fəaliyyətinə çox yönlü təsir edir. Məqsədyönlü qiymət siyasətinin məğzi məhsula düzgün qiymət qoyulması, onun mümkün olan maksimum payını əldə edə bilmək, qiymətlərin bazardakı vəziyyətə uyğun dəyişdirilə bilməsi, planlaşdırılmış gəlir həcminə nail olmaq və bütün strateji və taktiki məsələləri uğurla həll etməkdən ibarətdir. Qiymət siyasəti çərçivəsində fərdi həllər (çeşidlər çərçivəsində məhsullar üzrə qiymətlərin qarşılıqlı əlaqəsi, endirimlərdən istifadə edilməsi, qiymətlərin dəyişdirilməsi, öz və rəqiblərinin qiymətləri ilə optimal əlaqənin qurulması, yeni məhsullara qiymətlərin qoyulması və sair) qiyməti vahid inteqrasiya olunmuş bir sistemlə əlaqələndirilir [2, web].

Hər bir müəssisə qiymət formalaşdırılmasına özünə məxsus şəkildə yanaşır. Kiçik müəssisələrdə qiymətlər adətən müəssisə rəhbərliyi tərəfindən təyin olunur. Böyük turizm müəssisələrində qiymət problemləri adətən orta səviyyəli menecerlər tərəfindən idarə olunur. Lakin, hətta bu müəssisələrdə belə üst rəhbərlik ümumi tənzimləmələr verir, qiymət siyasətinin məqsədlərini təşkil edir, aşağı səviyyəli liderlərin təklif etdiyi qiymətləri təsdiqləyir. Qiymət

formalaşması faktorlarının həlledici rol oynadığı belə turizm müəssisələri adətən qiymət siyasəti ilə birbaşa məşğul olan və ya digər bölmələrə bu işdə köməklik göstərən bölmələr yaradır. Qiymət siyasətinə satış menecerləri, istehsal menecerləri, maliyyə menecerləri, mühasiblər də çox təsir edə bilirlər.

Müəssisə tərəfindən istehsal olunan məhsulların (istənilən növ sahibkarlıq fəaliyyəti ilə) səmərəliliyi bazarda, onun realizasiyası hesabına test edilir. Məhsulun sərfəli olub-olmaması, istehlakçıya lazımlı olub-olmaması bazar tərəfindən və istehsal hesabına təsdiq edilir. Müəssisənin istehsal üçün qəbul etdiyi qiymət, nəticədir. Qiymətlərin formalaşması bazarda satılacaq məhsulun qiymətini qəbul etməzdən əvvəl nəzərə alınmalı olan bir çox amillərdən asılıdır.

Beləliklə, qiymətin təyin olunmasına sadə hesablama göstəricisi kimi yanaşmaq düzgün deyildir. Müəyyən bir sistemdə və şəraitdə olan qiymət, ona birbaşa və ya dolayısı ilə təsir edən bütün amillərin nəzərə alınmasını tələb edir və ona diqqət yetirilməməsi ciddi maliyyə çətinliklərinə səbəb olur. Buna, mənfəət çatışmazlığı, dövlət büdcəsi ilə vergilərə görə ödəmə qabiliyyətinin olmaması və müəssisənin fəaliyyətinin genişləndirilməsinin həyata keçirilə bilməməsi aidir. Bundan əlavə, qiymət başqa bir aspektdən bütövlükdə ölkənin bazar mexanizmi baxımından da nəzərdən keçirilməlidir. Bu xüsusiyyəti ilə qiymət fərdi sahibkarlarla yanaşı, bütövlükdə ölkənin bazar mexanizmi ilə də kəsişir. Bazar cəmiyyətin həyatını tənzimləyən universal vasitələrdən biridir. Normal əmtəə-pul münasibətlərində, bazar iqtisadi inkişafın qanunvericiliyini obyektiv əks etdirən iqtisadi tənzimlənmə sistemi kimi çıxış edir. Buna azad bazarın özünü tənzimlənmə istəyi ilə nail olunur. Əsasında müəyyən qanunlar olan balans sistemi: tələb qanunu (qiymət və tələb arasındakı əlaqəni əks etdirir) və təklif qanunu (qiymət və təchizat arasındakı əlaqəni əks etdirir). Bazar bu qanunlara əsasən inkişaf edən bir sistem kimi, onun üzərində fəaliyyət göstərmək üçün öz şərtlərini diktə edir. Buna görə, əgər fərdi bazar iştirakçıları "qaydalara görə" işləməsə, ölkənin bütün bazar sistemi iqtisadiyyatın tənzimləyicisi ola bilməz (bu qanunların pozulması malların defisitinə və ya ifrat istehsalına səbəb ola bilər).

Turistik məhsulun özünəməxsus bir sıra xüsusiyyətləri, məhsulun quruluşu ilə yanaşı, eyni zamanda onun qiymətləndirilməsində də mühüm rol oynayır. Bundan əlavə olaraq, bir çox daxili və xarici amillər, o cümlədən iqtisadi, siyasi, coğrafi, sosial, inzibati və s. faktorlar, məhsulun qiymət siyasətinin idarə edilməsinə təsir edir. Qısaca olaraq desək, turistik məhsulların qiymət siyasətinə təsir edən bir sıra anilləri aşağıdakı kimi, təsnifatlandıra bilərik :

Xarici amillər

Daxili amillər

Turizm məhsulları çox nadir hallarda eyni olurlar. Çünki, bazarda eyni məhsullarla rəqabətə tab gətirmək qeyri-mümkündür. Doğrudur, bəzi hallarda bu eynilik baş verə bilir. Arzu olunmaz hal olsa da belə, bu eyniliklər əsasən məhsul istehlak olunduğu yerlərlə bağlı olur. Amma,bütün bunlardan əlavə olaraq onu deyə bilərik ki, turizm sektorunda aparılan qiymət siyasəti, turizm biznesini və müəssisənin təmsil olunduğu bazardakı market payını inanılmaz dərəcədə artırmağa şərait yarada bilər. Göründüyü kimi, təmsil olunan müəssisənin bazardakı mövqeyi onun təklif etdiyi məhsuldan və məhsulu üçün təyin etdiyi qiymətdən asılıdır. Ona görə də bizim əsas məqsədimiz, müəssisənin öz məhsulunun qiymətlərini müəyyən etməkdən ötrü ona kömək etmək deyil. Ən əsas məsələ, daha çox qiymət siyasətinin tərkibini, müxtəlif qiymət növlərini və tələbatı stimullaşdırmaq yollarını öyrənməkdir.

Müəssisələr tərəfindən qiymət siyasətini təyin edərkən nəzərə alınmalı olan vacib məsələlər aşağıdakılardır:

1.Müəssisənin istehsal etdiyi turizm məhsulu nə dərəcədə unikaldır? Məhsul nə qədər unikladırsa, firmanin qiyməti dəyişdirə bilmə qabiliyyəti o qədər çox olmalıdır.

2.Müəssisənin təcrübəsində əlavə,dəyərli xidmətlər varmı?

3.İstehsalçı hansı bazarı cəlb etmək və hansı bazarda öz mövqeyini yaratmaq istəyir?

4.Əməliyyat xərcləri hansılardır? Bunlara sabit və dəyişən xərclər aid edilir.

5.Bir çox turizm müəssisələri üçün qiymət təyin etmə və qiymət siyasəti bazara əsaslanmış olacaqdır. Buna görə də turizm müəssisəsi bazarda rəqiblərin oxşar məhsullar və xidmətlərə nə etdiyini öyrənməli, öz maliyyə vəziyyətindən xəbərdar olmalıdır (borc səviyyəsi, pul vəsaitlərinin miqdarı və s.) Bazarda ideal olmağın sirri, məhsulun qiymətinə görə deyil, təklif olunan məhsulun keyfiyyətindədir. Çünki, keyfiyyətli məhsul, hər zaman digər məhsulları bazardan sıxışdıraraq çıxara bilir.

## ƏDƏBİYYAT

1. “Beynəlxalq turizmin coğrafiyası” – C.A. Məmmədov, H.B. Soltanova, S.H. Rəhimov, Bakı, 2002
2. http://www.hurriyet.com.tr/ucak-krizinin-yildonumunde-rus-turist-kaybi-yuz-40285807
3.“Стратегический менеджмент в туризме: современный опыт управления”– В.А.Квартальнов, Москва, 1997.

## TURİZM BAZARINDA QİYMƏT MEXANIZMİNİN FORMALAŞMASI ÜSULLARI

***Hüseynova Lamiyə***

## XÜLASƏ

Turizm dünya iqtisadi fəaliyyətinin mühüm sahəsi olmaqla yanaşı, mədəni inkişafa və müxtəlif ölkələr arasında sülhün daha da möhkəmlənməsinə müsbət təsir göstərən ən mühüm amillərdən biridir. Sülh və turizm bir-biri ilə sıx əlaqəli anlayışlar hesab olunur. Çünki sülh olmadan heç bir turizm tədbiri baş tuta bilməz. Bununla belə, turizmə təkcə dövlətlər arasında mədəni əlaqələrin inkişafı kimi deyil, həm də iqtisadi əməkdaşlıq forması kimi baxmaq lazımdır.

## ВЛИЯНИЕ МЕЖДУНАРОДНОГО ТУРИЗМА НА ПРОЦЕСС ЦЕНООБРАЗОВАНИЯ

***Гусейнова Ламия***

## АННОТАЦИЯ

Помимо того, что туризм является важной сферой мировой экономической деятельности, он является одним из важнейших факторов, оказывающих положительное влияние на культурное развитие и дальнейшее укрепление мира между разными странами. Мир и туризм считаются тесно связанными понятиями. Потому что без мира не может состояться ни одно туристическое мероприятие. Однако туризм следует рассматривать не только как развитие культурных связей между государствами, но и как форму экономического сотрудничества.

## THE IMPACT OF INTERNATIONAL TOURISM ON THE PRICING PROCESS

***Huseinova Lamiya***

## SUMMARY

In addition to being an important area of world economic activity, tourism is one of the most important factors that have a positive impact on cultural development and the further strengthening of peace between different countries. Peace and tourism are considered to be closely related concepts. Because without peace, no tourism event can take place. However, tourism should be considered not only as the development of cultural ties between states, but also as a form of economic cooperation.

# HÜQUQİ DÖVLƏT QURUCULUĞU VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN BƏRQƏRAR OLUNMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Abdullayev Xəyal İlbar oğlu***
***BDU-nun II kurs magistrantı***
abdullayevxeyal1878@gmail.com

***Açar sözlər:*** Konstitusiya, insan hüquq və azadlıqları, islahatlar, qanun, məhkəmə, məhkəmə sistemi, hakimiyyət
***Ключевые слова:*** Конституция, права и свободы человека, реформы, закон, судебная, судебная система, власть
***Key words:*** Constitution, human rights and freedoms, reforms, the law, judicial, judicial system, government.

1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərpa etmiş, digər quruculuq işləri və islahatlarla yanaşı insan hüquq və azadlıqlarının təmin edilməsinə istiqamətlənmiş hüquqi islahatlar da həyata keçirmişdir. Beləliklə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin əsasının qoyulması üçün əlverişli tarixi şərait yarandı.

Ölkəmizdə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin bərqərar olunması istiqamətində atılmış addımların təməlini Azərbaycan Respublikasının Konstitusiyası təşkil edirdi. Konstitusiyanın qəbul olunmasını şərtləndirən başlıca amillər bunlar idi:

- Konstitusiya çərçivəsində demokratik siyasi sistemin formalaşdırılma-sından doğan zərurət;
- Müstəqillik, suverenlik və ərazi bütövlüyünün qorunmasının hüquqi əsaslarla formalaşdırılmasından doğan zərurət;
- Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu vəzifəsi;
- Milli inkişafın konstitusion əsaslarının yaradılmasından doğan zərurət

Beləliklə, 1995-ci il 12 noyabr tarixində Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Bu konstitusiya ölkəmizin müstəqilliyi bərpa edildikdən sonra qəbul olunmuş ilk konstitusiya idi.

Hüquqi dövlətin əsasında insan hüquq və azadlıqlarının təminatı və müdafiəsi dayanır. Elə bu səbəbdən də, Konstitusiyada insan hüquq və azadlıqlarının təmin olunması dövlətin ən vacib məqsədlərindən biri kimi göstərilərək ön plana çəkilmişdir. Konstitusiyada qeyd olunmuş müddəaların 2/3-si insan hüquq və azadlıqları ilə bağlı idi ki, bu da insan hüquq və azadlıqlarının təmin olunması məsələsinə nə qədər əhəmiyyət verildiyini göstərirdi.

Heydər Əliyev insan hüquq və azadlıqlarının təmin olunması sahəsinə böyük diqqət yetirirdi, bu sahədə bir çox fərman və sərəncamlar da imzalamışdı. Heydər Əliyev 1993-cü ildən icrasına moratorium qoyduğu ölüm hökmünü 1998-ci ilin fevral ayının 10-da tamamilə ləğv etdirmişdi. Bu hadisə məhz dövlətimizin vətəndaşlarının hüquq və azadlıqlarını necə üstün tutduğuna bir sübut idi. Həmin ilin 22 fevral tarixində “İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərman imzalanmışdır və bu fərmanla insan hüquq və azadlıqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır.

İnsan hüquq və azadlıqlarının təminatı sahəsində atılmış addımlardan biri də 1998-ci il 18 iyun tarixli “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”nın qəbul edilməsidir. Həmin ilin avqust ayında BMT və ölkəmiz arasında “İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında” memorandum imzalanmışdır. Memoranduma əsasən, BMT və

Azərbaycan hökuməti insan hüquq və azadlıqlarının dəstəklənməsi və müdafiə olunması, cəmiyyətin inkişafı və digər mühüm sahələrdə birgə tədbirlər həyata keçirmişdir.

Hüquqi islahatlar aparılması məqsədilə Heydər Əliyev 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaratdı və ona özü şəxsən rəhbərlik etməyə başladı. Komissiya tərəfindən "Konstitusiya məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Polis haqqında" və hüquq sahəsinə aid digər qanunlar qəbul edildi.

Hüquqi dövlət quruculuğu sahəsində məhkəmə islahatları da böyük yer tuturdu. Belə ki, məhkəmələr insan hüquq və azadlıqlarının müdafiəsinin əsas vasitələrindən biri hesab olunurdu. Bu məqsədlə 1998-ci il iyul ayının 14-də Milli Məclisin qərarına əsasən Konstitusiya Məhkəməsi hakimləri təyin olundu və ayın 18-də isə Konstitusiya Məhkəməsinin müstəqilliyi və hakimlərin hüquqi statusunun müəyyənləşdirilməsi məqsədilə fərman imzalandı və beləliklə, məhkəmə rəsmi fəaliyyətə başladı.

1998-ci il 1 dekabr tarixində Heydər Əliyev tərəfindən imzalanmış "Məhkəmələr və hakimlər haqqında" Qanun və məhkəmə islahatlarının həyata keçirilməsi barədə fərman ölkəmizdə yeni məhkəmə sisteminin yaradılmasında mühüm əhəmiyyətə malik idi. "Məhkəmələr və hakimlər haqqında" Qanunun qəbul edilməsi məhkəmə sisteminin və orqanlarının sovet dövründən qalmış köhnə funksiyalarının yenisi ilə əvəzlənərək müasir dövrün tələblərinə cavab verməsinə əsaslanırdı. Fərmana əsasən, Azərbaycan Respublikası Prezidenti yanında Məhkəmə-Hüquq Şurası yaradılmış və onun əsasnaməsi qəbul edilmişdir.

İslahatların nəticəsi olaraq, məhkəmə hakimiyyəti sisteminin bir qolu hesab olunan prokurorluq orqanlarının hüquq sistemində yeri və rolu müəyyənləşmiş, onun fəaliyyəti beynəlxalq norma və prinsiplərə uyğunlaşdırılmışdır. Bu islahatların həyata keçirilməsində əsas məqsəd qanunçuluğun və cinayətkarlara qarşı mübarizə tədbirlərinin gücləndirilməsindən ibarət idi. Elə bu səbəbdən də 1999-cu il dekabr ayının 7-də "Prokurorluq haqqında" Qanun qəbul olundu və bu qanunun qəbul olunması hüquqi cəhətdən böyük əhəmiyyətə malik idi.

2000-ci ildən başlayaraq keçmiş sovet məhkəmə sistemi ləğv olunmuş, əvəzində üçpilləli müstəqil məhkəmə sistemi yaradılmışdı. Yeni məhkəmə sisteminin üstünlüyü o idi ki, hər kəsin öz hüquq və azadlıqlarını məhkəmədə müdafiə etmək, məhkəmənin qərarlarından şikayət etmək hüququ var idi və həmçinin, məhkəmə işlərə birinci instansiya qaydasında baxılmasına, daha sonra onların hüquqi cəhətdən apellyasiya qaydasında yoxlanılmasına, sonra isə məhkəmə qərarlarına hüquqi cəhətdən kassasiya qaydasında yenidən baxılmasına şərait yaradırdı. Bu da birinci instansiya məhkəməsi tərəfindən buraxılmış nöqsanların yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin obyektiv və doğru şəkildə həll olunmasına gətirib çıxarırdı.

Ən yuxarı instansiya məhkəməsi sayılan Ali Məhkəmənin də funksiya və səlahiyyətləri yenidən nəzərdən keçirildi və o, mülki, cinayət və digər məsələlər üzrə kassasiya instansiyası məhkəməsinə çevrildi. Bununla da Ali Məhkəmə işlərə birinci instansiya məhkəməsi olaraq baxmaqdan, eləcə də, aşağı məhkəmələrin qərarlarına nəzarət etməkdən azad olundu.

Ölkəmiz postsovet məkanında qəti imkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətini məhkəmənin ixtiyarına verən ilk dövlətlərdən biri oldu. Beləliklə, insan hüquq və azadlıqlarını məhdudlaşdıran tədbirlər cinayət təqibi orqanı tərəfindən deyil, məhz müstəqil məhkəmə tərəfindən tətbiq olunurdu.

Məhkəmə-hüquq sahəsi ilə yanaşı hüquqi dövlət quruculuğu istiqamətində güclü ədliyyə sisteminin təşkil olunması da xüsusi əhəmiyyət daşıyır. Bu məqsədlə ədliyyə orqanlarında islahatlar aparılmış, orqanın fəaliyyətində köklü dəyişikliklər baş vermişdir. Belə islahatlardan biri penitensiar müəssisələrin Daxili İşlər Nazirliyindən alınaraq Ədliyyə Nazirliyinə

verilməsindən ibarət idi. Yerli özünüidarəetmə orqanları olaraq bələdiyyə institutu formalaşmış və onlara yardım və nəzarət edilməsi Ədliyyə Nazirliyinin xidmətinə verilmişdir.

2001-ci il 28 dekabr tarixində qəbul olunmuş "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu da ölkəmizdə insan hüquq və azadlıqlarına nə qədər önəm verildiyini göstərirdi. Ölkəmizin ilk Ombudsmanı 2002-ci il iyul ayının 2 sində seçilmiş və fəaliyyətə həmin il oktyabr ayının 28-dən başlamışdır.

Ümumiyyətlə hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirilmiş islahatların əsas məqsədi insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi və müdafiə olunması olmuşdur. İslahatların da nəticəsindən göründüyü kimi, əvvəllər dövlət və vətəndaş münasibətlərində dövlət üstün tərəf hesab olunurdusa, lakin islahatlardan sonra bu hüquqi münasibətlərdə insan amili ön plana çəkilərək üstünlük insan hüquq və azadlıqlarına verilmişdir.

Heydər Əliyev tərəfindən hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilmiş tədbirlər bir sıra vəzifələrdə özünü tapırdı: ictimai-siyasi sabitliyin təmin edilməsi, siyasi sistemin əsas atributları və struktur elementlərinin təkmilləşdirilməsi, inzibati xarakterli islahatlar aparılması, siyasi plüralizmin təmin olunması və digər vəzifələr.

İlk növbədə diqqət inzibati xarakterli islahatların həyata keçirilməsinə yönəldilmişdi. Bu məqsədlə hakimiyyət orqanları arasında əlaqə qurulması, vəzifə və səlahiyyət bölgüsünün həyata keçirilməsi mühüm addım oldu. Azərbaycan Respublikasında idarəçilik hakimiyyət bölgüsü prinsipi əsasında quruldu ki, bu da hakimiyyətin səmərəliliyinin artırılmasında böyük rol oynadı. Hakimiyyət bölgüsü prinsipinə əsasən, hakimiyyət qanunverici, icraedici və məhkəmə hakimiyyəti olmaqla üç qola bölünürdü.

İcraedici hakimiyyəti Azərbaycan Respublikasının Prezidenti həyata keçirir. Prezident ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə üsulu ilə 5 illik müddətə xalq tərəfindən seçilirdi. Azərbaycan Respublikasının siyasi sisteminə əsasən Prezident ölkə başçısıdır. Prezidentin səlahiyyətərinə aiddir: Milli Məclisin razılığı əsasında Baş Naziri vəzifəyə təyin və vəzifədən azad etmək; Milli Məclisin razılığı əsasında Nazirlər Kabinetinin başçısını vəzifəyə təyin və vəzifədən azad etmək; dövlət büdcəsini Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə təqdim etmək; Milli Məclisin razılığı əsasında Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad etmək; məhkəmə hakimlərinin vəzifəyə təyin edilməsi haqqında Milli Məclisə təqdimatlar vermək; beynəlxalq müqavilələr bağlamaq; ölkədə fövqəladə və hərbi vəziyyət elan olunması haqqında fərman verərək Milli Məclisin təsdiqinə vermək; xarici ölkələr və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələri təyin etmək və geri çağırmaq və s.

Qanunverici hakimiyyəti parlament - Milli Məclis həyata keçirir. Ölkəmizin qarşısında duran vəzifələrdən biri də parlament seçkilərinin keçirilməsi istiqamətində ciddi addımların atılmasından ibarət idi. 1995-ci il 18 avqust tarixində Milli Məclisin qəbul etdiyi qərara əsasən Mərkəzi Seçki Komissiyası yaradıldı. Həmin ilin 12 noyabrında qarışıq seçki sistemi əsasında Milli Məclisə seçkilər keçirildi. Vətəndaşlar parlament seçkilərində öz hüquq və azadlıqlarından istifadə edərək fəal iştirak etdilər. Bu onu göstərirdi ki, əvvəllər, yəni müstəqilliyimizin ilk illərində ölkə rəhbərliyinin səriştəsizliyi üzündən vətəndaşlarımızın hüquq və azadlıqları yaxşı təmin edilməmiş, onlar seçkilərdə o qədər də maraqlı olmamışdılar, lakin Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində bütün bu problemlər aradan qalxmış və vətəndaşlarda seçkilərdə iştiraka maraq yaranmışdı.

Məhz bütün bunların nəticəsi idi ki, parlament seçkilərinin demokratik şəkildə keçirilməsi, parlament institunun təkmilləşdirilməsi siyasi inteqrasiya və ictimai münasibətlərin daha yaxşı formada təmin olunmasına şərait yaratdı, eləcə də, siyasi institutların səmərəli fəaliyyət göstərməsi baxımından əhəmiyyətli oldu. Parlamentin səlahiyyətlərinə aiddir: qanun

layihələrinin hazırlanması və qəbul olunması; hökumətin fəaliyyətinə nəzarət edilməsi; dövlət başçısına qarşı impicmentin həyata keçirilməsi və s.

Məhkəmə hakimiyyəti isə ədalət mühakiməsinə əsaslanaraq yalnız məhkəmələr tərəfindən həyata keçirilirdi.

## ƏDƏBİYYAT

1. Mühazirələr toplusu, Heydər Əliyev Azərbaycanda dövlət quruculuğunun banisidir, Bakı-2017
2. İradə Hüseynova, Heydər Əliyev və Azərbaycanda demokratik dövlət quruculuğu, Bakı-2017
3. Fəxrəddin Nağıyev, Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur: hüquqi islahatlar kontekstində, Bakı-2017
4. Hikmət Babaoğlu, Heydər Əliyev siyasi irsinin politoloji aspektləri, Bakı-2013
5. Aydın Mirzəzadə, Heydər Əliyev siyasi irsinin politoloji aspektləri, Bakı-2016
6. https://republic.preslib.az/az_a6.html

## HÜQUQİ DÖVLƏT QURUCULUĞU VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN BƏRQƏRAR OLUNMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Abdullayev Xəyal***

## XÜLASƏ

Məqalədən bizə aydın olur ki, Azərbaycan Respublikasının hüquqi dövlət quruculuğunda Heydər Əliyevin rolu danılmazdı. Qeyd etdiyimiz kimi, hüquqi dövlət quruculuğunun əsasını 1995-ci il 12 noyabr Konstitusiyası təşkil edir. Konstitusiyada insan hüquq və azadlıqlarının təmin edilməsi, hakimiyyət bölgüsü, ayrı-ayrı orqanların səlahiyyətləri, məhkəmə hakimiyyətinin rolu və digər məsələlər əksini tapmışdı. Belə qərara gəlmək olar ki, 12 noyabr Konstitusiyası və parlament seçkiləri ölkəmizin ictimai-siyasi həyatının inkişaf etməsi, qanunvericilik prosedurlarının təkmilləşdirilməsi və demokratik qərarların qəbul olunması cəhətdən mühüm rol oynadı. Müstəqilliyimizin bərpasından sonra, xüsusilə də Heydər Əliyevin rəhbərliyi ilə hüquqi dövlət quruculuğu sahəsində görülmüş tədbirlər yeni dövlət idarəçiliyi sisteminin formalaşdırılmasında böyük rol oynadı. Bunun nəticəsi idi ki, dövlət hakimiyyəti orqanları arasındakı əlaqələr inkişaf etdi, icra hakimiyyəti orqanları daha səmərəli fəaliyyət göstərməyə başladı və qanunvericilik institutu təkmilləşdirildi.

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ПОСТРОЕНИИ ПРАВОВОГО ГОСУДАРСТВА И СТАНОВЛЕНИИ ГРАЖДАНСКОГО ОБЩЕСТВА

***Абдуллаев Хейал***

## АННОТАЦИЯ

Из статьи нам ясно, что роль Гейдара Алиева в построении правового государства Азербайджанской Республики неоспорима. Как мы отметили, основой построения правового государства является Конституция от 12 ноября 1995 года. В Конституции были отражены вопросы обеспечения прав и свобод человека, разделения властей,

полномочий отдельных органов, роли судебной власти и другие вопросы. Можно сделать вывод, что Конституция и парламентские выборы 12 ноября сыграли важную роль в развитии общественно-политической жизни нашей страны, совершенствовании законодательных процедур и принятии демократических решений. Меры, предпринятые после восстановления нашей независимости, в частности, под руководством Гейдара Алиева в области построения правового государства, сыграли большую роль в формировании новой системы государственного управления. Результатом этого стало развитие связей между органами государственной власти, органы исполнительной власти стали функционировать более эффективно, совершенствовался Институт законодательства.

## THE ROLE OF HEYDAR ALIYEV IN LEGAL STATE-BUILDING AND STRENGTHENING OF CIVIL SOCIETY

***Abdullayev Khayal***

### SUMMARY

It is clear from the article that the role of Heydar Aliyev in building the rule of law of the Republic of Azerbaijan was undeniable. As we have noted, the basis of the rule of law is the Constitution of November 12, 1995. The constitution reflected the protection of human rights and freedoms, the separation of powers, the powers of individual bodies, the role of the judiciary and other issues. It can be concluded that the November 12 Constitution and parliamentary elections played an important role in the development of the socio-political life of our country, the improvement of legislative procedures and the adoption of democratic decisions. The measures taken after the restoration of our independence, especially in the field of building a legal state under the leadership of Heydar Aliyev, played a major role in the formation of a new system of public administration. As a result, relations between public authorities have developed, executive bodies have become more efficient, and the legislative institution has been improved.

# ERMƏNİ TERRORİZMİNİN TARİXİ

***İbrahimova Sona İbad qızı***
***BDU-nun I kurs magistrantı***
*ibrahimova.sona99@gmail.com*

***Açar sözlər:*** terrorizm, erməni, erməni terror təşkilatları
***Ключевые слова:*** терроризм, армения, армянские террористические организации
***Key words:*** terrorism, armenian, armenian terrorist organizations

XXI əsrin başlanğıcında narahat doğuran problemlər sırasında terrorizm xüsusi yer tutur. Belə ki, o milli çərçivədən kənara çıxaraq beynəlxalq təhlükə mənbəyinə çevrilmişdir. Gizli deyildir ki, bu ictimai təhlükəli fenomen o qədər geniş fürsət almışdır ki, ona qarşı mübarizədə dövlətlərin ayrılıqda fəaliyyəti kifayət qədər səmərə vermir. Odir ki bu gün bütün dünyada iqtisadi-siyasi, mədəni və bir sıra başqa sahələrdə gedən inteqrasiya prosesləri ilə yanaşı, cinayətkarlıq və onun tərkib hissəsi olan terrorizmə qarşı beynəlxalq əməkdaşlığın dərinləşməsinə, sürətlə və ardıcıl inkişafın təmin edilməsinə böyük ehtiyac vardır. Düzdür, qeyd olunan istiqamətdə indiyədək xeyli işlər görüldüyünü inkar etmək olmaz. Lakin hələ də terrorizmin qarşısına möhkəm və etibarlı sipər çəkmək mümkün olmamışdır.Bu gün dünyada həyata keçirilən antiterror kompaniyasında əsas diqqət terrorizmin dinlə əlaqələndirilməsinin qarşısının alınmasına yönəldilməli, bu işdə dünya ictimaiyyətinin, dini qurumların imkanları işə salınmalıdır.

Məlumdur ki, bu gün beynəlxalq hüquq və mülki hüquq çərçivəsində terrorizm ən ağır ictimai – təhlükəli əməllərdən biri kimi qiymətləndirilir. Lakin tertorizmin qiymətləndirilməsi zamanı ayrı – ayrı dövlətlər ümumbəşəri prindiplər baxımından problemə yanaşsalar da, bəzi hallarda qeyri – obyektivliyə yol verirlər.

Terrorizm -ictimai şəkildə həyata keçirilən və ya həyata keçirilməsi ilə hədələnən, əhaliyə və sosial qruplara qarşı yönəlmiş və hər hansı bir qərarın qəbul olunmasına və ya olmamasına birbaşa və ya dolayısı yolla terroristlərin maraqlarından irəli gələn qeyri – qanuni yollarla təsir vasitəsidir.

Erməni terrorizminin kökləri hələ 1990-cı ildən "Daşnakstyun" inqilabçı partiyasının yaranması dövrünə gedib çıxır. Məhz bu partiyanın yaranma və fəaliyyəti tarixinə nəzər salsaq görərik ki, onların siyasi mübarizə metodları terrorist aktları, quldurluq, oğurluq və s. cinayət əməlləri üzərində qurulub. Onların özləri isə törətdikləri bu rüsvayçı qəddar əməllərinə bəraət qazandırmaq üçün belə izah edirlər ki, guya onlar türklərin ermənilərə qarşı olan genosidinin intiqamını alırlar.

Dünyanın müxtəlif məntəqələrində qanlı aksiyalar törətmiş erməni terror təşkilatları:

"Armenakan" partiyası. 1885-ci ildə yaradılıb.Türkiyənin Van, Mun, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törədən bu partiya İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıqda olub.

"Hunçak" partiyası. 1887-ci ildə Cenevrədə yaradılıb. Qurumun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rusiya" və "İran" Ermənistanı adlndırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaqdır.

"Daşnakstyun" erməni federativ inqilab partiyası 1990-cı ildə Tiflisdə yaradılıb.Əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvanın və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır.1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnakstyun" türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır.

1973-cü ildən fəaliyyətə başlamış “Erməni soyqrımının inqilabçıları” qrupu 1980-82-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada, türk diplomatlarını qətlə yetirib.

“Erməni gizli azadlıq ordusu” (ASOA). 1975-ci ildə Beyrutda yaradılıb. Mənzil qərargahı Daməşqdə yerləşir. Fələstin bazalarında hazırlıq keçən mindən artıq döyüşçü vardır. Təşkilat fəaliyyətinin ilk 6 ilində dünyanın müxtəlif ölkələrində 19 türk diplomatının ölümünə səbəb olan terror aktları keçirib.

“Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu” (ASALA). 1975-ci ildən yaradılan təşkilatın qərargahı Beyrutda, təlim- məşq bazaları isə Suriyada yerləşir.Təşkilatın məqsədi şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində “Böyük Ermənistan” qurmaqdır. ASALA-ya əsasən, Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. Təşkilatın “Əbu – Nidal”, ”Qara sentyabr” kimi terror qrupları ilə əməkdaşlıq etməsində əsas fiqurlardan biri ASALA-nın lideri Akop Akopyan olmuşdur. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti öz üzərinə götürmüş A.Akopyan 01.08.1980-ci ildə “Nyu York Tayms” qəzetinə verdiyi müsahibəsində bildirmişdir. “Bizim düşmənimiz türk rejimi, NATO və bizlə əməkdaşlıq etməyən ermənilərdir”.

“Geqaran”. 2001-ci ilin fevralında ASALA tərəfindən yaradılmışdır. Məqsəd Cənubi və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktları keçirmək. “Erməni azadlıq hərəkatı” (AOD: 1991-ci ildə Fransada yaradılıb). Terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir”. Erməni azadlıq cəbhəsi: 1979-cu ildə yaradılan bu terror təşkilatı ASALA- nın tərkib hissəsi sayılır.Türkiyə və Azərbaycan əleyhinə terroristlər hazırlayır”.

“Orli qrupu”. 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. Təşkilat 1987- ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirib.

“Erməni birliyi”. 1988-ci ildə Moskvada yaradılmışdır.ASALA ilə sıx əlaqələri vardır, keçmiş Sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir. Dağlıq Qarabağa silah və muzdluların ötsrülməsində iştirak edir [2, səh 13].

“Erməni soyqrımı ədalət komandosları”. 1972-ci ildə Vyanada “Daşnakstyun” partiyasının qurultayı zamanı yaradılıb.

“Demokratik cəbhə”. ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Başlıca məqsədi türk dövlətinin parçalanmasıdır.

“Apostol”. 2001-ci il aprel ayının 29-da əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan arasında tdrror aktları həyata keçirməkdir.

Terrorizmə qeyri- obyektiv münasibətin mövcudluğunu təsdiq etmək üçün bəzi xarici faktlara müraciət etmək yerinə düşər. Məlumdur ki, terrorizmə qarşı beynəlxalq mübarizənin ciddi aparılması ABŞ-da ən dəhşətli terror faciəsi kimi qiymətləndirilən 11 sentyabr 2001-ci ildə törədilmiş hadisədən sonra başlamışdır.

20-ci əsrin sonlarında ermənilər yərəfindən Azərbaycan xalqına qarşı ABŞ-da baş verən hadisələrlə müqayisə edilməz dərəcədə ağır nəticələrə səbəb olmuş kütləvi terrorizm həyata keçirilmişdir. Müharibə ilə nəticələnmiş bu terrorizm nəticəsində Azərbaycan Respublikasının ərazisinin bir hissəsi təcavüzkar Ermənistan tərəfindən zəbt olunmuşdur.

Azərbaycanda qanlı terrorist aktlarının izləri Ermənistan dövlət strukturlarının SSRİ-dən əvvəl və ondan sonra da məqsədyönlü şəkildə apardıqları siyasəgin nəticəsi kimi izah oluna bilər. Bu separatçı terrorizm dinc əhaliyə aivil dünyada məlum olan bütün qayda və normalara qarşı özünün xüsusi zorakılığı ilə seçilirdi. Müasir dünyada öz qəddarlığı ilə fərqlənən erməni terrorizminin əsas hədəflərinə əhalinin sıx olan yerləri, metrolar, avtobuslar, təyyarələr və dövlətin əsas struktur dairələrindən olan diplomatik şəxslər və obyektlərə çevrilirdi. Ermənilər

hətta çəkinmədən belə deyirdilər ki, bütün bu əməllər və günahsız insanların tökülən qanları- xülyasında olduqları, yaranacaq böyük Ermənistan naminədir.

Keçən əsrin 70-ci illərinin ortalarında ermənklər bir sıra müstəqil fəaliyyət göstərən terrorist qruplaşmaları yaratmışdır. Bu günümüzdə terrorist qruplaşması kimi ASALA-nı qeyd etmək lazımdır. Bu terrorist qruplaşmasının Böyük Ermənistan xülyasını həyata keçirməsi sahəsində ilk addımlarını SSRİ dövründən başlayaraq Türkiyə dövlətinə qarşı terrorist fəaliyyətinin həyata keçirilməsi ilə bağlıdır. SSRİ dağıldıqdan sonra erməni terrorizmi öz istiqamətini Türkiyə ilə müqayisədə daha zəif olan yeni yaranmış digər türk dövləti olan Azərbaycana yönəltdi.

Ermənilərin bu dəfəki əməlləri yalnız terrorçu aksiyaların ardıcıllığı ilə yanaşı, atıq "Qarabağ ermənilərinə muxtariyyət" şüarı ilə çıxış edən Dağlıq Qarabağın separatçı hərəkatı ilə və bununla paralel aparılan Ermənistanın Azərbaycana olan təcavüzü ilə müşayiət olunmağa başladı.

1991-ci il yanvarın 19-da Xankəndində terrorçular Baqmanyan və Antonyan tərəfindən DQMV tərəfindən Daxili İşlər İdarəsinin rəisi general-mayor V.V.Kovalyova qarşı terror aktı cəhdi olub.

1991-ci ilin yanvarında Qalayın başçılığı ilə terrorçular Ağdərə rayonunun Drmbon kəndində Kəlbəcərə gedən avtomobil dəstəsinə silahlı hücum edib 1 nəfəri öldürüblər.

1991-ci il aprelin 18-də Q.V.Sərkisyanın başçılıq etdiyi erməni terrorçularının Xocavənd rayonunun Amaras kilsəsi yaxınlığında avtomaşına silahlı hücumu nəticəsində 3 polis əməkdaşı həlak olub. Həmin qrup 1990-cı ilin yanvarın 4-də Əsgəran qəsəbəsi ilə Ağdam şəhəri arasında yerləşən körpünü də partladıb.

1993-cü il iyunun 2-də Bakı dəmiryol vağzalının ehtiyat yolunda sərnişin vaqonu partladılmışdır.Ölən və yaralanan olmamışdır. Terror aktını həyata keçirmiş şəxs İ.A.Xatakovskiy 22 iyul 1994-cü ildə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin hökmü ilə əmlakı müsadirə olunmaqla 8 il azadlıqdan məhrum olunub [ 3, səh 14 ].

Terrorizm fəaliyyətini həyata keçirənlər fərdi və ya qrup, bir neçə qrup halında ola bilər. "Terror" dilimizə qarşı tərəfin fiziki zor vasitəsilə qorxudulması kimi müəyyənləşdirilir.Terminologiya cəhətdən qarışdırmamaq üçün ədəbiyyatda terror (dövlət tərəfindən zor, güc tətbiqetmə) və "terrorizm" (müxalifət, "zəif" tərəfindən zor tətbiqi ) anlayışını fərqləndirirlər.

Xocalı soyqrımı erməni terrorunun davamıdır. 1992-ci il fevral ayının 25-dən 26-a keçən gecə SSRİ Silahlı Qüvvələrinin 366-cı motoatıcı alayının köməyindən istifadə etməklə erməni terror birləşmələri Xocalı şəhərində həyata keçirdiyi soyqırım nəticəsində 613 nəfər qətlə yetirilmişdir. Bunlardan 56 nəfəri xüsusi qəddarlıqla öldürülmüşdür. Faciədə 27 ailə tam məhv edilmiş, 487 nəfər əlil olmuş, 1275 nəfər girov götürülmüşdür.

## ƏDƏBİYYAT


1. Xalq qəzeti. "Erməni terrorizminin vəhşi xislətini ifşa edən kitab" . 2005 6 yanvar
2. "Palitra" N°_38 26 dekabr, 2013- cü il
3. Beynəlxalq terrorizm və onun Azərbaycana mənfi təsiri. Bakı 2009
4. https://az.nsp-ie.org/terrorismo-2831
5. https://www.coe.int/en/web/compass/war-and-terrorism

# ERMƏNİ TERRORİZMİNİN TARİXİ

*İbrahimova Sona*

## XÜLASƏ

Məlumdur ki, terrorizm müxtəlif formalarda fəaliyyət göstərir. Fiziki zorakılıq (qətllər, hücumlar, adamqaçırma, işgəncə və s.) və mənəvi şiddət (mülklərin partlayıcı maddələrin məhv edilməsi və s.). Terrorizm müəyyən idealları müdafiə etmək üçün özlərini siyasi təşkilat elan edən milli və ya qlobal səviyyədə bir çox təşkilat tərəfindən istifadə olunur. Məqalədə müxtəlif ərazilərdə terror hadisələri törətmiş erməni terror təşkilatları nəzərə çatdırılmışdır.

Terrorizm məqsədli şəkildə həyata keçirilən hədə qorxu kimi xarakterizə edilir.Terrorizm konsepsiyaları bəzi hallarda hökümətlərin və ya siyasi təşkilatlatının spikerləri tərəfindən düşmənlərini ittiham etmək üçün istifadə olunur. Terrorizmi təcrid etmək və məğlub etmək üçün yeganə strategiya insan hüquqlarına hörmətlə yanaşmaq, sosial ədaləti, demokratiyanı gücləndirməkdir.

# ИСТОРИЯ АРМЯНСКОГО ТЕРРОРИЗМА

*Ибрагимова Сона*

## АННОЦАТИЯ

Резюме известно, что терроризм проявляется в различных формах: физического насилия (убийства, нападения, похищения людей , пытки и т.д) и моралного насилия (уничтожение имущества, взрывчатых веществ и т.д). Терроризм используется многими организациями на национальном или глобалном уровне для обьявления себя политическими организациями с целью защиты определенных идеалов. В статье освещаются армянские террористические организации, совершившие террористические акты на различных территориях.

Терроризм характеризуется как преднамеренная угроза. Понятия терроризма иногда используются спикерами правительств или политических организаций для обвинения своих врагов. Единственная стратегия изоляции и борьбы с терроризмом – это уважение прав человека , укрепление социальной сп раведливости и демократии.

# HİSTORY OF ARMENİAN TERRORİSM

*İbrahimova Sona*

## SUMMARY

It is known that terrorism operates in various forms. Physical violence (murders, attacks, kidnappings, torture etc.) and moral violence (destruction of property, explosives etc.). Terrorism is used by many organizations at the national or global level to declare themselves politicial organizations in order to defend certain ideals. The article highlights Armenian terrorist organizations that have committed terrorist acts in various areas.

Terrorism is characterized as deliberate threat. Concepts of terrorism are sometimes used by speakers of governments or politicial organizations to accuse their enemies. The only strategy to isolate and defeat terrorism is to respect human rights, strengthen social justice and democracy.

# HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASININ ƏSAS STRATEJİ İSTİQAMƏTLƏRİ

***Qarayeva Xədicə Səfiyar qızı***
***BDU-nun I kurs magistrantı***
***xediceqarayeva42@gmail.com***

***Açar sözlər:*** neft strategiyası, dövlət siyasəti, milli təhlükəsizlik, sənaye
***Ключевые слова:*** нефтяная стратегия, публичная политика, национальная безопасность, промышленность.
***Key words:*** oil strategy, public policy, national security, industry

Məlum məsələdir ki, hər bir dövlət özünün milli inkişaf strategiyasını formalaşdırarkən öz sərhədləri daxilində mövcud olan təbii resurslardan və başlıca olaraq, iqtisadi, sosial sferalarda mövcud olan hadisələrdən əsas vasitə kimi istifadə edir. Həm keçmiş, həm də müasir dövrümüzdə neft strategiyasının müəyyənləşdirilməsi birbaşa olaraq dövlətin milli təhlükəsizlik və habelə, milli inkişaf strategiyasına xitab edən bir proses olmaqdadır. Təbiidir ki, burada da əsas mövqeyi neft resursları nöqteyi-nəzərdən zəngin olan ölkələr tutur. Neft strategiyasının hər bir dövrdə aktual olması onunla səciyyələnir ki, neft emalı sahəsində əldə olunan gəlirlər həm iqtisadi sferaya lazımi qədər müsbət təsirlər göstərir, həmçinin də hərbi münaqişələr zamanı birbaşa olaraq neft emalı məhsullarından istifadə olunur.

Azərbaycan Respublikası geosiyasi nöqteyi-nəzərdən, habelə, yerləşdiyi təbii-coğrafi şərait baxımından çox əlverişli bir dövlətdir. Həmçinin də, respublikamız malik olduğu təbii sərvətlər baxımından hər zaman dünya dövlətlərinin də diqqət mərkəzində olmaqdadır. Həmin sərvətlər içərisində ən mühüm rolu təbiidir ki, neft oynamaqdadır. Bu gün qətiyyətlə qeyd oluna bilər ki, respublikamızın neft sənayesinin tarixi kifayət qədər qədim dövrlərə gedib çıxmışdır. Neft sənayesində gedən inkişaf prosesinin tarixi köklərindən bəhs etməli olsaq, qeyd edə bilərik ki, burada neft emalı sənayesinin inkişafının başlaması birbaşa olaraq 1949-cu ildə "Neft Daşları" yatağının kəşfi ilə bağlıdır.

Ölkəmizdə neft resurslarının mövcudluğu tarixinə dair bir çox xarici səyyahların, alimlərin və tədqiqatçıların araşdırmaları və fikirləri mövcuddur. İtalyan səyyahı olan Mark Polonun, türk səyyahı Övliya Çələbinin, alman diplomatı və səyyahı Adam Orlearinin, həmçinin, ərəb coğrafiyaşünasları və tarixçilərinin irəli sürdükləri fikirlərdə də bu öz əksini tapmışdır. Digər tərəfdən isə qeyd etmək lazımdır ki, Azərbaycanın maliyyə resurslarının məhdud olduğu dövrlər ərzində xarici şirkətlərin neft sektoruna sərmayə qoyması prosesləri də müşahidə edilirdi. Hələ 1872-ci ildə ilk dəfə Nobel qardaşları Bakıda neft şirkəti yaratmışlar. Bununla da, Azərbaycanda neft və neft məhsullarından istifadə etmək üçün xarici ölkələrin şirkətləri, xarici kapital axını başlamışdır [1, s.11].

Neft sənayesi sahəsində gedən prosesləri, əsasən, 2 dövrə bölmək olar. Həmin dövrlərdən birincisi hələ öz müstəqilliyini əldə etməyən Azərbaycanda cərəyan edən neft emalı, neft hasilatı proseslərinə əsaslanmışdır. İkinci dövr kimi isə müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının neft emalı sahəsində əldə etdiyi böyük uğurlarını və qətiyyətli addımlarını göstərə bilərik. Şübhəsizdir ki, sadalanan hər iki dövrdə Ümumilli lider Heydər Əliyevin əvəzsiz fəaliyyəti və mükəmməl töhfələri əsas rol oynamışdır.

Heydər Əliyev 1969-cu ildə ölkəmizə ilk rəhbərlik etdiyi dövrdə həm sosial-iqtisadi, həm də neft emalı sənayesində gözlə görüləcək dərəcədə əhəmiyyətli və inkişafa yönəlik keyfiyyət dəyişiklikləri baş vermişdir. Bu dövrdə neft sənayesinin inkişafı tarixində yeni, işıqlı bir mərhələ

başlamışdır. Buradakı əsas, əhəmiyyətli inkişaf dəyişikliklərinə 1971-ci ildə 1 milyardıncı neft hasilatının əldə edilməsini, 1970-1980-ci illər ərzində 75 növdə gəmilərin ölkəyə gətirilməsini, “Xəzər”,“Azərbaycan kranı”, “Şelf” tipli yarımdalma üzən qazma qurğularının alınmasını, Dərin Dəniz Özülləri zavodunun tikilməsini, habelə, “Azəri”, “Günəşli”, “Çıraq” kimi bir çox yeni neft yataqlarının kəşf olunmasını misal göstərmək olar.

Neft sahəsində cərəyan edən proseslərin ikinci və qeyd olunmalıdır ki, ən əsas, dinamik inkişaf edən dövrü isə Azərbaycan Respublikasının müstəqillik əldə etdikdən sonrakı xronoloji dövrə təsadüf edir. Bu dövrə əsas etibarilə, neft strategiyasının başlanmasında tarixi dönüş nöqtəsi kimi də baxmaq olar. Həmin dövrdəki xronoloji hadisələrə nəzər salsaq, qeyd edə bilərik ki, 1992-1993-cü illərdə hökm sürən hakimiyyətdəki özbaşınalıqlar, habelə ölkəmizin müstəqilliyi əldə edildikdən sonra da hakimiyyətə gəlmiş prezidentlərin digər qonşu dövlətlərdən iqtisadi və siyasi asılılıq meylləri vəziyyəti daha da gərginləşdirmişdir. Məhz buna görə də həmin vaxtlarda ölkəmizin ən perspektivli yeri olan neft gəlirlərindən istifadə edə bilinmirdi. Lakin 1993-cü ilin oktyabr ayının 10-da xalqın istəyi və çağırışı üzrə hakimiyyətə gələn Heydər Əliyevin uzaqgörən enerji strategiyası ilə ölkəmizin vəziyyəti yaxşıya doğru dəyişməyə başladı. Heydər Əliyev hakimiyyətə gəldiyi vaxtdan etibarən sözügedən strategiyanı da uğurla müəyyən etmişdir. Bu strategiyanın əsas prinsipi, neftdən səmərəli, düzgün, ölkənin hər bir vətəndaşının rifahı naminə istifadə edilməsindən ibarət idi [2, s.152]. Heydər Əliyevin neft strategiyasının qarşısında duran əsas məqsədlərindən biri də enerji daşıyıcılarının dünya bazarına çıxarılması istiqamətində diplomatik danışıqların aparılması və enerji təhlükəsizliyin təmin olunmasından ibarət olmuşdur. Sadalanan istiqamətlərdə həyata keçirilməyə başlanan fəaliyyətlərdən ilki 1994-cü ilin 20 sentyabrında imzalanan “Əsrin müqaviləsi” olmuşdur. “Əsrin müqaviləsi” 8 ölkənin 13 neft şirkəti ilə imzalanmışdır. Bu müqavilənin məqsədi Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə məhsulun pay bölgüsündən ibarət olmuşdur. “Əsrin müqaviləsi” ilə birbaşa olaraq Azərbaycan nefti xarici dövlətlərlə iqtisadi siyasət və əməkdaşlığın qurulmasına əsas vasitə olmuşdur. Həmçinin, “Əsrin müqaviləsi” imzalandıqda sonra ölkəmizin neft gəlirlərindən səmərəli istifadəsi ilə bağlı olaraq yaranmış müsbət dəyişiklər və Azərbaycan Respublikasının neft emalı ilə bağlı olaraq xarici dövlətlərlə möhkəm və səmərəli dostluq əlaqələrinin qurulması ilə yanaşı, bu dövrdə digər müsbət proses olan Azərbaycan Respublikası Dövlət Neft Fondu Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə təsis edilmişdir. Həmin fondun yaradılması Heydər Əliyevin banisi olduğu milli neft strategiyasının ayrılmaz tərkib hissəsi hesab olunur.

Bununla da, Azərbaycanın, neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin, iri investisiyaların cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcıları bazarına sürətlə çıxışın təmin edilməsi, Azərbaycanın milli sərvəti olan neftdən gələn gəlirlərin gələcək nəsillər üçün toplanaraq artırılması, bu gəlirlərdən ölkəmizin cari sosial ehtiyaclarını, iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla, bugünkü nəsillər üçün istifadə edilməsi əsas prioritetlərdən oldu.

Heydər Əliyevin neft strategiyasının əsas nüvəsini təşkil edən “Əsrin müqaviləsi” imzalandıqdan sonra neft sənayesi sahəsində canlanma başlandı. Belə ki, ilk növbədə 1995-ci ildə “Çıraq-1” özülü bərpa olundu və yeni qazma avadanlıqları ilə təchiz olundu. 1999-cu ildə isə ilk dəfə olaraq Azərbaycan nefti ilə doldurulan tanker dünya bazarına çıxarıldı.

Həmçinin, neft strategiyasında əsas hədəflərdən biri də Azəri-Çıraq-Günəşli yatağından hasil olunan neftin Avropaya nəqlində vasitə rolunu oynayan trans-kommunikasiya dəhlizinin yaradılması idi. Heydər Əliyevin buradakı əsas düşüncəsi ondan ibarət idi ki, Azərbaycan nefti məhz Türkiyə vasitəsilə qərbə ixrac olunmalı idi. Bu marşurutun Türkiyədən keçməsi planı əbəs yerə qurulmamışdır. Çünki təhlükəsizlik baxımından bu marşuruta ev sahibliyi edə biləcək ən

yaxın qonşumuz qardaş ölkə olan Türkiyə idi. Bu məqsədlə də regionda ən təhlükəsiz, ən uzunömürlü marşurut olan Bakı-Tbilisi-Ceyhanın çəkilməsi nəzərdə tutulmuşdur. Qeyd edək ki, həmin dövrdə neft Bakı-Novorossiysk və Bakı-Supsa (1999) neft kəmərləri vasitəsilə daşınırdı, amma bu neft kəmərləri Bakı-Tbilisi-Ceyhan kimi rentabelli və beynəlxa miqyasa malik deyildi. Digər tərəfdən Bakı-Tbilisi-Ceyhanın çəkilməsini istəməyən dövlətlər mövcud idi, hansılar ki, birbaşa olaraq bu kəmərin çəkilməsini xülya adlandırırdılar. Lakin bu boru kəmərinin strateji mahiyyətini anlayıb çəkilməsini istəyən dövlətlər də az deyildi. Məhz buna görə də 1998-ci ilin oktyabrında ABŞ, Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan Ankara Bəyannaməsini imzalamaqla Bakı-Tbilisi-Ceyhan boru kəmərinə dəstək verdilər. 1999-cu ilin noyabr ayında isə Türkiyədə Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının konfransı keçirilmişdir. Həmin konfransda Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisi ilə bağlı məsələlərin müzakirə olunması ilə bərabər, həmçinin, Bakıdan Ərzuruma qədər olan təbii qaz boru xəttinin tikilməsi barəsində də razılaşma əldə olunur. 1999-cu il 18 noyabrda isə ATƏT-in İstanbul Zirvə görüşü çərçivəsində Ümumilli lider Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin ərazilərilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə" dair saziş imzaladılar [2, s.240-241]. Bu saziş imzalandıqdan sonra kəmərin çəkilişi ilə bağlı real miqyasda işlərə başlandı. Belə ki, 2002-ci 18 oktyabrda Səngəçal terminalında 3 ölkə prezidentinin iştirakı ilə kəmərin təməl daşı qoyuldu. Kəmərin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi məqsədilə görülən işlər isə 2004-cü ilin oktyabr ayında başa çatdı. 28 may 2006-cı ildə Azərbaycan nefti Ceyhan limanına çatdı. Həmin ilin iyulun 4-də isə neft ilə yüklənən ilk tanker Ceyhan limanından yola salındı. Həmçinin, 2006-cı il 13 iyulda Bakı-Tbilisi-Ceyhan kəmərinin təntənəli açılış mərasimi Ceyhan şəhərində keçirildi.

Məhz Ümumilli lider Heydər Əliyevin əvəzsiz rolları ilə yaradılan neft strategiyası "Əsrin müqaviləsi" ilə başladı və bu strategiyanın kulminasiya nöqtəsi isə reallaşdırılması mümkünsüz hesab edilən Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin çəkilməsi oldu. Bununla da, Azərbaycan Respublikasının əsas sərvətlərindən biri olan neftdən səmərəli istifadə olunaraq ölkə iqtisadiyyatının güclü bir mövqedə durması prosesi başlanmışdır.

Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bu gün müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının, iqtisadiyyatımızın dünya iqtisadiyyatına qovuşmasının, ölkəmizin 90-cı illərin əvvəlində başlanmış siyasi, iqtisadi və sosial böhranlardan çıxaraq dirçəlməsinin və ən əsası XXI əsrin astanasında yüksək inkişaf etmiş, möhkəm, demokratik Azərbaycan dövlətinin yaranmasının rəmzidir.

## ƏDƏBİYYAT

1.Şəkərəliyev Arif, Şəkərəliyev Qoşqar "Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər" Bakı 2016
2.Hikmət Babaoğlu "Xarici siyasət" Bakı-"ElM"-2019
3.Alışanova M. "Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir" Bakı 2006
4.Həsənov Ə. "Azərbaycanın geosiyasəti" Bakı 2015
5.Həsənov Ə. "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" Bakı 2005
6. http://www.anl.az/down/meqale/xalqqazeti/2016/noyabr/514379.pdf
7. https://kaspi.az/az/azerbaycanin-neft-strategiyasi-ve-doktrinasinin-esasi-esrin-muqavilesi/
8. https://azerbaijan.az/related-information/131
9. http://www.imm.az/exp/2020/02/10/akademik-ramiz-mehdiyevin-n%C9%99z%C9%99ri-baxislarinda-az%C9%99rbaycanin-liderlik-fenomeni/

# HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASININ ƏSAS STRATEJİ İSTİQAMƏTLƏRİ

*Qarayeva Xədicə*


## XÜLASƏ

Məlum olduğu kimi, Azərbaycan Respublikasının milli inkişaf sttategiyasının yaradılmasında və bu strategiyanın yüksələn xətt üzrə inkişaf etdirilməsində Heydər Əliyevin banisi olduğu uğurlu neft strategiyasının rolu danılmazdır. Məqalədə isə həmin neft strategiyasının yaradılmasının keçdiyi tarixi inkişaf yolları nəzərə çatdırılmışdır. Bu nöqteyi-nəzərdən Heydər Əliyevin neft strategiyasının məqsədlərinin əsas qayesini "Əsrin müqaviləsi" və Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin yaradılması təşkil etmişdir.

Həmçinin, XXI əsrin astanasında yaradılan Heydər Əliyev imzalı neft strategiyasının bu gün də inkişafının davam etdirilməsi özünü respublikamızın milli və iqtisadi inkişafında əldə edilən nailiyyətlərdə göstərir.


# ОСНОВНЫЕ СТРАТЕГИЧЕСКИЕ НАПРАВЛЕНИЯ НЕФТЯНОЙ СТРАТЕГИИ ГЕЙДАРА АЛИЕВА

*Гараева Хадижа*


## АННОТАЦИЯ

Как известно, роль заложенной Гейдаром Алиевым успешной нефтяной стратегии в создании национальной стратегии развития Азербайджанской Республики и развитии этой стратегии неоспорима. В статье освещается историческое развитие нефтяной стратегии. С этой точки зрения основными целями нефтяной стратегии Гейдара Алиева были «Контракт века» и создание экспортного трубопровода Баку-Тбилиси-Джейхан.

Также продолжение разработки нефтяной стратегии, подписанной Гейдаром Алиевым накануне XXI века, нашло свое отражение в достижениях в национальном и экономическом развитии нашей республики.


# MAIN STRATEGIC DIRECTIONS OF HEYDAR ALIYEV'S OIL STRATEGY

*Garayeva Khadija*


## SUMMARY

As it is known, the role of the successful oil strategy founded by Heydar Aliyev in the creation of the national development strategy of the Republic of Azerbaijan and the development of this strategy on the rising line is undeniable. The article highlights the historical development of the oil strategy. From this point of view, the main goals of Heydar Aliyev's oil strategy were the "Contract of the Century" and the establishment of the Baku-Tbilisi-Ceyhan export pipeline.

Also, the continuation of the development of the oil strategy signed by Heydar Aliyev on the eve of the XXI century is reflected in the achievements in the national and economic development of our republic.

# MÜASİR DÖVRDƏ TƏHLÜKƏSİZLİK TƏHDİDLƏRİ

***Quliyeva Nərmin Vüqar qızı***
***BDU-nun Konfliktologiya ixtisası üzrə I kurs magistrantı***
**narmin.kulieva @inbox.ru**

***Açar sözlər:*** təhlükəsizlik, silahlanma, dünya siyasəti, beynəlxalq hüquq
***Ключевые слова:*** безопасность, вооружения, мировая политика, международное право
***Key words:*** security, armaments, world politics, international law

Həyat fəaliyyətinin demək olar ki, hər bir sahəsində təhlükəsizliyin müasir təhdidləri mövcuddur. Qloballaşma, elmi-texniki tərəqqi və müasir dünyanın müxtəlif sahələrinin inkişafı nəinki artan tələbatın ödənilməsinə imkan verir, həm də müəyyən mənfi nəticələr yaradır. Konkret maddi dəyərlərə, biliyə, insanların sağlamlığına, informasiyanın yayılmasına, zorakılığa, səhv hərəkətlərə, texniki xətalara və s. aid olan müəyyən təəssüf doğuran hal və ya hadisə təhlükə sayılır.

Təhdidlər təhlükə mənbəyinin harada yerləşməsindən asılı olaraq daxili və xarici təhdidlərə bölünür. Əgər təhdidlər xarici dövlətdən və onun vətəndaşlarından gəlirsə, onlar xarici təhdidlər adlanır. Təhdidlərin mənbəyi dövlətin öz daxilində və onun vətəndaşları ilə bağlıdırsa, onlara daxili təhdidlər deyilir. Təhdidlər xarakterindən asılı olaraq təbii, antropogen və sosial təhdidlərə bölünür. Təhdidlərin bu cür növlərə ayrılması daha kəskin təhdidləri məqsədyönlü şəkildə aşkarlamağa, onların qarşısını vaxtında almağa, milli təhlükəsizliklə bağlı fəaliyyətin effektivliyini artırmağa imkan verir.

Formalaşma səviyyəsinə görə təhdidlər potensial və real təhdidlərə ayrılır. Potensial təhdidlər özündə təhlükənin yaranmasını, onun ilkin şərtlərinin formalaşmasını, zərər yetirmək imkanlarını ehtiva edir. Real təhdidlər isə artıq formalaşmış hadisədir və onun zərər yetirməsi üçün bir və yaxud birr neçə faktor çatışmır. Real təhdidlərin təzahür etdiyi zaman milli təhlükəsizliyi təmin etmək sisteminin qarşısında təhdidin kəskinliyini azaltmaq və onu aradan qaldırmaq üçün lazımi tədbirlər görmək vəzifəsi dayanır.

Ölkəmizdə sosio-həssas uşaq anlayışı daha da inkişaf etdirilməlidir. Bu kateqoriyadan olan uşaqların hər bir fərdinə, inkişafının hər bir yaş mərhələsinin və təhsil səviyyəsinin xüsusi təhsil ehtiyaclarının elmi əsaslandırılmış və fərqləndirilmiş təsviri, müəyyən edilməsi və başa düşülməsi zəruri görünür. Müasir bir nailiyyət, ibtidai məktəb çağında autizmli uşaqların xüsusi təhsil ehtiyaclarının elmi cəhətdən əsaslandırılmış təsviridir və onlar dörd ən tipik inkişaf variantına görə fərqləndirilirlər [2].

Sosio həssas qrupa aid olan autizmli uşaqların sevilən bir insanla və bütövlükdə cəmiyyətlə əlaqələrinin inkişafı pozulur və digər sosio həssas uşaqlarda olduğu kimi və ya normada olduğu kimi həyata keçirilmir. Autizmdə zehni inkişaf sadəcə gecikmir və ya pozulmur, o, təhrif olunur,

çünki belə bir uşağın zehni funksiyaları sosial qarşılıqlı əlaqənin və real həyat problemlərinin həllinin əsas axınında inkişaf etmir, lakin böyük ölçüdə avtostimulyasiya vasitəsi kimi inkişaf edir.

Sosio-həssas uşaqlarda inkişafın pozulması uşaqda sadə və çətin öyrənmə nisbətinin dəyişməsi ilə xarakterizə olunur. O, ətraf mühitlə bağlı fraqmentli fikirlərə sahib ola bilər, gündəlik həyatda baş verənlərdə, adi bir uşağa xüsusi olaraq öyrədilməyən ən sadə əlaqələri vurğulamır və başa düşmür. O, ibtidai gündəlik həyat təcrübəsini toplamaya bilər, lakin biliklərin daha rəsmi, mücərrəd sahələrində səriştə nümayiş etdirir - rəngləri, həndəsi formaları vurğulamaq, rəqəmlər, hərflər, qrammatik formalar və s. Bu uşağın dəyişən şərtlərə, yeni şəraitə aktiv şəkildə uyğunlaşması çətindir, buna görə də belə uşaqların qabiliyyətləri və hətta artıq inkişaf etmiş bacarıqları və toplanmış bilikləri həyatda zəif şəkildə tətbiq olunur [3, s. 96].

Ölkəmizdə belə uşaqlara sosial təcrübənin ötürülməsi, onların mədəniyyətə daxil edilməsi xüsusilə çətindir. Sosio həssas uşaqlarda xüsusi psixoloji və pedaqoji yardımın əsas vəzifəsi emosional əlaqə yaratmaq və uşağı praktiki qarşılıqlı əlaqənin inkişafına baş verənləri birgə başa düşməyə cəlb etməkdir.

Ölkəmizdə ibtidai məktəbdə sosio-həssas uşaqların xüsusi təhsil ehtiyaclarına bütün əlilliyi olan uşaqlar üçün ümumi olan ehtiyaclara əlavə olaraq, xüsusi ehtiyaclar da daxildir və onların başlıca həlli yolları aşağıda təsnifatlandırılmışdır.

- Əksər hallarda sosio-həssas uşaqların təliminin əvvəlində uşağın sinifdə öyrənmə vəziyyətinə daxil edilməsini tədricən və fərdi şəkildə ayarlamaq lazımdır.
- Dərslərə davamiyyət müntəzəm olmalıdır, lakin uşağın narahatlıq, yorğunluq, toxluq və həddindən artıq həyəcanla mübarizə qabiliyyətinə uyğun olaraq tənzimlənməlidir.
- Uşaq sinifdə təlim vəziyyətinə alışdıqca, onun ibtidai təhsil prosesinə tam daxil edilməsinə yaxınlaşılmalıdır.
- Uşağın getməyə başladığı dərslərin seçimi özünü ən uğurlu və maraqlı hiss etdiyi dərslərdən başlamalıdır və mümkünsə, bütün digərlərini də tədricən əhatə etməlidir;

Sosio həssas uşaqlarda şifahi və yazılı ünsiyyət imkanlarının inkişafında uşaqların xüsusi dəstəyi lazımdır (fərdi və sinifdə işləyərkən) [1]:

- məlumat istəmək,
- münasibət bildirmək,
- qiymətləndirmək,
- razılaşma bacarığının formalaşması
- imtina etmək bacarığının formalaşması,
- təəssüratları bölüşmək.

Sosio həssas uşaqlarla iş zamanı problemlərin zamanında aşkarlanması və həll yollarının düzgün seçilnəsi üçün təlimin əvvəlində, zəruri hallarda, adekvat tərbiyəvi davranış formalarını, müəllimlə ünsiyyət və qarşılıqlı əlaqəyə girmək bacarığını inkişaf etdirmək üçün uşağa müəllimlə əlavə fərdi dərslər verilməlidir.

Beləliklə, vaxtaşırı fərdi pedaqoji məşğələlər (təlim dövrləri) sosio həssas uşaqlarlar üçün, hətta sinifdə yeni tədris materialını mənimsəməsinə nəzarət etmək üçün formalaşmış adekvat təhsil davranışı ilə paralel olaraq həyata keçirilməsi zəruridir (məktəbə alışma dövründə onun üçün çətin ola bilər) və ehtiyac olduğu hallarda, təhsil proqramının hazırlanmasında fərdi düzəliş yardımı göstərmək vacibdir.

## ƏDƏBİYYAT

1. Bayramov Ə. S., Əlizadə Ə.Ə. “ Psixologiya” – 2019, s.624

2. Bayramov Ə.S., Əli Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı – 2016, s.620
3. Əlizadə Ə. Pedaqoji psixologiya. Bakı-2015, s.317
4. Выготский Л.С. Проблемы дефектологии / Сост. Т.М. Лифанова. – М.: Просвещение, 2017. – 527 с.
5. Концепция развития образования обучающихся с инвалидностью и ограниченными возможностями здоровья до 2030 г. / под общей ред. Н.Н. Малофеева. – М. : ФГБНУ «ИКП РАО», 2019. – 120 с.
6. Малофеев Н.Н. Специальное образование в меняющемся мире.. В 2-х частях. Ч. 1. М., Просвещение. 2020. 319 с.
7. Малофеев Н.Н. Специальное образование в меняющемся мире. В 2-х частях. Ч. 2. М., Просвещение. 2018. 320 с.

## AZƏRBAYCANDA SOSİO HƏSSAS UŞAQLAR VƏ ONLARIN PROBLEMLƏRİNİN HƏLLİ YOLLARI

***Məhərrəmova Xanım***

## XÜLASƏ

Sosio həssas uşaqlar xüsusi psixoloji-pedaqoji yardıma, onların tərbiyəsi və təhsili üçün xüsusi şəraitin təşkilinə ehtiyacı olan uşaqlardır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar, dünyanın bütün ölkələrində unitar cəmiyyətdən açıq vətəndaş cəmiyyətinə keçid dövründə, uşaqlara dəyişən münasibətini dildə əks etdirmək zərurətini dərk edən yeni yaranmış və hələ formalaşmamış bir termindir.

Normal və xüsusi uşaq arasındakı sərhədlər illüziyadır, çünki lazımi diqqət olmadan, hər hansı bir qabiliyyətə malik olan uşaq inkişafdan geri qalacaq. Bundan əlavə, təkcə əqli və fiziki qüsurlu uşaqlar üçün xüsusi təlim şəraiti tələb olunmur, həm də xüsusi sosial və mədəni şəraitə düşmüş uşaqların buna eyni dərəcədə ehtiyacı var.

Ölkəmizdə də hər yerdə olduğu kimi sosio həssas uşaqlar müəllimlərdən möhkəm və əlavə dəstəyə ehtiyac duyurlar. Xüsusi ehtiyacın müvəqqəti xarakteri uşağın uzun müddət yox olması, yorğunluq, sağlamlıq problemləri, ailə problemləri, uşağın şəxsiyyət xüsusiyyətləri, o cümlədən ünsiyyət, hərəkət narahatlığı və ya digər səbəblərdən ola bilər.

## СОЦИАЛЬНО ЧУВСТВИТЕЛЬНЫЕ ДЕТИ В АЗЕРБАЙДЖАНЕ И РЕШЕНИЯ ИХ ПРОБЛЕМ

***Магеррамова Ханум***

## АННОТАЦИЯ

Социально-чувствительные дети - это дети, нуждающиеся в специальной психолого-педагогической помощи, особых условиях для их воспитания и обучения. «Дети, нуждающиеся в особой заботе» - это новый и неразвитый термин, который признает необходимость выразить на языке изменение отношения детей во время перехода от унитарного общества к открытому гражданскому обществу во всех странах мира.

Границы между нормальным и особенным ребенком - иллюзия, потому что без необходимого внимания ребенок с любыми способностями будет отставать в развитии.

Кроме того, не только дети с умственными и физическими недостатками нуждаются в особых условиях обучения, но и дети с особыми социальными и культурными условиями нуждаются в них в равной степени.

Как и везде в нашей стране, чувствительные дети нуждаются в сильной и дополнительной поддержке учителей. Временный характер особой потребности может быть вызван длительным отсутствием ребенка, усталостью, проблемами со здоровьем, семейными проблемами, личностными особенностями ребенка, включая общение, двигательные нарушения, или другими причинами.

## SOCIOUS SENSITIVE CHILDREN IN AZERBAIJAN AND THEIR SOLUTIONS

***Maharramova Khanim***

## SUMMARY

Socio-sensitive children are children in need of special psychological and pedagogical assistance, special conditions for their upbringing and education. Children in need of special care is a new and undeveloped term that recognizes the need to express in language the changing attitudes of children during the transition from a unitary society to an open civil society in all countries of the world.

The boundaries between a normal and a special child are an illusion, because without the necessary attention, a child with any ability will lag behind in development. In addition, not only do children with mental and physical disabilities need special learning conditions, but also children with special social and cultural conditions need them equally.

As everywhere in our country, sensitive children need strong and additional support from teachers. The temporary nature of a special need may be due to the child's long-term absence, fatigue, health problems, family problems, the child's personality traits, including communication, movement disorders, or other reasons.

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ ŞƏHİD, QAZİ AİLƏLƏRİ ÜÇÜN SOSİAL DƏSTƏK TƏDBİRLƏRİ VƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ MƏŞĞULLUQ SİYASƏTİ

***Kazımova Bənövşə Mübariz***
***BDU-nun II kurs magistrantı***
***banovsha.17@gmail.com***

***Açar sözlər:*** postmüharibə, sosial dəstək, şəhid və qazi ailələri, məşğulluq siyasəti.
***Keywords:*** postwar, social support, families of martyrs and veterans, employment policy.
***Ключевое слово:*** послевоенное время, социальная поддержка, семьи шехидов и ветеранов, политика занятости.

Bütün dünyaya artıq məlumdur ki, 30 ildən artıq düşmən tapdağı altında olan Azərbaycanın əbədi torpağı olan Qarabağ uğrunda Ermənistanla mübarizədə biz qəhrəman oğullarımız, şəhid və qazilərimiz, bir sözlə, rəşadətli ordumuz sayəsində qələbə qazandıq. Buna görə də ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımızın ailələrinə diqqət və qayğı ilə yanaşmaq bütün cəmiyyətimizin borcudur.

Dövlət başçısının müvafiq fərman və sərəncamları əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə müsbət təsir göstərir. Əlil və şəhid ailələrinin mənzil və məişət şəraitinin yaxşılaşdırılması Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindən biridir. Postmüharibə dövründə hər zaman göstərilən sosial dəstək tədbirləri daha geniş və ardıcıl xarakter almağa başladı [1].

2020-ci il 8 dekabrda Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“YAŞAT” Fondu) yaradılması haqqında imzaladığı Fərman da bu humanist addımlardan başlıca biridir. “YAŞAT” Fondu şəhid ailələrinə və qazilərə əlavə sosial dəstək üçündür. Bu Fondun vəsaiti Azərbaycan Respublikası vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır. Həmin ailələrə sosial yardımların göstərilməsində, qazilərin müalicəsində və digər xidmətlər çərçivəsində bu fondun böyük əməyi olmuşdur [2].

Hal-hazırda davam edən sosial dəstək tədbirləri bu günədək şəhid ailələri üzvləri, qazilər və erməni terrorundan zərərçəkənlərdən ibarət 26 min nəfəri əhatə edib, onlara 37 min istiqamətdə xidmət göstərilib. Bu xidmət sahələri isə genişdir, buraya sosial təminat hüquqlarının çevik reallaşdırılması və sosial ödənişlərin təyinatı, sosial-psixoloji dəstək, reabilitasiya xidmətləri və vasitələri ilə təminat, maddi yardım, məşğulluq məsələlərinin operativ həllində, kiçik biznes imkanlarının yaradılmasında dəstəyin göstərilməsi, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması və s. kimi dəstək işləri daxildir. Ehtiyacı olan ailələrin mənzillə təmin olunma məsələləri bu tədbirlərin əsas prioritlerindən biridir.

Hətta işğaldan azad edilmiş torpaqlarımıza qayıdacaq əhali üçün də məqsədli, çevik aktiv məşğulluq proqramları hazırlanır [3].

Qeyd etmək istərdim ki, şəhid ailələrinə, müharibə əlillərinə əgər 1997-2020-ci illərdə 9200 mənzil və fərdi ev təqdim edilibsə, təxminən 5 ildə onlara daha 11 min mənzil və fərdi ev veriləcək. Bununla mənzil və fərdi evlə təmin olunanların sayı 2025-ci ilin sonuna 20 mini ötəcək. 2021-ci ildə şəhid ailələri və müharibə əlillərinə 1850 mənzil verilib [4]. Dövlət

başçısının ötən il dekabrın 30-da imzaladığı fərmanlarla Prezidentin aylıq təqaüdü şəhid ailəsi üçün 300 manatdan 500, müharibə, 1990-cı ilin 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirməklə, Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslər üçün I dərəcə üzrə 250 manatdan 400, II dərəcə üzrə 230 manatdan 350, III dərəcə üzrə 210 manatdan 300, Milli qəhrəmanlarımız üçün 1500 manatdan 1800, Böyük Vətən müharibəsi iştirakçıları üçün 150 manatdan 300 manata çatdırılıb. Eyni zamanda "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə 2 min manat məbləğində Prezidentin aylıq təqaüdü təsis olunub [5].

Hər bir ölkə və cəmiyyət üçün hərbi əməliyyatlarda iştirak edən şəxslərin müharibələrdən sonra mövcud vəziyyəti, şəhid və qazi ailələrinin sosial-psixoloji vəziyyəti önəmlidir. Buna görə də **sosial-psixoloji dəstəyin göstərilməsi də mühüm xidmətlərdən biridir.** Bu istiqamətdə artıq 9 min nəfərlə psixokorreksiya işləri aparılıb, həmçinin operativ dəstək üçün yaradılan "Onlayn psixoloji xidmət" sistemi vasitəsiylə lazımi şəxslərə psixoloqlar yönləndirilib. Zənglər əsasında 70 şəxs psixiatra yönləndirilib, 43 şəxsin evində əyani psixoloji dəstək göstərilib və digər lazım olan tədbirlər görülüb.

Postmüharibə dövründə həmin kateqoriyalardan olan 3700-ə yaxın şəxs aktiv məşğulluq proqramları ilə əhatə olunub. Onlardan 3030-u (o cümlədən, 1200 şəhid ailəsi üzvü) özünüməşğulluq proqramına cəlb edilərək onlar üçün seçdikləri iqtisadi fəaliyyət növləri üzrə kiçik təsərrüfat və müəssisələr qurulub.

**Bütün bu tədbirlər bir daha onu təsdiqləyir ki**, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən əlilliyi olanların, şəhid ailələrinin, müharibə əlilləri və veteranlarının, mina qurbanlarının sosial müdafiəsinin gücləndirilməsi dövlətin sosial siyasətinin əsas tərkib hissələrindəndir.

**Ölkəmizdə bugünkü gün yeni müəssisələr, iş yerləri açılır. İşsizlərin, xüsusilə də, gənclərin işlə təmin olunmasında mühüm addımlar atılır. Postmüharibə dövründə artıq bu tədbirlər nəinki rayon və şəhərlərdə, eyni zamanda Qarabağımızda da həyata keçirilir.** Ümumiyyətlə, Qarabağda iş yerlərinin yaradılması, işlə təmin olunma məsələsi prioritet məsələlərdən biridir. Təəssüflər olsun ki, Ermənistan torpaqlarımız işğalda olduğu müddətdə ərazilərimizə külli miqdarda zərər vurmuş, vəhşilik törətmiş, yaşayış məskənlərimizi dağıtmış, təbii sərvətlərimizi talamışdır. Buna görə də, müharibədən sonrakı dövrdə bu ərazilərdə yenidənqurma, bərpa işləri biraz vaxt və vəsait tələb edir. Həyata keçirilən iqtisadi islahatlar hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Bizim Qarabağımız da həm strateji, həm də coğrafi cəhətdən həm xarici dövlətlərin, iş adamlarının, həm də yerli sahibkarlarımızın fəaliyyəti üçün çox mühüm rol oynaya bilər.

Bildiyimiz kimi, işğaldan azad edilmiş ərazilərimizin böyük iqtisadi potensialı və təbii ehtiyatları var: bu ərazilər həm yerli və xarici investisiyaların cəlbi, həm də əhalinin məşğulluğunun təmin edilməsi baxımından dövlət siyasətinin bir parçası hesab olunur [6]. 2016-cı il aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi qısa müddətdə yenidən qurulmuşdur. Vurğulamalıyıq ki, işğaldan azad edilən torpaqların az müddətdə inkişafının uğurlu təcrübələri vardır. Bu gün Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin ən önəmli fəaliyyəti işğaldan azad edilmiş torpaqlarda ora yenidən qayıdıb məskunlaşan əhali, gənclər üçün səmərəli məşğulluq proqramlarının həyata keçirilməsidir. Azad edilən rayonlar işğaldan əvvəl pambıqçılıq, taxılçılıq, heyvandarlıq, bir sözlə kənd təsərrüfatı və istehsal sahələri üzrə münbit rol oynamışdır. Şuşa, Füzuli, Kəlbəcər və Zəngilan əraziləri böyük turizm potensialına malikdir.

Dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarası Füzuli rayonu ərazisində yerləşir. Sadaladığım rayonlarda daxili və xarici turizm imkanları hədsizdir. İsti su mənbələri ilə zəngin Kəlbəcərdə sağlamlıq turizminin inkişaf etdirilməsi, mədəniyyət turizm marşrutlarının

bərpa olunması ptioritet istiqamətdir. Bu kimi məqamlar onu göstərir ki, əhalinin bu torpaqlarda müxtəlif işlə təmin olunması üçün, məşğulluq siyasətinin müxtəlif sahələrdə səmərəli şəkildə həyata keçirilməsi üçün imkanlar kifayət qədər çoxdur. Hətta bunu əlavə etməliyəm ki, azad edilmiş torpaqlarda əsas fəaliyyət sahələri kimi kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı və turizm sahələri müəyyənləşdirilib. Kənd təsərrüfatı sahəsində proqramlara 460 milyon manatdan çox vəsaitin ayrılması təmin olunacaq.

**Bu bir il ərzində yenidənqurma, bərpa müddətində kifayət qədər inşaat işləri aparılıb və aparılmaqdadır.** Ərazilərimizin kommunal xidmətlərlə təmin olunması istiqamətində aparılan addımlar da yeni iş yerlərinin açılmasını təkan verib. Yaxın gələcəkdə işğaldan azad olunmuş ərazilərdə sosial xidmət müəssisələrinin, reabilitasiya mərkəzlərinin, DOST mərkəzlərinin açılacağı da gözlənilir. Hazırda Qarabağ ərazisində 11 müxtəlif istiqamətdə avtomobil yolları çəkilir ki, bunların da ümumi uzunluğu 700 kilometrdən çoxdur [7]. Bölgədə tikilən hava limanları, çəkilən dəmir yolları vasitəsilə daşımalar da həm əhalinin Qarabağa qayıdışına, həm də orada icra olunan iqtisadi layihələrin səmərəliliyinin artmasına, yeni məşğulluq proqramlarının icrasına xidmət edəcək. Yeri gəlmişkən, ölkəmizin reallaşdırdığı bütün nəqliyyat layihələri, 2023-cü ilədək Füzuli, Zəngilan və Laçında bir-birinin ardınca açılması nəzərdə tutulan hava limanları, çəkilən avtomobil və dəmir yolları qlobal inteqrasiya proseslərinin də xeyli sürətlənməsinə imkan verəcək. Füzuli Beynəlxalq Hava Limanının inşaatında 500-dən artıq işçi çalışır. Liman istifadəyə verildikdən sonra həmin ərazilərin sakinləri də orada fəaliyyət göstərəcəklər.

Son olaraq bildiməliyik ki, tikinti şirkətlərinin bu ərazilərdə fəaliyyətinə ehtiyac çoxdur. Məşğulluq siyasətinin əsas, vacib istiqamətlərindən biri də ixtisaslaşmış İT mütəxəssislərinin cəlb olunması, onlara şərait yaradılmasıdır. Profilaktik mühafizə şəbəkələri, terror aktlarına qarşı sistemlərin qurulması və s. bu region üçün ən vacib məsələlərdən biridir. Bu bölgədə digər əsas işçi tələb olunan iş yerləri də məhz Ekologiya və Fövqəladə Hallar Nazirliyinin struktur bölmələridir. Beləliklə də, indiki məqamda tikinti, İT, ekoloq və fövqəladə hallar sahələrində iş yerləri bu bölgələrdə prioritet təşkil edir.

## ƏDƏBİYYAT


1. "Qarabağ Azərbaycandır" jurnalı- UNEC, 2021 mart
2. "Xalq" qəzetinin 8 may 2021-ci il buraxılışı
3. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi-nin rəsmi səhifəsi (https://www.sosial.gov.az/post_427521)
4. https://baku.ws/karabakh/104115
5. "Azərbaycan" qəzetinin 6 yanvar 2022-ci il buraxılışı (https://www.azerbaijan-news.az/az/posts/detail/prezident-ehalinin-sosial-mudafiesine-her-zaman-boyuk-diqqet-yetirir-1641413729)
6. "Vergilər" sosial-iqtisadi onlayn qəzetinin iqtisadiyyat bölməsi (https://vergiler.az/news/economy/11072.html)
7. https://yeniazerbaycan.com/SonXeber_e87763_az.html

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ ŞƏHİD, QAZİ AİLƏLƏRİ ÜÇÜN SOSİAL DƏSTƏK TƏDBİRLƏRİ VƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ MƏŞĞULLUQ SİYASƏTİ

***Kazımova Bənövşə***

## XÜLASƏ

Məqaləm postmüharibə dövründə şəhid, qazi ailələri üçün sosial dəstək tədbirləri və işğaldan azad edilmiş ərazilərdə məşğulluq siyasəti mövzusunda yazılmışdır. Məşğulluq siyasətinin əsas, vacib istiqamətlərindən biri də ixtisaslaşmış İT mütəxəssislərinin cəlb olunması, onlara şərait yaradılmasıdır. Profilaktik mühafizə şəbəkələri, terror aktlarına qarşı sistemlərin qurulması və s. bu region üçün ən vacib məsələlərdən biridir.

## ПОЛИТИКА МЕРОПРИЯТИЙ СОЦИАЛЬНОЙ ПОДДЕРЖКИ СЕМЕЙ ШЕХИДОВ И ВЕТЕРАНОВ И ЗАНЯТОСТИ НА ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИЯХ В ПОСЛЕВОЕННЫЙ ПЕРИОД

***Казымова Бановша***

## АННОТАЦИЯ

Статья посвящена мерам социальной поддержки семей шехидов и ветеранов в нашей стране и политике занятости на освобожденных от оккупации территориях. Одним из основных и важных направлений политики занятости является привлечение профильных ИТ-специалистов и создание для них условий, сети превентивной безопасности, создание систем против террористических актов и т.д. Это один из самых важных вопросов для региона.

## THE POLICY OF SOCIAL SUPPORT MEASURES FOR THE FAMILIES OF MARTYRS AND VETERANS AND EMPLOYMENT IN THE TERRITORIES LIBERATED FROM OCCUPATION IN THE POST-WAR PERIOD

***Kazimova Banovsha***

## SUMMARY

The article is devoted to the measures of social support for the families of martyrs and veterans in our country and the employment policy in the territories liberated from occupation. One of the main and important areas of employment policy is to attract specialized IT specialists and create conditions for them, preventive security networks, create systems against terrorist attacks, etc. This is one of the most important issues for the region.

# AZƏRBAYCANIN SƏRHƏDYANI BÖLGƏLƏRINDƏ MƏŞĞULLUĞUN TƏMIN EDILMƏSINDƏ DAĞ TURIZMIN ROLU
## (Şəki-Zaqatala turizm bölgəsində)

***Məmmədova Vəfa Həsən qızı***
***ATMU-nun II kurs magistrantı***
***mammadova.vafa.2001@atmu.edu.az***
***Elmi rəhbər: s.e.ü.f.d. dos. Rəcəb Rəhimli***

***Açar sözlər:*** turizm, turizm sənayesi, dağ turizmi, dağ-xizək turizmi, məşğulluq, Şəki-Zaqatala turizm bölgəsi, Tufandağ xizək kompleksi.
***Key words:*** tourism, tourism industry, mountain tourism, mountain-skiing tourism, employment, Sheki-Zagatala tourism region, Tufandag ski complex.
***Ключевые слова:*** туризм, индустрия туризма, горный туризм, горнолыжный туризм, занятость, Шеки-Закатальский туристический район, горнолыжный комплекс Туфандаг.

***Giriş.*** Turizm insanların daimi yaşadıqları mühitdən uzaqlaşaraq istirahət etmə ehtiyacından meydana gəlmişdir. Zaman keçdikcə turizm ehtiyacı kütləvi hal almağa başladı. Kütləvi turizmin geniş vüsət alması ilə turizm sektoru dünya iqtisadiyyatında əsas gəlir gətirən sahələrdən birinə çevrildi. Təbii olaraq turistlərin sayı ilə turizm xidməti göstərən müəssisələrin sayı düz mütənasib formada artır. Bazarda məhsulun çoxalması rəqabəti gücləndirdi. Turizm müəssisələri və destinasiyaları daha çox turist cəlb etmək üçün öz məhsullarını (xidmətlərini) daim yeniləyirlər. Bu prosesin nəticəsi olaraq yeni turizm növləri meydana gəlir.

**Şəki-Zaqatala turizm bölgəsində məşğulluğin təmin edilməsində dağ turizminin rolu**

Dağlar turizm məqsədilə istifadə edilən ən məşhur yerlərdəndir. Dağlıq ərazilər məşhur turizm destinasiyası kimi sahillərdən sonra ikinci sırada qərarlaşıb. Onun qlobal turizm bazarında payı 15-20% təşkil edir [2, s.2].

Dağ turizmi əsasən İnkişaf Etmiş Ölkələrdə rast gəlinən turizm növüdür. Lakin dağ turzminin iqtisadi əhəmiyyətinə baxmayaraq onun beynəlxalq səviyyədə qəbul edilmiş tərifi, bu turizm növünü müəyyən edəcək normalar yoxdur. Milli iqtisadiyyatlarında dağ turizminin mühüm rol oynadığı ölkələr belə, ümumi qəbul edilmiş standartlar olmadığından dəqiqi statistik məlumat verməkdə çətinlik çəkirlər [3, s.17]. Dağ turizmi eyni dağdan istifadə edən turizm növlərinin ümumi adı kimi müəyən edilir. Dağ turizmi çox vaxt ekoturizmin bir forması olaraq izah olunur. Dağ turizmi “dağ”ın təbii sərvətlərindən istifadə edir və turizmin ən fundamental forması hesab edilə bilər. Dağ turizmində dağın landşaft xüsusiyyətləri vacib hesab edilir. Ona görə də o, ekoturizm, təbiətə əsaslanan turizm və məsuliyyətli turizm kimi səciyyələndirilir.

Xarici ədəbiyyatlarda dağ turizminə “dağ turizmi”, “qar və dağ turizmi”, “alp turizmi”, “dağ əsaslı macəra”, bəzi hallarda isə “aspen turizmi” deyilir.

Ümumdünya Turizm Təşkilatına (ÜTT) görə dağ turizmi “müəyyən landşafta, topoqrafiyaya, iqlim şəraitinə, biomüxtəlifliyə və fərqli xüsusiyyətləri olan yerli icmalara malik təpələr və ya dağlar kimi məhdud coğrafi məkanda baş verən turizm fəaliyyətinin bir növüdür. Bu turizm növü açıq havada istirahət və idman fəaliyyətinin geniş spektrini əhatə edir [5].

Azərbaycan Respublikasının 27 dekabr 2021-ci il tarixli turizm haqqında qanununda dağ turizminə “özünəməxsus landşaft, topoqrafiya, iqlim, bioloji müxtəliflik (flora və fauna) xüsusiyyətləri olan dağlıq ərazilərdə həyata keçirilən turizm” növü kimi tərif verilmişdir [1].

Dağ turizmi digər iqtisadi fəaliyyətlərlə əlaqəli olması, Ümumi Daxili Məhsula (ÜDM) və iş yerlərinin yaradılmasına töhfəsi, turizm tələbini geniş zaman aralığına və məkana yaymaq

qabiliyyətinə görə yerli iqtisadiyyatlar üçün perspektiv turizm sahələrindəndir. Dağ turizmi iqtisadiyyata, cəmiyyətə və ətraf mühitə müsbət təsirləri danılmazdır. Dağ turizminin yerli iqtisadiyyatı gücləndirmək üçün böyük potensialı var. O, kənd və regional bizneslərə fəaliyyət dairəsini genişləndirmək, xidmət çeşidlərini şaxələndirmək imkanı verir. Dağ turizmi birbaşa və dolayı məşğulluğu təmin edir.

Şəki-Zaqatala turizm bölgəsi sahəsi 8,84 min $km^2$ olan Şəki-Zaqatala iqtisadi rayonunu əhatə edir. İqtisadi rayonun tərkibinə Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ inzibati ərazi vahidləri daxildir. Əhalisinin sayı 630,4 min nəfərdir.

Bölgə Qafqaz dağlarının ətəklərindən uca zirvələrinə qədər olan yüksəklik qurşağını əhatə edir. Şəki-Zaqatala turizm bölgəsində əhali düzən və dağətəyi ərazilərlə yanaşı dağ yamaclarında da məskunlaşmışdır. Dəniz səviyyəsindən belə yüksək ərazilərdə yaşayan icmalar müxtəlif iqtisadi-sosial problemlərlə qarşı-qarşıyadırlar. Zəif infrastruktur, kənd təsərrüfatı ilə məşğulluğu çətinləşdirən sərt iqlim və relyef bu ərazilərdə məşğulluq indeksinin aşağı göstəricisi ilə xarakterizə olunur. Nəticədə əhalinin miqrasiyası sürətlənir, ucqar dağ kəndlərində yalnızca az sayda yaşlı əhali məskunlaşır. Problemin həlli üçün görüləcək tədbirlər sırasında dağlıq ərazilərdə turizmin inkişafı ilk sıralarda yer alır.

Şəki-Zaqatal turizm bölgəsində dağ turizminin inkişafı üçün zəngin ehtiyatlar vardır. Böyük Qafqaz dağlarının landşaft strukturu, flora və faunası, iqlim elementləri, topoqrafiyası burada bir çox dağ turizm fəaliyyəti ilə məşğul olmağa şərait yaradır. Dağ velosipedi, haykinq, raftinq, qayaya dırmanma, alpinizm, xizəkçilik və s. kimi geniş çeşiddə fəaliyyət növləri turitlərə təklif olunur. Şəki-Zaqatala turizm bölgəsində dağ turizminin ən inkişaf etmiş forması dağ-xizək turizm növüdür. Burada yaradılan dağ turizmi müəssisələri əhalinin məşğulluğunun təmin edilməsində böyük rol oynayır. 2014-cü ildə Qəbələ rayonunda Tufan dağ-xizək yay-qış istirahət kompleksinin açılışından sonra Şəki-Zaqatala turizm bölgəsində yerləşən mehmanxana və mehmanxana tipli müəssisələrdə keçirilmiş gecələmələrin sayı 5 dəfəyə qədər artmışdır (Cədvəl 1).

**Cədvəl 1**

**Şəki-Zaqatala iqtisadi rayonu üzrə mehmanxana və mehmanxana tipli müsəssisələrdə keçirilmiş gecələmələrin sayı**

| **İqtisadi rayonlar** | **Gecələmələrin sayı** | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **İllər** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | 62,874 | 48,677 | 62,751 | 64,871 | 60,136 | 51,064 | 334,704 | 247,793 | 368,205 | 372,402 | 118,540 |
| o cümlədən: | | | | | | | | | | | |
| Balakən rayonu | 582 | 8,319 | 14,330 | 16,346 | 6,772 | 6,544 | 2,045 | 2,515 | 2,156 | 3 969 | 1,083 |
| Zaqatala rayonu | 5,293 | 5,737 | 6,960 | 6,792 | 6,693 | 6,798 | 6,113 | 7,062 | 8,399 | 9 599 | 6,663 |
| Qax rayonu | 21,194 | 9,518 | 11,204 | 11,107 | 13,587 | 13,582 | 13,678 | 13,719 | 28,410 | 33 909 | 8,844 |
| Şəki rayonu | 7,471 | 9,407 | 10,142 | 11,786 | 14,612 | 15,293 | 10,883 | 11,822 | 15,942 | 21 127 | 4,122 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Oğuz rayonu | 2,668 | 2,601 | 2,939 | 1,820 | 808 | 1,194 | 1,650 | 2,772 | 1,707 | 2 287 | 1,085 |
| Qəbələ rayonu | 25,666 | 13,095 | 17,176 | 17,020 | 17,664 | 7,653 | 300,335 | 209,903 | 311,591 | 301 511 | 96,743 |

Mənbə: Dövlət statistika Komitəsi [4]

Müvafiq olaraq çalışanların sayında da artım nəzərə çarpır. İqtisadi rayonda Tufan dağ-xizək yay-qış istirahət kompleksinin istifadəyə verilməsindən sonra (2014) mehmanxana və mehmanxana tipli müəssisələrdə çalışanların sayında 4 dəfəyə qədər artım müşahidə edilir (Cədvəl 2). Mehmanxana mehmanxana tipli müəssisələrin sayına görə ölkədə lider olan Bakı şəhəri ilə müqayisə etsək görərik ki, paytaxtda bu illər ərzində işçilərin sayında cəmi 1,8 dəfə artım olmuşdur.

**Cədvəl 2**

**Mehmanxana və mehmanxana tipli müəssisələrdə çalışan işçilərin iqtisadi rayonlar üzrə sayı (nəfər)**

| **İqtisadi rayonlar** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|---|
| Ölkə üzrə - cəmi | 9 009 | 8 364 | 9 838 | 10 015 | 11 407 | 12 481 | 10 731 |
| Bakı şəhəri | 5 360 | 5 239 | 5 324 | 5 080 | 5 22 | 5 696 | 5 665 |
| Abşeron iqtisadi rayonu | 187 | 183 | 188 | 200 | 283 | 360 | 214 |
| Gəncə-Qazax iqtisadi rayonu | 548 | 550 | 468 | 519 | 724 | 853 | 803 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | **445** | **368** | **1 091** | **1 459** | **1 783** | **1 828** | **1 298** |
| o cümlədən: | | | | | | | |
| **Balakən rayonu** | **48** | **21** | **21** | **22** | **21** | **23** | **23** |
| **Zaqatala rayonu** | **64** | **66** | **60** | **62** | **43** | **44** | **43** |
| **Qax rayonu** | **38** | **42** | **38** | **36** | **80** | **95** | **42** |
| **Şəki rayonu** | **197** | **177** | **115** | **124** | **177** | **220** | **150** |
| **Oğuz rayonu** | **22** | **25** | **22** | **25** | **33** | **34** | **18** |
| **Qəbələ rayonu** | **76** | **37** | **835** | **1 190** | **1 429** | **1 412** | **1 022** |
| Lənkəran iqtisadi rayonu | 344 | 347 | 284 | 319 | 474 | 721 | 556 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 1 144 | 764 | 1 460 | 1 448 | 1 826 | 1 942 | 1 294 |
| Aran iqtisadi rayonu | 296 | 299 | 331 | 320 | 320 | 301 | 303 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 2 | 4 | 2 | 2 | 4 | 4 | 6 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 351 | 284 | 364 | 355 | 446 | 455 | 308 |
| Naxçıvan MR | 332 | 326 | 326 | 313 | 315 | 321 | 284 |

Mənbə: Dövlət statistika Komitəsi [4]

Kompleksin fəaliyyətə başlaması ilə ərazidə yeni otel kompleksləri istifadəyə verilmişdir. Tufandağ xizək mərkəzi həmçinin bölgədə turizm fəaiyyətinin bütün il boyuna yayılmasına, müvafiq olaraq gəlirlərin miqdarının da ilboyu demək olar ki bərabər paylanmasına müsbət təsir göstərmişdir.

Göründüyü kimi dağ turizmi bölgədə məşğulluğun təmin edilməsində çox böyük rol oynayır. Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan digər inzibati ərazi vahidlərində də bu tip komplekslərin inşası bölgədə məşğulluq problemini böyük ölçüdə həll etmək iqtidarındadır.

***Nəticə.*** Dağ turizmi planetimizin ən dəyərli sərvətlərindən olan dağların təsərrüfata cəlb edilməsinə şərait yaradır. Sosial cəhətdən həssas olan dağ icmaları turizm vasitəsilə öz gəlirlərini artırmaq imkanı əldə edirlər. Şəki-Zaqatala turizm bölgəsində məskunlaşmış əhali üçün də dağ

turizminin müsbət faydaları danılmazdır. Xüsusilə bölgədə inkişaf etmiş dağ-xizək turizmi məşğulluq kimi ciddi problemin həllinə kömək edir. Şəki-Zaqatala turizm bölgəsinə turistlər əsasən ilin isti dövrlərində üz tuturlar. Dağ-xizək turizm fəaliyyəti ilin soyuq dövrünü əhatə etdiyindən, bu turizm növü turizm fəaliyyətlərini bütün il boyuna yaymağa imkan verir. Dağ-xizək turizmi məşğulluğa müsbət təsir göstərir. Yeni mehmanxanalar, iaşə müəssisələri, xizək komplekslərinin yaradılması iş yerlərinin sayını artırır. Dağ-xizək kompleksləri yüksək relyef şəraitinə malik yerlərdə inşa edilir və güclü infrastruktur tələb edir. Dağlıq bölgələr düzən bölgələrlə müqayisədə infrastruktur cəhətdən zəif təmin olunmuşlar. Bölgədə dağ turizminin inkişafı infrastrukturun da inkişafına təkan verərək yerli əhalinin həyat səviyyəsinin komfortluluğunun artmasına xidmət edir. Dağ-xizək kurortlarının yaradılması ilə ətrafdakı mülklərin dəyəri artır, əhalinin sosial vəziyyəti yaxşılaşır.

## ƏDƏBIYYAT

1. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 27 dekabr 2021-ci il. № 448-VIQ
2. Harold R, and Hull J, eds., “Mountain tourism: Experiences, communities, environments and sustainable futures”. Cabi, 2016. P 400
3. UNWTO. “Sustainable Mountain Tourism – Opportunities for Local Communities”. Spain, Madrid 2018
4. https://www.stat.gov.az/
5. https://www.unwto.org/mountain-tourism

## AZƏRBAYCANIN SƏRHƏDYANI BÖLGƏLƏRINDƏ MƏŞĞULLUĞUN TƏMIN EDILMƏSINDƏ DAĞ TURIZMIN ROLU
### (Şəki-Zaqatala turizm bölgəsində)

***Məmmədova Vəfa***

## XÜLASƏ

Dağ turizmi dağın təbii sərvətlərindən istifadə edən turizm növüdür. Çox vaxt dağ turizmi ekoturizmin bir forması olaraq adlandırılır. Dağ turizminin müsbət iqtisadi faydaalrı çoxdur. Xüsusilə məşğulluğa və regional inkişafa təsiri dağlıq bölgələrdə bu turizm növnün inkişaf etdirilməsini zəruri edir. Azərbaycanın sərhədyanı bölgələrindən olan Şəki-Zaqatala turizm bölgəsində də dağ turizminin bir sıra növləri ilə məşğul olmaq imkanı vardır. Xüsusilə dağ-xizək turizm növü bölgə iqtisadiyyatı üçün gəlir gətirən sahədir. Bu məqalədə Şəki-Zaqatala turizm bölgəsində dağ turizmi ehtiyatları, dağ turizminin mövcud vəziyyəti, dağ turizminin iqtisadi faydaları, məşğulluğa təsiri təhlil olunmuşdur.

# РОЛЬ ГОРНОГО ТУРИЗМА В ОБЕСПЕЧЕНИИ ЗАНЯТОСТИ В ПРИГРАНИЧНЫХ РАЙОНАХ АЗЕРБАЙДЖАНА
**(Шеки-Закатальский туристический район)**

***Мамедова Вафа***

## АННОТАЦИЯ

Горный туризм – вид туризма, использующий природные ресурсы гор. Горный туризм часто называют формой экотуризма. Есть много положительных экономических преимуществ горного туризма. Влияние на занятость и региональное развитие, особенно в горных районах, обуславливает необходимость развития этого вида туризма. Шеки-Закатальский туристический район, один из приграничных районов Азербайджана, также имеет возможность заниматься рядом видов горного туризма. В частности, горнолыжный спорт является прибыльной отраслью экономики региона. В данной статье анализируются ресурсы горного туризма в Шеки-Загатальском туристическом районе, современное состояние горного туризма, экономическая выгода от горного туризма, влияние на занятость.

# THE ROLE OF MOUNTAIN TOURISM IN PROVIDING EMPLOYMENT IN THE BORDER AREAS OF AZERBAIJAN
**(Sheki-Zaqatala tourism region)**

***Mammadova Vafa***

## SUMMARY

Mountain tourism is a type of tourism that uses the natural resources of the mountain. Mountain tourism is often referred to as a form of ecotourism. There are many positive economic benefits of mountain tourism. The impact on employment and regional development, especially in mountainous areas, makes it necessary to develop this type of tourism. The Sheki-Zagatala tourist region, one of the border regions of Azerbaijan, also has the opportunity to engage in a number of types of mountain tourism. In particular, skiing is a lucrative industry for the regional economy. This article analyzes the resources of mountain tourism in the Sheki-Zagatala tourism region, the current state of mountain tourism, the economic benefits of mountain tourism, the impact on employment.

# НЕГАТИВНОЕ ВЛИЯНИЕ СУБКУЛЬТУРЫ НА ЛИЧНОСТЬ ПОДРОСТКА.

***Абдинова Фидан Ильгар кызы***
***магистр II курса БГУ.***
**abdinova.fidan2@mail.ru**

***Ключевые слова:*** подростки, дезадаптация, психоактивные вещества, субкультура, алкоголь, методы, дозировка

***Açar sözlər:*** dezadaptasiya, yeniyetmələr, psixoaktiv maddələr, subkultura, alkoqol, metodlar, dozalar

***Keywords:*** maladjustment, teenagers, psychoactive substances, subculture, alcohol, methods, dosage.

Актуальность - возникновение разнообразных сообществ. В определенных объединениях асоциальное поведение носит допустимый характер. Субкультура играет не маловажный фактор в жизни несовершеннолетнего, так как становление самосознания полностью зависит от общекультурного составляющего среды. С одной стороны, быть участником субкультурной группы приводит в норму потребности в коммуникации, содействует к раскрытию себя. С иной стороны, сообщества с деструктивной тенденцией отрицательно воздействует на личность несовершеннолетнего. Нередко такого рода объединения формируют ценности и нормы, входящие вразрез с общепризнанной культурой, таким образом, они утрачивают связь с социумом. Эта тенденция вызывает тягу к возвращению в свое сообщество или же в похожую группу (криминальное сообщество и т.д.).

Цель: определение дезадаптации несовершеннолетнего под влиянием субкультуры на личность.

Методы: карта наблюдений (КН) Д.Сттота (анкетирование педагогов, оценивающих подростка по признакам дезадаптации); методика диагностики социально-психологической адаптации Роджерса – Даймонда.

***Точка зрения разных исследователей об адаптационных характеристиках личности подростков разных субкультур.***

Повышение уровня адаптации личности имеет связь с развитием социально-психологического приспособления к окружающей среде, когда цель подростка достичь стабильности во всех сферах жизнедеятельности (А. Л. Журавлев) (1). М. В. Григорьева, изучая приспособление личности со стороны адаптационной готовности, пришла к выводу, что она происходит в форме активного взаимодействия со средой, так же определяет данное явление как развивающийся процесс, т.е. конечный итог — это наиболее динамическая и оптимальная взаимосвязь требований личности и возможностей окружающей среды (2). Р. М. Шамионов определяет проблематику как, адаптационную готовность личности в аспекте соотношения толерантности к неопределенности. Также отмечает, что адаптационная готовность включает в себя представления о собственной способности к приспособлению, установки отношения к своим возможностям по совладению с возникающими трудностями в процессе взаимодействия с другими субъектами (3). С. В. Фролова отмечает низкий уровень культурной целостности личности в организации жизненных планов, по средством эмиграции. У большинства с

эмиграционными целями обнаруживаются несходства с социально - психологической адаптацией (4). Е. Л. Омельченко упоминает, что субкультура несовершеннолетнего – это область культуры в социальной группе со своей системой порядка, обычаями, ценностями (5). В отличие от иных возрастных групп, несовершеннолетние наиболее субкультуральны. В. Т. Лисовский полагает, что это связано с готовностью отдалиться от «серого» мира взрослых и примкнуть к яркому и счастливому миру сверстников (6).

Таким образом, возможность социально адаптироваться в современном обществе для молодых людей представляет трудность.

***Негативное влияние субкультуры на личность.***

В целях, чтобы обнаружить особенность отрицательного воздействия субкультуры на формирование личности несовершеннолетнего, нужно проводить исследования на актуальные молодежные неформальные движения. Быть участником в одной из групп предвещает высокий риск возникновения девиантного поведения, но в то же время, принадлежность к какой- либо субкультуре еще ни о чем ничего не говорит. По данным исследования А. Ю. Егорова и С. А. Игумнова, в основном, наибольшее число перепадает на такие субкультуры как: «пацаны» и «неформалы» (7).

Пацаны (гопники) временами применяют физическое насилие против неформалов, в том числе на «нездешних». Отличительной чертой является спортивная форма и короткая прическа. В данной группировке несовершеннолетние не отличаются высоким уровнем самоанализа, также у них не наблюдается процесс самокопания. Присутствует агрессивность, жесткая дисциплина и организованность.

Неформалы. Эта субкультура включает в себя несовершеннолетних, у которых присутствуют нестабильные вкусы и мировоззрение: панки, хиппи, сатанисты, растаманы и т. д. Но побывав в этой группе, многие выходят из нее или же переводятся в наиболее четкие субкультуры. Базисным фактором является неагрессивный протест против старшего поколения (например, любовь к року (музыка)). В основном, неформалы употребляют психоактивные вещества. Такие как: конопля, табак, алкоголь. Причиной использования этих веществ это- преодоление стеснения в коммуникации, а также демонстрация протеста против взрослых (8).

Панки отличаются злым, агрессивным протестом (демонстративное поведение, образ). Целью является произвести на взрослых и на благополучных одногодок возмущение и ужас (9). Довольно часто наблюдается в этой субкультуре промискуитет (беспорядочный половой контакт). Подростки в данной группе распространяют насилие во всех ее проявлениях. Базисом является алкоголь. Периодически употребляют токсические вещества (как правило, конопля). Цель - достичь взвинченное, агрессивное, расторможенное состояние. Культурная ценность данной группы – индивидуальная свобода — это когда каждый имеет право на выбор как лучше ему прожить свою жизнь, и ни один человек не в праве вдабливать другому свои собственные ценности. Большинство из этой группировки имеют склонность к фашизму. Свое чувство зависимости выражается в злоупотреблении запрещенных препаратов.

Эмо отличается в выраженной эмоциональности. Эмо именуют себя «emo-kids» отмечая откровенность и проявление чувств по отношению к миру. В этой группе нет различия меж полами: мальчишки подобны девочкам, девочки подобны мальчишкам. В. Козлов, издавший самый первый в Российской Федерации учебник об эмо, сделал умозаключение, что данная субкультура предназначена для пассивных, несильных физически, неуверенных в себе, депрессивных подростков. «Таким человеком можно быть и не становясь членом данной культуры, однако более престижно демонстративно

показать свою позицию, как стиль жизни» (10). Для этой субкультуры свойственна саморазрушительное поведение (порезы, татуировки, проколы), а также идеализация смерти). Нередко подростков с эмо культурой ошибочно принимают за готов. Эти культуры ищут в этом мире взаимопонимание. Однако, готы воспринимают мир как «зло», а эмо как чуждую и агрессивную среду. Субкультура «эмо» прививает подростку равнодушие, нерешительность, а также пассивность. Мужской пол в этой субкультуре часто обвиняют в нетрадиционной сексуальной ориентации. Наряду с этим, всех кто включен в данную культуру обвиняют в театральности, чрезмерной жалости к себе. В Соединенных Штатах эмо упрекают в притворстве и во лжи, так как многие из участников из довольно хороших семей и у них нет неразрешенных серьезных проблем. Однако, наряду с этим, эмо в стабильном порядке изрекают мысли о «жестокой и несправедливой жизни». С недавних пор несовершеннолетние с данной субкультурой начали подвергаться нападению гопников, так как они считают их внешний вид неподобающим.

Скинхеды. Базисным связывающим фактором является предрасположенность к насилию. Как правило, эти люди относят себя к фашизму и расизму. Скинхеды утверждают, что саму мысль «реального фашизма» Гитлер и Муссолини исказили. Они считают, что «сверхличностью» становятся, уничтожив чувство жалости к людям, которые этого не стоят. Враг может выглядеть для скинхедов по-разному. Ими могут послужить несовершеннолетние, которые приехали на время по той или иной причине. Часто испытывают неприязнь к пожилым людям, так как, по их мнению, они отнимают у молодого поколения место в жизни. Национальность для скинхедов имеет огромное значение. Они воспринимают другие этнические группы наподобие: «насколько «они» не похожи на «нас», настолько «они» неправильные» (11). Скинхеды с одной стороны употребляют психоактивные вещества, чтобы достичь агрессивное состояние, с другой стороны, предпочитают трезвость и спортивный образ жизни (для того, чтобы увеличить физическую силу и боеспособность).

Фанаты являются страстными почитателями той или иной спортивной команды. Однако, когда одни по-истине являются поклонниками спорт-кумиров, в то время как других больше притягивают побоища с проигравшей, или же выигравшей командой. В то же время, если нет возможности затеять драку с другой командой, то они могут найти причину, чтобы подраться с болельщиками своей собственной командой. В числе фанатов часто бывают несовершеннолетние, которые употребляют ПАВ и алкогольные напитки. Такие подростки могут подсадить других на вышеизложенные вещества. Таким образом, эту субкультуру можно внести в учет, как группа падкая на аддиктивное поведение (12). Многие фанаты национализированные, а также близки к нацизму, что связывает их с панками и скинхедами.

Причастность к вышеизложенным субкультурам приводит к последствиям – перемена ценностей, отделение от общества, уход из семьи. Оторванность от общества и принадлежность только группе порождает невозможность или же отсутствие желания сравнивать предоставленную информацию. В то время, как участник соглашается с системой ценностей, которые предоставляет неформальное объединение, начинает перестраиваться его сознание. Список ценностей разный в каждой субкультуре. «Нужно жить здесь и сейчас»- авторы утверждают, что эта фраза ведет к дезадаптации подростка, так как у него нет цели, ради которой мог бы приложить усилия и преодолеть препятствия. Ф. Дольто считает, что несовершеннолетние являются «подходящим» временем для применения ПАВ. Причины: душевная тревожность и чувство физического дискомфорта. Присущи для данного периода: социальный прессинг разнообразных

субкультур, поиск самоотождествления себя с группой или же с человеком (13). И. С. Кон отмечает, что наркотический образ жизни приводит в криминальное общество (14). Образование моды на конкретный наркотик взаимосвязано с внутренним ходом развития группы, то есть, высокий спрос на тот или иной вид ПАВ вызывает резкое увеличение использования, в то же время, становится неважно его стоимость. Из того, что было сказано выше можно сделать вывод, что не все субкультуры ведут к злоупотреблению ПАВ. Но существуют такие, где новоприбывшего подростка окружающие его согруппники, принуждают или относиться к ПАВ, или же нейтрально. Им привлекают мысли о том, что употребляя более легкие наркотики и правильно их дозируя можно избежать привыкания к ним. Анализируя литературу, можно отметить причину возникновения аддиктивного поведения. Основываясь на теории о подростковых субкультурах (Фридман и соавт., 1998), начало использования наркотиков ставится в компании, чтобы быть как все. А. Ю. Егорова и С. А. Игумнова отмечают, что если круг несовершеннолетнего не заинтересован в употреблении наркотиков, то вероятнее всего подросток не станет принимать. Напротив, если друзья подростка заинтересованы, то риск употребления возрастает (15). А. Е. Личко и В. С. Битенский (1991) считают, что основным обстоятельством приводящее к аддиктивному поведению — это группирование. Например, сближение в результате одного места учебы. Также подростков объединяет борьба с людьми иным национальным признаком. У несовершеннолетних достаточное количество пустого времени, которое они могут использовать не во благо себе и окружающим (16). Е. Н. Волков обнаружил такого рода последствия в участии в деструктивной группе как: потеря контроля над жизнью; процесс развития привыкания к ПАВ и возврат к инфантильному поведению; бессилие в процессе создания дружеских отношений вне группы или же получать удовольствие ни к чему не обязывающими связями; упадок душевных и физических сил (17).

Таким образом, в то время, когда подросток становится участником, он себя начинает отождествлять с той группой, в которую он вступил — это одна сторона медали. Другая сторона — это, когда несовершеннолетний начинает подстраиваться под группу, так как она принуждает соблюдать нормы и правила. Длительное участие в субкультуре ведет к переменному восприятию мира, что приводит к трудностям при желании возвратиться в социум.

***Рассмотрение методов для выявления девиантного поведения и социально-психологической адаптированности подростков под влиянием субкультуры.***

Используется карта наблюдения Д. Стотта для рассмотрения поведенческой и эмоциональной сферы. Необходимо обнаружить показатели у подростков, которые говорят о присутствии отклонений от нормы в эмоциональном и в поведенческой форме. Эта карта содержит в себе 198 пунктов. О присутствии или же не нахождении данных форм в поведении обязан учитывать наблюдатель, который заполняет карту. Эти пункты распределены в 16 синдромов.

I. Отсутствие доверительного отношения к неизвестным прежде материалам, людям, обстоятельствам. Это может привести к трудностям в преодолении барьеров для достижения успеха.

II. Депрессия. Нестабильное настроение и активность — это признаки легкой формы. Склонность к истощению и чувству раздраженности наблюдается в средней форме. Синдром враждебности и беспокойства по отношению к взрослым людям происходят в тяжелой форме

III. Интерес ребенка только лишь своим состоянием. Бегство от людей, общества. Ограждение себя от любого контакта. Чувство неприязни подростка к проявлению к нему любви.

IV. Беспокойное состояние к взрослым. Отсутствие уверенности в родителях и чувство беспокойства по отношению к ним. Неуверенность подростков в том, что ими как-то родители заинтересованы или нет.

V. Враждебность к взрослым. Формы: 1) подросток отказывается от принятия взрослых. Это может развить враждебность или же депрессию; 2) подросток воспринимает взрослых с чувством враждебности, в то же время стремится получить хорошее отношение от них; 3) не скрывает своего враждебного отношения. Оно проявляется в действиях, противоречащих общественным нормам и принципам; 4) неконтролируемое враждебное отношение.

VI. Тревожное состояние (к сверстникам). Беспокойство подростка заключается в том, что примут ли, его сверстники в свой круг общения. Периодически эта тревога может выразиться в открытой враждебности. На любые признаки стоит обращать внимание.

VII. Асоциальность. Отсутствие уверенности в одобрении, которая может быть рассмотрена в негативных формах. Формы: нет желания быть для родителя лучшим; равнодушное отношение к налаживанию связей со взрослыми; у подростков это может выглядеть как некая степень самостоятельности; не любят, когда родители проявляют интерес к их личной жизни.

VIII. Негативное отношение к детям. Начиная с конкуренции на почве ревности, заканчивая открытой ненавистью.

IX. Суетливость. Невыдержанность, импульсивность, непригодность в выполнении работы, так как она требует терпения и сосредоточенности. Присутствуют кратковременные и легкие усилия.

X. Напряжение в эмоциональном контексте. Виды: безалаберность и прогулы, немаловажные опасения, эмоциональная нестабильность.

XI. Невротические признаки. Длительность и острота симптомов зависит от возраста человека. Однако, они могли бы развиться после определенного нарушения.

XII. Неблагоприятные для проживая условия.

XIII. Формирование личности в сексуальном контексте.

XIV. Задержка психического развития.

XV. Нарушение работы мозга.

XVI. Нарушения нормального развития. Например: двигательные, зрительные, слуховые нарушения.

XVII. Признаки, которые основываются на зависимом поведении.

Можно применить методику Роджерса- Даймонда «диагностика социально-психологической адаптации (СПА)». Этот опросник предназначен для установления личностных особенностей испытуемого, а также уровень психосоциального приспособления к измененным условиям.

Методика была создана Розалинд Е. Даймондом и Карлом Рэнсомом Роджерссом в статье «Психотерапия и изменения личности: координированные исследования клиент-центрированного подхода». В 1987 г. опросник был переведен Т. В. Снегиревой на русский язык. Методика была изменена А. К. Осницким в 2004 г., после чего был издан в журнале «Психология и школа».

Методика продемонстрировала повышенную продуктивность в диагностике: в адаптации и в дезадаптации. Были обнаружены интересные интерпретации по поводу

своей индивидуальности, т.е преобразование психологического и физического развития подростка.

Выделяют 6 уровней, которые позволяют проанализировать итоги опроса:

1. Приспособление (адаптация);
2. Принятие особенностей других людей;
3. Самоконтроль;
4. Восприятие себя таким каков есть;
5. Комфорт в эмоциональной сфере;
6. Цель — это власть.

Итог, сделанный после тестирования, отличается от возраста испытуемого. Поэкспериментировать при помощи данного опросника можно с подростками. Однако, если есть желание провести с детьми школьного возраста, то нужно ее выполнить отдельно с каждым участником. (4).

***Заключение*** Базовые причины участия несовершеннолетних в группах — это тяга к неформальным коммуникациям с ровесниками, чувство причастия и включенности в субкультуру, нахождение выхода из кризиса тождественности, отстранение от благополучных сверстников. При рассмотрении отрицательного влияния различных групп можно выделить объединяющие факторы: враждебное отношение к окружающим, тяга к навязчивой привычке, которая может привести к психологическим заболеваниям, а также к совершению преступлений.

Необходимо в нужный момент в школе распознать несовершеннолетние группы риска. Это подразумевает обращать внимание на некоторые особенности детей: отсутствие благоприятного общения с ровесниками, уклонение от исполнения правил, изданных школой, отсутствие успеха в учебе, не лучшее положение в семье.

Обсуждаемые вопросы в статье не смогут дать точное научное обоснование всех сторон, так как они являются сложной и многогранной темой.

## ЛИТЕРАТУРА

1. Беликов С. Все о скинхедах. Эксклюзивные материалы. 2001 г. 205 с.
2. Большакова Е. А. Ваш ребенок – неформал. Изд-во Генезис, 2010. 152 с.
3. Волков Е.Н. Исцеление от «рая»: реабилитация и самопомощь при социальной зависимости. 2008 г. 392 с.
4. Григорьева М.В., Вагапова А.Р, Тарасова Л.Е.,Кащеева, А.В.,Малышев И.В, Ткачева М.С, Хуторянская Т.В.,Черняева Т.Н. Адаптационная готовность личности в современных условиях развития общества. Саратов, 2016. 124 с.
5. Дольто Ф. На стороне подростка. 1988 гг. 125 с.
6. Егоров А.Ю., Игумнов С.А. Клиника и психология девиантного поведения. 2010 г. 400 с- 62с
7. Журавлев А.Л., Сергиенко Е.А.- Принцип развития в современной психологии. Институт психологии Российской Академии наук. 680с.
8. Клейберг Ю.А. Психология девиантного поведения, учеб. и прак. Для СПО., 2019 г.
9. Козлов В.В., Бубеев Ю. Измененные состояния сознания: психология и физиология, Москва, 1997 г. 203 с.
10. Кон И.С. Подростковая сексуальность на пороге XXI века – М.: Феникс, 2001 г. – 208 с.

11. Лисовский В.Т. Молодежная политика: проблемы и перспективы // Теория и практика социальной работы: отечественный и зарубежный опыт. – М.-Тула, 1993. Ч.2 – 318с.
12. Личко А.Е., Битенский В.С. Подростковая наркология // Руководство для врачей. Ленинградское отделение 1991 гг. 304 с.
13. Омельченко Е.Л. Молодежные культуры и субкультуры, 2000 г., 264 с.
14. Роджерса- Даймонда. Диагностика социально-психологической адаптации (СПА).
15. Стотта Д. Карта наблюдения.
16. Фролова С.В. Адаптационные риски снижения приверженности своей стране и стратеги социокультурно интегрирующего личностно-ориентированного консультирования // Социально-психологические проблемы современного общества: личность, группа, организация. – Саратов: Изд-во Сарат. ун-та, 2016. 288 с.
17. Шамионов Р.М., Григорьева М.В. Психология социальной активности молодежи: проблемы и риски. – Саратов: Изд-во Сарат. ун-та, 2012. – 384с.
18. Щепанская Т.Б. Символика молодежной субкультуры: опыт этнографического исследования системы 1986-1989 г. СПб., 1993. 301 с.

## НЕГАТИВНОЕ ВЛИЯНИЕ СУБКУЛЬТУРЫ НА ЛИЧНОСТЬ ПОДРОСТКА.

*Абдинова Фидан*

## АННОТАЦИЯ

Базовые причины участия несовершеннолетних в группах — это тяга к неформальным коммуникациям с ровесниками, чувство причастия и включенности в субкультуру, нахождение выхода из кризиса тождественности, отстранение от благополучных сверстников. При рассмотрении отрицательного влияния различных групп можно выделить объединяющие факторы: враждебное отношение к окружающим, тяга к навязчивой привычке, которая может привести к психологическим заболеваниям, а также к совершению преступлений.

Необходимо в нужный момент в школе распознать несовершеннолетние группы риска. Это подразумевает обращать внимание на некоторые особенности детей: отсутствие благоприятного общения с ровесниками, уклонение от исполнения правил, изданных школой, отсутствие успеха в учебе, не лучшее положение в семье.

Обсуждаемые вопросы в статье не смогут дать точное научное обоснование всех сторон, так как они являются сложной и многогранной темой.

## SUBMƏDƏNİYYƏNİN YENİYYƏTİN ŞƏXSİYYƏTİNƏ MƏNFİ TƏSİRİ.

***Abdinova Fidan***

## XÜLASƏ

Yetkinlik yaşına çatmayanların qruplarda iştirakının əsas səbəbləri həmyaşıdları ilə qeyri-rəsmi ünsiyyətə həvəs, subkulturada iştirak və iştirak hissi, şəxsiyyət böhranından çıxış yolu tapmaq və firavan həmyaşıdlarından uzaqlaşmadır. Müxtəlif qrupların mənfi təsirini nəzərdən

keçirərkən aşağıdakı birləşdirici amilləri ayırd etmək olar: başqalarına qarşı düşmən münasibət, psixoloji xəstəliyə səbəb ola biləcək obsesif vərdişlərə can atmaq, habelə cinayət törətmək.

Məktəbdə risk altında olan yetkinlik yaşına çatmayanları doğru zamanda tanımaq lazımdır. Bu, uşaqların bəzi xüsusiyyətlərinə diqqət yetirməyi nəzərdə tutur: həmyaşıdları ilə əlverişli ünsiyyətin olmaması, məktəb tərəfindən verilən qaydalardan yayınma, akademik müvəffəqiyyətin olmaması, ailədə yaxşı mövqedə olmaması.

Məqalədə müzakirə olunan məsələlər mürəkkəb və çoxşaxəli mövzu olduğundan hərtərəfli dəqiq elmi əsaslandırma verə bilməyəcək.

## NEGATIVE INFLUENCE OF SUBCULTURE ON THE PERSONALITY OF A TEENAGER.

***Abdinova Fidan***

### SUMMARY

The basic reasons for the participation of the underage persons in groups are their desire for informal communication with the people of the same age, the participation in subculture and the sense of participation, finding of a way out from the crisis of personality and withdrawing from the well-to-do people of the same age. The following factors of unification may be distinguished while considering the negative effect of the different groups: hostile attitude towards other people, eager for obsessive habits that will cause psychological disease and committing crime.

At school, it is necessary to know underage people at risk at the right time. It considers paying attention to some characters of children: lack of favorable communication with people of the same age, avoiding of the rules given by a school, lack of academic success and lack of a good position in a family.

As the issues discussed in the article are complex and multibranch subject, we will not be able to provide detailed scientific justification.

# SOSİOGERONTOLOGİYANIN TARİXİ

***Ələsgərov Səbuhi Elçin oğlu***
***BDU-nun I kurs magistrantı***
***elesgerov-sebuhi@mail.ru***

***Açar sözlər:*** yaşlanma, gerontologiya, sosiogerontologiya, yaşlılığın növləri, yaşlılara sosial xidmət
***Ключевые слова:*** старение, геронтология, социогеронтология, виды старости, социальные услуги для пожилых людей
***Keywords:*** aging, gerontology, sociogerontology, types of senility, social services for the elderly

Yaşlanma insan həyatının son mərhələsi hesab olunur. Yaşlanma doğuşdan ölümə qədər davam edən təbii və qaçılmaz bir prosesdir. Buna görə də, bu, fərdlərin fiziki və mənəvi güclərinin geri dönməz şəkildə itirilməsi prosesidir. İnsan inkişafı orta hesabla ilk iyirmi ildə davamlı yüksəliş göstərir, bundan sonra insan zamanla durğunluq və çöküş yaşayır. Fiziki, zehni, emosional və sosial sahələrdə bu çöküşün ən sürətlə yaşandığı dövr qocalıq dövrü olaraq təyin edilir. Başlanğıcda fiziki sahədəki çatışmazlıqlar zamanla psixoloji sahədə geriləmə və balanssızlıqlara səbəb olarkən, bununla yanaşı, zamanla, sosial sahədə də geriləmələrə səbəb olur. Belə ki, qocalıq, həyatın bütün sahələrində geniş yayılmış itki hissinin yaşandığı, fərdlərin fiziki, psixoloji və sosial muxtariyyətlərini itirərək yenidən asılı vəziyyətə düşdüyü bir dövr olaraq təyin edilə bilər.

Gerontologiya qocalma prosesini, qocalmanın səbəblərini və şərtlərini, yaşa bağlı davranış formalarını, qocalma prosesi çərçivəsində dəyişən münasibət və davranış formalarını araşdıran, qocalmanın sosial-iqtisadi, bioloji və sosioloji aspektlərini fizioloji cəhətdən elmi metodlarla araşdıran bir elmdir. Sosial psixologiya, biologiya, sosiologiya, qocalarla bağlı tətbiq olunan siyasət modelləri və qanun layihələri ilə yaxından əlaqəli olan gerontologiya, insanın ömrünə illər əlavə olunduqca yaşlılıqda daha keyfiyyətli bir həyat təmin etmək istəyən bir elmdir (6).

Nəzərdən keçirilən elmin mövzusu kifayət qədər genişdir və bu da onun tamamlanmasına imkan verir. Gerontologiya elmi yaş və yaşlılıqla bağlı bir çox problemləri əhatə edir: yaşlıların müalicəsi; yaşlılarda ən çox görülən ölüm səbəblərinin öyrənilməsi; insan qocalması ilə əlaqəli yaş xüsusiyyətlərinin öyrənilməsi; yaşlı insanların cəmiyyətlə qarşılıqlı əlaqəsinin və onun içindəki müxtəlif yaş kateqoriyalarının öyrənilməsi; yaşlı insanların demoqrafik dinamikasının öyrənilməsi; ömür uzunluğu ilə əlaqəli mövzularda araşdırma (5).

Gerontolgiya nəzəri olduğu qədər də tətbiqi bir elmdir. Buna görə də, bu elmlə məşğul olan mütəxəssislər də müxtəlif sahələr üzrə təsnif olunur. Gerontologiya elmi ilə məşğul olan mütəxəssislərin rol və vəzifələri müxtəlifdir. Onlardan bəziləri yaşlanma və uzunömürlülüklə bağlı araşdırma aparır və ya mövcud araşdırmaları daha da dərinləşdirərək nəzəriyyələri inkişaf etdirirlər. Bir qismi tətbiqi gerontologiya ilə məşğul olur ki, bu tip mütəxəssislər müayinələr yolu ilə yaşlılara yardım edir, onların sosial rifahının və sağlamlıq imkanlarının inkişaf etdirilməsi ilə məşğul olurlar. Son tip mütəxəssislər isə müayinə olunmuş və problemi təyin olunmuş yaşlılar üçün düzgün dərman kompleksinin hazırlanması ilə məşğul olurlar (6).

Yaşlanmanın müxtəlif təzahürləri var. Ona görə də qocalığın xronoloji, bioloji, psixoloji və sosial kimi müxtəlif növləri var. Yaşlanmanın bu növlərini təsnifatı bu aşağıdakı kimi aparılır:

1. Xronoloji yaşlanma: Doğum yaşı və ya təqvim yaşı kimi də ifadə edilir. Xronoloji olaraq 65 yaş və ya daha yuxarı olan insanlar ümumiyyətlə yaşlı sayılırlar. Lakin bu tərif insanların bu dövrdəki ümumi sağlamlıq, fiziki, mənəvi, əqli imkanlar kimi funksiyalarını təsvir etmək üçün yetərli deyil.

2. Bioloji (Fizioloji) yaşlanma: Orqanlar səviyyəsində funksiyanın azalması, toxumalarda aşınma və məhvin artması. Kənardan görünən saçların ağarması və dərinin qırışması bioloji qocalmanın əlamətləridir. Hüceyrələrin sayının azalması və hüceyrələrin funksiyalarının dəyişməsi orqanlarda geriləmənin əsas səbəbidir. Yaş irəlilədikcə hərəkət və fəaliyyət bacarıqlarında da zəifləmə və funksiya itkisi müşahidə oluna bilər. Müəyyən edilib ki, yaşlı insanların əzələlərində güc itkisi, aktivliyin azalması və məhv olması nəticəsində əzələlər nazikləşir. Sümüklərdə kalsium olmaması səbəbindən qırılma ehtimalı artır. Bundan əlavə, bioloji qocalma nəticəsində yaşlı insanların əksəriyyətində oynaqların revmatizmi və kalsifikasiyası baş verir. İnsanın bioloji yaşını bədən yaşı kimi də ifadə etmək olar. Yaşlıların bioloji itkiləri insanın sağlamlıq vəziyyətindən, sosial mühitindən, yaşadığı vaxtdan və məkandan asılı olaraq bir-birindən fərqlənir (8).

3. Psixoloji yaşlanma: Zəka, yaddaş və emosiya kimi sahələrdə funksiyaların itirilməsi ilə yanaşı, keçmişə həsrət, gələcəyə güvənsizlik hissi, bəzən də daha əvvəl həyata keçirilməmiş idealara və uğursuzluqlara görə kədər şəklində meydana gəlir. Bu kontekstdə qocalığın yaşlılığı hissi etməsi və qəbulu ilə sıx bağlı olduğunu söyləmək olar.

4. Sosial Yaşlanma: Fərdin cəmiyyətdəki həyatında, işində və ictimai işlərində güc və qabiliyyətini itirməsidir. Bu, bir cəmiyyətdə və ya qrupda sosial cəhətdən yaxşı uyğunlaşa bilməmək vəziyyətidir. Artıq yaşlılar öz istedad və bacarıqlarından cəmiyyətdə düzgün istifadə edə bilmirlər (8).

Sosiogerontologiya qocalmanın sosial aspektlərinə diqqət yetirən bir ixtisasdır. Sosial gerontoloqların məqsədi yaşlı yetkinlərə başqaları ilə ünsiyyət və qarşılıqlı əlaqəni yaxşılaşdırmaqda kömək etməkdir. Onlar yaşlı insanlara aktiv, müstəqil həyat tərzi sürməyə kömək edirlər.

Gerontologiyanın bu unikal alt sahəsinə bəzən qocalmanın sosial psixologiyası da deyilir. Sosial gerontoloqlar yaşlı insanlar üçün vəkillik edən mütəxəssisləridir. Onlar yaşlı insanların üzləşdiyi müxtəlif ümumi sosial, sağlamlıq, şəxsi və psixoloji problemlərlə məşğul olurlar. Buraya yaşlanma və bununla bağlı media stereotipləri və iş yerində ayrı-seçkilik daxildir. Buraya, həmçinin, kimsəsiz olub tək yaşayan yaşlılara qarşı qohum və qonşularının etinasız yanaşması və ya sui-istifadə məqsədinə qarşı mübarizə də daxildir. Yaşlıların qarşılaşdıqları demans, depressiya və əlillik kimi ümumi psixi və fiziki sağlamlıq problemləri ilə mübarizə də sosiogerontoloqların peşə fəaliyyətlərinin bir hissəsidir.

Sosial gerontoloqlar yaşlı insanların müstəqilliyini və məhsuldarlığını artırmağa çalışırlar. Onlar həmçinin yaşlı böyüklər haqqında ümumi media və sosial stereotiplərlə, məsələn, yaşlı yetkinlərin ləng olduğu və yeni şeylər öyrənə bilməyəcəyi ilə bağlı yanlış təsəvvürlərlə mübarizə aparmağa kömək edir. Bu mənfi stereotiplərin nəticəsi olaraq, işəgötürənlər yaşlıları işə götürməkdən çəkinməyə meyllidirlər və əgər onlar bunu edərlərsə, çox güman ki, gənc bir yetkin əvəzinə yaşlı yetkinləri işdən çıxaracaqlar (5).

Sosiogerontologiya gerontologiya elminin alt sahəsi olduğu üçün yaranması tarixi də onunla birbaşa bağlıdır. Gerontologiya elminin kökləri olduqca qədim tarixlərə uzanır. Qədim Yunanıstanda insanların yaşlanması və yaşlanmanın qarşısını almaq, yaşlılığa səbəb olan amillər və s. ilə bağlı bir çox fəlsəfi və məntiqi ideya və mülahizələr mövcud olmuşdur. Ancaq gerontologiyanın həmçinin onun alt sahəsi olan sosiogerontologiyanın bir elm kimi formalaşması XX əsrə təsadüf edir. Gerontologiya sözü ilk 1909-cu ildə Dr. İqnatz L. Naşir tərəfindən işlənmişdir. Sözün kökündə iki müxtəlif mənalı söz durur; Geronto "qocalma, qoca adam", logiya "elm".

Sosiogerontologiyanın bir elm kimi təşəkkül tapması XX əsrin 40-ci illərinə təsadüf edir. Həmin dövrdə insana, insan münasibətlərinə və insanın bir sosial varlıq kimi dəyərləndirilməsinə

dair bir sıra nəzəriyyələr yarnmağa başlamışdır. Zamanla isə, bu ideya və nəzəriyyələr dərinləşməyə başlamış insana bir sosial varlıq kimi münasibət və onun sosial rifahı bir çox dövlərin siyasət modellərinin əsası olmuşdur. Həmin dövr Sosiogerontologiya kimi bir elmin yaranması üçün olduqca əlverişli idi. Hər bir cəmiyyətin tərkibində yer alan yaşlılar və onların sosial problemləri başda olmaqla bir çox problemlərini araşdıran və həll etməyə çalışan bir sahənin olması olduqca müsbət bir addımdır.

Sosial gerontologiyanın kökündə ya zəif, ya da tərk edilmiş yaşlılar üçün xeyriyyəçilik qayğısı var. Bu, ən çox aqrar cəmiyyətdən sənaye cəmiyyətlərinə keçidin təsiri kimi qəbul edilir. Sosial darvinizm adlanan xüsusi bir düşüncə məktəbi təkamülün maneəsiz davam etməsinə icazə verilməli olduğuna, bəziləri isə hətta təkbaşına yaşaya bilməyən yaşlı insanların ölməsinə icazə verilməli olduğuna inanırdı (4, s. 16).

Xoşbəxtlikdən sosial darvinizm və həmin məktəb nümayəndələrinin yaşlı insanlarla bağlı düşüncələri Med, Kuley və Tomas kimi sosioloqların əsərlərinin nəşri nəticəsində ardan qalxmağa və insanlarda yeni bir baxış yaratmağa istiqamətləndi. Bu müəlliflər həm sosioloji, həm də humanist perspektivdən çıxış edirdilər. Onlar alim və yaşlı insanlarla məşğul olan sosial işçi, sosial xidmətçi və ahıl evlərinə yaşlıların davranışını rollar, statuslar, normalar və sosial dəyişikliklər baxımından öyrənməyə imkan verən bir çərçivə təqdim etdilər. Bu anlayışlarla və problemləri həll etmək istəyi ilə sosioloqlar nəhayət yaşlılara diqqət yetirməyə başladılar. 1940-cı illərdə baş verən bu tendensiya yaşlılara xüsusi yanaşma, onların probleminin həll edilməsi və sosial rifahlarının cəmiyyətin digər qruplarından geridə qalmamasına dair düşüncə və fəaliyyətlərin tətbiq olunmasına zəmin yolu yaratdı.

Xüsusilə yaşlılarla məşğul olan ilk sosioloji tədqiqatlardan biri 1940-cı ildə Landis tərəfindən həyata keçirilmişdir. Onun "Ayova ştatında Yaşlı Kənd İnsanlarının Münasibətləri və Onların tənzimlənməsi " adlı tədqiqatı yaşlıların uyğunlaşma modellərinə yönəlmişdir. 1943-cü ildə Borqes Qocalıqda Sosial Uyğunlaşma Komitəsini yaratdı. Komitə tərəfindən yaşlanma və pensiya, məşğulluq, gəlir və ailə ilə münasibətlərə uyğunlaşma sahələrində daha çox araşdırmaya ehtiyac olduğunu irəli sürən bir hesabat dərc edildi. Pollakın 1948-ci ildə nəşr etdiyi “Qocalıqda Sosial Uyğunlaşma” kitabı gələcək tədqiqatların aparılması üçün zəmin rolu oynadı (4, s. 19).

Simons müxtəlif mədəniyyətlərdə qocalmanın sosial aspektləri haqqında yazan ilk alimlərdən biridir. Antropoloq olan Simons 1945-ci ildə “İbtidai cəmiyyətlərdə yaşlıların rolu” adlı kitab nəşr etdi. Bu kitabın nəşri aqrar və sənaye cəmiyyətlərinin və onların yaşlılara təsirinin daha da öyrənilməsinə səbəb oldu. 1940-cı illərin sonlarında Çikaqo Universiteti qocalma ilə bağlı araşdırmaları artırmağa başladı və 1950-ci illərin əvvəllərində Florida Universiteti, Ayova Dövlət Universiteti, Dyuk Universiteti və Konnektikut Universitetində gerontologiya və sosiogerontologiya üzrə proqramlar var idi.

1950-ci illərdə Yaşlanma Tədqiqatları Klubu adını Gerontoloji Cəmiyyət olaraq dəyişdi və Borqes komitənin ilk prezidenti seçildi. Hal-hazırda Gerontologiya Cəmiyyəti həm Gerontologiya jurnalını, həm də Gerontoloqların həyata keçirdiyi praktiki işlər haqqında məqalələr nəşr edir. 1955-ci ildə Gerontoloji Cəmiyyəti ali təhsildə adekvat təlim keçmiş gerontologiya müəllimlərinin sayını necə artırmağı nəzərdən keçirmək üçün bir komitə yaratdı.

1961-ci ildə Rouz və Petersonun Midvest Sosiologiya Cəmiyyətinin konfranslarının nəticəsi olan "Yaşlı insanlar və onların sosial dünyası" kitabı nəşr olundu. Bu yalnız başlanğıc idi. 1960-cı illərin sonu və 1970-ci illərin əvvəllərində qocalma ilə bağlı daha üç mühüm kitab nəşr olundu: “Yaşlanma və Cəmiyyət”; “Riley tərəfindən Tədqiqatın Nəticələrinin İnventarlaşdırılması”; və “Riley, Conson və Foner tərəfindən redaktə edilmiş Yaşlanma və Peşələr və Yaş Stratifikasiyası Sosiologiyası”. Bu kitablar sosiogerontologiya sahəsində çalışan alimlər üçün artan biliklər toplusunun əsasını təşkil etdi (4, s. 21).

XX əsrdə edilmiş bu araşdırmalar və nəzəriyyələr sosiogerontologiyanın müasir nəzəriyyələrinin formalaşmasında mühim rol oynamışdır. Müasir dövrümüzdə sosial gerontologiyanın tətbiqi sahələri olduqca genişdir. Yaşlılara göstərilən sosial xidmətləri əhatə edən sosiogerontologiya elmi artıq, demək olar ki, bütün dövlətlərin sosial siyasətinin bir parçası kimi təqdim və tətbiq olunur. Belə ki, hər ölkə daxilində, hər cəmiyyətdə əhalinin müəyyən hissəsini təşkil edən ahıllar və onlarla bağlı tətbiq edilən sosial iş sahələri sosiogerontologiyanın tərkib hissələri hesab olunur. Bununla əlaqəli olaraq, hər dövlətin sosiogerontologiyanı dövlət səviyyəsində tətbiq etməsi müxtəlifdir. Bir sıra ölkələrdə yaşlılara dövlət qayğısı sadəcə sosial müavinətlər və yardımları əhatə edir. Azərbaycan başda olmaqla bir çox dünya dövlətlərində isə ahıllarla sosial iş müxtəlif yollarla tətbiq olunur. Belə ki, yaşlılara xidmət və onların qayğısına qalmaqla əlaqəli olaraq səyyar (evdə), stasionar və yarımstasionar sosial xidmət növləri mövcuddur. Bir-birindən fərqli tərkibi olan bu xidmət növləri yaşlılara daimi yaşayacaq, günərzi, yəni günün böyük hissəsini keçirə biləcəkləri yerlə təmin olunmaq və yaxud evdə xidmət göstərmə imkanları tətbiq edir (1, s. 119).

Stasionar və yarımstasionar sosial xidmət zamanı yaşlıların həyat fəaliyyəti, peşə məşğuliyyətləri, asudə vaxtlarını necə dəyərləndirmək istədikləri, tələbat və ehtiyacları xüsusi qayğı evləri və müəssisələrdə həyata keçirilir. Yaşlıların öhdəsindən gəlmə və problem həll etmə qabiliyyətlərini artıran müdaxilələr gerontoloji sosial işin bəlkə də ən əsas və ən mühüm aspektidir. Səyyar sosial xidmət zamanı isə həmin sadalanan amillər evdə xidmət görən ahıllara tətbiq olunur. Bunlardan əlavə olaraq, sosiogerontologiyanın yeni tətbiq sahəsi və bir sıra dövlətlərin sosial siyasətinin bir parçası olan təcili sosial xidmət sahəsi də fəaliyyət göstərir ki, həmin xidmət vasitəsilə hərəkət məhdudiyyəti və yaxud fəaliyyət imkanları zəif olan yaşlılara gündəlik ziyarət, nəzarət, ehtiyaclarının ödənməsi ilə yanaşı onların müəyyən ehtiyacı və yaxud fövqəladə vəziyyət zamanı təcili xidmətin göstərilməsini nəzərdə tutur (7).

Sosiogerontologiyanın müasir dövrdə tətbiq sahələrindən biri də onun dövlətlərin demoqrafik siyasəti ilə bağlı olmasıdır. Ümumdünya əhalisində olan artımlar, həmçinin hər ölkə daxilində əhalının artma və ya azalma templəri əhalinin ümumi yaş gösdəricisini təyin edir. XXI əsrdən etibarən isə dünya əhalisinin sayındaki nəzərəçarpacaq artım yaşlıların da cəmiyyətlər daxilindəki say nisbətini artırır. Müəyyən çəkiyə sahib olan yaşlı əhalinin artması sosiogerontologiya elmini önəmini bir daha vurğulayır.

Bütün dünyada yaşlıların sayının artması müasir cəmiyyətlərdə görünən əsas fenomen olan yüksək doğum və ölüm nisbətlərinin azalmasının nəticəsidir. Hesablamalara görə, 2050-ci ilə qədər tarixdə ilk dəfə olaraq dünyada yaşlı insanların sayının gənclərin sayından çox olacağı gözlənilir. BMT-nin hesablamalarına görə, 2050-ci ilə qədər hər beş nəfərdən biri 60 yaş və yuxarı, 2150-ci ildə isə üçdə biri olacaq. Bu əsrdə gözlənilən ömür uzunluğu orta hesabla 30 il artıb. Qlobal səviyyədə, 2005-2030-cu illər arasında 85 və yuxarı yaşda olan əhalinin 151%, 65 və yuxarı yaşda olan əhalinin isə 104%, 65 yaşdan kiçik əhalinin isə yalnız artımı gözlənilir. 21%. 2015-ci ildən 2030-cu ilə qədər dünyada 60 və yuxarı yaşlı insanların sayının 56% artaraq 901 milyondan 1,4 milyarda çatacağı gözlənilir. 2015-ci ildə 80 yaşdan yuxarı insanların sayı 125 milyon olduğu halda, 2050-ci ildə iki dəfədən çox artaraq 434 milyon nəfərə çatacağı təxmin edilir. Qlobal səviyyədə, 1950-ci ildə hər 12 nəfərdən 1-i ən azı 60 yaşında, hər 20 nəfərdən 1-i isə 65 yaşında idi. 2000-ci ilə qədər bu nisbətlər 60 və yuxarı yaşda olan hər yaş qrupunda 1-ə yüksəldi. 65 və yuxarı yaşda olanlar üçün isə hər 14 ildən bir 1 dəfə artıb. 2015-ci ildə dünyada hər 8 nəfərdən birinin yaşı 60-dan yuxarı olduğu halda, 2030-cu ildə onun 6 nəfərdən biri olacağı təxmin edilir (3, s. 2).

Əhalinin sayında yaşlıların nəzərəçarpan artımı və gələcəyə dair bu artımın daha da sürətlənəcəyinə dair fakt və düşüncələr sosiogerontologiyanın müasir dövrümüzdə nə qədər

önəmli olduğunu və gələcəydə bu elmin önəminin nə qədər artacağını göstərir. Sosiogerontologiya elmi yaşlılıqla bağlı sosial problem və məsələləri əhatə etməklə yanaşı, həmçinin ölkələrin demoqrafik artım və yaşlıların nisbətinin artması isə bağlı doğum və ölüm nisbətlərinin tarazlaşdırılması, əhali sayının sabit saxlanılması kimi siyasət modellərinin tətbiq olunmasında da sosiogerontologiya elmi həm nəzəri, həm tətbiqi elm kimi önəmli rol oynayır.

## ƏDƏBİYYAT

1. Məmmədova R.O. Sosial işə giriş. Bakı: Ecoprint, 2019, 208s.
2. Şəfiyev Ü.A. Sosial iş izahlı terminlər lüğəti. Bakı: Elm və təhsil, 2018, 208s
3.Birinci E. Gerontolojik Sosyal Çalışma Üzerine Bir Değerlendirme, Eskişehir: Anadolu Üniversitesi, 2020, 23s
4.Cox H. and Newston R. History of Social Gerontology. Indiana State University, 1993, 18s
5. Gerontologiya – bu nə elmdir? Gerontologiya İnstutu. Sosial Gerontologiya
https://az.drunkentengu.com/gerontologiya-chto-eto-za-nauka-institut-gerontologii-sotsialnaya-gerontologiya-6c80
6. Gerontologiya: Yaşlanma Elmi
https://az.nsp-ie.org/gerontologia-la-ciencia-de-la-vejez-4b66c8e-24b6c0
7. Sosial Xidmətin Formaları, Rəhmətullayeva C.
http://www.geostrategiya.az/news.php?id=115
8. Sosyal Gerontoloji Nedir? Geriatri ile ne gibi bağlantısı vardır?
http://www.manevibakim.com/bilim_alanlari/sosyal_gerontoloji/index.asp

## SOSİOGERONTOLOGİYANIN TARİXİ

*Ələsgərov Səbuhi*

### XÜLASƏ

Bu məqalədə yaşlılarla bağlı sosial məsələləri əhatə edən sosiogerontologiya və onun tarixi haqqında ətraflı məlumat təqdim olunub. Yaşlanma, onun mərhələləri haqqında məlumat qeyd olunub. Gerontologiya elmi və onun yaşlıların hansı problemlərini həll etməsi ilə bağlı informasiya araşdırılıb. Sosiogerontologiyanın tarix boyu hansı nəzəri və praktiki yollar keçdiyi və onların elmin müasir dövrdəki vəziyyətinə təsiri analiz edilib. Sosiogerontologiyanın müasir dövrdə tətbiqi elm kimi hansı xidmətləri əhatə etməsi haqda bəhs olunub.

## ИСТОРИЯ СОЦИОГЕРОНТОЛОГИИ

*Алескеров Сабухи*

### АННОТАЦИЯ

В этой статье представлена подробная информация о социогеронтологии и ее истории, охватывающая социальные проблемы, связанные с пожилыми людьми. Отмечается информация о старении и его стадиях. Изучена информация о науке геронтологии и о том, какие проблемы она решает у пожилых людей. Проанализированы теоретические и практические пути социогеронтологии на протяжении истории и их влияние на современное состояние науки. Какие услуги охватывает социогеронтология как прикладная наука в наше время?

# THE HİSTORY OF SOCİOGERONTOLOGY

***Alesgerov Sabuhi***

## SUMMARY

This article provides detailed information on sociogerontology and its history, covering social issues related to the elderly. Information about aging and its stages is noted. Information on the science of gerontology and what problems it solves in the elderly was studied. Theoretical and practical paths of sociogerontology throughout history and their impact on the current state of science were analyzed. What services does sociogerontology cover as an applied science in modern times?

# ƏLİLLİK PROBLEMİNƏ TARİXİ BAXIŞ

***Əliyev Mehman***
***ATMU-nun II kurs magistrantı***
***Elmi rəhbər: dos. Məmmədov Nail***
***aliyevmehman999@gmail.com***

***Açarsözlər:*** Əlillik anlayışı, əlilliyin tarixi, sosial siyasət, qədim dövr, orta əsrlər.
***Ключевыеслова:*** понятие инвалидности, история инвалидности, социальная политика, древний период, средний век.
***Keywords:*** the concept of disability, history of disability, social policy, ancient period, middle-age century.

Əlillik yeni meydana çıxan bir anlayış deyil çoxdan mövcud olan qədim bir anlayışdır. Əlilliyi olan ilk insanın qalıqları aparılan qazıntılar zamanı şimal-şərqi İraqda aşkara çıxarılmışdır. Eramızdan 45 min il öncə yaşadığı təxmin edilən bu insanın 35-40 yaşlarında çox ağır formalı əlil olduğu qənaətinə gəlinmişdir. Bu şəxsin yerimə qüsurlu olduğu, sol gözünün görmədiyi, sağ qolunun və əlinin iflic olduğu müəyyən olunmuşdur.

Tarix boyu əlillərə müxtəlif cür münasibətlər göstərilib. Əlillərə qarşı müxtəlif cəmiyyətlər tərəfindən göstərilən rəftarların bəziləri haqqında söz açaq.

Əlilliyə mənfi münasibət öz tarixi köklərini qədim Spartatan götürmüşdür. Roma əsilli məşhur tarixçi olan Plutarxa görə, Spartada fiziki qüsuru olan uşaqları yüksək qayalardan atarmışlar. Spartada fiziki qüsur qəbul edilməz idi çünki bütün sparta kişiləri döyüşçü kimi yetişdirilirdi. İnsanın fiziki cəhətdən mükəmməlliyinə çox yüksək qiymət verilən Qədim Yunanıstanda fiziki qüsurla dünyaya gələn əlil uşaqlar öldürülürdü və ya meşədə ölümə tərk edilirdi.

Qədim Yunan Sparta sivilizasiyasında əlil dünyaya gəlmiş uşaqların günəşin həddindən çox olduğu təpəliklərdə tərk olunması, bağlanması və qızğın günəş şüaları altında tələf edilməsi qəbul edilə bilərdi.

Qədim Yunan düşüncəsinin daha olqun dövrlərində, Sparta sivilizasiyasında və Afina cümhuriyyətində əlil uşaqlar doğular- doğulmaz öldürüldüyü təqdirdə və ailələrinin seçim haqqı olmazkən, Bütpərəst Roma və Alman qanunları altında əlil doğulan uşaqı öldürmə haqqı ataya aid idi [1]. Bu qanun e.ə IV əsrdə tamamilə ləğv edilmişdir. Sonrakı illərdə isə kölələr kimi əlillərdə insanları əyləndirmək məqsədilə kral sarayında xidmət etməyə başlamışdılar.

Ölümdən qaçmağa çalışan əlillərin sonu isə daha çox bədbəxtçiliklə nəticələnmişdir. Məsələn, Romada yaşamağa çalışan görmə qüsurlu qız uşağları daha çox fahişəlik üçün satıldığı təqdirdə, gözdən əlil olan oğlan uşaqları daha çox dilənçilik etmək üçün hazırlanmışdır. Firavan şəkildə yaşayan Roma ailələri, zaman-zaman əlilliyi olan şəxsləri onları əyləndirmələri üçün təlxəy kimi icarəyə götürmüşlər. Hətda Romada əlilliyi olan şəxslərin satışının həyata keçirildiyi xüsusi bir bazarda ortaya çıxmışdır. Buna oxşar bir şəkildə Misir fironları əlilləri şəxsi əyləncələri və onlara uğur gətirməsi səbəbi ilə saxlayırdılar. Romadakı kimi tamamilə başqa bir coğrafi ərazi olan Çində isə əlilliyi olan qızlar küçə küçə gəzdirilərək pul toplamaları üçün mahnı oxudulmuş və fahişəlik etməyə məcbur edilmişdi.

Orta əsrlər boyu, əlillik pis ruhlar, cadugərlik və sehr ilə əlaqələndirilmişdir [2]. Əlilliyi olan uşaqların cadugərlər və iblis tərəfindən dəyişdirildiklərinə, cadugərlər və şeytan tərəfindən idarə olduqlarına inanılmışdır. Nəticə olaraq cəmiyyət fiziki qüsuru olan şəxslərdən qaçır yada əliliyi olan şəxsləri “xəstə” sayırdılar. Belə olduğu təqdirdə xəstə hesab olunan şəxslərin dustaq kimi

yaşaması, onların təcrid olunması qəbul edilən hesab edilirdi. Əqli problemi olan insanlar dəli adlandırılırdı və hamı bu cür insanların onlar üçün təhlükəli olduğunu fikirləşərək onlardan qorxurdu. Bu dövrdə əlillərin məşğulluğunun təmin olunması və cəmiyyətin həyatında normal iştirakından danışmaq isə qeyri-mümkün idi.

Əlillərə münasibətinə görə qədim yəhudi mədəniyyəti xüsusilə fərqlənir. Qədim yəhudilərdə əlil uşaqların öldürülməsinə qəti şəkildə icazə verilmirdi bu qadağan idi. Lakin buna baxmayaraq əlillər əvvəllər olduğu kimi günah sahibi insanlar hesab olunur və bu səbəblədə onlara dini ayinlərdə iştirak etmək qadağan olunurdu.

Xristianlarda əlil şəxslər monastırlarda yaşayırdılar beləki xristian əlillər rahiblik ənənələrinə söykənərək onları yemək və sığınacaqla təchiz edən monastırlara çəkilirdilər.

İslam dini yarandığı dövrdən etibarən fiziki qüsurlu şəxslərlə xoş münasibətə çağırırdı. İslamda görmə əngəli olan şəxsə kömək etmək, eşitmə problemi olan şəxslə onun başa düşə biləcəyi formada ünsiyyət yaratmaq sədəqənin növləri sayılırdı. İslam dinində fiziki cəhətdən məhdudiyyəti olan şəxslərə şəvqət göstərmək onlara qarşı xoş davranmaq heç bir vasitə ilə onları utandırmamaq buyurulmuşdu.

Orta əsrlər Avropasında isə əlilliyə təbii qəbul edilən anormal bir hal kimi baxılmış, iqtisadi çətinlikləri aradan qaldırmaq məqsədi ilə əlil uşaqların öldürülməsi müxtəlif formalarda təbliğ edilmişdir. Məsələn, Almaniyalı keşiş, teoloq eyni zamanda universitet professoru və Protestantlığın dini rəhbəri olan Martin Luther əlil uşaqlara baxarkən, onlarda şeytanı gördüyünü iddia etmiş və onları öldürməyi tövsiyyə etmişdir.

Qədim dövrdə olduğu kimi orta əsrlərdədə ələ salınan, təlxəyliy etdirilən əlilliyi olan insanlar yüksək təbəqələrin əyləncəsi, oyuncağına çevrilmişdilər. Həmçinin mövzuya "işləmək" cəhətdən baxıldığında ağaların əlillərə təqdim etdiyi yeganə iş imkanının, əqli və ya fiziki əlillərə uyğun olduğu düşünülən saray təlxəyliyi olduğu görülməkdədir [3].

Əlillərə olan münasibətinə görə kilsə xüsusilə diqqət çəkirdi. Xristian kilsələrində insanlar müalicə olunurdu lakin dilsizlər, yəni danışa bilməyən şəxslərə İlahi qəzəbə məruz qalmışlar kimi baxılırdı. Bu insanların müalicə olunmasının və onların danışmasına səy göstərilməsinin Tanrıya qarşı çıxmaq olduğuna inanmışlardır. Kilsənin dil qüsuru olan insanlara bu tərz münasibətinə baxmayaraq, Xristian dünyasında dilsizlərin danışması yönündə səy göstərənlərdə olmuşdur. Məsələn, İngiltərə Yepiskopunun 865-ci ildə dilsizlərə kömək edərək, danışmağı öyrətdiyi rəvayət edilməkdədir [4].

Yeni dövr adlandırılan, Orta əsrlərdən Sənaye İnqilabına qədər olan müddəti əhatə edir. Bu dövr İntibah və bərabərində gətirdiyi bir çox dəyişikliklərlə xarakterizə olunur. Ancaq İntibahında əlilliklə əlaqəli düşüncələri dəyişdirmək qabiliyyəti məhdud olmuşdur. İntibah dövrü boyu Leonardo da Vinçi, William Harvey və başqa müəlliflər insan fiziologiyası və insan anatomiyası ilə bağlı bir çox araşdırmalar aparmış, görmə, eşitmə və insan vücudunun digər hissələri barədə bir çox çalışmalar ortaya qoymuşlardır. Bütün faydalarına və sözü gedən inkişaflara baxmayaraq o dövr cəmiyyətinin əlillərə qarşı münasibəti dəyişməmişdir. Bir çox müəlliflərdə əlilliyi, ən əsasıda əqli cəhətdən əlilliyi şeytanın əsəri olaraq görürdülər. Əlilləri ölmüş ruhların cəsəd halı olduqlarına inanılaraq onların öldürülməsini tövsiyə edirdilər.

XVII əsrdən etibarən isə Avropa ölkələrində artıq əlillərin vəziyyəti nisbətən düzəlməyə başlamışdı. İspaniyalı Pedro Ponce de Leon adlı keşişin 1510-cu illərdə hazırladığı və eşitmə qüsuru olan insanlara ünsiyyət qurmağı öyrədən metodu İspaniya və Fransa kimi ölkələrdə çox geniş bir şəkildə yayılmağa başlamışdır. İşarət dilinin öyrədilməsini tövsiyə edən metodların tövsiyyə edilməsi ilk olaraq eşitmə qüsuru olan əlillər, daha sonralar isə gözdən əlil uşaqlar üçün internat tipli məktəblərin yaradılması yönündə bir növ ilham mənbəyi olmuşdur.

1752- ci ildə ilk dəfə Benjamin Franklin və Thomas Bond tərəfindən əlillərə reabilitasiya və baxım xidmətləri təqdim edən ümumi bir xəstəxana qurulmuşdur. O dövrün texnikalarından istifadə edərək əlilliyi olan insanlara xidmət göstərən bu xəstəxana ilk qurum olma özəlliyi ilə ölçüsüz bir inkişafı təmsil etmişdir.

XX əsrdə əlilliyi olan insanlara qarşı ən qəddar münasibət Hitler Almaniyasında olmuşdur. 1933-cü ildə əlillərin uşaq dünyaya gətirməsi qəti şəkildə qadağan edilməsi barədə qanun qəbul edildi. Əlillərin cəmiyyətdən uzaqlaşdırılmasına başlanıldı. Qanuna görə epilepsiya, görmə, eşitmə və şizofreniya xəstələri nəzarətə götürüldü. 1933-cü ildən başlayaraq əlilliyi olan şəxslərin cəmiyyət üçün faydasız olduğu düşünülərək 800 minə qədər əlilliyi olan insanın ölürülməsinə qərar verildi. Əlillərə yardım məqsədilə dövlət tərəfindən reabilitasiya mərkəzlərinə və klinikalara ayrılan pul vəsaitləri tamamilə dayandırıldı. Əlilliyi olan şəxslərin kütləvi şəkildə qətliamına başlanıldı. Əlilləri otaqlara salaraq diri diri yandırırdılar. 1940-ci ildə kilsənin etirazlarından sonra Hitler 1941-ci ildə əillərin kütləvi şəkildə qətliamını dayandırmışdı.

Ümumi şəkildə tarixin müxtəlif dövrlərinə nəzər yetirdikdə görürük ki əlliliyi olan insanlar hər zaman müxtəlif çətinliklərlə qarşılamışlardır. Sözü gedən çətinliklərin isə demək olarki əksəriyyəti cəmiyyətdəki insanların münasibəti ilə əlaqəli olmuşdur.

Respublikamızda əllilik probleminin kəskin şəkildə meydana çıxması daha çox Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən sonra meydana gəlmişdir. Minlərlə sağlam insan əlilliyi olan şəxsə çevirilmişdi.

Azərbaycan respublikasının bu sahədə sosial siyasəti əlillərin sosial müdafiəsinin maksimum dərəcədə təminatından ibarətdir. Əlillərin sosial müdafiəsi ilə əlaqəli tədbirlər çox geniş əhatə dairəsinə malikdir. Bu tədbirlər əsasən onların itirilmiş əmək qabiliyyətlərinin kompensasiyasını, sağlamlıqlarının bərpasını, maddi və s. tələbatlarının ödənilməsini əhatə edir [5].

## ƏDƏBİYYAT


1. H.Köse. Kronolojik Engelli Tarihi ve Eğitimi. Engelliler Eğitiminin Tarihsel Gelişimi. İstanbul, 2014.
2. İrina, Metzler. Disability in Medieval Europe. London & New York: Routledge, 2006.
3. Zastrow.C. Sosial Hizmete Giriş (D.B. Çiftçi, Çev.) Ankara, 2013.
4. Fatih Demirel. Dilsiz ve Ama Mektebi-Osmanlıda Sağır-Dilsiz ve Amaların Eğitimi. İstanbul, 2013.
5. Hadi Rəcəbli. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2012.


## ƏLİLLİK PROBLEMİNƏ TARİXİ BAXIŞ

*Əliyev Mehman*

## XÜLASƏ

Əlillik insanın əmək və hərəkət qabiliyyətinin itirilməsi vəziyyətidir. Əlillər cəmiyyətin həssas təbəqəsini təşkil edir. Onların sosial müdafiəsi daim diqqət mərkəzində olmalıdır. Məqalədə tarix boyu əlillərə qarşı müxtəlif cəmiyyətlər tərəfindən göstərilən münasibətlərdən, əlillərə qarşı edilən ədalətsiz rəftarlardan bəhs olunur. Həmçinin, qısa olaraq Azərbaycanda əlillik problemi mövzusunada toxunulmuşdur.

# ИСТОРИЧЕСКИЙ ВЗГЛЯД НА ПРОБЛЕМУ ИНВАЛИДНОСТИ

***Алиев Мехман***

## АННОТАЦИЯ

Инвалидность – это состояние, при котором человек теряет способность работать и двигаться. Люди с инвалидностью – уязвимая часть общества. Их социальная защита всегда должна быть в центре внимания. В статье исследуется отношение разных обществ к людям с инвалидностью и несправедливое отношение к людям с инвалидностью на протяжении всей истории. Также кратко была затронута проблема инвалидности в Азербайджане.

# HISTORICAL VIEW OF THE DISABILITY PROBLEM

***Aliyev Mehman***

## SUMMARY

Disability is a condition in which a person loses the ability to work and move. People with disabilities are a vulnerable segment of society. Their social protection should always be in the center of attention. The article discusses the attitude of different societies towards people with disabilities and the unfair treatment of people with disabilities throughout history. The problem of disability in Azerbaijan was also briefly touched upon.

# SOSİAL MÜDAFİƏ ANLAYIŞI: MAHİYYƏTİ, MƏZMUNU VƏ TARİXİ

***Həsənli Zərifəxanım Fayiq qızı***
***ATMU-nun II kurs magistrantı***
**zarifakhanimhasanli@gmail.com**

***Açar sözlər:*** sosial müdafiə, əhalinin sosial müdafiəsi, sosial müdafiə anlayışının mahiyyəti, sosial müdafiənin əsas məqsədi.
***Ключевые слова:*** социальная защита, социальная защита населения, концепция социального обеспечения, основная цель социальной защиты
***Keywords:*** social security, social security of the population, the essence of the concept of social security, the main purpose of social protection security.

Müasir dövrdə texnologiyanın, sənayenin inkişafı özü ilə birlikdə yeniliklər, inkişaf və tərrəqi gətirməklə yanaşı, cəmiyyət-insan, dövlət-vətəndaş, texnologiya-insan, insan-insan arasında yeni münasibətlərin və problemlərin yaranmasına da şərait yaratdı. Günü-gündən inkişaf edən texnologiya və sənayenin inkişafı ilə çiçəklənmə dönəmlərin yaşayan dövlətlər, qloballaşan dünya bu münasibətlərə artıq fərqli yanaşılmasının vacibliyini göz önünə gətirdi. İnsan kapitalı, təşkil olunan siyasətin artıq insana yönəlməsi dövlətlərin piroritet hədəflərini müəyyəşlədirdi. Bu proses 20-ci əsrdən öz aktuallığını qorumağa davam edir və 21-ci əsrdə yeni bir məna kəsb etməyə başlamışdır. Belə ki, artıq inkişaf etmiş dövlətlərin eyni zamanda, inkişaf etməkdə olan dövlətlərin qarşısındakı əsas məqsəd əhalinin sosial rifahını təmin etmək, sosial müdafiə sisteminin gücləndirilməsini təşkil etməkdir. Təsadüfi deyil ki, son dövrlərdə istər kütləvi informasiya vasitələrində, istər elmi ədəbiyyatlarda, normativ-huquqi aktlarda, qanun, sərəncam və fərmanlarda tez-tez əhalinin sosial müdafəsi ilə bağlı yeni və ya artıq mövcüd olan çoxsaylı terminlərlə; sosial müdafiə, sosial təminat, sosial təhlükəsizlik, sosial yardım, sosial xidmət, sosial iş və s. qarşılaşırıq.

Əhalinin sosial müdafiəsi ilə əlaqədar olan bir çox anlayışlar bir-birini əvəz edə bilir, ya da bir-biri ilə çox yaxın məna kəsb edirlər. Bunun əsas səbəbi aidiyyəti sahə ilə əlaqədar olan mövcüd terminlərin müxtəlif ölkələrdə, fərqli zamanlarda, fərqli məqsədlər üçün yaranması və istifadə edilməsidir. Lakin bu o demək deyil ki, mövcud terminlər hamısı bir-birinin əvəzinə işlənə bilir. Qeyd olunan anlayışların əksəriyyəti təyinatı, məna yükü və məqsədi ilə aralarında cüzi də olsa fəqlərin mövcudluğunu sübut edir. Yuxarıda adını qeyd etdiyimiz terminlərdən sosial müdafiə və sosial təhlükəsizlik terminləri bir-biri ilə daha çox eynilik təşkil edən terminlərdəndir. Sosial təhlükəsizlik (“Social security”) anlayışı ilk dəfə ABŞ – da istifadə olunmuşdur. Bu termin dilimizə sosial müdafiə və ya sosial təhlükəsizlik kimi tərcümə olunur. Onu da qeyd edək ki, keçmiş SSRİ – də sosial müdafiə məsələləri öz əksini sosial təminat anlayışı altında tapmışdır. Belə ki, SSRİ dönəmində sosial müdafiə və sosial təminat terminləri eyniləşdirilirdi. Lakin sosial təminat sosial müdafiənin dövlət tərəfindən tətbiq olunan təşkilati-hüquqi formalarından biriridir.

Bəs “sosial müdafiə” anlayışının fərqi nədən ibarətdir?

Sosial təhlükəsizlik anlayışı yeni bir termin olub, ilk dəfə 1935-ci ildə ABŞ-da “Sosial təhlükəsizlik haqqında” qanunda istifadə olunmuş və 1942-ci ildə «Beveric Planı»nın qəbul olunmasından sonra daha da geniş istifadə olunmağa başlanılmışdır. Sosial müdafiə anlayışı ilə bağlı əksər məsələlər 10 dekabr 1948 – ci ildə Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi “İnsan hüquqları haqqında” bəyannamədə geniş və ətraflı izah olunmuş şəkildə öz əksini tapdıqdan sonra sosial müdafiə anlayışının beynəlxalq səviyyədə tətbiqinə başlanılmışdır.

Terminin yaranma tarixinin hər nə qədər yeni olmasına baxmayaraq, biz qeyd edə bilərik ki, insanların sosial təhlükəsizliyə və sosial müdafiəyə duyduqları ehtiyac insanlıq tarixi qədər qədim köklərə malikdir. Bəşər tarixinin yaranmasından bu günə kimi xəstəlik, əlillik, ahıllıq, yoxsulluq, aclıq, səfalət və s çətin həyat şəraitinin hökm sürdüyü zamanlarda, xüsusi ilə də orta əsrlərdə mövcud olan feodalizm və kapitalizim quruluşlarında sosial təhlükəsizlik və sosial müdafiyəyə ehtiyac duyulmuşdur. Cəmiyyətlər inkişaf etdikcə bu tip ilkin həyati problemlərin bir çoxu aradan qaldırılsa da, insanın inkişafı və sosiallaşan varlıq olaraq cəmiyyətin bir parçası olması hər zaman sosial müdafiənin hədəf qrupu, yəni obyekti olması həqiqətini dəyişməmişdir.

Sosial müdafiə terminінə hər kəs tərəfindən qəbul edilən və anlaşılan bir tərif vermək mümkün deyildir. Təsadüfi deyil ki, müxtəlif mütəfəkkirlər tərəfindən bu terminə fərqli yanaşmalar nümayiş etdirilir. Bu da sosial sahədə olan terminlərin yeniliyindən irəli gəlir.

Bəzi yanaşma və konsepsiyalara görə sosial müdafiə və sosial təhlükəsizlik huququn bir sahəsi deyil, əksinə sosial sahədə tətbiq olunan bütün proqramların məcmusudur. Belə ki, sosial müdafiə sadəcə insanların gələcəklərinin təminatını təşkil etmək üçün tətbiq olunan qanunlar toplusu deyil, eyni zamanda, sosial siyasətin bir hissəsidir. Lakin, bu yanaşmaya görə, sosial müdafiə əsas etibarı ilə onu formalaşdıran normativ-hüquqi aktlar və qanunlar baxımından təhlil olunduğu təqdirdə təbii olaraq hüququn bir sahəsi olaraq qəbul ediləcəkdir.

Sosial müdafiə dövlət tərəfindən qanunvericiliklə təyin olunmuş prinsiplər və metodlar sistemidir. Bu sistemə müxtəlif sosial kateqoriyaya mənsub qrupların və şəxsiyyətin həyatının optimal şəraitinin yaradılması, təyin edilmiş ehtiyacları təmin edən sosial zəmanətlər, tədbirlərin təmin olunması daxildir. Sosial müdafiə həm də həyat təminatının və fəal yaşamanın qorunmasını nəzərdə tutur. Sosial müdafiə eyni zamanda, vətəndaşların normal həyatında risk vəziyyətlərinə, o cümlədən xəstəliyə, işsizliyə, qocalığa, əlilliyə, ailə başçısının vəfat etməsi və s. vəziyyətlərə qarşı yönəldilmiş məcmu təsirləri nəzərdə tutur. Nəhayət, sosial müdafiə əhalinin sosial cəhətdən zəif təbəqələrinin sosial-iqtisadi dəyişikliklər nəticəsində (bazar münasibətlərinə keçid şəraitində) minimal həyat səviyyəsini təmin etmək deməkdir. Sosial müdafiə – dövlətin və ya cəmiyyətin bütün vətəndaşları sosial təhlükələrdən qorumağa yönəldilən, əhalinin müxtəlif kateqoriyalarının həyat fəaliyyətinin pozulmasına imkan verəməyən fəaliyyəti kimi çıxış edir. Sosial müdafiə ən çox acınacaqlı vəziyyətdə olanları qoruyur [4, səhifə 175].

Yuxarıda qeyd olunan tərifdən çıxış edərək deyə bilərik ki, sosial müdafiə gəlirlərindən asılı olmayaraq ölkədə yaşayan hər bir vətəndaşın, vətəndaşlığı olmayan şəxslərin, o cümlədən əcnəbilərin, bütövlükdə cəmiyyətin nizamnı və rifah halını pozan sosial təhlükələrin və sosial problemlərin verdiyi zərərlərdən, insanların bir pozitiv hüququ olaraq və əsas etibarı ilə dövlətin mühim vəzifəsi olaraq, maddi və ya qeyri-maddi formaların istifadə olunması ilə sosial problemlərin aradan qaldırılmasını və insanların rifah halının yaxşılaşdırılmasını hədəfləyən bir sistemdir.

Sosial müdafiə termini dinamik xüsusiyyətlərə malik olub, bu səbəblə sosial sosial siyasət və sosial müdafiə arasında bir bütünləşmə formalaşdırmaqdadır. Belə ki, sosial müdafiə dar və geniş olaraq iki fərqli şəkildə müəyyən edilə bilər:

1. Geniş mənada sosial müdafiə dedikdə biz, cəmiyyətdə yaşayan fərdlərə iqtisadi dəstək təmin edilməsi, cəmiyyət üçün ümumi olaraq risk halı kimi qəbul edilən hadisə və sosial problemlərə qarşı müdafiə sisteminin təkmilləşdirilməsi və cəmiyyətin hər bir fərdi üçün şəxsiyyətin inkişafını təmin edilməsi üçün dövlət tərəfindən sistemin fəaliyyətini təşkil olunmasını nəzərdə tuturuq. Bura ümumilikdə dövlətin sosial siyasəti, iqtisadi durumu, dövlət tərəfindən sosial sahədə həyata keçirilən bütün növ islahatlar, proqramlar və s. daxildir. Geniş mənada sosial müdafiə anlayışının izahında aşağıdakı əsas məqamlar diqqətdə saxlanılmalıdır.

➢ Sosial müdafiə və fərdi iqtisadi azadlıq – Müasir dövlətlərin hüquq sistemlərinə, sosial siyasi islahatların istiqamətlərinə baxıldıqda və həmin hüquqi sistemləri təhlil etdikdə biz sosial risk və sosial problemlərin insanlar üzərindəki təsirini yəni, onların nəticələrini ortadan qaldırılması üçün səy göstərildiyini görürük. Başqa bir formada desək sosial müdafiə dedikdə fərdlərin onu sosial müdafiənin obyekti durumuna gətirən vəziyyətlərə; xəstəlik, əlillik, işsizlik, yoxsulluq və s. bu tip sosial risklərin yol aça biləcəyi gəlirlərin itirilməsi və ya artması hallarının qarşısının alınması və ya bu halların minimuma endirilməsini özündə birləşdirən fəaliyyətlər toplusu nəzərdə tutulur . Mövzunun bu baxış bucağından araşdırılması və analizi sosial müdafiə terminin əhatə dairəsinin genişlənməsinə yol açır. Çünki fərdin bütün həyatı və bununla bağlı olan problemlər sosial müdafiənin əhatə dairəsi daxilində yer alacaqdır. Halbuki, günümüzdə sosial müdafiənin bu tip geniş əhatə dairəsi yoxdur.

➢ Sosial müdafiənin profilaktik funksiyası – yuxarıda qeyd olunduğu kimi sosial risklərin insanların həyatları üzərindəki zərərli təsirlərini aradan qaldırmaq istiqamətində səy göstərməkdənsə, zamanla risklərin səbələrinin qarşısının alınmasının daha əlverişli olacağı anlaşılmışdır. Başqa bir sözlə, bərpa və reabilitasiya metodlarının, profilaktik tədbirlərlə əvəzlənməsi yönündə işlər görülmüşdür. Belə ki, profilaktik tədbirlərin həyata keçirilməsi, həm dövlət, həm də cəmiyyət üçün fayda təmin edəcəkdir. Məsələn müasir sosial siyasətdə işsizlik və sağlamlıq kimi mözvularda profilaktik tədbirlərin təşkilinə daha çox yer verilmişdir. Bunlarla yanaşı, qeyd olunmalıdır ki, sosial müdafiə terminə bu cür yanaşmaq onun sərhədlərinin müəyyənləşdirilməsində bir sıra problemləri ortaya çıxaracaqdır. Nümunə kimi xəstəlik və əlilliyin qarşısının alınması üçün təşkil olunan profilaktik – qabaqlayıcı tədbirlər səhiyyə müəssisələri, işçiləri, dərman vasitələri ilə təmin olunma və s. daxil olmaqla müvafiq sahə ilə əlaqədar olan bütün səhiyyə sistemin təkmilləşdirilməsi üçün nəzərdeə tutulan səhiyyə islahatlarını və işsizliyin qarşısının alınması üçün həyata keçirilən iqtisadi islahatların ayrılmaz bir hissəsi olan məşğulluq siyasətini əhatə edəcəkdir. Odur ki, bu tip geniş mənada həyata keçirilən sosial müdafiə tədbirlərini dövlətin sosial siyasətindən ayırmaq mümkün deyil.

➢ Sosial müdafiə və şəxsiyyətin inkişafı – İnsan hüquqları haqqında BMT-nin beynəlxalq bəyannaməsinnin 22-ci maddəsində: “Hər kəs cəmiyyətin bir fərdi olaraq sosial müdafiə haqqına sahibdir, sosial müdafiə fərdin şərəfi, onun şəxsiyyətinin inkişafı üçün qaçılmaz, iqtisadi, sosial və mədəni hüquqlarının təmin edilməsi təməlinə dayanır” fikrinə yer verilmişdir. Bu maddə diqqət mərkəzinə gətirildikdə fərdləri sosial rikslərə qarşı müdafiə cəhdləri ətrafında cəmləşən sosial müdafiə siyasətində əsas məqsəd hər kəsə şəxsiyyətini inkişaf etdirmək imkanını vermək olduğu görüləcəkdir. Başqa sözlə desək, şəxsiyyətin inkişafı və insanların xoşbəxtliyi sosial müdafiə siyasətinin əsasında dayanır. Azərbaycan Respublikasının konstitusiyasınnın 16-cı “Sosial inkişaf və dövlət” və 38-ci “Sosial təminat hüququ” maddələrində də sosial müdafiə və insanların sosial rifah halının inkişaf etdirilməsinin vacibliyi vurğulanır.

Xülasə, bu anlayış sosial müdafiə siyasətinə yeni bir məna qatdı. Bu çərçivədə sosial müdafiə siyasəti hər kəsin mədəniyyət, təhsil, istirahət, ədalət, asudə vaxtının təşkili, fərdi inkişafı, idarəetmə iştirakı, əlilliyi olan şəxslər üçün inkuliziv proqramların təşkilini, gender bərabərliyi və s. kimi mövzuları əhatə edəcəkdir. Lakin sosial müdafiə haqqında belə geniş anlayış sosial müdafiə hüququnun müstəqil hüquq sahəsi kimi xüsusiyyətini aradan qaldıracaqdır. Bundan əlavə, heç bir ölkədə bu qədər geniş mövzu və məsələləri əhatə edən hüquq sahəsi yoxdur. Bu baxımdan sosial müdafiə anlayışının hüquqi mənasını və ölçülərini “sosial müdafiə sistemləri” ifadəsində təcəssüm etdirdiyi dar mənaya əsaslanaraq müəyyən etmək daha məqsədə uyğun olardı.

2. Dar mənada sosial müdafiə demək olar ki, bütün ölkələrdə hüquq normalarının müəyyən bölməsi, sosial müdafiə sistemləri kimi xarakterizə olunur. Beləliklə, kifayət qədər geniş şəkildə

qəbul edilə bilən sosial müdafiə siyasəti daha dar sosial təminat anlayışı ilə əvəz edilmiş olur. Bu vəziyyət yuxarıda vurğulanan "sosial müdafiə hüququn bir sahəsi yox, bu sahədə həyata keçirilən sosial islahat və proqramların məcmusudur" fikrini təkzib etmiş olur. Lakin, dar mənada sosial müdafiə əsas etibarı ilə onu formalaşdıran normativ-hüquqi aktlar, fərman, sərəncam və qanunlar çərçivəsində müəyyənləşəcək və beləliklə, sosial təminat hüququnu formalşdırmış olacaq.

Uzun müddət ərzində sosial müdafiənin əsas məqsədinin sadəcə əhalinin zəif təbəqələrinin, xüsusən də yoxsulların müdafiə olunması tədbrlərinin təşkili olduğu bilinməkdə idi. Belə ki, yoxsulların müdafiəsinin əsas məqsədi öz əksini qəbul edilən bir çox qanunlarda tapmışdır. Yoxsulların sosial müdafiəsi ilə yanaşı uzun müddət ahıların sosial müdafiəsi də sosial müdafiəni prioritet istiqaməti kimi öz əksini tapmışdır.

Daha da konkretləşdirsək, qeyd olunan sosial müdafiə sistemini fərdin həyat fəaliyyətinə mənfi təsir edən bütün riskləri deyil, şəxsin iqtisadi təhlükəsizliyini sarsıda biləcək fizioloji (xəstəlik, əlillik), sosial-iqtisadi (işsizlik) və peşə (iş qəzaları və peşə xəstəlikləri) aid sosial riskləri əhatə edir. Bu mənada sosial müdafiə termininin əhatə dairəsi daralmış olur. Yəni, sosial müdafiə sadəcə sosial risklər qarşısında sosial təminat verən sosial təsisat və ya sosial qurumlar toplusu olaraq göstərilmiş olur.

Sosial müdafiə anlayışı onun dar və geniş mənalarının təhlili bizə onun məqsədini, funksiyalarını və vəzifələrini müəyyənləşdirməkdə kömək etmiş olur.

Sosial müdafiənin məqsədi sosial müdafiənin əsas hədəfi olan sosial risklərin nəticələrinə qarşı şəxsin gəlir təminatını təmin etməkdir. Belə ki, bu yanaşmaya görə sosial müdafiənin məqsədi risklərin qarşısını almaq deyil. Sosial müdafiənin məqsədi sosial risklərin qarşısını almaqdan daha çox, risklərin iqtisadi nəticələrinə qarşı tədbirlər hazırlamaq və insanları ehtiyac içində olmaqdan qorumaqdır. Sosial müdafiə insanlara həyat səviyyəsinin aşağı düşməyəcəyi təhlükəsizlik hissini təmin etmək, eləcə də ehtiyac içində olmaqdan qaçmaq məqsədi daşıyır.

Keçən əsrdə sosial müdafiənin məqsədi ahıllıq, yoxsulluq və sənayedə işləyən işçilərin müdafiəsini təmin etmək idisə, müasir dövrdə ilk öncə ABŞ , Qərb və Avropa ölkələrində tətbiq olunmağa başlanan, daha sonra isə bir çox dünya ölkələrinə yayılan insana inkişaf edən sosial və psixoloji varlıq kimi yanaşılması, onların ruh sağlamlığının, cəmiyyətə adaptasiyasının, reabilitasiyasının təşkili məsələsi sosial müdafiənin əsas məqsədi olaraq öz əksini tapmışdır.

Beləliklə, sosial müdafiə əhalinin rifah halının yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi, fərdin inkişafı, sosial riksləri aradan qaldırılması istiqamətində profilaktik adımların atılmasını, reabilitasiya və adaptasiya tədbirlərinin təşkilini, insan kapitalının inkişafını, dövlətin sosial, siyasi, iqtisadi siyasətinin birgə fəaliyyətini, mədəni inkişafı, təhsil, səhiyyə, asudə vaxtın təşkilini, gender bərabərliyi, məşğulluq, işsizlik, əlilliyi olan şəxslər üçün inkluziv cəmiyyətin yaradılması və əlilliyi olan şəxslər üçün müyəssərliyin təmin olunması və bütün bunların həyata keçirilməsi istiqamətində dövlətin, QHT-lərin, ictimai birliklərin, vətəndaş cəmiyyətlərinin və vətəndaşların birgə fəaliyyətini özündə ehtiva edir.

## ƏDƏBİYYAT

1. H.M.Rəcəbli. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı, "MBM", 2012
2. M.N.Əliyev. Sosial Təminat Hüququ. Bakı, "Adiloğlu", 2007
3. A.D.Zamanov, H.İ.Əliyeva. Sosial işin əsasları. Bakı, 2015
4. Ü.Şəfiyev, Sosial iş izahlı terminlər lügəti, "Elm və təhsil", Bakı - 2018
5. Dane, K.; Devletin Dönüşümü ve Sosyal Güvenlik Reformu, Yayınlanmamış Yüksek Lisans Tezi, Akdeniz Üniversitesi Sosyal Bilimler Enstitüsü, Antalya, 2008.

6. Güvercin, C. H., "Sosyal Güvenlik Kavramı ve Türkiye'de Sosyal Güvenliğin Tarihçesi", Ankara Üniversitesi Tıp Fakültesi Mecmuası, cilt 57, sayı 2, 2004, 89 – 95.
7. ILO: "Social Security for All: Investing in Global Social and Economic Development", Issues in Social Protection Discussion Paper, No 16, Cenova, 2006.
8. Koç, M., Sosyal Güvenlik Sisteminin Tarihi Gelişimi ve Türk Sosyal Güvenlik Sistemi, Ofis Matbaacılık, Malatya, 2004.
9. Sosyal Güvenlik: Teori, Dönüşüm Ve Türkiye Uygulaması, summer-2009 v.8 n.29
10. Stanko, D., "Social Security in Theory and Practice: An Essay", EconWPA Public Economics Working Papers, no: 0401007, 2004.
11. Scarbrough, E., "West European Welfare State: The Old Politics of Retrenchment", European Journal of Political Research, Cilt 38, 2000, 225 – 259.

## SOSİAL MÜDAFİƏ ANLAYIŞI: MAHİYYƏTİ, MƏZMUNU VƏ TARİXİ

***Həsənli Zərifəxanım***

## XÜLASƏ

Müasir dövrdə texnologiyanın, sənayenin inkişafı özü ilə birlikdə yeniliklər, inkişaf və tərrəqi gətirməklə yanaşı, cəmiyyət-insan, dövlət-vətəndaş, texnologiya-insan, insan-insan arasında yeni münasibətlərin və problemlərin yaranmasına da şərait yaratdı. Təsadüfi deyil ki, son dövrlərdə inkişaf etmiş dövlətlərin eyni zamanda, inkişaf etməkdə olan dövlətlərin qarşısındakı əsas məqsəd əhalinin sosial rifahını təmin etmək, sosial müdafiə sisteminin gücləndirilməsini təşkil etməkdir. Keçən əsrdə sosial müdafiənin məqsədi ahıllıq, yoxsulluq və sənayedə işləyən işçilərin müdafiəsini təmin etmək idisə, son dövrlərdə mövcud anlayışda köklü surətdə dəyişikliklər olmuşdur.

## ПОНЯТИЕ СОЦИАЛЬНОГО ОБЕСПЕЧЕНИЯ: ЗНАЧЕНИЕ, СОДЕРЖАНИЕ И ИСТОРИЯ

***Гасанлы Зарифаханум***

## АННОТАЦИЯ

В ностоящее время развитие техники и промышленности наряду с привнесением инноваций, развития и прогресса создало условия для возникновения новых отношений и проблем между обществом-человеком, государством-гражданином, техникой-человеком, человеком-человеком. Неслучайно в последние годы основной целью развитых стран, как и развивающихся стран, является обеспечение социального благополучия населения и укрепление системы социальной защиты. В прошлом веке целью социальной защиты была защита пожилых людей, люди низшего сословия и промышленных рабочих, но в последние годы в современном понимании произошли радикальные изменения.

# CONCEPT OF SOCIAL SECURİTY: SIGNIFICANCE, CONTENT AND HİSTORY

***Hasanli Zarifakhanim***

## SUMMARY

In modern times, the development of technology and industry, along with bringing of innovations, development and progress, has created conditions for the emergence of new relations and problems between society-human, state-citizen, technology-human, human-human. It is no coincidence that in recent years, the main goal of developed countries, as well as developing countries, is to ensure the social welfare of the population and to strengthen the social protection system. In the 20th century, the goal of social protection was to protect the elderly, people of the low class and industrial workers, however, recent years there has been a radical change in the current perception.

# AZƏRBAYCANDA SOSİAL MÜDAFİƏ SİSTEMİNİN FORMALAŞMASI

***Məsimov Nicat***
***ADMİU-nun "Gənclərlə iş ixtisası üzrə magistrantı***
**nicat.mesimov.1997@mail.ru**

***Açar sözlər:*** sosial müdafiə, yardımlar, prioritetlər, gəlir.
***Ключевые слова:*** социальная защита, льготы, приоритеты, доход.
***Keywords:*** social protection, benefits, priorities, earnings.

Sosial müdafiə dövlətin sosial siyasətinin mühüm tərkib hissələrindən biridir. Sosial müdafiəyə müxtəlif forma və istiqamətlərdə olan sistemlər, onu həyata keçirən həm dövlət, həm də qeyri-dövlət təşkilatları və qurumların məcmusu daxildir. Əhalinin sosial müdafiəsi dövlətin həyata keçirdiyi sosial siyasətə uyğun olaraq həyata keçirilir. Sosial siyasətdə cəmiyyətin sosial sferasının inkişafı tədbirləri, o cümlədən cəmiyyətin hər bir üzvünün maliyyə və digər sosial potensialdan istifadə etməklə yardım və müdafiə ilə təmin edilməsi tədbirləri öz əksini tapır.

Sosial müdafiə termini Azərbaycan dilinə rus dilindən daxil olmuş, burada sosial müdafiə sistemini bildirən "social security" anlayışına çevrilmişdir. Sosial təminat pensiyaçılar, əlillər, uşaqlar və bəzi digər kateqoriyalardan olan əhalini əhatə etməkdədir.

İnzibati - amir tənzimləmə dövründə iqtisadi fəal əhalinin sosial müdafiəsi də həyata keçirilmişdir. Bunlar əhalinin tam məşğulluğunun təmin edilməsi, əməyinin ödənilməsi sistemi, kadrların hazırlanması və yenidən hazırlığı, onların ixtisaslarının artırılması, əməyin mühafizəsi tədbirləri idi. Hesab olunurdu ki, fəhlələrin özləri istehsal vasitələrinin sahibi olduğu ölkədə əhalinin sosial müdafiəsi proqramını hazırlayıb həyata keçirməyə ehtiyac yoxdur [3, s. 39]. Dövlət planlaşdırması tam məşğulluğu, pulsuz səhiyyə və təhsili, təminatlı dövlət pensiyası və s. bütün əhali qruplarını əhatə edirdi. Həmçinin, bu kateqoriya dövlətin funksiyası, fəaliyyət növü, tədbirlər toplusu, təminatların qanunvericiliklə möhkəmləndirilməsi, əhalinin bütün kateqoriyalarını inkişaf etmiş ölkələrin standartlarına uyğun sosial təminat və sosial hüquqlarla təmin etmək kimi qəbul edilə bilər. 1991-ci ildə Azərbaycan SSR Nazirlər Kabinetinin fərmanı ilə Azərbaycan SSR Sosial Sığorta Fondu yaradılmışdır.

1991-ci ilin ikinci yarısında Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Prezidentin 16 dekabr 1991-ci il tarixli Fərmanı ilə Sovet Pensiya Fondunun filialı Azərbaycan Pensiya Fonduna çevrildi. 1992-ci il iyunun 1-də Azərbaycan Respublikasının Parlamenti "Sosial sığortaya və Məşğulluq Fonduna ayırmaların dərəcəsi haqqında" qanun qəbul etdi, ona görə sosial sığorta haqları əmək haqqı fondunun 40 faizini təşkil edirdi. Bu məbləğin 85 faizi Pensiya Fonduna, qalan 15 faizi isə Sosial Sığorta Fonduna verilməli idi. Ölkədə sosial təminat sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi məqsədilə 1992-ci il sentyabrın 30-da Prezident Əbülfəz Elçibəy Pensiya Fondunun və Sosial Sığorta Fondunun ləğvi və onun əvəzinə Dövlət Sosial Müdafiə Fondunun yaradılması haqqında fərman verdi.

1997 və 2001-ci illərdə sosial sığorta qanunları və pensiya islahatları və sosial təminat sisteminin daha da təkmilləşdirilməsi onu beynəlxalq standartlara yaxınlaşdırmışdır [2].

Prezident Heydər Əliyevin 2003-cü il avqustun 4-də "Azərbaycan Respublikasında dövlət pensiya təminatı sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin funksiyaları müəyyən edilmiş, pensiyaların və əlavə müavinətlərin təminatı, maliyyələşdirilməsi və ödənilməsinə nəzarət Dövlət Sosial Müdafiə Fonduna verilmişdir [2]. 2006-cı ilə qədər ölkədə həyata keçirilən vahid sığorta pensiya sistemində aparılan islahatlar sayəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları və xüsusi rütbəli şəxslər icbari sosial sığorta üzrə sığortalanmışdır.

Fondun əsas funksiyaları sosial sığorta və əmək pensiyaları sahəsində dövlət siyasətinə dair təkliflərin hazırlanması, Fondun büdcə layihəsinin hazırlanması və təsdiq edilmiş büdcə ilə müqayisədə cari büdcəyə nəzarətin təmin olunması, hər hansı əmək fəaliyyəti ilə məşğul olan bütün hüquqi və fiziki şəxslərdən məcburi dövlət sosial sığorta haqlarının yığılması; məcburi sosial sığorta prosesində qanunvericilik tələblərinin yerinə yetirilməsinə nəzarətin təmin edilməsi; fondun büdcəsindən pensiyaların verilməsi; qanunvericilikdə nəzərdə tutulmuş müvəqqəti əlilliyə, hamiləliyə və doğuşa, uşağa qulluq etməyə görə müavinətlərin verilməsidir.

Sosial sığorta sahəsində münasibətlər ölkədə sosial sığortanın hüquqi, iqtisadi, təşkilati əsaslarını müəyyən edən "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir. Sosial Müdafiə Qanunu beş fəsildən ibarətdir. Birinci fəsildə sosial sığortanın ümumi anlayışları yer almaqdadır. Bura yeddi məqalə daxildir. Birinci maddədə itirilmiş əmək hüquqlarının və gəlirlərinin kompensasiyasına yönəlmiş təminat forması olan sosial sığortaya aiddir. İkinci maddəyə məcburi dövlət sosial sığortası və könüllü (əlavə) sığorta formasında həyata keçirilən sosial sığortanın formaları daxildir [8].

"Sosial sığorta haqqında" Qanunun birinci fəslinin üçüncü maddəsinə əsasən, sosial sığortanın əsas prinsipləri aşağıdakılardır:

1. Sosial sığortanın davamlılığına dövlət təminatı.
2. Sosial sığortanın universallığı.
3. İşçi tərəfindən bütün əlillik hallarında sosial sığortanın təmin edilməsi
4. Sosial sığorta subyektləri üçün hüquq bərabərliyi
5. Məcburi dövlət sosial sığortası
6. Məcburi dövlət sosial sığortasının idarə edilməsində ictimai təşkilatların iştirakının təmin edilməsi.

Beləliklə, ölkəmizdə əhalinin sosial müdafiəsini sosial təminatların və hüquqların təmin edilməsi kimi milli inkişafın əsas məqsədinə uyğun hesab etmək olar ki, bu da əhalinin bütün kateqoriyalarının inkişaf etmiş ölkələrin standartlarına yaxın sosial təminatların və sosial hüquqların təmin edilməsini nəzərdə tutur. Ölkəmizdə insan faktoru təkcə işçi qüvvəsi kimi deyil, həm də onun naminə milli inkişaf və iqtisadi islahatların aparıldığı bir aktor kimi qəbul edilir. Deməli, sosial müdafiə təkcə müəyyən minimum əmək haqqı və pensiyaların ödənilməsi ilə məhdudlaşmamalı, həm də bütün əhali üçün normal həyat şəraiti və təminat yaratmalıdır.

Beləliklə, bu sahədə səmərəli siyasətin həyata keçirilməsi üçün mövcud vəziyyətin qiymətləndirilməsi, problemlərin müəyyən edilməsi, gələcək inkişaf tendensiyalarını müəyyən etmək üçün mütəmadi tədqiqatların aparılması, ən dolğun statistik məlumatların əldə edilməsi üçün dövlət və regional səviyyələrdə sorğuların keçirilməsi, və əhalinin orta və uzunmüddətli proqnozlarının işlənib hazırlanması olduqca əhəmiyyətlidir.

## ƏDƏBİYYAT


1. Əlirzayev Ə.Q. "Sosial sferanin iqtisadiyyatı və idarəedilməsi" Bakı 2010;
2. Əşrəfova R. S. Azərbaycanda pensiya təminatı sisteminin formalaşması və təkmilləşdirilməsi Bakı 2007
3. İmanov Q. C., Həsənli Y.H Azərbaycanın cocial-iqtisadi inkişafının modelləri. Bakı 2001.
4. Nağıyev Ə.T., Mütəllimova V.A. Sosial inkişafın iqtisadi parametrləri. Bakı 2003.
5. Азизова Г.А. «Рынок труда Азербайджана» Баку 2005.
6. Ржаницина Л. Социальная тактика на современном этапе // Экономист, 2003, 38, с. 59-67. с. 479.

7. Римашевская Н.М. Социальное обеспечение в процессе перехода к рынку// Народонаселение, 2000, N 3, с. 6-20.
8. http://www.e-qanun.az/framework/3813
9. https://www.cbar.az/law-136/law-no-250-iq

## AZƏRBAYCANDA SOSİAL MÜDAFİƏ SİSTEMİNİN FORMALAŞMASI

***Məsimov Nicat***

### XÜLASƏ

Prioritetlər sistemindən asılı olaraq, müxtəlif ölkələrdə sosial yardım anlayışına münasibət fərqli xarakter daşıyır. Tarixi dövrdə bir qayda olaraq, cəmiyyət əsasən varlılar və kasıblar olaraq müxtəlif təbəqələrə bölünmüşdür və belə bölgü ədalətli hesab olunmuşdur. Mülkiyyət hüququnu qoruyan hökumət varlılar sinfini dəstəkləmiş, filosoflar isə yoxsulların mövcudluğunu əsaslandıraraq, cəmiyyəti mülklərə bölmüşdür. XX əsrdə cəmiyyətin humanistləşdirilməsi dövlətin sosial funksiyalarının artmasına səbəb olmuşdur ki, bu da iqtisadi səmərəliliklə ziddiyyətə gətirib çıxarmışdır. Azərbaycanda sabit iqtisadi artım əhalinin həyat səviyyəsini və müvafiq olaraq sosial müdafiəsini yaxşılaşdırmağa imkan vermişdir. Hazırda ölkədə yaşayış səviyyəsinin keçid dövrünə nisbətən daha yüksək olduğunu söyləmək mümkündür.

## ФОРМИРОВАНИЕ СИСТЕМЫ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ В АЗЕРБАЙДЖАНЕ

***Масимов Ниджат***

### АННОТАЦИЯ

В зависимости от системы приоритетов концепция социальной помощи отличается в разных странах. Исторически общество делилось на богатых и бедных, и это деление считалось справедливым. Правительство, защищавшее права собственности, поддерживало имущее сословие, а философы делили общество на сословия, доказывая существование бедноты. В XX веке гуманизация общества привела к увеличению социальных функций государства, что привело к конфликту с экономической эффективностью. Стабильный экономический рост в Азербайджане повысил уровень жизни населения и, соответственно, социальную защищенность. В настоящее время можно сказать, что уровень жизни в стране выше, чем в переходный период.

## FORMATION OF SOCIAL DEFENSE SYSTEM IN AZERBAIJAN

***Masimov Nijat***

### SUMMARY

Depending on the system of priorities, the concept of social assistance is different in different countries. Historically, society has been divided into rich and poor, and this division has been considered fair. The government, which protected property rights, supported the property class, while philosophers divided society into estates, arguing for the existence of the poor. In the twentieth century, the humanization of society has led to an increase in the social functions of the state, which has led to a conflict with economic efficiency. Stable economic growth in Azerbaijan has improved the living standards of the population and, accordingly, social protection. At present, it can be said that the standard of living in the country is higher than in the transition period.

# UĞURSUZ AİLƏ ANLAYIŞI: SOSİAL TƏHLİL

***Əzizova Həmidə Müşfiq qızı***
***BDU-nun ikinci kurs magistrantı***
***ezizova.h@mail.ru***

***Açar sözlər:*** ailə, ailə problemləri, ailədaxili əlaqələr
***Ключевые слова:*** семья, семейные проблемы, семейные отношения
***Keywords:*** family, family problems, family relationships.

Cəmiyyətin ən kiçik vahidi olaraq da təyin olunan ailə, insan həyatında doğulduqdan sonra ilk inkişaf illərindən həyatının sonuna qədər təsirini davam etdirən bir qurumdur. Sistem perspektivinə görə, ailə keçmişi bölüşən, emosional bağları olan və ayrı -ayrı ailə üzvlərinin və bütün ailənin ehtiyaclarını ödəmək üçün strategiyalardan ibarət olan kompleks bir quruluş olaraq təyin olunur (Sabatelli və Bartle 1995). Ailə cəmiyyətin ən əsas sosial institutlarından biri, hətta birincisi olmaqla insanlar arasındakı əlaqələri özündə ehtiva edir və gündəlik həyatımızın əsas hissəsini təşkil edir. Burgess və Locke-un qeyd etdiyi kimi: "ailə, evlilik, qan və ya övladlığa götürmə bağları ilə birləşən bir qrup insandır; vahid bir ailə təşkil edərək, ər və arvad, ana və ata, qardaş və bacının sosial rollarında qarşılıqlı əlaqə qurur və ünsiyyət quraraq ortaq bir mədəniyyət yaradır".

Ailə haqqında danışdıqda qeyd etmək lazımdır ki, ailədaxili münasibətlər bütün ailələrdə eyni formada olmur, elə buna görə də ailələri harmonik və disharmonik olaraq təsvir etmək olar. Harmonik, başqa sözlə desək sağlam bir ailədə bütün ailə üzvləri təbii olaraq vəzifə və məsuliyyətlərini yerinə yetirirlər. Aralarında müsbət emosional bağlar var və fərdlər müstəqil olsa da, bir-birlərinə həvəslə və məmnuniyyətlə kömək edirlər. Sağlam bir əlaqə, iki insanın şüurlu, düşüncəli və məsuliyyətli qərarına əsaslanır. Bu insanlar evliliyin davam etməsi və "ev" qurulması üçün öz ehtiyacları ilə ailənin ehtiyacları arasında bir tarazlıq qururlar.

Öz davranışlarına, düşüncələrinə və hislərinə görə məsuliyyət daşıyırlar. İki yetkin insanın qurduğu sağlam bir ailə sistemində uşaq öz potensialı və qabiliyyətləri daxilində öyrənmək, qərar vermək, təsəvvür etmək, araşdırmaq və səhv etmək azadlığına malikdir. Bu ailədə uşaqlar valideyn məqsədləri naminə istifadə edilmir, mühakimə edilmir və ya istismara məruz qalmır. Ailədə sağlam ünsiyyət hər kəsin qarşılıqlı vəzifə və məsuliyyətlərini yerinə yetirdiyi və birinin digərinə lazım olan dəyəri verdiyi bir mühitdə baş verir.

Son dövrdə cəmiyyətimizdə ailənin vəziyyəti böhranlı hesab edilir. Bunun səbəbi isə disharmonik ailələrin, boşanmaların, natamam ailələrin sayının artması ilə əlaqəlidir.

Lev Tolstoyun da qeyd etdiyi kimi "Bütün xoşbəxt ailələr bir-birinə bənzəyirlər, bədbəxt ailələrinsə hər biri özünə görə ayrı cür bədbəxtdir" (1). Ailələrdə yaranan problemlərin səbəbləri bir-birindən fərqlidi və bu özünü evliliyin erkən və sonrakı illərində də aydın şəkildə biruzə verir. Evliliyin ilkin illərində ailədə bir çox səbəblərdən problemlər yaranır. Bunun səbəblərindən biri yeni evlənən şəxslərin həm yeni həyat şərtlərinə həm də həyat yoldaşlarına adaptasiya prosesinin uzun müddət çəkməsidir. Evləndikdən sonra həyatımızda dəyişikliklərin baş verməsi qaçılmazdır. Sağlam bir evlilikdə dəyişiklik müsbət qarşılanır.

Ancaq digər bir halda evliliklərdə dəyişiklik, ayrı düşmək deməkdir. Evləndikdən sonra bəzən insanlar dərin hüsrana uğrayırlar, çünki əslində evləndikləri insanın öz düşüncələrində ideallaşdırdıqları şəxs olmadığını dərk etməyə başlayırlar. Bütün bu qeyd etdiklərimiz əslində çox gənc yaşda evlənən cütlüklərin evliliyə tam hazırlaşmamasından da qaynaqlana bilir. Erkən yaşda evlənən cütlüklərin karyeraları hələ qurulmadığı üçün daha çox maddiyat problemi ilə

üzləşirlər. Bir cütlük erkən yaşda uşaq sahibi olmağa qərar verdikdə gənc evlilik problemləri daha da ağırlaşa bilər. Uşaq yetişdirmək üçün lazım olan enerji, səy və maliyyə mənbələri hər yaşda bir cütlük üçün problemlərə səbəb olur.

Ancaq valideynlər hələ gənc yaşlarda olduqda, valideyn olmağın yükləri çox böyükdür. Həyat yoldaşları arasındakı ünsiyyət problemləri, uyğunsuzluq, valideynlər və uşaqlar arasındakı ünsiyyət problemləri və həyat yoldaşları arasındakı uyğunluq problemləri kimi ailə içi ünsiyyət problemləri də vacib ailə problemləridir. Ailə üzvləri arasında problemlərin və münaqişələrin həlli üçün açıq ünsiyyət vacibdir. Ailə problemləri adətən evli cütlüklər və onların ailələri, eləcə də bir-biri ilə ünsiyyət problemlərindən yaranır. Buradakı ən mühüm fərqlərdən biri də ailələr arasındakı mədəni fərqlərdir.

Fərqli mədəniyyətlərdən olan ailələrin mədəniyyətlərindəki ailə quruluşu, adət-ənənələri və düşüncə tərzinə görə fərqli düşüncə və ünsiyyət tərzi var ki, bu da ailələr arasında ünsiyyət boşluğuna səbəb olur. Yaxşı münasibətdə tərəflər bərabər hüquq və öhdəliklərə malikdirlər.Həyat yoldaşları bir-birinə hörmət edir və digərləri üçün ən yaxşısını istəyirlər. Söhbət və ya dialoq vasitəsilə inkişaf edən əlaqələrdə həyat yoldaşları bir-birlərinin nə düşündüklərini anlaya bilirlər.

Yaxşı münasibətdə insanlar bir-birinə fikirlərini aydın şəkildə izah edir və qarşılıqlı inam formalaşır. Gündəlik həyatda, bu prinsiplər (ideallar kimi) əsasında fəaliyyət göstərən münasibətlərin olduğu yerdə, Giddensin “duyğuların demokratiyası” adlandırdığı nəzəriyyə meydana çıxır. Giddens hesab edir ki, “duyğuların demokratiyası” həyatımızın keyfiyyətini yaxşılaşdırır və ictimai demokratiya qədər vacibdir (2).

Həyat yoldaşlarından biri digər həyat yoldaşının ailəsi ilə düzgün münasibət qura bilmədiyi zaman da ailə problemləri yaranır. Bunun səbəblərindən biri yenə mədəniyyət fərqləridir. Ailənin dəyərlərinə və digər həyat yoldaşının ənənələrinə uyğunlaşmaqda çətinlik problemlərə səbəb olur. Ailə problemlərindən biri də ailələr arasında maddi vəziyyət fərqidir. Evli cütlüyün fərqli maliyyə imkanları ilə böyüməsi və gözləntilərinin fərqli olması, evli cütlüyün ailələrinin imkanları və buna uyğun olaraq da yaşayış tərzlərinin müxtəlifliyi problemə səbəb ola bilər.

Ailələrdə problemlərin yaranmasının səbəblərindən biri də ailə üzvlərindən birinin və ya bir neçəsinin asılı olmasıdır. Alkoqol və narkotikdən istifadə və ümumiyyətlə asılılığın hər növü ailədə üzvlər arasında etimadı məhv edir, münaqişələrə fikir ayrılıqlarına səbəb olur, məişət zorakılığı, laqeydliyin artması kimi hallarla özünü biruzə verir. Asılılıq həmçinin maddi sıxıntıya səbəb olur. Bütün bunlara valideyn uşaq əlaqələrinin pozulması və uşaq istismarı da daxildir. Narkotik və alkoqol asılılığının təsiri həm qısamüddətli, həm də uzunmüddətli ola bilər. Dinc, sevgi dolu evlər narkotik və alkoqoldan sui-istifadənin yaratdığı gərginliyə görə bölünə bilər.

Asılılıq şəxslərarası münasibətlərin keyfiyyətinə təsir edə bilər. Çox vaxt alkoqoliklər fiziki gücdən istifadə edirlər və cinayət törətməyə qadirdilər, bunu cinayətlərin statistikası göstərir. Narkotik problemi alkoqolizmlə eyni şəkildə ailəyə təsir edir. Güclü qumar aludəçiliyi olan insanlar da ailələrdə problemlərin yaranmasına səbəb olurlar, onların qumar oynamağına mane olan hər hansı faktorun olması, bunun asılı şəxsdə yaratdığı gərginlik və ailədəki nəticələri qaçılmazdır. Asılılıq etibarsızlığın hökm sürdüyü mühit yaradaraq və xəyanət hisslərini təhrik edərək əvvəllər möhkəm olan münasibətləri zəiflədə bilər.

Şübhə yoxdur ki, valideynlərin narkotikdən sui-istifadəsi uşaqların fiziki və emosional inkişafına mane olur, lakin asılılıq bütövlükdə ailənin sağlamlığına da təsir göstərir. Ailənin bütün üzvlərinin faydalı münasibətlərə və sağlam həyat sürməsinə nail olmaq üçün, terapiya təkcə narkotik və ya spirtli içkilər istifadə edən şəxsə deyil, ailədəki hər kəsə tətbiq edilməlidir. Asılılıqdan təsirlənən ailələr üçün mövcud olan resursları araşdırarkən, ailənin bütün üzvlərinin emosional, psixoloji və fiziki ehtiyaclarını nəzərə almaq vacibdir.

Məişət problemlərinə gəldikdə, zorakılıq və istismar ən önəmli problemlərdən biridir. İstismar, güc və təzyiq tətbiq edərək insanlara fiziki və ya zehni zərər verən bütün davranışlar olaraq təyin olunur. Məişət zorakılığı qısaca olaraq ailə üzvlərindən birinin ailənin digər üzvləri tərəfindən təzyiqə məruz qalması kimi təyin edilə bilər. Bu, döyülmə və/və ya yaralanma, şikəstlik, cinsi təcavüz, təcavüz, öldürmə kimi maddi və eyni zamanda şifahi, emosional və iqtisadi zorakılıq hərəkətlərini əhatə edir. Buraya ailədəki şəxsləri qorxudan, manipulyasiya edən, incidən, alçaldıcı, günahlandıran, yaralayan hər hansı davranışlar daxildir. Məişət zorakılığı istənilən irqdən, yaşdan, cinsi oriyentasiyadan, dindən və ya cinsdən olan hər kəsin başına gələ bilər. Bu, evli, birlikdə yaşayan və ya tanış olan cütlüklər də daxil olmaqla bir sıra münasibətlərdə baş verə bilər.

Məişət zorakılığı bütün sosial-iqtisadi mənşəli və təhsil səviyyələrindən olan insanlara təsir göstərir. Emosional və psixoloji zorakılığa daimi tənqid vasitəsilə insanın özünə dəyər hissini sarsıtmaq, ailə üzvünün qabiliyyətlərini aşağılamaq, şifahi təhqir, partnyorun uşaqlarla münasibətlərini pozmaq və ya onun dostları və ailəni görməsinə icazə verməmək, dostlardan, ailədən, məktəbdən və/və ya işdən təcrid olunmağa məcbur etmək daxildir. Maliyyə və ya iqtisadi zorakılıq maliyyə resursları üzərində tam nəzarəti saxlamaq, məktəbə və ya işə davamiyyətə qadağa qoymaqla bir insanı maddi cəhətdən asılı vəziyyətə salmaq kimi halları əhatə edir. Fiziki zorakılıq hər hansı fiziki aqressiv davranış, fiziki ehtiyacların qarşısının alınması, dolayı fiziki zərərli davranış və ya fiziki zorakılıq hədəsidir. Bura vurmaq, təpikləmək, silkələmək, itələmək, çəkmək, yumruqlamaq, boğmaq, döymək, bıçaqlamaq, atəş açmaq, boğmaq, yandırmaq, əşya ilə vurmaq, silahla hədələmək və ya fiziki hücumla hədələmək daxildir.

Digər bir səbəb ailə daxilində cavan nəslin nümayəndələrinin yaşlı nəslin nümayəndəsi ilə münasibətdə çətinlik çəkməsidir. Valideynlərimiz üçün hər yaşda uşaq olaraq qalırıq. Öz ailəmiz olduqda, təkcə həyat yoldaşı ilə deyil, həm də valideynlərimiz ilə ahəngdar münasibətlər qurmaq vacibdir. Xüsusilə gənc ailələrdə bu əsasda münaqişələr tez-tez baş verir. Geniş ailə problemlərindən biri də ər-arvadın ailələrinin nikah işlərinə qarışmasıdır. Əgər ər-arvadın ailələri nikahdaxili məsələlərdə davamlı olaraq söz alır və birlikdə qurduqları həyat nizamına müdaxilə edirsə, problemlərin yaranması normaldır.

Təbii ki, ailələrdə övladlarına nəsihət, məsləhət verəcək məsələlər var. Evlilikdə ailələrin varlığı da önəmlidir, amma ən əsası həyat yoldaşlarının bir-biri ilə razılaşaraq, həyat nizamı quraraq xoşbəxt olmalarıdır. Çünki evlənmək iki insanın ailələrindən asılı olmayan bir mühitdə həyat qurması və davam etdirməsidir.

Uğursuz ailə anlayışının təməl səbəblərindən biri ailə üzvlərinin prioritetlərinin yanlış olmasıdır. Prioritetləri düzgün təyin etmək ailə üçün vacibdir. Əgər ilk növbədə ailə deyil, digər dəyərlər (hobbi, maraqlar, karyera) varsa, heç bir harmoniyadan söhbət gedə bilməz. Bu zaman uşaqlar diqqətsizlikdən əziyyət çəkirlər, ailə üzvləri arasındakı əlaqələr lazımi səviyyədə olmur, inamsızlıq, xəyanət və s. yaranır.Bu səbəbdən problem yaşanmaması üçün ailəni birinci yerə qoymaq zəruridir.

Ailə funksionallığında sağlam ailə üçün vacib olan digər məsələ ailənin adından qəbul edilən qərarlarda ailə üzvlərinin iştirak etməsidir. Bu vəziyyətdə hər kəsin ehtiyac və istəklərinə məqbul bir şəkildə hörmət edilməsi son dərəcə vacibdir. Bu, qarşılıqlı etimad mühitinin davamını təmin edir.

Sağlam ailə dedikdə ilk ağlımıza heç bir problemin, mübahisənin, münaqişənin olmadığı ailə gəlir. Əslində insanların birgə yaşayışın olduğu mühitdə mübahisə, hətta bəzən münaqişə qaçılmaz olur. Müvəqqəti və adi münasibətlərin problemsiz və münaqişəsiz olması təbii olduğu kimi, daimi və məsuliyyətli evlilik birliyində problem və münaqişələrin yaranması da təbiidir.

Birgə yaşamağa görə bəzi fikir ayrılıqlarının yaranmasının normal olduğunu nəzərə alsaq, ailədaxili münaqişələrdə əsas problemin ailənin baş verən münaqişələrə münasibətindən irəli gəldiyi görülür. Başqa sözlə, əsas məsələ münaqişələr yox ailənin həmin münaqişələrin səbəblərinə və həll yollarına olan münasibətidir. Onların bu problemləri həll etmək üçün səy göstərmələri, yoxsa problemi görməzlikdən gəlmələri, situasiyanın necə həll ediləcəyi ailənin gələcəkdəki vəziyyətini təyin edir. Demək olar ki, sağlam ailələr bu problemlərə uyğun həll yollarını qərar verən və həyatlarına tətbiq edən ailələrdir.

## ƏDƏBİYYAT

1. Lev Tolstoy. Anna Karenina.
2. Giddens, A. (1991), Modernity and Self-Identity, Cambridge: Polity Press.
3. Mirzəyev İ. Ailənin praktik psixologiyası. Dərs vəsaiti. Adiloğlu, B.: 2005, 315s.
4. Алиев Р. Семейно-брачные отношения в исламе. Баку: изд. Абилов, Зейналов и сыновья, 2006. – 225 с.

## UĞURSUZ AİLƏ ANLAYIŞI: SOSİAL TƏHLİL

***Əzizova Həmidə***

## XÜLASƏ

Ailə qan qohumluğuna, qohumluq əlaqələrinə, birgə təsərrüfata, qarşılıqlı mənəvi məsuliyyətə əsaslanan kiçik sosial qrupdur. Münaqişələr ailə həyatının bir hissəsidir. Xəstəlik, əlillik, asılılıq, iş itkisi, məktəb problemləri və evlilik problemləri kimi bir çox şey münaqişələrə səbəb ola bilər. Ailənin möhkəmlənməsində bir-birini dinləmək, münaqişələrin həllinə çalışmaq vacibdir.

## ПОНЯТИЕ НЕСОСТОЯВШЕЙСЯ СЕМЬИ - СОЦИАЛЬНЫЙ АНАЛИЗ

***Азизова Хамида***

## АННОТАЦИЯ

Семья – это малая социальная группа, основанная на кровных связях, родстве, совместном хозяйстве, взаимной нравственной ответственности. Конфликты являются частью семейной жизни. Конфликт может быть вызван многими вещами, такими как болезнь, инвалидность, зависимость, потеря работы, школьные проблемы и проблемы в браке. Важно слушать друг друга и стараться разрешать конфликты, чтобы укрепить семью.

## THE CONCEPT OF A FAILED FAMILY - SOCIAL ANALYSIS

***Azizova Hamida***

## SUMMARY

The family is a small social group based on blood relations, kinship, joint economy, mutual moral responsibility. Conflicts are a part of family life. Many things can lead to conflict, such as illness, disability, addiction, job loss, school problems, and marital issues. Listening to each other and working to resolve conflicts are important in strengthening the family bond.

# FƏLSƏFƏ

## FƏLSƏFİ FİKİR TARİXİNDƏ İNSAN PROBLEMİ

***Bayramov Rafət***
***BDU-nun II kurs magistrantı***
[bvrafat@gmail.com](mailto:bvrafat@gmail.com)

***Açar sözlər:*** insan, təbiət, cəmiyyət, əmək fəaliyyəti ,təkamül
***Ключевые слова:*** человек, природа, общество, трудовая деятельность, еволюция
***Keywords:*** human, nature, society, labor activity, evolution.

Belə deyə bilərik ki, bütün fəlsəfi eksperimentlərin yönəldiyi əsas məqsəd insanı anlamaqdır. Daha düzgün ifadə ilə "insan nədir?" sualına cavab verməkdir. Mümkündür ki, fəlsəfə fərqli mövzulardan bəhs etsin, məsələn yaradıcı, cəmiyyət,tarix və s. Amma son nəticə və əsl mövzu elə məhz insanın özüdür. Ontologiyada, Qneseologiyada insan, onun mahiyyəti,təbiətdə tutduğu yer əsas fəlsəfi problemlər kimi nəzərdən keçirilir.

Fəlsəfə dünya və orada insanın yeri haqqında ümumiləşmiş baxışlar sisteminin hazırlanmasına istiqamətlənir. Fəlsəfə şüurun nəzəri forması olub, insanın dünyaya sosial-siyasi,qnesoloji, etik və estetik münasibətlərini tədqiq edən anlayış və kateqoriyaların, prinsip və qanunların formalaşmasıdır [2,səh 7].

Fəlsəfənin və digər bütün elmlərin ilkin versiyasında belə insan,onun şəxsiyyəti,cəmiyyətdəki rolu və ya fiziki özəllikləri ilə bağlı mütləq hər hansı bir fikir mövcud olmuşdur. Elmin gəldiyi son nöqtədə də yəni müasir elmlərdə də bu fikirlər inkişaf edərək davam etmişdir. Amma təəssüf ki,müasir elmlər hansı inkişaf dərəcəsinə çatmış olursa olsun, insan haqqındakı sirli cəhətlər hələ də çoxdur.

İnsan problemi fəlsəfəni həmişə maraqlandırmışdır. Hegeləqədərki klassik fəlsəfə insanı rasional, nizamlanmış, qanunauyğun bir sistem kimi təsəvvür edirdi. Bu sistemin hissələri harmonik şəkildə yerləşmişdir, tamm özünü isə praktiki zəkamn köməyi ilə obyektiv dərk etmək mümkündür [3.səh 289].

İlkin tarixi dövrlərdəki insan haqqında nəzəriyyə hələ də formalaşmamışdır, bu müstəvidəki düşüncələr hipotez və ideyalardan ibarət olmuşdur. İnsan haqqındakı ilkin fikirlərdə Hind və Çin fəlsəfəsinin rolunu inkar edə bilmərik. Lakin insan haqqındakı təlimin yaradıcısı kimi Sokratı göstərə bilərik. Öz sələflərindən fərqli olaraq Sokratı düşündürən əsas məsələ insan,onun təbiəti və mahiyyəti olmuşdur. Sokratdan sonra isə, insan haqqındakı fəlsəfi təfəkkürün formalaşmasının daha yüksək səviyyəsini Platon və Aristotelin fəlsəfi düşüncələri təşkil etmişdir. Lakin Platon və Aristotelin insan haqqındakı təlimləri bir-birilə əks mövqedə durmuşdur. Platona görə, insanın mahiyyətini onun ruhu təşkil edirdi və insanın bədəni isə ruha düşmən hesab etdiyi materiya mövqeyində çıxış edirdi. Nəticə olaraq Platon insanı iki hissəyə- yuxarı(ruh) və aşağı(bədən) hissələrə bölürdü.

Aristotel isə Platondan fərqli olaraq ruh və bədənin vəhdətinə,onların sıx bağlılığına inanırdı. Qeyd edirdi ki: " Doğrudur, bədən ruhdan asılıdır lakin eyni zamanda ruh da bədəndən asılıdır. Və bunlar bir-birindən təcrid olunmuş şəkildə mövcud ola bilməzlər".

Antik filosoflardan insan haqqındakı fəlsəfi fikri zənginləşdirənlərdən biri də Heraklit olmuşdur. Heraklitə görə insan,bütövlükdə bir məcburiyyətdir. Insanın azadlığı müzakirə mövzusu hesab edilə bilməz. yəni insan azad bir varlıq deyildir. O sadəcə ayaq uydurmalıdır və

bu onun üçün ən yaxşı hesab olunan şeydir. Amma Heraklitə görə bunu bacaranların sayı olduqca azdır.

Fəlsəfənin insan haqqında dolğun konsepsiya yaratmaq üçün bütün bu fasiləsiz cəhdləri ona dəlalət edir ki, fəlsəfə insan haqqında onun dünyada şəxsi, tarixən məxsusi və buna görə də həmişə məhdud vəziyyətini deyil, onun ən ümumi vəziyyətini, necə deyərlər, növ mahiyyətini əks etdirən təsəvvür yaratmağa çalışır. Fəlsəfə insanda onun "növünü", yəni aynca fərdin psixoloji, sosial və tarixi xüsusiyyətlərindən, onun empirik mövcudluğunun konkret şərtlənmiş üsulundan asılı olmayaraq onu bütün bəşər övladınm səlahiyyətli nümayəndəsi, "növ" başlanğıcının daşıyıcısı edən hər şeyi bilmək deməkdir [3 səh 290-291].

Elmin inkişafı ilə əldə olunan nailiyyətlər müəyyən mənada bizə bunu söyləməyə imkan verə bilər: “insan evolyusion inkişafın məhsuludur.” Bu inkişafda isə həm bioloji həm də sosial amillər rol oynayır. Ağıllı insan (homo sapiens) evolyusion inkişaf zamanı heyvanlar aləmindən ayrılmışdır.

İnsan təbiətin ən mürəkkəb varlığıdır. O yalnız canlılar aləmilə deyil, həmçinin cansız təbiətlə min bir tellərlə bağlıdır. Onun bədəninin cansız təbiətə məxsus qeyri-üzvi (C,H,O,F,S və s.) və mürəkkəb üzvi maddələrdən (zülallardan, nuklein turşularından , lipidlərdən və harbohidratlardan) təşkil olunduğu, yəni cansız və canlı təbiətlə yaşadığı, təkzib olunmaz həqiqətdir [1 səh 130].

Lakin qeyd etdiyimiz prosesin nə qədər zaman müddətində baş verdiyi və daha önəmlisi necə baş verdiyi elm tərəfindən tam dəqiqliklə açıqlana bilmir. əlbətdə bu təəccüblü deyil, çünki cansızdan canlının yaranması və ya təkamül nəticəsində çevrilmə kimi anlayışları izah etmək üçün müasir elm çox az faktlara sahibdir. Və elə bu səbəbdən də insanın mahiyyəti haqqında bir çox konsepsiya formalaşmışdır. Bu konsepsiyaları şərti olaraq iki qrupa- rasionalist və irrasionalist konsepsiyalar qrupuna bölə bilərik. İrrasional konsepsiyalar qrupuna- eksiztensializm ,freydizm və s daxildir. Bu konsepsiyanın mahiyyətini dərk etmək üçün, eksiztensializm cərəyanının nümayəndəsi, fransız filosof A.Kamyunun fikrinə müraciət edə bilərik: “İnsan dünyanın irrasionallığı ilə toqquşur. O, hiss edir ki, xoşbəxtlik və ağıllı olmağı arzu edir. Bu toqquşmada insanın qabiliyyəti ilə dünyanın ağılsız susmağı arasında absurd yaranır. İntellekt nöqteyi nəzərindən mən deyə bilərəm ki, absurd insanda deyil, dünyada deyil, onların birlikdə olmağındadır”

Müasir dövrdə insanın tədqiqi ilə məşğul olan alimlər irrasional cərəyan və düşüncələri nəzərdən keçirsə də adətən rasional düşüncələrə və fikirlərə əsaslanır. Bu cərəyanlar arasında əsas olaraq qeyd edə biləcəyimiz Marksizm cərəyanıdır.

Marksizm insanı onun "yerləşdirildiyi" cəmiyyətin iqtisadi, sosial və mədəni şəraiti ilə müəyyən olunan ictimai varlıq kimi şərh edirdi. İlk növbodə, Kyerkeqor, Şopenhauer və Nitsşenin təlimləri ilə təmsil olunmuş qeyri-klassik fəlsəfə əsas diqqəti insanın daxili aləminin varlığma və qapalılığına, fərdin öz mövcudluğunun və taleyinin bənzərsizliyinin psixoloji cəhətdən dərkinə cəlb edirdi. Əvvəllər psixologiya və dində işlədilən "ölüm", "iztirab", "peşmançılıq" və digər kateqoriyalar ilk dəfə olaraq fəlsəfədə işlədilir. Məsələn, Kyerkeqora görə, insan ardıcıl, ziddiyyətsiz və sistemləşdirilmiş şəkildə təsvir edilə bilən varlıq deyildir. Buna görə də insan probleminin tədqiqi tamamilə sistemsiz olmalıdır ki, bir nöqtədən digərinə keçməklə predmeti hər tərəfdən işıqlandırmaq mümkün olsun.[3 səh 289-290]

İnsanın inkişafı daha düzgün ifadə ilə “ heyvandan ayrılması” prosesində” önəmli rollardan birini də istehsal prosesi oynayır. Mütəfəkkirlərin düşüncələrinə görə istehsal prosesi olmadan, hətda ən adi,ibtidai insan topluluğunun mövcud olması və həyatda qala bilməsi mümkün deyil. İnsan cəmiyyətinin formalaşmasında birgə fəaliyyəti ilk sıraya qeyd etməliyik. Bu müstəvidəki

ciddi araşdırmaların və fikirlərin banisi marksizmin yaradıcılarından hesab edilən, Karl Maksın yaxın dostu,köməkçisi, məşhur fransız əsilli alman filosofu Fridrix Engelsdir.

Engelsdə əmək anlayışı daşdan, sümük və ağaclardan alətlər hazırlanmasından başlanan məqsədyönlü fəaliyyəti bildirir. Engels şüurun əmək prosesində formalaşdığını yazır. Əməyin gedişində insanlarda bir-birinə nəsə demək tələbatı yaranmış, beləliklə, birgə əmək fəaliyyətində insanlar arasında ünsiyyət vasitəsi olan dil və nitq əmələ gəlmişdir. Nəhayət insanların məqsədyönlü fəaliyyəti cəmiyyətin və mədəniyyətin yaranmasına güclü təkan vermişdir. [1.səh 182]

Lakin cəmiyyətin formalaşmasında əməyin rolunun çox şişirdildiyini bildirən və hətda tamamilə inkar edən cərəyanlar da mövcuddur.

Yerin geomaqnit sahəsinin inversiyası(parçalanması) və s. kimi təbii amillərdən çıxış edən digər yanaşmalarda sosial amil kimi əməyin həlledici olması inkar edilir. Əmək faktorundan imtina edənlər beyinin təkamülünə də başqa səpkidən yanaşırlar. Hazırda bir neçə model təklif edilir. Onlardan biri daimi sürətlə beyin kütləsinin tədricən artmasını nəzərdə tutur, digəri beyinin böyüməsinin autokatalitik prosesin sürətlənməsi ilə əlaqəsindən çıxış edir, başqa bir model "epizodik böyümə" yəni beynin təkamülündə sürətli dəyişkənliyin yavaş inkişafla növbələşməsi təsəvvürünə əsaslanır. [1. səh 183]

Əgər insan,onun mənşəyi, təbiəti, mahiyyəti kimi mövzular müzakirə edilirsə Çarlz Darvinin düşüncələrinə və konsepsiyasına da müraciət etməli oluruq. Darvinin nəzəriyyəsinə görə,bizim əcdadlarımız sürü halında və ağaclarda yaşamışlar. Bunlar ibtidai meymunlardır. Və sonradan insanabənzər meymunlar yaranmış və insanların yaranışı üçün başlanğıc hesab olunmuşdur.

Uzun tarixi dövr ərzində filosoflar əqli mühakimə nəticəsində insan mənşəyini araşdırmağa cəhd göstərmişlər. biologiyada Karl Linney ilk dəfə canlı aləmin təsnifatını vermis daha sonra Lamark müəyyən inkişafla insann insana bənzər meymundan törədiyi fikrini irəli sürmüşdür. Lakin qeyd etməliyik ki, nə Linney nə də Lamark bu məsələni tam şəkildə şərh edə bilməmişlər.

İlk dəfə olaraq bu mürəkkəb məsələni Çarlz Darvin aydınlaşdırmağa nail oldu. Darvin 1871-ci ildə yazmış olduğu "İnsanın mənşəyi" adlı əsərində göstərdi ki,insan-köhnə dünya meymunları gövdəsinin bir budağıdır. Onun fikrincə insan çox qədim dövrdə,köhnə dünyada (Afrika,Asiya) yaşamış olan insanabənzər meymunlardan əmələ gəlmişdir. Təsnifat nöqteyi-nəzərindən insan məməlilər sinfi, primatlar dəstəsi darburun meymunlar yarımdəstəsi, insanlar ailəsi, insan cinsi və insan növünə daxildir [5,səh 242-243].

Hazırda insanabənzər meymunlardan 3 cins- şimpanze.qorilla və oranqutanq yaşamaqdadır. Bu meymunların xarici və daxili quruluşlarının insanla oxşarlıq təşkil etməsi Darvinin fikirlərini müəyyən mənada təsdiq edir. Insanabənzər meymunlar 10-15 fərdlərdən ibarət sürülər halında yaşayırlar.

Aparılan tədqiqatlar göstərmişdir ki,insanabənzər meymunlardan şimpanze qanının tərkibi insan qanı ilə yaxındır. Insandan şimpanzeyə və hətda əksinə qanköçürmə işləri müsbət nəticə vermişdir. Insanabənzər meymunların beyin quruluşu da başqa heyvanlara nisbətən insane daha çox oxşayır. Hətda bunların psixi xüsusiyyətləri də insane yaxındır [5 səh 244].

Darvin özünün səyahəti zamanı topladığı məlumatlardan yola çıxaraq insan,onun mənşəyi və hətda bütün canlılar aləminin yaranması daha düzgün ifadə ilə necə və hansı şərtlər daxilində yaranması ilə bağlı müxtəlif fikirlər vermişdir. Bu fikirlər özündən sonra bəzi hallarda təsdiq edilmiş olsa da, eyni zamanda kəskin tənqid də olunmuşdur.

## ƏDƏBİYYAT

1. Antropologiya/A. İ. Tağıyev, H. Q. Məmmədov ; elmi red. Ə. Məmmədov. Bakı 2014, 373 s.

2. Fəlsəfə tarixi/M. H. Rzayev ; elmi red. Ə. M. Tağıyev. Bakı 2015, 301 s
3. Fəlsəfə/ R.Ə.Mehdiyev. Bakı 2010, 360 s
4. Təbii-elmi idrak və insan dünyası/Ə. B. Məmmədov, A. X. Mustafayev ; elmi red. Ə. Tağıyev. Bakı 2011,463 s
5. Darvinizm və təkamül təliminin tarixi:ali məktəblər üçün dərslik /M. Axundov. Bakı 2014,267 s
6. Tibbi psixologiya və psixoterapiya. dərslik /N. V. İsmayılov, F. N. İsmayılov. Bakı 2002, 376 s.
7. Fəlsəfə: tarix və insan haqda düşünərkən Məhərrəmova ; red. X. Eynulla. Bakı 2012,184 s

## FƏLSƏFİ FİKİR TARİXİNDƏ İNSAN PROBLEMİ

***Bayramov Rafət***

## XÜLASƏ

Məqalədə fəlsəfi fikir tarixində insan problemi araşdırılır. Fəlsəfi müstəvidə insan nədir? Mahiyyəti nədən ibarətdir? kimi suallara cavab axtarılır.Antik və yeni dövr filosoflarının insan haqqındakı düşüncələri müxtəlif idi. İnsan həm sosial həm bioloji varlıqdır. Bunlar nəzərdən keçirilsə də, insanın çoxaspektli olduğunu nəzərə alaraq deyə bilərik ki, insanla əlaqədar bir çox sual hələ də cavabsız qalmaqdadır.

## ПРОБЛЕМА ЧЕЛОВЕКА В ИСТОРИИ ФИЛОСОФСКОЙ МЫСЛИ

***Байрамов Рафат***

## АННОТАЦИЯ

В статье рассматривается проблема человека в истории философской мысли. Что такое человек в философском плане? В чем суть? Древние и современные философы имели разные взгляды на человека. Человек является как социальным, так и биологическим существом. Хотя они и рассматриваются вместе, учитывая многогранность человека, можно сказать, что многие вопросы о человеке до сих пор остаются без ответа.

## THE HUMAN PROBLEM IN THE HISTORY OF PHILOSOPHICAL THOUGHT

***Bayramov Rafat***

## SUMMARY

The article examines the human problem in the history of philosophical thought. What is man on a philosophical level? What is the essence? Ancient and modern philosophers had different views on man. Man is both a social and a biological being. Although these are considered, given the multifaceted nature of man, we can say that many questions about man still remain unanswered.

# K.MARKSIN FƏLSƏFƏSİNDƏ ÖZGƏLƏŞMƏ PROBLEMİ

***İbrahimova Fidan Məzəli qızı***
***BDU-nun II kurs magistrantı***
***fidan@inbox.ru***

***Açar sözlər:*** özgələşmə, sosial institutlaşma, əmək bölgüsü, xüsusi mülkiyyət, fəhlənin özgələşməsi
***Ключевые слова:*** отчуждение, социальная институционализация, разделение труда, частная собственность, отчуждение работника
***Keywords:*** alienation, social institutionalization, division of labor, private property, alienation of the worker.

Tarix inkişaf etdikcə şəxsiyyətin sosial tipləri, onların dəyərlər sistemləri, şəxsiyyət və cəmiyyətin qarşılıqlı münasibətləri də öz növbəsində dəyişir. Belə ki, şəxsiyyətin kollektiv və cəmiyyətdən asılılığı müxtəlif dövrlərdə eyni formada olmur. Qeyd etmək olar ki, sosial sferada əmək bölgüsünün dərinləşməsi şəxsiyyətin müstəqillik dərəcəsini artırır, eyni zamanda cəmiyyət və fərd arasındakı ziddiyətlər də çoxalır, əmələ gələn özgələşmə kapitalizmdə daha da kəskin həddə çatır. Özgələşmə problemi xüsusi olaraq F.Hengel, K.Marks, ekzistensializm, personalizm nümayəndələri, habelə H. Markuze tərəfindən təhlil edilmişdir.

Marksı ömrü boyu düşündürən ən vacib problemlərdən biri də özgələşmə hesab olunmuşdur. Onun təbirincə desək, insanlar özgələşiblər, belə ki, fərdlər sosial bir varlıq kimi bir-birini nəzərə çarpdırmaq üçün özlərinin nadir yaradıcılıq güc və imkanlarından ayrı düşüblər. Marksın fikrincə özgələşmənin əsas səbəbi cəmiyyətdəki mövcud olan institutlar, xüsusilə sosial sinif və əmək bölgüsüdür. Özgələşmənin əsas göstəricisi isə insanın sosial institutların dayanıqlılığına, bu institutların onların həyatlarını daim nəzarətdə saxlamasına olan inamıdır [5, s. 108].

Marksın özünün mövqeyində də özünəməxsus dönüş vardır. Onun fikrinə görə, əslində sosial institutlar sabit deyildirlər. Onlar da daim insan tərəfindən yaradılır, dəyişdirilir və inkişaf etdirilir. Bu qanunauyğunluq həmişə belə olmuşdur və belə də olmaqda davam edir. K.Marks daha sonra bir qədər də irəli gedərək qeyd etmişdir ki, bütün tarix və xüsusən də sosial institutlar tək bir məqsədə - insanlar arasında özgələşməni məhdudlaşdırmağa doğru hərəkət edir və beləliklə də onlara nümayiş etdinmək istəyirlər ki, insanlar özləri öz sosial dünyalarının yaradıcısı və sahibidirlər.

Fəlsəfə və digər sosial elmlər şəxsiyyətin mahiyyətinin ifadəolunma formalarının dövrdən-dövrə dəyişməsini sistemləşdirərək onu "şəxsiyyətin sosial tipləri" və ya "sosial tipologiya" şəklində öyrənir. Məsələn, Erix From "Azadlıqdan qaçış" əsərində insanın ögələşməsinin müxtəlif tarixi tiplərinin təsnifatını verməyə cəhd etmişdir. Neofreydizmin banisi olan müəllif psixoanaliz əsasında şəxsiyyətin formalaşması prosesində fərdin psixikası və cəmiyyətin sosial strukturu arasındakı əlaqəni qiymətləndirərək, belə bir nəticəyə gəlmişdir ki, fərdin sosial xarakterinin formalaşmasında qorxu hissi mühüm rol oynayır. Bu hiss əsas normalarına uyğun gəlməyən xüsusiyyətləri sıxışdırıb qeyri şüuri sahəyə çıxarır. Sosial xarakterin tipləri isə insanın özgələşməsinin müxtəlif tarixi dövrləri ilə üst-üstə düşür: toplama, istismar, passiv, bazar iqtisadiyyatı və s. From qeyd edirdi ki, tarixi prosesdə insanın bir tərəfdən təhlükəsizliyə, digər tərəfdən azadlığa olan meylləri müxtəlif formalarda ifadə olunur. Freyd və Marksın təlimlərini sintez edərək From şəxsiyyətin öyrənilməsində sosial və fərdi-psixoloji yanaşmaları birləşdirməyə cəhd göstərmişdir.

Marksın yaradıcılığında iki dövr fərqləndirilir: erkən marksizm – onun diqqət mərkəzində inqilabi praktika prosesində özgələşmə problemi və onun aradan qaldırılması yolları durur. Özgələşmədən azad cəmiyyət isə Marksın təbirincə desək kommunizm adlanır. İkinci dövr dedikdə diqqət mərkəzində cəmiyyətin mənəvi həyatı üzərində qurulan dünya tarixinin iqtisadi mexanizmlərinin açılması dayanır.

Özgələşmənin mürəkkəb məzmun kəsb etdiyi ona verilən təriflərin rəngarəngliyində özünü göstərir. Ümumilikdə götürdükdə özgələşmə anlayışının qeyd olunan tərifi öz dolğunluğu ilə seçilir: “özgələşmə insan fəaliyyətinin nəticələrinin ona özgə olan və onun üzərində hökmranlıq edən mövcudluğa çevrilməsi deməkdir” [6, s. 201].

Özgələşmə konsepsiyasının əsası T.Hobbs, J.J.Russoya gedib çıxır. Onlar öz növbəsində öz inkişafını F.Hegel, K.Marks və.b tapır. Qeyd etdiyimiz kimi özgələşmə haqqında ən dəyərli fikir sahiblərindən biri də K.Marks hesab olunmuşdur. E.Frommun K.Marksa bəslədiyi xoş münasibətin səbəblərindən biri də bu idi.

quberniyası əhalisinin 36,28% - ni şiə müsəlmanlar, 25,20%-ni Sünni Müsəlmanlar və 0,42 % - ni əli-Allahi təşkil edirdi. Eyni məlumatlara görə, Zaqatala dairəsi əhalisinin 93,03%-i sünni müsəlmanlardan ibarət idi. Naxçıvan qəzasında qəzada əhalinin 57%-ni təşkil edən şiə müsəlmanlar üstünlük təşkil edirdilər. 1897-ci ildə Ümumrusiya siyahıyaalmasına görə Bakı quberniyasında 676,243 müsəlman, Yelizavetpol (552,822 müsəlman) yaşayırdı.

Qeyd edək ki, Azərbaycanın Rusiya imperiyasına qoşulması ilə əlaqədar əhalinin rus elmi və mədəniyyəti ilə tanışlığı artır, maarifçilik və fəlsəfi ideyalar inkişaf edir. Yazıçı və maarifçi alim Bakıxanov ilk böyük əsərini Şiə İslamının əsas müqəddəslərinin həyat və əməllərinə həsr etmiş, Azərbaycan dilində "Riyazil əl-Qüds" ("müqəddəs çiçəkçilər") adlı dini əsər yaratmışdır. Onun əksinə olaraq, sonrakı yazıçı və şairlər öz əsərlərində dini mənəviyyatı tənqid etməyə başlayır və onlara qarşı çıxış edirlər. Onlara şair Mirzə Şəfi Vazeh öz əsərlərində din xadimlərini, dini fanatizmi lağa qoyan və şəxsiyyət azadlığı uğrunda mübarizəyə çağıran şair Mirzə Şəfi Vazeh aid idi. Başqa bir şair və maarifçi Seyid əzim Şirvani Məkkədən, Nəcəfdən və digər müsəlman mərkəzlərindən qayıdaraq mənəvi rütbədən imtina etmiş və klerikalizmə, geriləməyə, zülmətə qarşı çıxmışdı.

Azərbaycanın görkəmli yazıçı-maarifçi və materialist filosofu Mirzə Fətəli Axundov dini ehkamlara qarşı ən davakar mövqe tuturdu. O, bütün dinlərin maarifçilik, elm və mədəniyyətin inkişafında və yayılmasında əsas maneə olan "absurd və uydurma" olduğuna inanırdı. Axundov dünyanın ilkin səbəbi, kainatın varlığının mənbəyi, kainatın olması baxımından sadiq olan Allah haqqında fikri rədd " ...onun mənşəyi hər hansı digər varlıq ehtiyac yoxdur və bir, bütün, güclü, mükəmməl, hərtərəfli varlıq, onların substansiyaları ilə bağlı saysız-hesabsız müxtəlif hissəciklərin mənbəyi var..."

Azərbaycanın böyük romançısı və dramaturqu Nəriman Nərimanov təbliğat-təşviqat, din əleyhinə ədəbiyyatın ən yaxşı nümunələrindən olan "Pir" povestini yazmışdır. Şair və yazıçılar Sabir, Salman Mümtaz, Məhəmməd Hadi, Seyid Hüseyn və başqaları da öz əsərlərində dini mövhumat və fanatizmin əleyhinə çıxmışlar. Yazıçı Məmməd Səid Ordubadi əvvəlcə panislamist mövqedən çıxış etsə də, sonralar öz satirik əsərlərində dinə, ruhanilərə qarşı da mübarizə aparmağa başlamışdır.

## ƏDƏBİYYAT

1. İslam Azərbaycanda - tarix və müasirlik. Məqalələr toplusu.- Bakı, 2019.
2. Alizadeh A. Azərbaycanda İslamın yayılması və inkişafı (qısa tarixi-mədəni icmal). - Bakı, 2016
3. A. S. Yunusov. Azərbaycanda İslam amili. - Bakı, 2012
4. İslam tarixi üzrə araşdırmalar. - Bakı, Beynəlxalq simpoziumun materialları. 2018

## AZƏRBAYCANDA İSLAMIN YAYILMA TARİXİNDƏN

***Mahmudova Sevda***

**XÜLASƏ**

Bu məqalədə onun kiçik həcmini nəzərə alaraq, ölkədə sovet hakimiyyətinin qurulmasından bilavasitə əvvəlki dövrdə islamın Azərbaycanda yayılmasının əsas mərhələlərini nəzərdən keçirməyə cəhd edilir.

# ИЗ ИСТОРИИ РАСПРОСТРАНЕНИЯ ИСЛАМА В АЗЕРБАЙДЖАНЕ

***Махмудова Севда***

## АННОТАЦИЯ

В данной статье, учитывая ее небольшой объем, предпринята попытка рассмотреть основные этапы распространения ислама в Азербайджане в период, непосредственно предшествовавший установлению в стране советской власти.

# FROM THE HISTORY OF THE SPREAD OF ISLAM IN AZERBAIJAN

***Mahmudova Sevda***

## SUMMARY

In this article, given its small volume, an attempt is made to consider the main stages of the spread of Islam in Azerbaijan in the period immediately preceding the establishment of Soviet power in the country.

# HEYDƏR ƏLİYEVİN YENİ CƏMİYYƏT MODELİNDƏ "DEMOKRATİYA" ANLAYIŞI

***Yusifzadə Zöhrə Azər qızı***
***BDU-nun II kurs magistrantı***
***zohrayusif@gmail.com***

***Açar sözlər***: Heydər Əliyev,demokratiklik, qanun aliliyi,vətəndaş cəmiyyəti plüralizm
***Ключевые слова:*** Гейдар Алиев, демократия, верховенство закона, гражданское общество, плюрализм
***Key words:*** Heydar Aliyev, democracy, rule of law, civil society, pluralism

Cəmiyyətin sosial quruluşuna təsir edən əsas amillərdən biri həmin dövrün mövcud paradiqmalarıdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra öz strateji seçimini etdi.Müasir, dünyəvi dünya birliyinə inteqrasiya edən demokratik əsaslara sadiq ölkə kimi inkişaf etməyə başladı. Demokratiya siyasi sistem, prinsip və dəyərlərə ,sosial həyat tərzinə təsir edən bir paradiqmadır. Sosial dövlətin fəaliyyəti bilavasitə demokratiya, vətəndaş cəmiyyəti, hüquqi dövlət, insan azadlıqları və bərabərlikləri kimi ictimai təzahürlərlə bağlıdır [1, s. 6]. Demokratik sistem müasir cəmiyyətin ən cəlbedici idarəetmə formasıdır və cəmiyyət demokratik olduqda özünüinkişafetdirmə mexanizmi güclü olur.

Heydər Əliyevin yeni cəmiyyət modeli özündə milli, ümumibəşəri dəyərləri birləşdirir və bu cəmiyyət modelində, demokratiklik mərkəzi yer tutur. Demokratik dövlət quruculuğu prosesi tam ictimai-siyasi sabitlik bərqərar olunduqdan sonra həyata keçirilir. Dövlətçiliyin tədricən inkişaf etməsi sayəsində Azərbaycanda bir neçə il ərzində iqtisadi tərəqqi və siyasi sabitliyin əldə edilməsi mümkün olmuşdur [2,s.528-529]. Müstəqillik qazanmış bir dövlət üçün demokratiklik qurmadan, milli azadlıq hərəkatının nəaliyyətlərini qoruyub saxlaması çətindir. Demokratik dövlət qurmadan əvvəl milli birliyi təmin etmək əsasdır. Bu cəhətdən D.Rastou milli birliyi "demokratiyanın yeganə ilkin şərti" adlandırır. Milli birliyin təmini baxımından Heydər Əliyevin yeni çalarlar verdiyi azərbaycançılıq ideologiyasının yeri əsasdır. Bu ideologiya həm də demokratiyaya keçid dövrünün nəzəriyyəsi idi. Ümumilli liderin dövlət quruculuğu ilə demokratik cəmiyyətin formalaşmasını qarşılıqlı əlaqədə təqdim etməsinin ciddi əsasları vardır [3, s.23]. Demokratik dövlət quruculuğu xalqın tələblərinə və zamanın tələblərinə uyğun ola və inkişaf edə bilər. Heydər Əliyev hər zaman qeyd edirdi ki, demokratiya Azərbaycanın strateji kursudur və biz heç zaman bu yoldan dönməyəcəyik.

Heydər Əliyev yeni müstəqillik əldə etmiş Azərbaycanda təhlükəli proseslərin, vətəndaş qarşıdurmasının, xaos və anarxiyanın, cəmiyyətdə artan iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyin qarşısını aldı. Azərbaycanda vicdan azadlığına, plüralizmə söykənən, demokratik dəyərlərə arxalanan cəmiyyət qurmaq naminə çoxsaylı islahatlar keçirilməyə başlandı [4, s.207]. Heydər Əliyevin müasir cəmiyyət modelində demokratikliyin mərkəzi yer tutması, Azərbaycanın dünya inteqrasiya prosesinə qoşulmasını sürətləndirmək kimi strateji məqsəd daşıyır.

Heydər Əliyev demokratik dövlət qurma yolunda diqqət mərkəzində olan məsələlərdən biri insan hüquq və azadlıqları idi. Heydər Əliyev hüquqi dövləti demokratiya ilə vəhdətdə götürürdü.Onun dövlətçilik konsepsiyasına görə demokratiyaya əsaslanmayan hüquqi dövlət dünyaya inteqrasiya oluna bilməz Demokratik, hüquqi dövlət quruculuğunda qanunun aliliyi əsas prinsipdir. Bu prinip özündə ədalət anlayışını ehtiva edir. Ölkəmizdə konustitusiya ən hüquqi qüvvəyə malik qanundur. Azərbaycanın ilk Konstitusiyası ölkədə vətəndaş cəmiyyəti

quruculuğunun hüquqi əsaslarını yaratmışdır. Bu konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması ali məqsəd kimi bəyan edilmişdir.

Demokatiyanın dayanıqlı olması üçün vətəndaş cəmiyyətinin mövcudluğu zəruridir. Demokratiya şəraitində vətəndaş cəmiyyəti qrupları qanuna, fərdlərin hüquqlarına və digər qrupların maraq və fikirlərinin ifadə etməsinə hörmətlə yanaşırlar. Heydər Əliyevin rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu sahəsində aparılan məqsədyönlü islahatlar vətəndaş cəmiyyəti inistitutlarının yaranması və təşəkkülü ilə paralel şəkildə həyata keçirilirdi. Və nəticədə vətəndaş cəmiyyəti qurulucuğu sahəsində özünəməxsus təcrübə əsasında qeyri-hökümət təşkilatları yarandı. Etiraf edilməlidir ki, ümumilli liderimiz Heydər Əliyevin vətəndaş cəmiyyəti quruculuğu prinsiplərinə qayğısı və diqqəti, rəsmi suturukturlarda QHT sektoruna olan soyuq münasibəti və yanaşmanı tamamilə dəyişdi [5 ,s.20]. Müasir dövrümüzdə qeyri-hökümət təşkilatları vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşdirilməsi prosesində mühüm əhəmiyyət kəsb edir. Vətandaş birliyinin müxtəlif formalarının əsas xüsusiyyətləri müstəqillik, iradə azadlığı və plüralizmdir

Plüralist demokratiya cəmiyyətin ictimai şüurunu yetəri qədər müasirləşdirir və onun əsas prinsipi hakimiyyətin xalq tərəfindən seçilməsidir. Plüralizm fikir müxtəlifliyi anlamına gəlir və onun da əsas əlamətlərindən biri tolerantlıqdır. Çünki fikirlərin müxtəlif olması özlüyündə kifayət deyil. Lazımdır ki, fərqli fikirləri qəbul edən sosiomədəni mühit olsun. Bu cür mühitin yaranması isə başqasının mövqeyinə dözümlü münasibəti tələb edir. Tolerantlıq plüralizmi təmin edən əsas sosial-psixoloji faktordur. Heydər Əliyev plüralizmin inkişafında mətbuata, kütləvi informasiya vasitələrinə xüsusi önəm verirdi. Azərbaycan xalqının tolerantlıq keyfiyyəti fərqli düşüncələrə və inanclara dözümlü münasibətdə özünü tam doğrultdu. İndi bütün dünya Azərbaycanı Qafqazın ən tolerant cəmiyyəti kimi qəbul edir [6 , s. 106].

Heydər Əliyevin Azərbaycanda ənənə və milli dəyərləri saxlamaqla yanaşı müasir cəmiyyət quruculuğuna mərhələli keçidi təmin etdi. Heydər Əliyevin əsasını qoyduğu yeni cəmiyyət modelində demokratikliyin mərkəzi yer tutması, cəmiyyətin bu gün və gələcək inkişafının mühüm tərkib hissəsini təşkil edir. Bu mənada Heydər Əliyevin "Demokratik prinsiplər bu günümüzün,gələcəyimizin əsasını təşkil edəcəkdir" deyimi tam olaraq öz əksini tapmışdır.

## ƏDƏBİYYAT

1.Məmmədova S. "Sosial dövlət modelləri (inkişaf etmiş ölkələrin nümunəsində)". Bakı, "Avropa" nəşriyytı-2019,208 s.
2.Mehdiyev R.Demokratiya yolunda:irs haqqında düşünərkən .Bakı, "Şərq-Qərb", 2008,792 s.
3.Heydər Əliyev və yeni cəmiyyət modeli.Bakı, Azərnəşr 2014,776 s.
4.Qocatürk N. İ.Əliyev : İpək Yolu sivilizasiyası və Azərbaycan diplomatiyası. Bakı, "Nurlan" ,2008, 472 s.
5.Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində (məqalələr və müsahibələr toplusu).Bakı "Avrasiya Press", 2011,344 s.
6. Cəfərov N. Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri. B.: XXI , 2001, 176 s.

# HEYDƏR ƏLİYEVİN YENİ CƏMİYYƏT MODELİNDƏ "DEMOKRATİYA" ANLAYIŞI

***Zöhrə Yusifzadə***

## XÜLASƏ

Heydər Əliyevin sosial, iqtisadi və siyasi sahədə ardıcıl olaraq apardığı islahatlar cəmiyyətin köklü şəkildə yenilənməsinin əsasını təşkil etdi.Bu yeni cəmiyyət modeli həm tarixi, həm də ümumibəşəri rəngarəngliyi özündə birləşdirir.Ulu Öndər müasir cəmiyyət quruculuğunun hədəfləri sırasında demokratikliyi əsas anlayış hesab edirdi.Demokratik dəyərlərə və idrəetmə fəlsəfəsinə malik olan dövlətin həm özinkişafını təmin etməsi,həm də müasir dövrdə dünya inteqrasiya proseslərinə qoşuluması kimi mühüm strateji məqsəd daşıdığını vurğulamaq lazımdır.

# КОНЦЕПЦИЯ "ДЕМОКРАТИИ" ГЕЙДАРА АЛИЕВА В МОДЕЛИ НОВОЙ ОБЩЕСТВА

***Юсифэаде Зохра***

## АННОТАЦИЯ

Последовательн реформы Гейдара Алиева в социальные, экономические и политические сферах заложили основу для радикального обновления общества. Эта новая модель общества сочетает в себе историческое и универсальное разнообразие. Великий Вождь считал демократию одной из челей кончепция современного общества. Следует подчеркнутб что перед государством имеющим демократичный ченности и фипософию управления стоит важная стратегическая цель - как обеспечить собственное развитие, так и присоединиться в процессу мировой интеграции в современное мире.

# HEYDAR ALIYEV'S CONCEPT OF "DEMOCRACY" IN THE NEW SOCIETY MODEL

***Zohra Yusifzada***

## SUMMARY

Heydar Aliyev's successive social, economic and political reforms laid the foundation for a radical renewal of society. This new model of society combines both historical and universal diversity. The Great Leader considered democracy to be one of the goals of modern society. It should be noted that a state with a philosophy of governance has an important strategic goal, both to ensure its own development and to join the world integration processes in modern times.

# MƏTBUATÇI KİMLİYİ İLƏ ƏHMƏD BƏY AĞAOĞLU

***Mikayılova Səbinə Vüqar qızı,***
***BDU-nun II kurs magistrantı,***
**sebine.mikayilova.99@mail.ru**

***Açar sözlər:*** Ağaoğlu, mətbuat, qəzet, İrşad, Kaspi, İslam
***Ключевые слова:*** Агаоглу, газета, Иршад, Каспи, Ислам
***Keywords:*** Agaoglu, press, Caspian, Islam.

Türk-müsəlman milliyyətçiliyinin ideya müəlliflərindən olan Əhməd bəy Ağaoğlu XIX-XX əsrlərdə Azərbaycan ictimaiyyətində böyük xidmətləri olmuş, ölkənin elmi-bədii, siyasi həyatına yön vermiş müstəsna fikir adamlarından biri idi. Əhməd bəy Ağaoğlu Azərbaycanda başlayan ictimai fəaliyyətini daha sonralar Türkiyə Respublikasında davam etdirmişdir. Eyni zamanda, Azərbaycanın mövcudluq taleyinin qurtarıcı simalarından Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın siyasi işlər üzrə müşaviri olan Əhməd bəy Ağaoğlu saysız-hesabsız elmi əsərlərin və məqalələrin müəllifi olmuşdur [5].

Əhməd bəy, Azərbaycanın sadəcə siyasi-ictimai həyatında deyil, eyni zamanda, ölkənin köklü mətbuat tarixində də əvəzsiz xidmətləri olan ictimai xadimlərdən biri idi. 1897-ci ildə Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıya gələn Əhməd Ağaoğlu ilk öncə fransız dili müəllimi kimi Bakı Ali Ticarət Məktəbində fəaliyyətə başlayır. Bu fəaliyyətində də uğrulu işlərə imza atan Ağaoğlu daha sonra “Kaspi” qəzeti ilə əməkdaşlıq etməyə başlayır. Qəzet H.Z.Tağıyev tərəfindən alındıqdan sonra Azərbaycan türklərinin hüquq və mənafelərini müdafiə edən nəşriyyat orqanı kimi çıxış edirdi. Ağaoğlu, Kaspi qəzetindəki faəliyyətinin ilk zamanlarında o məqalələrində daha çox İslam dini ilə bağlı olan mövzulara yer verir. Ədib Kaspi qəzetində çap etdirdiyi “Maariflənmə ehtiyacları” adlı məqaləsində İslam dininin tarixinə, onun elmə və maariflənməyə, eyni zamanda, tərəqqiyə yanaşmasının təhlillərini aparır, özünün də yenilikçi mövqeyini ortaya qoyur. Həmin illərdə Əhməd bəy Ağaoğlu elmi-bədii cəhətdən çox əhəmiyyətli “Azərbaycan-tatar dilində qəzetin vacibliyi” və “Şərqdə mətbuat məsələləri” adında digər iki məqaləsini də Kaspi qəzetində dərc etdirir [3].

Onun 1899-cu ildə “Kaspi” qəzetində çap olunan bir digər məqaləsi “Şərqdə jurnalistikanın icmalı” hələ də ictimai cəhətdən öz aktuallığını qorumaqdadır. 1901-1903-cü illərdə Əhməd bəy Ağaoğlunun çox maraqlı, aktual, oxucular üzərində düşündürücü təsirə malik və ictimai cəhətdən oyanma yaradan yazı və məqalələrini Kaspi qəzetinin demək olar ki, hər buraxılışında görmək olardı. Ə.Ağaoğlu bu dövrdə müsəlman xalqlarının tərəqqi və inkişafının, islam cəmiyyətlərinin birliyinin qatı tərəfdarı kimi öz elmi əsərlərində bu mövzuda geniş tarixi məlumatları əks etdirən yazılara yer verirdi. O, ardından 1904-cü ildə tənqidi ruhda yazdığı "İslam, axund və hatifülqeyb" adlı kitabçasını da “Kaspi” mətbəəsində çap etdirmişdi. Kaspi qəzetindəki fəaliyyəti dövründə Əhməd bəy Ağaoğlunun diqqət çəkdiyi və İslam cəmiyyətlərinə aid olan bir digər vacib məsələ müsəlman qadınlarının hüquq və azadlıqlarının təmin edilməsi, onların cəmiyyətdəki yeri və rolu idi. Onun bu məqsədlə rus dilində yazdığı və İslam cəmiyyətlərinin bu günü üçün də aktual olan “İslama görə və İslamiyyətdə qadın” əsəri də həmin qəzetdə nəşr olunmuşdu [1], [4].

1904-1905-ci ildə rus-yapon müharibəsindən məğlub qayıdan Çar Rusiyasının Azərbaycan və digər imperiya torpaqları üzərindəki təzyiqləri nisbətən azalmışdı. Bu fürsətdən istifadə edən Tağıyev daha öncədən niyyətli olduğu türk dilində nəşriyyat orqanı qurmaq təşəbbüsünü bu dəfə həyata keçirə bildi. 1905-ci ildə Tağıyev tərəfindən maddi cəhətdən dəstəklənən naşirinin isə

Əlimərdan bəy Topçubaşı olduğu "Həyat" qəzeti gündəlik qəzet kimi fəaliyyətə başlayır. Qəzetin idarəçiliyində Əli bəy Hüseynzadə ilə birlikdə Əhməd bəy Ağaoğlu da iştirak edirdi. Lakin, Əhməd bəy qəzetin 102-ci sayından sonra buradakı fəaliyyətini dayandırmış və müstəqil şəkildə yenə gündəlik qəzet olan İrşad qəzetinin nəşrinə başlamışdır. Əhməd bəy Ağaoğlunun müdir vəzifəsində olduğu İrşad qəzetini neft milyonçusu İsa Bəy Aşurbəyov maddi cəhətdən dəstəkləyirdi. Qeyd etmək lazımdır ki, İrşad qəzetinin redaktorları arasında Azəfrbaycanın ən görkəmli ictimai xadimlərindən Məmməd Əmin Rəsulzadə və Üzeyir Hacıbəyli də var idi. Əhməd bəy Ağaoğlu İrşad qəzetinin tədqiqat sahəsi ilə bağlı belə deyirdi: "Bir tərəfdən Rusiya hökuməti ilə mübarizə şəraitində siyasi və digər hüquqlarından məhrum olan türk xalqını bu hüquqlarla təmin etmək, digər tərəfdən, türk birliyinə nail olmaq üçün məzhəb ayrılığına və sünni-şiə düşmənçiliyinə son vermək ümdə məsələlərdən idi. Eyni zamanda, xalqı elmin gücü ilə birləşdirmək, türk dilli məktəb və elm ocaqları ərsəyə gətirmək lazım idi". Bu sözlərlə Əhməd bəy, qəzetin əsas məqsədinin xalqı maariflƏndirmək yönündə işlər aparılması olduğunu dilə gətirirdi [2, s. 50-51].

Əhməd bəy Ağaoğlu Azərbaycandakı son illərində də naşirlik fəaliyyətinə davam edirdi. İrşad qəzeti fəaliyyətini dayandırdıqdan sonra Əhməd bəy Ağaoğlunun rəhbərliyi ilə "Tərəqqi" qəzeti nəşriyyata başlamışdı. İlk öncə həftədə beş dəfə çıxan qəzet, sonralar fəaliyyətinə gündəlik qəzet kimi davam etdi. Əhməd bəy Azərbaycanı tərk etdikdən bir müddət sonra da qəzet fəaliyyətini dayandırmışdır. 1909-cu ildə rus hökumətinin Ağaoğlu üzərindəki təzyiqləri artdıqdan sonra onun vətəndə yaşayıb yaratması mümkünsüz bir vəziyyət almışdı. Onun həbsi məsələsi də gündəmə gəldikdən sonra Ağaoğlunun Türkiyəyə getməkdən başqa çarəsi qalmamışdı [1, s. 625].

Türkiyədəki fəaliyyətinə başladıqdan bir müddət sonra Nuru paşa ilə Azərbaycan Milli Hökumətinin qurulmasına dəstək vermək üçün Azərbaycana gedən Əhməd bəy Ağaoğlu bir müddət sonra yenidən İstanbula qayıtmışdı. İstanbula qayıdışı siyasi cəhətdən gərgin bir dövrə təsadüf edən Ağaoğlu "Tercüman-ı Hakikat" qəzetində erməni soyqırımını dəstəkləyən yazılar yazmaq əsası ilə "müharibə cinayətkarı" elan edilərək Maltaya sürgün edilmişdi

Əhməd bəy Ağaoğlu İstanbuldakı mətbuatçılıq fəaliyyətinə dostu ilə birlikdə ərsəyə gətirdiyi "Axın" qəzeti ilə davam edirdi. İsmət paşaya müxalif fikirləri ilə ön plana çıxan Ağaoğlunun Axın qəzeti 1933-cü ildə bağlatdırılır və bununla da o, mətbuatçılıq fəaliyyətini sonlandırmış olur [2, s. 56].

**Nəticə** etibarilə deyə bilərik ki, Əhməd bəy Ağaoğlu sadəcə ictimai-siyasi fəaliyyəti ilə kifayətlənməmiş, eyni zamanda, mətbuatçı kimi də xalqına xidmət göstərmişdir. 1897-ci ilədək redaktorları ruslardan ibarət olan və həmin ildən sonra "müsəlman Kaspisi" adlanan "Kaspi" qəzetində Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə əməkdaşlığa başlayan Ağaoğlu, qəzetdə müsəlman cəmiyyətlərinin ictimai problemlərinin yer aldığı yazılar çap etdirir. Qeyd etmək lazımdır ki, Ağaoğlu özünün məşhur "İslam, axund və hatifülqeyb" və "İslama görə və İslamiyyətdə qadın" əsərlərini bu nəşriyyat orqanında çap etdirmişdir. Daha sonra mətbuatçı fəaliyyətinə Həyat və İrşad qəzatləri ilə davam edən Ağaoğlu, son olaraq özünün "Axın" qəzetinin bağlanması ilə mətbuat fəaliyyətini sonlandırmışdır.

## ƏDƏBİYYAT

1. Mahmudbəyov Ə.Ə., "Ziyalı ve hüquqşünas kimi Əhməd bəy Ağaoğlu şəxsiyyəti, Azərbaycan Şərqşünaslıq Elminin İnkişaf Yolları", Akademik Vasim Məmmədəliyevin Anadan Olmasının 70 İlliyinə Həsr Olunmuş Beynəlxalq Elmi Konfransın Materialları, 2003, s. 624-626.

2. Hekimoğlu V.S.F., Gazeteci Kimliğiyle Ahmet Ağaoğlu // Bitlis Eren Üniversitesi Akademik İzdüşüm Dergisi, 2018, №1(3), s.47-59.
3. https://aqreqator.az/ru/siyaset/898416
4. https://ataturkansiklopedisi.gov.tr/bilgi/ahmet-agaoglu-1869-1939/
5. https://525.az/news/98367-xx-esrin-evvellerinde-azerbaycan-maarifciliyi

## MƏTBUATÇI KİMLİYİ İLƏ ƏHMƏD BƏY AĞAOĞLU

***Mikayılova Səbinə***

## XÜLASƏ

XIX-XX əsrlərdə Azərbaycan və Türkiyənin siyasi-ictimai həyatında əhəmiyyətli xidmətləri olan Əhməd bəy Ağaoğlu öz mətbuatçılıq fəaliyyətinə H.Z.Tağıyevin dəvəti ilə "Kaspi" qəzetində başlamışdır. Ağaoğlu qəzetdə daha çox İslam dininin ictimai problemlərinə dair məqalə və yazılar çap etdirirdi. Ağaoğlunun qəzetdə çap olunan "Maariflənmə ehtiyacları" məqaləsi də İslam dininin tarixinə, onun daha dərindən təhlil olunmasına həsr olunmuş, məqalədə Əhməd bəyin yenilikçi mövqeyi ön plana çıxmışdır. Ədibin "Şərqdə mətbuat məsələləri", "Şərqdə jurnalistikanın icmalı", "İslam, axund və hatifülqeyb", "İslama görə və İslamiyyətdə qadın" kimi hələ də öz aktuallığını qoruyan məqalələri də Kaspi qəzetində çap olunmuşdur.

Ağaoğlunun növbəti mətbuatçılıq fəaliyyətləri Həyat və İrşad qəzetlərind davam edir. Ağaoğlu İrşad qəzetininin əsas məqsədini xalqı maarifləndirmək, elm ocaqları açmaq və dini əsaslı düşmənçiliklərə son qoymaq kimi açıqlayırdı.

1909-cu ildə rus hökümətinin Əhməd bəy üzərindəki təzyiqləri artığı üçün ədib Türkiyəyə getmək məcburiyyətində qalmış və mətbuatçılıq fəaliyyətinə orada davam etmişdir. Maltaya sürgün olunmasına səbəb olan yazısını da buradakı "Tercüman-ı Hakikat" qəzetində qələmə alan Ağaoğlu son olaraq özünün təsis etdiyi "Axın" qəzetində fəaliyyət göstərmiş və 1933-cü ildə qəzetin bağlanması ilə fəaliyyətini dayandırmışdır.

## ПРЕСС-ИДЕНТИЧНОСТЬ АХМЕД БЕЙ АГАОГЛУ

***Микаилова Сабина***

## АННОТАЦИЯ

Ахмед бек Агаоглу, внесший значительный вклад в политическую и общественную жизнь Азербайджана и Турции в 19-20 веках, начал свою журналистскую деятельность по приглашению Г.З.Тагиева в газете «Каспий». Агаоглу в основном публиковал в газете статьи и статьи о социальных проблемах ислама. Статья Агаоглу «Потребности в просвещении», опубликованная в газете, также посвящена истории ислама и его более глубокому анализу, и в статье на первый план вышла новаторская позиция Ахмад-бея. В Каспийской газете до сих пор публикуются такие авторские статьи, как «Вопросы прессы на Востоке», «Обзор журналистики на Востоке», «Ислам, ахунд и хатифулкейб», «Женщины за ислам и ислам».

Очередная пресс-деятельность Агаоглу продолжается в газетах «Хаят» и «Иршад». Агаоглу пояснил, что главной целью газеты «Иршад» является просвещение народа, открытие научных учреждений и прекращение религиозной ненависти.

В 1909 году из-за усиления давления со стороны российского правительства на Ахмад-бея писатель был вынужден уехать в Турцию, где продолжил свою печатную деятельность. Агаоглу, также написавший статью в газете «Теркуман-и Хакикат», что привело к его депортации на Мальту, в последнее время работал в основанной им газете «Ахын», которая прекратила свою деятельность в 1933 году с закрытием газеты.

## PRESS IDENTITY AHMED BEY AGAOGHLU

***Mikayilova Sabina***

## SUMMARY

Ahmad Bey Agaoglu, who made significant contributions to the political and social life of Azerbaijan and Turkey in the 19th and 20th centuries, began his journalistic career at the invitation of H.Z. Tagiyev at the "Kaspi" newspaper. Agaoglu mostly published articles and articles on the social problems of Islam in the newspaper. Agaoglu's article "Needs for Enlightenment" published in the newspaper is also dedicated to the history of Islam and its deeper analysis, and Ahmad Bey's innovative position came to the fore in the article. The author's articles such as "Press issues in the East", "Review of journalism in the East", "Islam, akhund and hatifulqeyb", "Women for Islam and Islam" are still published in the Caspian newspaper.

Agaoglu's next press activities continue in Hayat and Irshad newspapers. Agaoglu explained that the main goal of the Irshad newspaper was to enlighten the people, open scientific institutions and put an end to religious hatred.

In 1909, due to increased pressure from the Russian government on Ahmad Bey, the writer was forced to go to Turkey, where he continued his press activities. Agaoglu, who also wrote an article in the Tercuman-i Hakikat newspaper, which led to his deportation to Malta, recently worked for the Akhin newspaper, which he founded, and ceased its activities in 1933 with the closure of the newspaper.

# AZƏRBAYCANDA MİLLƏTÇİLİYİN İNKİŞAFININ SOSİAL-SİYASİ FAKTORLARI

***Manafova Zeynəb Asim qızı***
***BDU-nun II kurs magistrantı***
***zeynebmanafova1@gmail.com***

***Açar sözlər:*** millət, millətçilik, dövlət, Azərbaycan ideologiya
***Ключевые слова:*** нация, национализм, штат, Азербайджан, идеология
***Key words:*** nation, nationalism, state, Azerbaijan, ideology.

Millətçilik ideyasının rüşeymləri Azərbaycanda XIX əsrin 30-cu illərindən müşahidə olunmuşdur. Bu dövrdə dini identiklikdən etnik identikliyə keçid özünü göstərmişdir. Etnik identikliyin yaranması və inkişafı XX əsrin 20-ci illərinə qədər olan zaman kəsiyini əhatə etmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ortaya çıxması təsadüfi bir proses deyildi. Bu, Mirzə Fətəli Axundovdan gələn maarifçilik hərəkatının siyasi istiqamətinin məntiqi yekunu kimi özünü göstərmişdir. Qafqaz canişininin dəftərxanasında tərcüməçi olan Mirzə Fətəli Axundzadə ilk növbədə Azərbaycan dilində Avropa üslubunda ilk pyeslərin müəllifi kimi şöhrət qazandı" [8,213 s]. Axundzadə bədii əsərlərində yerli sadə danışıq türkcəsini yazı dili kimi istifadə edərək onun standartlaşması istiqamətində önəmli addım atmaqla müasir Azərbaycan millətinin yaranmasına əhəmiyyətli töhfə verdi.

Mirzə Fətəli Axundov müsəlmanların, o cümlədən də Azərbaycan türklərinin geriliyinin səbəblərindən biri kimi ərəb əlifbasını görürdü. 1857-ci ildə bu əlifbanın islahına həsr olunmuş farsça bir kitabça da yazmış, ömrünün sonunadək onun dəyişdirilməsi uğrunda mübarizə aparmışdır.

Yaradıcılığında irəli sürdüyü humanist, mütərəqqi ideyalarla M.F.Axundov Azərbaycan türklərində milli mənlik şüurunun yaranmasına, inkişafına xidmət göstərmişdir. O, maarifi, elmi insanların öz milli haqlarını anlaması, "zülmü dəf etməyə çalışması" hətta cəmiyyətin dəyişməsi yolunda önəmli vasitə hesab edirdi. M.F.Axundov öz fəaliyyəti ilə Azərbaycanda milli ideologiyanın, millətçilik hisslərinin yaranması və inkişafında misilsiz rol oynamış, başqa maarifçi həmkarları ilə birlikdə milli şüurun və ideologiyanın təşəkkülünə öz töhfəsini vermişdir. Məmməd Əmin Rəsulzadə haqlı olaraq yazırdı ki: "Rusiya imperiyasının müsəlman xalqlarının türk özünüdərki çoxdan ilk dramaturqumuz Mirzə Fətəli Axundzadənin 1850-ci illərdə sadə xalq dilində ölməz komediyalarını yazdığı vaxtdan başlanmışdır" [5].

Mirzə Fətəli Axundovdan sonra Azərbaycanda türkçülüyün inkişafında olduqca mühüm rol oynamış şəxsiyyətlərdən biri Həsən bəy Zərdabi olmuşdur. Məmməd Əmin Rəsulzadə Mirzə Fətəli Axundovun xidmətlərindən danışarkən Həsən bəy Zərdabinin Azərbaycan türklərinin "milliyyət ikən millət olmağa başlaması" prosesinin öncülü olduğunu qeyd edirdi. Məmməd Əmin bəyə görə: "Qonuşduğu lisanda ilk qəzətəyə malik cəmiyyət bir milliyyət millət olmaya başlamış deməkdi". Buradan belə qənaətə gəlmək olar ki, Azərbaycan türklərinin millət olma prosesinin başlanması ilk Azərbaycan qəzetinin "Əkinçi"nin naşiri Həsən bəy Zərdabinin adı ilə bağlıdır [5].

XIX əsrin sonlarına yaxın "Əkinçi" qəzetinin nəzdində milli mətbuatımızın yaranması ilə maarifçilik və milli özünüdərk prosesinin yeni mərhələsi başlanır. Bununla yanaşı olaraq "Əkinçi" məktəbində milli mədəniyyətimiz üçün həyati əhəmiyyət kəsb edən ikinci bir hadisə də baş verir: Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə müasir Azərbaycan teatrının təməli qoyulur və bu da milli ruhun və düşüncənin daha da kütləviləşməsinə gətirdi.

Azərbaycançılıq ideyasının inkişafında kütləvililiyin oynadığı rol haqqında Yaşar Qarayev yazırdı: "Azərbaycançılıq milli özünüdərkin, etnik şüur intibahının fəlsəfədə, elmdə, ideya ifadəsidir. Lakin bu ideya, bu fəlsəfə də nəzəriyyədən təcrübəyə, milli ideyadan milli şüura tam halda yalnız o zaman çevrilir ki, ayrı-ayrı ziyalılar, təklər yox, kütlələr əməldə, işdə ona sahiblik şüuru nümayiş etdirirlər". [6]

Axundzadənin sadələşdirilmiş dili Azərbaycan türkcəsində müstəqil çap mətbuatının yaradıcısı olan Həsən bəy Zərdabi tərəfindən mənimsənilərək inkişaf etdirildi. Andersonun xəyali icma nəzəriyyəsinə uyğun olaraq Aleksandr Benninqsen yazırdı ki, "1875-ci ildə maraqlı və zəngin Azəri mətbuatı doğulub çiçəkləndi."[9] Doğrudur, ilk mərhələdə maarifçilər "Azərbaycan milləti" ifadəsini istifadə etmirdilər, lakin sonrakı dövrdə bu anlayış geniş yayılmağa başladı. Mətbuatda ilk dəfə XIX əsrin 80-ci illərində çıxan "Kəşkül" qəzeti "Azərbaycan milləti" anlayışını işlətmişdi.

"Əkinçi" qəzetindən 1905-ci ilə qədər olan zaman Azərbaycan mədəniyyəti tarixində ayrıca bir mərhələdir. Mərhələnin sonunda ümmətçilikdən millətçiliyə keçid özünü göstərir. Azərbaycanda ilk dəfə olaraq bu dövrdə "millət" və "din" anlayışlarının arasındakı fərq nəzərə çarpdırılır. Qafqazda yaşayan müsəlmanların etnik mənsubiyyətinin araşdırılması yolunda ilk addımlar atılır. Cəmiyyətin bütün sahələrini əhatə edən maarifçilik hərəkatı millətin və milli şüurun formalaşmasını şərtləndirir. Həsən bəy Zərdabi dövrü Əli bəy Hüseynzadə tərəfindən milli ideologiyanın formalaşması ilə başa çatır. [6]

Əgər Azərbaycanın maarifçi yazıçılarının- Seyid Əzim Şirvaninin, Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun əsərlərində "Azərbaycan milləti" anlayışı yox idisə, artıq XX əsrin ilk onilliklərində Üzeyir Hacıbəyovun, Əli bəy Hüseynzadənin, Məhəmməd Əmin Rəsulzadənin əsərlərində bu anlayış özünü göstərməyə başlamışdır.

Əli bəy Molla Hüseyn oğlu Hüseynzadə 1864-cü ildə Azərbaycanın qədim şəhərlərindən biri olan Salyanda dünyaya gəlmişdir. XX əsr Azərbaycan ictimai fikrinin tanınmış nümayəndəsi, türkçülük məfkurəsinin böyük carcısı, görkəmli ədib, publisist, maarifçi, rəssam və təbabət alimi Əli bəy Hüseynzadə ömrünü türk millətinin, o cümlədən Azərbaycan xalqının milli oyanış və özünüdərkinə, istiqlal mübarizəsinə, maarif və mədəniyyətinin yüksəlişinə, milli dövlətçiliyin yaranmasına həsr edib. Əli bəy Hüseynzadənin çoxşaxəli yaradıcılığının təməlində turançılıq məfkurəsi dururdu. O, türk xalqlarının milli birliyi, milli dövlətçilik ideyasını ilk dəfə irəli sürmüş, onun elmi-nəzəri əsaslarını işləmişdir. 1905-ci il inqilabından sonra türkçülük ideyasını "Həyat" qəzetində, "Füyuzat" jurnalında dərc etdiyi "Türkçülük kimdir və kimlərdən ibarətdir?", "Yazımız,dilimiz", "Türk dilinin vəzifeyi-mədəniyyəti" və digər məqalələrində geniş surətdə şərh etmişdir. Əli bəy Hüseynzadə öz fəaliyyəti ilə Azərbaycan ədəbi-elmi fikir tarixində M.F.Axundovun ardınca yeni mərhələnin təməlini qoyub, "füyuzatçı" lar adlı orijinal ədəbi-fəlsəfi məktəb yaradıb. Onun əsərlərində irəli sürdüyü "türkçülük,çağdaşlıq və islamiyyət" fəlsəfəsi Azərbaycanın üçrəngli bayrağının ideoloji əsasını təşkil edir. Əli bəy Hüseynzadə milli özünüdərkin və istiqlal düşüncəsinin yaradıcısı idi [2,3 s].

O, Şərq ölkələrini Rusiyanın və İranın güclənməkdə olan millətçilik siyasətindən qurtarmağın yolunu türkçülüyün yayılmasında görürdü. O, Turan elini yad cərəyanlardan xilas etmək üçün türk ideologiyasını təbliğ etməyə çalışırdı. Əli bəy Hüseynzadə türk aləminin mücahidi idi. Baş redaktorluğu ilə 1906-1907-ci illərdə nəşr etdiyi "Füyuzat" jurnalı taleyin və tarixin ona verdiyi vəzifənin, həyat qayəsinin məramnaməsi idi.

Türkləşmək Əli bəy Hüseynzadənin nəzəri doktrinası hesab olunurdu. O, qəti inamla qeyd edirdi: "O millət səadət və nicat tapa bilər ki, öz dilini, dinini, tarixini, adətini və əxlaqını öyrənir".

Qeyd etdiyimiz kimi, Əli bəy Hüseynzadə azərbaycançılıq ideologiyasının ilk yaradıcısı idi. O öz ədəbi, ictimai-siyasi fəaliyyəti ilə milli ədəbiyyata yenilik gətirir, onu məhdud çərçivədən çıxarmağa cəhd göstərirdi. Əli bəy Hüseynzadənin yaradıcılığı gəncliyə güclü təsir göstərirdi. O, Abdulla Şaiq demişkən, "bir beyt belə yazmamış" Məhəmməd Hadi kimi istedadlı gənclərin "rübabını dinləndirir", onlara şeir və sənətin nə olduğunu anladırdı [2,4 s].

XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin sosial-qtisadi inkişafı, Rusiyada 1905-1907-ci illər inqilabının təsiri, erməni-azərbaycanlı münasibətlərinin qanlı toqquşmalarla nəticələnməsi, eləcə də bütün dünyada millətçilik ideologiyasının geniş yayılması Azərbaycan türklərinin milli oyanışına və türkçülük ideologiyasının yaranmasına təkan verdi. Bu ideologiyanın nəzəri əsaslarını qoyanlar arasında Y.Akçura, Ə.Hüseynzadə və M.Ə.Rəsulzadə ilə yanaşı Ə.Ağaoğlu xüsusi yerlərdən birini tutur. O, "Türk aləmi" məqaləsində məhz millətçiliyin türk xalqlarını kölələlikdən qurtarıb birləşdirəcək, onlara mətanət, əzm kimi hissləri bəxş edəcək qüvvə olduğunu qeyd edir.Türkçülük azərbaycançılıq ideologiyasının ilkin pilləsi olaraq xalqımızın Rusiya imperiyasının əsarətindən azad olub müstəqil Cümhuriyyətini yaratmasında önəmli rol oynadı. Bu prosesdə görkəmli ictimai-siyasi xadim, yüksək savada malik böyük nəzəriyyəçi Əhməd bəy Ağaoğlunun xidmətləri danılmazdır.

Əhməd bəy Ağaoğlu 1869-cu ilin dekabrında Şuşada dünyaya gəlmişdir. Hələ XIX əsrin 90-cı illərindən "millət nədir?" sualına cavab axtarmağa başlayan, Qərb maarifçiliyi zəminində formalaşmış böyük mütəfəkkir, publisist Ə.Ağaoğlu ümumtürk problemlərini araşdırarkən öz müəllimləri, məşhur fransız alimləri Barbye de Meynar, Ernest Renan və Ceymc Darmsteterin tədqiqatlarından faydalanaraq mühakimə yürüdürdü. O, türkçülük haqqında düşüncələrini "Yeni türklər və panislamizm", "Millət və millətçilik", "Bizim millətçilər", "Tulu edən ay parçası", "İslam və türk aləmi", "İttihad" və "Tərcüman", "Türk aləmi" və s. məqalələrində göstərmişdir. "Kaspi" qəzetində dərc olunan "Bizim millətçilər" adlı məqaləsində Ə.Ağaoğlu qeyd edirdi ki: "Millətçilik özlüyündə hörmətə layiq, hətta əzəmətli bir hadisədir, belə ki, o, xalqların həyatında zəruridir. Mən belə düşünürəm ki, bəşər təkamülü tarixində insan qəlbinin dindən sonra ikinci böyük tapınağı millətçilikdir [3,112 s].

Əhməd bəyin fikrincə: "Millətin yaranması və inkişafında birinci amil milli ruh, milli psixologiya, ikinci amil isə milli ictimai-bədii fikirdir. Onun "Türk aləmi" məqaləsində qələmə aldığı bu fikirlərdən "bəşəriyyətin türk qanı ilə aşılandığı" nəticəsi ortaya çıxır. Buna görə də məhz millətçilik türk xalqlarını kölələlikdən xilas edib birləşdirəcək, onlara mətanət, əzm kimi hissləri bəxş edəcək qüvvədir. Bununla belə, Ə.Ağaoğlu türkçülüyü islama qarşı qoymaq düşüncəsindən çox-çox uzaq olaraq göstərirdi ki, türk qövmini islamiyyətdən, islamiyyəti də türk qövmindən ayırmaq olmaz.

Ə.Ağayev "Türk aləmi" adlı silsilə məqalələrində bunu belə şərh edirdi: "İslamiyyət cərəyanı türk aləmində müşahidə edilən cərəyanların birincisidir. Fəqət bunun zəminində digər bir cərəyan daha hüsula gəlməkdədir ki, bu da qövmiyyət, yaxud türklük cərəyanıdır… [3,115 s]. Ə.Ağaoğlu milli intibahın şərtlərini belə müəyyənləşdirmişdi: siyasi və milli şüurun təşəkkülü, milli birlik, mədəni tərəqqiyə nail olmaqla yanaşı, orta əsr geriliyinə, mövhumat və fanatizmə, milli lovğalıq və milli ədavətə, çarizmin milli zülmünə, rus şovinizminə qarşı ardıcıl olaraq mübarizə aparmaq.

Azərbaycanda millətçiliyin yaranmasına və inkişafına ən böyük təsir göstərənlərdən biri Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadədir. Məhəmməd Əmin Rəsulzadənin şəxsiyyətini anmaq, onun günümüzdə belə vacibliyini itirməyən çoxaspektli irsinə diqqət yetirərək Azərbaycanın müstəqilliyi uğruna nümayiş etdirdiyi mətanəti qeyd etmək olduqca qürurvericidir. Məhəmməd Əmin Axund Hacı Molla Ələkbər oğlu Rəsulzadə 1884-cü ildə Bakının Novxanı kəndində ruhani ailəsində anadan olmuşdur. Rəsulzadənin ictimai-siyasi

görüşlərində milli məsələ, xüsusilə türkçülük, ya da Azərbaycan türkçülüyü ideyası əhəmiyyətli yer tutmuşdur. "Açıq söz" qəzetinin ilk sayındakı "Tutacağımız yol" adlı məqaləsində, Rəsulzadə Azərbaycan türk milliyyətçiliyinin başlıca prinsiplərini qeyd etmişdir. Onun düşüncəsinə görə, milli ideologiyanın əsas idealı milliyyətdir ki, XX əsrdə milliyyət əsri olduğuna görə, Azərbaycan türkləri də milliyyət mərhələsini keçib millət olaraq ortaya çıxmalıdır.

Milli ideyanın əsas hədəfi olan milliyyətçilik Rəsulzadənin özünün də göstərdiyi kimi, onlarca özgə millətləri hakim millət mənafeyinə fəda edən millətçilik deyildir. Onun fikrincə, hər bir milliyyət azad yaşayıb, tərəqqi edə bilmək üçün üç əsasa: 1) dil; 2) din; 3) zaman-müasirliyə istinad etmək məcburiyyətindədir.

Milliyyətin ilk əsası dildir ki, dili türk olan bu xalqın etnik mənsubiyyəti də türkdür. O, yazırdı: "Dilcə – biz türküz, türklük milliyyətimizdir. Ona görə də müstəqil türk ədəbiyyatı, türk sənəti, türk tarixi və türk mədəniyyətinə malikiyyətimiz - məqsədimizdir. Parlaq bir türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır" [4,253 s].

Rəsulzadənin düşüncəsinə görə, milliyyətin ikinci əsası dindir, çünki din hər nə qədər dildən sonra gələn bir amil olsa da bəzi şərait daxilində ondan da təsirli qüvvə şəklini ala bilir. O, yazırdı: "...Ümumi bir dil nə qədər dil əhlində ümumi bəzi xislətlər və ideallar tövlid ediyorsa, ümumi bir dinə malik olmaq dəxi o dərəcədə böyük bir təsir icra edə bilər. Müxtəlif din və məzhəblərə malik olan bir dil sahiblərinin "milliyyət" olaraq vahid mədəni bir kütlə vücuda gətirmələri müşkül olduğu halda, bir din və bir dilə malik olanlarca bu müşkülat mütəssəvir deyildir. Dil bir millətin əsliyyətini mühafizə edə bilər. Fəqət çox kərə də din bir millətin dilinin baqi qalmasına və bu münasibətilə milliyyət fikri və amalının inkişafına səbəb oluyor". [4,256 s].

Onun düşüncəsinə görə, milliyyətin varlığının üçüncü əsası isə zamandır-müasirləşməkdir: "Zamanca da – biz texnikanın, elm və fənnin möcüzələr yaradan bir dövründəyiz. Türk və müsəlman qalaraq müstəqilən yaşamaq istərsək mütləq əsrimizdəki elmlər, fənnlər, hikmət və fəlsəfələrlə silahlanmalı, sözün bütün mənası ilə zamanə adamı olmalıyız". O sonda belə bir nəticəyə gəlir: "Demək ki, sağlam, mətin və oyanıq məfkurəli bir milliyyət vücuduna çalışmaq istərsək ki, zaman bunu tələb ediyor – mütləqə üç əsasa sarılmalıyız: türkləşmək, islamlaşmaq və müasirləşmək. İştə millətimizin ictimai həyatının islahı üçün üzərinə dayandığımız üçayaqlı mədəniyyət!" [4,258 s].

Millətin təşəkkülündə Rəsulzadə tarixi şüur və adət-ənənələrin də mühüm rolunu da yaddan çıxarmırdı. Beləliklə də Rəsulzadə türkçülük, müasirlik və islamçılıq ideyaları təməlində yeni bir ideyanın – Azərbaycan türkçülüyünün, yəni Azərbaycan Milli ideyasının əsasını qoymuşdur.

Rəsulzadənin Azərbaycan milli ideyası ilə bağlı ən mühüm əsərlərdən biri 1920-ci il iyun-iyul aylarında Lahıcda yazdığı "Əsrimizin Səyavuşu" adlı siyasi-fəlsəfi xarakterli olub, Azərbaycan türkçülüyü manifestidir. Fars şairi Firdovsinin "Şahnamə" əsərini bir daha oxuyan və paralel müqayisə apararaq Firdovsinin qəhrəmanlarından biri olan Səyavuşun həyatını Azərbaycan Cümhuriyyətinə bənzədən Rəsulzadənin gəldiyi son nəticəyə görə, İranla Turan arasında qalan Səyavuşun həyatı Azərbaycan Cümhuriyyətinə həyatına oxşayıır. O, həmin əsərdə qeyd edirdi ki, zaman zaman Azərbaycan türkləri öz türklüklərini unudaraq və türk soyundan uzaqlaşaraq "iranlı" kimi özlərini hiss edib, "iranlı" kimi düşünüb yaşasalar da, bu da çox uzun çəkməmiş, yenidən Turana dönüş baş qaldırmışdır.

Onun fikrincə, "Turanın mərkəzində Azərbaycan" adlı bir ölkə yaranmışdır ki, "yeni Turanın açarı" ondadır [4,263 s]. Yəni Azərbaycan Türk ocağı, qədim Türk yurdudur. Ona görə, Türkiyə türkçüləri başda Gökalp olmaqla turançılığı nəzəri şəkildə yaymaqda ikən, Azərbaycan turançıları bunu siyasi bir fəlsəfə kimi qəbul edərək yaratdıqları milli siyasi partiyanın prinsipi elan etmişdilər. Bu siyasi fəlsəfəyə görə, bütün müsəlmanları "İslam birliyi" altında birləşdirmək

mümkün deyilsə, ancaq bütün türklər öz aralarında böyük dünya federasiyasına örnək olmaq üzrə bir Türk federasiyası yarada bilərlər: "Yeni Turan, mədəni birlik üzərində təsis edilib ancaq gələcək Türk hökumətlərinin federasiyası şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin vacib bir halqasıdır".

Bu əsərində M.Ə.Rəsulzadə bir çox məsələlərlə yanaşı, yeni dövlətə niyə "Azərbaycan" adının verilməsinə də aydınlıq gətirməyə çalışmışdır. Əslində bir türk dövlətinə "Azərbaycan" adı verilməsi Rəsulzadə və onun tərəfdaşları tərəfindən siyasi-ideoloji bir addım idi. Azərbaycan Cumhuriyyətinin ideoloqu Rəsulzadə başda olmaqla yeni dövlətə "Azərbaycan" adını verənlər buna üç faktorla aydınlıq gətirmişlər: 1) Qacarlar dövlətinin şimal-qərbində yaşamış türklərin məskunlaşdıqları coğrafiyanın adı Azərbaycandır; 2) Cənubi-şərqi Qafqazda yaşayan türklərlə, Qacarların şimal-qərbində yaşayan türklər bir sıra baxımdan- dil, din, etnik, mədəni və sosial baxımdan eynidir; 3) Cənubi-şərqi Qafqazda türklərin yaşadıqları coğrafiyanın da adı Azərbaycan olmuşdur.

Buradan belə bir nəticəyə gəlmək olur ki, Rəsulzadə yeni dövlətə "Azərbaycan" adı verməklə ilk növbədə "tarixi-coğrafi" və "siyasi-inzibati" amili göz önünə almışdır. Yeni Türk dövlətinə bu ad verilərkən, etnik-milli kimliyə deyil, qədim tarixi-coğrafi anlayışa və siyasi-inzibati coğrafiyaya üstünlük verilib [4,264 s].

Rəsulzadə bir tərəfdən, Azərbaycan milli ideyasını müdafiə etsə də, digər tərəfdən, azərbaycançılığı ümumi türkçülüyün, turançılığın ayrılmaz bir hissəsi olduğunu da daim qeyd etmişdir. 27 Aprel işğalından sonra da "Yeni Turançılıq" ideyası Rusiya müstəmləkəsində yaşayan bütün Türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin əsas hədəflərindən biri olmalı idi. Yeni Turançılıq ideyasına görə, bütün müsəlmanları "İslam birliyi" altında birləşdirmək mümkün olmadığı təqdirdə bütün türklər öz aralarında böyük dünya federasiyasına örnək ola biləcək Türk federasiya yarada bilərdi. Rəsulzadə yazırdı: "Yeni Turan, mədəni birlik üzərində təsis edilib ancaq gələcək Türk hökumətlərinin federasiyası şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin vacib bir halqasıdır". Deməli, Rəsulzadə 27 aprel işğalından az sonra Azərbaycan milli ideyasının var olması üçün, mədəni ruhlu "Yeni Turançılıq" ideyasını müdafiə etmişdi. "Yeni Turançılıq" ideyası isə Rusiya müstəmləkəsində yaşayan bütün türklərin, o cümlədən Azərbaycan türklərinin əsas hədəflərindən biri olmalı, Z.Gökalpın təbrincə, Rusiyanın dağılıb viran, Türkiyənin böyüyüb Turan olmasına istiqamətlənməli idi.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra Azərbaycan Sovet imperiyasının tərkibinə daxil oldu. Azərbaycan millətçi elitasının sovetləşmədən öncə müəyyənləşdirdiyi bir sıra əsas tendensiyalar 1920-ci illər ərzində yeni kommunist rejimi tərəfindən davam etdirildi. Əvvəla, SSRİ Orta Asiyada apardığı təcrübələrdən fərqli olaraq, Azərbaycana yeni bir ad vermədi və respublikanın Sovetdən əvvəlki adını, yəni Azərbaycan adını qəbul etdi. İnqilabdan əvvəl fəaliyyət göstərən Azərbaycan xadimləri ictimai-siyasi və mədəni həyatda aparıcı rol oynamaqda davam edirdi, hətta bəziləri sürgündən geri dönərək Sovet rejiminin yerliləşdirmə siyasəti adı altında sürətlənmiş dövlət quruculuğuna qoşulmuşdu.

Sovet rəhbərliyi Azərbaycanda millət quruculuğu prosesinə gətirdiyi yeniliklərlə pantürkçülüyün təsirini neytrallaşdırmaq qərarına gəldikdə, bu, bəzi proseslərə təkan verdi ki, onlardan bəzilərinə qısaca toxunaq.

a) Assimilyasiya

Assimilyasiya ilk növbədə azərbaycanlı türk olmayan müsəlman azlıqlara öz təsirini göstərdi. Qoffun yazdığı kimi: "1939-cu ildə Sovet respublikalarında yaşayan azlıqlar siyahıya almada nəzərə alınmamaqla, əksərən yaşadıqları respublikanın əsas etnik çoxluğunun tərkib hissəsi kimi göstərilirdilər. Məsələn, 1926-cı il siyahıya alınmasında tatlar olaraq təsnif edilən insanlar 1939-

cu ildə indi azərbaycanlı (rus yox) kimi qeyd edilirdi" [7,23 s]. Qısa olaraq desək, bu, pantürkist millətçiliyindən Azərbaycan millətçiliyinə keçid demək idi. Sovetlərin yeni fərqli etnik Azərbaycan milləti yaratmaq fikri əslində məhz Azərbaycanın qeyri-türk müsəlman etnik azlıqlarının tədrici assimilyasiyasına təsir göstərirdi. Türk mənşəli əksəriyyət üçün sovetlərin Azərbaycanlı millətini yaratması onları etnik qardaşlarından, xüsusən də türkiyədəkilərdən uzaqlaşdırmaq məqsədilə aparılan dil islahatları və etnik mənsubiyyətlərinin adının dəyişdirilməsi ilə nəticələnmişdi. Müsəlman qeyri-türk azlıqlar üçün isə bu, respublikanın titullu millətinə, yəni türk azərbaycanlılara assimilyasiya olunmaq və bu prosesdən yaranan digər nəticələr demək idi.

Lakin bu, ümumi mənzərənin yalnız bir hissəsidir. Başqa bir assimilyasiya, yəni azərbaycanlıların tədricən yuxarıdan aşağıya ruslaşdırılması da davam edirdi və bu proses 1970-80-ci illərdə xüsusilə daha da sürətlənmişdi. Bu dövr rusdilli orta məktəblərin Azərbaycanın müxtəlif bölgələrinə yayılması ilə əlamətdar olmuşdu. Gürcüstanın paytaxtı Tibilisidən fərqli olaraq, Bakıda rus dili, millətçi ədiblər istisna olmaqla, özünü yerli siyasi və mədəni elita arasında dominant dil kimi gücləndirdi. Getdikcə daha çox insan uşaqlarını rus məktəblərinə göndərməyi üstün tutur və ən əsası, rus dili yerli elitanın ailələrində ünsiyyət dilinə çevrilirdi [1]. 1970-80-ci illərdə Bakının mərkəzində Azərbaycan dilində danışmaq mədəni inkişafdan geri qalma kimi qəbul edilirdi. Sovet və hətta postsovet Azərbaycanında bir çox yüksək rütbəli məmurlar və mədəni elitalar ya Azərbaycan dilində danışa bilmirdilər, ya da pis danışırdılar. Bütün bu dəyişikliklər çox sürətlə baş verdi.

b) Tarixçilər arasında bölünmə

Sovet siyasəti tərəfindən formalaşdırlan Azərbaycan milləti ideyasının başqa bir vacib nəticəsi də yerli ziyalılar daxilində, xüsusən də tarixçilər arasında yaranan nəzərə çarpacaq dərəcədə bölünmə idi. Azərbaycan millətçi tarixçiləri iki rəqib düşərgəyə ayrılmışdı. Tarixçilər müasir Azərbaycan ərazisində mövcud olan bütün dövlətləri və millətləri əhatə edərək coğrafi yanaşmaya əsaslanan tarix yazırdılar, bu zaman həmin dövlət və millətləri sadəcə Azərbaycan, azərbaycanlı kimi təqdim edirdilər.İkinci qrup isə pantürkçülər adlanırdılar. Onlar Azərbaycan ərazisində yaşayan qədim xalqların və dövlətlərin türk mənşəli olmasını sübut etməyə çalışırdılar. Nüfuzlu ədiblərin əksəriyyəti məhz sonuncu qrupu dəstəkləyirdi və onlar getdikcə daha çox antisovet kimi qəbul edilərək ictimaiyyətin də rəğbətini qazanırdılar.

## ƏDƏBİYYAT


1. Altay Göyüşov- Azərbaycan millətçiliyinin yaranmasından günümüzə qədər qısa təsviri
2. Böyük mütəfəkkir Əli bəy Hüseynzadənin150 illik yubileyi münasibətilə- "Türk dünyasının böyük ideoloqu" (metodiki vəsait) (Bakı 2014)
3. Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq Simpoziumun materialları
4. Faiq Ələkbərli- AZƏRBAYCAN TÜRK FƏLSƏFİ VƏ İCTİMAİ FİKİR TARİXİ (XIX-XX ƏSRLƏR) II HISSƏ
5. Kəngərli A. M.F.Axundov və Həsənbəy Zərdabi: Ümmətçilikdən millətçiliyə keçidin başlanması.- "Yeni Azərbaycan", 2003, 11 may.
6. Vahid Ömərov- Həsən bəy Zərdabi və azərbaycançılıq- Səs.- 2012.- 7 mart.- S.13.
7. Goff, Nested Nationalism, 23.
8. Savory, Roger. Iran Under the Safavids. 1st edition. Cambridge: Cambridge University Press, 2007, 213.

## AZƏRBAYCANDA MİLLƏTÇİLİYİN İNKİŞAFININ SOSİAL-SİYASİ FAKTORLARI

***Manafova Zeynəb***

### XÜLASƏ

Bu məqalədə millətçiliyin Azərbaycanda formalaşma tarixindən bəhs olunur. Qədim tarixə malik olan Azərbaycanda millətçilik 19-cu əsrdən etibarən özünü göstərməyə başlamışdır. Məqalədə bu tarixdən müasir dövrə qədər olan hadisələr göstərilir. Xalqımızın millətçilik və milli ruhun yüksəlişi dövründə keçdiyi yol araşdırılır.

## СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ФАКТОРЫ РАЗВИТИЯ НАЦИОНАЛИЗМА В АЗЕРБАЙДЖАНЕ

***Манафова Зейнаб***

### АННОТАЦИЯ

В данной статье рассматривается история формирования национализма в Азербайджане. В Азербайджане, имеющем древнюю историю, национализм начал проявляться в XIX веке. В статье показаны события с этой даты по настоящее время. Изучается путь нашего народа в период национализма и подъема национального духа.

## SOCIO-POLITICAL FACTORS OF NATIONALISM DEVELOPMENT IN AZERBAIJAN

***Manafova Zeynab***

### SUMMARY

This article discusses the history of the formation of nationalism in Azerbaijan. In Azerbaijan, which has an ancient history, nationalism began to manifest itself in the 19th century. The article shows the events from this date to the present. The path of our people in the period of nationalism and the rise of national spirit is being studied.

# ИСТОРИЧЕСКИЕ ПРЕДПОСЫЛКИ ФОРМИРОВАНИЯ ГУМАНИЗМА В МУСУЛЬМАНСКОЙ ФИЛОСОФИИ

***Абдуллаева Ройя Гасан кызы,***
***магистрант второго курса, БГУ***
***abroya1310@gmail.com***

***Ключевые слова***: гуманизм, мусульманская философия, общие и духовные предпосылки, ведущие школы и направления.
***Açar sözlər***: humanizm, müsəlman fəlsəfəsi, ümumi və mənəvi müqəddəm şərtlər, aparıcı məktəblər və cərəyanlar.
***Key words***: humanism, Muslim philosophy, general and spiritual premises, leading schools and directions.

The second way. This method assumes knowledge of the corresponding property of graphs of linear functions over two points. No new properties are revealed here, since attention, as in the first method, is focused on a specific function from the class. Note that in teaching there is a successive change of these methods: when the general property of graphs is learned (when considering the first method), they begin to use the second one - it is more economical and justified geometrically, since one and only one straight line passes through two points.

In order to study the class of linear functions in the totality of its general properties.

Task: Investigate the class of functions y=kx+b depending on the parameters, establish the geometric meaning of the parameters.

This problem arises immediately after the introduction of the concept of a function. The most natural trick that can be applied is to consider simultaneously several functions, in which one of the parameters changes, while the other remains constant. The simplest system that implements this technique consists of four tasks with their subsequent analysis and establishment of links between them.

**Methodology for introducing the concept of an inverse function and a function of the form $y = \sqrt{x}$ in the VIII class.**

The concept of an inverse function has no analogues, so we have to introduce them by means of an explicit definition. The role of the inverse function is great. The use of an inverse function is necessary to introduce a large number of classes of basic elementary functions: $k^{th}$ root, logarithmic, inverse trigonometric functions. When studying the inverse function, the dependence of its monotonicity on the monotonicity of the original function is found out - this is necessary in order to substantiate the existence of the inverse function and consider in detail the mutual arrangement of the graphs of this and the inverse functions.

The teacher can lead students to the concept of an inverse function by setting a new cognitive task for students. On the basis of the important idea learned by the students, which is included in the concept of a function, the uniqueness of the correspondence of an argument and the value of a function determined from it, carry out the following reasoning:

"Each valid value of the variable x is equal to y=f(x) associates a well-defined value of the variable y. However, in some cases, the relation y=f(x) can also be considered as such an equality, which assigns to each admissible value of the variable y a well-defined value of the variable x".

## LITERATURE

1. Lyashenko Y. I. - The study of functions during the course of mathematics of an eight-year school. Minsk, 1970.
2. Vilenkin N. Y - Modern foundations of the school course of mathematics. - M. Enlightenment, 1980.
3. Blokh A. Y., Qusev V. A. - Methods of teaching mathematics in secondary school. - M. Enlightenment, 1987.
4. Kramor V. S. - We repeat and systematize the school course of algebra and the beginning of analysis, Moscow, Enlightenment, 1990.
5. Ribnikov K. A. - The emergence and development of mathematical science, Moscow, Enlightenment, 1987.

## STUDY AND METHODS OF THE CONCEPT OF FUNCTIONS IN THE COURSE OF MATHEMATICS

***Abdullaeva Goncha, Mammad Mira***

## SUMMARY

This work is devoted to the methodology of studying functions in a mathematics course. In this work, we consider a methodology for studying the direct and inverse proportional dependence, as well as the linear, square, and cubic functions in class VII and functions of the form $y = \sqrt{x}$ in class VIII.

## ИЗУЧЕНИЕ И МЕТОДЫ ПОНЯТИЯ ФУНКЦИЙ В КУРСЕ МАТЕМАТИКИ

***Абдуллаева Гонча, Мамед Мира***

### АННОТАЦИЯ

Данная работа посвящена методике изучения функций в курсе математики. В статье рассматривается методика исследования прямой и обратно пропорциональной зависимости, а также линейных, квадратичных и кубических функций в классе VII и функций вида $y=\sqrt{x}$ в классе VIII.

## RİYAZİYYAT KURSUNDA FUNKSİYALAR KONSEPSİYASININ ÖYRƏNILMƏSI VƏ METODLARI

***Abdullayeva Qönçə, Məmməd Mira***

### XÜLASƏ

Bu iş riyaziyyat kursunda funksiyaların öyrənilməsi metoduna həsr edilmişdir. Məqalədə VII sinifdə düz və tərs mütənasib asılılığın, eləcə də xətti, kvadrat və kub funksiyaların və VIII sinifdə $y=\sqrt{x}$ formalı funksiyaların öyrənilməsi metodologiyasından bəhs edilir.

# MÜASİR DÖVRDƏ TƏLİMDƏ KOMPÜTER TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Aysel Heydərova Sehran***
***BDU-nun II kurs magistrantı***
***aheydarova98@mail.ru***

***Açar sözlər:*** Təlim, təhsil, texnologiya, kompüter, keyfiyyət.
***Ключевые слова:*** Обучение, образование, технология, компьютер, качество.
***Keywords:*** Training**,** education, technology, computer, quality.

Mənimsənilməsi zəruri olan məlumatların durmadan artdığı hazırki dövrdə təlim fəaliyyətində texniki vasitələrindən istifadə olunması ən səmərəli tədbirlərdən biri kimi nəzərdə tutulur. Bu hər şeydən əvvəl, təlimdə istifadə olunan texniki vasitələrin informasiya mübadiləsi vasitəsilə çevrilir və mənimsəmənin səmərəliliyini artırır.

Müstəqillik dövründə yeni təhsil sistemində straterji fəaliyyətin əsas istiqamətlərindən biri pedaqoji prosesdə informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə etmək, təhsil müəssisələrini kompüter və digər təlim texnologiyaları ilə təchiz etməkdir.

"Bu gün təhsil siteminin daha çox prioritet hesab olunan və metodoloji xarakter daşıyan problemlərindən biri texnologiyaların təlimdə tətbiqidir"(1, s.19).

Təhsil alanların bilikləri müstəqil surətdə əldə etmək işinə cəlb olunması vəzifələrinin həlli yolları müxtəlifdir. Müasir dövrü nəzərdən keçirdikdə kütləvi kommunikasiya vasitələrinin nə dərəcədə geniş inkişaf etdiyinin şahidi oluruq. Bu cür kütləvi komunikasiya vasitələrinə müxtəlif çap məhsulları, kinonu, səs yazılarını, radionu, televizor verlişlərini, linqafon, maqnitafon, multimedialar, kompüüter texnologiyaları və s. aid edə bilərik. Kütləvi kommunikasiya texnologiyaları istər-istəməz şagirdlərin bu və ya digər məlumatlarla tanış olmalarına, onları mənimsəmlərinə əsaslı təsir göstərir. Şübhəsiz həmin vasitələri məqsədəuyğun şəkildə təhsil alanların təlim fəaliyyətinə daxil etdikdə mənimsəmənin səmərələliyininə qat-qat artıq təsir göstərəcəkdir. Başqa sözlə, video və audio materiallar, səs yazıları, radio televizor verlişləri kimi kütləvi kommunikasiya vasitələri təlimin texniki vasitələrin zənginləşdirmək sahəsində mühüm rol oynayır.

Yuxarıda qeyd etdiyimiz kimi, müstəqillik dövründə müasir pedaqoji proses üçün texniki vasitələrdən istifadənin genişlənməsi qanunauyğun və təbi bir haldır. Əks təqdirdə yanlız köhnə ənənəvi şifahi şərh yolu ilə lazımı məlumatların hamsını təhsil alanlara çatdırmaq mümkün deyildir.

Təlimdə texniki vasitələrdən istifadə olunması fəal təlim metodu kimi təhsil alanlara çatdırılacaq məlumatların həcmini artırmağa, onların idrak fəaliyyətini fəallaşdırmağa, materialı çatdıma formasını dəyişməyə əlverişli şərait və imkanlar yaradır. "Fəal təlimin metodlarının tətbiq edilməsi məktəbdə şəraiti dəyişərək şagirdlərin özünə inamı artırır, şəxsiyyətlərarası münasibətləri yaxşılaşdırır, məktəbə, oxumağa, biliklərə yiyələnməyə böyük həvəs və maraq yaradır" (2, s. 275 ).

Respublikanın yeni təhsil sistemində təlim texnologiyalarının hərtərəfli və geniş yayılması və inkişafı üçün bu sahəyə müasir təlim texnologiyaları avadanlıqlarının gətirilməsi problemi müəyyən dərəcədə öz həlliini tapmaqdadır. Təlim texnologiyaları avadanlıqların və ya sistemlərin sürətli inkişafı daim nəzərə alınmalıdır. Çünki təlim texnologiyaları üzrə hazırlaşan modellər və onların quruluşu, metodları bu inkişafa uyğun tərtib edilib tətbiq olunmalıdır. Məhz bu halda hazırlanan təlim texnologiyaları pedaqoji prosesdə özünə uğur qazandıra bilər.

Müstəqillik dövrünün mühüm pedaqoji problemi kimi pedaqoji prosesdə təlim fəaliyyətində texniki vasitələrindən istifadə olunması aşağıdakı müsbət dəyişikliklərə səbəb olur :

1) Təlimdə təhsil alanların idrak fəllığı artır, mövzuya qarşı fəal maraq yaranır.

2) İnformasiyaların qavranılması prosesi asanlaşır. Qavranılan materialın anlaşılması üçün geniş imkanlar yaranır. Əldə edilən yeni biliklərlə keçmiş biliklər arasında əlaqələrlə zənginləşir. İdrak fəaliyyəti emosional fəaliyyətə üzvi şəkildə bağlanır.

3) İnformasiyaların işlənməsi mərhələsində təfəkkür fəallığı yaranır, biliklər şüurlu şəkildə qavranılır. Təhsil alanların təsəvvür ehtiyatları genişlənir.

Müasir təlim texnologiyalarından kompüter texnologiyasının tətbiqi müasir təlim texnologiyaları içərisində ən yüksək reytinqə malikdir. Buna səbəb onların geniş tələbə və şagird kütləsi üçün aydın, əyləncəli və istifadəsinin sadəliyi, eləcə də hazırlanmış proqramların yüksək keyfiyyətli olmasındadır.

Müasir məktəbin təlim texnologiyaları avadanlığın seçilməsi, təkilləşdirilməsi və tətbiq olunması problemini həll etmək üçün müəyyən tədbirlərin görülməsi və bunların sadə səviyyədən ən yüksək səviyyəyə, təhsilimizə gətirilməsinə doğru sürətli, həm də iqtisadi cəhətdən səmərəli işlər həyata keçirilir.

"Təlim texnologiyalarını texniki vasitələri elmlərin əsaslarının mənimsənilməsinə, qazanılan biliklərin möhkəmlənməsinə, şüurlu başa düşülməsinə, təfəkkürün inkişafına, dünyagörüşünün günişlənməsinə, mənəvi keyfiyyətlərinin formalaşmasına geniş imkanlar yaradır" (3, s. 432).

Bu vasitələr təlim əməyinə uyğun olmaqla, həm də səmərəli, metod və priyomların yaradılması, seçilməsi və tətbiqinə, onun inkişafına əlverişli şərait və imkanlar yaradır.

## ƏDƏBİYYAT

1. Mehrabov A. O. Müasir təhsilin metodloji problemləri. Bakı:Mütərcim, 2012, 252 s.
2. Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı: Mütərcim. 2021, 488 s.
3. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Dərslik. 2021. 612 s.

## MÜASİR DÖVRDƏ TƏLİMDƏ KOMPÜTER TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Heydərova Aysel***

**XÜLASƏ**

Müstəqillik dövründə yeni təhsil sistemində straterji fəaliyyətin əsas istiqamətlərindən biri pedaqoji prosesdə informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə etmək, təhsil müəssisələrini kompüter və digər təlim texnologiyaları ilə təchiz etməkdir. Bu gün təhsil sisteminin daha çox prioritet hesab olunan və metodoloji xarakter daşıyan problemlərindən biri texnologiyaların təlimdə tətbiqidir ki, bu da təhsilin keyfiyyətinin yüksəldilməsinə qüvvətli təsir göstərir.

# АКТУАЛЬНОСТЬ ИСПОЛЬЗОВАНИЯ КОМПЬЮТЕРНЫХ ТЕХНОЛОГИЙ В ОБРАЗОВАНИИ В НАШЕ ВРЕМЯ

***Гейдарова Айсель***

**АННОТАЦИЯ**

Одним из основных направлений стратегической деятельности в новой системе образования в период независимости является широкое использование информационно-коммуникационных технологий в педагогическом процессе, оснащение учебных заведений компьютерами и другими технологиями обучения. Одной из наиболее приоритетных и методологических проблем системы образования на сегодняшний день является применение технологий в образовании, что оказывает сильное влияние на повышение качества образования.

# THE IMPORTANCE OF THE USE OF COMPUTER TECHNOLOGY IN EDUCATION IN MODERN TIMES

***Heydarova Aysel***

**SUMMARY**

One of the main directions of strategic activities in the new education system during independence is the extensive use of information and communication technologies in the pedagogical process, equipping educational institutions with computers and other learning technologies. One of the most priority and methodological problems of the education system today is the application of technology in training, which has a strong impact on improving the quality of education.

# İNFORMASİYA TEXNOLOGİYALARI ŞƏRAİTİNDƏ TƏLƏBƏLƏRİN İDRAK FƏALİYYƏTİNİN EFFEKTİVLİYİNİ YÜKSƏLTMƏK YOLLARI

***Həsənəliyeva Ləman Nicat qızı***
***BDU-nun II kurs magistrantı***
***lheseneliyeva@gmail.com***

***Açar sözlər:*** tələbə, idrak fəallığı, təlim prosesi, informasiya texnologiyası, kompüter.
***Ключевые слова:*** студент, познавательная деятельность, информационные технологии, компьютер.
***Key words:*** student, cognitive activity, learning process, information technology, computer.

Kompüter texnologiyasının tədris prosesinə tətbiq edilməsinin ilkin mərhələsində ibtidai təhsil pedaqogikası və metodikası fakültələrində riyaziyyat kursunun və ya xüsusi halda kursun bir bölməsinin öyrənilməsinin məqsədi təyin edilməlidir. Qeyd etmək lazımdır ki, kompüter tədris prosesində digər texniki vasitələr kimi universal deyil, təlimdə istənilən təlimin texniki vasitələrindən istifadə zamanı müəllimin rolu aparıcı, təyinedici və istiqamətləndirici olmalıdır.

Pedaqoji fakültənin riyaziyyat təlimində kompüterin əsas xüsusiyyətləri, tələbələrin idrak fəaliyyətinin fəallaşdırılmasında bir alət kimi aşağıdakılardan ibarət olmalıdır:

1) kompüter praktik olaraq imkan verməlidir ki, çox böyük həcmli informasiyadan istifadə edilsin və bu informasiya analitik şəkildə işlənsin;

2) kompüter tələbənin idraki-tədqiqi fəaliyyətinin universal vasitəsinə çevrilməlidir;

3) kompüter tələbənin psixi fəaliyyətinin yeni fəal şəkildə həyata keçirilməsini təmin etməlidir: məsələn, biliyin məzmununun ayrı-ayrı aspektlərinin təhlili; əldə edilmiş məlumatların müqayisəsi, mənimsənilmiş materialın digər informasiya ilə tamamlanması və s. Bütün bunlar praktik fəaliyyətin təşkilində fayda verir;

4) kompüterin köməyilə icra olunan fəaliyyətin məzmunu üzərində operativ olaraq dəyişiklik aparmaq mümkündür. Bununla tələbə üçün real imkan yaranır ki, o, simvol vasitələrdən istifadə işində yeni prinsipial sahədən istifadə etsin;

5) kompüter xüsusi kommunikativ xassəyə malikdir. Bu da onu hər hansı bir digər təlim vasitələrindən fərqləndirir. Kompüter yalnız tələbənin intellektuallığını və imkanlarını genişləndirməməli, eyni zamanda tələbənin yaddaşına, emosionallığına, motivlərinə və maraqlarına müsbət təsir göstərməli və ən əsas tələbənin fəaliyyətini dəyişdirməli və yeniləşdirməlidir.

Pedaqoji fakültədə riyaziyyatın kompüterli təlimi zamanı tələbələrin idrak fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün ilkin mərhələdə aşağıdakı vəzifələr həyata keçirilməlidir [1, s.24]:

- təlim prosesinin hansı hissəsində kompüterdən istifadə etmək məqsədəuyğundur;
- kompüterdən bu istifadə hansı həcmdə nəzərdə tutulur;
- hər bir konkret halda hansı məqsədə nail olunması nəzərdə tutulur.

Əgər ibtidai təhsil pedaqogikası və metodikası fakültəsində tədris prosesi zamanı kompüter tətbiq olunarkən idrak proseslərinin və ya idrak hadisələrinin sayını yüksəltmirsə, ümumiyyətlə, kompüterdən istifadədən imtina etmək lazımdır. Beləliklə, məqsəd funksiyası – optimallaşdırma meyarı istənilən pedaqoji məsələdə olduğu kimi yalnız təlimin keyfiyyətidir.

Məqsədlər – fəaliyyətin təsəvvür edilən nəticələridir. Onlar tələbələrin təlimdə yüksək müvəffəqiyyət qazanmasına nail olmaqdan, onları öyrətməkdən və tərbiyə etməkdən, bunun üçün onlarda zəruri bilik, bacarıq və vərdişlər, şəxsi keyfiyyətlər formalaşdırmaqdan ibarətdir.

Kompüterli təlim zamanı problemli təlim metodunu tətbiq etməklə tələbələrin təfəkkürünün formalaşdırılmasını aşağıdakı mərhələlərlə həyata keçirmək olar:

1. Problemli situasiyanın yaradılmasında tələbələrin təfəkkürünün fəallaşdırılması. Problemli situasiyada tələbə sanki xəbərdarlıq alır, lakin məqsəd tamamilə aydın deyil. Problemli situasiyada yaradılan çətinliyin mahiyyəti tələbə tərəfindən yaxşı dərk olunursa, o, daha da fəallaşar və problemin həllində konkret məqsədi dərk etməklə müstəqil fəaliyyət göstərə bilər.

2. Problemin qoyulmasında tələbə təfəkkürünün fəallaşdırılması. Problemli situasiyadakı çətinliyin dərk olunması, bu çətinliklə tələbənin mövcud bilikləri arasındakı ziddiyyətin araşdırılmasından sonra konkret olaraq problem qoyulur. Artıq bu mərhələdə məqsəd aydın olduğundan təfəkkürün inkişafına geniş imkan yaranır. Bu mərhələdə tələbə təfəkkürü həm nəzəri, həm də praktiki istiqamətdə inkişaf edir. Problemli situasiyanın araşdırılması, problemin qoyuluşu onun həlli üçün əsas rola malikdir. Əgər bu mərhələlərdə tələbə təfəkkürü fəallaşdırılıbsa, onda problemin həllində tələbə daha da fəallaşacaq, maraq artacaq, təşəbbüskarlıq isə yüksələcəkdir [2, s.43].

3. Problemin həllində tələbə təfəkkürünün fəallaşdırılması. Problemin həlli təfəkkür prosesinin çətin mərhələlərindən biridir. Ona görə də, “kompüter-müəllim” ikiliyi bu mərhələdə tələbələrin foallaşmasına daha ciddi yanaşmalıdır. Əgər problem mürəkkəb xarakterə malikdirsə, onu tərkib hissələrə bölərək həll etdirmək və həllin ümumiləşdirilməsində tələbəni fəallaşdırmaq lazımdır. Bu zaman, tələbənin marağı və təfəkkürü məcmu halında inkişaf edir. Ona görə də, tələbələrdə ümumiləşmə aparmaq, nəticə çıxarmaq keyfiyyətləri formalaşır. Həllin yoxlanılması bu mərhələnin əsasını təşkil edir. Əgər tələbə həlli yoxlayaraq onun düzgün olub-olmadığını əsaslandıra bilirsə, deməli təfəkkür fəallaşıbdır.

Riyaziyyatın kompüterli təlimində tələbələrin idrak marağı müxtəlif inkişaf səviyyəsində ola bilər və dərinliyinə görə müxtəlif xarakterə malik ola bilər. İdrak marağı öz məzmununa görə tələbələr tərəfindən riyazi qanunauyğunluqların dərk olunması səviyyəsini əks etdirir. İdrak marağının ibtidai səviyyəsi məsələ və misalların həll edilmiş nümunəsinə əsasən hərəkət etməyə həvəs göstərilməsi ilə səciyyələnir. Daha yüksək səviyyə isə riyazi qanunauyğunluqlara əsaslanaraq idrak fəaliyyəti prosesində məsələni müstəqil surətdə həll etməyə maraq göstərilməsidir. İdrak marağı inkişafının ən yüksək səviyyəsi yaradıcılıq səviyyəsidir ki, bu da tələbənin məsələni özünün planı və axtarıb tapdığı üsulla həll etməyə maraq göstərməsi ilə bağlıdır.

Maraq öyrənilən riyaziyyat kursuna ciddi diqqəti təmin edir, ona görə də maraq idrak fəaliyyətinin məhsuldarlığına güclü köməklik edir. Daxili gücün hesabına, maraqsız təlim əziyyətlidir və az məhsuldardır.

Maraq həm ixtiyari, həm də qeyri-ixtiyari diqqəti cəlb edən qüvvətli amillərdən olub, obyekti ətraflı qavramağa və yadda saxlamağa, dərindən öyrənməyə, məsələnin həllini sona çatdırmaqda qarşıya çıxan çətinlikləri aradan qaldırmağa tələbəni təhrik edir. Maraq davamlı, geniş və təsirli olduqda, diqqətə müsbət təsir göstərir.

Tələbələrin diqqətinin idarə edilməsi üçün onların iradi keyfiyyətlərinə, bacarıq və vərdişlərinə əsaslanmaq lazımdır. Tələbəyə təqdim olunmuş tapşırıq onun qüvvəsi daxilindədirsə, onda maraq yaranır və o, diqqətini mərkəzləşdirməyə və tapşırığın həll edilməsi üçün təşəbbüs göstərməyə başlayır [3, s.260].

Tələbənin idrak fəaliyyətinin xarici əlamətlərini kompüter modelləşdirir, burada, kompüter heç bir “təfəkkür” əməliyyatı aparmır. Kompüterin funksiyası – məxsusi strukturun tələbənin proqram əsasında avtomatik çevirməsindən ibarətdir. Kompüter verilmiş alqoritmə görə informasiyanı qəbul edə bilir, onu çevirə bilir və öyrənənə müəyyən formada verə bilir.

İnformasiyanın məzmununu, verilmə formasını, ardıcıllığını öyrədici proqram müəyyən edir [4, s.74].

Beləliklə, biz təklif etdiyimiz didaktik sistem riyaziyyat təlimində tələbələrin idrak marağının inkişafına, müstəqil düşünməsinə, bilikləri sistemli, dərindən dərk etməsinə kömək edir, onları çətinlikləri aradan qaldırmağa təşəbbüskarlıq göstərməyə sövq edir və gələcək pedaqoji fəaliyyət üçün zəruri olan keyfiyyətləri qazanmağa nail olurlar.

Tədqiqat nəticəsində, ali pedaqoji məktəblərin ibtidai təhsil pedaqogikası və metodikası fakültəsində riyaziyyat təlimi prosesində kompüterdən istifadə zamanı aşağıdakıları müəyyən etdik:

1) Riyaziyyat tədrisinin kompüterləşdirilməsi zamanı kompüter əvvəlcə təlimin fərdiləşdirilməsini təmin edir, sonra isə tələbələrin idrak fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün təfəkkür aləti kimi çıxış edir.

2) Kompüter texnologiyasının pedaqoji fakültənin riyaziyyat kursunun ənənəvi təliminə tətbiqi tələbələrdə elmi-tədqiqat işlərinə maraq yaradır.

3) Müasir elmi-texniki tərəqqi dövründə kompüter texnologiyasının pedaqoji fakültələrin riyaziyyat təlimində tələbələrin idrak fəaliyyətinin səmərəliliyini yüksəltmək üçün tətbiq edilməsi ali pedaqoji məktəblər qarşısında dövlət tərəfindən qoyulan tələblərin həyata keçirilməsinə kömək edir.

4) Təlimdə kompüterdən istifadə zamanı da müəllimin rolu aparıcı, təyinedici və istiqamətverici olmalıdır, burada kompüter müəllimə köməkçi vasitədir. Müasir texniki vasitə olduğuna görə, kompüteri yerli-yersiz bütün mövzuların öyrənilməsində tətbiq etmək düzgün deyildir.

5) Tədqiqat nəticəsində, kompüterli təlim zamanı tələbələrin idrak fəaliyyəti elementləri arasındakı əlaqələrin məntiqi strukturu müəyyənləşdirilmişdir.

6) İnformasiya texnologiyaları şəraitində pedaqoji fakültənin riyaziyyat təlimi bizim tərtib etdiyimiz didaktik sistem üzrə aparıldıqda:

- motivləşmənin optimal səviyyəsi yüksəlir;
- fərdi təlim təmin edilir, tələbələrin müstəqil bilik qazanmaq üçün bacarıq və vərdişləri formalaşır, idrak marağı, tədris və elmi yaradıcılığı inkişaf edir;
- tələbələr əqli fəaliyyətdə ardıcıl olurlar və az vaxt sərf etməklə daha çox bilik qazanmağa nail olurlar, onlarda yeni biliklərə yiyələnməyə maraq yaranır, öyrədici proqramlardan istifadə bacarığı formalaşır, tədris materialı şüurlu və dərindən mənimsənilir;
- tələbələr öz işinə nəzarət edir və dialoq rejimində müstəqil işləyirlər;
- pedaqoji fakültənin riyaziyyat kursu təliminin səmərəliliyinin yüksəldilməsinə kömək edir;
- tələbələr həll edilmiş nümunə məsələlərə, istiqamətverici məsləhət materialına əsaslanaraq məsələlərin həll ardıcıllığını təyin edir, məsələ şərtində verilənləri və axtarılanları ayırırlar;
- tələbələr mürəkkəb məsələni sadə məsələlərə ayırmaq imkanı əldə edir;
- tələbələrin marağı, şüurluluğu, fəallığı məşğələlərin bütün mərhələlərində ənənəvi məşğələlərdə olduğundan daha məhsuldar və səmərəli olur.

7) İnternet beynəlxalq kompüter şəbəkəsindən riyaziyyat təlimində istifadə edilməsi tələbələrin idrak fəallığının inkişafının yüksəldilməsinə müsbət təsir edir.

***Nəticə.*** Müasir mərhələdə pedaqoji nəzəriyyə və praktikanın çox mühüm problemlərindən biri tələbələrin idrak fəallığının yüksəldilməsinə nail olmaqdır. İdrak fəallığının inkişafı bütün mərhələlərdə tələbə gənclərin tədris fəaliyyətinin əsasında dayanır. İdrak fəallığı yüksək inkişaf səviyyəsində olmasa, təhsil prosesini səmərəli təşkil etmək çətindir.

Tədqiqatdan belə bir nəticəyə gəlmək olar ki, idrak fəaliyyətinin, başqa sözlə, tələbələrin əqli inkişafının fəallaşdırılması təfəkkür əməliyyatlarının uğurlu olmasına imkan verir ki, bu da

informasiyanın əldə olunma imkanlarını təmin edir, idraki marağın formalaşdırılmasını və inkişafını; davranışın tənzimlənməsini, özünənəzarət və özünüqiymətləndirmə kimi refleksin inkişafını stimullaşdırır.

Müəyyən edilmişdir ki, müəllimin səmərəli fəaliyyəti nəticəsində idrak marağı stimuldan motivə və nəticədə tələbələr üçün tələbata çevrilir.

İdrak fəallığının inkişafının mühüm pedaqoji göstəricisi tələbələrin müstəqil işə cəlb edilməsi nəticəsində formalaşır.

Müəllimin vəzifəsi tələbələrin diqqətini, onların marağını tədris mövzusuna cəlb etmək, bu əsasda idrak fəallığını qüvvətləndirməkdir. Problemin tələbələr tərəfindən həll edilməsinə nail olmaq lazımdır.

## ƏDƏBİYYAT

1. Mehrabov. A.O. Təlim prosesində konstruktiv öyrənmə modeli, idraki və sosial münasibətlərin formalaşma xüsusiyyətləri // Azərbaycan məktəbi, 2005, № 3, səh. 24-33.
2. Məmmədli L.A. Ali məktəb tələbələrində idrak fəallığı mövqeyinin formalaşdırılması // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2009, № 2, s. 43-45.
3. Məmmədli L.A. Tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin idarə olunması / Pedaqoji Universitet Xəbərləri, 2010, № 4, s. 260-264.
4. Горшкова О.О. Формирование познавательной активности студентов технических вузов как средство подготовки к инновационной деятельности // Фундаментальные исследования. 2006. № 7. с. 71-74.
5. Джамирзе Н.К. Творческая активность как условие саморазвития студентов в образовательном пространстве вуза // Вектор науки Тольяттинского государственного университета. Серия: Педагогика, психология. 2011. № 4. С. 85-87.
6. Загрекова Л.В. Теория и технология обучения. М.: Высшая школа, 2004, 157 с.

# İNFORMASİYA TEXNOLOGİYALARI ŞƏRAİTİNDƏ TƏLƏBƏLƏRİN İDRAK FƏALİYYƏTİNİN EFFEKTİVLİYİNİ YÜKSƏLTMƏK YOLLARI

***Həsənəliyeva Ləman***

## XÜLASƏ

Məqalədə informasiya texnologiyaları şəraitində tələbələrin idrak fəaliyyətinin effektliyini yüksəltmək yolları barəsində söz açılıb. Kompüterin tələbələrin idrak fəaliyyətinin fəallaşdırılmasında bir alət kimi əsas funksiyaları vurğulanıb. Kompüterli təlimdə tələbələrin idrak marağının müxtəlif inkişaf səviyyəsində olması və dərinliyinə görə müxtəlif xarakterə malik olması qeyd olunub. İdrak fəallığının inkişafının mühüm pedaqoji göstəricisinin tələbələrin müstəqil işə cəlb edilməsi nəticəsində formalaşması nəzərə çatdırılıb. Sonda, tədqiqatdan alınan yekun nəticələr ümumiləşdirilib.

# ПУТИ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ В УСЛОВИЯХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ

***Гасаналиева Ламан***

## АННОТАЦИЯ

В статье рассмотрены пути повышения эффективности познавательной деятельности студентов в условиях информационных технологий. Подчеркнуты основные функции компьютера как средства активизации познавательной деятельности учащихся. Отмечено, что познавательный интерес студентов к компьютерному обучению имеет разный уровень развития и разный характер по глубине. Учитывалось формирование важного педагогического показателя развития познавательной активности в результате вовлечения студентов в самостоятельную работу. В заключение были подведены окончательные результаты исследования.

# WAYS TO INCREASE THE EFFECTIVENESS OF STUDENTS' COGNITIVE ACTIVITY IN THE CONTEXT OF INFORMATION TECHNOLOGY

***Hasanaliyeva Laman***

## SUMMARY

Ways to increase the effectiveness of students' cognitive activity in the context of information technology were discussed in the article. The main functions of the computer as a tool to activate students' cognitive activity were emphasized. It was noted that students' cognitive interest in computer training has different levels of development and a different character according to the depth. Formation of an important pedagogical indicator of the development of cognitive activity as a result of independent involvement of students was taken into account. In conclusion, the final results from the study were summarized.

# ONLAYN DƏRSLƏRDƏ TƏLİM GÖSTƏRİCİLƏRİNƏ TƏSİR EDƏN AMİLLƏR

***Məmmədova Aysel Vaqif qızı***
***BDU-nun II kurs magistrantı***
***aysel_mammadova99@mail.ru***

***Açar sözlər:*** onlayn dərs, təlim göstəriciləri, asinxron müzakirə, interfeys dizaynı.
***Ключевые слова:*** онлайн-уроки, показатели обучение, асинхронное обсуждение, дизайн интерфейса.
***Key words:*** online lessons, training indicators, asynchronous discussion, interface design.

Bu məqalənin məqsədi, onlayn dərslərdə təlim göstəricilərinə təsir edən amilləri müəyyən etməkdir. Pedaqoqlar, tədqiqatçılar və təlimat dizaynerləri onlayn öyrənmənin pedaqoji nəticələrini anlamaq vəzifəsi ilə üzləşirlər. Onlayn dərslərin qiymətləndirilməsi üçün meyarlar, onlayn müzakirələrin yazılı xarakteri, kurs dizaynı və təlimatçı müdaxilələri, öyrənənlərin əsas bilikləri təlimə təsir göstərə bilər [2, s.41].

Bir neçə tədqiqatçı şagirdlərin onlayn dərslərdə iştirak modellərinin fərqli olub-olmadığını araşdırıb. Mason, öyrənənlərin onlayn iştirakında üç fərqli qrupa bölündüyünü aşkar etdi:

- aktiv iştirakçılar;
- gizli axtarış aparanlar (mesajları oxuyan, lakin mesaj göndərməyənlər);
- iştirak etməyənlər [6, s.29].

Tədqiqatçı C.K.Taylor tərəfindən şagirdlərin onlayn dərslərə daxil olmaq və onlara töhfə verməkdə iştirak modelləri, bu iştirak nümunələrinin akademik nailiyyətlərə təsir edib-etmədiyini müəyyən edilmişdir. O, tapdığı üç qrupun adını çəkdi:

1. fəal iştirak qrupu;
2. periferik iştirak qrupu;
3. mərhəmətli iştirak qrupu [7, s.2].

I qrupa aid olan şagirdlər onlayn dərslərdə fəal və müntəzəm olaraq iştirak edirlər, II qrupa aid olanlar arabir, lakin əsasən "yalnız oxumaq üçün rejimdə", III qrupa aid olanlar isə daha az onlayn dərslərdə iştirak edirdilər. Taylor tövsiyə etdi ki, öyrənənlərin iştirak səviyyələri üçün parametrlər müəyyən edilməlidir ki, müxtəlif dərəcələrdə iştirakın səbəbləri açılsın [7, s.5].

Onlayn dərsin idarəetmə sistemlərində və müzakirə şurasının interfeysində pedaqoji dizayn elementləri iştiraka və öyrənməyə təsir göstərə bilər. Onlayn dərslərdə şagirdlər müzakirə interfeysi ilə qarşılıqlı əlaqəsindən təsirlənir. C.Hevit, öyrənənlərin cavab nümunələrini və müzakirələrin zamanla necə inkişaf etdiyini öyrəndi [5, s.32]. O, bir çox müzakirə iştirakçılarının "oxunmamış" mesajları araşdırma strategiyasını qəbul etdiyini və köhnə mesajlara nisbətən az diqqət yetirdiyini müdafiə etdi. O qeyd etdi ki, köhnə mesajlardan imtina nəticəsində iştirakın böyümə modelləri öyrənənlər üçün sıx müzakirə və məlumat yüklənməsinin öhdəsindən gəlmək üçün strategiya ola bilər. C.Hevit daha sonra iddia etmişdi ki, köhnə mövzuların və ya mesajların tərk edilməsi mövzuda dəyişikliklər yarada bilər [5, s.35]. Onun tədqiqatları onlayn dərsləri effektiv şəkildə qurmaq üçün interfeysin və öyrənənlərin iştirak vərdişlərinin təlim nəticələrinə təsirini anlamaqda əhəmiyyətlidir. Şagirdin iştirakı fəal və məşğul öyrənmə üçün vacib elementdir. Şagirdlər yeni şəxsiyyətlər qəbul edə bilər və bir-birlərini görmədikdə özlərini onlayn ünsiyyətdə iştirak etmək məcburiyyətində və ya təzyiq altında hiss edə bilməzlər.

Onlayn mühitdə iştiraka təsir edən məsələlərin başa düşülməsi onlayn dərslərin effektiv şəkildə qurulması və asanlaşdırılması üçün vacibdir. Bu zaman aşağıdakı sualları müəyyən etmək lazımdır:

• Şagirdin iştirakına hansı amillər təsir edir?

• Sinifdə şagirdlər arasında onların iştirakına təsir edən amillərdə hər hansı fərq varmı?

• Şagirdin iştirak modellərində hər hansı fərq varmı?

Onlayn dərslərin təlim prosesində şagirdin şəxsiyyəti üçün müsbət və mənfi cəhətləri var. Aşağıdakı aspektlər şəxsiyyətə müsbət təsir göstərir:

1) virtual dünya real dünyanı təmsil edir, sosial reallıqda baş verənləri simulyasiya etməyə, bacarıqları inkişaf etdirməyə, minimal risklə bilik və təcrübə qazanmağa imkan verir;

2) virtual qarşılıqlı əlaqə psixoloji stressi azalda bilər, psixoloji təhlükəsizlik hissi və iştirakçıların kommunikativ fəallığının artması ilə əlaqəli olan psixoloji narahatlığın qarşısını alır;

3) qarşılıqlı əlaqənin anonim iştirakçısı olmaq və ya uydurma ad altında görünmək imkanı, bu, rol oynayan eksperimentləri stimullaşdırır, özünü daha yaxşı tanımağa, fərdiləşdirmənin açılmasına kömək edir [3, s.163].

Onlayn dərslərdə şagirdlərin şəxsiyyətinin inkişafına təsir edən mənfi psixoloji tərəflərinə aşağıdakılar daxildir:

1) şagirdlərlə müəllim arasında birbaşa emosional, enerjili, təklifedici əlaqənin olmaması (sosial-mədəni təcrübənin ötürülməsi prosesini çətinləşdirir, təhsil subyektlərinin xarizmatik imkanlarını azaldır, şagirdlərin qrup və peşəkar identifikasiyasına, öyrənmə motivasiyasına mənfi təsir göstərir);

2) mexanikilik, real dünyanın qanunlarının virtual mühitə proyeksiyası və əksinə;

3) təhsil prosesinin subyektlərinin şəxsiyyətsizləşdirilməsi (virtual dünya təkcə anonimliyə deyil, həm də ünsiyyətdə sensor deqradasiyaya kömək edir) [3, s.168].

Bununla belə, onlayn dərsdə birbaşa əlaqənin olmaması təlimin səmərəliliyini böyük ölçüdə müəyyən edən informasiya təşkilinin psixoloji xüsusiyyətlərinin nəzərə alınmasının vacibliyini vurğulayır. Təlimin səmərəliliyinin ən mühüm amillərindən biri də şagirdin tədris materialını başa düşməsi, yəni alınan məlumatlara “özü üçün” məna bəxş etməsidir [4, s.277]. Bu prosesdə əks əlaqə də mühüm rol oynayır. Onlayn dərsin mühüm komponenti təhsil prosesinin subyektləri arasında əlaqədir. Hazırda informasiya texnologiyaları və virtual mühit hələ ümumi mədəni təcrübəyə çevrilməsə də, təhsilin inkişafında böyük potensiala malikdir.

Araşdırmalar göstərdi ki, şagirdin onlayn iştirakı nümunələri aşağıdakı amillərdən təsirlənir:

- texnologiya və interfeys xüsusiyyətləri;
- məzmun sahəsi təcrübəsi;
- şagird rolları və tapşırıqları;
- məlumat yüklənməsi [1, s.246].

Texnologiya, kurs interfeysi, qrupun davranışı və şagirdlərin onlayn öyrənmədə keçə biləcəyi şəxsiyyətlər iştiraka və öyrənmə nəticələrinə təsir edə bilər. Onlayn rolların və tapşırıqların diqqətlə qurulması və öyrənmə icmalarının necə inkişaf etdiyinə dair fikirlər mühüm əhəmiyyət kəsb edir. Qrup prosesləri, qrupların necə inkişaf etməsi və rolların necə ortaya çıxması (məsələn, onlayn qrupda liderlik) və effektiv iştiraka təsir haqqında əlavə araşdırmalar müəllimlərə onlayn dərslərdə qrup dinamikasını anlamağa və dərslərini buna uyğun qurmağa kömək edə bilər.

İnterfeys dizaynı, şagirdin iştirak nümunələri və onlayn dərsdə idrak yükü məsələlərini araşdıran tədqiqat təlimatçı dizaynerlərə və pedaqoqlara effektiv onlayn öyrənmə dizayn etməyə imkan verə bilər. İdrak yükü nəzəriyyəsi informasiyanın intellektual performansını

optimallaşdıran öyrənən fəaliyyətlərini təşviq edəcək şəkildə təqdim edilməsinə kömək etmək üçün təlimatlar verə bilər. Bu nəzəriyyənin onlayn dərsdə necə işlədiyini başa düşmək üçün idrak yükü nəzəriyyəsinin yenilənməsi lazımdır. Şagirdlər texnologiya, təlimin idarə edilməsi, pedaqoji təcrübə və onlayn öyrənmə üçün tələb olunan sosial rollara psixoloji baxımdan hazır olmalıdırlar. Effektiv onlayn öyrənmə cəmiyyətində öyrənmə məqsədlərinin ümumi anlaşılması üçün qarşılıqlı asılılıq tələb edir. Şagirdlərin iştirak nümunələrini yaxından izləmək müəllimlərə şagird ehtiyaclarını müəyyən etməyə və buna uyğun olaraq öyrənmə imkanlarını genişləndirməyə kömək edə bilər.

## ƏDƏBİYYAT

1. Бухаркина М.Ю. Теория и практика дистанционного обучения. М.: Академия, 2014. 416 с.
2. Иванов Д.В. Виртуализация общества. СПб.: «Петербургское Востоковедение», 2009. 96 с.
3. Носов Н.А. Виртуальная психология. // Труды лаборатории виртуалистики. Вып. 6. М.: Аграф, 2016. 432 с.
4. Anderson T. Teaching in an online learning context. In T.Anderson & F.Bloumi (Eds.), Theory and practice of online learning, 2015. P. 273–294.
5. Hewitt J. How habitual online practices a ect the development of asynchronous discussion threads. Journal of Educational Computing Research, 28(1), 2013. P.31-45.
6. Mason R. Using communication media in open and flexible learning. London: Kogan Page, 2014. 139 p.
7. Taylor J.C. Teaching and learning online: The workers, the lurkers and the shirkers. Paper presented at the Conference on Research in Distance & Adult Learning in Asia, 2018. P.1-5.

## ONLAYN DƏRSLƏRDƏ TƏLİM GÖSTƏRİCİLƏRİNƏ TƏSİR EDƏN AMİLLƏR

***Məmmədova Aysel***

## XÜLASƏ

Onlayn dərslər, o cümlədən virtual mühitdə müxtəlif texnologiyaların tətbiqi ənənəvi təhsilin bir çox problemlərinin (ərazi və vaxt məhdudiyyəti, şagirdlərin qeyri-kafi müstəqil fəaliyyəti, təlimin yönləndiriciliyi və s.) aradan qaldırılmasına, habelə şagirdlərin fərdi təhsil ehtiyaclarını ödəməyə və onun yaradıcı potensialını reallaşdırmağa imkan verir. Virtual təhsil prosesi subyektin özü üçün seçdiyi sahələrdə inkişaf edən şəxsin təhsil potensialından istifadə edir. Onlayn dərs şagird şəxsiyyətinin bütün sahələrinin qarşılıqlı əlaqəsini əks etdirir: intellektual, emosional, dəyər-semantik, davranış və s.

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА РЕЗУЛЬТАТЫ ОБУЧЕНИЯ В ОНЛАЙН-КЛАССАХ

***Мамедова Айсель***

## АННОТАЦИЯ

Онлайн-уроки, в том числе с использованием различных технологий в виртуальной среде, позволяют преодолеть многие проблемы традиционного образования (пространственные и временные ограничения, недостаточная самостоятельная активность учащихся, учебная направленность и др.), а также удовлетворить индивидуальные образовательные потребности учащихся. потребности и реализовать свой творческий потенциал. Процесс виртуального обучения использует образовательный потенциал человека, развивающийся в выбранных субъектом направлениях. Онлайн-урок отражает взаимодействие всех сфер личности ученика: интеллектуальной, эмоциональной, ценностно-смысловой, поведенческой и др.

# FACTORS INFLUENCING LEARNING OUTCOMES IN ONLINE CLASSES

***Mammadova Aysel***

## SUMMARY

Online lessons, including the use of various technologies in a virtual environment, allow to overcome many problems of traditional education (space and time constraints, insufficient independent activity of students, learning orientation, etc.), as well as to meet students' individual educational needs and realize their creative potential . The virtual learning process uses the educational potential of the person developing in the areas chosen by the subject. The online lesson reflects the interaction of all areas of student personality: intellectual, emotional, value-semantic, behavioral, etc.

# ОСОБЕННОСТИ ИЗУЧЕНИЯ ПРОБЛЕМЫ ГИПЕРАКТИВНОСТИ И СИНДРОМА ДЕФИЦИТА ВНИМАНИЯ

***Джабарова Малейка Агасадыг г.***
***Магистрант II курса АГПУ***
*mcabarova@gmail.com*

***Ключевые слова:*** синдром дефицита внимания и гиперактивности, школьный возраст, диагностика.
***Açar sözlər:*** diqqət çatışmazlığı hiperaktivlik pozğunluğu, məktəb yaşı, diaqnostika.
**Keywords:** attention deficit hyperactivity disorder, school age, diagnostics.

По мнению многих исследователей, родители испытывают первые признаки гиперактивности у детей в очень раннем возрасте. С первых дней жизни ребенка родителей может беспокоить повышенный мышечный тонус, чувствительность к внешним раздражителям (свет, шум), плохой сон, чрезмерная подвижность, возбуждение во время бодрствования. По Г. Д. Гинотту, пики гиперактивности совпадают с пиками психоречевого развития: в 1-2 года у ребенка развиваются речевые навыки, в 3 года - резко увеличивается словарный запас, в 6-летнем возрасте - К 7 годам формируются навыки чтения и письма.

Обычно в 3-4 года родители начинают ощущать, что ребенок не может сосредоточиться при какой-либо деятельности: ребенок не может сидеть на месте, слушать сказку, рассматривать картинки. Устал от потребности в концентрации, деятельность, как правило, хаотична. Нарушения поведения у детей, особенно в ситуациях, требующих организованного поведения, таких как занятия в детском саду, физические упражнения, прогулки и др. Как психолого-педагогическое явление гиперактивность не следует считать разновидностью патологии. Соответствует понятию нормативных признаков и моделей поведения. «Трудный ребенок», понимаемый родителями и педагогами как «ребенок социальной группы риска», для социологов, детских и социальных психологов обычно является гиперактивным ребенком.

Исследователи проблемы гиперактивности (Н. Н. Заваденко, Б. Л. Бейкер, Р. Кэмпбелл и др.) выделяют такие проявления гиперактивности, как повышенное психоэмоциональное возбуждение, импульсивность в поведении и эмоциональных проявлениях, а также невнимательность. Кэмпбелл также называет расстройства восприятия проявлением гиперактивности. Он считает, что повышенная активность способствует трудностям в обучении и трудностям в принятии любви других, тогда как проблемы восприятия проявляются в неадекватном восприятии окружающего (буквы, слова и т. д.) и родительской любви.Заваденко отмечает, что у многих детей с диагнозом гиперактивность дефицита внимания возникают проблемы с речью, трудности в чтении, письме и счете.

Американский психолог У. Окленд так описывает этих детей: «Для гиперактивного ребенка американский психолог У. Окленд описывает таких детей так: могут раздражать его своим поведением. У него часто плохая координация или отсутствие мышечного контроля. Он неуклюж, падает или ломает вещи, проливает молоко. Такому ребенку трудно сосредоточиться, он легко отвлекается, часто задает много вопросов, но редко ждет ответа, может раздражать. У него часто плохая координация или отсутствие мышечного контроля. Он неуклюж, падает или ломает вещи, проливает молоко. Такому

ребенку трудно сосредоточиться, он легко отвлекается, часто задает много вопросов, но редко ждет ответов».

Американские психологи П. Бейкер и М. Алворд предлагают следующие критерии выявления гиперактивности у детей:

1. Отсутствие активного внимания (неуместно, с трудом удерживает внимание в течение длительного времени, не слушает его, когда его спрашивают, берется за дело с большим энтузиазмом, но не доводит до конца, имеет трудности в организации, часто теряет вещи, избегает скучных и требующие умственных усилий задачи);

2. Заторможенность двигателя (постоянная тряска, признаки беспокойства, даже в младенчестве, спит меньше других детей, много разговаривает);

3. Импульсивность (начинает отвечать на вопрос, не слыша, не может дождаться своей очереди, часто перебивает, перебивает, плохая концентрация, по-разному ведет себя при выполнении заданий и показывает совсем другие результаты).

Диагноз синдрома дефицита внимания и гиперактивности требует шести или более симптомов невнимательности, шести или более признаков гиперактивности и импульсивности в соответствии с критериями DSM-IV Американской психиатрической ассоциации. Анализ научной литературы показывает, что гиперактивное поведение уже стало предметом исследований различных специалистов, однако большинство опубликованных работ являются клиническими исследованиями. Однако неясно, говорят ли они о связи гиперактивности с эмоциональными проявлениями, или же эмоциональная сфера обеспечивает один из структурных компонентов гиперактивности. Исследователи, утверждающие в последнее время, что основной характеристикой гиперактивности является повышенная поведенческая активность, подчеркивают значение такого симптома как осложнение синдрома дефицита внимания, акцентируя внимание, таким образом, на особенностях внимания и настроения ребенка. Гиперактивность, как особый вариант поведения, выражается в характерных особенностях двигательного развития, тесно связана с нарушениями внимания и эмоциональной сферы.Как правило, ведущими симптомами являются:

- Особенности двигательного развития: неуклюжесть движений, нарушение координации и гармонии двигательных комплексов, ребенок может выполнять определенные движения, но не может составить гармоничное целое, общая повышенная активность, затруднение в овладении движениями, синкинезии - целенаправленные движения тела , язык и т.д. связь с движениями конечностей, повышенным напряжением мышц и мышечным тонусом;
- Характеристики внимания и контроля: кратковременная концентрация внимания, плохая концентрация внимания, рассеянность внимания, ригидность внимания (плохая переходная способность), настойчивость (неотрывность от определенной темы или решения);
- Особенности эмоциональной сферы: возбуждение, апатия, неуверенность, внутреннее напряжение, эмоциональная лабильность, перепады настроения, негативизм, страх, агрессия, поведение.

Одно из исследований, проведенных в соответствии с клиническим подходом и посвященных этой проблеме, называется «Гипердинамический синдром у детей младшего школьного возраста».

Повышенная двигательная активность носит неконтролируемый характер, в том числе быстрая отвлекаемость ребенка, постоянное беспокойство и отсутствие двигательной концентрации. Такие дети могут быть не в состоянии понять значение символа и

печатного материала, могут иметь проблемы со зрением, такие как эмоциональные проблемы, а при наличии последних болезнь трудно поддается лечению. С этой точки зрения можно сделать вывод, что нарушения зрения и эмоциональные расстройства не характерны для гиперактивного поведения. Анализ клинических исследований позволяет сделать следующие выводы:

1. Психофизиологической основой гиперактивного поведения у ребенка может быть незрелость, несовершенство, дефект или нарушения головного мозга (например, незначительные мозговые дисфункции);

2. Проявления гиперактивного поведения у детей охватывают несколько направлений, среди которых встречаются разные варианты сочетания максимум трех симптомов:

- чрезмерная двигательная активность;
- расстройства эмоционального поведения;
- недостаток внимания.

Рассмотрим проблему гиперактивности в психолого-педагогических исследованиях. Следует отметить, что в психологии почти нет работ, посвященных изучению гиперактивных детей. Несколько исследований касались только определенных характеристик детей с таким поведением. В исследованиях В.Петрунека и В.П.Тара по изучению темперамента характеристики изучаемого нами типа гиперактивного поведения характерны для холерического темперамента: ребенок активен, тревожен, легко идет на контакт, если он не заинтересован в общении с незнакомцами, сразу меняет свое внимание.

Он тревожен, многое понимает, но когда его интерес к ним снижается, он быстро теряет рассудок и меняет игру. Он легко просыпается, часто вступает в конфликты, но не злопамятен. Публикации Е.Гаспаровой придают аналогичную черту детям, которых автор называет «шулерами».

Ярко выраженный «шустрик» — беспокойный, подвижный гиперактивный ребенок, его сложно приучить к дисциплине, он почти не успевает ни в какой деятельности, ограничивающей его активность. Этот ребенок не способен выполнить задание, результат которого сразу не виден. Таким детям трудно поддерживать образ цели. Цель меняется несколько раз в ходе деятельности. Дети не могут запомнить определенную последовательность действий, потому что она не заложена в них. Один из вариантов категории трудных детей представлен в исследовании шумного, подвижного ребенка Е. Е. Сапоговой. В его произведениях дети делятся на две категории. Одни из них – чрезвычайно шумные, бессовестные, активные, агрессивные, неуправляемые, непослушные дети. Другую составляют тупые, вялые, тихие, писклявые, капризные, упрямые, отстраненные, «непослушные» дети.

На наш взгляд, причина разделения детей на две категории остается неясной. В обоих случаях речь идет о психически нормальных, здоровых детях. До 6 лет, добавляет автор, первый тип обновляется новыми качественными признаками: повышенной возбудимостью и расторможенностью.

По мнению других исследователей, гиперактивность проявляется чрезмерной двигательной активностью независимо от возраста и пола. В работах Е.М.Мастюковой, Г.В.Грибоновой, А.Г.Московкиной показано, что повышенная тревожность и синдром двигательной расторможенности у детей при наличии в семье алкоголизма проявляется уже при рождении и даже является одним из симптомов фетального алкогольного синдрома. Поведенческие трудности в дошкольных учреждениях постепенно нарастают и становятся обычным поведенческим стереотипом для ребенка. В подростковом возрасте

нарастают эмоциональное возбуждение, перепады настроения и поведенческие трудности. В работе М. Е. Поляковой гиперактивность возникает у детей в возрасте от 2 до 4 лет.

При определении гиперактивности мы частично подошли к вопросу о причинах такого типа детского поведения, поскольку понимание причин позволяет описать систему психолого-педагогической коррекции гиперактивности как специфический вариант развития и сформулировать отдельные принципы реализации. В исследованиях В.Д. Еремевой изучается зависимость модальности эмоциональных проявлений от работы левого и правого полушарий головного мозга.

Исследования показывают, что в группе детей, явно предпочитающих правую руку, виды пассивных эмоций выше в 1,5-2 раза, в то время как в другой группе наблюдаются активные виды эмоций с низкой степенью подчинения правой руке. в 2-3 раза больше. При этом установлено, что в первой группе преобладают медлительные дети, а во второй - быстрые, активные дети. Так же в работах С. Е. Казакова подчеркивается, что расторможенность, тревожность, двигательная тревожность у мальчиков выражены сильнее, чем у девочек, и все это объясняется своеобразными нервно-психическими процессами в организации головного мозга и повышенной чувствительностью левого полушария.

В исследованиях В. А. Красова, рассматривающего гипердинамический синдром как сочетание двигательной расторможенности, повышенной абстрагированности различных эмоционально-волевых расстройств, причины гипердинамического синдрома выделяются по соотношению между этими тремя компонентами.

Так (в группе детей с выраженной двигательной расторможенностью, неустойчивым, в большинстве случаев аффективным возбуждением, неустойчивостью настроения, кратковременными эмоциональными расстройствами, проявляющимися в виде нервозности) патология раздражительности в анамнезе у большинства детей отмечалась до -перинатальный период (токсикоз беременности второй половины, родовая травма, асфиксия родов, преждевременные роды, нейроинфекция в раннем возрасте, черепно-мозговая травма). Все эти дети имели нарушения церебрально-органической недостаточности, которые клинически проявлялись в виде церебрастенического и неврозоподобного синдромов. Роль резидуально-органической недостаточности в патогенезе данного варианта гипердинамического синдрома незначительна для автора в другой группе детей, у которых менее выражена двигательная расторможенность и выражены эмоционально-волевые расстройства, сочетающиеся с индивидуальными особенностями истероидного и эпилептоидного кругов. Учитывая психопатологическую структуру расстройств и их динамику, в данном случае речь идет о дисгармоничном развитии личности, т. е. о формировании психопатии, и позволяет предположить, что гипердинамический синдром является возрастным эквивалентом психопатических расстройств. Механизмы развития синдрома дефицита внимания с гиперактивностью сложны и, несмотря на многочисленные исследования, до конца не выявлены. Предлагаются нейроморфологические, генетические, нейрофизиологические, биохимические, социально-психологические и другие концепции для объяснения возможных механизмов ее развития. В связи с возможным участием различных факторов в генезе этот синдром в настоящее время часто рассматривается в рамках развернутой биопсихосоциальной патологической модели.

1. Пренатальные и перинатальные патологические факторы:

• употребление матерью алкоголя, некоторых наркотиков, курение во время беременности;

• токсикоз при беременности;
• возраст матери (до 19 и старше 30 лет);
• травма живота;
• Несоответствие резус-фактора, осложнения во время родов и др.

2. Генетические факторы. Генеалогические исследования подтверждают наследственную природу детей с гиперактивностью и синдромом дефицита внимания. Изучение двигательной активности у близнецов показало, что корреляция с этим признаком выше у гомозиготных близнецов и ниже у гетерозигот. На основании этого можно предположить наличие гипермобильности у второго гомозиготного близнеца. У гетерозиготных близнецов это невозможно. С развитием молекулярной генетики представление о наследственности у детей с гиперактивностью и синдромом дефицита внимания получило новое подтверждение. Было выявлено несколько генетических аномалий, связанных с симптомами заболевания. Однако поиск конкретного гена, вызывающего это расстройство, пока не увенчался успехом.

3. Социально-психологические факторы:

• психологический микроклимат в семье (споры, конфликты, алкоголизм, аморальное поведение родителей и др.);
• Особенности воспитания (гиперигипогатное, эгоистичное воспитание по типу «семейного кумира», педагогическая, социальная индифферентность и др.);
• Условия проживания, финансовая обеспеченность.

4. Нейробиологические факторы. Согласно современным представлениям, важную роль в патогенезе синдрома играет дисфункция нейромедиаторных систем головного мозга, особенно нарушения обмена дофамина, норадреналина и серотонина.

5. Нейроморфологические гипотезы. Эти гипотезы рассматривают лобную долю, и особенно префронтальную область, как зону анатомического дефекта у детей с гиперактивностью и синдромом дефицита внимания. Эти взгляды на лобные приступы основаны на сходстве клинических симптомов, наблюдаемых у пациентов с лобными приступами.

6. Теории дисфункции системы возбуждения. Пробуждение – это активационная реакция, вызывающая нарастание состояния пробуждения сознания. Проявления синдрома часто объясняют двумя противоположными позициями:

а) функциональная избыточность возбуждения: дети с гиперактивностью и гиперактивностью с дефицитом внимания получают избыточную стимуляцию, так как не способны избирательно «фильтровать» поступающую сенсорную информацию, что приводит к «избыточной стимуляции» коры головного мозга и отвлечению внимания;

б) функциональная недостаточность активирующих систем головного мозга: низкие уровни возбуждения в сочетании со слабостью тормозных механизмов контроля вызывают у здоровых детей гиперактивную и дефицитарную рассеянность. То есть дети с синдромом дефицита внимания и гиперактивности не в состоянии регулировать свою деятельность в соответствии с требованиями ситуации.

7. Влияние неблагоприятных факторов окружающей среды. К неблагоприятным факторам внешней среды сторонники этой тенденции относят антропогенное загрязнение природной среды микроэлементами группы тяжелых металлов, особенно свинцом, мышьяком, ртутью, кадмием и никелем.

8. Пищевые факторы. В этой концепции воздействие пищевых токсинов или аллергенов (искусственные красители, натуральные пищевые салицилаты) выступает факторами риска формирования гиперактивности и дефицита внимания.

Таким образом, можно выделить две основные группы факторов, определяющих развитие синдрома дефицита внимания с гиперактивностью:

1. Раннее поражение ЦНС вследствие негативного влияния различных форм патологии на развивающийся головной мозг во время беременности и родов;

2. Генетические факторы, кроме того, опосредованы социально-психологическими факторами, основанными на долговременных последствиях этих воздействий.

Что же касается других факторов, обнаруживаемых при этом заболевании, то они закономерно возникают в результате раннего органического поражения ЦНС, наследственности или их сочетанного действия. Таким образом, при рассмотрении вопроса о причинах следует отметить, что некоторые авторы видят их в своеобразных естественных исходных условиях развития ребенка, либо в индивидуальной изменчивости, влиянии врожденных особенностей на развитие ребенка. Эти сведения часто цитируются в работах клиницистов и физиологов. Материал психологического исследования позволяет говорить о значении внешних, социальных факторов и, прежде всего, фактора адекватных форм, организации деятельности и общения ребенка, влияния семейных отношений. В этом контексте гиперактивность воспринимается как взаимодействие ребенка с миром, формируемым близкими взрослыми.

## ЛИТЕРАТУРА

1. Полонская Н.Н. Нейропсихологичсекая диагностика детей младшего школьного возраста. М., Изд. Центр «Академия», 2007, 192 стр.
2. Семенович А.В. Введение в нейропсихологию детского возраста. М., Генезис, 2005, 319 стр.
3. Филиппова Т. Болезнь или норма? Выявление признаков СДВГ методом анкетирования. Школьный психолог. Первое сентября. 2014, № 2. стр.24-26.

# ОСОБЕННОСТИ ИЗУЧЕНИЯ ПРОБЛЕМЫ ГИПЕРАКТИВНОСТИ И СИНДРОМА ДЕФИЦИТА ВНИМАНИЯ

***Джабарова Малейка***

## АННОТАЦИЯ

В статье описываются основные диагностические методики, используемые в работе с детьми школьного возраста с синдромом дефицита внимания и гиперактивности. Диагноз синдрома дефицита внимания и гиперактивности требует шести или более симптомов невнимательности, шести или более признаков гиперактивности и импульсивности в соответствии с критериями DSM-IV Американской психиатрической ассоциации. Анализ научной литературы показывает, что гиперактивное поведение уже стало предметом исследований различных специалистов, однако большинство опубликованных работ являются клиническими исследованиями.

## HİPERAKTİVLİK VƏ DİQQƏT ÇATIŞMAZLIĞI SİNDİROMUNUN ARAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ

***Cabarova Məleykə***

### XÜLASƏ

Məqalədə diqqət çatışmazlığı hiperaktivliyi pozğunluğu olan məktəb yaşlı uşaqlarla iş zamanı istifadə olunan əsas diaqnostik üsullar təsvir edilmişdir. Diqqət çatışmazlığı hiperaktivliyi pozğunluğunun diaqnozu üçün Amerika Psixiatriya Assosiasiyasının DSM-IV meyarlarına uyğun olaraq altı və ya daha çox diqqətsizlik simptomu, altı və ya daha çox hiperaktivlik əlaməti və impulsivlik tələb olunur. Elmi ədəbiyyatın təhlili göstərir ki, hiperaktiv davranış artıq müxtəlif mütəxəssislərin tədqiqat obyektinə çevrilib, lakin nəşr olunan əsərlərin əksəriyyəti klinik tədqiqatlardır.

## FEATURES OF STUDYING THE PROBLEM OF HYPERACTIVITY AND ATTENTION DEFICIENCY SYNDROME

***Jabarova Maleyka***

### SUMMARY

The article describes the main diagnostic techniques used in working with school-age children with attention deficit hyperactivity disorder. A diagnosis of attention deficit hyperactivity disorder requires six or more symptoms of inattention, six or more signs of hyperactivity, and impulsivity according to the DSM-IV criteria of the American Psychiatric Association. An analysis of the scientific literature shows that hyperactive behavior has already become the subject of research by various specialists, but most of the published works are clinical studies.

# DEVİANT DAVRANIŞA MEYİLLİ YENİYETMƏLƏRİN PSİXOLOJİ XÜSUSİYƏTLƏRİ

***p.ü.f.d. Nuriyyeva Məlahət Rafiq qızı***
***BDU-nun Gender və tətbiqi psixologiya kafedrasının müəllimi***
***nuruyeva.malahat@bsu.edu.az***

***Açar söz:*** yeniyetmə, şəxsiyyət, sosial-psixoloji inkişaf, münasibət
***Ключевые слова:*** подросток, личность, социально-психологическое развитие, отношение.
***Key words:*** teenager, personality, socio-psychological development, attitude

Yeniyetməlik dövrü dedikdə keçid dövrünü nəzərdə tutulur. Bu dövrdə müəyyən fizioloji, psixoloji, bioloji dəyişikliklər baş verir ki, bu da yan təsirlərsiz keçmir. Keçid dövründə yeniyetmələrdə müəyyən maraqlar formalaşır, özləri ilə əlaqəli kompleksləri başlayır. Bu zaman həm də bioloji dəyişikliklər baş verir. Bu zaman alın nahiyəsində hüceyrələrin artması, qırışların artması bu uşaqlarda gərginlik yaradır. Uşaqların maraqları, diqqətləri formalaşır, özləri üçün hobbi seçirlər, özlərinə ideal şəxslər seçirlər. Danışıq temprlərində müəyyən dəyişikliklər baş verir. Sinir sistemi açıq olan uşaqlar yeniyetməlik dövründə çox əsəbi və gərgin olurlar. Böhran dövrü bu yeniyetmələrin nə dərəcədə formalaşdığını və nə dərəcədə gərgin olduqlarını əks etdirir. Böhran bu uşaqların heç kim tərəfindən qəbul edilməməsidir. Onlar ya tam olaraq özlərini dünyanın mərkəzində hesab edirlər, ya da özlərinə qapanırlar».

Böhran dövrü qızlarda 11-12 yaşlardan, oğlanlarda isə 12-13 yaşdan başlayır. Böhran ilkin olaraq ailədə, ailə üzvləri ilə olan söhbət zamanı, bəzən isə sağlam söhbət zamanı mübahisə getdiyi zamanda belə bu uşaqların qıcıqlanmaları, əsəbi davranışları, xarici fikirləri qəbul etməmələri, qarşı tərəfin fikirlərini kəskin imtina etməsi bir siqnal verir ki, bu uşaq yeniyetməlik dövrünə addım atır. Əlbəttə ki, gender bölümü də var. Bu hal qız və oğlanlarda fərqli şəkildə özünü göstərir. Qızlarda daha çox verbal aqressiyası, yəni danışıq aqressiyası baş verir. Bu zaman onlar usta şəklində öz sözlərini deyə bilərlər, bəzən isə tamamilə qapanıb heç bir şey deməyədə bilərlər. Bu isə sinir sistemi və temperamentlə əlaqədardır. Bu zaman öz yoldaşlarından ayrılma, tamamilə öz aləmlərinə qapanma ola bilər. Qızlarda yalnız danışıq şəklində deyil, hərəkətlər aqressiyası da baş verə bilər. Oğlanlarda isə fiziki aqressiya özünü göstərir. Vurmaq, sındırmaq, kəskin olaraq nəyisə sındırmaq kimi hərəkətlərlə öz varlığını göstərmə siqnalını verə bilər. Onlara yanaşma birmənalı olmamalıdır. Bu yanaşma yeniyetmənin temperamentinə, xarakterinə, ailədə olan problemlərə, uşağın əvvəllər yaşadığı problemlərlə əlaqədar ola bilər.

Hər cəmiyyətin yeniyetməlik dövrünü təyin etmək üçün öz yanaşması vardır. Buna görə də, yeniyetməliyin təyini, mövzusu və hansı yaş dövrlərini əhatə etdiyi cəmiyyətdən cəmiyyətə dəyişkənlik göstərir. Bununla birlikdə yeniyetməlik dövrüylə əlaqəli bəzi təyinedici cəhdlər də edilmişdir. Bunlardan biri belədir: Yeniyetməlik dövrü, bioloji, psixoloji, əqli və sosial tərəfdən bir inkişaf və yetkinləşmənin yer aldığı, uşaqlıqdan yeniyetməliyə keçid dövrüdür.

Anlaşıldığı kimi yeniyetməlik, fərdin uşaqlıqdan yetkinliyə keçməsinə imkan yaradan bəzi xüsusiyyətlərə görə digər inkişaf dövrlərindən fərqli bir dövrdür. Gəncin özünü, həyatını və cəmiyyəti sorğulayaraq əvvəlkindən fərqli bir şəkildə dünyayı qəbul etməyə başladığı bu dövrdə ən vacib problemlərdən biri, özünü tanıma və tanıtmaqda çəkdiyi çətinlikdir. Çünki yeniyetmə, bio-psixo-sosial tərəfdən bir dəyişimə məruz qalmışdır. Bioloji olaraq, bədən orqanlarında bir inkişaf gözlənərkən; psixi tərəfdən tam olaraq necə davranması lazım olduğunu bilməmənin nəticəsində bir davranış qarmaşıqlığı yaşanır. Həqiqətən gənclik dövrü eyni zamanda böhranlar,

qəzəblər, narahatlıqlar, xəyal qırıqlıqları, ziddiyyətlər və qərarsızlıqlar dövrüdür. Yeniyetmənin özü ilə və ətrafı ilə sürtünmə və qarşıdurma dövrüdür. Qısacası, müsbət, mənfi, bütün duyğuların sıx, bütün reaksiyaların həddindən artıq olduğu dövrdür.

Ümumiyyətlə, depresif və problemli bir həyat mərhələsi olaraq bilinən, yeniyetməlik dövründə yaşanan ən diqqətə çarpan mənfi emosional xüsusiyyətlərdən biri etibarsızlıq duyğusudur. Öz uğurlarına şübhə edirlər və başqalarının özləri haqqında mənfi rəy alacaqlarından narahatdırlar. Özlərinə inamları yoxdur. Başqa bir xüsusiyyətlər biri də, bədən dəyişməsi nəticəsində ortaya çıxan utancaqlıq və ziddiyyətli emosional qarışıq- lar yaşamalarıdır. Yeniyetmələrin yaşadığı problemlər, demək olar ki, hər mədəniyyətdə göründüyü üçün universal bir hadisədir. Ancaq bu problemlərin həm dərinliyi, həm də yayılması son illərdə çox inkişaf etmiş səviyyələrə çatmış kimi görünür. Birincisi, Eriksonun ifadə etdiyi kimi, bugünkü gənclər bir şəxsiyyət qarışıqlığı ya da böhran yaşayırlar. Özünü tanıma və tanıtmada cəmiyyətdəki rolunu və həyatdakı məqsədini müəyyən etməsində yeniyetmələrin ciddi sıxıntıları və axtarışları gözlənməkdədir. Yeniyetmələrin yaşadıqları dövrün xüsusiyyətlərinə görə daim gərginlik və ətraf ilə qarşıdurma yaşadıqları, narahatlıq, kədər, stress və depresiyaya səbəb olduğu bilinir. Yeniyetməlik dövrü, uyğunlaşma səylərini tələb edən çətin situasiya şərtlərinə görə şəxsiyyət daxilində bir sıra ziddiyyətlər yaradır. Bir araşdırmada ən çox diqqət çəkən patoloji xüsusiyyətlər tarazlıqsızlığa və depressiyaya meyllidir.

Yeniyetməlik dövründə meydana gələn dəyişikliklər nəticəsində yaranan problemlər və uyğunlaşma səyləri yeniyetmələrdə stress yaratdığı məlumdur. Bu stress də yeniyetmələrin münasibət və davranışlarında əks olunur və beləliklə yeniyetmələrin həyatlarında iz buraxır. Yeniyetməlik dövründə bəzi şəxsiyyət quruluşlarının, digər dövrlərə nisbətən daha çətin olduğu və eqo bütünləşməsini çətinləşdirən yollarla parçalandığı görülür. Cinayət, intihar hadisələri və ruhi xəstəliklərin ilk ələ keçirilməsinin tezliyi, etibarsız və sağlam olmayan şəxsiyyət quruluşlarının; yeniyetməlik dövrünün daxili və xarici çətinliklər qarşısında özü üçün sağlam bir çıxış yolu tapa bilməyən sağlam olmayan həll yollarıdır.

Məhz bu dövrdə yeniyetmələrdə deviant davranışa meyililik formalaşır. Bu cür davranışın formalaşmasında əsas məqsəd yeniyetmələrin özlərini digər insanların gözlərində daha yüksək göstərməkləri, özlərini qetyri-adekvat yüksək qiymətləndirmələri ilə əlaqəlidir.

Deviant davranış sözü latıncadan tərcümədə "deviatio" kənara çıxma deməkdir. Devinat davranış insanın mövcud cəmiyyətdə rəsmən qəbul olunmuş, yaxud faktiki olaraq təşəkkül tapmış normalara uyğun gəlməyən hərəkəti və əməlləri, eləcə də mövcud cəmiyyətdə rəsmi müəyyən olunmuş, yaxud faktiki təşəkkül tapmış normalara uyğun olmayan kütləvi fəaliyyət formalarında ifadə olunan sosial hadisələr kimi şərh olunur. Sosial kənara çıxmaların cəmiyyət üçün müxtəlif əhəmiyyəti ola bilər. Pozitiv (sosial, elmi, texniki, bədii, sosial-siyasi yaradıcılıq, iqtisadi təşəbbüskarlıq və s.) kənara çıxmalar sistemin mütərəqqi inkişafı, onun mütəşok- killiyi səviyyəsinin yüksəldilməsi, köhnəlmiş, mühafizəkar, yaxud mürtəce davranış standartlarının aradan qaldırılması vasitəsi kimi çıxış edir. Neqativlər isə disfunksionaldır, bəzən onun əsas-larını dağıtmaqla sistemi pozur. Ümumiyyətlə deviant davranış fərdin cəmiyyətin geniş qəbul edilmiş normalarına zidd olan hər hansı bir hərəkətidir.

Deviant davranışın formalaşasında aqressiyanın xüsusilə fiziki və verbal aqessiyanın rolu mühümümdür. Bu zaman insan təkcə istədiyinə malik ola bilməməsi səbəbindən deyil, həmçinin başqasının buna malik olmasına görə zorakılıq əməlləri törədir. From yazır : "Həyata inamın itməsi nifrətə səbəb olur. İnsan sübut etməyə çalışır ki, həyat amansızdır, bütün insanlar qəddardırlar və sən özün qəddar olmalısan". Yeniyetməlik dövründə deviant davranışın yaramasında 3 səbəb özünü göstərir: - Sosial bərabərsizlik;

- Mənəvi və etik amil;

- Ətraf mühit tərəfindən tək edlmə

İnsan həyatının ən depresif və hərəkətli dövrü tanınan yeniyetməlikdə deviant davranış dağıdıcı xarakteri ilə fərqlənir. Beləliklə, qeyri-sabitlik içərisində bir çox suala cavab axtaran yeniyetmələr, dünyasını qura bilmək və mənalandıra bilmək üçün bir şəxsiyyət axtarışı içində olur. Şəxsiyyət və şəxsiyyətin yetkinləşməsi baxımından bu dövrü özəlliklə "yenidən doğulma" və ya "oyanış" dövrü də adlandırıla bilər. Məhz buna görə də, artanaqressivlik nəiki onlarıb ailə daxili münasibətlərinə, eləcə də bütün sosial münasibətlərinə təsir edir.

## ƏDƏBİYYAT

1. Abdullayev Ə. Yaş və pedaqoji psixologiya Bakı Api-nin nəşri, III hissə 1981, 365 s.
2. Əzimli Q. E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı: 2006, 81 s
3. İbrahimbəyov F.Ə. 90 il. Bakı 1992
4. Həmzəyev M.Ə. Kiçik məktəbyaşlı uşaqların psixoloji xüsusiyyətləri Bakı 1969
5. Məmmədov A.U Təliminin psixoloji əsasları Bakı 1992
6. Məhərrəmov M.C psixologiya oçerekləri Bakı I hissə 1960
7. Seyidov S. İ və Həmzəyev M. Ə. Psixologiya. Bakı: Nurlan, 2007, 462 s.
8. Şəfiyeva E.İ Həmzəyev M.Ə. Psixofiziologiya Bakı 1998
9. Şəfiyeva E.İ uşaqlarda anomal psixi inkişaf Bakı 1997
10. Qədirov Ə. Ə. Yaş psixologiyası. Bakı: 2002, 137 s

## DEVİANT DAVRANIŞA MEYİLLİ YENİYETMƏLƏRİN PSİXOLOJİ XÜSUSIYƏTLƏRİ

***Nuriyeva Məlahət***

### XÜLASƏ

Yeniyetməlik aqressiv davranışın artması ilə xarakterizə olunur. Məhz bu dövrdə uşaqlarda deviant davranışa meyl yaranır. Kobud, dağıdıcı reaksiyalar nəticəsində yeniyetmələr dostları və bütün sosial çevrələri ilə problem yaradırlar.

## ПСИХОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ ДЕВИАНТНОГО ПОВЕДЕНИЯ

***Нуриева Малахат***

### АННОТАЦИЯ

Подростковый возраст характеризуется усилением агрессивного поведения. Именно в этот период у детей развивается склонность к девиантному поведению. В результате грубых, деструктивных реакций подростки вызывают проблемы со своими друзьями и всем кругом общения.

## PSYCHOLOGICAL CHARACTERISTICS OF ADVANCED TEENAGERS

***Nuriyyeva Malahat***

### SUMMARY

Adolescence is characterized by increasing aggressive behaviors. It is during this period that children develop a tendency to deviant behavior. As a result of rude, destructive reactions, teenagers cause problems with their friends and the whole social circle.

# FİLOLOGİYA

## DİL DƏRSLƏRİNİN TƏDRİSİNİN LİNQVODİDAKTİK ƏSASLARI

***Kərimova Vəfa Qadir qızı***
***ADU-nun II kurs magistrantı***
***vafakarimovaa@gmail.com***

***Açar sözlər***: ünsiyyət, metodika, qrammatik strukturlar, dil dərsləri, leksik fond, dilin mənimsənməsi.
***Ключевые слова***: общение, методика, грамматические структуры, уроки языка, лексический фонд, усвоение языка.
***Key words***: communication, methodology, grammatical structures, language lessons, lexical fund, language acquisition.

Son dövrlərdə cəmiyyətin və texnikanın inkişafı ilə bağlı dillərin öyrənilməsinə xüsusi maraq müşahidə olunur. Dillərin tədrisini ünsiyyət prosesinə mümkün qədər yaxınlaşdırmaq məqsədi ilə dünya dilçiliyində yeni metodikalar və texnologiyalar tətbiq edilir. Bu gün respublikamızda dil dərslərini tədris edən müəllim dünya elmində dillərin tədrisi sahəsində baş verən yeniliklər və dəyişikliklərdən məlumatlı olmalı, innovativ metod və üsulları tədrisi prosesinə məqsədyönümlü şəkildə tətbiq etməyə hazır olmalıdır.

Dil dərslərinin tədrisinin mühüm aspektlərdən biri dilöyrənənlərdə qrammatik vərdişlərin formalaşmaqdır. Danışığın qrammatik tərəfinin inkişafı dili mənimsənməsi prosesində mühüm rol oynayır, çünki savadlı danışığın əsasında məhz o dayanır. Dil daşıyıcıları heç də bütün hallarda bu qrammatik qaydaları hiss etmirlər. Məsələn, L.V.Şerbanın qeydinə görə, "leksik vahidlərin toplusu ilə fikirləri ötürmək olmaz, çünki onlar yalnız hadisə və predmetlərin adlandırırlar. Qrammatika leksikanı şəkilləndirir, bütün dilə nüfuz edir. Qrammatika bütün sözlərin, söyləmlərin, mətnlərin yer aldığı skeletdir. Qrammatik strukturların köməyi ilə fikrin ən incə çalarlarını çatdırmaq olar" (1, s. 57).

Dil dərslərinin, o cümlədən ana dilinin məzmununu müəyyən edərkən tədqiqatçılar aşağıdakı suallarla qarşılaşmış olurlar: dili və ya danışığı öyrətmək? Hal-hazırda mütəxəssislər dillərin tədrisinin danışıqdan, yəni danışıq situasiya ilə şərtlənmiş söyləmləri qurmaq və onların başa düşməsindən başlamağa üstünlük verirlər. Məsələn, qeyd edilən məsələ ilə bağlı Q.V.Roqova yazır ki, "bu cür yanaşma ümumilikdə qrammatikanın mahiyyətini və dilləri mənimsənməsində onun rolununun başa düşülmədyini əks etdirir. Qrammatikanı danışıqdan ayırmaq mümkünsüzdür, çünki qrammatikasız hər hansı bir danışıq formasına yiyələnmək düşünülmür. Qrammatika dilin lüğət fondu və səs tərkibi ilə birlikdə danışıq aktının maddi tərəfini təmsil edir" (2, s. 74).

Bir faktı da qeyd etmək istərdik ki, dili tədris edərkən danışıq vərdişlərinin uğurla formalaşdırılması üçün eyni zamanda dil və danışığı vəhdətdə götürmək lazımdır, çünki ünsiyyət prosesində onların birini digərindən ayırmaq mümkün deyildir. Əslində dil sistem və struktur xüsusiyyətlərini dərindən bilmək onların danışıqda real ifadəsini tələb edir və dil sisteminin incəliklərini bilmədən uğurlu danışıq qurmaq mümkünsüzdür.

Dillərin tədrisində əsas məqsəd tələbələrdə kommunikativ səriştəni formalaşdırmaqdır. Dillərin tədrisinə kompleks yanaşma isə dil dərslərini tədris edən müəllimlərə həmin məqsədlərdə linqvistik, sosiolinqvistik, strateji və sosial səriştələri fərqləndirməyə imkan verir.

Dilin qrammatik qaydalarını, leksik fondunu bilmək yetərli deyildir, çünki ondan adi həyatda, ünsiyyətdə işlətmək bacarığı zəruri şərtdir. Görübdüyü kimi, burada əsas məsələ qazanılmış biliklərdən yalnız praktik istifadə etmək bacarığından yox, praqmatik mədəniyyətlərarası səriştədən gedir.

Dillərin öyrənilməsində əsas məqsəd kommunikativ səriştəni formalaşdırmaq, daha doğrusu həmin dildə yazılı və şifahi formalarda ünsiyyətə girmək bacarığının aşılanmaqdan ibarətdir. Dilin tədrisi elə təşkil edilməlidir ki, o, tələbələrdə yeni biliklərin mənimsənməsi istiqamətində müstəqil yaradıcı qabiliyyəti formalaşdırmalıdır.

Son illər təhsil sistemində yeni paradiqmə keçidin məntiqi nəticəsi kimi bütövlükdə kompetent yanaşma geniş yer almışdır. Bu yanaşma tələbələrin şəxsi keyfiyyətlərinin inkişafına yönəlmişdır və təhsilin praktik istiqamətliliyini xeyli gücləndirmişdir. Buraya isə dəyər sistemi, tədrisin nəticələri - biliklər, vərdişlər və bacarıqlar aid edilir. Başqa sözlə, A.A.Mirolyubovun da yazdığı kimi, "kompetent yanaşma şəxsiyyətyönümlü yanaşma ilə uzlaşır" (3, s. 40).

Dil dərsləri üzrə metodistlər dillərin öyrədilməsində linqvistik, psixoloji və didaktik amillərin vacibliyini göstərirlər. Bəzi tədqiqatçılar təlim və tədrisdə aşağıdakı prinsiplərin vacibliyini qeyd edirlər:

- koqnitiv prinsiplər -danışıq vahidlərinin avtomatlaşdırılması, tələbənin şəxsi töhfəsi, fərdi bacarıqları prinsipi və s.;
- emosional-psixoloji prinsiplər - dil kimliyi;
- linqvistik prinsiplər -ana dilinin xarici dilin yiyələnməsinə təsiri.

Linqvistik komponent dil materialını (ciddi şəkildə seçilmiş fonetik, qrammatik, leksik minimum), danışıq materialı (situativ-rematik şərtlənmiş müxtəlif uzunluqlu söyləmlərin nümunələri) və sosiomədəni aspektləri və s. əhatə edir. Psixoloji komponent isə kommunikativ məqsədlə öyrənilən dildə vərdiş və bacarıqlardan istifadənin formalaşmasını ehtiva edir. Metodoloji komponent isə tələbələrə biliklərin rasional qəbulunu, onlar üçün yeni olan dilin dərkini və ünsiyyət məqsədi ilə bacarıqlardan praktik istifadə bacarıqlarının formalaşdırlımasından ibarətdir.

Müasir təhsildə əsas məqam onun şəxsiyyətyönümlü olması, subyektin subyektə münasibəti üzərində qurulması ilə bağlıdır. Bugünkü təhsil ocaqlarının əsas məqsədi yaradıcı fikirlərə sahib, dövrün tələblərinə uyğun mütəxəssislərin hazırlanmasıdır. Buna görə də tədris prosesində tətbiq edilən və işlədilməsi vacib bilinən fəaliyyət, eləcə də tapşırıq növlərinin vacibliyi xüsusi qeyd olunmalıdır. Bununla bağlı Ə.Şirəliyev yazır ki, "ali keyfiyyətlərə malik insanların yetişdirilməsi gənc nəslə nəyi, nə üçün və necə öyrətməyi, mexaniki hafizəyə deyil, tənqidi təfəkkürə istinad etməyi və idraki fəallığın yüksəldilməsini tələb edir" (4, s. 132).

Fəal təlimə aid xüsusiyyətləri müəllim tərəfindən şüurlu şəkildə idraki problem situasiyanın yaradılması, bu prosesdə şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması, yeni biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənməsi üçün şəraitin yaradılması kimi izah etmək olar. Bununla bağlı Z.Veysova yazır ki, dillərin tədris prosesinə "yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qavranılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materiallarının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqəsini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər" (5, s. 11).

B.Əhmədov şagirdlərin dil və təfəkkürünün, dil və nitqinin qarşılıqlı əlaqədə inkişaf etdirilməsinin nəzəri və praktik məsələlərini izahında təlim prosesində metod və üsulardan

düzgün istifadəni vacib sayırdı. Müəllif həmin üsullar arasında isə "şagirdin nitqini zənginləşdirmək üçün mütaliəyə geniş yer vermək, uşaqların bədii əsərlərdən atalar sözləri seçmək, məsəllər, tapmacalar və s. seçməsini, bunları əzbərləməsini təşkil etmək priyomu" na (6, s. 91) üstünlük verir. Müəllif bunu, "bir tərəfdən, şagirdin yeni dil vahidlərinə yiyələnməsi və nitqində istifadə etməsi, digər tərəfdən isə eyni fikri müxtəlif formada verməsi baxımından faydalı sayırdı" (6, s. 91).

Qeyd edək ki, ənənəvi olaraq vahid bütöv kimi nəzərdən keçirilən dil səriştəsi fonetik, leksik və qrammatik aspektləri əhatə edir. Çünki dil səriştəsi sosiomədəni, danışıq, təlim-idrak səriştələri ilə birlikdə öyrənilən dildə kommunikativ səriştənin strukturunun tərkib hissəsidir. Bu səriştəyə yiyələnmək tələbələr və ya şagirdlərdə ana dilində danışıq aktında müxtəlif nitq fəaliyyətini yerinə yetirməyə imkan verən fonetik, leksik və qrammatik vərdişlərin formalaşmasını tələb edir. B.Əhmədovun uşaqların bədii əsərlərdən atalar sözləri, zərbi-məsəlləri, tapmacaları və s. seçməsini və onların mənimsənməsi təklif etməsi fikrinə haqq qazandırmaq olar, çünki onlar şagirdlərin sonrakı danışıq fəaliyyətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Dil səriştəsi, əslində, dilin aspektlərinin sistem və struktur xüsusiyyətlərinə yiyələnməkdir və buna görə də dilöyrənənlərdə linqvistik səriştənin, o cümlədən qrammatik səriştənin formalaşması onların dilin aspektlərinə yiyələnməni tələb edir. Dilə praktik yiyələnmənin əsas şərtlərini aşağıdakı qruplara bölmək olar: danışığa yiyələnmək; başqalarının fikirlərini anlamaq və öz fikirlərini yazılı və şifahi formalarda ifadə etmək bacarıqlarını formalaşdırmaq; danışıq fəaliyyəti üzrə danışıq bacarıqlarını inkişaf etdirmək; dilin funksiyaları – idraki, tənzimləmə, dəyərlilik-yönəliklik, etiket və s. üzrə ünsiyyət aparmaq.

Ana dilinin tədris prosesində tələbələrə təqdim edilən dil materialları müasir, problem xarakterli, şagirdlər üçün maraqlı və cəlbedici olmalıdır. Yalnız belə olduğu halda tələbələrdə motivasiyanın yaradılması istiqamətində aparılmış işlər onların fəaliyyətlərini istiqamətləndirən, stimullaşdıran və xarici dilin tədrisi prosesini səmərəli təşkilinə gətirib çıxara bilər. Ana dilinin öyrədilməsində interaktiv təlim metodları tələbələrin yalnız elmi biliklərlə zənginləşməsinə deyil, yaradıcılıq qabiliyyətinin inkişafına, onlarda biliklərin müstəqil qazanılmasına və mənimsənməsinə, vərdişlərin formalaşmasına söykənir.

Müasir dilçilikdə ciddi paradiqm dəyişmələr baş vermişdir ki, bunlar da dillərin tədrisinin konseptual yanaşmasına təsirsiz ötüşməyə bilməzdi. Müasir dilçilik linqvistik mətnlər arasındakı əlaqələrin və həmin mətnlərin mahiyyətinin tam anlaşılmasını onları kontekstdə açmağa çalışır, yəni linqvistik təhlil tədqiqatçını diqqətini mətnlərin reallaşdığı müxtəlif aspektləri özündə əks etdirən kontekstə yönəldir. Çünki ünsiyyət prosesində işlədilən söyləmlərin (replikaların) mənası yalnız kontekstdə açılır, ikimənalılıq aradan qalxır.

Tədris prosesində təklif olunan tapşırıqlar tələbələrdə dörd cür bilik, bacarıq və vərdişlərin formalaşması və inkişaf etməsi üçün ən əhəmiyyətli vasitə hesab olunur. Tapşırıqlar xarici dillərin tədrisinin mühüm göstəricisi kimi bu prosesin səmərəliyini həm artırır, həm də bu prosesi son dərəcə intensivləşdirir. Bu faktı nəzərdə tutan E.İ.Passov həmin çalışmaları iki kateqoriyaya bölür: "nitq vərdişlərinin formalaşdığı, və yaxud şərti-nitq çalışmaları və nitq bacarıqlarının baş verdiyi, və yaxud nitq çalışmaları" (7, s. 68). Təklif olunan çalışmalarda qrammatik səriştənin tətbiq imkanları nəzərə alınmalıdır və bununla da tələbələrdə (şagirdlərdə) qrammatik səriştənin avtomatlaşdırılmasına nail olmaq mümkündür. Çünki dilin tədrisində tapşırıqlar dilöyrənmə prosesini birbaşa gücləndirir və sürətləndirir. Verilən tapşırıqlar ən əsası dilöyrənənlərin dildən praktik istifadəsini təmin edir. Bundan başqa, tapşırıqlar həm də tələbələr arasındakı əməkdaşlığı və tərəfdaşlığın, dialoji ünsiyyətin inkişaf etdirilməsi üçün mühüm şərtdir. Tapşırıqlara əsaslanan dil təliminin tərəfdarı N.Prabhu yazır ki, "tapşırıq əsaslı dil təlimi əsasən təlim və

planlaşdırmanın başlıca vahidi kimi tapşırıqların həllinə əsaslanan dil təlimidir. Tapşırıq əsaslı dil təliminin əsas göstəricisi odur ki, öyrənmə prosesi müxtəlif tip tapşırıqlar etməklə həyata keçirilir və reallaşır" (8, s. 82).

Dil dərslərində təqdim edilən tapşırıqlar tələbələrdə dil və danışıq bacarıqlarının səmərəli formalaşmasına münbit şərait yaradır. Burada əsas məqam tapşırıqların tələbə və şagirdlərdə kommunikativ səriştənin yaranması üçün başlıca şərt olmasından ibarətdir. Tapşırıqlar öyrənməni təmin etdiyi üçün bu fəaliyyət şagirdyönümlü fəaliyyət hesab edilir, yəni dil dərslərində tapşırıq əsaslı təlim və ya tapşırıqların həlli tələbələrə dili sevdirir və dilin öyrənilməsini asanlaşdırır. B.Əhmədov mətnin təliminin əhəmiyyətini şagirdlərin rabitəli nitqinin inkişaf etdirilməsində görür və onun fikrincə, təlim prosesində aşağıdakıları nəzərə almaq vacibdir:

1) şagirdlər mətni təşkil edən ayrı-ayrı cümlələr, abzas və komponentlər arasındakı əlaqələri dərk etməli, onun strukturunu başa düşməlidirlər ki, inşa və ifadə yazmaq bacarıqları təkmilləşsin;

2) mətnin məzmun və forması arasındakı vəhdəti başa salmaqla şagirdlərin nitq vərdişlərini daha səmərəli şəkildə qurmaq mümkün olur (6, s. 105).

B.Əhmədov şagirdlərin rabitəli nitqinin inkişaf etdirilməsində mətni təşkil edən cümlələr arasındakı məna və qrammatik əlaqələrin gözlənilməsi üçün linqvistik biliklərin ardıcıl mənimsədilməsinə böyük əhəmiyyət verərək yazır ki, "nitqdəki rabitəsizliyin kökünü mənimsənilmiş bilikdəki əlaqəsizlikdə axtarmaq lazımdır" (6, s. 106).

Əlavə edək ki, təklif olunan tapşırıqlar elə seçilməlidir ki, tələbələrin gələcək danışıq fəaliyyətində yararlanancaqları qrammatik qaydaların mənimsənməsinə maksimum linqvistik zəmin yaradılmalıdır. Tapşırıq əsaslı dil təlimində gerçək faktlarla əlaqələndirilməsinin başqa bir faydası da tələbələrdə kommunikativ dil bacarıqlarının daha sürətli inkişaf etməsidir. Tələbələrdə şifahi nitq vərdişlərinin inkişafına yönələn tapşırıqlar interaktiv mahiyyət daşıyır və buradakı əsas məqsəd dilöyrənənlərin ingilis dilində ünsiyyətə qoşula bilməsini təmin etməkdir. Beləliklə, şifahi və ya yazılı nitqdə dil materialının istifadəsi zamanı tələbələrdə həm qrammatik və komunikativ səriştələr, həm də özünüdərk, tarixi irsə hörmət, vətənpərvərlik və beynəlminəl kimi keyfiyyətlər tərbiyə olunur.

## ƏDƏBİYYAT

1. Щерба, Л.В. Преподавание иностранных языков в средней школе: общ. вопросы методики /под ред. И.В.Рахманова. - Изд. 2. -М.: Высш. шк., 1974. - 111 с.

2. Рогова, Г. В. Роль учебной ситуации при обучении иностранному языку// Г.В.Рогова, -ИЯШ, 2005. – 217 с.

3. Миролюбов, А.А. Методика обучения иностранным языкам: традиции и современность / А.А.Миролюбов. – Обнинск: Титул, 2010. – 464 с.

4. Şirəliyev, Ə. Xarici dillərin tədrisində fəal təlim metodlarının tətbiqi /Mədəniyyətlərarası dialoq: Linqvistik, pedaqoji və ədəbi aspektlər. Beynəlxalq elmi konfransın materialları. -Bakı: Mütərcim, 2010. - s.132-135.

5. Veysova, Z. Fəal, interaktiv təlim. Müəllimlər üçün dərs vəsaiti. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİCEF) 2007

6. Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. -Bakı: Mütərcim, 2007.

7. Пассов, Е.И. Коммуникативный метод обучения иноязычному говорению. Е.И. Пассов. -Москва, 2015. – 285 с.

8. Probhu N.S. 1992. "The Dynamics of the Language Lesson", TESOL Quarterly, 26, 2, pp. 225-241.

## DİL DƏRSLƏRİNİN TƏDRİSİNDƏ LİNQVODİDAKTIKANIN ƏSASLARI

***Kərimova Vəfa***

### XÜLASƏ

Bu məqalədə dil dərslərinin tədrisi məsələlərindən bəhs edilir. Müəllif ana dili dərsinin tədrisinin nəzəri əsaslarını nəzərdən keçirir. Müəllif ana dilinin mənimsənilməsində qrammatik qaydaların mənimsənilməsinin mühüm rol oynadığını, bunsuz ana dilində düzgün nitqin qurulmasının mümkün olmadığını vurğulayır. Məqalədə müəllif tədqiq olunan mövzunun nəzərdən keçirildiyi əsas mənbələrə diqqət çəkir.

## ЛИНГВОДИДАКТИЧЕСКИЕ ОСНОВЫ ПРЕПОДАВАНИЯ УРОКОВ ЯЗЫКА

***Каримова Вафа***

### АННОТАЦИЯ

В данной статье рассматривается вопросы преподавания языковых уроков. Автором рассматривается теоретические основы преподавания родного урока. Автором подчеркивается, что при усвоение родного языка важную роль играет освоение грамматические правила, без которых невозможно построить правильную речь на родном языке. В статье автор обращает внимание на основные источники, в которых рассматривается изучаемая тема.

## LINGUISTIC DIDACTIC FOUNDATIONS OF TEACHING LANGUAGE LESSONS

***Karimova Vafa***

### SUMMARY

This article discusses the issues of teaching language lessons. The author considers the theoretical foundations of teaching a native lesson. The author emphasizes that the mastery of grammatical rules plays an important role in the assimilation of the native language, without which it is impossible to build correct speech in the native language. In the article, the author draws attention to the main sources in which the topic under study is considered.

# MÜNDƏRİCAT

## PSİXOLOGİYA

***Bakıxanova Xavərxanım.*** Qorxu haqqında başlıica konsepsiyalar..............................................3
***Elnarə Piriyeva, Paşayeva Ayşən.*** Ailədaxili konfiliktlər və aradan qaldırılması yolları.............6
***Ələkbərli Ayişə.*** Yuxarı sinif şagirdlərinin professional peşə seçmə zamani fərdi psixoloji xüsusiyyətləri...........................................................................................................................11
***Əliyeva Vüsalə.*** Uşaq autizminin psixoloji-pedaqoji korreksiyasıi və terapiyası.........................16
***Qədizadə Arzu.*** Depressiya, yaranma səbəbləri və onun növləri................................................22
***Əsədbəyli Nigar.*** Natamam ailələrdən olan yeniyetmələrin gələcək həyat obrazı: gözləntilər və qorxular...........................................................................................................................27
***Cəlilova Aisa.*** Həkimlərdə emosional tükənmişlik sindromunun psixoloji xüsusiyyətləri..........32
***Əhmədova Aişə.*** Internetin müasir təhsil prosesinə təsiri..........................................................39
***Mənsumova İlkanə.*** Soyqırım araşdırmalarında cinayətkar-qurban-izləyici modelinin psixoloji təhlili...........................................................................................................................44
***Керимова Айгун.*** Эффективность арт-терапии в коррекционных программах как диагностического инструмента..........................................................................................52
***Məmmədov Samir.*** Müasir dövrdə ailədə qarşiliqli münasibətlərin psixoloji xüsusiyyətləri.......56
***Babazadə Aytən.*** Müharibə şəraitində yaşayan insanlarda posttravmatik stressin yaranması......60
***Nağıyeva Lalə.*** Depressiyanın qarşisini almaq üçün istifadə olunan vasitələr.............................66
***Quliyeva Sevinc, Kərimli Nəzrin.*** Təlimdən geri qalmada ailənin rolu.....................................72
***Аскерова Ирада.*** Особенности развития детей, оплодотворённых естесственным путём и путём эко, в периоде онтогенеза............................................................................................74
***Dadaşova Sürahi.*** Zorakılığın baş verməsinin psixoloji təhlili..................................................79
***Qəhrəmanova Sevda.*** Psixi inkişafinda ləngimə olan uşaqlar üçün neyropsixoloji korreksiya texnologiyaları..............................................................................................................85
***Qasımov Musa.*** Psixopedaqogikada SİM uşaqların təlim-tərbiyə işinin həyata keçirilməsi istiqamətləri...................................................................................................................89
***Abasova Səbinə.*** Şəxsiyyət və xarakterin formalaşmasında məktəbin və müəllimin rolu...........94
***Həsənli Şəbnəm.*** Cəmiyyətin tranzitivliyinin nəsillərarası münasibətlərə təsiri.........................98
***Мамедова Назрин.*** Понятие «поколение» и «межпоколенные отношения» в современном обществе.......................................................................................................................103
***Rüstəmzadə Rüstəm.*** Erkən gənclərdə özünüqiymətləndirmənin xüsusiyyətləri……………...108

## SOSİOLOGİYA

***Микаилов Заур.*** Деятельность государственных органов по туризму в Азербайджанской Республике……………………………………………………………………….......112
***Bağırzadə Hürnisə.*** Ailədaxili münasibətlər və onun müasir vəziyyəti....................................115

## İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

***Ахундов Аднан.*** Применение систем искусственного интеллекта в банковской сфере....120
***Əlişova Səma.*** Qloballaşmanın mahiyyəti, müsbət və mənfi tərəfləri......................................125
***Hüseynova Lamiyə.*** Turizm bazarında qiymət mexanizminin formalaşması üsulları................130

***Abdullayev Xəyal.*** Hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin bərqərar olunmasında Heydər Əliyevin rolu..........134
***İbrahimova Sona.*** Erməni terrorizminin tarixi..........139
***Qarayeva Xədicə.*** Heydər Əliyevin neft strategiyasının əsas strateji istiqamətləri..........143
***Quliyeva Nərmin.*** Müasir dövrdə təhlükəsizlik təhdidləri..........147
***Xəlil Ziba.*** Ərəb böhrani liberalizm və marksizm nəzəri yanaşmalar kontekstində..........151
***Ягизаров Камиль.*** Анализ состояния и налоговая политика оффшорных зон..........155

## SOSİAL İŞ

***Məhərrəmova Xanım.*** Azərbaycanda sosio həssas uşaqlar və onların problemlərinin həlli yolları..........161
***Kazımova Bənövşə.*** Postmüharibə dövründə şəhid, qazi ailələri üçün sosial dəstək tədbirləri və işğaldan azad edilmiş ərazilərdə məşğulluq siyasəti..........167
***Məmmədova Vəfa.*** Azərbaycanın sərhədyani bölgələrində məşğulluğun təmin edilməsində dağ turizmin rolu (Şəki-Zaqatala turizm bölgəsində)..........171
***Абдинова Фидан.*** Негативное влияние субкультуры на личность подростка..........176
***Ələsgərov Səbuhi.*** Sosiogerontologiyanın tarixi..........184
***Əliyev Mehman.*** Əlillik probleminə tarixi baxış..........190
***Həsənli Zərifəxanım.*** Sosial müdafiə anlayışı: mahiyyəti, məzmunu və tarixi..........194
***Məsimov Nicat.*** Azərbaycanda sosial müdafiə sisteminin formalaşması..........200
***Əzizova Həmidə.*** Uğursuz ailə anlayışı: sosial təhlil..........203

## FƏLSƏFƏ

***Bayramov Rafət.*** Fəlsəfi fikir tarixində insan problemi..........207
***İbrahimova Fidan.*** Marksin fəlsəfəsində özgələşmə problemi..........211
***Hüseynli Yetər.*** Informasiya cəmiyyəti və onun inkişafı..........217
***Mahmudova Sevda.*** Azərbaycanda İslamin yayılma tarixindən..........222
***Yusifzadə Zöhrə.*** Heydər Əliyevin yeni cəmiyyət modelində “demokratiya” anlayışı..........229
***Mikayılova Səbinə.*** Mətbuatçi kimliyi ilə Əhməd bəy Ağaoğlu..........232
***Manafova Zeynəb.*** Azərbaycanda millətçiliyin inkişafının sosial-siyasi faktorları..........236
***Абдуллаева Ройя.*** Исторические предпосылки формирования гуманизма в мусульманской философии..........243

## PEDAQOGİKA

***Həsənova Aytac.*** Milli qəhrəmanlar gənclərdə şərəf və ləyaqət hisslərini formalaşdırmağın mərkəzi kimi..........252
***Abdullaeva Goncha, Mammad Mira.*** Study and methods of the concept of functions in the course of mathematics..........256
***Heydərova Aysel.*** Müasir dövrdə təlimdə kompüter texnologiyalarından istifadənin əhəmiyyəti..........261
***Həsənəliyeva Ləman.*** İnformasiya texnologiyaları şəraitində tələbələrin idrak fəaliyyətinin effektivliyini yüksəltmək yolları..........264
***Məmmədova Aysel.*** Onlayn dərslərdə təlim göstəricilərinə təsir edən amillər..........269
***Джабарова Малейка.*** Особенности изучения проблемы гиперактивности и синдрома дефицита внимания..........273
***Nuriyeva Məlahət.*** Deviant davranişa meyilli yeniyetmələrin psixoloji xüsusiyətləri..........280

## FİLOLOGİYA

***Kərimova Vəfa.*** Dil dərslərinin tədrisinin linqvodidaktik əsasları..........283

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 29
(II HİSSƏ)

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – **Vüsalə Kərəm qızı Musayeva**

Yığılmağa verilmişdir: 25.04.2022

Çapa imzalanmışdır: 25.04.2022
Format: 60 ×84 1/8
Şərti çap vərəqi – 38
Sifariş № 45
Tiraj – 100 nüsxə
----------------------------------------------